AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 6

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e.d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, fil.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2017, № 6

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

DİLÇİLİK

ÇİNGİZ QARAŞARLI
Filologiya üzrə elmlər doktoru, professor
garasharli@yahoo.com

ERKƏN AVROPA TÜRKLƏRİNIN TARİXİ ƏFSANƏLƏRDƏ

Açar sözlər: əfsanələr, etnonim, antroponim, Toqorma, Tiras, Qomer.
Key words: legends, ethnonym, anthroponym, Togorma, Tiras, Gomer.
Ключевые слова: легенды, этноним, антропоним, Тогорма, Тирас, Гомер.

Qədim xalq və tayfalar əfsanələrdə adətən qardaşlar və oğullar kimi təqdim olunur. X əsrə aid xəzər türklərinin genealogiyasını buna misal göstərmək olar. Xəzər xaqanı İosifə aid sənəddə xəzərlərə qohum olan xalqların təsnifi verilir. Onun yazdığına görə, xəzərlər Yafətin oğlu *Toqarmadan* törəmiş, *Toqarmanın* on oğlu olmuşdur: *Aqiyor, Tir-s (Turis), Avar, Uqur, Bizal, Tarna, Xəzər, Znur, Bulqar, Savir* [15, s.74].

Onun «qardaşlar» kimi təqdim etdiyi bu xalqlar elmə məlum olan qədim turk xalqlarıdır.

Xəzər mənbəsindəki bu genealoji əfsanə Bibliyadakı iki surətin – *Tiras* və *Toqormanın* etnik mənşələrinə işıq salır. Digər mənbələrdə də Tiras və Toqorma, eləcə də Qomer açıq-aşkar Avropa türklərini bildirilir. Qədim Skandinaviya mənbəsində *Tirasın* türklərlə bağlılığı şəffaf şəkildə bildirilir:

A Tracia bygti fyst Tiras sonr İafeths Noasonar. Fra honum er komen ðiod su, er Tyrkir heita («Trakiyada ən əvvəl Nuhun oğlu Yafətin oğlu Tiras yaşamışdır. Ondan *türk* adlanan xalq törəmişdir» [16, s.65].

Genealoji əfsanələrdə ulu əcdad adı altında qədim xalq və tayfaların nəzərdə tutulduğunu nəzərə alsaq, Skandinaviya mənbəsində Trakiyada türklərin əcdadı kimi təqdim olunan *Tirasın* da həmin ölkədə daha qədimdə yaşamış xalqın etnik adı olduğu şübhə doğurmur.

Xəzər mənbəsində bir variantda *Tir-s,* başqa bir variantda isə *Turi-s* adlanan etnonim əslində daha geniş əhatəli etnik termin olub, Qərbi Avropa və Kiçik Asiyada (Troyada) məskunlaşmış erkən türkləri bildirir. Buraya qədim yunan dilində *tirsen,* latınca *turski* adlanan etrusklar, *tros (es)* adlanan troyalılar, *trausi/trakes* adlanan traklar [10, s.100-114] da aiddir. Sanskrit dilində qədim türkləri bildirən – *turuska,* qədim erməni mənbəsində türkləri bildirən – *tursi* də eyni etnosun fərqli variantlarıdır.

Əslində yalnız *Tiras* deyil, «Bibliya»da onun qardaşı kimi təqdim olunan *Qomer* də, onun oğlu *Toqorma* da qədim genealoji əfsanələrdə türklərlə bağlanır.

Qomerin və onun oğlu *Toqormanın* qədim türklərin başqa bir qolunu bildirdiyi ortaya çıxır. Həm Qomerin nəsilləri sayılan kimmerlər (kemari, kimar), həm də *Toqorma* ayrı-ayrı genealoji əfsanələrdə məhz türklərin əcdadları sayılır.

Herodotun «kimmer» adlandırdığı xalqın orijinal adı *kəmər/qəmər* olmuşdur. Bibliyadakı *Qomer* osetin və erməni mənbələrindəki *qamar, qamer* ilə daha yaxın səsləşir [12, s.318]. Assuriya çarı II Sarqonun (e.ə. 722-705-ci illər) yazılarında *Qamir* adlı ölkə indiki Gürcüstanın qərbində, Urartunun şimali-qərbində göstərilir [12, s.317].

Gürcüstan, indiki Ermənistan, Azərbaycan və Türkiyə ərazilərində *Qəmər, Kəmər,* Cənubi Azərbaycan ərazisində *Qemar, Komar* və b. toponimlər [6, s.92] həmin ərazilərdə yaşamış kimmerlərə aiddir. Bibliyadakı *Tiras* kimi, onun qardaşı *Qomer* də genealoji əfsanələrdə türklərin, konkret olaraq bulqarların əcdadı sayılır. Misal üçün, İran-Xəzər rəvayətində bulqarlar *Kimmari* mənşəli sayılır (2, s.34). XVII əsr cığatay müəllifi Əbül Qazi Bahadır xanın 1660-cı ildə yazdığı «Şəcərə-i Tərakimə» adlı əsərində *Kemari* bulqarların əcdadı sayılır [2, s.41].

Qədim bir bulqar-tatar rəvayətində isə bulqarların *Kimar* və *Alp* adlı bahadırlardan törədiyi söylənilir [11, s.155].

Bizans tarixçisi Kesariyalı Prokopinin kimmerlərə dair fikri də türk faktorunun xeyrinədir. Onun yazdığına görə, Qara dənizin şimali-qərb sahili boyu yaşayan qot-tetraksidlərlə qonşuluqda, Yevlisey adlanan ölkədə yaşayan hun mənşəli utiqurlar qədimdə kimmerlər adlanırdılar [9, s.150].

Homerin kimmerləri «at südü sağanlar» adlandırması da onların türk mənşəli olduğunu göstərir [6, s.76].

Göründüyü kimi, Bibliyada Yafətin nəslinə aid edilən *Tiras* da, *Qomer* də və aşağıda görəcəyimiz kimi, *Toqorma* da türklərin etnonimiyasına aiddir. Kimmerlərin türklərlə bağlılığını göstərən və indiyədək diqqəti cəlb etməmiş mühüm bir dəlil etrusk dilində aşkar etdiyimiz, çuvaş dilinin fonetik quruşulunu əks etdirən türkizmlərdir. Təsadüfi deyildir ki, etrusk mətnlərini oxuyarkən bir sıra türk samitlərinin məhz çuvaş variantlarının həmin mətnlərin dilinə açar rolunu oynadığını görəcəyik. Çuvaş dilinin bulqar qrupu türk dillərinə aid olduğu məlum faktdır, bulqarlar isə yuxarıda qeyd olunan mənbələrdə kimmerlərin nəsilləri hesab edilir. Bu zaman kimmerlər ilə etruskların əlaqəsi məsələsi ortaya çıxır. E.ə. I minillikdə Şimali Qara dəniz sahillərində məskunlaşmış kimmerlərin Qərbi Avropanın etnik həyatında fəal iştirak etdikləri məlumdur. Bunu İtaliyada, etruskların məskunlaşdığı Kampaniya vilayətində *Cimmerium* (Kimmer) şəhərinin olması da göstərir. Bu

toponim etruskların əcdadları olmuş troyalılarla bərabər kimmerlərin də İtaliyaya köç etdiklərinə dəlalət edir.

E.ə. I minillikdə Kiçik Asiyada baş verən etnik münaqişələrdə kimmerlərin iştirak etdikləri məlumdur. Misal üçün, e.ə. VII əsrin əvvəlində kimmerlərin Friqiyanı məğlubiyyətə uğratması nəticəsində Lidiyanın Friqiya əsarətindən qurtulması, Lidiya kralı Qiqin kimmerlərə qarşı döyüşü (e.ə. 692-644) haqqında danışılır [20, s.10].

«Bibliya»dakı əfsanəvi *Tiras* və *Qomer* qardaşları kimi, Qomerin oğlu *Toqormanın* da türklərlə bağlılığı bir sıra genealoji mənbələrdə açıqca bildirilir. Yuxarıda qeyd olunduğu kimi, xəzər xaqanı İosifin məktubunda xəzərlərin Yafətin oğlu Toqarmadan törədiyi və Toqarmanın on oğlu olduğu bildirilir: *Aqiyor, Tir-s, Avar, Uquz, Bizal, Tarna, Xəzər, Znur, Bulqar, Savir* [15, s.74].

Bu əfsanəvi «qardaşlar» qədim türk tayfalarını – xəzərləri, oğuzları, bulqarları, bizalları və başqalarını təmsil etdikləri kimi, onların əcdadı Toqarmanın da daha qədim bir türk etnosunu bildirməsi tamamilə şəksizdir.

Bibliyadakı *Qomer* və *Tiras* kimi Qomerin oğlu kimi təqdim olunan *Toqorma* da əslində etnonim olub, məhz türk xalqlarının arasında yer alır. Qədim mnbələrdə Toqorma birbaşa olaraq türklərlə əlaqələndirilir.

Qədim erməni mənbəsində tatarların (türklərin) *Toqarmadan* törədikləri, [3, s.16], XII-XIII əsrlərə aid bir Avropa səyyahının əsərində isə Türküstanda *Toqarmim* adlı ərazinin olduğu haqqında məlumat vardır [17, s. 259, 367].

Türkiyə tədqiqatçıları S. Bayram Şərqi Asiyada məskunlaşmış *toqarların Toqarma* ilə bağlılığını [2, s.57], F.Bayat isə qədimdə Dəşti-Kıpçak adlanmış indiki Cənubi Rusiya çöllərində yaşayan türklərin *Tokarmar* və ya *Tokaram* adlandıqlarını [3, s.176] göstərir.

Göründüyü kimi, Bibliyada və digər mənbələrdə adları çəkilən *Tiras, Qomer* və *Toqormanın* türklər ilə bağlılığı onomastik faktlar və genealoji əfsanələrin məlumatları ilə təsdiqlənir. Bu faktlar e.ə.VII əsrdə Kiçik Asiyanın şimalı-şərqində mövcud olmuş *Toqarma* (Toqarma evi) adlı dövlətin [10, s.206], hetlərin ölkəsində mövcud olmuş *Toqarma* adlı qalanın [18, s.25] da türklərlə bağlılığını göstərir.

Qədim etnonimlərin zaman keçdikcə ulu əcdad və hətta tanrı adlarına çevrilməsit Kiçik Asiyada *Toqorma* və *Türkün* timsalında öz əksini tapmışdır. Q.Qapancıyan və M.Abeğyanın yazdıqlarına görə, *Türk* Anadolunun qədim tanrılarından biridir. O öncə *Tarkuma* şəhərinin tanrısı olmuş, sonra bütün Kiçik Asiya xalqlarının mifologiyasında *Tarku, Tarkhu* və *Troka* şəkillərində işlənmişdir. O, qeyd edir ik, ermənilər bu qədim tanrını *Tork* və *Toqarma* şəklində qəbul etmişlər [14, s.58].

Erməni tədqiqatçı sonralar tanrılaşmış *Tork* və *Toqarma* etnonimlərini hetlərə aid etsə də, XIII əsr erməni şairi Frik *Toqarmanı* türklərin (tatarların) əcdadı kimi təqdim etməklə [5, s.16] Kiçik Asiyanın ən qədim xalqının məhz türklər olduğunu ortaya qoymuş olur.

«Türk» etnoniminin qədim bir forması olan *tark* da müxtəlif fonetik variantlarda Aralıq dənizi hövzəsində, Şimalı Qara dəniz sahillərində və Asiyada yayılmışdı. XVIII əsr tarixçisi X.Cuqaetsi Asiya Skifiyasının *Apaxtark* adlandığını və bu xalqın türklər olduğunu yazır [19, s.75].

Qədim çağlarda Krımda məskunlaşmış naməlum mənşəli *satarxların* adındakı *tarx* ünsürü *tark*-ın başqa bir variantıdır. Əslində troyalılarla eyni soykökdən olmuş *trak* xalqının da adı eyni kökdəndir.

İlginc burasıdır ki, Kiçik Asiya və Avropanın etnik xəritəsində qədim türklərin olduğunu qədim Avropa müəllifləri özləri qeyd edirlər. Türklərin Kiçik Asiya qolu olmuş troyalıları həmin müəlliflər türk mənşəli saymışlar.

Troyanın türklərlə bağlılığı hələ VII əsrdə yazılmış Fredegar Xronikasında və XII əsrə aid Gesta Francorum adlı əsərdə göstərilirdi. Fredegar Xronikasına görə, türklər və franklar Troyanın istilasından sonra bölgədən qaçmış, franklar Pannoya (Macarıstan) və Reyn bölgələrində, türklər isə iskit torpaqlarında yerləşmişdilər [1, s.95].

Nicole Gilles adlı müəllif öz əsərində türklərin Troya mənşəli turkoslardan törədiyini, XII əsr tarixçisi Tyreli William da türklərin Troya mənşəli olduğunu, onların ataları olmuş *turkosların* iskit torpaqlarına köçməsini qeyd edir [20, s.96].

XIV əsrə aid tarixçi Andrea Dandalo türklərin Troya kralı Priamın nəslinə aid Turkosdan törədiyini yazmaqla yanaşı, türklərin Qafqaz dağlarından gəldiyini də qeyd edir [1, s.96].

Türklərin troyalı turkoslarla eyni millət olduğunu avropalı müəlliflər — Bracciolini, Poggio, İsidor, Ficcino və başqaları da söyləmişlər [1].

Alman Feliks Fabri isə troyalı türklərin tarixini Priamın dövründən Troyanın daha qədim çağlarına-troyalı şahzadə Hesionenin oğlu Tevkrin zamanınadək qədimləşdirir. Feliksə görə, Troyanın süqutundan sonra Hektorun oğlu Frankonun nəzarətində olan troyalı qaçqınlar əvvəlcə Almaniyaya, Frankoniya ətrafına gəlmiş, bir çoxu Reyn çayını keçmiş və bu gün Fransa adlanan ərazidə yerləşmişdilər. Turkosun başçılıq etdiyi geridə qalmış dəstə isə Asiya İskitiyasına yerləşmişdi [1, s.97].

İspaniyalı müəllif Pero Tafur 1437-ct ildə İstanbula gəldiyi zaman xalq arasında «türklər Troyanın intiqamını alacaqlar» fikrinin dolaşdığını qeyd edir.

Giovanni Mario Filelfo özünün «Amyris» adlı əsərində II Mehmedin həyatını və zəfərlərini təsvir edərkən onun soyunun Troyaya bağlılığını ön plana çəkir və sultanın rumlar üzərindəki qələbəsini ədalətin zəfəri kimi

təqdim edir. Onun qənaətinə görə, türklər Troyanı vaxtilə işğal etmiş yunanlardan İstanbulun fəthi ilə intiqam almış oldular [1, s.99].İstanbulu fəth edən Sultan Mehmed Troyanın tarixini bilirdi. O, 1462-ci ildə Midillinin fəthi zamanı Çanakkaledə Troya xarabalıqlarının olduğu yerə gələrək, qəhrəmanların məzarlarını araşdırmışdı. Troya haqqında bütün yazılanlardan xəbərdar olan Fateh Sultan Mehmed Troya xarabalığındaykən başını aşağı əyərək demişdi: «Allah məni bu şəhərin və xalqının müttəfiqi olaraq bu zamanadək qoruyub saxladı. Biz bu şəhərin düşmənlərinə qalib gəldik və onların vətənlərini aldıq. Yunanlıların biz asiyalılara qarşı etdikləri pis davranışların intiqamını aradan uzun zaman keçməsinə baxmayaraq onların nəsillərindən aldıq» [1, s.103].Sultan Mehmedin dediyindən göründüyü kimi, İstanbulun fəthini o, işğal deyil, qisas hesab etmiş, vaxtilə yunanların işğal etdikləri bu torpağı gec də olsa qurtardığını söyləmişdir.

«İliada»dan və digər qaynaqlardan yaxşı məlum olduğu kimi, troyalılar e.ə. III minillikdə Kiçik Asiyada məskunlaşmış trakların nəsilləri idi.Troyalıların ulu əcdadı sayılan *Dardan* əslində trak tayfalarından birinin adı olmuşdur. Troyalılar məhz həmin türk tayfasının nəsilləri idilər.

Dardan eyni soykökdən olan trak və troyalılar üçün ümumi bir addır. Trakiyada etnonim kimi işlənmiş *Dardan* troyalılarla bağlı şəxs (ulu əcdad), ölkə və xalq adı kimi məlumdur.Antik müəllif Apollodor Troyanın yaranmasını əfsanəvi *Dardan* ilə bağlayaraq yazır ki, Atlantın qızı Elektra ilə Zevsdən Yasion və *Dardan* doğulmuşlar. *Dardan* Tevkrin çarlıq etdiyi ölkəyə gəlir, onun qızı Batiya ilə evlənir və burada Dardan adlı şəhər salır. Tevkrin ölümündən sonra ölkə *Dardaniya* adlanır. Onun İl və Erixtoni adlı oğulları dünyaya gəlir. Erixtonidən doğulan Troy hakimiyyəti ələ keçirdikdən sonra bütün ölkə Troya adlanır [8, s.57]. Bu rəvayət troyalıların e.ə. 3000-2500-cü illərdə Kiçik Asiyaya gəlmiş trakların nəsilləri olduğu haqqında K.Blegenin fikri ilə üst-üstə düşür [4, s.57].*Dardanlar* konkret bir xalq olaraq troyalılara genetik cəhətdən qohum olan Troya müdafiəçilərindən idilər. Yunan-Troya savaşında Axilles ilə döyüşən Eney özünün və Priam nəslinin ümumi əcdadlarının *Dardan* olduğunu söyləyir.*Dardanlar* Troyanın Dardaniya adlı vilayətinin sakinləri idilər.Qazaxıstanın qədim onomastikasında *Dardaŋ* dağ adı, qırğızların antroponimiyasında isə *Dardaŋ* şəxs adı mövcuddur. Qırğızlara məxsus *Dardan* şəxs adı həmin dildəki «həddsiz dərəcədə iri bədənli və sağlam adam» mənalı *dardaŋ* sözündəndir.Bir daha qeyd edilməlidir ki, qırğız və qazax dilindəki *dardaŋ* («özünü böyük sanan», «lovğa») şəxs adlarında da geniş işlənən bir söz kimi, qədim dünya xalqları üçün səciyyəvi olmuşdur. Troyalılara məxsus digər şəxs adlarının etimoloji təhlili bunu aydın göstərir.Müasir bolqarlara məxsus *Dardan* şəxs adı da eyni mənşəlidir. Dilçilik ədəbiyyatında “qüvvətli kişi” kimi yozulan bu ad bolqarların etnogenezində aparıcı yer tutmuş bulqar türklərinin dilindən

qaynaqlanır.*Priam* troyalıları qədim türklərlə bağlayan ilginc şəxs adlarından biridir. *Priam* Troyanın sonuncu çarı olmuş və Troya onun çarlığı dövründə süquta uğramışdır. Qədim skandinav mənbələrində də gəlmə troyalılar «Priamın xalqı» adlandırılır. *Priam* şəxs adına qədim türk (qazax) eposunda («Priyamın hekayəti») rast gəlirik. Burada *Priyam* Turan ölkəsinin qəhrəmanı, Əfrasiyab bahadırı kimi təsvir olunur.Troya onomastikasında türk şəxs adlarının sistemli şəkildə işlənməsi bu uyğunluqların təsadüfi olmasını istisna edir.Troya – türk onomastik paralelləri arasında çox sayda şəxs, tayfa, yer və mifoloji surətlərin adlarını aşkar edirik. Həmin adların türk variantları qədim türk dilində, eləcə də qədim onomastik təbəqəni qoruyub saxlayan qazax, qırğız, tatar, başqırd, çuvaş və Sibir türklərinin dillərində aşkar olunur.

Ədəbiyyat

1. Afyoncu E. Truva‘nın intikamı. İstanbul, 2011.
2. Bayram S. Kaynaklara göre Güney-Doğu Anadolu’da Proto-Türk izleri: Türk Dünyası Araştırmaları Vakfı, 1988.
3. Bayat F. Türk boy adlarının etimolojisi. Ankara, 2005.
4. Blegen C.W. Troy and Trojans. New York, 1963.
5. Erməni şeri antologiyası. Bakı, 1954.
6. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı, 1992.
7. Togan A. Zeki Veledi. Umumi Türk tarihine giriş. İstanbul, 1981.
8. Аполлодор. Мифологическая библиотека. Л., 1972.
9. Артомонов М.И. История хазар. Л., 1962.
10. Вейнберг И.П. Человек в культуре древнего Ближнего Востока. М., 1986.
11. Гарипова Ф.Г. Исследование по гидронимии Татарстана. М., 1991.
12. Гейбуллаев Г.А., К этногенезу азербайджанцев. т.1., Баку, 1991.
13. Динков Б. Етруската загадка. София, 1984.
14. Капанцян Т. Хаяса-колыбель армян. Эриван.
15. Коковцев П.К. Еврейско – Хазарская переписка в х веке. М., 1932.
16. Мельникова Е.А. Древнескандинавские географические сочинения. М., 1986.
17. Райт Д.К. Географисечкие представления в эпоху крестовых походов. М., 1988.
18. Римшнейдер М. От олимпии до Ниневия во времена Гомера. М., 1977.
19. Тер-Мкртчян Л.Х. Армянские источники о Средней Азии. VIII-XVIII вв., М., 1985.
20. Шеворошкин. Лидийский язык. М., 1967.

Çingiz Garasharli

History of early European Turks in legends

Summary

The article deals with the legendary personages in Bible and other sources symbolizing early Turks of Europe, North Caucasus and neighboring territories. The research has revealed that the same legendary ancestors described in completely different sources as historically real Turkic tribal names prove the existence of Turkic peoples in the ethnical map of Old Europe from immemorial times.

These facts were either not quessed or were simply ignored by European researchers. Multitude of linguistic facts serves as proof for presence of early Turkic people in the territory of modern Europe, Asia Minor and Caucasus.

Чингиз Гарашарлы

История ранных европейских тюрков в легендах

Резюме

Статья была посвящена изучению легендарных лиц Библии и других источников, символизирующих ранных тюрков Европы, Севернего Кавказа и примыкающих к ним территорий. Как исследование выявляет, одни и те же легендарные проотцы представленные в различных источниках как исторически истинные тюркские племенные названия доказывает существованию тюркоязычных племён на этнической карте древней Европы еще с древних времен.

Эти факты или были недоразумены учеными, или же они просто их игноривовали. Множество лингвистическиъ факторов служат доказательствами для существования ранных турок на территории Европы, Малой Азии и Кавказа.

Rəyçi: **Azad Məmmədov**
filologiya elmləri doktoru, professor

GÜLBƏNİZ İSMAYILZADƏ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ulduzalizade@mail.com

SİNONİMLİYİN ÜMUMNƏZƏRİ PROBLEMLƏRİ

Açar sözlər: leksik sinonimlər, eyniköklü sinonimlər, qrammatik sinonimlər, ad və feillərin sinonimliyi, sinonimlərin təsnifi.
Ключевые слова: лексические синонимы, однекорневые синонимы, грамматические синонимы, синонимичность имен и глаголов, классификация синонимов
Key words: lexical synonyms, same rooted synonym, grammatical synonyms, synonyms of name and verbs, classification of synonyms.

Semasioloji tədqiqatların zəngin ənənəsinə əsaslanan Azərbaycan dilçiliyində sinonimliyin bir sıra mübahisəli məsələləri, o cümlədən dil və nitq sinonimlərinin sinxron statusu, sinonimlərin başqa semasioloji hadisələrə - çoxmənalılığa, antonimliyə, hiponimliyə münasibəti, həmhüdud dil hadisələrindən fərqi, sinonim cərgələrin sərhədi və s. problemlər geniş işıqlandırılmış, bəziləri öz konkret həllini tapmış, bəziləri hələ də mübahisəli olaraq qalmaqdadır. Ümumiyyətlə, sinonimiya hadisəsinin çoxcəhətliyi, fundamentallığı, hər bir konkret dilin daxili qanunauyğunluqları və semantik imkanları ilə əlaqədar olaraq sinonimliyin nəzəri məsələlərinin həllində müxtəlif fikirlər, yollar mövcuddur. Fikir ayrılıqları sinonimliyin tədqiqində tətbiq edilən metodlarda, leksik-semantik münasibətlərdə, eynilik və yaxınlıq anlayışının aydınlaşdırılmasında, həmhüdud dil hadisələrinin sinonimlərdən fərqləndirilməsində, sinonimlərin təsnifat prinsiplərinin əsaslandırılmasında və s. məsələlərin izahında ortaya çıxır. Şübhəsiz, bütün bu məsələlərə münasibət bildirmədən konkret tədqiqat obyektinin müəyyənləşdirilməsindən danışmaq olmaz.

Sinonimlərin təsnifatı və nitq hissələri ilə ifadəsi. Linqvistik ədəbiyyatda leksik sinonimlərin təsnifatı ilə bağlı vahid fikir yoxdur. Halbuki leksik sinonimliklə əlaqədar məsələlərin sistemləşdirilməsində təsnifatın həm praktik, həm də nəzəri əhəmiyyəti vardır. Bəzi tədqiqatçılar sinonimliyin məhz semasiologiyanın obyekti olduğunu əsas götürərək təsnifatda mənaya istinad edirlər. Bəziləri isə həmçinin üslubi kateqoriya olmasını nəzərə alaraq üslubi funksiyalara üstünlük verirlər. Sinonimlərin ideoqrafik-üslubi (1, 69; 2, 23-24; 3, 127-143), semantik-üslubi (4, 34) və ekspressiv-üslubi (5, 23), tam və natamam (6, 194; 7, 53-54), mütləq və nisbi (8, 162-163; 9, 138-154; 9, 122-123; 10, 24-25) növlərə ayrılması mövcud fikir müxtəlifliklərindən irəli gəlir.

Sinonimlik həm leksikologiya, həm semasiologiya, həm də üslubiyyatla sıx əlaqəlidir. Təsnifatda onları bir-birindən ayırmaq olmaz. Nəzərdən qaçırmayaq ki, üslubi funksiyaları özündə daşıyan, nitqdə reallaşan sinonimlər, hər şeydən əvvəl, semasioloji-onomasioloji vahidlərdir. Antonimlikdən fərqli olaraq, sinonimlik həm əlamət, həm də real, maddi məna bildirən sözlərə aiddir. Bir qədər də dəqiqləşdirsək, leksem bir neçə leksik-semantik variantdan ibarətdir; ona görə də sinonimlər leksem yox, leksa səviyyəsində müəyyənləşir. Təsadüfi deyil ki, sinonimliyin ən mühüm məsələlərindən biri məhz eyniköklülük, fono-morfoloji variantlardır. Azərbaycan dilçiliyində bu mövzuda B.T.Abdullayev geniş məqalə, M.Quliyeva dissertasiya işi yazmışdır. Müxtəlif sözlər hesab edilən eyniköklü sinonimlərlə və sözün müxtəlif variantları problemi V.V.Vinoqradov, A.İ.Smirnitski, V.F.Filin, O.S.Axmanova, V.A.Qreçko, N.A.Lukyanovanın əsərlərində geniş bəhs olunur (11; 12; 13; 14; 15). Bu müəlliflərin ümumi gəldiyi nəticəyə görə: 1)sözün kökündəki leksik-semantik ümumilik onun bütün variantlarında öz maddi ifadəsini tapır; 2) maddi fərqlərlə leksik-semantik fərqlər arasında uyğunluq, mütənasiblik olmamalıdır, yəni səs fərqləri məna fərqlərini ifadə etməməlidir (16,119). Sözlərin bütün fono-morfoloji variantlarının leksik-semantik məzmunu, qrammatik əlamətləri və birləşmə imkanları oxşarlıq prinsipinə əsaslanmalıdır. N.A.Lukyanova görə bu də eyniköklü sinonim üçün şərt deyil; belə sinonim sözlərdə əsas məsələ ondan ibarətdir ki, konkret sözün tərkibində müvazi işlənən sözdüzəldici şəkilçilərin semantik və distributiv funksiyaları neytrallaşır (15,122). Azərbaycan dilçiliyində belə fikir formalaşıb ki, şəkilçilərin sinonimliyi morfoloji, yəni qrammatik sinonimliyə aid məsələdir. Məsələn, sözdüzəldici şəkilçilərin sinonimliyi ayrı-ayrı sözlərlə yox, məhz ayrı-ayrı nitq hissələri və müəyyən kateqorial (qrammatik) məzmuna malik söz qrupları ilə əlaqədar öyrənilməlidir.

Qeyd edək ki, rus dilçiliyində başqa nitq hissələri ilə müqayisədə feillərin sinonimliyi ətraflı, müfəssəl tədqiq olunmuşdur (18; 19; 20 və s.). Bununla belə həmin tədqiqatlarda xüsusi olaraq ad və feillərin sinonimlərinin təsnifatı məsələsinə toxunulmamışdır. Halbuki ad və feillərin sinonimliyi spesifik xüsusiyyətlərinə - leksik-semantik və kateqorial-qrammatik xarakterinə görə fərqlənirlər.

Sinonim münasibətlərdə hər bir nitq hissəsinin spesifik xüsusiyyətləri, atributları vardır. Məhz belə xüsusiyyətləri, atributları nitq hissələrinin sinonimliyini bir-birindən fərqləndirir. Feli sinonimlərin, tutaq ki, ismi sinonimlərdən fərqi sinonimlikdə mütləq şəkildə özünü göstərən leksik-semantik və qrammatik xüsusiyyətləri ilə bağlıdır. Məsələn, isimlərin sinonimliyindən danışarkən onların tək və cəm olması, semantikasında topluluq ifadə edib-etməməsi, mənsubiyyət-yiyəlik anlayışı bildirməsi, substantivləşməsi, iş, hərəkətin icra olunduğu məkanı bildirməsi nəzərə alınmalıdır. İsimlər sinonimlikdə yalnız maddi varlıqları deyil, abstrakt

məfhumları da ifadə edə bilir. İsimlərin əsas morfoloji xüsusiyyəti hallanmasıdır. Sözdəyişdirici hal şəkilçiləri sözlərin sinonimliyini pozmur (ətraflı bax: 21). Əlbəttə, deyilənlər müxtəlif halda olan, lakin eyni cümlə üzvü vəzifəsini yerinə yetirən sözlərə aiddir. Bunu isimlərin sinonimliyində əsas qrammatik əlamət hesab etmək olmaz, çünki isimlərin müəyyən hallarda mənsubiyyət şəkilçisi ilə işlənməsi sinonimlərin yaranmasına xidmət etmir. Başqa semasioloji kateqoriyalarda, eləcə də nitq hissələrində olduğu kimi, sinonimlikdə isimlər substantivləşən (həmçinin, feillər predikativləşən, sifətlər atributivləşən) sözlərlə məna yaxınlığına görə cərgə yarada bilirlər. Məsələn, *sevinc-şadlıq, döyüş-vuruş* və s.

İsmi sinonimlərin yaranmasında sözdüzəldici şəkilçilər fəal iştirak edir. Sözdüzəldici şəkilçilərlə yaranan ismi sinonimlikdə iki cəhəti nəzər almaq lazımdır:

1. Sözdüzəldici şəkilçilər artırılan sözlər kök etibarilə sinonimdir. Məsələn: *qabalıq-kobudluq, qıtlıq-qəhətlik-kasadlıq* və s.

2. Kök etibarilə deyil, sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn sinonimlər. Məsələn: *dayaq-himayəçi, dost-yoldaş-sirdaş, gilə-damla* və s.

Felin leksik sinonimliyində də felə məxsus bəzi atributların, əsasən, təsirlik və təsirsizlik, təsdiq və inkar, növ bildirməsinin, funksional formalara malik olmasının, çoxmənalılığa, abstraktlığa daha çox meyilliyinin, lüğəvi mənalarının rəngarəngliyinin və s. mühüm rolu vardır. Məsələn:

A. Təsdiq və inkarlığa görə: *möhkəmlətmək-bərkitmək, mülayimləşmək-yumşalmaq, oxşamaq-bənzəmək, ödəməmək-qaytarmamaq, öyrəşməmək-alışmamaq, parıldamamaq-işıldamama*q və s.

B. Növə görə: a) məlum növ: *azmaq-itmək, artmaq-çoxalmaq*; b) məchul növ: *bəslənilmək – yetişdirilmək, üzləşdirilmək-görüşdürülmək*; v) qayıdış növ: *bükülmək-əyilmək*; q) şəxssiz növ: *verilmək-bağışlanılmaq, inanılmaq-etibar edilmək*; ğ) qarşılıq-birgəlik növ: *qabaqlaşmaq-qarşılaşmaq, sözləşmək-razılaş-maq*; d) icbar növ: *bükdürmək-başlatdırmaq*, *toplatmaq-yığışdırmaq* və s. Feli sinonimlərin yaranmasında başqa kateqoriyaların da mühüm rolu vardır.

Qeyd edək ki, adların və köməkçi nitq hissələrinin sinonimliyindən fərqli olaraq, feli sinonimlikdə qrammatik kateqoriyalar aparıcıdır.

Sayın, sifətin, zərfin sinonimlikdə öz atributları vardır.

Eyni nitq hissəsi daxilində mövcud olması sinonimliyi başqa semasioloji kateqoriyalardan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Eyni nitq hissəsinə aid yaxın mənalı linqvistik vahidlərin sinonimliyində həmin nitq hissəsinə məxsus qrammatik və semantik əlamətlər mühüm rol oynayır. Məsələn: *ağıllı-fərasətli, ağır-çətin, arıq-cılız-zəif-cansız* sinonimlərin təkcə sifət nitq hissəsinə aid olması kifayət deyildir, belə ki, ağıllı sözü ilə ağır və arıq sözləri arasında sinonimlik əlaqəsi yoxdur. Eyni nitq hissəsinə aid sinonim cərgələr linqvistik vahidlərin uyğun semantikası əsasında yaranır.

Bütün nitq hissələrinə məxsus sinonimlər bu semantik qanunauyğunluğa tabedirlər. Bu və ya digər nitq hissəsinin sinonimliyində eyni məna ətrafında toplanan dil vahidlərinin quruluş fərqi nəzərə alınmır. Sadə, düzəltmə və ya mürəkkəb sözlər sinonim cərgə yarada bilər. Məsələn: *aqil-tədbirli-ağıllı, baş-aparıcı-əsas, bəhrələnmək-faydalanmaq-istifadə etmək, izləmək-təqib etmək* və s.

Bütün nitq hissələrinin sinonim münasibətlərində leksik mənanın əsas götürülməsi, mənaların ekvivalentliyinə yox, oxşarlığına, yaxınlığına əsaslanması və üslubi keyfiyyətlərin nəzərə alınması onların ümumi əlamətləridir. Deməli, nitq hissələrinin atributları sinonimliyin mahiyyətini dəyişmir. Leksik sinonimliyin təsnifatında nitq hissələrinin bu semasioloji münasibətdəki ümumi əlamətləri əsas götürülsə, V.V.Vinoqradovun təsnifatda irəli sürdüyü bölgünü daha düzgün hesab etmək olar: ideoqrafik (semantik) feli sinonimlər və üslubi sinonimlər. Leksik sinonimliyə aid təsnifat, deməli, feillərə də aiddir: ideoqrafik (semantik) feli sinonimlər və üslubi feli sinonimlər. Bu bölgü feillərin sinonimlikdə leksik-semantik, kontekstual xüsusiyyətlərinin aydınlaşdırılmasına real imkanlar verir. V.V.Vinoqradovun fikrincə, mənaca yaxın sözlər semantik və üslubi xüsusiyyətlərinə görə diferensiallaşır: "Hər şeydən əvvəl, eyni bir mənanın müxtəlif çalarlarının fərqləndirilməsi ilə bağlı olan ideoqrafik sinonimliyi (*eybəcər-çirkin, eybsiz-nöqsansız-qüsursuz, sadəlövh-sadəqəlbli-sadədil* və s.) öz növbəsində funksional-nitq (*təşəbbüsçü - ilk başlayan, son-nəhayət* müxtəlif məna çalarlarından) və ekspressiv-məna sinonimliyini də (*xülasə-icmal, görüş sahəsi-görüş dairəsi* məcazi mənasında) özündə birləşdirən üslubi sinonimlikdən ayırmaq lazımdır (22, 69).

Sinonimlikdə bütün məsələləri hərtərəfli əhatə etmək çox çətindir. Belə ki, burada ntq hissələrinin spesifikliyi mütləq nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1.Виноградов В.В. Итоги обсуждения вопросов стилистики// ВЯ, 1955, №1, с.60-87.
2.Подольская Т.В. О специфике синонимии различных частей речи // Уч. Записки Московск. Обл. пед: ин-та. Труды каф. Ин. Языков.вып. 7, т.106, М., 1961, с.203-215.
3.Звегинцев В.А. Замечание о лексической синонимике // Вопросы теории языка . Изд-во Ленингр. Ун-та., 1963.
4.Палевская М.Ф. Синонимы в русском языке. М., 1964.
5.Шумашев . Глагольные синонимы казахского языка. Ама-Ата,1973.
6.Береговская Э.М. Об пределении и классификации синонимов. Вып.19. Киев, 1962, с.170-184.

7. Бережан С.Г. К семасиологической интерпретфции явления синонимы // Лексическая синонимия. М.,1967.
8.Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı, 1971.
9.Иванникова Е.А. К вопросу в взаимоотношения понятия варианта с понятием синонима // Синонимы русского языка. Л., 1972, с. 138-154.
10. Шанский Н.М., Иванов В.В. Современный русский язык. М., 1981.
11.В.В.Виноградов. О формах слова. ИАНОЛЯ, 1944, т.3, иып. 1;
12.А.И.Смирницкий. К вопросе о слове. Труды Инс. Языkозн. АН ССР. Т. 4, 1954.
13. О.С.Ахманова. Очерки по общей и русской лексикологии. М.1957.
14.В.А.Гречко. Однокоренные синонимы и варианты слова. М.-Л., 1966.
15.Н.А.Лукянова.Однокоренные синонимы и варианты слова// Синонимия в языке и речи. Новосибирск, 1970.
16.А.И.Смирницкий. К вопросе о слове.Труды Инс. Языкозн. АН ССР. Т. 4, 1954.
17.Дряхлущин А.М. Глагольная синонимика в сказках С.-Шедрина. Саратов, 1961.
18.Андрусенко В.И.Глагольная синонимика в творчестве Гоголя. Ульяновск, 1962.
19.Разумникова Г.А. Синонимические отношения непереходных глаголов с производными глаголов с производными от них глаголами на –ся. М.-Л., 1966.
20. Müasir Azərbaycan dili // 3 cilddə, I cild. Bakı, 1978.
21. Итоги обсуждения вопросов стилистики // ВЯ, 1955, №1.

ГюльбенизИсмайылзаде

Общетеоретические проблемы синонимичности

Резюме

В азербайджанском языкознании, основанном на богатые традиции исследований по семансиологии освещены некоторые спорные вопросы синонимичности, в том числе, синхронный статус языковых и речевых синонимов, отношение синонимов к другим событиям семансиологии – к многозначности, антонимизмам, гипонимии, различие от однограничных языковых явлений, граница синонимичного ряда, некоторые из которых нашли своего конкретного решения, а некоторые все еще продолжают оставаться спорными. Всецелом, существуют различные мнения и пути в решении теоретических вопросов синонимичности

в связи со многогранностью, фундаментализмом явления синономии, внутренними закономерностями и семантическими возможностями каждого конкретного языка. Разногласия возникают в методах, применяемых в исследовании синонимичности, в лексико – семантических отношениях, в освещении понятия идентичности и близости, в отличии одноограничных языковых явлений от синонимов, в мотивации классификационных принципов синонимов, а также в изложении других вопросов.

Gulbeniz Ismailzade

General theoretical problems of synonyms

Summary

Several disputable matters of synonym in Azerbaijani linguistics based on rich tradition of semasiological researches, as well as synchronic status of language and speech synonyms, relation to semasiological events – polysematism, antonym, hyponym, difference of adjacent language events, boundary of synonym rows and other problems were enlightened, some of them were found their concrete solution and other one remain problematic and disputable. In general, there are various thoughts, methods in settlement of theoretical matters of synonym in connection with internal regularities of each concrete language and semantic opportunities, multi aspects and fundamentality of synonymic cases. Misunderstandings are occurred in methods applied in research of synonyms, lexical – semantic relations, clarification of identification and intimacy concept, differencing of adjacent language cases from synonyms, grounding of classification principles of synonyms and explanation of other issues.

Rəyçi: Nadir Məmmədli
filologiya üzrə elmlər doktoru, professor

AYTƏN BAYRAMOVA
ADU
filologiya üzrə fəlsəfə doktoru, dosent

CİNS KATEQORİYASININ LİNQVOKULTUROLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: dil, mədəniyyət, linqvokulturologiya, antroposentrizm, cins kateqoriyası
Ключевые слова: язык, культура, лингвокультуралогия, антропосентризм, категория рода
Key words: language, culture, liguo-culturology, anthropocentrism, category of gender

İctimai hadisə olan dil cəmiyyətin digər komponentlərindən kəskin şəkildə fərqlənir. Dil təkcə mənəvi mədəniyyət sahəsinə xidmət göstərmir, həm də əmək və istehsal proseslərinə xidmət edir. Bundan əlavə, dil bilavasitə ictimai əlaqələrlə bağlı olub, onlara xidmət edir. Dil ünsiyyət, mübarizə alətidir və deməli, ictimai sahənin tərkib ünsürlərindəndir. Bütün bunlarla yanaşı, dil mənəvi mədəniyyət hadisəsidir.

Dil və mədəniyyətin qarşılıqlı şəkildə reallaşması kommunikasiya prosesində gerçəkləşir. Qeyd etmək lazımdır ki, "dil", "mədəniyyət" və "kommunikasiya" anlayışlarının hər birinin müxtəlif tərifləri vardır. Dilə müxtəlif dövrlərdə verilmiş elmi tərifdə dilin ünsiyyət və fikri ifadə etmək vasitəsi olması qeyd olunur və bu tərifdə mərkəzi yeri tutur. Kommunikativ davranışın bütün növləri arasında dilin kommunikasiyaya xidmət etməsi birmənalı etiraf edilmişdir. "Dil bizə məlum olan hər bir cəmiyyətdə kommunikativ prosesdir" [1, s.211; 2, s.103].

Dili yaradan və dilin yaratdığı insan A.Vejbitskayanın işləyib-hazırladığı dil nəzəriyyəsinin mərkəzində yerləşdirilir. Onun leksik və qrammatik semantikaya antrposentrik yanaşması dil daşıyıcısının xarici aləmin bu və ya başqa obyekti, yaxud situasiyası haqqında təsəvvür yaradan ən dərin xarakteristikaları aşkar etməyə imkan verir. A.Vejbitskaya xitabdan ötrü istifadə edilən şəxs adları sistemində aşkar edilən fərqlər əsasında mədəniyyətlər arasında özünü göstərən fərqlər barəsində mühakimə yürüdür. İngilis dili ilə təqdim edilən mədəniyyətdə şəxsi münasibətlərdə emosiyaların ifadəsi təqdir olunmur, rus və polyak dilləri ilə təmsil olunan mədəniyyətlərdə isə, əksinə, güclü emosiyaların açıq-aşkar təzahürü təqdir edilir. Rus dili kimi zəngin ekspressiv sözdüzəltməyə malik olan dillərdə adların hər cür üçşər (analoji olan adların tam, kiçiltmə və əzizləmə-kiçiltmə adlarına) bölünməsi sadəcə olaraq "alternativ" müraciət formalarının və

referensiyanın çox böyük müxtəlifliyi üzündən ağlasığmazdır, bunu ingilis dili kimi "mülayim" dillərin daşıyıcılarının təsəvvür etməsi sadəcə olaraq çətindir" [3, s.107].

Cins kateqoriyasının yaranması ilə bağlı çoxsaylı fərziyyələrin mövcudluğu ilə yanaşı, nəzəri dövriyyəyə yeni-yeni müddəaların daxil edilməsi, həmçinin problemin morfologiyadan tarixi sintaksisə köçürülməsi ilə bağlı araşdırmalar davam edir. Qrammatik cins kateqoriyası barədə əsas iki fərqli fikir vardır. Bunlardan birincisinə görə, qrammatik cins ekstralinqvistik motivləşməyə malikdir. İkinci fikrə görə, qrammatik cinsin meydana çıxmasında ekstralinqvistik amillərin heç bir rolu yoxdur. Göründüyü kimi, məsələyə münasibətdə ziddiyyətlə cəhətlər vardır.

Cins kateqoriyasının aktuallaşması dildə cinsin şəxsləndirilmiş transpozisiyası ilə baş verir. Müəllif cansız əşyanı kişi və ya qadın cinsinə aid edir. Belə transpozisiya məcazlaşdırma və ya metaforlaşdırma üsullarından biridir. Bununla müəllif bədii obrazı canlandırır, mürəkkəbləşdirir.

İngilis dilində qrammatik cins kateqoriallaşmamışdır. Ona görə də ayrı-ayrı müəlliflərin və ya bir müəllifin eyni predmeti, obyekti gah kişi, gah da qadın cinsinə aid etməsi halları müşahidə olunur. V.Şekspir sonetlərində "love" sözünü "he" əvəzliyinə aid edirsə, D.Tomasda "love" qadın obrazıdır. İngilis dilində bədii əsərlərdə bu və ya digər sözün müəyyən cinsə aid edilməsinin kəmiyyət göstəricilərini aydınlaşdırmaqla bağlı tədqiqat aparmış O.Q. Revzina göstərir ki, əsərdə predmetə aid edilən cins orta hesabla 60%-i erkən ingilis dilində ismə məxsus olmuş qrammatik cinslə üst-üstə düşmür. Bu baxımdan ingilis dilində isimlərdə cinsin qismən saxlanması fikri mübahisə doğurur [4, s.16].

Cins kateqoriyasının olmadığı və ya əhəmiyyətli dərəcədə tətbiqini tapmadığı dillərdə ismə cinsin verilməsi metaforlaşdırma nəticəsi kimi təzahür edir və əlavə mənayaradıcı vasitəyə çevrilir. Təbii ki, hər bir metaforlaşma tərcümə prosesində obyekt dildə də adekvat ifadəsini tapmalıdır. Çünki metaforlaşmada şəxssiz isim canlandırılaraq aktiv obyekt kimi verilməyən digər isimlərə qarşı qoyulur. İnsana xas olan məhəbbət, nifrət, sevgi, iradə, şüur və s. keyfiyyətlər predmetə aid edilir.

Qrammatik cins kateqoriyasının üçüzvlü olması daha çox yayılmışdır. Bu cəhətin üzə çıxmasının əsas səbəblərindən birincisi, zənnimizcə, bu kateqoriyanın formalaşmasında ekstralinqvistik amillərin xüsusi rol oynamasıdır. Ekstralinqvistik amillər isə hər bir dilin mənsub olduğu mədəniyyətin dilə təsirindən qaynaqlanmışdır. İsimlər cinsə görə dəyişmir. Cins onların təsnifedici əlamətlərindən biridir. Rus və alman dillərində cins ismin hallanma tipinin təyin olunmasında tətbiqini tapır. Alman dilində isə cins həm də cəm formasının seçilməsində nəzərə alınır. Beləliklə, aydın olur ki, cins qrammatik kateqoriyası rus dilində qrammatik hal kateqoriyası ilə sıx

əlaqədardır. Alman dilində isə qrammatik cins kateqoriyası həm hal qrammatik kateqoriyası, həm də kəmiyyət kateqoriyası ilə əlaqəyə malikdir. Qeyd olunanlar iki dildə cins qrammatik kateqoriyasının əsas qrammatik funksiyalarını göstərir. Cins bu dillərdən heç birində motivləşməmişdir. Lakin belə hesab olunur ki, motivləşmə nəticəsində kişi və qadın cinslərinə aid sözlərin cansız predmeti bildirənlər ayrılmışdır. Bölünmə özünü bəzi slavyan dillərində göstərir. Məsələn çex dilində iri heyvanları bildirən isimlər canlı, kiçik quşları adlandıran isimlər isə cansız hesab olunur. İngilis və alman dilində heyvan adları bildirən isimlər "nə?" sualına cavab verir [5, s.132-135].

Müasir dillərdə cins forması formal-qammatik səciyyə daşıyır. İnsanları bildirən isimlərdə bu istisnadır. Heyvan adlarında təbii cins barədə diferensasiya zəruri olduqda danışılır. Məsələn, der Hahn, die Henne. Rus dilində bu halda müxtəlif köklu sözlərldən istifadə edilir. Məsələn, петух – курица, конь – лошадь. Hər iki dildə heyvanın növünü ifadə edən, lakin onun cinsini bildirməyən sözlər vardır. Alman dilində bu cür sözlər orta cinsə aiddir. Məsələn, das Schaa, das Pferd, das Kamel. Rus dilində orta cinsdə olan heyvan adları yoxdur. Bu dildə bəzi terminlər istisna təşkil edir. Məsələn, млекопитающие, насекомое. Bu hallarda cinsin qrammatikləşməsi baş verir. Alman dilində bu proses daha fəal gedir. Bu dildə hətta şəxs adları orta cinsdə ola bilir. Məsələn: das Madchen, das weib. Kişi cinsininə aid şəxslərin qadın cinsindən olan isimlərlə adlandırılması mümkündür: die Wache, die Ordonanz.

M.Məhərrəmova alman dilində sözdüzəltmə iştirak edən yarımsuffikslərin cins ifadə etmək xüsusiyyətləri olduğunu qeyd edir. O göstərir ki, alman dilində isimdüzəltmədə iştirak edən xeyli sayda yarımsuffikslər vardır və onlar kişi, qadın və orta cinsə aid sözlər əmələ gətirir. Müəllif müasir alman dilində kişi cinsinə aid isim düzəldən -affe, -bruder, -bulle, -bursche, -fex, -freund, -fritze, -geist, -hals, -hans, -hase, -held, -hengst, -hof, -knecht, -kopf, -kram, -mann, -meier, -meister, -mensch, -michel, -mut, ochse, -narr, -peter, -sack, -schirm, -sinn, -staff, -vogel, -volk yarımsüffikslərini təhlilə cəlb etmiş, onların artırılması ilə əmələ gələn yeni sözlərin semantikasını araşdırmışdır [6, s.137]. Onu da qeyd edək ki, göstərilən yarımsuffikslər vasitəsi ilə əmələ gələn yeni sözün semantikası həm suffiksi qəbul edən, həm də yarımsuffiksin özünün daşıdığı mənaya əsasən formalaşır. M.Məhərrəmovanın fikrinə görə, "-bruder [-bru:dər] yarımsuffiksi isimlərə və fellərə artırılaraq şəxsin əlamətinə əsasən də mənfi keyfiyyət bildirir. Trinkbruder (içki yoldaşı) ← trinken (içmək), Bierbruder (içki yoldaşı) ← das Bier (pivə), Bacchusbruder (içki, şərab yoldaşı) ← der Bacchus (içki), Saufbruder (içki yoldaşı) ← saufen (içmək) (heyvanlar haqqında)". Tədqiqatçı eyni yarımsuffiksin isimlərə artırılaraq qohumluq münasibəti bildirməsinə dair nümunələr də verir. Məsələn: Mutterbruder (dayı); Vatersbruder (əmi);

Zwillerbruder (əkiz qardaş); Blutsbruder (qan qardaşı); Sriefbruder (ögey qardaş) [6, s.138]. Aydındır ki, qohumluq bildirən sözlərdə heç bir mənfi semantika yoxdur. Məsələ burasındadır ki, yarımsuffiks mənanın formalaşmasında iştirak etsə də, mənanı mənfiləşdirmir. Yaranan sözlərin məqalə müəllifinin mənfi mənada yozması, zənnimizcə, birinci qrup sözlərdə işlənən "içki", "şərab", "pivə" sözləri ilə bağlıdır. "–bruder" yarımsuffiksi artırıldığı sözün semantikasına "yoldaş" semini əlavə edir. Bu semdə də heç bir mənfi çalar yoxdur, əksinə, müsbət çalar vardır. Yarımsuffiksin iştirakı ilə düzələn qohumluq terminləri kişi cinsinə mənsubdur. Buradan belə bir nəticə çıxır ki, bruder – yoldaş semini artırmaqla kişi cinsinə aid sözün düzəlməsinə səbəb olur. Bu cəhət, zənnimizcə, etnokulturoloji mahiyyət daşıyır. Eyni zamanda, qeyd etmək lazımdır ki, alman dilində cinsin ifadə vasitələri sırasına müəyyən yarımsuffikslər də daxildir.

Cins kateqoriyasının ifadə vasitələrinin tədqiqi göstərir ki, qrammatik cins kateqoriyası ifadə və məzmun planlarının mürəkkəb dialektik vəhdəti olub sistemdaxili və sistemxarici amillərin kompleks qarşılıqlı təsiri altında yaranır, formalaşır və şəklini dəyişir. Cinsi ifadə edən vasitələr arasında əhəmiyyətli fərqlər olmasına baxmayaraq, onlar vahid funksional əlamət ətrafında birləşir, qrammatik səviyyədə isimlərin cinsə görə təsnifini ifadə etmək üçün əlamət rolunu oynayır.

Cənubi Afrikadakı bantu dillərində hər bir isim müəyyən bir sinfə aid edilir. Hər bir sinfin isə özünün göstərici prefiksi olur. Həmin prefiks predmetin cinsinə işarə edir. Onu da qeyd edək ki, bu dillərdəki isim sinifləri təkliyə, cəmliyə və digər əlamətlərə görə müəyyənləşdirilir. Belə siniflərin cinsə görə fərqləndirilmə yoxdur, bunun müqabilində canlılıq və cansızlığa görə ayırma vardır. Andaman dillərində isimlərin canlılara və cansızlara bölgüsü mövcuddur. Canlı isimlər sinfinin özü də iki yarımsinfə bölünür. Birinci yarımsinif insanları, ikincisi isə digər canlı varlıqları əhatə edir. Alqolkin dillərində isimlər canlı varlıqlara və cansız predmetlərə bölünür. Maraqlıdır ki, bu dillərdə insan bədəninin üzvlərini bildirən sözlər cansızlar, heyvan bədəninin üzvlərini bildirən isimlər isə canlılar sinfinə aid olunur.

Müxtəlifsistemli dillərdə cinsin ifadə olunmasında fərqli xüsusiyyətlər kifayət qədərdir. Semit dillərindəki cins Hind-Avropa dillərindəkinə oxşasa da, semit dillərində orta cinsin yoxluğu əsaslı fərq kimi üzə çıxır. Bu dillərdə fel formaları mübtədanın cinsi ilə uzlaşır. Ərəb dilində kitabta "sən yazmısan", kitabtı (sən yazmısan – qadın cinsi), kitaba (o yazıb), kitabat (o yazıb – qadın cinsi), II şəxsin cəmində kitabtum (kişi cinsi), kitabtunna (qadın cinsi), üçüncü şəxs təkdə kitabu (kişi cinsi), kitabna (qadın cinsi) olur. Bu dildə birinci şəxsin tək və cəmində belə fərq müşahidə olunmur: kitabtu (mən yazmışam – kişi və qadın), kitabna (biz yazmışıq – kişi və qadın).

Qrammatik cins kateqoriyasına görə dilləri üç sinfə ayırmaq olar. Birinci sinif cins kateqoriyasının olduğu dillər, ikinci sinif isə bu kateqoriyanın olmadığı dillərdir. Üçüncü sinif bir qədər fərqli xüsusiyyətə malikdir. Bu sinfə daxil olan dillərdə tarixən cins kateqoriyası olmuş, sonralar həmin kateqoriya dildən çıxmış, qrammatik kateqoriya statusunu itirmişdir. Buna baxmayaraq, belə dillərdə cins kateqoriyasının izləri müəyyən şəkildə qalmışdır. Bizim fikrimizcə, üçüncü qrupa daxil olan dillər birinci iki qrup arasında aralıq mövqe tutur və dilin tarixi inkişaf prosesində funksionallıq baxımından zəifləyən qrammatik kateqoriya dağılmağa məruz qala bilər.

E.Hemenquey "Qoca və dəniz" hekayəsində dənizi qadın kimi təsvir edir, bu zaman şəxsləndirilmiş cinsin transpozisiyası ilə yanaşı, ispan dilinin müvafiq artiklindən də istifadə edir: *"He always thought of the sea as la mar which is what people call her in Spanish when they love her. Sometimes those who love her say bad things of her as though she were a woman. Some of the younger fi shermen, those who use buoys as fly oats for their lines and had motor-boats, bought when the shark livers had brought much money, spoke of her as el mar which is masculine. They spoke of her as a contestant or a place or even an enemy. But the old man always thought of her as feminine and as something that gave or withheld great favors, and if she did wicked or wild things it was because she couldn't help them. The moon affects her as it does a woman, he thought"* [7].

Rus dilinə tərcümə belədir: *"Мысленно он всегда звал море la mar, как зовут его по-испански люди, которые его любят. Порою те, кто его любит, говорят о нем дурно, но всегда как о женщине, в женском роде. Рыбаки помоложе, из тех, кто пользуется буями вместо поплавков для своих снастей и ходит на моторных лодках, купленных в те дни, когда акулья печенка была в большой цене, называют море el mar, то есть в мужском роде. Они говорят о нем, как о пространстве, как о сопернике, а порою даже как о враге. Старик же постоянно думал о море, как о женщине, которая дарит великие милости и отказывает в них, а если и позволяет себе необдуманные или недобрые поступки, – что поделаешь, такова уж ее природа. "Луна волнует море, как женщину", – думал старик"* [8, s.76].

Rus dilində tərcümədə şəxsləndirməni əvəzetmək üçün rus dilinin qadın cinsini ifadə vasitələrindən istifadə edilmişdir. Eyni zamanda burada orijinaldakı izah də öz yerini almışdır: el mar which is masculine.

Eyni parçanın türk dilinə tərcüməsində oxuyuruq: *"Denizi her zaman İspanyolların sevgiyle adlandırdıkları la mar olarak düşünürdü. Onu sevenler, kimi vakit kötü şeyler de söylerler ama yine de bir kadın olarak düşünürler. Ağlarının başına şamandıra koyan, köpekbalığı cigeri fazla para*

ettigi zaman motorlu kayak alan genç balıkçılardan bazıları ondan, erkek olarak el mar diye söz eder. Onu bir rakip, bir yer, bir düşman olarak görürler. Yaşlı adam onu her zaman bir kadın, her zaman veren bir şey, ya da büyük yararlar sağlayan bir kaynak olarak düşünür ve eğer azıp etrafına kötülük saçacaq olursa, bunu da iredesi dışında, doğası geregi olarak kabul ederdi. Mehtab bir kadını etkilediği denli onu da degiştirir, bambaşka yapırdı" [9, s. 26].

Qeyd edək ki, türk dilində tərcümədə səhifə altında "la mar: dişilik sıfatıyla "deniz" izahı verilmişdir.

İngilis dilində "her" əvəzliyi ilə qadın cinsi qeyd olunur. Müəllif balığa kişi cinsini aid etməklə onu qoca balıqçı ilə rəqib səviyyəsinə qaldırır. Beləliklə, hekayədə balıqçı ilə balıq arasındakı mübarizə iki kişi arasındakı mübarizə kimi təsvir olunur. Hər iki kişinin bir məqsədi də dəniz - qadını ram etməkdir. Rus dilindəki mətndə balıq qadın cinsində verilir. Nəticədə dənizdəki mücadilə kişi (balıqçı) ilə qadın (balıq) arasında gedir. Bu da əsərin semantik inkişafını təhrif edir, mədəniyyətlərarası konteksti (kişi-kişi mübarizəsi) dəyişdirir.

Maraqlıdır ki, Ç.Aytmatovun əsərində "balıq" qadın cinsində verilir. Qırğızların qədim rəvayətlərinə görə də balıq qadın kimi şəxsləndirilir.

"Смотрит - что за диво! А то рыба в образе женщины! По воде колотит, извивается, уйти хочет. А красоты невиданной - тело гладкое, серебром отливает, как речной галечник в лунную ночь, груди белые с темными сосцами торчком, точно бы то еловые шишечки, а глаза зеленые огнем искрятся. Поднял он Рыбу-женщину из воды, подхватил под руки, тут она обняла его, и легли они в лодку" [10, s. 274].

Rəvayətə görə, "Dəniz kənarıyla qaçan Alabaş" əsərində balıqçılıqla məşğul olan bu tayfa qadın-balıqdan törəmişdir. *"Рыбу-женщину, прародительницу, от которой пошел их род на Земле. И тогда загудят бревна-барабаны под ударами кленовых палок, и среди пляшущих шаман - самый многоумный человек - разговор заведет с Землей и Водой, разговор о нем" [10, s. 263]. .*

Где ты плаваешь, Великая Рыба-женщина?
Твое жаркое чрево - зачинает жизнь,
Твое жаркое чрево - нас породило у моря,
Твое жаркое чрево - лучшее место на свете.
Где ты плаваешь, Великая Рыба-женщина?
Твои белые груди как нерпичьи головы.
Твои белые груди вскормили нас у моря.
Где ты плаваешь, Великая Рыба-женщина?
Самый сильный мужчина к тебе поплывет,

Чтобы чрево твое расцветало,
Чтобы род твой на земле умножался...” [10, s. 264].

Azərbaycan dilinə tərcümədə də bu əfsanə və ya qədim mahnı verilir:
“Ulu Bakıq-qadın, harda üzürsən?
Sənin isti bətnin – həyat mənbəyi,
O isti bətnindən törəmişik biz –
Dəniz kənarında göz açmışıq biz.” [11, s. 521].

Qeyd olunduğu kimi, E. Hemenqueyin hekayəsində ingilis dilində balıq kişi obrazıdır, rus dilinə tərcümədə cins kateqoriyasının göstəricisinə görə balıq qadın kimi götürülür. Qırğızlarda isə balıq qadın obrazıdır. İngilis dilində hər cür gəmi, qayıq növü qadın cinsindədir. Qırğız balıqçıları üçün qayıq ən yaxın, ən sədaqətli adam – qardaşdır.

И, думая так, он разговаривал мысленно с лодкой. "Я люблю тебя и верю тебе, брат мой каяк, - говорил он лодке. - Ты знаешь язык моря, ты знаешь повадки волн, в том твоя сила. ... Мы все тебя любим, когда тебе тяжко от добычи нашей, когда возвращаешься ты к берегу, проседая до краев и даже зачерпывая воду. Вот тогда все выбегают, к берегу встречать тебя, брат мой каяк!

*Если я умру, плавай по морю с молодыми и сильными охотниками. Если я умру, служи им, как служишь мне. И дождись, брат мой каяк, чтобы и этот отпрыск наш, что вон сидит на носу, головой крутит, едва терпит, дождись, брат мо*й каяк, чтобы и этот подрос, чтобы и он плавал с тобой далеко и близко” [10, s. 265].

X.Aytmatovun bu əsərində torpağın yaradıcısı kimi dişi Luvr ördək təsvir edilir.

“А утка Лувр, да-да, та самая, обыкновенная кряква-широконоска, что по сей день проносится в стаях над нашими головами, летала в ту: пору над миром одна-одинешенька, и негде ей было снести яйцо. В целом свете не было ничего, кроме воды, даже тростиночки не было, чтобы гнездо смастерить.

С криком летала утка Лувр - боялась, не удержит, боялась, уронит яйцо в пучину бездонную. И куда бы ни отправлялась утка Лувр, куда бы ни долетала она - везде и повсюду плескались под крыльями волны, кругом лежала великая Вода - вода без берегов, без начала, без конца. Извелась утка Лувр, убедилась: в целом свете не было места, где бы устроить гнездо.

И тогда утка Лувр села на воду, надергала перьев из с своей груди и свила гнездо. Вот с того-то гнезда плавучего и начала земля образовываться” [10, s.258].

Rus dilində "утка" sözü qadın cinsində olduğuna görə cinsə görə qrammatik uzlaşma baş verir və mənanın təhrifi olmur. Məsələn, "И тогда утка Лувр села на воду, надергала перьев из с своей груди и свила гнездо." Azərbaycan dilində bu mənanın saxlanması kontekst və propozisiyadakı fon biliklər üzrə gedir.

Bədii əsər fikrin obrazlı ifadəsi, emosionallıq və ekspressivlik yaratmaq baxımından geniş imkanlara malikdir. Bədii üsullardan biri olan şəxsləndirmə də bədii mətndə məhsuldarlığı ilə seçilir. Bədii ədəbiyyatda əsas cinsi mənsubluq və reallıqda olmayan cinsi mənsubluq şəxsləndirmə zamanı ortaya çıxır. Yuxarıdakı nümunələrdə balığın, dənizin, qayığın ayrı-ayrı etnoslarda fərqli şəkildə şəxsləndirilməsi bu fikri açıq-aydın təsdiq edir. Daha bir nümunəni nəzərdən keçirək. İ.Şıxlının "Dəli Kür" əsərinin qəhrəmanı yalı və quyruğu düşmənləri tərəfindən qırxılmış atını şəxsləndirir, onunla danışır. "İndi mən nə edim, Qəmər? Axı sən mənim sirdaşım, dar günümdə harayçım idin. Məni utandırmamısan, həmişə başımı uca eləmisən. Neçə dəfə mən sənin yalına yatıb, gözlərinə qurban, Qəmər, əlac sənə qalıb demişəm. Sən quş kimi qanad açıb məni güllənin altından çıxartmısan. Mən səni özümə qardaş, sirdaş bilirdim" [12, s.335].

Atın adı qadın adıdır. Cahandar ağa atla danışdıqda da çeçdiyi epitetlər, bədii təyinlər, emosional nitq (məni utandırmamısan; həmişə başımı uca eləmisən; gözlərinə qurban) sanki söhbətin qadın ilə kişi arasında getdiyini təsdiqləyir. Bununla belə, qəhrəman atına qardaş, sirdaş deyir. Türklərdə at kişilər üçün əziz, sevimli və ən yaxın bir varlıq sayılmışdır. Türk eposlarında, dastan və nağıllarında atlar da qəhrəman kimi təsvir olunur. Türk düşüncə tərzində ən yaxın olan qardaşdır. Balıqçını ucsuz-bucaqsöz dənizin dalğalarından xilas edən qayıq da, qəhrəmanı vuruş meydanından çıxaran at da ona görə qardaş adlandırılır, qardaş qədər yaxın hesab edilir.

Cins kateqoriyasının bir dildə mövcudluğu, başqa bir dildə yoxluğu, eləcə də fərqli leksik-qrammatik vasitələrlə ifadə olunması bir etnomədəniyyətə aid mətnin tərcümə yolu ilə başqa etnomədəniyyətə transformasiyası istər-istəməz müxtəlif mədəniyyətlərarası kontekstlər əmələ gətirir.

Müxtəlif dillərin daşıyıcılarının cins barədə təsəvvürlər eyniyyət təşkil etmir. Bu cəhət qrammatik səviyyəyə keçiddə özünü daha aşkar göstərir. Əgər təsəvvürlər üst-üstə düşürsə, bunun koqnitiv əsasları olur. Bu əsas mədəniyyətlə birbaşa bağlılığa malikdir. Dil daşıyıcılarının mədəniyyətcə yaxınlığı cins təsəvvüründə də yaxınlığa zəmin yaradır. Ona görə də qrammatik cins kateqoriyası mədəniyyətlərarası kontekst səviyyəsinə qalxır.

Qrammatik cins insanın təsəvvür və düşüncələrinə təsir göstərir. Bu kateqoriya yalnız insanlar haqqındakı təsəvvürlərdə deyil, əşya və predmetlərə münasibətdə də izini qoyur.

Cins koqnitiv prosesdən ayrı deyildir. Konseptlərin mədəniyyətlərarası köçürülməsi tərcümə prosesində bir çox çətinliklər doğurur. Rus və alman dillərində mücərrəd isimlərin də cinsə görə təsnifi tərcümədə daha uyğunsuzluq yaradır. Məsələn, B.Pasternakın şeirində "жизнь" sözü işlənir və şair həyatı bacısı adlandırır. Bu sözü eyni anlamda çex dilində vermək yanlış nəticəyə gətirib çıxarır. Çünki çex dilində söz kişi cinsindədir.

Bu cür nümunələr bir dilin qrammatik quruluşunun daha kamil, digərinini isə naqis olduğunu göstərmir. Hər bir dil həm obrazlılığı, həm ekspressivlik və emosionallığı vermək imkanlarına malikdir. Mədəniyyətlərarası kontekst dil daşıyıcı¬larının obyekt və predmetlərə fərqlii münasibətlərindən irəli gəlir. Bir dildə müəyyən qrammatik kateqoriyannın olması, başqa bir dildə isə olmaması etnokulturoloji kodların qarışmasına səbəb olur və ya müvafiq kontekstlərlə əvəzələnməsinə mane olur.

Ədəbiyyat

1. Сепир Э. *Грамматист и его язык* // Сепир Э. Избранные труды по языкознанию и культуро¬логии, М.: Прогресс, 1993, с. 248-258
2. Сепир Э. *Избранные труды по языкознанию и культурологии*. М.: Прогресс, 1993, с.656
3. Вежбицкая А. *Язык. Культура. Познание*. М.: Русские словари, 1997, с.411
4. Ревзина О.Г. *Типологический анализ грамматической категории рода (на материале славянских языков):* Автореф. дисс. ... канд. филол. наук. М., 1970, с.22
5. Баскаков Н. *Историко-типологическая морфология тюркских языков.* Москва, Наука, 1979, с. 273
6. Məhərrəmova M. *Söz yaradıcılığı prosesində kişi cin¬sinə aid yarımsuffikslərin rolu* // Filologiya məsələləri. Bakı: AMEA Əlyazmalar İnstitutunun nəşri, №7, 2013, s. 137-143
7. Hemingway, E. *The Old Man and the Sea*// https://la.utexas.edu/users/jmciver/Honors/Fiction%202013/Hemmingway_The%20Old%20Man%20and%20the%20Sea_1952.pdf
8. Хэменгуей Е. *Старик и море*. Москва, Астрель, 2012, с. 247
9. Hemingwey E. *Yaşlı adam ve deniz* (İhtiyar balıqçı). Ankara, Bilgi Yayınevi, 2015, s. 132

10 Айтматов Ч. *Эхо мира*. Москва, Правда, 1985, с. 528

10. Aytmatov Ç. *Seçilmiş əsərlər*. Bakı, "Şərq-Qərb", 2009, s. 760
11. Şıxlı İ. *Dəli Kür*. Bakı, Yazıçı, 1982, s. 435

Ayten Bayramova

Linguoculturological Peculiarities of the Category of Gender

Summary

The present article studies linguistic and cultural peculiarities of the category of gender in different languages. The attitude of a human being towards reality phenomena as well as to the realization of gender relations depends on the life style, daily routine, customs / traditions and mentality of the ethnos.

The research shows that the indicators of this category carry out mixed functions in the text in the languages with grammatical category of gender. It is also stated in the paper that the difference in the ways of expressing gender in various languages depends on the fact that in comparison with other grammatical categories gender stands out with its multi-aspect character.

Айтен Байрамова

Лингвокультурологические особенности категории рода

Резюме

Данная статья изучает лингвокультурологические особенности категории рода в разных языках. Отношение человека к рельности, а также к реализации категории рода зависит от стиля жизни, быта, обычаев,традиций и менталитета этноса.

Исследования подчеркивают, что показатели этой категории выполняют смешанные функции в тексте в языках, которым присуща грамматическая категория рода.Также в статье отмечается, что различные отношения к способам выражения категории рода в определенных языках во многом обусловлены тем фактом, что по сравнению с другими категориями, род характеризуется своим многоаспектными свойствами.

Rəyçi: Leyla Cəfərova
filologiya elmləri doktoru, professor

AYBƏNİZ HÜSEYNOVA
UNEC
Filologiya elmlər namizədi, dosent
ayten.maharramqızı@gmail.com

MƏTNİN KOMPONENTLƏRİ ARASINDA MƏNA ƏLAQƏLƏRİ VƏ ÜSULLARI

Açar sözlər: mətn dilçiliyi, mürəkkəb sintaktik bütövlər, komponentlər, məna əlaqələri, əlaqə üsulları, elmi araşdırmalar, problemin həlli.
Key words: text lingusitics ,complex syntax intacts, components, meaning relations, relation methods , scientific research, solution of the problem.
Ключевые слова: текстовое языковедение, сложные синтаксические целые, компоненты, смысловые связи, способы связи, научные расследования., решение проблемы.

Hər bir mətn müəyyən model əsasında qurulur. Modelin strukturu məlumdur: mikromətndə müəyyən bir şey haqqında ümumi məlumat verilir, sonra həmin məlumat genişləndirilir, təminedici şəkildə şərh edilir və sonda yekunlaşdırılır. Bu, modelin semantik tərəfidir. Amma bir mətn qurularkən onun əsasında leksik-qrammatik vasitələr, söz birləşmələri, abzas, cümlə və s. tikinti materialı rolunu oynayır. Bu məsələyə daha dəqiq aydınlıq gətirmək üçün həmin sintaktik terminlərin xüsusiyyətlərini və onların mətn ilə oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa çalışacağıq. Çünki bəzi dilçilər mətnin daxili komponentləri olan bu terminlərin özünü belə mətn hesab etmişlər. Ona görə də son dövrün tədqiq və araşdırmaları həmin terminlərin biri digərinin sinonimi kimi işlədilməsinin lüzumsuz olduğunu göstərmişdir

Sintaksisin hər bir nöqtəsində özünü göstərən bağlılıq ümumi dilçilikdə koqeziya adlanır. Koqeziya latın sözü olub kohaesus sözündən əmələ gəlib bağlı, bağlanmış, qoşulmuş deməkdir. Mətnin koqeziyası yəni komponentlərinin mətndaxili əlaqələrinin cəmi bir sıra faktorların köməyi ilə formalaşır. Mətn komponentləri arasında sintaktik koqeziya iki cür olur: məna bağlılığı, qrammatik (sintaktik) bağlılıq.

Sintaktik bütövləri təşkil edən cümlələr arasında aşağıdakı məna əlaqələri vardır:

a) Birləşdirmə əlaqəsi;
b) Səbəb – nəticə əlaqəsi;
c) Aydınlaşdırma əlaqəsi;
d) Qarşılaşdırma əlaqəsi;
e) Bölüşdürmə əlaqəsi.

Birləşdirmə əlaqəli abzaslardakı fikir müəyyən zaman çərçivəsində birləşir. Bu zaman abzaslardakı hərəkət ya eyni zamanda, ya da zaman ardıcıllığı əsasında formalaşır. Məsələn:

Bahar xala yenicə almış olduğu məktubu oxutmaq üçün qonşuya getmək istəyirdi ki, qapını döyürdülər. O tələsik başını örtüb qapını açdı, qapı ağzında qarabuğdayı, dolğun iyirminci baharını yenicə qədəm qoymuş ağ kəlağaylı, uzun hörüklü bir qız durmuşdu.

Bir anlıq onların hər ikisi təəccüb və sual dolu nəzərlərlə bir-birinə baxdılar. Lakin bu çox çəkmədi. Uzunhörüklü qız əlindəki kiçik kağız parçasınıa gözucu baxdı... (8, s. 255).

Birləşdirmə əlaqəsi ilə bir - birinə bağlanan mikromətnlərdəki hadisələr eyni anda baş verdiyi üçün onları birləşdirib bir mikromətn kimi də vermək olar. Hətta bəzi mənbələrdə belə abzasların bağlayıcı ilə başlaması hadisəsi də məqbul hesab edilir.

Səbəb – nəticə əlaqəli abzaslardan təşkil olunmuş mikromətnlərdə, əsasən, iki forma mövcuddur. Mətndə ya əvvəlcə səbəbi göstərilmiş hadisələrin digər abzaslarda nəticəsi verilir, ya da elə mikromətn, hətta makromətn var ki, onların nəticələri ilk abzaslarda verilir. Sonra isə bu nəticəni doğuran səbəblər digər abzasların vasitəsi ilə verilir. Məsələn:

Biz cəbhəyə getdiyimiz zaman bir-birimizdən ayrılmamağa and içmişdik. Lakin amansız əcəl bizi ayırdı. Odlu döyüşlərin dostun köksündən yaralandı və bir an içərisində ildırım vurmuş ağac kimi yerə sərildi. Dostumu qan aparırdı. Tez başını yerdən qaldırıb dizlərimin üstünə aldım əllərimlə saçını sığalladım: "Sən nə edirsən, dostum qalx. Yaranda qorxulası bir şey yoxdur keçib gedər!" dedim...

Sözümü qurtarıb Leyla xalaya baxdım. Onun gözləri yaşarmışdı, Sinəsi aramsız qalxıb enirdi.O, gözlərimin içinə baxır, odlu baxışları ilə məni sarsıdırdı. O baxışlar mənə nələr söyləmirdi. Buna görə də onun iztirabları önündə "O sənin oğlundur, ana, icazə ver, gözlərindən öpüm deyərək səsimi çıxara bilmədim (8, s. 126).

Nümunədə verilən iki mikromətndə vardır. Birinci mikromətndə elə hadisələr verilir ki, ikinci mikromətndə onun səbəbi olaraq ananın ah-naləli halı öz əksini tapır. Deməli, ananın oğul həsrəti ilə bitib tükənməsinin, onun həsrəti ilə yanmasının səbəbi əvvəl göstərilmişdir. Belə tip mikromətnlərdə birinci səbəb və ikincisi isə onun nəticəsi olur.

Aydınlaşdırma əlaqəli abzaslar özündən əvvəlki ümümi xarakterli abzasları aydınlaşdırır və bir abzas o biri abzasa nisbətən daha informativ səciyyə daşıyır, semantik mənan çalarları yaradır. Məsələn:

Xalisə cavab əvəzinə qucaqladı anasını. Ana-bala sarıldılar bir-birinə. Xalisənin pıçıltısı eşidildi: "Kaş atam sağ olaydı, ana!" İkisi də birdən hıçqırdı. Ağladılar. Ata nisgildəndimi, yoxsa ilk övladın ailə qurmaq

sevincindənmi, nədəndisə ana-bala ürəklərini boşaltdılar. Ana-bala bir-birindən ayrılanda üzləri gülürdü.Gözlərində yaş, üzlərində təbəssüm görünürdü. (8, s. 128).

Əsərdə bu abzasdan əvvəlki abzaslar ümumi fikir ifadə edən mikromətnlərdir. Lakin bu abzasda artıq hadisələr aydınlaşır. Hətta elə mikromətnlər ola bilər ki, hadisələrin gedişi tək bir abzasla deyil, bir neçə abzasda aydınlaşa bilər. Belə olan təqdirdə bir abzas bir neçə abzaslarla aydınlaşdırma əlaqəsinə girir. Adətən əsərlərdə aydınlaşdırma əlaqəli abzas lap sonda verilir. Onda bir neçə abzas bir abzasla aydınlaşdırma əlaqəsinə girir.

Qarşılaşdırma əlaqəli abzaslardakı iş, hərəkət,zaman obrazlar qarşı – qarşıya qoyulur. Belə mətnlərdə müqayisəli və ya ziddiyyətli qarşılaşdırma qarışıq şəkildə verilir. Məsələn:

Yaşarın atası körpü mühəndisdir. O, bu il işinə görə kənddə çox qalacağında, ailəsini də gətirmişdir. İndi yaşar kənd məktəbində oxuyacaqdır. Üçüncü rüb təzəcə qurtarmışdır. Şagirdləri yaz tətilinə buraxmışdılar.

Tətil günləri elə tez qurtarmışdı ki, yaçar onların nə vaxt gəlib keçdiyini belə hiss eləmədi. Səhər durub məktəbə getdi. Beşinci sinif şagirdlərin oxuduğu otağı axtarıb tapdı. İçəri girəndə oğlanlar başına toplandılar, onu sorğu-suala tutudular (19, s. 156).

Bölüşdürmə əlaqəsi əsasında qurulan mikromətnlər vardır. Belə mətnlərin abzasları bağlayıcı ilə başlaması məqbul hesab edilməlidir. Hərəkət, yaxud hadisələr bölüşdürülərək abzaslarda ifadə imkanları tapır. Məsələn:

Bəzən onun bu hərəkətlərini başa düşməz, ona acıqlı davranırdım. Heç bir dəfə olsun belə yanına yaxınlaşmayıb halını belə soruşmurdum ...

Amma hamı onu çox sevir, sevilməsi və işgüzarlığı ona olan telabatı daima artırırdı. O, hamıya kömək edir, əlindən tuturdu. Çox sonralar başa düşdüm ki, o mənim qəhrəmanım imiş... (8, s. 135).

Ümumiyyətlə, yuxarıda göstərilən nümunələrdən də aydın olur ki, mətn abzaslar hesabına genişlənə və informativ çalarlara malik ola bilir. Mətn bir abzasdan ibarət olduğu kimi sıx məntiqi-semantik əlaqəli olan abzaslar birliyindən də ibarət ola bilər. Dilçilikdə mətnin sərhədləri daxilinə abzaslar əsas təməl daşıdır. Ona görə də mətn və abzas problemi dilçiliyimizdə araşdırılmalı və dərindən tədqiq olunmalıdır. Çünki abzaslar mətn daxilində müxtəlif informativ ifadə imkanlarına malikdirlər. Məhz buna görə də sintaksisin vəzifəsi yalnız söz birləşməsi və cümləni tədqiq etməklə məhdudlaşmamalıdır. Müasir dövrdə mətnin struktur- semantik xüsusiyyətləri onun əsas tədqiq obyektinə çevrilməlidir.

Mətnin komponentləri müxtəlif üsulla bir-biri ilə əlaqələnir. Mətndaxili əlaqələrin iki növü vardır: zəncirvari və paralel. Mətndə bu üsulların hansının öz əksini tapması və üstünlüyə malik olmasından asılı

olaraq iki üsuldan birindən istifadə olunur. Bu əlaqələr, demək olar ki, bütün dilçilər tərəfindən qəbul edilir. Sintaktik əlaqə zamanı mətn komponentlərinin konkret əlaqə üsulları işə düşür. Məntiqi – sintaktik əlaqə zamanı komponentlərin yerləşdirilməsi məsələsi ön plana çıxır. Hər bir əlaqə üsulunu ayrı-ayrılıqda nəzərdən keçirək (2, s. 107).

Zəncirvari əlaqənin əsas xüsusiyyəti ondan ibarətdir ki, əvvəlki cümlənin reması sonrakının teması kimi çıxış edir və bu proses sintaktik bütöv boyu davam edir, cümlələr bir zəncirin həlqələri kimi bir-biri ilə bağlanır. Bu prosesdə həlledici rol təkrarların üzərinə düşür. Məsələn:

Qadının üzü tutuldu. Uzun, enli, qara qaşları çatıldı. Çubuğunu dərindən sümürərək fikrə getdi. Pəncərənin qabağında dayanmış oğlan soyuq baxışlarla çölə baxırdı.

O, hamıda təəccüb oyadan bir məharətlə imtahan verib riyaziyyat fakültəsinə daxil oldu. Özünü olduqca sakit və ciddi aparmasına baxmayaraq, az zaman içərisində fövqəladə istedadı ilə hamımızı heyran etdi. Ən güclü riyaziyyatçı, ən yaxşı radist idi.... (5, s. 17).

Birinci cümlənin reması (*tutuldu)* ikinci cümlədə temaya (*çatıldı)* çevrilmişdir. İkinci cümlənin reması (*çatıldı)* üçüncü cümlənin temasına (*sümürərək fikrə getdi)* çevrilmişdir. Nümunədən belə aydın olur ki, ikinci cümlə birinci cümləyə zəncirvari əlaqə ilə bağlanaraq onun remasına çevrilir. Zəncirvari əlaqə tək bir mikromətndə deyil, bir-birini əlaqələndirən bir neçə mikromətnlərin birləşməsində zəncirvari əlaqə əsasında qurula bilər. Nümunədəki birinci mikromətn ümumilikdə rema xarakteri daşıyırsa, ikinci mikromətndə bu rematemaya çevrilir. *O, hamıda təəccüb oyadan...* cümləsi ilə başlayan mikromətn birinci mikromətninremasına çevrilir.

Zəncirvari əlaqədə müxtəlif söz formalarından istifadə edilir, cümlədən cümləyə keçən sözlər müxtəlif şəkildə dəyişir. Sintaktik bütövün ilk cümləsindəki subyekt – predikat ideyası inkişaf etdirilərək cümlədən cümləyə keçirilir. Bu cümlənin ardıcıl inkişafını təmin edir (10, s. 454).

Mikromətnlərin tərkibində cümlələrin məntiqi semantik əlaqə üsullarından biri də paralel əlaqələrdir. Paralel əlaqələr zamanı mətnlərdə ilk öncə ümumiləşdirici cümlə verilir. Sonra həmin cümlənin ideyası paralel cümlələrlə müxtəlif cəhətdən şərh edilir. Ümumi fikir konkret məna ifadə edən cümlələrə paylanır. Temarema əvəzlənməsi demək olar ki, baş vermir. Fikir eyni quruluşlu, eyni tipli, eyni söz sırasına malik olan cümlələrlə hərtərəfli izah edilir. Paralel əlaqəli mətnlərdə komponentlər arasındakı əlaqə öz müstəqilliyi ilə seçilir. Bu cür cümlələrdə müxtəlif məna ifadə edən sözlərdən başqa qalan hər şey quruluşdan tutmuş modallığa kimi hər şey eynidir (10, s. 455). Məsələn:

Mayın axırları olmasına baxmayaraq, meşə ağaclarından bəziləri çiçəyini tökməmişdi. Meşədə hələ bahar nəfəsi duyulurdu. Yaxın dağların

zirvəsində qar görünürdü. Qayalardan göz yaşı kimi şəffaf sular sızırdı. Meşə arası ilə dağlara qalxan yolda hər şey fərəhli idi... (5, s. 196).

İlk cümlədə verilmiş *mayın axırları* ideyası hər cümlədə özünü müxtəlif cəhətdən əks etdirmişdir. Beş cümlə ilə *mayın axırları* bizim gözümüzün qabağında paralel cümlələrlə izah edilmişdir. Paralel əlaqəli cümlələrin əsas əlaqələndirici vasitələrindən biri də təkrarlar ola bilər. Paralel əlaqəli cümlələr konkret mənalı, bərabərhüquqlu cümlələrdir. Zəncirvari əlaqə kimi burada giriş cümlə, yaxud tema üzvlənməsi olmur. Əgər zəncirvari əlaqədə cümlələrdən birini çıxarsaq məna əlaqəsində kasadlıq yaranacaqdır. Lakin paralel əlaqəli cümlələr əsasında yaranmış mikromətnin tərkib hissəsi olan cümlələrdən birini mətndn çıxarsaq fikir dəyişməyəcək.

Deməli, paralel əlaqə zamanı mətndə elə inkişaf baş verir ki, burada komponentlər arasında subyektlə predikat eyni cür düzülür. Hadisələr paralel sürətdə paylanır. Müxtəlif məlumatlar eyni istiqamətdə oxuculara təqdim olunur. Adətən belə məna əlaqəsi olan cümlələrdə subyekt prepozisiya, predikat isə postpozisiya mövqeyindən çıxış edir. K.Abdullayev mətnin komponentlərinin paralel inkişafı haqqında bildirir ki, subyektin məzmunu hər hansı bir hökmdə tam şəkildə əhatə oluna bilməz, hökmün əsl subyekti həmişə müəyyən mənada qeyri – müəyyən olmalıdır, o həmişə müxtəlif istiqamətlərdən səciyyələnməlidir. Bir hökm daxilində subyekti səciyyələndirmək qeyri – mümkündür. Onun səciyyəsi hökmdə deyil, hökmlərdə tam şəkildə özünü göstərə bilər (2, s. 44-60).

Mətndə komponentlərinin zəncirvari əlaqəsi haqqında isə dediklərimizi yekunlaşdıraraq deyə bilərik ki, mətnlərdəki predikativliyin inkişafı özündən əvvəlki subyektlərdəki predikatların inkişafından asılıdır. Mətndaxili komponentlərin hər biri özündən sonra gələn komponentdən zəncirvari əlaqə ilə bağlıdır. Belə əlaqə tam təkrar vasitəsilə ifadə oluna bilər.

K.Abdullayev bildirir ki, "Əvvəlki cümlənin predikatı kimi tabeli mürəkkəb cümlənin bir tərkib hissəsi , daha dəqiq desək, budaq cümlə hissəsi də çıxış edə bilər. Bu halda ikinci komponentin subyekti kimi çıxış edən əvəzlik forması bütün budaq cümlə hissəsinə aid olur və bütövlükdə onunla uyğunlaşır" (2, s. 107). Dilçimizin zəncirvari əlaqənin izahının bu şəkildə verməsi nəticəsində onu tam mənası ilə açmağa imkan yaratmışdır.

Deməli, Müasir Azərbaycan dilində mətn problemi haqqqında dilçilərin tədqiqatları ilə bərabər mətn haqqında ümumi məlumata sahib olduq. Çünki bir problemi açmaqdan ötrü ilk öncə o bəhsə tam yiyələnmək lazımdır ki, onun kökündə dayanan problemləri aşkar edib üzə çıxarmaq olsun. Mətn sintaksisinin tədqiqatçılarının hər biri bu problemlərə özünəməxsus şəkildə yanaşaraq tədqiqatlarını aparmışlar. Məhz buna görə də Mətn sahəsində istər dünya dilçiliyində, istərsə də Azərbaycan

dilçiliyində müxtəlif yanaşmalar vardır ki, bunu da mümkün qədər izah etdik. Amma bilmək lazımdır ki, mətn mürəkkəb sintaktik bütövlərin ən böyük vahididir. Mətn fikrin tam və hərtərəfli şərhinə şərait yaradır. Unutmaq lazım deyil ki, demək olar ki, əksər dil qaydalarının tədqiqatı məhz mətnin şərhi nəticəsində əmələ gəlir.

Ədəbiyyat

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999
2. Abdullayev K., Məmmədov A. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012
3. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Un. nəşr., 1998
4. Cavadov Ə. Müasir Azərbaycan dilində sintaktik vahidlərin sırası. Bakı: Elm, 1977
5. Əfəndiyev İ. Seçilmiş əsərləri. I cild.Bakı: Avrasiya press, 2005
6. Əlizadə F. Cümlənin aktual üzvlənməsi və kontekst // "Azərbaycan dilinin qrammatik quruluşu məsələləri". Bakı: ADU, 1981, 36-45 s.
7. Əlizadə F. Mətnin semantik təhlili haqqında // "Azərbaycan dilində sintaktik kateqoriyalar". Bakı: ADU, 1987, 68-76 s.
8. Hüseynoğlu G. Seçilmiş əsərləri. I cild.Bakı: Azərnəşr, 1993, 340s.
9. Xəlilov Ə. Əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu // "Azərbaycan EA xəbərləri". Dil, ədəbiyyat və incəsənət seriyası. Bakı: 1969, №1, səh. 5-7.
10. Kazımov Q. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı: Ünsiyyət, 2000
11. Novruzova N. Mətn sintaksisi. Bakı: Təhsil, 2002

A.Huseynova

The meaning and methods of relations among the text components

Summary

There has been discussed on meaning and methods of relations among the components of text being one of the important unit of syntax in Azerbaijani linguistics. There had been mentioned there are meaning connection, cause and effect, interpretation, confrontation, deliberation relations of syntax intact consisting intact among the sentences. It should be noted on chain relations of text components in research, the development of prediactivity in the texts depeinding on previous predication of subjects. Each of components within the text related with chain relation from the component coming after itself. Such relation may be expressed with full

iteration. The researches proved again that, there are more divergences in that issue of text linguistics. Therefore, whether such divergences existed in Azerbaijani lingusitics, complex syntax is dominated on taking basic as a largest unit of the text of intact.

А.Гусейнова

Смысловые связи и способы между текстовыми компонентами

Резюме

В статье говорится о смысловых связях и способах между компонентами текста, являющимися одними из важных единиц синтаксиса в Азербайджанском языковедении. Здесь показывается, что между предложениями, составляющими синтаксическое целое, имеются смысловые соединительные связи, причинно-следственные, разъяснительные, сравнительные, распределительные связи. В расследовании о звеньевых связях текстовых компонентов отмечается, что развитие предикативности в текстах зависит от развития предикатов прежних субъектов. Каждый из компонентов внутри текста связан с идущим после него компонентом цепной связью. Такая связь может проявляться посредством полного повтора. Исследования еще раз доказывают, что и в этом вопросе текстового языковедения имеется множество смысловых различий. Но, даже если в азербайджанском языковедении имеются такие смысловые различия, взятие текста как основы самых больших единиц сложных синтаксических целых, составляет преимущество.

Rəyçi: Vəfa Mahmudova
filologiya elmləri namizədi, dosent

TƏRANƏ XƏLİLOVA
filologiya elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti (UNEC)
t.xelilova0@gmail.com

КОСМОНИМИКА-ОДИН ИЗ РАЗДЕЛОВ ОНОМАСТИКИ

Açar sözlər: kosmonimlər, onomastika, astronimika, səma cisimləri, Yerin peyki
Ключевые слова: космонимы, ономастика, астронимика,небесное тело, спутник Земли.
Key words: cosmonyms, , heavenly body, Earth satellite.

Ономастика имеет ряд разделов, которые традиционно выделяются в соответствии с категориями собственных имен, в соответствии с характером называемых объектов. Собственные имена географических объектов (*Азербайджан, Каспийское море, Баку, проспект Гейдара Алиева, река Кура*, *озеро Байкал, Куликово поле*) изучает **топонимика**; собственные имена людей (*Ахмед, Гусейн*) исследует **антропонимика**; наименования зон космического пространства – созвездий, галактик, как принятые в науке, так и народные (Млечный *путь, Плеяды*, *Стожары*) анализирует **космонимика**; названия отдельных небесных тел (*Луна, Юпитер, Зарянка*, *комета Галлея*) изучает **астрономика;** собственные имена предметов материальной культуры (*алмаз «Орлов», меч Дюранадаль, пушка «Гамаюн»*) стали объектом изучения **хрематонимики**; есть и другие разделы. Помимо этого в ономастике существуют специальные разделы по изучению имен собственных в художественной литературе и устном народном творчестве, в диалектах и говорах, в официально-деловом стиле речи.Каждый из ономастических разделов соотносится, таким образом, с разными областями человеческого мышления, мировоззрения, мироощущения, миропознания.

У каждого народа имеется большой запас ценностей, передающихся из поколения в поколение. Среди них – названия, данные планетам и космическим телам. Например, у тюрков на протяжении веков менялось восприятие космических явлений, что приводило к изменению названий, связанных с космосом. Так, у древних тюрков *кӧн* означало *Солнце*, но постепенно это слово приобрело и значение *день* - произошло семантическое отождествление этих явлений. Позднее происходит дифференциация понятий: Солнце называют *кояж*, день - *кӧн*, но у некоторых тюркских народов (например, у башкир) и в настоящее время *кӧн* означает *Солнце*. Космические объекты (звезды, созвездия, планеты)

обратили на себя внимание в глубочайшей древности и уже тогда могли получать названия. Конечно, названия давались лишь тем из них, которые чем-то выделялись из остальных. Их замечали по «бросавшемуся в глаза признаку», они служили пространственными и временными ориентирами. Их очень рано начали изучать, поскольку знание неба и «небожителей» диктовалось практической необходимостью повседневной жизни людей, их борьбы с силами природы.Судя по материалам, содержащимся в ранних письменных памятниках тюрков, в астрологических и бытовых календарях, уже к 1072-1074 гг. в тюркских языках зафиксированы древнейшие названия звёзд: *Етиган*, *Етикан* – Большая Медведица; *Егач Юлдуз* – Юпитер, *Ярук Юлдуз* – Ясная звезда, *Алтун Юлдуз – букв*. Золотая звезда (Венера), *Алтун Казук* – Золотой столб (Полярная Звезда). Эти наименования звёзд и небесных тел и сейчас широко известны у тюрков, хотя с течением времени они приобрели новые соответствующие варианты: например, *Алтун Юлдуз* имеет такие варианты, как *Чулпан*, *Зухра*, *Шолпан*.Таким образом, уже в глубокой древности тюркам были известны названия небесных тел: Большой Медведицы, Марса, Юпитера, Меркурия, Венеры, Сатурна и, конечно, Солнца – *Кон*, Луны – *Ай* и др. Наука о звездах — астрономия появилась раньше многих других наук. «Сперва астрономия, которая уже из-за времен года абсолютно необходима для пастушеских и земледельческих народов»,— указывал Ф. Энгельс в «Диалектике природы».- Астронимика (космонимика) — наука, которая изучает названия небесных тел. Она только оформляется. Это самая молодая отрасль ономастики. Она еще не получила общепринятого обозначения. Одни авторы называют ее космонимикой, другие — астронимикой. В «Словаре русской ономастической терминологии» Н. В. Подольской есть два термина для названия объектов этой науки: космоним и астроним, однако для обозначения науки приводится лишь один — астронимика, причем, по определению составителя словаря, «астронимика — раздел ономастики, изучающий астронимы». Судя по тому, что автор разграничивает объекты (астронимы и космонимы), должно быть и разграничение соответствующих им наук, иными словами, должна существовать, по логике вещей, и космонимика. Словарь зафиксировал намечающуюся тенденцию к различению названий, с одной стороны, небесных тел, с другой — пространственных космических объектов; астронимы и космонимы в указанном словаре определяются следующим образом: «Астроним — вид онима. Собственное имя отдельного небесного тела, в том числе звезды, планеты, кометы, астероида (планетоида). Примеры: Солнце, Луна, Земля, Меркурий, Полярная звезда, Венера, Марс, Вега, Эрос, Цицера кометы: Энке, Фая, Галлея; происходит от греч. астер — «звезда», ср.

астрономия, астрология». «Космоним — вид онима. Собственное имя зоны космического пространства, галактики, звездной системы (созвездия). Примеры: Большое Магелланово Облако; Большая Медведица, Созвездие Орла, Созвездие Волопаса, Созвездие Девы, Созвездие Ориона. Возможно, со временем закрепятся эти разграничения астронимов и космонимов (а также астронимики и космонимики) и появится необходимость в дальнейшей дифференциации этих общих (родовых) понятий, сейчас же большинство исследователей не придерживается такого деления и в своих работах пользуется одним термином (либо астронимика, либо космонимика) для обозначения науки о названиях небесных объектов. Мы используем термины: космоним, космонимия для обозначения наименований как «точечных», так и пространственных объектов космоса, космонимика — наука об этих наименованиях. Космонимия (космонимы) больше похожа на топонимию (топонимы), чем на антропонимию. Космонимы, как и топонимы, «привязаны» к пространству. Это своего рода «небесная топонимия». Антропонимы же соотнесены не с территорией, а с человеческим коллективом, народом, людьми. От топонимов космонимы отличаются тем, что их объекты (звезды, созвездия и др.) в принципе, одни для всех народов. Они — межнациональны, интернациональны. Эта их особенность находит отражение и в наименованиях: в космонимии коэффициент интернационального во много раз выше, чем в топонимии, антропонимии и других областях ономастики. Астрономия считается одной из древнейших наук. Она изучает наименования небесных тел, в том числе звезд, комет, астероидов, планет и т.д. Отметим, что наименования объектам Вселенной даны землянами, и в них, естественно, отражается земная жизнь. Издревле человечество наблюдало с восхищением за небесными объектами. По ним моряки и караваны находили дорогу, определяли приблизительное время. Приведем наглядный пример. Герой одного из казахских эпосов, указывая дорогу, говорит другому: «Ты всегда держись левее звезды Тимерказык (Полярной звезды)».Небесные тела служили и указателем сезона. Звезды своей таинственностью всегда привлекали внимание людей, о Солнце и Луне сочиняли многочисленные сказки и легенды. Разные народы по разному видели особенности объектов Вселенной и именовали их по своему представлению. Например, одно и то же созвездие у русских –Конь, у римлян –Повозка, у украинцев –Воз, у народов Нижнего Поволжья –Телега, у киргизов –Жетиаркар (семь диких овец), у тувинцев –Чедихаан (семь ханов) и т.д. Интересна этимология созвездия Млечный путь. Галилео Галилей через телескопическое устройство обнаружил, что оно состоит из бесчисленного множества звезд и по цвету напоминает цвет молока. Вообще, созвездие Млечный путь было

знакомо уже античным ученым. Некоторые авторы древних (античных) времен называли это созвездие Старой дорогой Солнца, другие – покрывалом Персефоны; по мнению третьих, Геракл по этой дороге увел стадо Гериона; четвертые утверждают, что это молоко, пролитое с груди Геры (жены Арамаза). Древние армяне придерживаются следующей версии: зимой Вааган украл солому с Баршаама, это как раз та дорога, на которой высыпалась солома. У христиан данное созвездие связывают и с религиозными представлениями. Существует гипотеза, согласно которой по этой дороге души умерших поднимаются на небеса или, напротив, возвращаются обратно. Млечный путь называют также Путем Иисуса, Путем Девы Марии, Путем Святого Петра, Дорогой в Иерусалим, Путем Святого Якова, Путем Святого Джеймса, Путем рая. Отметим, что в последние годы увидели свет научные статьи отечественных и зарубежных ономастов Г.Шмидта, З.Лагеркрантца, Л.Гладышевой, И.Эрдеди, Л. Мандоки и других, в которых содержатся небезынтересные факты, касающиеся данного наименования. В большинстве тюркских языков название созвездия Млечный путь связывают с птицей: у башкир – Кош юлы (Птичий путь), у казахов –Торна юлы (Журавлиный путь), у киргизов –Кыр каззары юлы (Путь диких птиц), у татар –Киек каз юлы (Путь диких птиц) и т.д. В Средней Азии называют его Соломенным путем. В Венгрии, Буковине, Молдавии считают, что солому украли цыгане, по этой причине созвездие получило название Цыганский путь. Монгольские народы Млечный путь именуют Обвалившимся кусочком неба. У жителей Чукотки распространены наименования Пыльная река, Серебряная река, Небесная река; в Восточной Африке оно получило название Звездного моря. У кавказских народов наименование созвездия традиционно связывают с животным миром: Караванный путь, Стадный путь и т.д. Чеченцы называют его Медвежьим путем, грузины – местом, где прыгают ягнята. У индийских и некоторых азиатских народов Млечный путь получил название Змеиной реки, Змеиного пути и т.д. Космонимы и астронимы таят в себе сведения, относящиеся к различному, а иногда к примитивному человеческому познанию. От сказанного берут начало народные мифы и легенды, поверья, связанные с названиями небесных тел и созвездий. Единицы космономики считались « ценным источником не только для лингвистических, но и исторических раздумий и разработок», что подтверждается широким употреблением космонимов в поэзии. У каждой народности и этнических групп имеются большие запасы ценностей, передающихся из поколения в поколение путем устного и письменного повествования.

Литература

1. Подольская Н.В. Ономастика //Лингвистический энциклопедический словарь/Гл. ред. В.Н. Ярцева. – М., 1990.
2. Максютова Н.Х. Тюркские космонимы и связанные с ними легенды, поверья, приметы // Ономастика Поволжья. Волгоград, 2002.
3. Баязитова А. Космонимия у башкир и у других тюркских народов // Ватандаш. –2003.

Tarana Khalilova

Cosmonymy is one of the sections of onomastics

Summary

Each people has a large stock of values passed down from generation to generation.. Among them - the names given to planets and cosmic bodies.The names of zones of outer space - constellations, galaxies, both accepted in science and popular (the Milky Way, Pleiades, Stozhary) analyzes cosmonymy. We use the terms: cosmonym, cosmonymy for denoting the names of both "point" and spatial objects of the cosmos, cosmonyms - the science of these names.

The stars with their mystery always attracted people's attention, many tales and legends were written about the Sun and the Moon.

Təranə Xəlilova

Kosmonimika onomastikanın bir şöbəsi kimi

Xülasə

Hər bir xalqın nəsildən-nəslə ötürülən dəyərlərinin böyük bir fondu var.Onların arasında - planetlərə və kosmik cisimlərə verilən adlar da mühüm yer tuturKosmik zonaların adlarını – elmdə və xalq arasında qəbul olunan bürcləri, Gökadaları, (Milky Way, Ülker, Stozhary) kosmonimika təhlil edir. Ulduzlar öz müəmmalılığı ilə hər zaman insanların diqqətini cəlb ediblər.

Biz "nöqtə" kimi və ya kosmik səma cisimlərini adlandıran Cosmonium, kosmonimiya terminlərindən istifadə edirik, kosmonimika - bu adları öyrənən elmdir.

Rəyçi: Gülbəniz İsmayılzadə
filologiya elmləri üzrə fəlsəfə doktoru

SEVİNC SADIQOVA
ADPU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru
sevincsadigova@gmail.com

HƏSƏN MİRZƏYEV QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN TƏDQİQATÇISI KİMİ

Açar sözlər: şivə, dialekt, arxaizm, terminoloji leksika, lüğət.
Ключевые слова: говор, диалект, архаизм, терминологическая лексика, словарь.
Key words: accent, dialect, archaism, terminological lexic, dictionary.

Azərbaycan xalqının tarixini, mədəniyyətini, etnoqrafiyasını özündə əks etdirən dialekt və şivələrimizin materiallarının toplanması və tədqiqi ilə bağlı xeyli irimiqyaslı işlər görülmüşdür. Azərbaycan dialektologiyasının əsaslarını işləmiş M.Şirəliyev (Bakı dialekti), M.İslamov (Nuxa dialekti), R.Rüstəmov (Quba dialekti), İ.Hacıyev (İsmayıllı rayonu şivələri), A.Vəliyev (Abşeron yarımadasının qərb rayonu şivələri), Q.Cəfərov (Tovuz rayonu şivələri), V.T.Cangidze (Azərbaycan dilinin Dmanisi şivəsinin xüsusiyyətləri), B.İbrahimov (Mərəzə rayonu şivələri), K.Ramazanov (Azərbaycan dilinin Salyan dialekti), T.Həmzəyev (Ordubad dialekti), T.Hacıyev (Cəbrayıl keçid şivəsi), B.Sadıqov (Gədəbəy rayonu şivələri), A.Hüseynov (Vartaşen rayonu şivələri), S.Mollazadə (Azərbaycan SSR-in Qax şivələri), İ.Məmmədov (Azərbaycan dilinin Qaryagin şivələri), M.Çobanov (Borçalı şivələrinin leksikası), M.Məmmədli (Azərbaycan dilinin Təbriz dialekti), R.Abbasova (Azərbaycan dilinin Qubadlı şivələri) və b. Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələri ilə bağlı monoqrafiyalar yazmış, dissertasiyalar müdafiə etmişlər. Azərbaycan Respublikasının müxtəlif bölgələrinə dialektoloji ekspedisiyalar təşkil edilmiş, kollektiv yaradıcılığın məhsulu olan "Azərbaycan dilinin Muğan qrupu şivələri", "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri", "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri", "Azərbaycan dilinin Dərbənd dialekti", "İraq-Türkman ləhcəsi" və b. kitablar nəşr etdirilmişdir. Azərbaycan dilinin dialektoloji lüğətinin hazırlanması sahəsində də xeyli işlər görülmüşdür.

"Azərbaycan türk xalq şivələri lüğəti" (I (1930), II (1931) cild), "Azərbaycan dilinin dialektoloji lüğəti" (1968, 2007), "Azərbaycan dialektoloji lüğəti" (I, 1995) hazırlanaraq çap olunmuşdur. Azərbaycan dilinin dialektoloji atlası hazırlanmışdır. Azərbaycan dilinin dialekt və şivələrinin tədqiqi ilə bağlı aparılan araşdırmalar hal-hazırda da davam etdirilir. Azərbaycan dialektologiyasında dialekt və şivələrin tədqiqi sahəsində müsbət cəhətlərdən biri də ondan ibarətdir ki, Azərbaycan ərazisindəki dialekt və

şivələr dağınıq halda deyil, məqsədyönlü şəkildə tədqiqata cəlb olunmuşdur. Lakin aparılmış bu tədqiqatlara baxmayaraq, dialektologiya sahəsində bu gün də həllini tapmamış problemlər mövcuddur ki, bu da yeni-yeni tədqiqatların aparılması zərurətini meydana çıxarır.

Dialektologiyada tədqiqata ehtiyacı olan sahələrdən biri də Qərbi Azərbaycan şivələridir. Qərbi Azərbaycan şivələrinin araşdırılması xüsusi aktuallıq kəsb edir. Əlbəttə, bu sahədə – Qərbi Azərbaycan şivələrinin tədqiqi ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin nəzərə almaq lazımdır ki, Qərbi Azərbaycan əhalisi kompakt yaşayışdan məhrum olmuş, respublikanın müxtəlif ərazilərinə səpələnmişlər və bunun nəticəsində onların şivə xüsusiyyətləri itir, getdikcə neytrallaşır. Bu səbəbdən onların şivə xüsusiyyətlərinin müxtəlif aspektlərdən araşdırılması zəruridir.

Qərbi Azərbaycan bütöv, vahid Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu ərazilər tarixin ən qədim dövrlərindən azərbaycanlıların yaşayış məskəni olmuşdur. Qərbi Azərbaycanın köklü sakinlərinin Azərbaycan türkləri olduğu konkret mənbələr və faktlar əsasında sübuta yetirilmişdir. "Azərbaycanın tarixi torpaqlarının bir hissəsi olan Qərbi Azərbaycanda hal-hazırda Ermənistan dövləti mövcuddur" (1.6). Şovinist Ermənistan hökumətinin yürütdüyü mənfur siyasət nəticəsində hal-hazırda bu ərazidə bir nəfər də olsun azərbaycanlı qalmamışdır. "1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra ermənilər minilliklər ərzində azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan ərazisinə... köçürülməyə başlamış, Rusiya İmperiyasının dəstəyi ilə azərbaycanlılar öz dədə-baba torpaqlarından tədricən sıxışdırılıb çıxarılmış, mərhələlərlə doportasiyaya məruz qalmışlar" (1.7).

Bu siyasi-tarixi şəraitlə əlaqədar olaraq müxtəlif ərazilərə səpələnmiş Qərbi Azərbaycan sakinlərinin şivə xüsusiyyətlərinin tədqiq edilməsinə xüsusi ehtiyac vardır və bu zərurət bir sıra dilçi alimlərimizin həmin şivələrlə bağlı araşdırmalar aparmasına səbəb olmuşdur. Belə ki Qərbi Azərbaycan şivələrindən bir qismi ayrı-ayrılıqda (Meğri, Dərələyəz, Çəmbərək, Karvansaray, Sisyan və b.) tədqiqata cəlb olunmuş, ümumilikdə bütün Qərbi Azərbaycan şivələrinin leksikası da araşdırılmışdır. Bu araşdırmaların müəyyən bir qismi sovet dövründə aparılsa da, müstəqillik dövründə bu sahəyə olan maraq xeyli artmışdır. Qərbi Azərbaycan şivələrinin araşdırıcılarından olan İ.Bayramov bu şivələrin tədqiqi ilə bağlı fikirlərini belə ümumiləşdirmişdir: "Qərbi Azərbaycan ərazisindəki Azərbaycan şivələri ilə bağlı araşdırmalar olsa da, tam öyrənilməmişdir... Lakin bir təsəllimiz qalır ki, Qərbi Azərbaycan şivələrinə sovet dönəmində, "qardaşlıq" zamanında məqalələr, dissertasiyalar həsr olunmuş, ərazinin müxtəlif bölgələrində işlənən sözlər dialektoloji lüğətlərdə (1964, 2007) əksini tapmışdır" (2.7-8).

Qərbi Azərbaycan şivələrinin tədqiq olunması ilə bağlı E.Əzizov yazır: "Ermənistan (Qərbi Azərbaycan – S.S.) ərazisindəki Azərbaycan dili şivələrinin öyrənilməsi işi başa çatdırılmadı, bu iş yarımçıq qaldı. Ancaq bu da bir təsəllidir ki, heç olmasa Ermənistanın Basarkeçər, Sisyan, Krasnoselo və Masis rayonlarının Azərbaycan dili şivələrinə dair dissertasiyalar yazılıb müdafiə olundu. Ermənistanın başqa yerlərində yaşayan azərbaycanlıların şivələri isə demək olar ki, tədqiqatdan kənarda qaldı" (3.111).

Azərbaycan dili dialekt və şivələrinin sistemli tədqiqinə XX əsrin əvvəllərindən başlansa da, Qərbi Azərbaycan şivələrinin tədqiqinə XX əsrin II yarısından, daha dəqiq desək, 60-cı illərdən başlanmışdır. Azərbaycan dilinin qərb və cənub dialekt və şivələrinin əlamətlərini özündə birləşdirən Qərbi Azərbaycan şivələri maraqlı fonetik və qrammatik xüsusiyyətlərə, zəngin leksik tərkibə malikdir. İ.Məmmədov Qərbi Azərbaycan şivələrinin bəzi fonetik xüsusiyyətləri, bu şivələrdə işlənən isim düzəldən qeyri-məhsuldar şəkilçilər, sifətlər, fellər, arxaizmlər haqqında, Y.Camalov Qərbi Azərbaycan şivələrində ismin halları haqqında araşdırmalar aparmışdır. Qərbi Azərbaycan şivələrinin lüğətinin hazırlanması sahəsində Ə.Ələkbərli "Qərbi Azərbaycanın dialektoloji lüğəti" adlı kitabının I cildini, İ.Bayramov "Qərbi Azərbaycan şivələrinin leksikası" lüğətlərini hazırlamışlar. Bu sətirlərin müəllifi isə Qərbi Azərbaycan şivələrində ədəbi dilin arxaik leksik və qrammatik vahidləri ilə bağlı araşdırmalar aparır.

Qərbi Azərbaycan şivələrinin bölgələr üzrə tədqiqi sahəsində nisbətən çox iş görülmüşdür. Belə ki Z.Vəliyev Basarkeçər rayonu şivələrini, Q.Bağırov Sisyan rayonu şivələrini, A.Həsənov Nüvədi (Zəngəzur) şivəsinin xarakter leksik xüsusiyyətlərini, Ə.Əliyev Meğri rayonu şivələrini, Ş.Kərimov Çəmbərək və Karvansaray rayonlarının şivələrini, M.Cəfərov Azərbaycan dilinin Kirovakan və Spitak şivələrində felin nəqli keçmiş zamanda işlənən –ıb... zaman şəkilçisi haqqında, A.Ə.Bayramov Ağbaba şivəsini, B.Əsgərov Ağbaba mahalında – Amasiya rayonunda işlənən bəzi arxaik sözləri, F.Babayev Zəngibasar rayonu şivələrini, N.Rzayeva İrəvan şivəsini tədqiqata cəlb etmişlər.

Qərbi Azərbaycanın Dərələyəz mahalının şivə sözlərinin tədqiqata cəlb olunması isə Həsən Mirzəyevin adı ilə bağlıdır. H.Mirzəyev Dərələyəz mahalı (Yeğeqnadzor (Keşkənd) və Vayk (Paşalı, Əzizbəyov) rayonları) şivələri ilə bağlı bir neçə məqalə (Dərələyəz şivəsində işlənən termin səciyyəli sözlər. *Filologiya məsələlərinə dair tematik toplu, 2002, № 3-4, s.3-11;* Dərələyəz şivələrində qohumluq bildirən sözlər. *Filologiya məsələlərinə dair tematik toplu, 2002, № 3-4, s.38-44;* Dərələyəz mahalının şivə sözləri. *Filologiya məsələlərinə dair tematik toplu, 2002, № 3-4, s.65-70;* Dərələyəz şivə sözləri və bunların lüğəti. *"Dədə Qorqud", 2003, № 1*), bir dərs vəsaiti (Dərələyəz mahalının toponimləri və şivə sözləri. *Bakı,*

"Ağrıdağ", 2003, 360 s.) yazmış, "Qərbi Azərbaycanın Dərələyəz mahalı" və "Azərbaycan toponimləri və şivə sözləri" monoqrafiyalarında isə bu məsələyə ayrıca fəsil ayırmışdır.

Dərələyəz şivəsi ilə bağlı tədqiqata başlayan H.Mirzəyev tədqiqatının məqsədi və istiqaməti barədə yazır: "Məlum olduğu kimi, Azərbaycanın dialekt və şivələri haqqında çoxlu tədqiqatlar aparılmış, çoxlu kitab və məqalələr yazılmışdır. Bütün bunları nəzərə alıb mən bu mövzudan geniş şəkildə danışmaq istəmirəm.

Burada yalnız Dərələyəz şivəsinə məxsus bəzi xarakterik cəhətləri qeyd etməklə kifayətlənəcəyəm. Bu mövzu xüsusi olaraq geniş şəkildə tədqiq olunmalıdır, çünki bu Qərbi Azərbaycanın tarixi və gələcək taleyi ilə bağlı bir məsələdir" (4.303). Bu sətirlərdən göründüyü kimi, müəllif məsələnin ciddiyyətini və əhəmiyyətini vurğulamış, araşdıracağı cəhətləri göstərmiş, həmçinin gələcək tədqiqatçılar üçün də istiqaməti müəyyən-ləşdirmişdir.

H.Mirzəyev Dərələyəz şivəsinin leksikası barədə yazır: "Azərbaycanın qədim torpağı olan Dərələyəz mahalının şivəsi özünə məxsus leksikası ilə diqqəti cəlb edir. Mahalın şivəsində işlənən sözlər Azərbaycan dilinin tarixi inkişafı ilə sıxı surətdə bağlıdır. Dərələyəz mahalının şivə sözləri dedikdə yalnız bu ərazidə yaşayan azərbaycanlıların işlətdiyi sözlər nəzərdə tutulur" (5,101).

Qərbi Azərbaycanın aborigen əhalisi olan azərbaycanlıların, konkret olaraq Dərələyəz mahalında yaşayan əhalinin şivə xüsusiyyətlərinin öyrənil-məməsini H.Mirzəyev belə izah edir: "Dərələyəz mahalı azərbaycanlıların qədim vətənidir. Zaman-zaman rus imperiyasına arxalanan ermənilər azərbaycanlıları bu bölgədən deportasiya etmişlər. 1828-1832, 1905-1906, 1918-1919, 1948-1953-cü illərdə açıq şəkildə aparılan deportasiya 1988-ci ildə sona yetdi. 1988-ci ilin noyabr ayında Dərələyəz mahalında yaşayan azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən tarixi torpaqlarından deportasiya edildi. Bu səbəblər üzündən Dərələyəz mahalında yaşayan azərbaycanlıların işlətdiyi şivə sözləri tədqiq olunmamışdır. Qərbi Azərbaycanda, o cümlədən Dərələyəz mahalında şivə leksikası indiyə kimi tam öyrənilməmiş qalmışdır" (4.303).

H.Mirzəyev Dərələyəz şivəsinin leksik tərkibini 7 qrupa ayırmış, birinci bölmə kimi "Arxaikləşən və arxaikləşmə ərəfəsində (keçid mərhələsində) olan sözlər" başlığı altında 10 (*yaşmax, ələm, tuğ, ün, küz, quzulamaq, küzdək, tuş, təpəl, səpəng*) leksik vahidi təhlil etmiş, bu leksik vahidlərin vaxtilə klassik ədəbiyyatda, aşıq ədəbiyyatında işləndiyini, qazax, qırğız, tuva, başqırd və digər türk ədəbi dillərində bu gün də işlək olduğunu, Azərbaycan ədəbi dili üçün isə arxaikləşdiyini, lakin Dərələyəz şivəsində hal-hazırda da danışıqda istifadə olunduğunu faktlarla isbat etmişdir.

"Qohumluq bildirən sözlər" adlı ikinci bölmədə 28 (*tirə, uşağı, nəcabət, nənə, ava//aba//əpə, yeznə, kəv, yengə, dədə, qağa, dadaş, nəvə//nəticə//kötükcə, bajı, baba//qoja baba, mama//bibi, əvlat, günü, arvad, xatın, qaynana, qaynata, baldız, bacanax, qızdıx, ögey ana, atalıx, qardaşdıx* (6.38-44)) leksik vahidi müəllif təhlil etmiş, onların Azərbaycan dilinin digər dialekt və şivələrində, həmçinin ayrı-ayrı türk dillərində işlənməsini nümunələrlə vermişdir.

"Çəki, ölçü və pul vahidlərinin adlarını bildirən sözlər" adlı üçüncü bölmədə 15 (*çanax, girvənkə, batman, çetver, çod içi, türə içi, yarım put, yük, xəlvər, əriş, qulac, səjin, çərək, çüyəcə, axça*), "Vəzifə, rütbə bildirən sözlər" adlı dördüncü bölmədə 7 (*xan, bəy, pristav, yüzbaşı, qlava, katda, meşəbəyi*), "Köhnə vergi adları bildirən sözlər" adlı beşinci bölmədə 5 (*töycü, odun pulu, dimməver, tüstü pulu, saldat pulu*), "Bitki adları bildirən sözlər – fitonimlər" adlı altıncı bölmədə 48 (*ağ ot, qara ot, "qərə ot", qırxbizik, əvəlik, "əvəlix", şıppır, həmənköməci, kijirtkan, kicirkan, yarpız, çiriş, çaşır, "çaşur", ayı çaşırı, sırmaşıx, süddüyan, baldırğan, çaçıx, çajux, cacik, yemlik, yemilih, yemilix, xatınbarmağı, yolotu, üçqulax, sümürtkan, qəntəpər, səhlab, gülxətm, kəkotu, dəliximi, keçi baldırğanı, topalot, cırtdanquş, mollabaşı, mollamindi, pişik cırmağı, xincilov, çildirim* və s.) leksik vahid təhlil olunmuşdur.

"Termin səciyyəli sözlər" adlı yeddinci bölmə 5 bənddən (7.3-11) ibarətdir: a) Məişət, əkinçilik və biçinçiliklə bağlı sözlər – burada 45 leksik vahid (*kotan, cüt, yaba, şana//şanə, kürək, mala, şilaver, oraq, kərənti, araba//arava, gəm, vəl, ləğərə, cırım, bağ, bafa//bafə, xozan, bəndəm, pencə, dərz, taya//tayə, kürəkeş, xırman//xərmən, xotma, küləş, saman, savırıx/-/savrıx, bəlim, şadara, daşgir, pişik quyruğu, çılpaq buğda, kərdiyar, ağ arpa, sulu yer, zir, dəmyə yer, xərək, peşqurt//peşğurt, qırp, qara arpa//qərə arpa, pərinc, zəyərək//zəyərəx, nöxud*); b) Cütün və kotanın hissələrinə aid sözlər – burada 14 leksik vahid (*maj, köbal//köbəl, həvəndə, işgil, boyundurux//boyundürüx, lavaşa//lavəşə, kotanın çəmbərəyi, bazı//bazi, sırnış, samı//səmi, sambağı//səmbəği, laydır, maz, əymə*); c) Maldarlıqla bağlı sözlər – burada 9 leksik vahid (*naxır, naxırçı, sığır, xalxal//xalxəl, kələ, qısır, gəzyazma, ərəmik, hörüyə gəlmək*); ç) Təbiət hadisələri ilə bağlı sözlər – burada 4 leksik vahid (*xilloru//qilloru, çiskin, qara yel//qərə yel, ayaz yeli//əyaz yeli*); d) Ay, gün, fəsil adları ilə bağlı sözlər – burada 9 leksik vahid (*böyük çillə//böyük çilə, kiçik çillə, keçiqıran//qarının dərdi, kərnəbut, ağlar-gülər ay, bozay, qora bişirən ay, quyruq doğan ay//quyrix dögən ay, cəmlələr*) izah olunmuşdur.

H.Mirzəyev Dərələyəzdəki şivə sözlərinin lüğətini (8) də hazırlayaraq çap etdirmişdir. Bu lüğətdə 603 söz əlifba sırası ilə verilmiş, müxtəlif fonetik tərkiblərdə tələffüz olunan sözlərin bütün fonovariantları qeydə alınmış

(məsələn: *ava//aba// əpə; avsar//ovsar; çaqqala//çağala; dambat//dammat; demi//demiyə; dibir//dübür; ərəmix//ərəmik; kav deyil//kov deyil; qafsımax//-qafsamax, qanırmax//qanqırmax, qaravəlli//qərəvəlli; qazalax//qazalaq; öynə//əvnə; pəriş//pərinc; südəcər//südəjər; zənqum//zəqqum* və s.), hər birinə aid izahlar verilmiş, bir söz bir neçə mənada işlənirsə, həmin mənaların hər biri qeyd olunmuşdur (məsələn: ***kəf*** *– 1.xörək bişirən zaman suyun üzərində toplanan köpük; 2.çaydanda, simavarda əmələ gələn çöküntü; 3.hiylə, kələk; kəf gəlmək – kələk gəlmək, aldatmaq;* ***qıtmıx*** *– 1.bir tikə; 2.kəpək növü;* ***tovlamaq*** *– 1.aldatmaq; 2.sapı əyirmək, pip hamarlamaq; 3.qarışdırmaq;* ***tutma*** *– 1.torpaqda basdırılan ağacın göyərməsi; 2.xiyar növü;* ***zir*** *– 1.nəlbəki; 2.yerlərin içindən suyun axması üçün kotanla, cütlə çəkilən cızıq;* ***zolax*** *– 1.qamçı yeri; 2.əkin yerinin, biçənəyin, otlağın, meşəliyin müəyyən bir hissəsi* və s.) (9.280-297). Faktlara bu cür diqqətlə yanaşmağı müəllifin həm dilçi-dialektoloq kimi peşəkarlığını, həm də bu lüğəti hazırlayarkən nə qədər böyük zəhmətə qatlaşdığını nümayiş etdirir.

H.Mirzəyev Dərələyəz mahalının ayrı-ayrı kəndlərindən olan informatorlardan məlumatları toplamaq üçün ömrünün ahıl çağında Azərbaycan Respublikasının müxtəlif bölgələrinə səfərlər etmiş, həmin bölgələrdə məskunlaşmış dərələyəzlilər ilə görüşmüş, onların verdikləri məlumatları qeydə almışdır.

Onun Qərbi Azərbaycanın Dərələyəz mahalının şivə sözləri ilə bağlı apardığı tədqiqatlar, çap etdirdiyi məqalə və kitablar böyük zəhmətin, gərgin əməyin, peşəkar yanaşmanın, dərin elmi araşdırmaların, və ən əsası isə, doğma yurda, el-obaya olan sonsuz məhəbbətin bəhrəsidir.

Bura qədər deyilənlərdən aydın olur ki, Qərbi Azərbaycan şivələrinin tədqiq olunması sahəsində müəyyən işlər görülmüşdür. Lakin bütün bu sadalananlar kifayət deyildir. Çünki Qərbi Azərbaycan şivələrinin öyrənilməli, tədqiqata cəlb olunmalı xeyli cəhətləri vardır ki, gələcək tədqiqatlarda bunların tədqiq edilməsi, araşdırılması zəruridir.

Ədəbiyyat:

1. Sadıqova S. Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında. Bakı, ADPU, 2014, 194 səh.
2. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, “Elm və təhsil”, 2011, 440 səh.
3. Əzizov E. Söz xəzinəsi. Bakı, “Maarif”, 1995, 128 səh.
4. Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri. Bakı, “Ağrıdağ”, 2003, 360 s.

5.Mirzəyev H. Dərələyəz mahalının şivə sözləri. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4, s.65-70.
6.Mirzəyev H. Dərələyəz şivələrində qohumluq bildirən sözlər. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4, s.38-44.
7.Mirzəyev H. Dərələyəz şivəsində işlənən termin səciyyəli sözlər. Filologiya məsələlərinə dair tematik toplu. 2002, № 3-4, s.3-11.
8.Mirzəyev H. Dərələyəzin şivə sözləri və bunların lüğəti. "Dədə Qorqud" jurnalı, № 1, 2003.
9.Mirzəyev H. Azərbaycanın toponimləri və şivə sözləri. III, Bakı, "Elm", 2006, 536 s.

Севиндж Садыхова
Исследователь говоров западного Азербайджана
Гасан Мирзоев

Резюме

Привлечение к исследованию говоров Дерелеязского округа Западного Азербайджана (нынешней Армении) связано с именем Гасана Мирзоева. В состав Дерелеязского округа входят два района: Егеднадзорский (Кешкенд) и Вайкский (Пашали, Азизбеков).

Г.Мирзоев исследовал говоры обеих районов. Он опубликовал несколько статей, учебное пособие (Топонимы и говоры Дерелеязского округа. Баку, 2003, 360 с.) связонное с говорами Дерелеязского округа. Он также уделил отдельные главы этой теме в монографиях «Дерелеязский округ Западного Азербайджана» и «Топонимы и говоры Азербайджана».

Г.Мирзоев разделил лексику Дерелеязского говора на семь частей. Он сгруппировал их на слова ставшими архаизмами, слова, означающие родственные отношения, терминологическая лексика и т.д. Г.Мирзоев впервые составил словарь Дерелеязского говора. В словаре дано объяснение 603 слов. В полисемантичных словах излагаются все смысловые оттенки этих слов.

Sevinj Sadigova

Western azerbaijan dialects researcher Hasan Mirzayev

Summary

Attracting to research an accents Daralayaz area of Western Azerbaijan (present Armenia) depend to name of Hasan Mirzayev. Daralayaz district include 2 areas: Yegegnadzor (Keshkend) and Vayk (Pashali, Azizbekov). Hasan Mirzayev researched accents of both regions. He published several articles, tutorial (Toponyms and accents of Daralayaz . Baku, 2003) about accents of Daralayaz district. He also devoted a separate chapters in monographs "Daralayaz district of Western Azerbaijan" and "Toponyms and accents of Azerbaijan".

Hasan Mirzayev shared lexis of Daralayaz accents of seven parts. He grouped them on words became archaic, related meaning words, terminological lexic and etc. Hasan Mirzayev is the first compiler of the dictionary of Daralayaz accents. In the dictionary give explanation of 603 words. In polysemantic words sets forth the semantic nuances of all words.

Rəyçi: Mahirə Hüseynova
filologiya fəsfə doktoru, dasent

MƏTANƏT ƏMRAHOVA
UNEC
amrahova2016@mail.ru

ABBASQULU AĞA BAKIXANOVUN İRSİNİN TƏDQİQ TARİXİ

Açar sözlər: A.Bakıxanov, elmi yaradıcılıq, fars dilinin qrammatikası, arxeoloji tədqiqatlar, sistemli tədqiqat əsəri
Ключевые слова: А. Бакиханов, научное творчество, грамматика фарси, археологические исследования, системное исследовательское произведение.
Key words: A.Bakıkhanov, scientific creativity, Persian Grammar, arxeoloji studies, systematic research work

Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndələrindən biri olan Abbasqulu ağa Bakıxanovun dünyagörüşü, həyatı və elmi yaradıcılığının öyrənilməsi tarixini şərti olaraq üç dövrə bölmək olar. Görkəmli mütəfəkkirin yaşadığı dövrdən XIX əsrin sonlarına qədər A.Bakıxanov haqqında qələmə alınmış müşahidələr, xatirələr və ayrı-ayrı qeydlər bu tarixin birinci dövrünü təşkil edir.

İkinci dövr, daha çox XIX əsrin sonu, XX əsrin ilk onilliyində A.Bakıxanovun elmi irsinin rus və Azərbaycan alimləri tərəfindən öyrənilməsi, onun əsərlərinə şərhlərin yazılması və digər bir sıra tədqiqatlarla xarakterikdir. Alimin yaradıcılığının Rusiya, Azərbaycan və xarici tədqiqatçılar tərəfindən öyrənilməsi, onun əsərlərinin, həyat və yaradıcılığına dair arxiv sənədlərinin, naməlum mənbələrin üzə çıxarılıb nəşr olunması ilə səciyyələndirilən üçüncü dövr isə bu tarixin ən mühüm mərhələsidir. A.Bakıxanovun tarixi irsinə ilk elmi münasibət bildirilən əsərlərdən biri kimi 1829-cu ildə "Тифлисские ведомости" ("Tbilisi xəbərləri") qəzetində dərc edilmiş məqalə nəzəri xüsusilə cəlb edir. Həmin məqalədə Bakıxanovun elmi yaradıcılığına diqqət yetirilmiş, onun fars dilindən rus dilinə tərcümə etdiyi elmi materiallar yüksək qiymətləndirilmiş və alim tərəfindən fars dilinin qrammatikasının hazırlanması faktı qeyd edilmişdir. Məqalədə daha sonra ərəb, fars, tatar və türk dillərini mükəmməl bilən A.Bakıxanovun bu bölgədə məşhur sima olduğu qeyd edilmişdir: "Elmə marağı ilə o, Avropa alimlərinin də diqqətini cəlb etmişdir. Bakı hakimləri fəallarından olan A.Bakıxanov özünü elmə sərf etmişdir və bizdə mayor rütbəsində qulluq edir. Rus dilini yaxşı öyrənmişdir, onun qrammatikasını da bilir, fars dilinin qrammatikasını tərtib etmişdir və onu bu yaxınlarda rəisliyə təqdim edəcəkdir" [3, 22].

1833-cü ildə A.Bakıxanovun fars dilinin qrammatikasına aid olan "Qanunu-Qüdsi" əsərinin farsca orijinalı İranda daş basmaxanasında, 1841-ci ildə isə həmin əsərin rus dilində tərcüməsi Tiflisdə, D.Arakovların mətbəəsində çapdan çıxmışdır. 1846-cı ildə isə "Кафказ" ("Qafqaz") qəzetində A.Bakıxanovun ilk adı "Qafqazın şərq hissəsinin tarixi" olan "Gülüstani-İrəm" əsəri haqqında söhbət açılmış, polkovnik Abbasqulu ağa Bakıxanovun savadlı müsəlmanlardan biri kimi "Qafqazın şərq hissəsinin tarixi"ni tərtib etməsi, çarın onun bu əsərinin Rusiya İmperator Elmlər Akademiyasına rəyə göndərilməsini əmr etməsi barədə məlumat verilmişdir. Qəzetdə akademiklər Dorn və Brossenin həmin əsər haqqında rəylərinin nəticə hissəsi də dərc edilmişdir [5, 7]. 1847-ci ildə "Закавказский вестник" ("Zaqafqaziya xəbərləri") qəzeti məşhur tatar mahnısının A.Bakıxanov tərəfindən rus dilinə tərcümə edilməsi faktına öz səhifəsində yer ayırmışdır [3, 22].

1846-cı ildən etibarən A.Bakıxanovun elmi yaradıcılığının xarici mətbuatın da diqqətini cəlb etməyə başladığını görürük. Belə ki, 1846-cı ildə Almaniyanın "Alqemayne Zeytunq" qəzetində Bakıxanovun "Əsrar-ul məlakut" adlı astronimik əsəri haqqında məlumat verilmişdir. Qəzetin Konstantinopoldakı (İstambul) müxbiri A.Bakıxanovun alimliyinin onun ölkəsində də məşhur olduğunu və alimin tərtib etdiyi astronimik traktatı qəbul zamanı sultana verdiyini yazmışdır [10, 4].

XIX əsrin 60-cı illərində Bakıxanovun "Kitabi Əsgəriyyə" əsəri N.Qədirov və İ.Lazarev tərəfindən Moskvada nəşr olunan "Azərbaycan dili müntəxəbatı"na daxil edilmişdir. 80-ci illərdə isə Tiflisdə Azərbaycan dilində çıxan "Kəşkül" qəzetində Bakıxanovun "Fars dilinin qrammatikası" kitabı bu dili öyrənmək üçün vacib bir kitab kimi dəyərləndirilmişdir. Həmin qəzetdə Bakıxanovun "Təhzibül-əxlaq" əlyazmasının bəzi fəsilləri də dərc olunmuşdur. 90-cı illərdə eyni zamanda "Kaspi" qəzetində Bakıxanovun "Qafqazın şərq hissəsinin tarixi"ndən parçalar çap edilmişdir [3, 23].

Ümumiyyətlə, yaradıcılığının tədqiqi tarixinin bütün dövrlərində A.Bakıxanovun "Qafqazın şərq hissəsinin tarixi" əsərinin Qafqazşünaslıqda son dərəcə əhəmiyyətli mənbələrdən biri kimi qiymətləndirildiyini müşahidə edirik. Məsələn, etnoqraf A.Komarov Qazıqumux və Kürə xanlıqlarının tarixinin və Dağıstan əhalisi haqda əsərlərinin hazırlanmasında Bakıxanovun "Dağıstan tarixi" əlyazmasından bir mənbə kimi istifadə etdiyini göstərmişdir. Qafqaz müharibələri tarixini yazarkən N.Dubrovin Bakıxanovun əsərlərindən faydalanmışdır. Qafqazşünas Berje, Dağıstan tarixinin bilicisi sayılan E.Kozubski, Qafqaz üzrə biblioqraf M.Miansarov və D.Peqirov, tarixi biblioqrafiya müəllifi V.Meqiov da Bakıxanovun tarixi və ədəbi tarixşünaslığından bəhrələnmişlər. Adı çəkilən müəlliflər Bakıxanovun Qafqaz və yaxın Şərq tarixi və ədəbiyyatı üzrə əlyazmalarının və əsərlərinin

siyahısının, bu əsərlərdə öz əksini tapmış məlumatların əhəmiyyətini xüsusi qeyd etmişlər. A.Bakıxanovun həyat və yaradıcılığı haqqında qeydlərlə Qriboyedovun əsərlərində də rastlaşırıq. Bu qeydlər, əsasən, 1826-1828-ci illər Rus – İran müharibəsi dövrünü əhatə edir. Qriboyedovun qeydlərində Bakıxanovun İran şahzadəsi Abbas Mirzə ilə bütün danışıqlarda iştirak etməsi və sülh müqaviləsi bağlanması üzrə komissiyasının üzvü olması göstərilir. Bu qeydlərdə Qriboyedovun A.Bakıxanovla birgə Gəncədə Nizaminin qəbrini ziyarət etməsi faktı da öz əksini tapmışdır [2, 66].

1823-cü ildə Qriboyedova həsr etdiyi poemada şair-dekabrist V.Küxelbeker də A.Bakıxanov haqqında söhbət açmışdır. Eyni zamanda A.Bestujev-Marlinski 1838-ci ildə nəşr etdirdiyi "Povest və hekayələr" kitabında A.Bakıxanovu arxeologiya və Şərq tarixini mükəmməl bilən bir şəxs kimi qiymətləndirmişdir. "Dağıstandan məktublar" əsərində o, 1831-ci ildə General Pankratyevin komandanlığı altında Dağıstana yürüşündə podpolkovnik A.Bakıxanovun da iştirak etdiyini yazmış, Çirki adlı kəndin alınmasında və məsələnin qan tökülmədən sülh yolu ilə nizamlanmasında A.Bakıxanovun böyük rol oynadığını, bu faktın mütəfəkkirin yerli əhali arasında böyük nüfuza malik olmasını göstərdiyini qeyd etmişdir. Dağıstan tarixçisi M.Alixanov Avarski Dağıstanın qədim tarixinin tədqiqində A.Bakıxanovun elmi irsini yüksək qiymətləndirmişdir. Dağıstanlı tarixçi və ərəbşünas alim Həsən Əfəndi Əlqədəri də öz tədqiqatlarında A.Bakıxanovun həyat və fəaliyyətinə geniş yer vermişdir. Eyni zamanda, XIX əsrin 30-cu illərində Tiflisdə yaşamış rus şairi Y.Polonski və polyak inqilabçılarından Lada Zablotski A.Bakıxanovla Tiflisdə yaxından əlaqə saxladıqlarını qeyd etmişlər. Xüsusilə, L.Zablotski A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin ruscaya tərcüməsi üzərində işləmiş və bundan başqa ondan aldığı azərbaycanca bir nəğməni polyak dilinə tərcümə etmişdir. Y.Polonski isə öz növbəsində bu nəğməni polyak dilindən rus dilinə çevirmişdir. 1829-cu ildə A.Bakıxanov fars qrammatikası dərsliyini ("Qanuni-Qüdsi") tamamlayır. O dövrdə Rusiyanın Xarici İşlər Naziri qraf Nesselrod bu əsərin əhəmiyyəti haqqında yazırdı: "Abbas Qulu ağanın Şərq dilləri sahəsindəki yoxlanmış bilikləri Asiya departamenti tərəfindən də bəyənilmişdir" [3, 25].

1845-46-cı illərdə Kazan Universitetinin "Elmi xəbərləri"ndə İ.Berezin 1842-ci ildə V.Dittellə birlikdə İran və Türkiyəyə üç il müddətinə elmi səyahətləri ilə bağlı məlumat vermiş, 1850-ci ildə "Dağıstan və Zaqafqaziyaya səyahət", 1852-ci ildə "Şimali İrana səyahət" kitablarını nəşr etdirmişdir. Bu əsərlərində İ.Berezin Bakıda olarkən A.Bakıxanovun evində ikən onun zəngin kitabxanası ilə tanış olduğunu və oradakı əsərlərin siyahısını universitetə göndərdiyini yazır. "Dağıstan və Zaqafqaziyaya səyahət" kitabında İ.Berezin 1842-ci il avqustun 12-də A.Bakıxanovun Azərbaycan və Dağıstan tarixinə dair əsəri ilə tanış olduğunu qeyd edir və

Bakıxanovun Quba torpağına son dərəcə bağlılığını, qərbi qubalıların hətta alanların sələfləri olduqlarını, onların isə massagetlərdən törədiklərini israr edir. "Акты Кавказской археографической комиссии" ("Qafqaz arxeoqrafik komissiyasının aktları") aktlarının VI cildinin II hissəsində Quba xanlarının şəcərəsi verilmiş, orada II Mirzə Məhəmməd xandan (A.Bakıxanovun atası) başlamış Bakıxanovun nəsli təsvir edilmiş, şəcərədə Bakıxanovların ana tərəfdən Qubalı Fətəli xanla qohumluğu göstərilmişdir. Alman şair və tərcüməçisi F.Bodenşted də özünün "Şərqdə min bir gün" kitabında A.Bakıxanovla olan münasibətlərindən, onun geniş elmi dünyagörüşünə malik olmasından danışır. O qeyd edir ki, A.Bakıxanov onun indiyə qədər tanıdığı alimlər arasında belə öz bilik və hazırlıq səviyyəsi ilə fərqlənir. Bakı xanlarının nəslindən olan bu şəxs uzun müddət Peterburq və Moskvada yaşadığına görə rus dilini sərbəst bilir. Sarayda qəbul olunmuş və rus ordusunun polkovniki rütbəsini almışdır. F.Bodenştedin məlumatına görə o zaman Bakıxanov "Gülüstani-İrəm" əsərinin rus dilinə tərcüməsi üzərində çalışırdı [7]. Göründüyü kimi, Bakıxanov irsinin öyrənilməsinin birinci mərhələsinə dair yazılar əsas etibarilə məlumat xarakteri daşımaqla, alimi elm aləminə, cəmiyyətə təqdim etmək mövqeyindən çıxış edir və əsaslı tədqiqat mövzusuna çevrilməmişdir.

A.Bakıxanovun yaradıcılığının öyrənilməsinin ikinci dövrü isə XIX əsrin sonu, XX əsrin ilk illərinə aiddir. Bu dövrdə mütəfəkkirin irsinin öyrənilməsinə, tədqiqinə birinci dövrdəki ilə müqayisədə daha ciddi münasibət müşahidə olunur. Əsrin ilk illərində tarixşünas Rəşid bəy İsmayılov "Müxtəsər Qafqaz tarixi" əsərində A.Bakıxanovun "Qafqazın şərq hissəsinin tarixi" əsərindən istifadə etmişdir. Maarifçi R.Əfəndiyev, ədəbiyyatşünas F.Köçərli, şair M.Ə.Sabir və başqaları da öz məqalələrində A.Bakıxanov yaradıcılığına daim müraciət etmişlər. F.Köçərlinin Həsən bəy Əlqədəri və Mehdi bəy Hacınskinin köməyi ilə hazırladığı "Azərbaycan ədəbiyyatı tarixinə dair materiallar" kitabında Bakıxanovun həyat və yaradıcılığına dair faktlar verilir [4, 37].

Bu dövrdə Bakıxanov irsi ilə bağlı irəli sürülmüş elmi fikirlərin mühüm bir hissəsi məhz "Qafqazın şərq hissəsinin tarixi" və yaxud "Gülüstani-İrəm" əsəri ilə bağlıdır. A.Bakıxanovun elmi irsinin tədqiqi, nəşri və təbliği prosesin üçüncü mərhələsində daha geniş vüsət almış, mütəfəkkirin həyatı, dünyagörüşünün inkişafı dövrləri, əsərlərinin geniş elmi şərhlərlə çapdan çıxması ilə təkcə tarixçilər deyil, müxtəlif sahələrə mənsub mütəxəssislər də məşğul olmağa başlamışlar.

XX əsrin ikinci onilliyindən başlayaraq A.Bakıxanovun irsinin öyrənilməsi sahəsində xüsusilə mühüm işlər görülmüşdür. 1923-cü ildə M.Şahtaxtinski A.Bakıxanovun "Gözəl şerləri"nin toplanaraq nəşr edilməsi təklifini irəli sürmüşdür. 1936-cı ildə İ.Petruşevskinin redaktəsi ilə çapdan

çıxmış "Колониальная политика Российского царизма в Азербайджане в XIX в." ("XIX əsrdə Azərbaycanda rus çarizminin kolonlaşdırma siyasəti") kitabının I hissəsində A.Bakıxanov haqqında materiallar verilmişdir. Kitabda A.Bakıxanovun 1843-cü il iyul ayının 7-də Qafqaz Komitəsi Komissiyasına məlumatına xüsusi diqqət yetirilmişdir. Bu məlumatda A.Bakıxanov müsəlman silki nümayəndələri barədə öz rəyini bildirir. 1937-ci ildə orta məktəblər üçün buraxılmış ədəbiyyat dərsliklərində də A.Bakıxanovun həyat və yaradıcılığı haqqında geniş məlumatlar verilmişdir. Dərslikdə mütəfəkkirin əsərlərinin Azərbaycan ədəbiyyatı tarixi üçün mühüm əhəmiyyət daşıdığı vurğulanmışdır [9, 130].Sovet dövründə A.Bakıxanov irsinin tədqiqində akademik Feyzulla Qasımzadənin böyük əməyi vardır. Alimin Pedaqoji İnstitutlar üçün "XIX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı" kitabında A.Bakıxanovun həyatı haqqında oçerklə yanaşı, onun əsərlərindən misallar da verilmişdir [6, 14].

F.Qasımzadənin EA-nın Azərbaycan filialı tərəfindən 1944-cü ildə nəşr edilmiş "Azərbaycan ədəbiyyatı tarixi"nin II cildində də Bakıxanov Qüdsi haqqında geniş məlumat verilmişdir [5, 20-36]. Həmin il F.Qasımzadə Elmlər Akademiyasının Azərbaycan filialının humanitar elmlər bölməsində A.Bakıxanovun həyat və yaradıcılığı haqda məruzə etmiş, 1947-ci ildə isə geniş məqaləsi dərc edilmişdir.Ə.Səidzadə də A.Bakıxanovun elmi irsi ilə bağlı dəyərli araşdırmalar aparmış, 1940-cı ildə onun "Gülüstani-İrəm" əsərinə dair məqaləsi çap edilmişdir. Bu əsərində müəllif A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin nəşri tarixi haqqında söhbət açmış, əsərə dair ədəbiyyat siyahısını vermişdir [8]. Bir məqamı qeyd etməliyik ki, A.Bakıxanovun yaradıcılığının hərtərəfli tədqiqində 1944-cü ildə onun 150, 1994-cü ildə isə 200 illik yubileyinin keçirilməsinin də mühüm rolu olmuşdur. Bu hadisələrdən sonra görkəmli mütəfəkkirin tarixi irsi müxtəlif səpkidən tədqiq edilmiş, yaradıcılığında rus və Avropa mədəniyyətinin təsirləri izlənmişdir. M.Rəfili, A.Popov Ş.Qurbanov, Ə.Qəhrəmanov, R.Həsənova, M.Rəfili, M.Arif, M.Cəfərov, H.Babayev, M.Sadıxov, R.Bədirbəyli də öz tədqiqatlarında A.Bakıxanov irsinə müraciət etmiş, görkəmli mütəfəkkirin rus şair və yazıçıları ilə əlaqələrinə xüsusi diqqət yetirmişlər. A.Bakıxanov irsinin tədqiqatçıları sırasında M.Şəriflinin, A.Ələsgərzadənin, Ə.Sumbatzadənin, M.İsmayılovun, Ə.Quliyevin, İ.Həsənovun, İ.Striqunovun, S.Rüstəmovun, Ə.Seyidovun, Z.Göyüşovun və başqalarının da adlarını çəkmək olar [1]. A.Bakıxanovun dövrü, həyat və yaradıcılığının öyrənilməsi və təbliği işində Ə.M.Əhmədovun zəhmətini xüsusi qeyd etmək lazım gəlir. O, Azərbaycan, Gürcüstan, Rusiya, Polşa və bir sıra dövlətlərin arxiv və mətbuat materialları əsasında A.Bakıxanovun irsini dərindən araşdırmış, Bakıxanovşünaslığa məlum olmayan bir sıra yeni dəyərli elmi faktlar ortaya qoya bilmişdir [10].A.Bakıxanov yaradıcılığının tədqiqində, xüsusilə mütəfəkkirin

əsərlərinin çapa hazırlanmasında, şərhlərin, göstəricilərin qeydlərin elmi surətdə təhlilində mərhum akademik Z.Bünyadovun müstəsna əməyi vardır. Alimin 1991-ci ildə rus dilində nəşr etdirdiyi "Gülüstani-İrəm" əsəri elmimizi, tariximizi öyrənmək üçün tədqiqatçılara verilmiş böyük bir töhfə kimi qiymətləndirilir. Çünki bu əsərdə verilən mənbələrin çoxu oxucu üçün yenidir. Kitab Gürcüstan EA-nın Əlyazmalar İnstitutunda saxlanan əlyazmanın orijinalı əsasında nəşrə hazırlamış, farsca mətni ilə müqayisə edilərək bir sıra dəqiqləşdirmələr aparmışdır. Z.Bünyadova görə, əsərin farsca mətni ilə rus mətni arasında müəyyən fərqlər mövcuddur ki, bu daha çox əsərin üslubunda özünü göstərir. Farscada olan Şərq koloriti ruscada klassik rus nitq forması ilə əvəz olunmuşdur [11, 7]. A.Bakıxanov haqqında yazılan ən sanballı kitablardan biri isə akademik Fuad Qasımzadəyə məxsusdur. Bu kitab A.Bakıxanov haqqında yazılan elmi nailiyyətləri özündə cəmləşdirən çox mükəmməl və dərin elmi bazaya arxalanan tədqiqat kimi böyük maraq doğurur [5].

A.Bakıxanovun dilçilik görüşləri isə çox az tədqiq olunmuşdur. Doğrudur, ayrı-ayrı əsərlərdə ona istinadlar olunsa da, ümumilikdə mütəfəkkirin dilçilik görüşləri kompleks şəkildə tədqiqata cəlb olunmamışdır.

Ədəbiyyat

1. Abbasqulu ağa Bakıxanov (1794-1847) Biblioqrafik ədəbiyyat göstəricisi, Bakı, Azərnəşr, 1977, 93 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. II cild, Bakı, 1960
3. Bədəlov Ə. Abbasqulu ağa Bakıxanovun siyasi-hüquqi görüşləri. Bakı, Elm, 2001
4.Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatı tarixinə dair materiallar. Bakı, Elm, 1978
5. Qasımzadə F. Abbasqulu ağa Bakıxanov Qüdsi (1794-1847). Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1944
6. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 1974
7. Müasirləri Bakıxanov haqqında. Bakı, 1959, 20 iyul
8. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, Yazıçı, 1983.
9. Антология азербайджанской поэзии. Баку, 1938
10. Ахмедов Э.М. А.К.Бакыханов. Эпоха, жизнь, деятельность. Баку, Элм, 1989
11. Буниятов З.М. Аббаскули Ага Бакиханов «Гюльистан-и-Ирам». Баку, Элм, 1991.

М.Амрахова

История исследования наследия аббасгулу Ага Бакиханова

Резюме

В статье говорится об истории исследования наследия Аббасгулу Ага Бакиханова, являющегося одним из выдающихся представителей истории общественной мысли Азербайджана. В то же время, здесь находит свое отражение написанные наблюдения, воспоминания и отдельные комментарии о периоде, в котором жил литератор.

В частности, дается обширная информация об изучении научного наследия А. Бакиханова со стороны русских, азербайджанских и зарубежных исследователей , дается обширная информация о написании комментарий к его произведениям и ряде прочих исследований. Затрагивается также деятельность выдающихся просветителей и интеллигенции, обративших свое внимание на научное творчество А. Бакиханова. В статье сделана ссылка на соответствующие научные источники по теме.

M.Amrahova

The investigation history of heritage of abbasgulu Agha Bakikhanov

Summary

In this article talked about the investigation of history of heritage of Abbasgulu Agha Bakikhanov one of the prominent members of public-opinion history of Azerbaijan. At the same time, there has been reflected observations, memories and individual records written on the period when the writer lived.

Particularly, in this article has been given information study of scientific hertiage of A.Bakikhanov by russian, Azerbaijani and foreign researchers, writing comments to his works and information on other studies. There has alo touched upon activities of prominent intellectuals and philosophers paid attention to scientific creature of A.Bakikhanov. In this article has been referenced to appropriate scientific sources on topic.

Rəyçi: **Qara Məşədiyev**
professor

SƏBİNƏ MURADOVA
Xarici dillər universteti
turalsabina99@gmail.com

XARİCİ DİL MÜƏLLİMİ OLMAĞIN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: tədris, təkmilləşdirmək, bilik, xarici dil,cəmiyyət, müəllim, təcrübə
Key words: teaching, to improve, knowledge, foreign language, society, teacher, experience
Ключевые слова: обучение, улучшать, знания, иностранный язык,-общества, учитель, опыт

Dilçi müəllim olmağın ən böyük vacibliyi onun həm xarici həm də öz dilində mükəmməl şəkildə bilməyidir.Bundan əlavə, müəllimin dünya görüşü burada böyük rol oynayır.Çünki o, öyrətdiyi dilin mədəniyyətini, tarixini bilməli və bunu tələbələrə yüksək səviyyədə öyrətməlidir.

Bir xarici dil müəllimi tədris etdiyi məkanın şəraitindən asılı olaraq bir otaqdan digər otağa keçə bilər və ya şəxsi otağa malik ola bilər.Bugün dövlət və özəl təhsil sistemində xarici dil digər fənnlər kimi bütün il boyu keçirilir.

Əgər dil müəllimi olmaq istəyirsizsə,ilk növbədə bakalavr dərəcəsi almaq vacibdir.Dildə səlist olmaq bu dil üzərində mükəmməl işləyib, dərinliklərini araşdırıb və tələbələrə aydın olacaq şəkildə çatdırmaq ən mühüm məsələlərdən biridir.Daha təkmilləşmiş dilə sahib olmaqla universitet və kolleclərdə tədris etmək mümkündür.

İbtidai və orta siniflərdə tələb olunan proqram əsasında keçməklə yanaşı digər lazım olan tələbləri əldə etmək üçün müxtəlif növ təlimlərə gedərək dili təkmilləşdirmək olar. Əgər ibtidai, orta və ya ali məktəblərdə xarici dil müəllimi olmaq istəyirsənsə,tələb olunan əsas məsələ müəllimin sertifikatı, yeni proqramları öyrənib onlar üzərində təcrübə aparmaq və sonda imtahan verməkdir.

Təlimdəki innovasiyalar cəmiyyətin inkişaf qanunauyğunluqlarına uyğun olaraq sadədən mürəkkəbə, aşağıdan yuxarıya prinsipi əsasında inkişaf edir.Bu baxımdan da təlimə yeni texnologiyaların tətbiqi məhz ibtidai təhsildən, daha doğrusu ümumtəhsil orta məktəblərindən başlanıb.Bir məsələni də xüsusi qeyd etməyi lazım bilirik ki,yeni təlim texnologiyalarının tətbiqi məktəbeqeder tərbiyə müəssisələrindən başlamalı idi. Çox təəssüf ki, bu belə olmadı.

Digər bir problem interaktiv təlimin mahiyyəti və onun ali məktəbdə tətbiqi imkanlarıdır.Araşdırmalar göstərir ki, interaktiv təlim öyrənənlərin

fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur.Xarici dilin tədrisi təlim və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir.

1.Müəllim tərəfindən süurlu surətdə dil öyrənilməsində idrakı problem situasiyalarının yaradılması,

2.Dil probleminin həlli prosesində tələbələrin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması,

3.Tələbələr üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsiüçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki,xarici dil müəllimi olmaq üçün tələbələrin yaddaşının təkcə yeni elmi biliklərlə(informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf edilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Tələbələrin fəal idrakı mövqeyinin lazımi səviyyədə qalması üçün müəllim:

1.Hər bir tələbə mərhəmətli, hörmətcil, fərdi münasibət bəsləməsi,

2.Auditoriyadakı mühiti xüsusi həssaslıqla duyması zəruridir.

Müəllimin tələbələrə xeyirxah münasibəti,hörməti,onları olduğu kimi qəbul etməsi və daim dəstəkləmək meyli, bacarıqlarına inandığını göstərməsi bunların hamısı tələbələrdəbir inamı möhkəmləndirə bilər ki,qarşıya qoyulmuş problemin həllində onların istənilən cəhdi yaradıcı fikir kimi qiymətləndirərək, ciddi və hörmətlə yanaşılacaqdır.Təlim prosesinin psixoloji mühitinin məhz bu şəkildə dəyişdirilməsi uğursuzluq qorxusunu, inamsızlıq hissini aradan götürə və tələbələrin idrak fəallığını dərs boyu lazımi səviyyədə saxlaya bilər.

Tələbəyə hörmətlə yanaşmaq, ona etibar etmək, onun cavablarını yaxsı və ya pis qiymətləndirməkdən imtina etmək onda həm özünəinam,həm də müəllimə hörmət və etibar hissini daha da artırır.

İndiki cəmiyyətdə xarici dil bilmə qabiliyyəti tək təhsildə müsbət mənfəətə sahib olmaq deyil, eyni zamanda hər hansı bir işçi qüvvəsi olmaq üçün əlverişlidir. Tibbi sahədən tutmuş sosial işlərə qədər xarici dil bilən şəxslər cəmiyyətdə tələb olunanlardır. Çünki cəmiyyətdə hər zaman onlara ehtiyac vardır. Dilə mükəmməl sahib olmaq qabiliyyəti üçün dil öyrədən tərəf dilə doğma dili kimi yiyələnməli , onun hər bir çətinliyini mükəmməl şəkildə çatdırmalıdır.Bəzən xarici dil müəllimi bir və ya bir neçə dilə sahib

ola bilər. Bəzən zəmanədən asılı olaraq hər hansı dilə ehtiyac duyulursa, o dili öyrənmək və ya öyrətmək vacibdir.

İbtidai siniflərdə dil

Dil öyrətmədə üç öyrətmə üsulu vardır.

1.Araşdırma (Exploratory)

2.Diqqətin dil üzərində cəmləşməsi (Language focus)

3.Dilin xüsusi şəkildə öyrədilmə metodu (İmmersion)

Araşdırma—Başlanğıcda ən çox təklif olunan proqramlar çərçivəsində tələbələr xarici dilin əsas giriş hissəsini qəbul edirlər.

Diqqətin dil üzərində cəmləşməsi--- Müəllimlər xarici dildə əsas olaraq qulaq asma, bu dildə necə danışmaq,oxumaq və yazmaq forması üzərində bələdçilik edirlər.

Xüsusi şəkildə öyrədilmə metodu--- Bu tip metodlarda tələbələr ən yüksək səviyyəyə çataraq dilin dərinliklərinə yiyələnirlər.

Bir çox hallarda ibtidai və orta məktəb müəllimləri bakalavr dərəcəsi ilə kifayətlənirlər. Bəzən bu kifayət etmir və onlar təlimlərə getməklə bunu təkmilləşdirə bilərlər. Əlavə olaraq, tələbənin biliyini ortaya çıxarmaq üçün tələbənin bu dildə danışma, oxuma, başa düşmə qabiliyyəti olmalıdır.Bu-nunla yanaşı, dili öyrədən müəllim öyrədilən dilin tarixini, mədəniyyətini də çatdırmalıdır.

Müəllimin dil öyrətmə metodları tək bunlarla əsaslanmaya bilər.Fəal təlim metodları öyrəncilərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutulur. Fəal təlim tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur.

Tədqiqatlar sübut etmişdir ki, dil öyrətmə metodları tədrisin key-fiyyətini artırmaq prosesində güclü vasitədir. Bu eyni zamanda təhsilə tətbiqi öyrəncilərin düşünmə və dərketmə fəaliyyətini stimullaşdırır. Bu zaman biliklərə müstəqil yiyələnmək, onlardan düzgün istifadə etmək, qoyulmuş problemin həllində tələbə yoldaşları ilə əməkdaşlıq etmək və.s bu kimi əməliyyatların yerinə yetirilməsi üçün şərait yaranır. Dili öyrətmə meto-dunda birbaşa tədris metodu oz aktuallığını qoruyur. Bu metodun mahiyyəti ondan ibarətdir ki,müəllim gündəlik həyatda istifadə olunan danışıq dilinin öyrənilməsinə daha çox diqqət yetirir. Bu metodun tərtibatçıları hesab edirlər ki, ana dilindən istifadə edilməsi xarici dilin öyrənilməsini ləngidir. Buna görə də, tələbələr süni olaraq öyrənilən dilin dünyasına daxil edilir.

Hal hazırda müəllimlərin böyük əksəriyyəti xarici dilin tədrisində kommunikativ metoddan istifadə edir. Bu metodun obyekti nitqin özüdür.Bu metod ilk növbədə ünsiyyəti tədris edir.Dilə mükəmməl şəkildə yiyələnməyin ən əsas yolu öyrənilən dildə mütəmadi olaraq ünsiyyət

saxlamaqdır.Müasir ali təhsil müəssisə müəllimlərinin əksəriyyəti bu metoda üstünlük verir və tez-tez onlardan birgə istifadə edirlər.

Kommunikativ metodda tələbə ayrıca fərd kimi göstərilir. Hər bir tələbə müəyyən dərəcədə həm ümumi, həm də qismən xüsusi bacarıqlara malikdir. Kommunikativ metod vasitəsilə bu bacarıqların üzə çıxarılmasında və sonradan onların inkişaf etdirilməsində yüksək nəticələr əldə etmək olar. Bu məqsədlə də ali təhsil ocağının profilinə uyğun olan müxtəlif testlərdən istifadə olunur. Bu metod təkcə tələbə müəllim deyil, eyni zamanda tələbələrin bir-biri ilə ünsiyyətini təmin edir.Kommunikativ tədris situasiyalar üzərində qurulur. Bu metodda ünsiyyətin müxtəlif vasitələri cəmləşmişdir. Bunlara jestlər,mimika kimi üsullar misal gətirmək olar ki, bunlar da istər leksik, istərsə də stilistik və.s materialın qavranılmasında əlavə yardımçı faktorlardan biridir. Bütün bunlardan bele nəticəyə gəlmək olar ki, istənilən kursda əsas element motivasiyadır. Bunun üçün müxtəlif vasitə və üsullardan istifadə edilməlidir.

Təhsilin məqsədi sadəcə tələbələrə savad verməklə kifayətlənməməli, eyni zamanda məntiqi düşünmə, təhlil etmə, sərbəst fikir bildirmə, özünə inam kimi bacarıqları da aşılamaqdan ibarət olmalıdır. Məhz buna görə, müasir dövrdə xarici dillərin tədrisi, biliyi tələbəyə effektiv şəkildə ötürə bilmə imkanına yaradan inovativ kommunikasiya metodlarını əhat etməlidir.Tələbə üçün biliyin mənimsənilməsi, gırmək və eşitməklə yanaşı qəbul edilən biliyin tətbiq edilməsini də təmin edir.Xarici dilin tədrisində əsas struktur vahid dərsdir. Dərs mürəkkəb ünsiyyət aktıdır.

Dil vərdişlərindən biri olan oxu vərdişlərinin inkişaf etdirilməsi dil öyrənməsinin ən vacib aspektlərindən biridir. Oxu tələbələrin dünyagörüşünü artırır,yeni söz və ifadələrin öyrənilməsinə yardım edir, bir sözlə, tədris olunan dilin tez qavranılmasını təmin edir. Lüğətsiz oxunun, yəni kontekstə əsasən mətndəki yeni sözlərin mənasının başa düşülməsi tələbələrin bilavasitə başa düşmək bacarığını inkişaf etdirməyə yönəlmişdir.Lüğətsiz oxu zamanı tələbələr naməlum sözlərin mənasını kontekstə uyğun tapırlar.

Tədqiqatlar onu da sübut etmişdir ki, XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün inkişafında əsas dəyər kimi ömürboyu öyrənən, özünü inkişaf etdirən şəxsiyyət durur. Məhz bugünki təhsil prosesi xarici dilləri öyrənənlərdə özünüinkişaf qabiliyyətləri formalaşdıra bilir. Bu prosesdə şəxsiyyəti öyrənmək, biliklərə yiyələnmək həvəsi, dərketmə fəallığı və şəxsiyyətin əməksevərliyi bıyük rol oynayır.Elə bu səbəbdən də müasir təlimin başlıca vəzifələrindən biri hazır biliklər vermək yox, öyrənməyi öyrətməkdir.

Məlum olduğu kimi, fəal təlim müasir tədrisin başlıca vəzifələrindən olan “öyrənməyi öyrətmək” prinsipinə yönəlmiş, bilikləri müstəqil əldə etməyi öyrədir. Fəal təlimin nəticəsində tələbələrdə bilikləri müstəqil, sərbəst

qavrama və mənimsəmə, məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli və qərar qəbul edilməsi, elmi-tədqiqat vərdişləri, geniş dünyagörüşü formalaşır, qarşılıqlı hörmət hissi və əməkdaşlıq aşılanır.

Bu tip xarici dil öyrənmə metodlarının respublikamızın təhsil müəssisələrində geniş tətbiq edilməsi və təkmilləşdirilməsi təqdirəlayiq və sevindirici haldır.

Ədəbiyyat

1.İsmailova D.A. Teaching English as a foreign language.Bakı, Mütərcim,2011.
2.Jeremy Harmer --- "The practice of Foreign Language". Longman,2001.vol 310
3.Abuzərli.S. Communicative Language Teaching with the help of Visual Aids,Azərbaycan Dillər Universiteti.
4.Paşayev Ə, Rüstəmov F. Pedaqogika. Bakı, Nurlan 2007.
5.Tahirov A., Salayeva A. Orta məktəblərdə ingilis dilinin tədrisi metodikası.Bakı, Maarif,1978.
6.Palmer Q. Xarici dillərin şifahi tədris metodu. M., 1960.
7.Şeylz D. Müasir dillərin tədrisində ünsiyyət.Avropa Press Şurası.

Muradova Sabina

Some criteria of being a foreign language teacher

Summary

An article deals with some criteria of being a foreign language teacher. Teaching foreign languages is of great importance in people's life.The teaching foreign languages, you can complete some crucial problems as: to change students' outlook, provide students with materials about the country, its geography, history, people and culture of the language taught by a teacher, to help students to go on their education abroad, help them to get success in their career, and so on. The article are defined methods of interactive teaching and are explained the essence of interactive training.Possibilities of application of interactive teaching, forms and means are commented. Methods and characteristics of interactive teaching are reseavehed. Used interactive teaching in the higher school are characterized, as main factors is risen of training of rationality.The paper can be essential for those who want to get detailed information about some criteria of being a foreign language teacher.

Мурадова Сабина

Некоторые критерии быть учитель иностранных языков

Резюме

В статье рассматривается критерии как учить иностранных языков.Отрадно то, что преподаватели в Азербайджане применяют широкий спектр интерактивных методов обучения, которые используется в системе образования в развитых странах Запада.

В статье раскрыта сущность интерактивного обучение, определены приемы и методы интерактивного обучения.

Изложены применение интерактивного обучения в Вузах, а также его формы и способы. Исследованы методы и особенности интерактивного обучения.

Применение интерактивного урока в Вузах о характеризован как основной фактор повышающий рациональность обучения.

Rəyçi: Salman Nuriyev
filologiya elmlər namizedi dasent

СИМА МАМЕДОВА
Азербайджанский государственная академия физической культуры и спорта
sima@mail.ru

СИТУАЦИЯ КАК ПРИЕМ РАЗВИТИЯ РУССКОЙ РЕЧИ СТУДЕНТОВ-АЗЕРБАЙДЖАНЦЕВ

Açar sözlər: rus dili xarici dil kimi, ünsiyyət tələbatı, nitqin inkişafı, situasiya, təlimin mərhələləri, ilkin məlumat, nitq sualları, dialoq.
Ключевые слова: русский язык как иностранный, потребность в общении, развитие речи, ситуация, этапы обучения, исходная информация, речевые вопросы, диалог.
Key words: Russian as a foreign language, need for communication, development of speech, situation, stages of communication, inital information, speech guestion, dialoq.

При изучении русского языка как иностранного для студентов большое значение имеет реальный стимул общения на этом языке. Однако «сами реальные условия для общения возникают обычно при определенных конкретных потребностях что-то сказать, о чем-то спросить или ответить на вопрос. Следовательно, на занятиях студенты должны быть заинтересованы в речевой информации и должны быть вынуждены реагировать на нее» [1, с. 29]. Это обстоятельство следует учитывать в учебном процессе, специально организуя условия для общения студентов-азербайджанцев друг с другом.

Создать на занятиях учебно-речевые ситуации, которые вызывали бы интерес у студентов и побуждали бы их к активной речевой деятельности на русском языке, не так легко.

При этом преподавателю предстоит решить ряд общих вопросов, в частности, следующие: 1. Что следует понимать под ситуацией в учебном процессе? 2. Каковы в целом условия, при которых использование ситуаций дает максимальный эффект в обучении русскому языку как иностранному?

Под учебно-речевой ситуацией мы понимаем «такие специально установленные условия и отношения, которые в целях коммуникации вынуждают студентов и позволяют им реализовать нужный речевой материал в его фонетически и грамматически правильном выражении» [2, с. 52].

В работе по ситуациям преподаватель должен опираться на естественные причины, порождающие вопросы, а именно: на

потребность студентов получить учебно-бытовую информацию, связанную с вынужденными речевыми действиями; на естественную любознательность студентов; на случаи, когда слова говорящего недостаточно ясно были восприняты и требуется повторить вопрос, переспросить о чем-то, в чем-то убедить слушающего и т. п.

Работы по ситуациям требует тщательного их выбора с учетом конкретных потребностей студентов в общении с окружающими [3; 4]. Для преподавателя, пожалуй, не составит большого труда установить перечень тем, соответствующих кругу бытовых ситуаций. В большинстве случаев это ставшие уже традиционными темы: *В столовой, В парикмахерской, На почте, У врача, В театральной кассе* и т. п.

Объем содержания разных ситуаций должен быть, конечно, различным. Ситуации могут быть развернутыми, или полными, и свернутыми. В развернутой ситуации задание преподавателя может даваться, например, в таком виде.

Исходная информация: *Вы случайно на вокзале встретили своего товарища. Вы удивлены этим. О чем вы его спросите? Что вы ему скажете?* Студентам должны быть знакомы возможные формы вопросов: *Как ты здесь оказался (очутился)? Почему ты здесь?* Требуемые ответы заранее оговариваются, они должны содержать глаголы несовершенного вида в прошедшем времени, например: *Я встречал здесь брата (провожал сестру), искал одного знакомого, узнавал расписание поездов, покупал билет, заказывал билет* и т. п.

Эти же варианты ответов студент должен быть вынужден употребить в свернутой ситуации, когда преподаватель в качестве исходной информации задает только вопрос *Как вы оказались на вокзале?* Ситуация «На занятии» может быть также представлена во всей полноте речевого выражения, например, преподавателем дается исходная информация: *Вы первым вошли в аудиторию. В аудитории душно, чувствуется, что окно не открывали. Что вы ему скажете?* Эта же ситуация может быть предельно свернута и дана лишь в виде сигнала студенту: *В аудитории нет мела, что делать?*

Можно еще отметить и такие учебно-речевые ситуации, в которые после исходной информации преподаватель (в ходе раскрытия ситуации студентом) вносит дополнительные изменения. Например, исходная информация: *Вы в библиотеке, хотите посмотреть, что есть нового в журналах и газетах, хотите узнать о новых книгах. Как вы скажете об этом библиотекарю?* После ответа студента преподаватель дает ему дополнительное указание: *Вам говорят, что свежие газеты и новые журналы на дом не выдаются, их можно посмотреть только в читальном зале. Как вы будете реагировать на*

это? Таким образом, в этом случае от студента требуется быстрая речевая реакция на видоизмененную ситуацию.

В зависимости от этапа работы целесообразно выделить: 1) подготовительно-речевой этап, на котором используются развернутые и конкретные ситуации, управляемые преподавателем. 2) этап автоматизации речевых навыков, на котором большую роль играют свернутее и видоизменяющиеся ситуации. Преподаватель направляет развитие ситуации. 3) этап истинно речевого общения; здесь ставятся дискуссионные проблемы, вырабатывается умения пользоваться неподготовленной речью [5].

Приведем один из примеров работы по ситуациям на разных этапах обучения.

1. Подготовительно-речевой этап. Ситуация: «Студент в деканате». Цель: закрепляется и отрабатывается усвоенный ранее речевой материал, ведется работа над синонимами. Условия реализации ситуации: а) партнером является преподаватель, управляющий развитием ситуации; б) преподаватель дает исходную информацию: «Студент должен узнать в деканате расписание консультаций экзаменов»; в) студенты располагают нужным речевым материалом и в состоянии разграничивать структуры: *в деканате – у декана; зашел узнать, зашел справиться – навести справку; когда у нас экзамен по литературе – когда можно сдать экзамен – когда профессор принимает экзамен; когда профессор дает консультации – когда у профессора консультации – когда можно получить консультацию у профессора…* В достаточно подготовленной группе преподаватель может в ходе раскрытия ситуации задавать вопросы: *А как можно сказать по-другому? А что вы скажете, если…* и т. п.

2. Этап автоматизации речевых навыков. Ситуация может быть та же: «Студент в деканате». Цель: тренируется понимание со слуха, отрабатывается темп речи, быстрота речевой реакции, автоматизируется ранее усвоенный лексико-грамматический материал. Условия реализации ситуации: а) партнером является преподаватель или один из членов группы; развитие ситуации направляется преподавателем; б) преподаватель дает исходную информацию и вместе с тем в ходе раскрытия ситуации сообщает ряд импульсов, меняющих ее, например: *Вы зашли в деканат узнать о консультации к экзамену по русскому языку, а вам сообщили о том, что экзамен перенесен. Что вас будет интересовать в этом случае? Или Вы пришли в деканат, а дверь заперта, или Вы зашли в деканат узнать расписание экзаменов, а вам сказали, что инспектора вашего курса нет. Что вы решите делать?*

3. Этап истинно речевого общения. Ситуация выбирается студентами, например: «Посещение театра». Цель: тренировка умения свободно вести неподготовленную беседу. Условия реализации ситуации: студенты сами выбирают себе партнера, преподаватель внимательно следит за правильностью речевого выражения данной ситуации.

В работе по учебно-речевым ситуациям особую роль должны играть специально отобранные лексико-грамматические «строительные блоки», стандартно закрепленные в речи для выражения определенного рода отношений, например, просьбы: *будьте любезны* (+ императив), *будьте добры, пожалуйста* и т. п.; для выражения утверждения: *нет сомнения в том, что…; не вызывает сомнения…;* для выражения причинно-обусловленных отношений: *ввиду того, что…; в связи с этим* (или: *в связи с тем, что…*) и т. п. Эти своего рода «блочные конструкции» дают возможность строить определенные модели предложений и использовать их систематически в работе над развитием русской речи студентов-азербайджанцев. Практически эта работа может принимать вид специальной тренировки на заканчивание студентами начатого преподавателем предложения, причем предложения раскрывается именно там, где тесно связаны составные часты таких «лексико-грамматических блоков». Например: *Эти выводы ни у кого не вызывают (сомнений); Это предложение ни у кого не вызвало (возражений).* В ряде случаев именно рамки ситуации помогают студентам выбрать нужное словосочетание с многозначным словом, например: *вызвать к декану, вызвать к телефону, вызвать недовольство* и т. п.

В силу того что общение в той или иной ситуации обычно происходит в диалогической форме, основным для студентов-азербайджанцев должно быть умение понимать вопросы, отвечать на них и самим правильно задавать вопросы.

Вот пример диалога, построенного на основе одной из предложенных ситуаций (поскольку учебная ситуация повторяется в дальнейшем, а приобретенные студентами умения используются в реальной ситуации посещения аптеки, магазина и т. д. по мере накопления словаря и фразеологического материала расширяется тематический круг диалогов, усложняются условия общения.

У врача
− *Как твоя фамилия?*
− *Моя фамилия Абдуллаев.*
− *Как тебя зовут?*
− *Меня зовут Айдын.*

− Где ты живешь?

− Я живу в городе.

− Что у тебя болит?

− У меня болит зуб (голова, уши, глаза, горло, рука, нога, живот и т. д.).

− Открой рот. Покажи зуб. Давно болит?

− Да (нет).

− Вот тебе лекарство, таблетки, вот тебе рецепт, иди в аптеку, получи там лекарство.

Аналогично ведутся диалоги в других повторяющихся ситуациях.

В практике обучения русскому языку студентов-азербайджанцев широко применяются вопросы. Они используются и при анализе членов предложения, и при работе над пониманием изложенного (устно или письменного), и при раскрытии ситуаций.

В работе над усвоением категории рода в русском языке и форм согласования преподавателем на начальном этапе обучения используются, например, предложения типа *Эта ручка красная, а эта зеленая.* У студентов вырабатывается навык правильной постановки вопроса к согласуемому члену предложения: *Какая эта ручка? Эта ручка зеленая? – Нет, эта ручка красная, а не зеленая.* Вопросы и ответы могут отрабатываться только в рамках словосочетания: *Какая ручка? – Зеленая ручка, хорошая ручка, эта ручка* и т. д. Подобного рода вопросы являются грамматическими вопросами. В речевой же ситуации они естественно, не задаются. Для речевой ситуации был бы закономерен вопрос: *Какая это ручка, покажите* (или *Что это за ручка?*). В ответе используются при этом не слова, заведомо взаимоисключающие друг друга в силу реальной логики вещей: *красная / зеленая* (разумный человек не станет в реальном общении задавать вопрос *Какая эта ручка, красная или зеленая?),* а слова, разграничивающие например, качество речи: *Это шариковая ручка, а эта ручка с пером* и т. п. [6, с. 65].

Такие ошибки наблюдаются и при работе по тексту, когда преподаватель требует от учащегося постановки вопросов к текстам описательного характера, содержащим предложения типа *Мой друг хороший человек* и т. п. Студенты без предварительных указаний и тренировки ставят к подобного рода предложениям вопрос *Какой человек мой друг?* Постановка таких вопросов может преследовать лишь тренировку употребления грамматических форм, но не соответствует речевым потребностям, и потому для развития речи нецелесообразна. Так же к предложению, содержащему местоимения *я* или притяжательное местоимение *мой* и т. п., не следует ставить вопросы, так как они звучат искусственно. Сравним грамматические

вопросы к предложению *Сегодня я звонил сестре: Кому я сегодня звонил? Кто сегодня звонил сестре?* И логически осмысленный речевой вопрос: *Кому вы звонили?*

Необходимо обучать студентов-азербайджанцев ставить речевые вопросы. Подготовительным этапом могут служить упражнения, в которых содержится задание поставить к данной информации максимально возможное количество вопросов. Например: *Завтра я иду на концерт.* Нет смысла к этой информации ставить вопросы: *Когда ты идешь на концерт?, Кто завтра идет на концерт? Куда я завтра иду?* В данном случае нужны логически обоснованные вопросы: *Какой концерт ты идешь слушать? Кто будет выступать на этом концерте? Где будет этот концерт? Есть ли у тебя билеты на концерт? Нет ли у тебя лишнего билета на концерт? С кем ты идешь на этот концерт?* и т. п.

Ситуации дают возможность максимально приблизить учебный процесс к естественным условиям речевой коммуникации и позволяют работать в должной мере и над темпом речи, и над интонацией, и над произношением.

Литература

1. Ташматова К. А. Использование ситуаций при обучении устной речи // Русской язык в национальной школе, 1977, № 2. с. 28-31.
2. Вайсбурд М. Л. Использование учебно-речевых ситуаций при обучении устной речи на иностранном языке. Обнинск, 2001.
3. Сосенко Э. Ю. О коммуникативной направленности устных подготовительных упражнений // Вопросы обучения русскому языку иностранцев на начальном этапе. Москва: Русский язык, 1976, с. 168-180.
4. Земская Е. А. Русская разговорная речь: лингвистический анализ и проблема обучения. Москва: Русский язык, 1979.
5. Практическая методика обучения русскому языку как иностранному. Под ред. А. Н. Щукина. Москва: Русский язык, 2003.
1. Силькина З. А. Способы связи слов и речевые ошибки учащихся // Школьная и научная грамматика. Воронеж: ВГУ, 1977, с. 62-69.

Sima Mənmmədova

Situasiya azərbaycanlı tələbələrinin rus dili nitqinin inkişaf üsulu kimi

Xülasə

Məqalədə rus dili xarici dil kimi məşğələlərində nitq situasiyaları azərbaycanlı tələbələrin nitqinin inkişafı üçün bir üsul kimi tədqiq edilir. Nitq situasiyalarından istifadə bilavasitə müəllimin nəzarəti altında həyata keçirilir. Burada real həyatı əks etdirən müxtəlif mövzular ola bilər. Məqalədə situasiyalar üzrə iş üç mərhələyə bölünməklə şərh edilir:

1) nitqin hazırlıq mərhələsi;
2) nitq vərdişlərinin avtomatlaşdırılması mərhələsi;
3) nitqin əsl ünsiyyət mərhələsi. Nitq situasiyaları tədris prosesini real kommunikasiyaya yaxınlaşdırır və nitqin tempi, intonasiyası və tələffüzü üzərində tam işləməyə şərait yaradır. Azərbaycanlı tələbələrin rus dilində sual-cavab əsasında dialoq qurmaq və onların dialoji nitqinin inkişafına xüsusi diqqət verilir.

Sima Mamedova

Situation as a method of speech development of azerbaijan students

Summary

We don't need to speak in order to use language. Language can be written, broadcast from tapes and CDs, and produced by computers in limited ways. Nevertheless, speech remains the primary way humans encode and broadcast language. Speaking and writing are different in both origin and practice. Our ability to use language is as old as humankind is. It reflects the biological and cognitive modification that has occurred during the evolution of our species. Writing is the symbolic representation of language by graphic signs. It is comparatively recent cultural development. Spoken language is acquired without specific formal instruction, whereas writing must be taught and learned through deliberate effort. The origins of the written language lie in the spoken language, not the other way round.

The written form of language is usually a generally accepted standard and is the same throughout the country. But spoken language may vary from place to place. Such distinct forms of language are called dialects. The varieties of the language are conditioned by language communities ranging from small groups to nations. Speaking about the nations we refer to the national variants of the language. According to A.D. Schweitzer national language is a historical category evolving from conditions of economic and political concentration which characterizes the formation of nation. In the case of English there exists a great diversity in the realization of the language and particularly in terms of pronunciation. Though every national variant of English has considerable differences in pronunciation, vocabulary and grammar; they all have much in common which gives us ground to speak of one and the same language — the English language.

Every national variety of language falls into territorial or regional dialects. Dialects are distinguished from each other by differences in pronunciation, grammar and vocabulary. When we refer to varieties in pronunciation only, we use the term accent. So local accents may have many features of pronunciation in common and are grouped into territorial or area accents. For certain reasons one of the dialects becomes the standard language of the nation and its pronunciation or accent - the standard pronunciation.

The literary spoken form has its national pronunciation standard. A standard may be defined as "a socially accepted variety of language established by a codified norm of correctness" (K. Macanalay). Standard national pronunciation is sometimes called "an orthoepic norm". Some phoneticians however prefer the term "literary pronunciation".

2. Classification of pronunciation variants in English. British and American pronunciation models.

Nowadays two main types of English are spoken in the English-speaking world: British English and American English.

According to British dialectologists, the following variants of English are referred to the English-based group: English English, Welsh English, Australian English, New Zealand English; to the American-based group: United States English, Canadian English. Scottish English and Ireland English fall somewhere between the two, being somewhat by themselves.

According to M. Sokolova and others, English English, Welsh English, Scottish English and Northern Irish English should be better combined into the British English subgroup, on the ground of political, geographical, cultural unity which brought more similarities - then differences for those variants of pronunciation.

Teaching practice as well as a pronouncing dictionary must base their recommendations on one or more models. A pronunciation model is a carefully chosen and defined accent of a language.

In the nineteenth century Received Pronunciation (RP) was a social marker, a prestige accent of an Englishman. "Received" was understood in the sense of "accepted in the best society". The speech of aristocracy and the court phonetically was that of the London area. Then it lost its local characteristics and was finally fixed as a ruling-class accent, often referred to as "King's English". It was also the accent taught at public schools. With the spread of education cultured people not belonging to upper classes were eager to modify their accent in the direction of social standards.

In the first edition of English Pronouncing Dictionary (1917), Daniel Jones defined the type of pronunciation recorded as "Public School Pronunciation" (PSP). He had by 1926, however, abandoned the term PSP

in favour of "Received Pronunciation" (RP). The type of speech he had in mind was not restricted to London and the Home Counties, however being characteristic by the nineteenth century of upper-class speech throughout the country. The Editor of the 14th Edition of the dictionary, A.C. Gimson, commented in 1977 "Such a definition of RP is hardly tenable today". A more broadly-based and accessible model accent for British English is represented in the 15th (1997) and the 16th (2003) editions – BBC English. This is the pronunciation of professional speakers employed by the BBC as newsreaders and announcers. Of course, one finds differences between such speakers - they have their own personal characteristics, and an increasing number of broadcasters with Scottish, Welsh and Irish accents are employed. On this ground J.C. Wells (Longman Pronunciation Dictionary, 3rd edition - 2000) considers that the term BBC pronunciation has become less appropriate. According to J.C. Wells, in England and Wales RP is widely regarded as a model for correct pronunciation, particularly for educated formal speech.

For American English, the selection (in EPD) also follows what is frequently heard from professional voices on national. network news and information programmes. It is similar to what has been termed General American, which refers to a geographically (largely non-coastal) and socially based set of pronunciation features. It is important to note that no single dialect - regional or social - has been singled out as an American standard. Even national media (radio, television, movies, CD-ROM, etc.), with professionally trained voices have speakers with regionally mixed features. However, Network English, in its most colorless form, can be described as a relatively homogeneous dialect that reflects the ongoing development of progressive American dialects. This "dialect" itself contains some variant forms. The variants involve vowels before [r], possible differences in words like *cot* and *caught* and some vowels before [l]. It is fully rhotic. These differences largely pass unnoticed by the audiences for Network English, and are also reflective of age differences. What are thought to be the more progressive (used by educated, socially mobile, and younger speakers) variants are considered as first variants. J.C. Wells prefers the term General American. This is what is spoken by the majority of Americans, namely those who do not have a noticeable eastern or southern accent.

Styles of speech or pronunciation are those special forms of speech suited to the aim and the contents of the utterance, the circumstances of communication, the character of the audience, etc. As D. Jones points out, a person may pronounce the same word or sequence of words quite differently under different circumstances.

D. Jones distinguishes among different styles of pronunciation the rapid familiar style, the slower colloquial style, the natural style used in addressing a fair-sized audience, the acquired style of the stage, and the acquired style used in singing.

L.V. Shcherba wrote of the need to distinguish a great variety of styles of speech, in accordance with the great variety of different social occasions and situations, but for the sake of simplicity he suggested that only two styles of pronunciation should be distinguished: (1) colloquial style characteristic of people's quiet talk, and (2) full style, which we use when we want to make our speech especially distinct and, for this purpose, clearly articulate all the syllables of each word.

The kind of style used in pronunciation has a definite effect on the phonemic and allophonic composition of words. More deliberate and distinct utterance results in the use of full vowel sounds in some of the unstressed syllables. Consonants, too, uttered in formal style, will sometimes disappear in colloquial. It is clear that the chief phonetic characteristics of the colloquial style are various forms of the reduction of speech sounds and various kinds of assimilation. The degree of reduction and assimilation depends on the tempo of speech.

Reference

1. Tannen, Deborah (1982). Spoken and written language: exploring orality and literacy. Norwood, N.J.: ABLEX Pub. Corp.
2. Pinker, S., & Bloom, P. (1990). Natural language and natural selection. Behavioral and Brain Sciences.
3. Aaron, P. G., & Joshi, R. M. (2006). Written language is as natural as spoken language: A biolinguistic perspective. Reading Psychology.
4. Rickerson, E.M. "What's the difference between dialect and language?". The Five Minute Linguist. College of Charleston. Archived from the original on October 23, 2016. Retrieved October 23, 2016.
5. "Languages Facts". Archived from the original on October 23, 2016. Retrieved October 23, 2016.

S.Zülfüqarova

Şifahi və yazılı dil

Xülasə

Dil istifadə edilmək üçün danışılmır. Dil CD və məhdud şəkildə kompüter vasitəsilə tərcümə yazılı formada həyata keçirilə bilər. Buna baxmayaraq, nitq qalıqları insan kodu və dilin yayılmasının əsas metodu olaraq qalır. Danışıq və yazı həm mənşəcə həm də praktikada fərqlənir.

Dildən istifadə bacarığı bəşəriyyət tarixi qədər qədimdir. Bu, insanın təkamül əsnasında meydana gələn bioloji və idrak dəyişikliklərini əks etdirir. Yazılı dil qrafik simvollarla dili təmsil edir. Bu nisbətən son mədəni inkişafa daxildir. Danışıq dili xüsusi formal təlimat olmadan əldə edilir. Yazılı dilin mənşəyi danışıq dilinə əsaslanır.

С.Зюлфугарова

Разговорный и письменный язык

Резюме

Нам не нужно говорить, чтобы использовать язык. Язык может быть написан, переводиться с кассет и компакт-дисков и производиться компьютером ограниченным образом. Тем не менее, речь остается основным способом кодирования и перевода для людей.

Разговор и письмо различны как по происхождению, так и по практике. Наша способность использовать язык так же стара, как и человечество. Он отражает биологические изменения, которые произошли во время эволюции нашего вида. Письменный язык является символическим представлением с графическими знаками. Это сравнительно недавнее развитие культуры.

Rəyçi: Xoşqədəm Əhmədova
dosent, pedaqogika elmləri namizədi

FƏRİDƏ HÜSEYNOVA
ANDSU-nun "Xarici dillər-1 kafedrası"nın müdiri
farida@mail.ru

XARİCİ DİL TƏLİMİNİN MƏQSƏDLƏRİ VƏ ONUN XARAKTERİK CƏHƏTLƏRİ

Açar sözlər: bilik, əhəmiyyət, həvəs, idea, anlamaq, ünsiyyət, düşünmə, hörmət, məsuliyyət, diqqət.
Ключевые слова: знание, общество, желание, идея, понимание, общение, мышление, уважение, ответственность, внимание.
Key words: knowledge, society, desire, idea, understanding, thinking, respect, responsibility, attention.

Xarici dil üzrə təhsil proqramı (kurikulumu) maraq doğuran konseptual bir sənəd olub xarici dil təliminin məqsədlərini, bu məqsədlərə nail olmaq üçün bütün fəaliyyətləri əhatə edir. Bu sənəd maraq və meyilləri nəzərə alınmaqla nitq, dil bacarıq və vərdişlərinin inkişaf etdirməyi nəzərdə tutur. Bu təhsil proqramı təlim məqsədlərinin müəyyənləşdirilməsində, təlim nəticələrinin reallaşması üçün xüsusi metodikaların seçilməsində mühüm rol oynayır.

Xarici dil təlimində qarşıya qoyulmuş məqsəd və vəzifələri aydın şəkildə nəzərə catdırılır. Həmin məqsəd və vəzifələr doktorantların imtahanları zamanı aşağıdakı şəkildə müəyyənləşdirilir:

Şifahi nitqin yoxlanılmasına verilən tələblər;

Şifahi nitqin yoxlanılması həm dialoji, hən də monoloji formada həyata keçirilir.

Dialoji nitqin nümayiş etdirilməsi - Dialoqda iştirak edən hər bir tərəf 8-10 replikadan istifadə etməyi bacarmalıdırlar, yəni söylənilən hadisəyə münasibət bildirməli, söhbəti davam etdirməlidir. Bu mərhələdə hazırlıqsız nitqlə dialoq qura bilməlidirlər. Dialoji nitqin inkişaf etdirilməsi ünsiyyətə girmək, öz fikirlərini ifadə etmək, gördükləri və eşitdikləri haqqında məlumat verə bilmək, danışanın fikrinə münasibət bildirmək bacarıqlarının formalaşdırılmasını tələb edir. Bundan əlavə doktorantlar müzakirə olunan məsələlərə münasibət bildirməyi bacarmalırlar.

Monoloji nitqin nümayiş etdirilməsi- Monoloji nitq şifahi nitqin bütün növlərinin məntiqi, tənqidi və yaradıcı təfəkkürün təhlili və müqayisəsini müəyyənləşdirməyə imkan yaradır. Tədqiqatçılar müxtəlif mənbələrdən topladığı informasiyalar əsasında təqdimat etmək imkanlarına da malik olmalıdırlar.

Dinləyib-anlama və danışma

Danışma həm monoloji, həm də dialoji formada təzahür edərək yaddaşda qalan sözlərin seçilməsi və onların nitq prosesinə daxil edilməsi, fikrin şifahi ifadəsidir. O, ünsiyyətə girmək, öz fikirlərini ifadə etmək, gördükləri və eşitdikləri haqqında məlumat verə bilmək, danışanın fikrinə münasibət bildirmək bacarıqlarının formalaşdırılmasını təmin edir.

Dinləyib-anlama nitq fəaliyyətinin digər növləri ilə sıx bağlı olub, danışma üçün zəmin yaradır və xarici dilin öyrənilməsində mühüm yer tutur. Nitqin formalaşmasında əsas rol oynayan dinləyib-anlama dinləyicidə eşitdiyi nitqi diqqətlə dinləmək, məzmununu müəyyənləşdirmək və əldə etdiyi yeni informasiyanı yadda saxlamaq bacarıqlarının formalaşdırılmasını təmin edir. Canlı nitqi dinləyib anlamağı bacarmalıdırlar. Belə nitq zamanı məzmunda naməlum sözlərdə ola bilər.

Xarici dil fənni üzrə gəbul imtahanlarında şifahi nitqin yoxlanılması üçün qarşıya qoyulmuş məqsəd və vəzifələr

- Xarici dil üzrə təhsil proqramına uyğun olaraq doktoranturanlar qəbul imtahanı zamanı müəyyən şəraitə uyğun olaraq ünsiyyət qura bildiklərini nümayiş etdirir;
- onlar müxtəlif mənbələrdən topladığı informasiyalar əsasında təqdimat edərək şifahi nitq bacarıqlarını nümayış etdirirlər;
- Tədqiqatçı nitqdə sadə və mürəkkəb konstruksiyalardan istifadə edir, oxunulan və ya dinlənilən mətnin məzmununu izah edir, eyni fikri müxtəlif formalarda ifadə edir, əşya və hadisələrə, gördüyünə və eşitdiyinə, müzakirə olunan məsələlərə münasibət bildirir;

Oxuya verilən tələblər

Doktorant və dissertantların ixtisasa aid, ictimai-siyasi, elmi-kütləvi ədəbiyyatdan götürülmüş mətnləri lüğətdən istifadə etməklə oxuyaraq tam məzmumu başa düşmələri labüddür.

Çoxpilləli təhsil sistemi çərçivəsində doktorant və dissertantlar xarici dil fənni üzrə əvvəlki mərhələlərdə nitq fəaliyyətinin digır bir növü -oxu texnikasına (sürətli, düzgün, şüurlu, ifadəli) yiyələnirlər və bu oxu vərdişləri daim ardıcıl olaraq inkişaf etdirilir. Oxu biliklərinin inkişaf etdirilməsi ilə yeni bilik və məlumatlar qazanilir, ətraf aləmi dərindən dərk etmək imkanları inkişaf etdirilir və xarici dil biliklərin mərhələli şəkildə asandan-çətinə prinsipi əsasında yaranmasını təmin edir.

Tərcuməyə verilən tələblər

Doktorant və dissertantların xarici dil fənni üzrə yazılı və ya şifahi şəkildə tərcümə etmək bacarıqları yoxlanilir, xüsusulə oxu, ixtisasa aid,

ictimai-siyasi, elmi-kütləvi ədəbiyyatdan götürülmüş mətn və məqalələri oxuyub-tərcümə etməklə həyata keçirilir.

Nitq fəaliyyəti bacarıqları

- Tədqiqetmə və tətbiqetmə
- Təsviretmə və təqdimetmə
- Əlaqələndirmə və ünsiyyət
- Dəyərləndirmə və yaradıcı tətbiqetmə

Reseptiv və produktiv bacarıqlarlar

Dinləyib-anlama fəaliyyətinə əsasən doktorant və dissertantlar xarici dil fənni üzrə reseptiv bacarıqlarını nümayiş etdirməlidirlər. Dinləyib-anlama fəaliyyəti üzrə məzmun xətlərinə əsasən doktorant və dissertantlar sosial və kommunikativ vərdişlərinın inkişaf etdirilməsinə istinad edirlər. Yəni- dinləmək, anlamaq, xatırlamaq, tanımaq, müəyyən etmək, təsnif etmək, müqayisə etmək, təsvir etmək kimi mühüm bacarıqlara yiyələnirlər. Əldə olunan bu bacarıqlar xarici dillərin tədrisində şəxsiyyətyönümlü dəyərləri formalaşdırır. "Yalnız yaxşı dinləyənlər həyatda yaxşı natiq ola bilər" fikrini əsas götürərək dinlədiyi nitqə diqqətlə qulaq asır, informasiya əldə edir, tolerantlıq göstərərək başqasının nitqini sona qədər dinləyir, təmkinli olur, qarşılıqlı hörmət və səmimiyyət kimi əxlaqi keyfiyyətlər əldə edilir.

Danışma fəaliyyəti üzrə məzmun xəttinə əsasən xarici dil öyrənənlər produktiv bacarıqlarlar qazanırlar. Bu bilik və bacarıqların köməkliyi ilə ünsiyyət qurmaq, fikirlərini izah etmək, şərh etmək, münasibət bildirmək, nümayiş etdirmək, təqdimat vermək, problemi həll etmək, təkliflər vermək kimi mühüm bacarıqlar əldə edilir.

Danışma fəaliyyəti üzrə məzmun xətlərinə əsasən xarici dillərin tədrisində sosial və kommunikativ vərdişlər qazanılır: düzgün vurğu, ritm və intonasiya daxilində axıcı, rəvan, aydın və səlis nitqə malik olur, eyni zamanda, onlarda tənqidi təfəkkür, sərbəst düşüncə və özünə inam kimi keyfiyyətlər formalaşır. Oxu fəaliyyəti üzrə məzmun xətlərinə əsasən xarici dillərin tədrisində oxu bacarıqları nümayiş etdirməklə müəyyən etmək, analiz etmək, müqayisə etmək, araşdırmaq, təşkil etmək kimi keyfiyyətlər qazanılır. Oxu fəaliyyəti üzrə məzmun xətlərinə əsasən tədris zamanı sosial və kommunikativ vərdişlərə yiyələnirlər: oxu vərdişlərinə malik olanlar mütaliə mədəniyyəti qazanır, bədii zövqü və elmi-intellektual səviyyəni artırır, həyatsevərlik və gələcək planları haqqında yeni düşüncələr əldə edirlər. Mətn üzrə problemi təyin edərək, yaddaşı, yaradıcılıqlarını, davranış mədəniyyətlərini təkmilləşdirir, hadisələri dəyərləndirmək kimi keyfiyyətlər qazanırlar.

Məgalədəki hadisələrə, xarakterlərə, süjetlərə yazılı və şifahi şəkildə fikir bildirirlər. müxtəlif mədəniyyətlər haqqında yeni biliklər toplayır, oxuduqları, ədəbi-bədii, elmi-intellektual, elmi-ictimai kitab və əsərləri oxumaq bacarığı qazanırlar.

Ədəbiyyat:

1.Essentials of Organizational Behavior. Stephen P. Robbins. 2002
2. Business Communication. John Thill. 2008
3. Business Research. Alvin C.Burns. 2011
4. English for Automation Manufacturing Processes Students. Veliyeva Y.A. 2009

F.A.Huseynova

The aim of teaching of foreign languages and its main characteristics

Summary

The main purpose of the article is to clarify “the new ways in teaching of foreign languages. It is without doubt, one of the most complex and contentious concepts in learning foreign languages is to possess such interpersonal skills as to interact with others, to communicate efficiently and logically, and have ability to identify and discuss problems, and point out problems for solving main current problems.

Besides to communicate openly and honestly, express the ideas clearly, and to have independent thinking way enables the students to overcome by hardworking on continues learning process. And it is helpful to have a rich understanding of the main issues of teaching foreign languages in high technical schools.

Ф.А.Гусейнова

Цель обучения иностранным языкам и ее характерные черты

Резюме

Основная цель статьи - разъяснить «новые способы преподавания иностранных языков. Несомненно, одной из самых сложных и спорных концепций в обучении иностранным языкам является обладание такими навыками межличностного общения, как взаимодействие с

другими людьми, эффективная и логичная связь, способность выявлять и обсуждать проблемы и найти их решение. Кроме того, для открытого и искреннего общения, четкого выражения мысли и умения выражать идеи, студенты могут преодолевать свои трудности и приобретать навыки в процессе непрерывного обучения.

И очень полезно иметь глубокое понимание основных вопросов преподавания иностранных языков в высших технических вузах.

Rəyçi: Xoşqədəm Əhmədova
pedaqoika elmləri namizədi, dosent

SEVDA ÇƏRKƏZOVA

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sevda@mail.ru

İNGLİS DİLİNDƏ TƏKMƏNALI VƏ ÇOXMƏNALI PREFİKSLƏRİN SÖZ YARATMADA ROLU

Açar sözlər: mürəkkəb sözlər, dil, komponent, struktur, semantik, sintaktik, sözdüzəldici, müstəqil
Key words
compound words, language, component, structure, semantic, syntactic, word forming, independent
Ключевые слова
сложные слова, язык, составляющая, структура, семантика, синтаксис, словообразование, независимость

Kondensiv tipologiya müstəvisində araşdırılan "dil dominantı" anlayışı yetərincə spesifikliyi ilə seçilir. Problemə bu cür yanaşma şəkli araşdırılan obyektin ənənəvi hesab edilən tipoloji dəyərləndirmələrdəki "aparıcı təmayül" şəkli modelindən kifayət qədər fərqli özəlliklər sərgiləyir. Beləki, bir növ stiril tipoloji dominant "nüvəsi" və həmin "nüvənin" təbiətinə tabe olan universal vasitələr (prefikslər) tərəfindən fərqləndirilməsi, birincinin konkret təmayül çərçivəsində aranmasından dolayı, ikincilərin bütün tipoloji quruluşlu dillərdə bu və ya digər nisbətdə təmsil olunması tamamilə anlaşılandır.

Beləliklə, söz yaradıcılığı prosesi biri digər prosesə keçidlə bir-birini tamamlayır. Qeyd etmək lazımdır ki, əksər dilçilik ədəbiyyatında sözlər (leksik vahidlər) və eləcə də şəkilçilər (istər suffiks, istərsə də prefiks olsun) qismən "fəal" və "qeyri-fəal" (məhsuldar və qeyri-məhsuldar) olmaqla təsnif olunsalar da, burada dəqiq hədd qoymaq qeyri-mümkündür. Bu proses də subyektiv səciyyə daşıdığından nisbi mənada götürülməlidir. Belə ki, hər hansı bir leksik vahid (söz) bir semantik sahədə qeyri-fəal olsa da, düzəltmə söz kimi leksikanın ən işlək vahidinə çevrilə bilər. Eləcə də, prefikslər barəsində həmin fikri bildirməklə onları fəal şəkilçilər sırasına aid etmək olar.

Doğrudan da, etalon dilin təsbiti heç bir vəchlə "məqsədin özü" ola bilməz. Lakin o da danılmazdır ki, müqayisə meyarının birləşdirilməsi istər konkret dilin struktur özəlliklərinin aşkara çıxarılmasında, istərsə də ümumnəzəri müstəvidən (digər dillərin cəlb edilməsilə) tipoloji qarşılaşdırmaların aparılmasında həlledici rol oynayır. Daha öncə təsnifat

kriterlərinin seçim imkanları ilə bağlı dəyərləndirmələrimizdə qeyd edildiyi kimi, tipoloji xarakteristikanın təsbiti zamanı yanaşma müxtəlifliyindən doğan təqdimat fərqliliyinə əsaslanır. Belə ki, struktur özünəməxsusluqların ingilis dilinin göstəriciləri sırasına aid edilməsi – yenə də süni şəkildə tipoloji qruplaşma hallarının daha geniş spektirini əhatə edir. Bütün bu aspektlər dilin sözdüzəldici şəkilçilər, xüsusilə də təkmənalı və çoxmənalı prefikslərin sayəsində zənginləşməsinə şərait yaradır.

Təkmənalı və çoxmənalı prefikslərin tətbiqinin əsas məqamını, ümumiyyətlə, sözdüzəldici şəkilçilər sistemində yer alan tipoloji modifikasiya hadisələrinin yeni aspektdən dəyərləndirməklə onların mahiyyətini, eyni zamanda, məna çalarlıqlarının müxtəlifliyini həm müəyyənləşdirə, həm də nəzərdən keçirdiyimiz linqvistik faktlara söykənərək irəli sürdüyümüz mülahizələri filogenetik ehtimallar məcrasına istiqamətləndirə bilərik.

Belə ki, daha öncədən qeyd edildiyi kimi, özündə dil strukturu təmayülünün mini – modelini ehtiva etdiyindən prefikslərlə bağlı faktiki materialın yoxluğu bəzi hallarda (müasir ingilis dilinin üzərində müşahidələrə əsaslanaraq) ontogenetik müşahidə hesabına kompensasiya edilir. Məsələn:

“Be“ prefiksi felin məna qüvvəsini artırmaqla, eyni zamanda sözlərə “əhatəsində, dövrəsində” mənalarını verir:

besiege (çökmək), becloud (dumanla örtülmək), belittle (kiçiltmək), befool (axmaqlamaq), beloved (vurğun), behave (özünü aparmaq), bespeak (sövdələşmək), bequest (miras), bestir (cəhd etmək), betray (kimisə satmaq, ələ vermək), bewail (hüzn saxlamaq).

“co, com“ prefiksləri əsasən birgə fəaliyyətə təhrik edən sözlərin yaranmasında özünü göstərir:

co-author (birgə müəlliflik etmək), cohabit (birgə yaşamaq), coefficient (faydalı iş əmsalı), coexistance (mövcudluq), coheir (mirasa şərik olan);

compatriot (həmvətən), complaint (şikayət), compact (yığcam), compromise (razılığa gəlmək).

“Mis“ prefiksi düzgün olmayan, səhv, təqdir olunmayan hərəkətləri həmçinin inkarlılıq kateqoriyasına aid sözləri yaradır:

misapply (düzgün tətbiq etməmək), misconduct (pis rəftar, xəyanət), misgive (təhlükə yaratmaq), misunderstand (anlamamaq), miscount (səhv hesablamaq), misdeed (cinayət, pislik), misdirect (səhv yönləndirmək), misrepresent (təhrif etmək), misstate (yalan ifadə vermək), mistimed (vaxtında deyilməmiş, edilməmiş).

“Non” prefiksi də bu baxımdan qadağan, əks məna və inkarlılıq ifadə edir:

non-edible (yemək olmaz), non-essential (vacib olmayan), nonsense (boş şey, lazımsız), non-aggressive (sakit), non-party(heç bir partiyanın üzvü olmayan), non-stop (dayanmadan), non-explosive (partlayıcı olmayan).

Bu yanaşmanın özlüyündə tipoloji xarakter mövqeyindən fərqli olmasından dolayı, tipoloji klassifikasiya ilə birbaşa əlaqəli olan təqdim edilən misallar prinsip etibarı ilə tədqiqat obyekti kimi xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik. Bu nöqteyi-nəzərin qəti əleyhdarları olmasına rəğmən, göstərilən faktlar insan dilinin yaranması və təkamülünə həsr olunmuş tədqiqatlarda sözdüzəldici şəkilçilərin (həm prefiks, həm də suffiks) dil yaradıcılığındakı rolu irəli sürülən mülahizələrin məntiqi əsasa malik olduğunu ortaya qoyur.

Müxtəlif sistemli dillərdə və eləcə də ümumi dilçilikdə sözdüzəltmə modellərinin, o cümlədən prefikslərin araşdırılması istiqamətində aparılan tədqiqatlar böyük əhəmiyyət kəsb edir. Bu və ya digər dildə həmin leksik vahidlərin yaranmasında dilin müxtəlif aspektlərinin- dilin fonetikasının, leksikasının və qrammatikasının oynadığı rolu müəyyənləşdirmək, bu və ya digər dillərə xas olan xarakterik xüsusiyyətləri meydana çıxarmaq, fikrimizcə dillərin tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Dil bilgisini mənimsəmiş şəxs xüsusi olaraq səs və mənanı özündə ehtiva edən qaydalar sistemini mənimsəyir. Dilin qrammatikasını yaradan dilçi isə, faktiki olaraq, həmin mənimsənilmiş sistemə dair qanunauyğunluqları təklif edir. Müvafiq olaraq, dil bilgisi tədricən təkrar və məşq vasitəsilə güman ki, mürəkkəbliyini inkişaf etdirməlidir, bu mürəkkəb mexanizmi və ya əlaqələndirilmiş hərəkət kimi özlüyündə müşahidə edilə bilməyən mental təşkilin daha dərin prinsiplərindən ibarət olub, çox sadə elementlərin əvəzlənməsinin nəticəsidir. Halbuki, söz yaradıcılığında prefikslərin istifadəsi müxtəlif istiqamətlər yaradaraq, lüğət tərkibinin zənginləşməsinə zəmin yaradır.

Sözdüzəldici şəkilçilər sistemində olan bəzi prefikslər yuxarıda sadalanan məna fərqlilikləri ilə yanaşı, həm də qayıdışlıq funksiyasını da özündə ehtiva etdirir.

Məsələn:

a) in → ex: internal-external; interior-exterior; intent-extent;

b) im→ex: import-export; impose-expose; implore-explore;

c) in→out: inlet-outlet; income-outcome; inbound-outbound; inbuilding-outbuilding.

Belə sözlərin bəzilərinin ikinci elementləri tam leksik yükü daşıya bilmədikləri, məna dəyişikliyində iştirak etmədikləri və yalnız

desemantizasiya olunaraq qeyri-tam leksiklər rolunda olduqları üçün həmin sözləri düzəltmə sözlər cərgəsinə aid etmək məqsədəuyğundur.

Ədəbiyyat

4) A.Axundov. "Ümumi dilçilik". "Maarif Nəşriyyatı", Bakı, 1988.
5) A.Bayramova. "Leksik alınmaların dilin zənginləşdirilməsində rolu". Bakı. BDU, 2009.
6) A.Məhərrəmqızı "Dil quruculuğunun yeni mərhələsi" (söz yaradıcılığı). Bakı, "Azərbaycan Nəşriyyatı", 2004.
7) A. Hacıyeva "Linqvistik tipologiyada tipoloji modifikasiya problemi" Bakı. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu, 2008.
8) A.Ə.Bayramova. "Leksik alınmaların dilin zənginləşməsində rolu", Dissertasiya, Bakı-1991, BDU.
9) Mələk Məmmədova. İngilis dilinin qrammatikası. Bakı 2011.
10) N.Məmmədov. "Azərbaycan dilçiliyinin nəzəri əsasları". Bakı, 1971.
11) A.M. Babayev Dilçiliyə giriş, Bakı, Maarif, 1992.
12)

С.Чарказова

Роль моносемантических и полисемантических префиксов в словообразовании на английском языке

Резюме

Оценивая основной аспект применения моносемантических и полисеманти-ческих префиксов, а также модификацию типологии, имеющую систему словесных суффиксов, мы можем определить разнообразие оттенков их значений. Более того, основываясь на обзоре лингвистических фактов, мы можем направить предложения на филогенетические предположения.Исследования, проведенные в направлении моделей построения слов, а также префиксов в многосистемных языках и общей лингвистике, имеют большое значение. Определение роли различных аспектов языка как фонетики, лексикологии и грамматики и выяснение характерных особенностей различных языков может иметь большое значение для исследования языков.

S.Charkazova

The role of mono-semantic and poly-semantic prefixes in the word formation in English

Summary

Assessing the main aspect of mono-semantic and poly-semantic prefixes application, as well as, typology modification having word-building suffixes system, we can determine shade diversity of their meanings. Moreover, based on the review of linguistic facts, we can direct the propositions to phylogenetic assumptions.

The researches carried out in the direction of word building models, as well as prefixes in multi-systematic languages and general Linguistics are of great importance. Determination the role of various aspects of the language as phonetics, lexicology and grammar and finding out characteristic features of various language may be of great importance for the research of languages.

Rəyçi: Fəridə Hüseynova
filologiya elmləri namizədi, dosenti

ÜLKƏR MƏHƏRRƏMOVA
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
aliyevau@rambler.ru

XARİCİ DİL DƏRSLƏRİNDƏ PROYEKTLƏRİN İŞLƏNMƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: proyekt, müzakirə, əməkdaşlıq, təlimatçı, təqdimat, rəy
Ключевые слова: проект, обсуждать, сотрудничество, инструктор, презентация, обзор
Key words: project, discussion, cooperation, instructor, presentation, reference

Təhsil sistemində tələbələrin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək üçün proyektlər böyük rol oynayır. Ilk növbədə "proyekt" sözünün mənasına nəzər salaq. "Proyekt" latın sözü olub "projectus" sözündən götürülüb, mənası "irəliyə atılmış" deməkdir. İngilis dilində "project" adlanır. Büləliklə, ümumi mənası gerçəkləşdirilməsi nəzərdə tutulan ideya, fikir, layihə deməkdir. Bəzən reallaşması mümkün olmayan, ciddi əsaslara söykənməyən planlar, ideyalar da proyekt adlanır. (vikipediya)

Müəllimlər çalışırlar ki, dərs prosesində mümkün qədər proyeklər işlədilsin. Proyektlər işlənərkən tələbələr daha çox bir-biri ilə təmasda olur, dili mənimsəmək üçün bir-birinə kömək edir, qabiliyyət və bacarıqlarını üzə çıxarırlar. Üstünlük ondadır ki, proyekt axtarış tələb edir, artıq müəllim sadəcə bələdçi rolunu oynayır, tələbələr daha müstəqil olurlar. Bəzi hallarda, proyektin mövzusundan asılı olaraq tələbələr tam sərbəst işləyir, müəllimin nəzarətinə ehtiyac olmur, yalnız proyekt başa çatdıqdan sonra müəllimlə müzakirə olunur.[1, s 37]

Proyektlərin müvəffəqiyyətlə başa çatması üçün əsas amillər aşağıdakılardır:

- Tələbələrin maraq dairəsini əhatə etsin
- Tələbə əmdaşlığını, həmçinin sərbəstliyini əhatə etsin
- Dilin ən vacib, həm də məqsədəyönümlü sahəsini əhatə etsin
- Proyekti işləyərkən bilik və bacarıqların inteqrasiyası öz əksini tapsın

[2, s 16]

Proyektləri işləyərkən aşağıdakı mərhələlər nəzərə alınmalıdır:

Mərhələ 1: Tələbələr və təlimatçı proyektin mövzusunu seçərkən qarşılıqlı razılaşmaya əsaslanmalıdırlar. Təlimatçı tələbələrə yol

göstərməlidir ki, proyekti işləyərkən tələbələr şəxsi təkliflərini, fikirlərini əks etdirə bilsinlər.

Mərhələ 2: Tələbələr və təlimatçı proyekt üçün sərf olunacaq maliyyəni nəzərə almalıdırlar. Proyektin mövzusundan asılı olaraq sərf olunacaq vəsait (yazılı raportlar, broşuralar,məktublar, şifahi təqdimatlar, video, teatr, tamaşalar və s.) barədə fikirləşməlidirlər. Kömək üçün müraciət olunaaq simalar müəyyənləşdirilməlidir. (məsələn, qrup yoldaşları, başqa tələbələr, valideynlər, şəhər bələdiyyəsi, yerli biznes adamları və s)

Mərhələ 3: Tələbələr və təlimatçı proyektin sxemini tərtib edirlər. Mövzu və maliyyə qədəri müəyyən olunduqdan sonra proyektin detalları hazırlanır. Bu mərhələdə ələbələr öz rollarını, məsuliyyətlərini, hansı qruplarla işləyəcəklərini müəyyənləşdirir və proyektin təhvil verilmə tarixinə qədər olan vaxtlarının düzgün bölgüsünü aparırlar.

Mərhələ 4: Təlimatçı tələbələri informasiya toplamağa hazırlayır. Bu mərhələdə təlimatçı tələbələri informasiya toplamaq üçün təlimatlandırır. Məsələn, əgər müsahibə alınacaqsa qoyulacaq suallar, ediləcək qeydlər, məktub yazılacaqsa onunformatı, və üslubu, internet axtarışı isə saytları barədə təlimatçı göstəriş verir.

Mərhələ 5: Təlimatçı tələbələri topladıqları məlumatları analiz etməyə və tərtibata hazırlayır. Bu mərhədə tələbələr dili mükəmməl bilməyə ehtiyac duyurlar. Çünki müxtəlif mənbələrdən toplanmış məlumatlar analiz, sintezdən keçirilib ümumiləşdirilməlidir. Bunun üçün bir neçə toplantı keçirilməlidir.

Mərhələ 6: Tələbələr məlumatları ümumiləşdirir və analiz edirlər. Hazırlıq mərhələsindən sonra tələbələr qruplarla işləyərək materiallardan bəzilərini ixtisar edir, lazım olanları saxlayırlar.

Mərhələ 7: Təlimatçı tələbələri dilin tələblərinə uyğun proyekti müdafiəyə hazırlayır. Tələbələr şifahi təqdimaa hazırlaşırlar. Onlar təqdimatın giriş, əsas, son hisslərini müəyyənləşdirir, çap etdirir, natiqlik qabiliyyətini təkmilləşdirirlər.

Mərhələ 8: Tələbələr yekun proyekti təqdim edirlər.

Mərhələ 9: Tələbələr proyekti qiymətləndirirlər. Bu mərhələdə proyekt öz məzmununa, təqdimatına görə qiymətləndirilir. Əlavə olaraq gələcəkdə oşar proyektlər işləmək üçün hazır olurlar. Müəllimlər tələbələrin təqdimatlarına rəy yazırlar. [3, s 16-18]

Proyekt işləyərkən tələbələr aşağıdakı bacarıqları mənimsəyirlər:

- Müxtəlif tipli məlumatlar toplamaq (müxtəlif texniki vəsaitlərdən istifadə etmək, müsahibələr aparmaq, kitabxanalardan, veb-saytlardan yararlanmaq)
- Tənqidi təfəkkürün inkişafı (məlumatları sintez, analizdən keçirmək)
- Dili mənimsəmə bacarıqlarının inkişafı

- Ingilis dilindən daha çox istifadə etmək. Məsələn, belə bir proyekt mövzusu götürək "İdman növləri".
  Təlimatçı kömək məqsədi ilə I mərhələyə uyğun suallar və lüğət verir.
  Useful vocablary

Stadium	Coach	field	gloves
ball	Stick	trainer	Play football
ticket	Players	fans	winner
loser	Opponent	protection	Swimming pool
Platform	Swimming	Olympic	game
team	Individual	championship	World cup
time	Members	Whistle	mask
beat	Attack	boxing	Wrestling
score	Golf	Finish line	Transfer

Discussion questions:

1. What kinds of sport do you know?
2. Which kinds of sport are most famous in your country? Least popular? Why?
3. Which kindss of sport are most dangereous? Least ones? Why?
4. Which kinds of sports play in a team ? Individual? Why?
5. Compare two types of sport which is special for your country and which plays all over the world.
6. Which kind of sport can currently have the largest number of fans?
7. How often does your country take part in Olymic games?
8. How often do you exercise in a week? What is your favourite sport?
9. How happy are you with your county's championship in the world? Explain.

Tələbələr qrup şəklində lüğətdən istifadə edərək sualları cavablandırırlar. Sonra nəzarətçi ikinci tapşırığı verir. Burada iki idman növü müqayisəsi edilir və üstünlükləri aşkarlanır. [4, s 11]

	Type		Popularity		Members		Place		Fans	
	Team	İndividual	low	High	one	more	world	Special country	Less	more

Football	√			√		√	√			√
Karate		√		√	√		√		√	

Cədvələ əsasən tələbələr həmin idman növlərindən birinə istinad edərək onu səciyyələndirirlər.

What do you think of the sport in Azerbaijan?

Pros	Cons

Bu mərhələdən sonra şəhər sakinlərindən sorğu aparıb nəticələri qeyd olunur. Şəhər sakinləri onlar üçün Azərbaycanda idman haqqında fikirlərini deyirlər. Nəticələr ümumiləşdirilir. Sonda nəzarətçi proyektləri yoxlayır. Onlar elmilyinə, sualların quruluşuna, formatlarına, üslublarına görə qiymətləndirilir.

Proyeklərin xarici dil dərslərində istifadəsi nəinki tələbələrə sərbəst araşdırma, əməkdaşlıq qabilliyyətini verir, eyni zamanda onlarda dilə marağı artırır və onlar araşdırma zamanı yeni sözlər öyrənərək lüğət bazasını artırırlar, cümlə qurluşu, danışıq üslubu ilə qrammatik üslub arasındakı əlaqəni öyrənir və öz fikirlərini xarici dildə sərbəst ifadə etmək bacarığını inkişaf etdirirlər.

Gələcək həyatda tələbələr artıq tərəddüdsüz fikir irəli sürə bilər, istənilən sahədə araşdırma apara bilər, sərbəst proyektlər işləyə bilər, xarici və ya yerli layihələrə qoşula bilər və bununla iş həyatlarında irəliləyə bilərlər.

Tədris müddətində proyektlərdən istifadə sadəcə xarici dil dərslərində deyil, eyni zamanda başqa dərslərdə də istifadə edilə bilər və proyektlərin istifadəsi dərslərarası əlaqə yaradar və tələbələr verilən proyektə müxtəlif elmi sahələrdə, müxtəlif nöqteyi nəzərdən yanaşa bilərlər. Bu müxtəliflik onlarda işlənilən proyekt üzrə əldə edilən biliklərin doğru və ya yanlışlığını, əhəmiyyətli tərəflərini araşdırmağa imkan yaradacaq.

Ədəbiyyat

1. Bell, J. 1993 “Doing your research project; A guide for firs-time researchers in education and social science”. Philadelphia: Open University Press
2. Brooks, A and P. Jrundy. 1990 “Writing for study purposes: a teacher’s guide to developing invidual writing skills“. Cambridge. Cambridge University Press
3. Kedir Assefa Tessema. “Stumilating through writing Project-Based Tasks”. Ethiopia 2005
4. Nunan. D 1999 “Second language teaching and learning” Boston. Heinle and Heina

U.Maharramova

Advantages of using projects in foreign language lessons

Summary

In proposed article deals the advantages of using the projects during the lesson in educatonal system. Using projects improves the corporation among the students, strength the interest to the education, and develops the researching ability. Exchanging the thoughts, and gathering the information improves their knowledge.

The teachers participate just only as facilitators. Students remember their own knowledge which has gained at the end of their research and they get right results. Projects consist of several stages and they require some special abilities. Questions which are asked by the facilitator can be helpful. According to projects aim the time can be different too. It can be done during one lesson, or during one academic year. Using projects improves students’ corporation ability and freely expressing their ideas in the future.

У.Магеррамова

Преимущества использования проектов уроков иностранных язык

Резюме

В предлагаемой статье рассматриваются преимущества использования проектов во время урока в образовательной системе. Использование проектов улучшает корпорации среди студентов, силу интерес к образованию, и развивает способность исследовать.

Обменявшись, мысли, и сбор информации улучшает их знания. Учителя участвуют только лишь в качестве посредников. Студенты помнят свои собственные знания, которые приобрел в конце своих исследований, и они получают правильные результаты. Проекты состоят из нескольких специальных способностей. Вопросы, которые задает фасилитатор, могут быть полезными. По проектам время тоже может быть разным. Это может быть сделано в течение одного урока или одного учебного года. Использование проектов корпорации повышает способность студентов и свободно выражать свои идеи в будущем.

Rəyçi: Sevda İmanova
dosent

KƏMALƏ MEHDİXANLI
AzTU
kəmalə.@.mail.ru

CÜMLƏDƏ SÖZ SIRASININ POZULMASI İNVERSİYA HADISƏSİNİN ƏSAS AMİLİ KİMİ

Açar sözlər: cümlə üzvləri, söz sırası, mübtəda, mətn, xəbər
Key words: members of sentence, word order, subject, predicative, text
Ключевые слова: члены пребок слова,сказуемое ,поблежащее,текст,

Məlumdur ki, sintaktik vahidlərdə komponentlərin yerlərinin dəyişməsi iki şəkildə özünü göstərir: a) inversiya; b) parselyasiya. Normal bir anlatımda və ya danışıq ortammda işlənilən cümlələri təşkil edən sintaktik vahidlər mətndə əsasən "mübtəda- təyin-tamamhq-zərflik-xəbər,, sırası ilə düzülür.

Dilin bütün kateqoriyaları kimi inversiya da bədii obrazlılığm yaradılmasında mühüm rola malikdir. Mətndə inversiya cümlədə və ya söz birləşməsində sözlərin ardıcıllıqla yerləşməsində özünü göstərir. Azərbaycan dilində söz sırası qrammatik- serr,antik və üslubi vəzifələrin yerinə yetirilməsində mühüm rola malikdir. Buna görə də söz sırasından danışan tədqiqatçılar onun dilindəki qrammatik xüsusiyyətləri ilə yanaşı, üslubi rolundan da bəhs etmişlər. Ə.Cavadov yazır: "Sıralanma dil qatlarının hamısını əhatə edir. Sıralanmanm əhatə etdiyi :sahələrdə sıra ilə yanaşı, hər bir sahənin (sistemin) özünəməxsus qanun-qaydaları da vardır. Ayrı-ayrı qatlara məxsus qanun-qaydalar ancaq o qat daxilində dövr edir, o sistem daxilində qüvvədədir" (1, s.6).

T.S.Yadıxanova göstərir ki, Azərbaycan və rus dillərində sözlərin sırası əsasən qrammatik vasitə kimi, daha çox isə üslubi xarakter daşıyır (13, s.l 1). O. Musayev qeyd edir ki, hər bir dildə, o cümlədən də ingilis və Azərbaycan dillərində söz sırası başlıca olaraq iki funksiya daşıyır: a) sintaktik-semantik; b) üslubi. Söz sırası bir vasitə olaraq müasir ingilis dilində əsas sintaktik-semantik funksiya daşıdığı və bu cəhətdən ciddi əhəmiyyət kəsb etdiyi halda, müasir Azərbaycan dilində əksinə, söz sırası əsas üslubi funksiya daşıyır və bu cəhətdən də ciddi əhəmiyyət kəsb edir" (6, s.7). M.Bayramov yazır ki, "Azərbaycan dilində inversiya böyük üslubi imkanlara malikdir, nitqdə üslubi məqamların yaradılmasında, emosianallığm yüksəldilməsində, məlumatın aktuallaş- dınlmasmda, fikrin daha qabarıq ifadə olunmasında vacib rol oynayır" (8, s.24).

"Söz sırası" və "cümlə üzvlərinin sırası" bir-birindən fərqli anlayışlardır. Q.Kazımov yazır ki, söz sırası dedikdə, cümlə üzvləri ilə

yanaşı, ara sözlərin, xitabların, qoşmaların, bağlayıcılann, ədaDvə nidaların da cümlədə yeri nəzərdə tutulur. O, dünya dillərində söz sırasının iki mühüm funksiyasını- sintaktik-semantik və üslubi funksiyalarının mövcudluğunu da qeyd edir. Onun fikrincə, sintaktik-semantik funksiya o demekdir ki cümlədə sözlərin yeri dəyişdikdə həm cümlənin mənası, həm də sözün sintaktik vəzifəsi dəyişir. Azərbaycan dilində bu hal yalnız bir nöktədə- mübtəda ilə qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlığın münasibətində özünü göstərir...

Azərbaycan dili mətnlərində inversiya hadisəsi həm sadə və mürəkkəb cümlə, həm də mətn və mürəkkəb sintaktik bütövlərdə komponentlərin normal yerlərinin dəyişməsi və ya tərsinə sıralanması ilə müşahidə olunur. Dilimizdə həmin səviyyələrdə gerçəkləşən inversiya hadisəsi, ən çox üslubi-sintaktik variantlar olaraq ortaya çıxır. İnversiya Azərbaycan dili mətnlərində sintaktik paralellər, parselyativləşmə kalambur (söz oyunu) və s. dil-nitq vasitələri kimi asimmetrik-sintaktik bir hadisə olaraq dəyərləndirilir.

Tədqiqat obyekti seçilən folklor mətnlərində inversiya sənətkar oxucu və bilavasitə proyeksiyalı mətn yaratma şərtlərinə bağlı olaraq müəyyənləşir, üslubi- qrammatik vasitə kimi çıxış edir.

Söz sırasının üslubi funksiyası o deməkdir ki, cümlədə sözlərin yeri dəyişdikdə sözün sintaktik funksiyası və cümlənin mənası dəyişmir, bu və ya digər üzv aktuaİİaşdınİaraq daha qabarıq nəzərə-çarpdırılır... (3, s. 163)

Dilimizdə söz sırasının ədəbi normaları mövcuddur. Belə ki, "... uzlaşma əlaqəsi ilə bağlanan birləşmələrdə tabeedici söz tabe edən sözdən, idarə və yanaşma əlaqəsi ilə bağlanan birləşmələrdə isə btabe söz tabeedici sözdən əvvəl gəlir: xəbər cümlənin sonunda, mübtəda isə xəbərdən əvvəl durur. Tamamlıq baş üzvlərin arasında özünü göstərir. Zəifliklərin bir qismi əsasən cümlənin əvvəlində, digər bir qismi isə sonuna yaxın bir hissəsində yerləşir (hər iki halda tabeedici sözdən əvvəl gəlir). Təyin isə hansı cümlə üzvünə aiddirsə onun əvvəlində işlədilir.

Tədqiqata cəlb etdiyimiz bədii örnəklərdə müşahidə olunan inversiya hadisəsi üslubi-qrammatik işlənmə məqamlarına görə olduqca zəngin, müxtəlif və rəngarəngdir. Üslubi-qrammatik nöqteyi-nəzərdən inversiya dastanların nəsr parçalarında və eyni zamanda aşıq və el şairlərinin şeirlərində müşahidə edilir ki, bu məqamda müxtəlif janrlarda yaradılan əsərlərdə ekspressivlik, emosionallıq güclü surətdə nəzərə çarpdırılır. Müşahidələrimiz göstərir ki, dastanlarda dilimizin qrammatik qayda-qanunlarına əksər hallarda riayət olunduğu halda, şeirlərdə müəyyən dərəcədə poetik texnikaya, vəzn və qafiyəyə güzəştə gedilməsi ilə əlaqədar olaraq bu qaydadan kənara çıxma halları intensiv şəkildədir.

İnversiya, hər şeydən əvvəl, aşıq və el şairlərinin əsərlərində çıxış edir. Məsələn, “Ağ Aşıq evə çatan kimi bayıldı, düşdü üzü üstə” (5, s. 387).

Buradabədii təsviri qüvvətləndirən bir vasitə kimi "düşdü üstə" ifadəsi "üzü üstə düşdü" şəkilndə verilməsi idi. Lakin danışıq dilinin üslubu ilə əlaqədar olaraq xəbər tərzi- hərəkət zərfliyindən əvvələ keçirilməklə söz sırası pozulmuş və bu yolla Ağ Aşığın düşdüyü psixoloji momentin və ya onun hal vəziyyətinin ən gərgin anı obrazlı şəkildə ifadə edilmişdir. Onu da qeyd etməliyik ki, bu cümlədə obrazlılıq həm emosional, ekspressiv sözlər (Ağ Aşıq bayıldı, yəni özündən getdi-frazem), həm də inversiya vasitəsilə (düşdü üz üstə yerə) yaradılmışdır.

Və yaxud, "Kosacanm müdrik qocaları üz qoydular Telli Cəfərin dərgahına. Günə bir mənzil, teyi- mənzil, qırdılar yolun damarını. Ertəsi gün atdan endilərTelli Cafarin dərgahında (5, s.388). Dastançının təsvir nitqində işlədilən bu cümlələrin hər birində inversiya hadisəsi təzahür etdiyinə görə, emosionallıq, ekspressivlik, ifadəlilik sərbəst vəziyyətdədir və dilin qrammatik qanunları çərçivəsindən kənara çıxma halları güclü nəzərə çarpacaq dərəcədədir. Söz sırası pozulmuş üzvləri ədəbi dilin qayda-qanunlarına müvafiq şəkildə bərpa etsək, həmin cümlələrdə sintaktik mühit belə alınmalıdır: "Kosacanm müdrik qocaları Telli Cəfərin dərgahına üz qoydular. Günə bir mənzil, teyi-mənzilyolun damarmıqırdılar. Ertəsi gün Telli Cəfərin dərgahmdaatdan endilər". Birinci və üçüncü cümlələrdə inversiya "üz qoydular", "atdan endilər" xəbərlərinin "dərgahına", "dərgahında" yer zərfiklərindən əvvəl işlədilməsi ilə reallaşdırılmışdır.

Kontekstin quruluşu və tələbi, orada irəli sürülən fiqurun ifadə etdiyi üslubla əlaqədar olaraq asıq və el şairlərinin əsərlərində özünü göstərən inversiya hadisəsini müxtəlif cümlə üzvlərinin qarşılıqlı sırası baxımından aşağıdakı şəkildə nəzərdən Kcçirməkolar. inversiya cümlə üzvü səviyyəsində özünü göstərir.

Mübtəda və xəbərin inversivası: Söz sənətkarlarının yaratdiülan müxtəlif' ıanriardakı əsərlərdə mübtəda ilə xəbərin qarşılıqlı sırası əksər məqamlarda dilimizin qraımnatikasmm qanun-qaydalarına uyğun gəlir. Lakin dastanların nəsr parçalarında və şeirlərdə çox vaxt mübtəda ilə xəbərin qarşılıqlı sırasında ikincinin birincidən əvvəl gəlməsi halları müşahidə edilir ki, bu da invcrsiyamn güclü mövqedə çıxış etməsinə şərait yaradır. .Məsələn, əsərlərin dilində xəbəri felin əmr şəkli ilə ifadə olunan nida cümlələrində xəbər cümlənin əvvəlində, mübtəda isə sonunda işlənir. Bu halda dastanların nəsr parçalarında, şeirlərdə ifadə oluıaıı fikirlər intonasiya baxımından, qüvvətli səslənir, güclü emosionallıq çaladan meydana çıxır: "-Tifaqın dağılsın, Aşıq Alı, durduğumuz yerdə işə düşdük" (5, s.430); "-səhv edirsən, Aşıq Alı, mən sənin qulun deyiləm" (5, s.43ü); "Gəlmə irəli, pristav, pozaram əhvalın sənin" (5, s.465)

Göründüyü kimi, bu cümlələrin heç birində mübtəda işlədilməmişdir. Buna görə də həmin cümlələr xəbərlə başlamışdır. Bu cümlələrdə də

obrazhlıq iki vasitə ilə yaradılmışdır: emosional, ekspressiv söz və ifadələr (tifaqm dağılsın, səhv edirsən, pozaram əhvalım), inversiya ***(Aşıq Alı, pristav).***

Aşıq və el şairlərinin əsərlərində poetikləşdirilən hadisələr daha canlı,dahaətraflı və rəngarəng olduğu üçün söz sənətkarları bədii təyinlərə daha çox müraciət etməli olmuşlar. Bədii təyinlərin təsvir və şeir dilində çox mühüm rola malik olmalırnı xüsusi olaraq qeyd etməliyik. Çünki bədii təyinlər şeir dilinin canı, qanı, onun qıca mənbəyidir. Deməli, poetik siqlətin qüvvətləndirilməsində, daha ifadəli və incə verilməsində təyinlərin də inversiyası mühüm rol oynayır. Söz sənətkarlarının əsərlərində canlı danışıq dilində olduğu kimi tərəflər inversiyaya uğradıqda, yəni xəbər təyindən əvvəl işləndikdə mətndə inversiyanm potensiyalı üzə çıxır, funksional variantlar yaranır. Məsələn: *Durma,* məğrur *sarov kimi*, Qış fəslində *Murov kimi,* Quzeylərdə *qırov kimi,* Ağarma, saçım, ağanna (5, s.274), O kənddə *yarandı gözəl mənzərə, Güllü, gülüstanlı, yaşıl dağ, dərə* (5, s.328).

Hər iki nümunədə məntiqi vurğu xəbərin üzərinə düşmüş, xəbər fikrin inkişafına köməklik göstərmişdir.Aşıq və el şairlərinin əsərlərinin dilindən aydın olur ki, sözlərin sıralanmasmda əksər hallarda məna vəhdətinə riayət olunmuşdur. Lakin dövrün söz sənətkarları şeirdə vəznin və qafiyənin tələb və şərtlərini nəzərə alaraq bu təbii sıralanmam pozmuş, bədii söz ustalıqlarını nümayiş etdirmək məqsədilə sanki, sərbəst hərəkət etmiş, əsərlərinin dilində cümlə üzvlərinin inversiyasma geniş meydan vermişlər. H. Mirzəzadənin göstərdiyi kimi, cümlə üzvlərinin tərkibində məntiqi əlaqənin vəziyyətinin ancaq nəsr dilində müşahidə etmək mümkün olduğu halda, şeir dilində onun vəziyyətini və imkanım izləmək mümkün deyildir; çünki şeirdə vəznin və ya qafiyənin tələb və şərtlərini Nəsr gözləməklə əlaqədar olaraq bu təbii sıralanma pozulur və bədii söz ustalığının sərbəst hərəkət etmələrinə imkan verir.

Ədəbiyyat

1. Cavadov Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, “Elm, 1977, s.6 (112
2. Xəlilov R. “Söz sırası”, Azərbaycan bədii dilinin üslubiyyatı, Bakı, 1970, s.300).
3. Kazımov Q. Müasir Azərbaycan dili. “Təhsil”, Bakı, 2007, s. 163, (ümumi s. 494)
   Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti

K.Mextixanli

Inversion as a stylistic-syntactic process

Summary

The article deals with inversion which serve to strength emotional color and expressing master's feeling and sense in creativity of Azerbaijani ashugs and national poets works in XIX-XX century, (about Daralayaz district)

Here also enumerated emotionality, expressiveness which inversion crated in language and peculiarities which increase artistry of poetic models.

Inversion perform these function in texts in which it takes place: logic, separation, emphatic, functional stylistic, rhythmic-melodic, architectonic, structural- grammatical and communicative.

К.Мехтиханлы

Инверция как стилистическо-синтактическое явление

Резюме

В статье исследовано процес инверции, которое выявляется в творчестве Азербайджанских ашугов и народных поэтов (но Дерелеязскому краю) Х1Х-ХХ веков и повышающий эмоциональность их произведений. Инверция производит в языке эмоциональность, экспрессивность и повышает художественность поэтических произведений.

В процессе инверции в предложении меняется порядок слов и в этот момент еще больше повышается чувственность и переживания. В текстах где наблюдается инверция исполняются энфатические, функционально-стилистические, ритмически-мелодические, архитектонические, структурно-грамматические, коммуникативные функции.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

ŞÖVKƏT TAĞIYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Filologiya elmləri namizədi,b/m.
şövkət.@.mail.ru.

METAFORALARDA, EVFEMİZMLƏRDƏ SİYASİ-İQTİSADİ DİSKURSUN SƏCİYYƏVI XÜSUSİYYƏTLƏRİ

Açar sözlər:diskurs,siyasi diskurs,mətn,konnotasiya,siyasi-iqtisadi dilçilik
Ключевые слова: бискурс, политический бискурс, текст, коннотация,
Keywords:discourse,political discourse,text,connotation,political linguistics

Tədqiqatçıların fikrincə siyasi diskursu təhlil edərkən həm ekstralinqvistik faktorlar(məsələn, mətndə təsvir olunan hadisələrin hansı şəraitdə baş verməsi, bu hadisələrin baş verməsi üçün zəmin yaradan hallar,baş verən hadisələrdə iştirakçı olanların dəyərləndirmələri və s.),həm də linqvistik faktorlar (məsələn,mətnin fonetik quruluşu,qrammatik və leksik xüsusiyyətləri) nəzərə alınmalıdır. Ümumiyyətlə,ingilisdilli siyasi diskurs-mətnləri təhlil edərkən bu qənaətə gəlmək olar ki,danışan(yazan),siyasi sahədə olan aktyorlar siyasi diskursun müxtəlik janrlarından (kiçik həcmli şüarlar,sloqanlar,devizlər,ortahəcmli mitinq və ya parlament çıxışları,siyasi məzmunlu vərəqələr, qəzet məqalələri və s., eləcə də böyük həcmli partiya proqramları, siyasi məruzələr,siyasi publisistikaya aid olan kitablar və s.)istifadə edirlər.Bunları nəzərdən keçirməklə,müasir siyasi diskursun aşağıdakı spesifik linqvistik xüsusiyyətləri haqqında danışmaq olar: 1. Siyasi diskursda evfemizmlərin işlədilməsi.Siyasi diskurs üçün evfemizmlərin işlədilməsi dinləyiciyə və ya ictimai fikrə emosional formada təsir etmək vasitəsi hesab olunur və müsbət emosional çalar ifadə edir. Evfemizmlər adətən kobud,nəzakətsiz,yersiz,ictimai fikirdə,dinləyicidə mənfi fikir doğura biləcək sözlərin yerinə daha məqbul,pozitiv çalar ifadə edən sinonim söz və ya ifadələrdən istifadə olunmasıdır. Məsələn,Amerika prezidenti Barak Obama İraq müharibəsinə toxunarkən *victims of war* "müharibədə həlak olanlar,müharibə qurbanları" *loved ones* "əzizlərimiz,sevdiklərimiz", ya da *fallen heroes* "həlak olmuş (yaxud:dünyasını dəyişmiş) qəhrəmanlar" kimi leksik vahidlərdən istifadə edir. Digər bir misal:2012-ci il prezident seçkilərində Barak Obama özünün zəfər nitqində dediyi *It doesn't matter whether you're* ***black or*** *white or Hispanic or Asian or* ***Native American*** *or young or old or rich or poor,abled,****disabled****, gay or* ***straight*** cümləsində Amerika cəmiyyətində tutduqları ictimai-siyasi mövqedən, statusdan,maliyyə durumundan,irqindən və s. asılı olmayaraq hamının bərabər,eyni mövqeyə malik olduğunu diqqətə çəkmək istəyir.Bu cümlədə işlənmiş *black* və *Native*

American siyasi evfemizmləri Amerika cəmiyyətində hər bir insanın ahnsı etnik qrupa və ya irqə mənsub olmasının heç bir əhəmiyyət daşımadığına işarə vurur.Bu cür nitq vahidlərini işlətməklə Amerika prezidenti Amerika dövlətinin çoxmillətli olmasını göstərməklə yanaşı,burada millətindən asılı olmayaraq hamının bərabər hüquqlara sahib olmasını vurğulayır. Bu cümlədə işlənmiş *disabled* və *straight* evfemizmlərinin işlənməsi isə Amerika vətəndaşlarının sağlamlıq vəziyyətinə görə arqi ayrı-seçkilik və hansı cinsi kateqoriyaya mənsub olmalarına qarşı yönəlmişdir. Siyasi xadimlərin bu tip siyasi evfemizmləri işlətməsi hər hansı bir siyasi fiqura gerçəklikləri dolayısı ilə pərdələmək, ört-basdır etməklə yanaşı,ictimai fikrə təsir etmək,manipulyasiya üsulları ilə onları vahid bir məqsəd uğrunda birləşdirmək istəyindən irəli gəlir. 2.Siyasi diskursda **metaforalardan** geniş istifadə olunur.Metafora bir əşya və ya predmetlərə aid olan əlamət,-keyfiyyət və formaların başqa hadisə,varlıq və ya predmetlərə aid olunmasını nəzərdə tutur.Tədqiqatçıların yekdil rəyinə görə siyasi diskursda me-taforalardan istifadə olunması mühüm əhəmiyyət daşıyır və manipulyasiya etmək,ictimai fikrə təsir göstərmək,onları dilin bu mühüm üslubi vasitəsindən istifadə etməklə lazımi istiqamətə yönəltmək,inandırmaq məqsədi güdür. Siyasi diskursda metaforalardan istifadə etmək siyasətçiyə öz nitqini ifadəli, təsirli etməklə yanaşı,dilin üslubi imkanlarını işə salaraq öz niyyət və istəklərini həyata keçirmək vasitəsi hesab olunur.Bunun əsasında siyasi xadimin gerçəklik hadisələrinin əsl səbəblərini gizlətmək,onların baş verməsini insan faktorundan və ya dövlətdirsə, hökumətdən asılı olmamasını və bu yolla məsuliyyətdən sığortalanmaq istəyi dayanır.Məsələn, *Because they are the* ***drivers of the economy.*** *Americans working again and getting our economy moving again* [13]. "Çünki onlar (Amerikalılar)iqtisadiyyatın **aparıcı qüvvəsi-lokomotivi** hesab olunurlar.Amerikalılar dayanmadan,yorulmadan və can-başla işləyərək bizim iqt-isadiyyatımızı qabağa aparırlar "cümləsində Amerikalıların **lokomotivə və ya mühərrikə** bənzədilməsi danışanın dinləyicidə müsbət emosiya,pozitiv fikir, gələcəyə ümidlə baxmaq və inam yaratmaq niyyətindən ibarətdir.3.Siyasi prosesin özü bir rəqabət olduğundan burada idman terminlərindən istifadəyə geniş yer verilir.Siyasi diskursun əsasında iki tərəfin mübarizəsi dayandığından bu mübarizədə idman yarışlarına xas olan elementlər özünü büruzə verir:rəqibin olması,rəqiblərin mübarizəsi,mübarizə strategiyası və taktikası,mübarizə normaları,qələbə,məğlubiyyət və s. Maraqlı faktlardan biri ondan ibarətdir ki, KİV materiallarında rast gəlinən siyasi diskurslarda işlənmiş idman terminləri əsasən yüngül atletika,qaçış və boksa aiddir. Məsələn, *"Mr.Obama* ***won*** *state-by-state contest"* [The USA Today; 12.11.12]. "Cənab Obama seçki yarışında ştatlar üzrə **qalib gəlmişdir**". Və yaxud başqa bir nümunədə olduğu kimi: *"Conservatives say second budget bill a priority,MPs say there could be another showdown* ***marathon****"* [The Hill Times; 17.09.12].

"Mühafizəkarlar ikinci büdcə layihəsinin müzakirə üçün prioritet olduğunu deyirlər,bununla belə, parlament üzvləri büdcə layihəsi üçün növbəti (başqa bir yeni) ictimai müzakirələr **marafonunun** olmasını da istisna etmirlər".4.Siyasi diskursda 1-ci şəxs əvəzliklərinin **(we,us,our – biz,bizə,bizim)** daha sıx-sıx işlənməsi.Siyasətçilərin öz çıxışlarında manipulyasiya vasitəsi kimi 1-ci şəxs əvəzliklərindən geniş istifadəsini belə izah etmək olar ki,siyasətçi özünü xalqla, ölkə ilə eyni tutur və bütün bunları vahid bir orqanizm kimi görür.Bu üsuldan istifadənin əsas məqsədi auditoriya ilə öz aralarında daha sıx münasibət,birlik yaratmaq və özünü heç də onlardan ayırmamaq,əksinə onların, ölkəsinin bir parçası hesab etməkdir,yəni adresant=adresat. Siyasi çıxışlarda şəxs və yiyəlik əvəzliklərinin (I,we,my,our və s.)üstünlük təşkil etməsi danışanın (adresantın) auditoriya ilə(adresatla) eyni dəyərləri,ideyaları bölüşdürdüyünü, onlarla həmfikir olduğunu diqqətə çatdırmaq və hədəfə çatmaq üçün birgə mübarizə aparmaq lazım olduğunu diqtə etməkdir.Məsələn,1997-ci ildə özünün inaqurasiya nitqində B.Klinton Amerikaya aid problemlərin məhz bir yerdə həll edəcəklərinə – Amerika xalqının,Amerika dövlətinin və Amerika prezidentinin birliyinə işarə edərək deyir: "**We** – the American people – **we** are the solution"[10]. Yaxud Böyük Britaniyanın baş naziri D.Kemeron 2013-cü ildə ölkə vətəndaşlarına müraciət edərək onların bir yerdə uğurlu gələcəyə sahib olacaqlarını və öz ölkələrinin iqtisadi gücünü birlikdə artıracaqlarını ümumiləşdirərək "**We** can – together – make Britain a great success story in the global race" [9] deyir.

Gerçək mübarizə olduğu kimi,siyasi diskursun da önəmli tərəflərindən biri ondan ibarətdir ki,burada tərəflər (siyasi opponentlər)bir-birini bütün vasitələrdən istifadə etməklə "vurmağa","zəiflətməyə" və "gücdən salmağa"çalışırlar.Bu, onların fikirlərini,ideyalarını və arqumentlərini tənqid edərkən əsassız hesab etməyə cəhd etmək və ya siyasi rəqiblərini qaralayaraq gözdən salmaq,hətta onların şəxsiyyətləri haqqında neqativ fikirlər formalaş-dırmaq şəklində ola bilər. Məsələn,müasir dövrdə Qərb ideoloji institutlarının nümayəndələri tərəfindən fundamentalizmi islama calayaraq "islam funda-mentalizmi"söz birləşməsi şəklinə salmaq və bu yolla islama,islam dininə kölgə salmaq məqsədi daşıyır.Hətta Qərb dünyasının bəzi siyasi ideoloqları "islam fundamentalizmi"ni qəti şəkildə "radikallığa" və ya "terrora" bağlamağa çalışırlar. Burada məqsədimiz heç də "islam fundamentalizmi" və ya Qərb siyasi institutlarının bu anlayışa necə yanaşmasını izah etmək deyildir.Məqsəd siyasi diskursda mənfi çalara malik, neqativ konnotasiya yükünü özündə daşıyan leksik vahidlərin və ya ifadələrin işlədilməsi yolu ilə siyasi opponentləri gözdən salmaqla sıradan çıxarmaq alətlərinə diqqət çəkməkdir. Məsələn,siyasi debatların birində prezidentliyə namizədlərdən Mak Keynin demokratların namizədi olan Barak Obamanın səhiyyə

sahəsində təklif etdiyi proqrama münasibətinə nəzər salaq: *"Mac Cain claimed that Obama's health care plan would "force small businesses to cut jobs" and would put "**a bureaucrat** is between you and your doctor".*Bu cümlədə *bureaucrat* sözü əslində *government official* söz birləşməsinin yerinə işlədilib və Mak Keynin B.Obamanın səhiyyə sahəsindəki proqramına mənfi münasibət ifadə etməklə yanaşı,özünü rəqibindən daha üstün tutmağa xidmət edir. 2008-ci il 28 avqust tarixli seçkiqabağı proqram nitqində B.Obama Amerika, amerikalılar və Amerika cəmiyyəti haqqında müsbət konnotasiyalı sözlər,ifadələr işlətməklə auditoriyanı manipulyasiya edir və bu üsul da özünün müsbət imicini yaratmasına xidmət edir: *this country, this country of us, this nation, our country* kimi müsbət konnotasiyalı birləşmələr belə misallardan hesab oluna bilər.Siyasi çıxışlar edərkən mənfi konnotasiyalı leksik vahidlərdən istifadə daha geniş yayılmışdır. B.Obama da siyasi rəqibləri haqqında fikir yürüdərkən daha çox mənfi fikir və rəy yaradan söz və ifadələrdən ,söz birləşmələrindən istifadə edir. Məqsəd öz siyasi rəqiblərinin siyasi imicini yaratmaq və onları siyasi arenada gözdən salmaqdır: *"John Mc Cain wants to follow George Bush with more tough talk and **bad strategy**, that is his choice – but it is not the change we need"* [13]. Bu cümlədə B.Obama bad strategy (pis,uğursuz strategiya) söz birləşməsini işlətməklə öz siyasi rəqibi olan Mak Keynin də Amerika prezidenti olmuş Corc buş kimi İraq müharibəsinə bəraət qazandırmasını və bu müharibəni dəstəkləməsini önə çəkir və onu Amerikalıların İraq müharibəsinə mənfi münasibətindən istifadə edərək gözdən salmağa çalışır. Belə nəticə çıxarmaq olar ki,siyasi diskursda mənfi və müsbət konnotasiyalı leksik vahidlərin,ifadələrin,söz borləşmələrinin və s. işlədilməsi siyasi ifadə vasitəsi olaraq manipulyasiya məqsədi daşıyır və audiyoriyada siyasi rəqiblər ətrafından mənfi və ya müsbət imic formalaşdırmağa xidmət edir.

Ədəbiyyat

1.Şiriyev F.A. Siyasi dilçiliyin inkişaf mərhələlərindən // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası.2014. No 1 (6).
2.Бенвенист Э.Общая лингвистика. М.: Прогресс, 1974.
3.Дворцова Н.П.Филологический дискурс // Вестник ТюмГУ, 2000.
4.МазаевА.Ю.Политическийдискурс: /http://www.ostu.ru/conf/ ruslang2005/trend1/mazaeva.htm.

Ш.Тагиева

Лингвистические особенности политического дискурса в метафорах и эвфемизмах

Резюме

В статье рассматривается проблема политического дискурса на материале англоязычных текстов.Возникновением политического дискурса обрашается внимание на изучение проблем полтического дискурса как лингвистического исследования.Анализируются свойства лексических единиц политического дискурса. Также затрагиваются жанры политического дискурса и их использование в полити ческих процессах. В статбе рассматривается стратегия политического дискурса, а также проявление роли адресанта и адресата,которые считются его основными категориями. Сопоставляются различные точки зрения на вопрос о дискурсе вообще и политическом дискурсе в частности. Разграничиваются понятия текст и дискурс и определяются принципы описания фактического материала.

SH.Taguiyeva

Linguistic peculiarities of english texts on political- economical discourse

Summary

The article considers the issue of political discourse on the materials of English texts. The article also focuses on the study of political linguistics as a field of research with the appearance of political discourse. Furthermore, characteristics of lexical units related to political discourse are analyzed. In addition, genres of political discourse and their usage in political processes are touched upon. At the same time , the strategy of the political discourse,as well as its key categories-addresser and addressee and manifestation of their roles on the level of speech acts are emphasized in the article. Along with viewpoints on discourse in general, different points of view and opinions particularly on the pohncal discourse are compared in the article.

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru,dosent

YEGANƏ ABBASOVA
Filologiya üzrə fəlsəfə doktoru
yeqana huseynova@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ "SÖZ SIRASI" VƏ "CÜMLƏ ÜZVLƏRİNİN SIRASI" TERMİNLƏRİNİN İŞLƏDİLMƏSİNƏ MÜNASİBƏT

Açar sözlər: cümlə, cümlə üzvlərinin sırası, söz sırası, funksiya, norma.
Ключевые слова: предложение, порядок член предложения, порядок слов, функция, норма.
Key words: sentence, part of sentence order, word order, function, norm.

Cümləyə daxil olan sözlər, həm məzmunca, həm də formaca bir-birinə bağlanmalı, fikir ifadə etmək üçün müəyyən qanunlar əsasında düzülməlidir. Hər bir dil hadisəsi kimi, cümlədə sözlərin sıralanması da müəyyən qanunlar əsasında baş verir. Cümlədə sözlərin sırasından danışarkən ilk növbədə onun başqa dil qanunları arasındakı mövqeyini müəyyənləşdirmək lazımdır.

Ümumi qanunlar isə dilin tipoloji quruluşunun müəyyənləşməsində həlledicidir. Azərbaycan dili və rus dili bir-birindən yalnız bu və ya digər fonetik, morfoloji, sintaktik hadisələrin varlığı və ya yoxluğu ilə deyil, dildəki vahidlərin sıralanma, vurğu, intonasiyasına görə də fərqlənir. Hər bir dilin morfoloji quruluşu onun sintaktik quruluşuna və ya əksinə, sintaktik quruluşu morfoloji quruluşuna uyğun gəlir. Sistemlər arasındakı uyğunluq, ahəng məhz ümumi qanunlar arasında mümkün olur. Çünki ümumi dil hadisələri bütün dil sistemlərində eyni vəzifə daşıyır, eyni xüsusiyyət kəsb edir. Buna görə də dil bölmələri (sistemləri) arasında vahid sistem yaranır. Azərbaycan dilində söz vurğusu axrıncı hecanın üzərinə, məntiqi vurğu isə xəbərdən əvvəlki sözün üzərinə düşür. Deməli, istər sözdə, istərsə də cümlədə vurğu eyni yerə döşdüyü üçün vahid vurğu sistemi yaranır. Morfoloji vahidlərin sıralanmasında özünü göstərən sıra qanunları eynən sintaktik vahidlərin də sıralanmasında iştirak edir.

Yazı-çı-lıq və yaz-dır-ıl(maq) ayrı-ayrı nitq hissələrinə məxsus quruluşdur. Lakin sıralanma prinsipinə görə bunlar eynidir. çı-lıq; dır-ıl şəkilçilərinin eyni mövqedə yerləşməsi təsadüfi xarakter daşımır. –çı şəkilçisinin isimlər üçün yaratdığı mənanı –dır fellər üçün yaradır. –lıq şəkilçisi mücərrədliyin, -ıl şəkilçisi isə məçhulluğun əlamətidir. Buna görə də B.A.Serebrennikov yazır ki, iltisaqi dillərdə şəkilçilərin sıralanmasında müəyyən bir qanun vardır. Abstraklıq bildirən şəkilçilər kökdən uzaqda, konkretlik bildirən şəkilçilər isə kökə yaxın yerləşir. Müxtəlif dil vahidləri üzərində aparılan müşahidələr göstərir ki, Azərbaycan dilində dil vahidlərinin sıralanması kateqoriyaların və bu kateqoriyaları ifadə edən sözlərin mənasına əsaslanır.

Azərbaycan dilində hər bir sıra komponentinə daxil olan cütlükdə mənaya görə sıralanma özünü göstərir. Mənaların sıralanması isə təhlil (analiz) üsülünda gedir. Bu baxımdan K.Abdullayevin də fikri maraq doğurur. O hesab edir ki, Azərbaycan türk dilindəbir çox başqa müxtəlif sistemli dillərdə olduğu kimi cümlə üzvünün aktuallaşması yazılı dildə əsasən söz sırasının hesabına həyata keçirilir (2,s.99). Beləliklə, söz sırası özünü nəinki üslubi cəhətdən cümlənin lazımlı vasitəsi kimi göstərir, eyni zamanda daha tam kommunikativliyə, daha tam informativliyə xidmət göstərən amil kimi də çıxış edir. Dildə cümlələrin sturuktur sistemi minumum bir, maksimum isə ifadə olunan fikirdən, danışanların üslub xüsusiyyətlərindən asılı olaraq müxtəlif sayda olur. Məs: *Atəş! (1) Uşaq soruşur (2). Ana uşaqdan soruşur (3). Ana uşağı məktəbə yola salır (5). Ana hər gün uşağı saat səkkizdə məktəbə yola salır (9).* və s. Nümunə kimi göstərilmiş bu cümlələrdən birincisi bir, sonuncu isə 9 sözdən ibarətdir. Cümlə strukturuna daxil olan hər bir müstəqim, yaxud da qeyri-müstəqim söz sintaqmatik səviyyədə özündən əvvəl və sonra işlənən digər sözlərlə semantik və sintaktik əlaqəyə girməklə nəzərdə tutulmuş semantik və ya qrammatik funksiyanın daşıyıcısına çevrilir. Məs: *Nicat 8 Mart münasibəti ilə anası üçün hədiyyə aldı.* Bu cümlənin sturukturunda çıxı. Edən "*ilə*" və "*üçün*" sözləri "*münasıbəti*"və "*anası*" sözlərindən sonra enklitik elementlər kimi işlənərək, onlarla birlikdə müəyyən semantik və qrammatik funksiya yerinə yetirirlər. Ona görə də, belə qənaətə gəlmək olar ki, dilin leksikonunu təşkil edən sözlərin heç də hamısı nitqin mozaykasının yaradılmasında eyni səviyyəli material kimi iştirak etmir. Cümləyə daxil olan hər bir söz öz leksik səviyyəsini sintaktik səviyyəyə dəyişmiş olur və nəticədə cümlənin elementinə çevrilir və yerinə yetirdiyi funksiyadan asılı olaraq , cümlə strukturunda dilin sistem və norma tələblərinə əməl olunmaqla sintaqmatik planda özündən əvvəl və sonra işlənən sözlərlə əlaqəyə girərək , konkret semantik məna kəsb edir və yeri müəyyənləşir. Ə.Abdullayev, Y.Seyidov, A.Həsənovun " Müasir Azərbaycan dili. Sintaksis" əsərində qeyd olunur ki, cümlə üzvləri müəyyən qanunauyğunluq əsasında sıralanır. (1, s. 225) . Bunlardan fərqli olaraq, türk dilləri üçün sabit söz sırasının xarakterik olduğunu qeyd edən Z.Budaqova fikrini ümumiləşdirərək belə qənaətə gəlmişdir. " Cümlədə sözlərin sırası, cümlə üzvlərinin yerləşdirilməsi deməkdir." (3,s.112). Burada mübahisə doğuran hal odur ki, "cümlədə sözlərin sırası" və " cümlədə cümlə üzvlərinin yerləşdirilməsi" sinonim ifadələr kimi nəzərdə tutulmuşdur. Bundan başqa eyni söz Azərbaycan dilində müxtəlif situasiyalarda fərqli cümlə üzvləri funksiyalarının daşıyıcısı (mübtəda, tamamlıq, predikativ, zərfliyin müxtəlif növləri) kimi çıxış edə bilir. Məs.: *Şəhər böyükdür. O şəhərdə işləyir. Turistlər bu şəhəri çox sevirlər.* Qeyd olunmuş cümlələrin birincisində "şəhər" sözü mübtəda, ikincisində yer zərfliyi, üçüncüsündə isə tamamlıq kimi çıxış etmişdir. Deməli, cümlə daxilində hər hansı mənalı sözün yerinin dəyişməsi onun sintaktik funksiyasının, ümumilikdə

cümlənin mənasının dəyişməsinə səbəb olur. Cümlə daxilində sözlər sadəcə sıralanmır, çünki cümlə daxilində sözlərin sırası müxtəlif funksiyaların daşıyıcısı kimi çıxış edir. Dildə cümlənin struktur sxeminin invariantının müəyyənləşdirilməsində cümlə üzvlərinin düzümü xüsusi əhəmiyyət kəsb edir, çünki bununla cümlənin struktur sxemində ifadə olunan fikrin dəqiqləşdirilməsi mümkün olur. Məs.:1. *Professor tələbələrə qaydanı izah edir. Professor qaydanı tələbələrə izah edir.* Dilin norma qaydalarına görə birinci variant (*Professor tələbələrə qaydanı izah edir.)* lazımi informasiyanın (qaydanı) ötürülməsi baxımından daha düzgün hesab edilir, çünki "qaydanı" tamamlığının cümlədə xəbərdən əvvəlki mövqedə qərarlaşması remanın ifadəsinə xidmət edir. İkinci variantda bu funksiyanı eyni mövqedə işlənən "tələbələrə" tamamlığı yerinə yetirir. Bu yazıda əsas məqsəd cümlə daxilində cümlə üzvlərinin necə düzülməsini və yaxud sözün nə cür vahid olmasını tədqiq etmək deyil, sadəcə olaraq, mövcud ədəbiyyatda işlənən "söz sırası" və "cümlə üzvlərinin sırası" kimi vahidlərdən hansının reallığı daha düzgün əks etdirdiyinə aydınlıq gətirməkdir. " *Professor tələbələrə qaydanı izah edir.*" cümləsində sözlərin sıralanması təhlil olunarsa, o halda deyə bilərik ki, bu cümlədə birinci yerdə "professor", ikinci yerdə " *tələbələrə*", üçüncü yerdə "*qaydanı*" ismi, dördüncü yerdə isə "*izah edir*" feli işlənmişdir. Deməli, cümləni təşkil edən dörd sözdən üçü isim, biri feildir). Sual olunur: Niyə bu üç isimdən "*professor*" bu cümlədə birinci mövqedə işlənmişdir? Axı həmin söz başqa bir cümlədə fərqli mövqedə işlənə bilir. Məs.: *Tələbə professora təşəkkür etdi*. Təhlildən məlum olur ki, Azərbaycan dilində birinci yerdə işlənən cümlə üzvü sintaktik keyfiyyətinə görə variativ xarakterli olur, yəni bu yerdə mübtəda, zərflik, tamamlıq və s. işlənə bilər. Bu o deməkdir ki, hansı cümlə üzvünün birinci yerdə işlənməsində məntiqi ardıcıllıq əsas götürülür, çünki birinci yerdə duran cümlə üzvü cümlənin obyektiv-məntiqi quruluşunda çıxış nöqtəni bildirir. Bu çıxış vəziyyətində əsasən mübtədanın işləndiyi qeyd olunur və belə düzüm düzgün sıralanma adlanır. Təhlil olunan son cümlədə "professora" sözü birinci variantdan fərqli olaraq tamamlığı təmsil edir. Belə qənaətə gəlmək olar ki, eyni bir söz müxtəlif cümlələrdə heç də eyni mövqedə çıxış etmir. Nümunələrin müqayisəsində "professor" və "tələbələr" isimlərinin cümlədəki fərqli mövqeləri bunu aydın göstərir. Qeyd olunan cümlələrdə söz sırasından deyil, cümlə üzvlərinin sıralanmasından bəhs olunur. Bu da onunla izah olunur ki, "söz" və "cümlə üzvü" anlayışları dilin başqa-başqa yaruslarına:"söz"-leksikologiyaya, "cümlə üzvü" isə sintaksisə aid olan vahidlərdir. Ayrılıqda leksik vahidi təmsil edən sözlərdən fərqli olaraq, cümlə üzvləri müxtəlif söz, söz birləşmələri və hətta cümlə ilə ifadə olunur və sintaksisin obyekti kimi nəzərdən keçirilir. Məs.: 1. *Onlar* daş üstündə oturdular. 2. *Onun bu kəşfi* hamını sevindirdi. (Ənvər M.). 3. *Havayı gəzmək* bitdi. (İ.Əfəndiyev). 4. *Minlərcə adamların ölümünə səbəb* kimdir? (Y.V.Çəmənzəminli). 5. *Nə tökərsən aşına*, o çıxar qaşığına və s. Təhlil olunan bu sintaktik vahidlərdən məlum olur ki, cümlə üzvlərinin söz tərkibi heç də

həmişə eyni olmur. Dördüncü cümlədə birinci düzülmüş dörd söz eyni bir cümlə üzvünü-mübtədanı təmsil edirYenə mübahisəli sual yaranır: Sıralanmada məqsəd və kriteriya nədir? Şübhəsiz ki, bu suala cavab olaraq, bunun cümləyə daxil olan sözlərin hansı funksiya yerinə yetirmələri və hansı cümlə üzvünü təmsil etmələri ilə bağlı olduğu göstərilməlidir. Deməli, "cümlədə cümlə üzvlərinin sırası" ifadəsinin işlədilməsi reallığlı daha çox əks etdirir. İnformasiyanın ötürülməsi və qəbulunda əsas sintaktik vahid kimi istifadə olunan cümlələr ifadə edilən fikirdən, ünsiyyətə girənlərin dil səriştəsindən, koqnitiv hazırlığından, və s. Asılı olaraq, leksik tərkiblərinə görə müxtəlif strukturlu olur, çünki dildən istifadə bacarığı ünsiyyətə girənlərin hamısında heç də eyni səviyyədə olmur. N.Xomski belə bir fikir söyləmişdir ki, danışanlar eyni fikrin ifadəsi üçün müxtəlif struktur sxemli cümlələrdən istifadə edirlər. Dildə cümlələrin struktur sxemi minimum bir, maksimum isə ifadə olunan fikirdən, danışanların üslub xüsusiyyətlərindən asılı olaraq müxtəlif sayda olur. Məs.: 1. Sakitlikdir. 2. Hamı yatır. 3.Pinəçi ordları batmış,yarpaq kimi saralmış Arazı göstərdi və s. Müvafiq olaraq bir,iki və 8 sözdən ibarət olan bu cümlələrin strukturunda leksik vahidlər xaotik şəkildə deyil, dilin daxili qanunlarına əməl olunmaqla düzülmüşdür. Düzülüş sözlərin funksional yükünə uyğun olaraq yerinə yetirilir.

Ədəbiyyat

1.Abdullayev Ə., Seyidov Y., Həsənovun A. Müasir Azərbaycan dili. Sintaksis. Maarif, Bakı: 1972, 476 s.
2.Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Maarif, Bakı: 1999, 282 s.
3.Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Az.SSR EA nəşriyyatı, Bakı: 1963, 222 s.
4.Müasir Azərbaycan dili. Sintaksi. ADU nəşriyyatı, Bakı: 1959, 456 s.
5.Xomski N. Dil və təfəkkür. Mütərcim, Bakı: 2006, 151 s.

Y.Abbasova

Об отношение употребление терминов «порядок слов» и «порядок членов предложений в Азербайджанском языке.

Резюме

В данной статъе анализируются мнения лингвистов об употребление выражений: порядка слов и порядка членов предложений. Эта проблема является одной из спорных проблемов в языке. Некоторые, считают, что эти вражение синонымы. Но они отличаются по функции и смыслу. Излагаются дифференциалъные особенности этих выражений. Как

известно, языки отображает культуру народа, который говорит на данном языке. Посколку национаная культура различается в отдел языках,то и лекчицеские единицы также отличаются. Благодаря правильномо переводу , между национальным и интернатциональным языком существует связь.Основной целью перевода является сохранение национального колорита в лексических единицах. Следовательно, можно сказать, что существет непревывная связь между национальной культурой и языком и ето связь отражается и жизни каждой страны. В етом случаем национальная традиция, морал, культура и некоторые другие факторы играют очень важную роль.

Y.Abbasova

On the use of the expression "word order" and "order of he members of sentences

Summary

The article deals with the use of the expression of "word order" and the "order of the members of sentence". This is one of the most debated issues in the language. Many consider these expressions to be synonyms.

In some works declarative and interrogative sentences are called not for expression form and intonation, but, modality.

In some works, affirmative and negative sentences are given for expression form . l

This depends on which concrete modal expression it was used. In article the grammatical category of plurality in the modern Azerbaijani language iz analyzed , and means of its expression are determined.

However, they offer in function and meanings. Autor came a conclusion that the use of the expression "order of the members of sentence" is correct than "word order".

Rəyçi. Bəhruz Səmədov
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYNUR MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
aynur@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ HƏMCİNS ZƏRFLİK BUDAQ CÜMLƏLƏRİ VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: cümlə, həmcins cümlə üzvləri, tabeli mürəkkəb cümlə, funksiya, xüsusiyyət
Key words: sentence, homogeneous parts of sentence, complex sentence, function, feature
Ключевые слова: предложение, однородные части предложения, сложное предложение, функция, особенность

Məlumdur ki, cümlə qurluşuna görə sadə və mürəkkəb olmaqla iki qrupa bölünür. Sadə cümlə bir prediksiyaya, mürəkkəb cümlə isə birdən artıq prediksiyaya malik olur. Bir sadə cümlədə bir neçə mübtəda, bir neçə xəbər və yaxud ikinci dərəcəli üzvlər iştirak edə bilər.

Mürəkkəb cümlə öz növbəsində tabesiz və tabeli olmaqla iki qrupa bölünür. Tabesiz mürəkkəb cümlənin komponentləri arasında tabesizlik əlaqəsi mövcuddur (1, s.65).Tabeli mürəkkəb cümlə bir baş və bir və ya bir neçə budaq cümlədən ibarət olur. Budaq cümləni cümlə hesab etmək olmaz, çünki budaq cümlə müstəqil kommunikativ mənaya malik olmur. Tabeli mürəkkəb cümlənin tərkibində budaq cümlələrin kəmiyyəti bir və ya bir neçə ola bilər.Həmcins budaq cümləli tabeli mürəkkəb cümlələrdə həmcins budaq cümlələr eyni suala cavab verməli və baş cümlədə ya bir komponentə aid olmalı ya da eyni bir cümlə üzvü funksiyasında işlənməlidir. Tabeli mürəkkəb cümlənin tərkibində budaq cümlələrin kəmiyyəti bir və ya bir neçə ola bilər. Məsələn,As Jane Eyre rose and dressed, she thought over what had happened and wondered it were a dream (Sh.Bronte. Jane Eyre, s.112)Bu cümlədə she thought over – baş cümlədir. As Jane Eyre rose and dressed, what had happened, if it were a dream – isə budaq cümlədir. Həmcins xəbər budaq cümlələri baş cümlədə işlənən bağlayıcı feilin predikativi, yəni ismi xəbərin ad hissəsi funksiyasında işlənir. Məsələn,My impression is that I once thought her perfection, that she herself has disillusioned me and that I am indifferent to her now. Bu tabeli mürəkkəb cümlədə “my impression is” baş cümlə və üç budaq cümlə işlənmişdir.Bu həmcins cümlələr baş cümlədəki “is” bağlayıcı feilinin predikativləri funksiyasında işlənir və “that” tabelilik bağlayıcısı ilə bağlanır, bütövlükdə isə “is that I once thought her perfectionç that she has dissillusioned me and that I am indifferent to her now” mükəkkəb ismi xəbər funksiyasında işlənir. Həmcins tamamlıq budaq

cümlələri baş cümlədəki xəbərin mənasını tamamlayır, tamamlığın sualını tələb edir və tamamlıq budaq cümləsini baş cümləyə bağlayan sindetik və asindetik vasitələrlə bağlanır. Məsələn, He insisted further that the cup must be brimming full and that not a single drop must be spilled upon the dancer (A.Cronin. Hatter's Castle, s.336).Bu tabeli mürəkkəb cümlənin baş cümləsindəki "he insisted further" vahidi, həmcins tamamlıq budaq cümlələri isə "that the cup must be brimming full, and that not a single drop must be spilled upon the dancer" – baş cümləyə "that" tabelilik bağlayıcısı ilə bağlanır. Və baş cümlənin xəbərinin mənasını tamamlayır və "what did he insist" sualına cavab verir. Həmcins təyin budaq cümlələri baş cümlədə bir elementin təyini funksiyasında işlənir və təyin budaq cümləsinin baş cümləyə, təyin olunan sözə bağlayan vasitələrlə bağlanır. Məsələn,

But then their only things that can use in fiction are the things that one has ceased to use in fact (O.Wilde. Selections. s.66)Bu tabeli mürəkkəb cümlənin baş cümləsi "but then the only things" are the things – həmçinin təyin budaq cümlələri isə "that one can use in fiction", "that one has ceased to use in fact" vahidindən ibarətdir. Hər iki həmcins təyin budaq cümləsi baş cümlədə işlənən "things" sözünə aid olur və onu təyin edir. Hər iki həmcins təyin budaq cümləsinə "which are their only thing?" sualını vermək mümkündür. Bu halo nu sübut edir ki, haqqında danışdığımız təyin budaq cümləsidir və baş cümləyə "that" nisbi əvəzliyi ilə bağlanır. Həmcins təyin budaq cümləsi adətən "when" bağlayıcısı ilə bağlanır (3, s.56). Məsələn,When an aeroplain flies far overhead like a shining beetle through the air, and when the big motor-cars drive past on the road we also think of travelling by air.Bu tabeli mürəkkəb cümlənin baş cümləsi "we also think of travelling by air" when bağlayıcısı ilə bağlanan "when an aeroplain flies far overhead like a shilling beetle through the air" və "when the big motor-cars drive past on the road" həmcins zaman budaq cümlələridir. When bağlayıcısı ilə yanaşı həmcins zaman budaq cümlələri baş cümləyə digər tabelilik bağlayıcıları – as, before, while, until, till, after – bağlayıcıları ilə bağlana bilər. Məsələn,- Better to die, like Carol, before you find it out, before Jim gets to work on you (Altington. Death, s.46)Bu tabeli mürəkkəb cümlənin baş cümləsi –" Better to die, like Carol" "before" bağlayıcısı ilə bağlanan həmcins zaman budaq cümlələri isə a) before you find it out, b) before Jim gets to work on you – sintaktik vahidlərdir.Digər bir tabeli mürəkkəb cümləni nəzərdən keçirək:The lady has been kind enough to undertake be previous arrangement between us, to search Mr.Yay's room, while he is out of the way, and while I am necessarily engaged in the pleasing duty of following him wherever he goes (Collins. A Plot. s.267)Bu tabeli mürəkkəb cümlənin baş cümləsi "The lady has been kind enough to undetake, be previous arrangement between us, to search Mr.Yay's room" həmcins budaq

cümlələri isə a) while he is out of the way, b) while I am necessarily engaged in teh pleasing duty of following him – sintaktik vahidlərdir. "While" bağlayıcısı ilə bağlanan b) həmcins budaq cümləsi digər xüsusiyyətlərə də malikdir. "While" bağlayıcısı zaman budaq cümlələri də öz aralarında "while he is out of the way" and "while I am necessarily engaged in the pleasing duty of following him wherever he goes" şəklində "and" tabesizlik bağlayıcısı ilə bağlanır. Digər xüsusiyyət ondan ibarətdir ki, b) həmcins budaq cümləsi də özündən əvvəlki a) həmcins budaq cümləsinə "and" bağlayıcısı ilə bağlanan tabeli mürəkkəb cümlədir. b) "while I am necessarily engaged in teh pleasing duty of following him" cümləsində "While" bağlayıcısını çıxmaqla "I am necessarily engaged in the pleasing duty of following him" baş cümlə, "wherever he goes" isə wherever mürəkkəb bağlayıcısı ilə bağlanan yer budaq cümləsidir. Bildiyimiz kimi, cümlədəki funksiyalarına, müəyyən suallarına görə cümlə üzvlərinin kəmiyyəti qədər tabeli mürəkkəb cümlələrin bir qolunu təşkil edən budaq cümlələrin növləri vardır. Məsələn, mübtəda budaq cümləsi, xəbər (predikativ) budaq cümləsi, tamamlıq budaq cümləsi, təyin budaq cümləsi, zərflik budaq cümləsi. Bədii ədəbiyyatda həmcins budaq cümləli tabeli mürəkkəb cümlələrə də rast gəlmək olar. Məsələn, The only person who did not enter into the joke was little virginia, who for some unexplained reason, was always a good deal distressed at the sight of the bloodstain, and very nearly cried the morning it was emerald-green (O.Wilde. Selections, s.45).Bu tabeli mürəkkəb cümlənin baş cümləsi "the only person who did not enter into the joke was little virginia, who for some unexplained reason, was always a good deal distressed at the sight of the bloodstain, and very nearly cried the morning it was emerald-green" həmcins təyin budaq cümlələri baş cümləyə "who" nisbi əvəzliyi ilə bağlanmışdır (4,s.23). Apardığımız təhlil göstərir ki, ingilis dilində ən çox işlənən həmcins zaman budaq cümlələridir. Həmcins zaman budaq cümlələri adətən "when" bağlayıcısı ilə baş cümləyə bağlanır. Həmcins zərflik budaq cümlələri bir bağlayıcı ilə işlənə bilər, digər həmcins zərflik budaq cümlələrində bağlayıcı təkrar olunmasa da, yenə də həmin cümlələri həmcins budaq cümlələri hesab etmək olar. Tabeli mürəkkəb cümlələrin quruluşunun təhlili göstərir ki, əksər tabeli mürəkkəb cümlələrdə iki həmcins budaq cümlə işlənir. Bəzən tabeli mürəkkəb cümlələrin tərkibində daha çox zərflik budaq cümləsi işlənir. Həmcins zərflik budaq cümlələri baş cümləyə "once, the moment, directly, by the time" və s. kimi bağlayıcı sözlərlə bağlana bilər. Həmcins zərflik budaq cümlələri öz aralarında həm tabesizlik bağlayıcısı, həm də bağlayıcısız bağlana bilər. Həmcins budaq cümlələri müəllifin fikrinə konkretlik və aydınlıq gətirir. Məsələn bir həmcins budaq cümləli tabeli mürəkkəb cümləni nəzərdən keçirək: "If this girl can give a soul to those who have lived

without one, if she can create the sense of beauty in people whose lives have been sordid and ugly, if she can strip them of their selfishness and lend them tears for sorrows that are not their own, she is worthy of all your adoration, worthy of the adoration of the world". Verilmiş bu tabeli mürəkkəb cümlədə "she is worthy of all your adoration, worthy of the adoration of the world" baş cümlədir. Bu baş cümlənin mübtədası "she" şəxs əvəzliyidir, xəbəri isə "is worthy of all your adoration, worthy of the adoration of the world" birləşməsidir. Bu birləşmə iki hissədən – "is" bağlayıcısı feildən və worthy of all your adoration, worthy of the adoration of the world" isə mürəkkəb ismi xəbərin ad hissələridir. Bu ad hissəsinin özü də iki həmcins üzvdən ibarətdir. Bu nümunə eyni zamanda müəllifin fikrinə aydınlıq, konkretlilik gətirmişdir. "If this girl can give a soul to those who have lived without one, if she can create the sense of beauty in people whose lives have been sordid and ugly, if she can strip them of their selfishness and lend them tears for sorrows that are not their own, she is worthy of all your adoration, worthy of the adoration of the world" cümləsinin tərkibində isim + worthy of all your adoration, worthy of the adoration of the world" həmcins predikativ tərkibindən başqa digər həmcins budaq cümlələr də var. Bu badaq cümlələrin üçü – 1) If this girl can give a soul to those, 2) if she can create the sense of beauty in people, 3) if she can strip them of their selfishness and lend them tears – tabeli bağlayıcılı şərt budaq cümlələridir. Bu şərt budaq cümlələri "she is worthy of all your adoration, worthy of the adoration of the world" baş cümləsində ifadə olunan predikativliyin şərtini bildirir.Həmcins tabeli mürəkkəb – 1) who have lived without one, 2) whose lives have been sordid and ugly" həmcins təyin budaq cümlələrdir və baş cümləyə "who", "whose" nisbi əvəzliklərlə bağlanır. Bir sıra hallarda həmcins zərflik budaq cümlələrinin işlənməsi baş cümlədə verilmiş hərəkətin, prosesin, məkanın vaxtını, səbəbini və s. dəqiqləşdirməyə xidmət edir.

Ədəbiyyat

1.Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 2007.
2.Biber D., et al. Grammar of spoken and written English. Pearson Education Limited, 1999.
3.Blokh M.Y. A Course in Theoretical English Grammar. M., 1983.
4.Charles B. Linguistic change in Present Day English. London, 1964.
5.Close A.R. Reference Grammar for Students of English. M., 1979.
6.Curme G.O.Grammar of the English Language. New York, 1931.
7.Ilyish B.The Structure of Modern English. M., 1965.
8.Ganshina M., Vasilyevskaya N. English Grammar. Kiev, 1984.
9.Quick R., et al. A Grammar of Contemporary English. London, 1973.
10. Yunusov D.N.A Guide to English Grammar. Bakı, 2004.

Aynur Mamedova

Homogeneous adverbial clauses in modern English and their features

Summary

The article deals with the homogeneous adverbial clauses and their features. It firstly gives some information about the division of the sentence according to its structure. It states that a sentence is divided into a simple one and a compound one. The opinions of various linguists about the types of a sentence have been referred to in the article. The homogeneous adverbial clauses are stressed to be used homogeneously in English. The original examples are used to explain the usage of homogeneous adverbial clauses in English comprehensively in the article as well. The homogeneous features of the types of adverbial clauses are explained through the examples in the article. The homogeneous clauses that are used inside sentences are stated to give more clearly, more comprehensively information to the reader, or listener.

Айнур Мааммадова

Однородные придаточные предложения в современном английском языке и их особенности

резюме

В статье рассматриваются однородные придаточные предложения и их особенности. Сначала он дает некоторую информацию о делении предложения в соответствии со своей структурой. В нем говорится, что предложение делится на простое и сложное предложение. В статье упоминаются мнения различных лингвистов о типах предложения. Однородные придаточные предложения подчеркнуты для равномерного употребления на английском языке. Примеры используются для объяснения использования однородных обстоятельных обстоятельств на английском языке также как и в статье. Однородные особенности типов обстоятельных обстоятельств объясняются на примерах в статье. Установлено, что однородные предложения, используемые внутри предложений, дают читателю или слушателю более ясную, более всестороннюю информацию.

Rəyçi: **İradə Nuriyeva**
filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞƏHLA İSMAYILOVA
ADU
shahla.aliyeva@mail.ru

LİNQVSTİK ƏDƏBİYYATDA AD+FEİL TİPLİ BİRLƏŞMƏLƏR

Açar sözlər: məsdər tərkibləri, , feili tərkiblər, , cümlədə mövqe, üslubiyyat, adlar.
Ключевые слова: инфинитивный состав, глагольные составы, позиция в предложении, стилистика, имена.
Key words: Infinitive composition, verbal compositions, position in the sentence, stylistics, names.

Feili söz birləşmələri dilçilik ədəbiyyatında həm də feili tərkiblər adı ilə tanınır. Feili tərkiblərin yaranma və inkişafı tarixini araşdıranlar, bir qayda olaraq, əvvəlcə sintaksisdən, sonra söz birləşmələrindən, daha sonra feili tərkiblərdən bəhs etməyə başlayırlar. Bu ənənə Azərbaycan dilçilərinin babası sayılan Mirzə Kazımbəydən bu yana davam etməkdədir [1]. 1940-50-ci illərdən orta məktəblərdə stabil qrammatika dərsliklərində də həmin ənənəyə akademik M.Şirəliyev və professorM.Hüseynzadə tərəfindən əməl olunmuşdur [6, 13].

Feili söz birləşməsinin mürəkkəb növlərinin həm də tərkib adlandırılması məsələsi prof. Yusif Seyidovun "Azərbaycan ədəbi dilində söz birləşmələri" monoqrafiyasında [1] geniş kontekstdə götürülərək araşdırılmış və burada "Feili birləşmələr və tərkiblər məsələsi", "Feili bağlama, feili sifət və məsdər tərkibləri feili birləşmələrin mürəkkəb quruluşlu növləri kimi" mövzulara 18 səhifəlik şərhlər verilmişdir.

Müəllif monoqrafiyada özünəqədər bu səhifədə yazanların [6] fikirlərinə münasibət bildirir və ilk dəfə adlarla feillərin birləşməsindən əmələ gələn feili birləşmələri tabe tərəfin və mövqeyinə uyğun aşağıdakı kimi təsnif edir:

1.Adlıq hallı feili birləşmələr
2.Təsirlik hallı feili birləşmələr
3.Yerlik hallı feili birləşmələr
4.Çıxışlıq hallı feili birləşmələr
5.Qoşmalı feili birləşmələr

Tədqiqatçının bu bölgüsünə və özündən sonra gələn dilçilər tərəfindən elə bir etiraz edilməmişdir. Çünki feili birləşmələrdən bəhs edənlər tərəflər arasındakı sintaktik əlaqələrə görə bölgü (təsnifat) verəndə də ismin hallarına görə bölgüdən danışmalı olmuşlar [Bax: 1].

Araşdırmalarımız göstərir ki, bu məsələni də metodoloq səviyyəsində araşdıran alimin feili birləşmələrdən sonra verdiyi aşağıdakı bölgü bizim fikrimizcə, anlaşılmır;

Həmin bölgü belədir:

I. Birinci və ikinci növ birləşmələr üzrə

II. Üçüncü növ birləşmələr üzrə

III. Dördüncü növ birləşmələr üzrə [1, 331-339].

Göründüyü kimi, bundan əvvəl verilən bölgü tabe tərəfin ifadə vasitəsinə görə olduğu halda, orada qoşmalı birləşmələrdən də bəhs olunurdu. Deməli, I, II, III növ birləşmələr üzrə bölgünü də qoşmalı feili birləşmələr başlığı altında vermək olardı. İndiki halda isə bu cür bölgü sonrakı tədqiqatçıları da məsələdən sistemli danışmaqdan pərakəndə yol tutmağa təsir etmişdir.

Tədqiqat göstərir ki, bu bölgü prinsipi söz birləşmələrində, tərkiblərin də əsas tərəflərinə uyğun olmalıdır.

Söz birləşmələrində asılı tərəfin funksiyası əsas tərəfi izah etməkdən, təyin etməkdən və ya necə deyərlər, müəyyən etməkdən ibarətdir. Onun başqa statusu yoxdur. Təktərəfli işlənə bilməz. Əsas tərəf isə işlənir və məna da ifadə edir.

Tərkiblərin strukturu məzmun təhlilini nəzərdən keçirsək, görərik ki, onların tərkibdaxili komponentlərinin sualları morfoloji suallarıdır, tərkibin birlikdə sualı isə sintaktik sualdır. Məsələn: Əla və yaxşı qiymətlərlə oxumaq ən böyük arzum idi – cümləsinin morfoloji təhlili: necə? necə? necə? nə etmək? kimin? nə idi?

Həmin cümlənin üzvlərinə görə sintaktik təhlili isə belədir: nə? nə idi?

Tədqiqatlarda qeyd olunduğu kimi, feili tərkiblərin əmələ gəlməsində nitq hissələri və söz birləşmələri daha çox iştirak edir. Komponentlərdə isim, əvəzlik, zərf və söz birləşmələri ismi və feili birləşmələrin çoxişlək tipləri diqqəti cəlb edir. Bunlardan məsdərlə bağlı olanlar:

1. Ad+feil tipli məsdər birləşmələri.
2. Feil+feil tipli məsdər birləşmələri.
3. Zərf+feil tipli məsdər birləşmələri.

Feli bağlama ilə bağlı olanlar:

1. Ad+feil tipli feli bağlama tərkibləri.
2. Feil+feil tipli feli bağlama tərkibləri.
3. Zərf+feil tipli feli bağlama tərkibləri.

Feili sifətlə bağlı olanlar:

1. Ad+feil tipli sifət tərkibləri
2. Söz birləşmələri + feili sifətdən olan feili sifət birləşmələri

Məsdər tərkiblərinin ad+feil tiplilərinin çox maraqlı linqvistik xüsusiyyətləri var. Nümunələrə diqqət yetirək:

Bakıda neft buruqlarında operator işləmək Tahirin ən şirin arzusu idi; Təhsil illərini başa çatmağına az qalmışdı; Suların şırıltısını, quşların cingiltisini eşitməkdən gözəl nə ola bilərdi? Ömrümün axırınadək Azərbaycanda yaşamaq necə də gözəl olardı!

Bu cümlələrdə "Bakıda neft buruqlarında operator işləmək" feili tərkib 5 komponentdən – iki əsas və asılı tərəfdən ibarət mürəkkəb söz birləşməsi və ya feili tərkibdir. Cümlədə mübtəda vəzifəsindədir. İkinci cümlədəki "Təhsil illərinin başa çatmağına az qalmışdı" feili tərkibi 4 komponentdən ibarətdir, tamamlıq mövqeyində işlənmişdir. Üçüncü cümlədə "Suların şırıltısını, quşların cingiltisini eşitməkdən" məsdər tərkibi 5 komponentdən ibarət və tamamlıq mövqeyində işlənmişdir. Dördüncü cümlədəki "Ömrümün axırınadək Azərbaycanda yaşamaq" məsdər tərkibi 4 komponentdən ibarətdir və mübtəda mövqeyində işlənmişdir.

Ad+feil tipli məsdər birləşmələrinin 3, 4, 5,6 və daha çox komponentliləri də olur. Məs.: Kəndimizin bağlarından alma, armud, gavalı, heyva, ərik yığmağı çox xoşlayırdım

Ad+feil tipli məsdər birləşmələri, bir qayda olaraq, cümlədə adlıq halda olduqda mübtəda vəzifəsində çıxış edir; asılı tərəfləri isim, sifət, say, əvəzliklə başlasa da, ikinci tərəfə münasibətdə təyinedici komponent kimi işlənməz. Say, sifət və əvəzliklər yalnız isim qrupuna daxil olan sözlərə (komponentlərə) aid ola bilər. Məsələn: Həyatda şirinli-acılı bir ömür yaşamaq, yaxşılı-yamanlı bir yolla irəliləmək tale yazısı ilə izah oluna bilər (C.Cabbarlı). Darvazaları taybatay açıq, evlərin yiyəsiz qalmağını təsəvvürünə gətirirsənmi?

Bu iki cümlənin hər birində komponentləri həmcins olan məsdər tərkibləri işlənmişdir.

Azərbaycan dilində ad+feil tipli məsdər tərkiblərinin işlənmə məqamları çox genişdir. Sadə geniş cümlələrdə belə tiplərə tez-tez rast gəlmək olur. Belə tipdən olanların içərisində dəqiqləşdirici xüsusiləşmələrdən ibarət məsdər tərkiblərinə də az təsadüf edilmir. Məsələn: Məktəbin qarşısında dayanmaq, xüsusən də dostumu intizarda gözləmək sizə asan gəlməsin (Ə.Ə.). Bakının küçələrini, dalanlarını, döngələrini xatırlamağa, yəni acılı-şirinli duyğularla yaşamağa çoxdan alışmışdım (M.H.).

Ad+feil tipli birləşmələrdən istifadə təbii ki, ilk növbədə üslub məsələsidir. Praktik üslublara görə bir cümləni müxtəsər şəkildə də ifadə etmək olar, geniş şəkildə də. Lakin sadə geniş cümlələrə ehtiyacın yaranması danışanın məqsəd və məramını necə ifadə etmək imkanlarından irəli gəlir.

Tutaq ki, bu fikri ifadə etmək variantlarını götür-qoy edirik: Mehriban şəhərimdə - Bakımda doğulmaq, yaşamaq, təhsil almaq insanların

xidmətində dayanmaq əbədi xoşbəxtlik sayıla bilər. Bu cümlədə ad+feil tipli mürəkkəb tərkibin əhatə əlavə rolundan çıxış etməsi sadə cümlənin genişlənməsinə səbəb olmuşdur.

Ad+feil tipli tərkiblər funksional üslubların hər birində işlənə bilər. Məs.: B ə d i i ü s l u b d a :

Salam vermək, hal soruşmaq, əhval bilmək də.
Əziz dostun şad günündə deyib-gülmək də
Dədə-baba qaydasıdır, gözəl adətdir,
Düz ilqarla ömür sürmək bir səadətdir (*S.V.)*

Göründüyü kimi, bu cümlədə həmcins mübtədalar ad+feil tipli tərkiblərdən ibarətdir. Xüsusən də belə tərkiblər sadalama intonasiyası ilə işləndikdə nitqə bir poetik əhvali-ruhiyyə gətirir.

Elmi üslubda:

Tədqiqatlara qoşulmaq eksperimental tədqiqat metodlarına hərtərəfli bələd olmağı tələb edir; Çoxoktanlı benzin kəşf etmək Azərbaycan alimini dünyaya tanıtmışdır.

Bu cümlədə "tədqiqatlara qoşulmaq" eksperimental tədqiqat metodlarına bələd olmaq; habelə ikinci cümlədə "çoxoktanlı benzin kəşf etmək" mübtəda mövqeyində işlənən feili tərkibdir.

Publisistik üslubda:

Kəndin mədəni həyatında iştirak etmək, zəhmətkeşlərlə hər tədbirdə birlikdə olmaq da insana mənəvi güc verirdi.

Bu cümlədə məsdər tərkiblərinin həmcins mübtədalar kimi işləndiyini görürük...

Qeyd etmək lazımdır ki, ad+feil məsdər tərkibləri nitq quruculuğuna, yəni nitqin qurulmasında çox fəal olan tiplərdən sayılır və cümlənin təyindən başqa, bütün üzvlərinin mövqeyində işlənə bilir.

Azərbaycan alimlərindən prof.V.Əliyev məsdərin sintaktik xüsusiyyətlə-rindən bəhs edərkən bu tipli tərkiblərdən söz birləşməsi kimi, ümumiyyətlə, ismi birləşmələrdən fərqli olaraq, feillərin izah olunması, genişlənməsi kimi danışmışdır. V.Əliyev yazmışdır: "Yeri gəlmişkən burada bir suala cavab vermək lazım gəlir. Feili tərkiblər nə üçün feilin təsriflənməyən formaları ilə bağlıdır? Nə üçün ismi birləşmələrin genişlənmiş forması mürəkkəb söz birləşməsinə, feili birləşmələrin genişlənməsi isə tərkibə çevrilir? Bütün bunlar yenə də feilin təsriflənməyən formalarının linqvistik-morfemtəbiəti ilə bağlıdır. Feilin təsriflənməyən formalarının hər biri iki nitq hissəsinin mahiyyətini özündə cəmləşdirdiyi kimi, feili tərkiblər də özündə iki sintaktik kateqoriyanın mahiyyətini cəmləşdirir: söz birləşməsi və **cümlənin.** Deməli, feili söz birləşmələrində həm cümlənin, həm də söz birləşmələrin də əlamətləri vardır. Tərkib termini altında da bu cəhət nəzərə alınmalıdır [3, 71-72].

Ad+feil tipli məsdər tərkiblərindən danışarkən tərkiblərin əmələ gəlməsinin hibridlik xassəsini qabartmaq, bəlkə də, yerinə düşmür, lakin biz bu məsələyə öz münasibətimizi bildirmək istərdik. Bu da tərkib əmələ gətirməyin yalnız feillərin ayağına yazılmalı məsələdir ki, bu cəhəti Y.Seyidov, Ə.Abdullayev, K.Abdullayev, V.Quliyev, o cümlədən digər alimlər də xüsusi olaraq qeyd etmişlər [3; 4; 5].

Bizim fikrimizə görə, tərkib əmələ gətirmək intonasiya - nitqdə nəfəsalma, fikrə, ifadəyə ara vermə, necə deyərlər, söhbətə, fikrə dəqiqlik, aydınlıq gətirmək məsələsidir. Mətn sintaksisinə fikir versək, bu dayanacaqlar xitabda da, ara sözdə də, xüsusiləşmədə də, əlavədə də, hətta cümlələrdə də vardır. Ən başlıcası isə cümlədir. Məgər cümlə tərkib əmələ gətirmir və yaxud ismi birləşmələr bir bütövlük əmələ gətirmir?

Mənim mehriban və əziz anam!

Vaqifin o şairdən nümunələr söyləməsi, Görkəmli el sənətkarlarından biri və s.

Göründüyü kimi, əgər bu birləşmələri biz cümlədə də işlətsək, onlar bütövlüklərini saxlayacaqlar. Ayrılıqda da ad bildirən ismi birləşmə kimi işlənirlər.

Belə tipdən və ya növdən olan birləşmələrin də söz birləşməsi və cümlə kimi sərbəst işləndiklərinin şahidi oluruq. Deməli, sintaktik bütövlüyü və yaxud da tərkibi yaradan digər vasitələr də var. Mənsubiyyət kateqoriyasında olan sözlər cümlədə özlərindən əvvəı işlənən sözləri özünə tabe etmək gücünə malikdir.

Ad+feil tipli məsdər birləşmələrinin predikativ birləşmələrdə fikri ifadədə ortaq yer tutması, məs.: – evə getmək – evə gedir nümunələrinin müqayisəsi ilə bunlardan hansının hansından törəndiyini söyləmək elə də asan anlaşılmaz. Əlavə arqumentlər gətirmək lazım gəlir.

V.V.Vinoqradov rus dili söz birləşmələrindən danışarkən çox aydın şəkildə yazır: "Təbiidir ki, "изучать философию", "заниматься пением", "почувствовать товарища" və s. bu kimi söz birləşmələri sisteminə onların predikativ formaları da – "изучаю философию", "занимаюсь пением" və s. daxildir" [47, 4].

Həmin fikirdən çıxış edərək "su gətirmək", "ev tikmək", "ərizə yazmaq", "plov bişirmək", "taxıl əkmək" kimi birləşmələrlə "su gətirirəm", "ev tikirəm", "ərizə yazıram", "plov bişirirəm", "taxıl əkirəm" kimi formaları eyniləşdirmək doğru deyildir. Ona görə ki, rus dilində "изучать", "изучаюсь" formasının çıxış nöqtəsidir [31, 10].

Bizim fikrimizcə, V.V.Vinoqradovun burada sitat gətirilən nümunələri o deməkdir ki, dildə, daha konkret desək, nitqdə bu iki formanın "изучаю философию" və "изучать философию" hər ikisi işlənir. Sadəcə

bunlardan biri sintaktik cəhətdən mürəkkəb söz kimi, ad kimi üzvlənmir, digəri üzvlənir.

Eyni zamanda onlardan hər biri nominativ və ya predikativ vahid kimi nitqin qurulmasında bütövlük təşkil edərək aktiv şəkildə işlənirlər. Hansının əvvəl yaran-dığını demiş olsaq, nəzərə almalıyıq ki, "nəğmə oxumaq" forması ona görə çıxış nöqtəsi sayılır ki, oxumaq əvvəllər digər paradiqmalara çevrilməmiş, şəxslərə, zamanlara görə çevrilməmişdən öncə cümlə mənasında işlənmişdir. Söhbət ilkin, başlanğıc dedikdə bunu nəzərə almaq lazımdır.

Beləliklə, biz ad+feil tipli məsdər tərkiblərindən bəhs edərkən, habelə onların yaranmasında feillərin rolunun, tərkib əmələ gətirmək xassəsini danışırıq, lakin bu xassənin yalnız hibrid kateqoriya olduğu üçün məsdərə aid olması fikrinə, o cümlədən tərkibyaratmada digər amillərin və ya kateqoriyaların iştirakına laqeyd qalmağı da qəbul edə bilmirik.

Ədəbiyyat

1. Y.Seyidov. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 1966.
2. Виноградов В.В. Вопросы изучения словосочетания. М., 1954.
3. V.Əliyev. Azərbaycan dilində feilin təsriflənməyən formaları. Məsdər. Bakı, 1986.
4. Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlə. Azərtədrisnəşr, Bakı, 1964.
5. K.Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. "Maarif", 1998.
6. M.A.Şirəliyev və M.Hüseynzadə. Azərbaycan dilinin qrammatikası. II hissə, sintaksis, Bakı, 1951

Шафхла Исмайлова

О конструкциях типа имя+глагол в лингвистической литературе

Резюме

Конструкции состоящие из имя+глагол как другие глагольные соединения или конструксия полярные в речи вовлекают наши внимания с их интересноми особенностями. Они также употребляются в простых и сложных коснтрукциях. Конструкции с простыми структурами имеют два компонента а сложные конструкции в составе имеют более трех компонентов. Существуют разные мнения о позиции кострукциях состоящие из имя глагол в лингвистеческой литературе.

Вопрос о том что какая строка из этих компонентов является более продуктивными является область которое мало было изучено. В статье дается разьеснение существуишем мнении связанные с этими соединениями и по ходу изучения вопроса изъявляется научно-критическое отношения.

Shahla Ismayılova

On the contructions of name+verb type in linguistic literature

Summary

Construction types with name+verb,as other verbal constructions,and combinations are many sided in speech and attract the attention with their interesting features.They too are used in complex structure.The constructions with two components refer to simple construction but the ones consisting of three and more than that are considered of compound type of constructions in the word combinations funetic of the dependent part is to explain the main determination,or how to say the determine it.It has not got any other states.-Their components con not bu used.But the main componentis used and expresses a meaning too.in the linguistics differentiation of thoughts on the position of constructions in the sentence are different.But their productinity in this or that funetional style is one of the fields to be studied.In the articlethe thoughts linned with such type of combinations,concrete enterprotions are given,and also in the course of study scientific-critic positinsof the author is eppressed.

Rəyçi: **Adil Babayev**
filologiya elmləri doktoru, professor

AYSEL XANALIYEVA
BDU-nun Azərbaycan dilçiliyi kafedrası
x.aysel.f@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ SINONİMLƏRİN FRAZEOLOJİ VARİANTLARDAN FƏRQLƏNDİRİLMƏSİ MEYARLARI

Açar sözlər: Azərbaycan dili, frazeologizm, semantika,sinonim, variant, obrazlılıq, sinonim cərgə
Key words: Azerbaijan language, phraseologism, semantic, synonym, variant, figurativity, synonymic lines.
***Ключевые слова*:** Азербайджанский язык, фразеологизм, семантика, синоним, вариант, образность, синонимический ряд.

Ümumi dilçilikdə frazeoloji sinonimlərə aid ilkin araşdırmalar XX əsrin ortalarından başlayır. Bu dövrdə frazeoloji vahidlərin sinonimliyi, əsasən, iki istiqamətdə tədqiq edilmişdir: 1) Komponentlərindən biri özünə sinonim olan və ya sinonim olmayan sözlərlə əvəzlənmiş, leksik komponentləri əksərən üst-üstə düşən frazeoloji vahidlərin sinonimliyi kimi; 2) Tamamilə müxtəlif leksik tərkibə malik frazeoloji vahidlərin sinonimliyi kimi.

Həmin vaxtlar frazeoloji sinonimlər üçün frazeoloji vahidlərin qarşılıqlı əvəz oluna bilməsi əsas meyar kimi götürülürdü. Əgər frazeoloji vahidlər konteks daxilində biri digərini əvəz edə bilərdisə, belə frazeologizmlər sinonim hesab edilirdi. Sonralar həmin meyar frazeoloji sinonimlərin əsas funksiyalarına zidd olan meyar kimi tənqidə məruz qalır. Çünki sinonim cərgəni təşkil edən frazeoloji vahidlərin bir-birilərini konteks daxilində tam eyni keyfiyyətdə əvəz edə bilməsi fikri frazeoloji sinonimlərin dildəki rolunu heçə endirirdi. Frazeoloji sinonim cərgəni təşkil edən frazeologizmlər ümumi məna birliyinə malik olsalar da, hər biri müəyyən məna çaları, üslubu, ekspressivlik dərəcəsi, işlənmə tezliyi, strukturu və s. baxımından digərindən müəyyən qədər fərqlənir. Belə fərqlərin olması qarşılıqlı əvəz edilmənin mümkünlüyünü xeyli əngəlləyir. Yəni sinonim cərgədəki frazeologizmlər bir-birini əvəz edə də bilər, etməyə də. Buna dilçilikdə "nisbi əvəzlənmə" deyilir. Frazeoloji sinonimlər üçün nisbi əvəzlənmə xüsusiyyəti vacib spesifik xüsusiyyətdir.

Sonrakı tədqiqatların nəticəsində frazeoloji sinonimlərin birinci istiqamətdə tədqiqinin yanlış olduğu üzə çıxır və bu istiqamətin əslində frazeoloji sinonimlik deyil, frazeoloji variantlılıq olduğu haqqında fikirlər çoxalır. Frazeoloji variantlılıq eyni frazeoloji vahidin şəkil müxtəlifliyi kimi

izah edilərək, əsas meyarlarının öyrənilməsinə başlanır. Frazeoloji sinonimliklə frazeoloji variantlılığın sərhədlərinin təyin olunması dilçilik problemi kimi aktuallaşır.

Dilçilikdə frazeoloji sinonimlərin mahiyyətini əks etdirən bir neçə izaha diqqət edək.

"Sinonim ifadələr dedikdə, leksik-qrammatik əlamətləri oxşar, komponentləri əvəz edilə bilməyən, üslubi boyasına və leksik tərkibinə görə fərqlənən, mənaca isə bir-birinə yaxın olan müstəqil ifadələr nəzərdə tutulur. ...Sinonim ifadələr bu sözlərin sadəcə əvəzedicisi deyildir. Bu ifadələr əvəz etdikləri mənanın yaxud sözün əlavə əlamətlərini emosional-ekspressiv formada verir".[3, 297]

"Frazeoloji sinonimlər üçün əsas şərt bunlardır: "a) leksik mənanın eyniliyi; b) həmin frazeoloji vahidlərin tərkibində eyni komponentlərin olmaması; ç) eyni leksik-qrammatik qrupa aid olmaları. Bu frazeoloji vahidlərdəki struktur fərqin və ya eyniliyin, eləcə də komponentlərin sayının müxtəlifliyinin onların sinonimlik təşkil etməsi üçün elə bir rolu yoxdur." [2, 130]

Frazeoloji sinonimlər dedikdə "eyni nitq hissəsinə aid olan, lakin bir birindən ya mənası ilə, ya da emosional-üslubi rənglərlə, yaxud eyni anda hər iki əlamətlərlə fərqlənən eyni, yaxud yaxın mənaları ifadə edən frazeologizmlər" nəzərdə tutulur.[4, 98]

"Leksik-qrammatik əlamətləri bir-birinə uyğun gələn, leksik tərkibinə görə fərqlənən, mənaca bir-birinə yaxın olan ifadələr sinonim frazeologizmlər adlanır." [1, 54]

Dilçilik ədəbiyyatlarında bu və ya buna bənzər çoxlu sayda tərifler, mülahizələr sadalamaq olar. Bu izahları birləşdirən əsas məqamlardan biri frazeoloji sinonimlərdə komponent eyniliyinin olmamasının vurğulanmasıdır. Bunu dilçilikdə frazeoloji variantlılığın qəbul edilməsi kimi düşünmək olar. Qeyd edək ki, dilçilikdə frazeoloji variantların mövcudluğu barədə hələ də fikir ayrılıqları vardır.

Frazeoloji sinonimlik haqqında mövcud bilgilərə əsaslanıb, aşağıdakı xüsusiyyətləri ümumiləşdirmək olar:

1.Frazeoloji sinonimlər eyni leksik-qrammatik qrupa aid olurlar;
2.Frazeoloji sinonimlər oxşar və ya eyni leksik mənaya malik olurlar;
3.Frazeoloji sinonimlər müxtəlif incəliklərlə (məna çaları, üslubu, ekspressivlik dərəcəsi, işlənmə tezliyi, strukturu və s. baxımdan) bir-birindən fərqlənirlər;
4.Frazeoloji sinonimlər müəyyən kontekslərdə biri-birini əvəz edə bilirlər, bəzən isə bu mümkün olmur, bu onun nisbi əvəzlənmə xüsusiyyətidir;
5. Frazeoloji sinonimlərin biri digərindən leksik tərkibinə görə tamamilə fərqlənir;

6. Frazeoloji sinonimlərin aid olduğu obraz mütləq şəkildə müxtəlif olmalıdır.

Qeyd olunan 1-ci və 2-ci xüsusiyyət frazeoloji variantları da xarakterizə edir. 3-cü xüsusiyyət frazeoloji variantları tam əhatə etməsə də, frazeoloji variantlarda da özünü göstərir. 4-cü, 5-ci və 6-cı xüsusiyyətlər isə frazeoloji sinonimlər üçün spesifik xüsusiyyətlərdir.

Zəhləsi getmək (zəndeyi-zəhləsi getmək) – acığı gəlmək (xoşu gəlməmək) – görməyə gözü olmamaq (görəsi gözü olmamaq) sinonim cərgəsinə diqqət edək: Sinonim cərgəni təşkil edən hər bir frazeologizmin özünün variantı da vardır (müvafiq olaraq mötərizədə göstərilmişdir). Müqayisə etsək, görərik ki, 1) frazeoloji sinonimlər və onların variantları ümumi məna birliyinə malikdir: xoşlamamaq, sevməmək; 2) hamısı eyni leksik qrammatik qrupa aiddir, yəni feili frazeoloji vahiddir; 3) frazeologizmlər ifadə etdiyi məna keyfiyyətinə görə biri digərindən müəyyən qədər fərqlənir: *acığı gəlmək (xoşu gəlməmək)* neytral münasibət ifadə etdiyi halda, ***zəhləsi getmək*** mənfi münasibəti bir az da qabarıq halda ifadə edir, ***görməyə gözü olmamaq*** isə birinə qarşı mənfi münasibətin qatı çalarda ifadəsinə yönəlmişdir. Nümunələr: *Ondan hədsiz **acığım gəlirdi.** Son günlər tez-tez evimizdə görünməsi, evimizin yolunu su yoluna çevirməsi məni qıcıqlandırırdı. (Varis); Spartakı **görməyə gözü yox idi.** Hələ uşaq yaşlarında, həyətdə bir yerdə oynadıqları, dalaşdıqları vaxtdan Spartakdan **zəhləsi gedirdi**.(Anar)*

Bu xüsusiyyət nisbətən zəif formada olsa da, frazeoloji variantlarda da özünü göstərir. Məsələn, ***zəhləsi getmək*** frazeologizmi ***zəndi-zəhləsi getmək, zəndeyi-zəhləsi getmək, zəndilə-zəhləsi getmək*** frazeoloji variantlarına nisbətən ekspressivliyi, təsir gücü daha zəifdir. Nümunələr: *Mir Cəlalın ictimai tədbirlərdə elmi işlərin müdafiə şuralarında yerli-yersiz tez-tez çıxış edənlərdən **zəhləsi gedərmiş**. (Əjdər Ol); Mənim o kəsdən **zəndeyi-zəhləm gedir** ki, etdiyi yaxşılığı dilə gətirir, bizim bu əzazil müdirimiz kimi.(dan.) Elə bil o heç yoxmuş, amma ata-anasından, illah da qardaşından **zəndi-zəhləsi gedirdi.(Anar)***

Frazeoloji sinonimlərin arasındakı belə mənaca keyfiyyət fərqləri frazeoloji sinonimlərin nisbi əvəzlənmə xüsusiyyətini şərtləndirir. Belə ki, frazeoloji sinonimlər müəyyən kontekslərdə biri-birini əvəz edə də bilirlər, etməyə də. Onların hər zaman bir-birini əvəz edə bilməsi frazeoloji sinonimlik üçün mütləq şərt deyildir. Ancaq frazeoloji variantlar demək olar ki, bütün hallarda bir-birilərini əvəz edə bilirlər.

Frazeoloji sinonimlər fərqli struktura və tamamilə fərqli leksik tərkibə malikdir: Məsələn, ***Zəhləsi getmək – acığı gəlmək – görməyə gözü olmamaq***. Frazeoloji variantlarda isə mutləq ortaq komponentlər olur, variant digər variantından müəyyən leksik-qrammatik əlamətlərlə fərqlənir:

zəhləsi getmək//zəndeyi-zəhləsi getmək*; *görməyə gözü olmamaq//görəsi gözü olmamaq; acığı gəlmək//xoşu gəlməmək.

Frazeoloji sinonimlərin leksik tərkibinin tamamilə fərqli olması onun eyni zamanda tamamilə müxtəlif obrazlara aidliyindən danışmağa əsas verir. Məhz bu xüsusiyyət frazeoloji sinonimliyin frazeoloji variantlardan fərqləndirilməsində, ziddiyyətlərin aradan qaldırılmasında əsas meyar kimi qiymətləndirilə bilər. Bəs frazeoloji sinonimlikdə obraz müxtəlifliyi deyəndə nə nəzərdə tutulur? Məlumdur ki, frazeoloji vahidlər dil daşıyıcılarının bədii təxəyyülünün məhsuludur. Frazeoloji vahidlər məhz biri digərindən bədii təsəvvürün reallaşması imkanları ilə fərqlənirlər. Biz bu imkanların reallaşdırdığı frazeoloji vahidin özünəməxsus mahiyyətini "obraz" adlandırırıq. Odur ki, hər bir frazeoloji vahidin kökündə bir obraz, bədii təsəvvür dayanır, tamamilə fərqli bədii təsəvvürləri canlandıran frazeoloji vahidlərin eyni məna ətrafında birləşməsi frazeoloji sinonimləri meydana çıxarır. Məsələn, Azərbaycan dilində "incitmək, əziyyət vermək, təzyiq etmək" mənasında işlənən aşağıdakı frazeoloji sinonim cərgəsinə nəzər salaq:

Burnuna duzlu sular qoymaq – gününü göy əsgiyə düymək – başında turp əkmək – başında qoz sındırmaq – gözümçıxdıya salmaq, qoz qabığına soxmaq – sıxma-boğmaya salmaq – saz torbasına yığmaq.

Bu frazeoloji vahidlər xalq təxəyyülünün məhsulu olaraq eyni mənanı, gerçəkliyi, tamamilə fərqli prizmalardan əks etdirən obrazlara malikdir. Frazeoloji variantlar isə eyni bədii təsəvvürün – obrazın müxtəlif şəkildəyişmələridir. Məsələn, *gününü göy əsgiyə düymək* və *gününü göy əsgiyə bükmək, qoz qabığına soxmaq və qoz qabığına salmaq, başında qoz sındırmaq* və *başında qoz qırmaq* frazeoloji variantlarında bədii təsəvvür, obraz eynidir, sadəcə müəyyən komponentlər əvəzlənmişdir.

Həmin frazeoloji sinonim cərgədə yer alan *başında turp əkmək* və *başında qoz sındırmaq* frazeoloji vahidlərinə diqqət ayıraq. Ortaq komponentlərə malik olduğuna görə frazeoloji variant, obraz müxtəlifliyinə malik olduğuna görə isə frazeoloji sinonimlər adlana bilər. Burada ziddiyyətin yarandığı göz önündədir. Belə olduqda hansı xüsusiyyətin daha qabarıq əks olunmasına diqqət etməliyik. Fikrimizcə, komponent ortaqlığının belə frazeoloji vahidlərin fərqləndirilməsindəki rolu xeyli azalır, bu zaman obraz eyniliyi meyarı məsələnin daha uğurlu həll olunmasına kömək edir. Əgər bunlar frazeoloji variantdırsa, deməli, bunlar arasında ortaq komponentlərlə yanaşı, mütləq şəkildə obraz eyniliyi və ya yaxınlığı da olmalı idi. Lakin, "başında" komponentinin ortaqlığı onların obraz yaxınlığını təmin etmədiyinə görə bu frazeoloji vahidlər frazeoloji variant sayıla bilməz. Bunlar tamamilə başqa-başqa bədii təsəvvürü əks etdirdiyi üçün frazeoloji sinonimlərdir.

Dilçilikdə belə frazeoloji vahidlər *struktur sinonimlər, sinonimik variantlar, variant-sinonimlər* kimi müxtəlif terminlərlə adlandırılır. Bu terminlərin ortaya çıxmasına səbəb frazeoloji nəzəriyyədə belə ziddiyyətləri aradan qaldırmaq olmuşdur. Belə ki, dilçilər heç birinə tam şəkildə aid edilə

bilməyən frazeoloji vahidləri "əlavə hadisələr qrupu" kimi göstərmişlər. Məsələn, A.V.Kunin hesab edir ki, "qismən müxtəlif leksik tərkibli frazeoloji vahidlər eyni mənaya malikdirsə, lakin çalarlar, obrazlıq, üslubi istiqamətlənmə və ya uzlaşma baxımından tam eynilik təşkil etmirsə, bu zaman struktur sinonimlər əmələ gəlir. Bununla belə, leksik tərkibi dəyişən frazeoloji vahidlər, əgər onlar məna və valentlik baxımından tam eynilik təşkil edirsə, biri birinə variant kimi qarşı qoyulur. Məna və ətrafdakı həcmin identikliyi yoxdursa, onlar struktur sinonimlər (variantlar və sinonimlər arası bir kateqoriya!) kimi qarşıdurma yaradırlar. [5, 68]

Bu məsələ ilə bağlı A.D.Rayxşteynin fərqli mövqeyi vardır: Dilçi alim, frazeoloji vahidlərin məzmunlu və məzmunsuz dəyişmələrə məruz qalmasının göstəricisi kimi onların dəyişmə qabiliyyətinin və variantlığının müqayisə olunmasını daha məntiqə uyğun sayır. [6, 59] Fikrimizcə, dilçi alim haqlıdır. Ortaq komponentli frazeoloji vahidlərin variantlılığının, yaxud da sinonimliyinin təyin olunması üçün frazeoloji vahidin dəyişmə qabiliyyətinə diqqət etmək lazımdır. Əgər frazeoloji variasiya zəif gedərək obraz fərqliliyinə səbəb olmursa, frazeoloji variantlılıq, variasiya güclü olub obrazı, bədii təsəvvürü dəyişərsə, bu, frazeoloji sinonimlikdir. Məsələn, "heç bir iş görməmək, bikar durmaq" mənasında *əlini əlinin üstünə qoymaq, əlini qulağının dibinə qoymaq, əlini ağdan qaraya vurmamaq* frazeoloji vahidlərdə ortaq komponent "əl" sözüdür. 1-ci və 2-ci frazeoloji vahiddə obraz yaxınlığına, eyni qrammatik quruluşa və ortaq leksik komponentlərə malik olduğu üçün frazeoloji variantlardır, sonuncu frazeoloji vahid isə həm qrammatik quruluşca, həm leksik tərkibcə, həm də obraz cəhətdən xeyli dəyişərək digərləri ilə sinonimlik təşkil etmişdir. Azərbaycan dili frazeologizmlərinin bu müstəvidə araşdırılması onu göstərir ki, adətən çoxkomponentli frazeoloji vahidlərdə obraz yenilənməsi ən azı iki komponentin birlikdə əvəzlənməsi hesabına yaranır və nəticədə frazeoloji sinonimlik formalaşır. Frazeoloji vahidi təşkil edən komponentlərin mütəhərrikliyi dilin frazeoloji sistemində semantik qrupların bir-birinə keçid prosesini təmin edir. Göründüyü kimi, frazeologizmlərin inkişaf mexanizmində frazeoloji variantların digər semantik qruplara, əsasən də, frazeoloji sinonimlərə keçidi daha çevik formadadır. Komponent dəyişikliyinin əhatəsi genişləndikcə frazeoloji sinonimləşmə prosesi də güclənir. ***Gözü (gözləri) kəlləsinə çıxmaq//gözü (gözləri) dörd olmaq//gözü(gözləri) bərələ qalmaq*** frazeoloji vahidləri eyni təkamül yolu keçmişdir. Bunlar arasında ortaq komponent olsa da, frazeoloji variant deyil, frazeoloji sinonimdirlər. Çünki bu frazeoloji vahidlərdə obraz yenilənməsi baş vermişdir. Dilimizdə "çox kasıb olmaq" mənasında işlənən ***acından günorta durmaq –acından köpük qusmaq – acından bitini yemək*** frazeoloji vahidləri də ortaq komponentli (*acından*) olsa da, bu frazeoloji vahidlərdə obrazlar tamamilə fərqlidir. Məhz bu başlıca keyfiyyət onların frazeoloji sinonimliyini şərtləndirir.

Azərbaycan dilində frazeoloji sinonimliyi frazeoloji variantlardan fərqləndirən başlıca meyar kimi obraz müxtəlifliyini qəbul edib aşağıdakı nəticəyə gəlirik:

1) frazeoloji sinonimlər eyni və ya yaxın mənalı anlayışları müxtəlif obraz vasitəsi ilə ifadə edirlər, bir obrazın və ya yaxın obrazların mövcudluğu isə frazeoloji variantların spesifik xüsusiyyətidir.

2) Bir komponentin digəri ilə əvəz olunması zamanı bədiilik, obrazlılıq dəyişərsə, bu zaman eyni frazeoloji vahidin variantları deyil, frazeoloji sinonimlər əmələ gəlir.

3) Komponentlərin əvəz olunması frazeologizmlərin semantik vahidliyini pozmadığı və eyni anda bədii təsəvvürün dəyişməsinə gətirib çıxarmadığı halda isə frazeologizmin variantlığı yaranır.

Ədəbiyyat

1. H.Həsənov. Azərbaycan dilinin frazeologiyası . Bakı, 1979, 65 s.
2. M.Mirzəliyeva. Türk dillərinin frazeologiyası. I cild. Bakı “Nurlan”, 2009, 216 s.
3. Müasir Azərbaycan dili: 3cilddə, I cild. Bakı: Elm, 2010, 352 s.
4. Л. М. Готовцева .Некоторые вопросы фразеологической синонимии якутского языка. ВЕСТНИК СВФУ, 2014, том 11, № 3
5. Федуленкова Т.Н. Фразеологическая вариантность как лингвистическая проблема.Вестник ОГУ. М. 2005, №4,.Приложение Гуманитарные науки.
6. Райхштейн А.Д. Немецкие устойчивые фразы и устойчивые предикативные единицы: Дис. …д-ра филол.наук.М., 1974.

А. Ханалиева

Критерии отличия фразеологических синонимов и фразеологических вариантов в азербайджанском языке

Резюме

В статье нашли отражение основные критерии отличия в определении фразеологической синонимии и фразеологической вариантности, их отличительные характеристики. Одинаковое или близкое значение двух и более фразеологических единиц, их совершенно разный образ и различные компоненты составляют основу фразеологической синонимии.Основным критерием фразеологической вариантности является то, что, наряду с одинаковым или близким значением двух или более фразеологических единиц, они обладают одинаковым образом и

одинаковыми компонентами.В азербайджанском языке в механизме развития фразеологических единиц, процесс перехода фразеологических вариантов в другие семантические группы, особенно, в фразеологические синонимы, имеют более активную форму.

A.Khanaliyeva

Difference criteria of phraseological synonyms and phraseological variants in azerbaijani

Summary

Main criteria of determination of phraseological synonymy and phraseological variance, their distinctive characteristics are shown in the article.The same or similar meaning of two or more phraseological units, their absolutely different character and different components constitute the basis of phraseological synonymy.

The main criteria of phraseological variance, besides the same or similar meaning of two or more phraseological units, is their same character and same components.The process of change of phraseological variants to other semantic groups, especially, to phraseological synonyms, in development mechanism of phraseological units in Azerbaijani is more active.

Rəyçi: Tofiq Hacıyev
filologiya elmləri doktoru, professor

AYNUR YUNSUROVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
yunsurova@gmail.com

FRAZEOLOGİZMLƏRİN DİLDƏ ROLU

Açar sözlər: dil, frazeologiya, tədqiq, frazeoloji, vahid, sistem, məna, söz, ifadə, birləşmə, leksik tərkib, sabit birləşmə
Key words: language, phraseology, study, phraseological, unit, system, meaning, word, expression, combination, lexical composition, fixed combination
Ключевые слова: язык, фразеология, исследование, фразеологизмы, единица, система, значение, слово, выражение, комбинация, лексическая композиция

Frazeologizmlər iki və daha artıq sözün birləşməsindən əmələ gələn hər hansı birləşmə yox, mənaca bütöv, sabit leksik tərkibli, məcazi mənalı birləşmələrdir.

Dilin yeni sözlərlə zənginləşməsi və mövcud mənalarının dəyişilməsi əsasən ictimai həyatda və ictimai fikirdə yaranan yeni inkişafla əlaqədardır.

Frazeologiya dilçiliyin müstəqil sahələrindən biri olub, dilin frazeoloji siste-mini öyrənir. Hər bir konkret dilin frazeoloji vahidləri zəruri ehtiyac nəticəsində tədricən formalaşaraq zənginləşmə prosesi keçib bir sistem halına düşmüşdür. Hər bir dilin frazeologiyası iki planda (diaxronik və sinxronik) tədqiq edilir. Diaxronik planda dilin frazeologiyasının tarixən formalaşması və müasir dövrə doğru seman-tik və struktur cəhətdən inkişafı öyrənilir. Sinxronik planda isə dilin frazeologiya-sının müasir vəziyyətinin semantik və struktur təsviri verilir.

Frazeologiya dildə məna cəhətdən parçalanmayan, lakin işlək sitat materialı kimi möhkəmlənən atalar sözü, məsəllər kimi bütövlük təşkil edən söz birləşmə-ləridir.

Hazırki məqalədə işində frazeoloji birləşmələrin növləri, sözönlü fra-zeoloji birləşmələr, onların ana dilinə tərcüməsi hərtərəfli tədqiq edilmişdir.

İngilis dilində frazeologizmlərin yeddi əsas struktur tipi mövcuddur.

Eyni səviyyəli frazeologizmlər (bir mühüm və bir köməkçi leksemdən və ya bir mühüm və iki və ya üç köməkçi leksemdən ibarətdir) tabeli və tabesiz sözbir-ləşmələri strukturu olan frazeoloji vahidlər, qismən predikativ strukturlu frazeoloji vahidlər, fel tərkibli nominativ-kommunikativ frazeoloji vahidlər, sadə və ya mürəkkəb cümlə strukturlu frazeoloji vahidlər, cümlə ekvivalentləri və ya müstəqil intonasiyanı xarakterizə edən nida cümlələri.

Atalar sözləri və zərb məsəlləri də frazeologizmlərin növləri sırasında durur. Atalar sözləri həmişə cümlə hesab olunur. (Strike while the iron is hot – dəmiri isti-isti döyərlər).

İngilis dilində atalar sözləri çox rəngarəngdir və ingilis xalqının həyatının hər tərəfini əhatə edir.

İngilis dilində sözönlü frazeoloji vahidlərin sayı olduqca əhəmiyyətlidir.

Sözönləri ilə yaradılan ifadələrdə sözlər müstəqil işlədilə bilmir – ayrıca ifadə olunmur, sözbirləşmələrinin tərkibi kimi ümumi mənaya xidmət edir və həmişə öz ilkin formasını saxlayırlar.

İngilis dilində əksər sözönləri çoxmənalı və müxtəlif münasibətlər ifadə etdiyi üçün müxtəlif sözbirləşmələrinin yaranmasında aktiv iştirak edirlər.

İngilis dilində sözönlü frazeoloji birləşmələr adətən danışıq dilində işlədilir və bəzən məcazi məna kəsb edir. Sözönlü frazeoloji vahidlər etnik kodun daşıyıcıları kimi qəbul edilirlər. Onlar müxtəlif tarixi hadisələr, xalqın yaşam tərzi, gündəlik fəaliyyəti və maraqları ilə sıx əlaqədardırlar. Frazeoloji vahidlər əsasən fellərdən ibarət olduqları üçün digər dillərdən alınmaq ehtimalı çox azdır. Məlum faktdır ki, fellər hər bir dilin daxili imkanları hesabına yaranır və digər dillərdən alınmırlar. İngilis dilində işlənən sözönlü frazeoloji ifadələrin bir qisminin dili-mizə mürəkkəb fellər vasitəsilə tərcümə olunması faktını nəzərdən qaçırmamaq lazımdır.

Bəzi sözönlü frazeoloji vahidlər sanki sabit sözbirləşmələrini xatırladır. Lakin sərbəst söz birləşmələri sintaktik vahiddir. Burada məfhum bildirən sözlər cümlədə müstəqil hissə funksiyasında çıxış edir. Frazeoloji vahdilərdə isə sözlər müstəqil deyil. Onlar nə sözlərin, nə də söz sırasının dəyişməsi mümkün olmayan sabit birləşmələr yaradırlar.

İngilis dilində elə sözönlü frazeoloji birləşmələr var ki, onlar birbirindən artiklın işlənməsinə görə fərqlənir və müxtəlif məna ifadə edir. (to go to sea-dənizçi olmaq, to go to the sea- dənizə getmək).

Frazeologiyaya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir: Frazeologizmlərin daxili məna quruluşunun və xarici strukturunun, onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl mahiyyətinin şərhi, onların işlənmə xüsusiyyətlərinin və istifadə olunma sahələrinin təhlili həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.

Frazeologizmlərdən istifadə olunması insanlara öz fikirlərini dəqiq, qısa və idiomatik ifadə etmək imkanını verir. Frazeologizmlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasıdır. Frazeologizmlərdən həm bədii, həm publisist, həm də digər üslublarda

istifadə edilir. Frazeoloji birləşmələr bədii əsərin emosionallığının üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir.

Frazeoloji birləşmələrin tərcüməsində frazeoloji vahidlərin yaxınlığı, onların struktur-semantik oxşarlığı dil daşıyıcılarının obrazlı düşüncəsinin ümumiliyini sübut edir.

Frazeoloji birləşmələrin ana dilinə tərcüməsində eyni sistemə malik dillərin müqayisəli təhlili, tərcüməsi belə bir ümumi nəticəyə gəlməyə imkan verir ki, bu dillərin frazeoloji sistemində köklü keyfiyyət oxşarlığı müşahidə edilir. Belə ümumi cəhətlərdən ən əsası tərcümədə frazeoloji vahidlərin komponentlərinin məcazi səciyyə daşıması, onların obrazlılığıdır.

Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır:

1. Frazeoloji birləşmələrin tərkibi dəyişməz olur.
2. Bu ifadələr dildə hazır şəkildə mövcud olur.
3. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və yalnız məcazi mənada işlənir.
3. Frazeoloji birləşmələr iki və daha artıq sözdən ibarət olur.
4. Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşürlər.
5. Frazeoloji birləşmələrin əksəriyyəti bir sözlə ifadə oluna bilirlər.
6. Frazeoloji birləşmələr tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olurlar.

Frazeologizm və söz problemində iki əsas istiqamət qeyd edilir. İfadənin dar mənasında, leksikoloji anlamda, frazeologiya leksikologiyanın tərkib hissəsi kimi başa düşülür, geniş mənada isə frazeoloji birləşmələr linqvistikanın vahidi kimi anlanılır. Frazeologizm struktur və semantik mənasına görə dildə sözə nisbətən daha mürəkkəb formadır. Frazeologizm nə həmin sözlərlə uyğundur, nə də həmin sözlərin tam ekvivalentidir. Frazeologizm mürəkkəb leksik vahiddir. O məna etibarilə frazeoloji tərkibdə bir sözlə yox, bir neçə sözün birləşməsi ilə ifadə olunmalıdır. Ayrıca söz frazeologizmdən struktur fərqi ilə seçilir. Söz bir morfem deməkdir, hər hansı frazelogizm isə ingilis dilinin qrammatik qanunları ilə yaradılmış sözlər birəşməsindən ibarətdir.

Frazeologizmlər leksik sabitliyin olması və davamı, söz tərkibi ilə xarakterizə olunur. Semantik dayanıqlığa görə frazeologizmin müxtəlif tipləri əmələ gəlir. Məlum olduğu kimi frazeologizmlər sərbəst söz birləşmələrindən ibarət olsa da, semantik məna fərqliliyi cəhətdən işlədilir.

Tarixən sözlərin məna fərqliliyində işlədilməsi unudularaq yeni mənalı dəyişməz birləşmə yaranır. Frazeologizm belə möhkəmlik dərəcəsinə görə fərqlənir. Frazeologizmin idiomatik forması tamamilə tərkibə daxil olan sözlərin ümumi mənasından ayrılmış və absolyut bölünməz sabit birləşmə əmələ gətirmişdir. Məsələn: “to be dependent on smb`s nod; to be at smb`s nod- tamamilə bir kəsdən asılı olmaq; kor-koranə bir kəsə tabe olmaq”.

Frazeoloji vahidlərin elə sabit forması var ki, burada ümumi frazeoloji məna ilə yanaşı, ayrı-ayrı sözlər də öz semantik mənasını saxlayır. Məsələn: "to burn bridges-körpüləri yandırmaq"; to throw mud at smb.-üstünə çirkab atmaq, to paint the devil blacker than he is-münasibətləri kəskinləşdirmək".

Frazeologizmlərin frazeoloji birləşmə tipi elə sabit formadır ki, burada sözlər tərkibə daxil olarkən sərbəst və texnoloji bağlılıq mənası daşıyır. Məsələn: "Adam`s apple-Adəm alması", Rack one`s brains-dərindən düşünmək".

Bu tip forma əvvəlki frazeoloji tiplərə nisbətən zəif görünür və sanki sərbəst söz birləşmələrinə uyğun gəlir. Frazeologizmlərin frazeoloji ifadələr formasının əsas xüsusiyyəti yazılı və şifahi nitq zamanı danışığın leksik tərkibi və müəyyən semantik vahidlərin hazır forması şəklində özünü göstərir. Frazeoloji ifadə bəzən komponentlərin hərfən işlədilməsi şəklində özünü göstərir. Bu tərkiblərə çox sayda İngilis atalar sözləri və deyimlər birbaşa müstəqim mənada işlədilir və alleqorik məna daşımır, məsələn: "live and learn-ömrü boyu öyrən"; "better untaught than ill taught-belə alim olmaqdansa, alim olmamaq".

Frazeologizmlər mənaca müxtəlifdir. Onları bir neçə qrupa ayırmaq olar: somatik frazeologizmlər, zoofrazeologizmlər, dini-mifoloji frazeologizmlər, adət və mərasimlərlə, bitki adları və s. ilə bağlı frazeologizmlər. Məsələn: dilim dönmür, qulaqlarını şəkləmək, gözlərini zilləmək, barmağına dolamaq, dəvənin quyruğu yerə dəyəndə, dəvəni çömçə ilə sulamaq, şeytanın ağlına gəlməz, şeytan baş çıxarmaz, cin atına minmək, cini başına vurmaq; anası soğan, atası sarımsaq; nə ətdir, nə balıq və s. Dünya dillərində frazeoloji vahidlərin əksəriyyətini somatik frazeologizmlər təşkil edir. Frazeoloji birləşmələrin sırasında həm müsbət, həm mənfi mənalı frazeologizmlərə rast gəlinir. Məsələn, bağrına basmaq, əliaçıq olmaq, gün qazanmaq, tədbir tökmək ədəbi dil normalarına uyğun gələn, müsbət mənada işlədilən frazeologizmlər, quyruğu qapı dalında qalmaq, ətini şişə çəkmək, ayağının altını qazmaq, baş beynini aparmaq, qazan dibi yalamaq isə kobud xarakterli, mənfi mənada işlədilən frazeologizmlərdir.

Ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978, səh. 4-67.
2. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1970, səh. 95-100.
3. Mehrabov A, Abbasov A, Mahmudov M. "Təhsilin modernləşdirilməsinin aktual problemləri". Bakı, 2013. səh. 35-42.

А.Юнсурова

Роль фразеологизмов в языке

Резюме

В статье рассматривается роль фразеологизмов в языке. Фразеологизмы не являются комбинациями, полученными из более чем двух слов, но они представляют собой такие комбинации с целым значением, фиксированной лексической композицией и образным значением. Обогащение языка новыми словами и изменение доступных значений в основном связаны с новым развитием общественной жизни и общественного сознания. Будучи одной из независимых отраслей лингвистики, фразеология изучает фразеологическую систему языка. Фразеология любого языка изучается по двум планам.

Достаточно информации о роли фразеологизмов в статье. Этот документ может быть полезен тем, кто хочет получить информацию об упомянутой проблеме.

A.Yunsurova

The role of phraseologisms in the language

Summary

The paper deals with the role of phraseologisms in the language. Phraseologisms are not combinations derived from more than two words, but they are such combinations with whole meaning, fixed lexical composition and figurative meaning. Enrichment of the language with new words and changing available meanings are mainly connected with new development in public life and social consciousness. Being one of independent branches of linguistics, phraseology studies the phraseological system of the language. Phraseology of any language is studied on two plans.

Enough information about the role of phraseologisms is given in the paper. The paper may be useful for those who want to get information about the mentioned issue.

Rəyçi: Fəridə Hüseynova
filologiya elmləri namizədi, dosent

SEVDA ŞIXIYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sevda@mail.ru

TƏRCÜMƏDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN İDENTİFİKASİYASI

Açar sözlər: frazeoloji birləşmələr, zənginlik, leksik vahidlər, xüsusiyyətlər, fərqli cəhətlər, çətinliklər, ekvivalent, tərcümə
Key words: phraseological combinations, enrichment, lexic units, characteristics, distinguishing features, difficulty, equivalent translation
Ключевые слова: фразеологические соединения, обогащения, лексические единицы, характеристики, отличающие особенности, трудности, эквивалентный перевод

İngilis dilinin frazeoloji birləşmələri öz zənginliyi və müxtəlifliyi ilə digər dillərin frazeologizmlərindən fərqlənir. Bu frazeologizmlərin başqa dillərə tərcüməsi dilçilikdə ən mühüm və mürəkkəb məsələlərdən biridir. İstər ölkəmizdə, istərsə də xaricdə ingilis dili frazeologizmlərinin tərcüməsi işinə xüsusi diqqət yetirilir. Onların başqa dillərə tərcüməsi çox çətin və məsuliyyətli bir işdir. Hər hansı bir fikri tərcümə etmək üçün hər bir dilin kifayət qədər imkan və vasitəsi vardır. Bu müddəa eynilə azərbaycan dilinə də aid ola bilər.

Təcrübə göstərir ki, dünyanın ən zəngin dillərində verilmiş elə bir fikir tapmaq çətindir ki, onu bizim dilimizdə ifadə etmək qeyri-mümkün olsun. Bununla belə, ingilis dilində olan frazeoloji birləşmələri azərbaycan dilinə tərcümə edərkən müəyyən çətinliklərə də təsadüf olunur ki, onlar ingilis dili ilə azərbaycan dilininin lüğət tərkibi və qrammatik quruluşu arasındakı fərqdən irəli gəlir. İngilis dilindəki sabit söz birləşmələrinin azərbaycan dilindəki qarşılığı ilə tam, eyni ilə uyğun gəlməməsinin əsas səbəbi onların ingilis dilinin qayda-qanunları əsasında, xalqın həyat tərzindən, məişətindən, dünyagörüşünə təsir edən amillərdən asılı olaraq həmin dilin yüz illər boyu davam edən tarixi inkişafı nəticəsində sabitləşməsidir. Buna görə də frazeoloji birləşmələrin lüğətlərdə dəqiq qarşılığının verilməsi, demək olar ki, mümkün də deyil.

Frazeoloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, nəhayət dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirdiyindən belə ifadələr azərbaycan dilinə tərcümə edilərkən orijinaldakı xüsusiyyətlərinin hamısını eyni dərəcədə saxlamaq imkanı xaricindədir.

Digər tərəfdən, sözün daxili formasında və bir sıra başqa hadisələrdə dillər arasındakı yalnız ayrılan cəhətlərin deyil, həm də uyğun gələn

cəhətlərin frazeologizmlərdə mövcüd olmasını görməmək olmaz. Belə ki, frazeologizmlərin leksik vahidlərinin mənalarını hər iki dilə məxsus lüğətlərlə tutuşdursaq, onlar arasında müəyyən məna yaxınlığı tapmaq olar. Müxtəlif dillərə məxsus frazeoloji birləşmələrin məna və formaca bəzən bir-birlərinə uyğun olması insan təfəkkürünün eyni istiqamətdə, eyni qanunlar üzrə inkişaf və təkamül etməsini göstərən əlamətlərdən biridir.
Burada həm də oxşar tarixi şəraitin, mənəvi yaxınlığın rolu böyükdür. Buna görə də müxtəlif dillərdə həm semantik-üslubi, həm də formaca bir-birinə uyğun gələn frazeologizmlərin tərcüməsi o qədər də çətinlik törətmir. Belə tərcümədə yazıçının demək istədiyi fikir dəqiq çatdırılır, əsərin bədii emosionallığı qorunub saxlanılır.

Frazeologizmlərin yanlış tərcüməsinin əsas və ilkin səbəblərindən biri onların verilmiş mətndən düzgün seçilməməsi, sərbəst söz birləşmələri ilə qarışdırılmasıdır. Digər bir səbəb isə tərcüməçinin seçilmiş bu frazeologizmləri yalnış dərk etməsidir ki, bu da çox zaman mətnin təhrifinə gətirib çıxarır. Buna görə də frazeologizmlərin tərcüməsində səhvə yol verməmək üçün tərcüməçi ilk növbədə onları verilmiş mətndən düzgün seçməli, onları düzgün dərk etməli və orijinaldakı fikri təhrif etmədən ifadə edə bilməlidir. Onun orijinalda təsvir olunan xalqın həyatını və milli varlığını təşkil edən xüsusiyyətlərini bilməsi vacibdir. Frazeoloji birləşmələrin tərcüməsi zamanı lüğətdən düzgün istifadə olunmalı, dil və üslubi məsələlərinə dərindən diqqət yetirilməlidir. Frazeoloji birləşmələrin tərcüməsi dedikdə hər şeydən əvvəl aşağıdakı iki başlıca moment nəzərdə tutulur:
a) tərcümə olunacaq frazeologizmi tam başa düşmək,
b) başa düşülmüş frazeologizmin adekvat şəkildə ana dilində ifadə olunması.

Bu iki momentin vəhdətindən ibarət olan tərcümə prosesində ingilis dilində söylənilmiş frazeologizm semantik, stilistik və qrammatik nöqteyi-nəzərdən təhlil olunur, həmin birləşmənin leksik mənası və üslubi xüsusiyyəti ilə yanaşı, onun qrammatik məna və vəzifəsi müəyyən edilir. Bütün bunlar ana dilinin normaları ilə tutuşdurulur və nəticədə ingilis dilində söylənilmiş frazeologizm ana dilindəki ifadə vasitələri ilə müəyyənləşdirilir. Bütün tərcümə prossesi tutuşdurma və müqayisə əsasında gedir.

Frazeologizmlərin dəqiq və mükəmməl formada tərcüməsi ingilis dilinin frazeoloji birləşmələri ilə azərbaycan dili frazeoloji birləşmələri arasındakı əlaqədən, uyğunluq dərəcəsindən asılıdır. Frazeologizmlər tərcümə nöqteyi-nəzərdən iki qrupa bölünürlər:
1) ekvivalent frazeologizmlər,
2) ekvivalentsiz frazeologizmlər.

I. Ekvivalent frazeologizmlər. Tərcümə olunduğu dildə ekvivalenti olan frazeologizmlərə ekvivalent frazeologizmlər deyilir. Bu frazeologizm-

lərin iki növü var: 1) tam frazeoloji ekvivalentlər, 2) natamam frazeoloji ekvivalentlər.

1. Tam frazeoloji ekvivalentlərin tərkibinə məna, leksik tərkib, bədiilik, qrammatik quruluş və üslubi çalarlıq baxımından tərcümə olunduğu dilin frazeologizmləri ilə uyğun gələn və yaxud üst-üstə düşən, dildə hazır şəkildə olan frazeologizmlər daxildir. Bunlara aşağıdakı frazeologizmləri misal göstərmək olar:

Achilles' heel "axilles dabanı"; Augean stables "avgin tövlələri"; to show somebody the door "bir kəsə qapını göstərmək" (bir kəsi qovmaq); as cold as ice "buz kimi soyuq"; the iron heel "dəmir daban"(imperializm); in the sweat of one's brow "alının təri ilə" and etc.

2.Natamam frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologizmləri ilə bədiilik və məna baxımından nisbətən uyğun gəlməyən frazeologizmlər daxildir. Tərcüməçi bu cür frazeologizmləri tərcümə edərkən onun ifadəliliyini, emosionallığını da nəzərə almalıdır. Natamam frazeoloji ekvivalentlərə aşağıdakı frazeologizmləri misal göstərə bilərik: To be in black book "qara siyahıda olmaq"; golden opportunity "gözəl fürsət"; to be in pins and needles "tikan üstündə oturmaq"; to fall on stony ground "boşa çıxmaq"; to have pity on (smb.) "bir kəsə ürəyi yanmaq"; to catch somebody red-handed "bir kəsi cinayət üstündə yaxalamaq" and so on.

Natamam frazeoloji ekvivalentlər özləri də üç qrupa bölünür. Birinci qrup natamam frazeoloji ekvivalentlərin tərkibinə tərcümə olunduğu dilin frazeologizmləri ilə mənaca uyğun gələn, bədiilik və üslubi çalarlılıq baxımından yaxın olan, lakin leksik tərkibinə görə fərqlənən frazeologizmlər daxildir. Məsələn: a wolf in sheep's clothing "qoyun dərisi geymiş canavar"; the game is not worth the candle "əl bulamağa dəyməz"; the talk of the town "dillərə dastan"; don't count your chickens before they are hatched "cücəni payızda sayarlar"; the first portent "müjdəçi", "ilk əlamət".

İkinci qrup natamam frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologizmləri ilə məna, leksik tərkib, bədiilik, üslubi çalarlılıq baxımından uyğun gələn, lakin bəzi formal əlamətlərinə görə fərqlənən frazeologizmlər daxildir. Onlar tərkibindəki sözlərin sırasına və sayına görə tərcümə olunduğu dilin frazeologizmlərindən fərqlənirlər. Məsələn: all is not gold that glitters "hər parıldayan qızıl deyildir"; strike while the iron is hot "dəmiri isti-isti döyərlər".

There is no rose without a thrown "tikansız qızılgül olmaz"; to fish in trebled water "bulanıq suda balıq tutmaq" frazeologizmlərində isə sözlərin sayı fərqlidir.

Üçüncü qrup natamam frazeoloji ekvivalentlər tərcümə olunduğu dilin frazeologizmləri ilə bütün xüsusiyyətlərinə görə uyğun gələn, lakin

bədiilik baxımından fərqlənən frazeologizmlərdir. Məsələn: to spread before the eye "elə bil ovucumun içindədir"; as old as hills "dünya qədər qoca"; "to be born with a silver spoon in one's mouth "xoşbəxt ulduz altında doğulmaq" .

II. Ekvivalentsiz frazeologizmlər. Ekvivalentsiz frazeologizmlər dildə sayca ən çox olan frazeologizmlərdir. Belə frazeologizmlərin sırasına tərcümə olunduğu dildə ekvivalenti olmayan frazeologizmlər daxildir. Onları tərcümə edərkən tərcüməçi tərcümənin qeyri-frazeoloji üsullarından istifadə edir. Onların tərcüməsi frazeoloji deyil, leksik vasitələrin köməyi ilə verilir. Ekvivalentsiz frazeologizmlərin tərcüməsini heç bir zaman dəqiq tərcümə adlandırmaq olmaz. Bu cür frazaologizmlərin tərcüməsində həmişə bəzi çatışmamazlıqlar olur. (bədiilik, ekspressivlik, məna çalarları və.s.) Məsələn: What will Mrs Crundy say? "camaat bizə nə deyər?"; Paul Pry "Paul Pray", "burnunu hər yerə soxan insan"; Cordelia's gift "sakit,incə qadın səsi"(King lear əsərinin qəhrəmanı Kordeliyanın səsi kimi);Jack Sprat "cırtdan", "çox kiçik boylu". Ekvivalentsiz frazeologizmlərin tərcüməsində kalka tərcümə növündən geniş istifadə olunur.

Ədəbiyyat

1. M.Qasımov. Elmi-texniki tərəqqi və terminologiya. "Elm və həyat" jurnalı. 1975. N4, s.4
2. M.Qasımov. Azərbaycan terminologiyasının əsasları. Bakı, 1973. Səh.13.

S. Shikhiyeva

Identification of phraseological combinations in the translation

Summary

Enrichment and diversity of phraseological combinations have been described in the article. English phraseological combinations differ from the ones of other languages.

The features as relation, conformity between English and Azerbaijan phraseologisms have been analyzed.

Identification of phraseological combinations translation.

Their exact and perfect translation depend on these features while translating them by various translation methods have been used.

С.Шихиева

Идентификация фразеологических комбинаций в переводе

Резюме

В статье описаны обогащение и разнообразие Английских фразеологических соединении. Фразеологизмы Английского языка отличаются от фразеологизмов других языков.

Такие особенности как связь, соответствие между фразеологизмами Английского и Азербайджанского языков были анализированы.

Точный и современный перевод этих фразеологизмов зависит от этих свойств.

Идентификация фразеологических комбинаций в переводе.

При переводе были использованы различные периодические методы.

Rəyçi: Fəridə Hüseynova
filologiya elmləri namisədi, dosent

ФИРУЗА КЕРИМОВА
Бакинский славянский университет
firuza@mail.ru

ТИПЫ СЛОЖНЫХ СЛОВ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Ключевые слова: словосложение, основа, сложное слово, мотивированность, семантика.
Açar sözlər: sözbirləşməsi, kök, mürəkkəb söz, motivasiya, semantika.
Key words: composite, basic, complex word, motivation, semantics.

Словосложение – один из употребительных типов словообразования в английском языке, способствующее расширению словарного состава современного английского языка. По данным Р.Берчфилда, с помощью словосложения в нем в среднем за год появляется 800 новых слов – больше, чем в любом другом языке (2, с.8). Это можно объяснить тем, что сложные слова в большей мере отвечают номинативным и коммуникативным задачам благодаря компрессивности форм, ясности и легкости восприятия семантики, а также экспрессивности. В английском языке речевые композиты распространены настолько, что некоторые исследователи считают, что образование сложных слов служит цели синтаксического удобства, а не цели номинации. Вопросами словосложения в английском языке занимались Е.С.Кубрякова, О.Д.Мешков, Л. Бауэр, В.Д.Аракин и другие ученые. Наиболее разработаны вопросы, связанные со структурой, семантикой и функциями сложных слов. Так, О.Д.Мешков рассматривает вопрос об отношениях между компонентами сложного слова внутри одного языка (6, с.148-150).

В отличие от О.Д.Мешкова, В.Д.Аракин исследует типы сложных слов в русском и английском языках (двухосновный и трехосновный) и предлагает сопоставительную классификацию сложных слов (1).

Двухосновный тип включает следующие подтипы: подтип с приложением (например, в английском – *rocking*-horse, в русском – лошадь-*качалка*), подтип с соединительной морфемой (например, в английском – stat*e*sman «государственный деятель», spok*e*sman «пресс-секретарь правительства», в русском – вод*о*пад); подтип с соединением с помощью служебных слов (например, в английском – hide-*and*-seek «прятки», mother-*of*-pearl «перламутр», в русском языке этот подтип практически отсутствует, что связано с двухморфемной структурой лексических единиц). Каждый подтип подразделен на группы в зависимости от типа синтаксической связи (1, с. 228–234).

Сложные слова могут быть мотивированны в зависимости от индивидуального лексического значения составляющих их элементов, и в зависимости от значения слова они представляют собой мотивированные обозначения действительности. Степень их мотивации может быть различной, в связи с этим выделяются следующие группы сложных слов.

1) Полностью мотивированные слова (с «прозрачной» мотивацией), то есть с полным совпадением внутренней формы их частей. Лексическое значение этих слов представляет сложение значений составляющих элементов. Эту группу можно разделить на две подгруппы, в которых отмечается: а) лексическая и структурная тождественность основ, например: *gold-fish* «золотая рыбка» (*gold* «золотой», *fish* «рыба»); б) лексическая тождественность частей сложного слова при наличии инверсии, например: *snow-white* «белоснежный» (*snow* «снег, снежный», *white* «белый», *tea-taster* «дегустатор чая» (*tea* «чай», *taster* «дегустатор»), *tablecloth* «скатерть» (*table* «стол», *cloth* «ткань).

2) Частично мотивированные слова, в которых наблюдается частичное совпадение внутренней формы по первой или второй части.

а) Совпадение по первой части сложного слова: 1) вторая часть сложного слова обладает близким, но не тождественным значением, например: *long-lived* «долговечный» (*long* «долгий», *live* «жить, существовать», -ed – маркер прилагательного или причастия), *slow-witted* «тупоголовый» (*slow* «медленный, тупой», *wit* «ум, разум», -ed – маркер прилагательного или причастия), *heart-breaking* «душераздирающий» (*heart* «сердце, душа», *break* «ломаться, разрушаться, разрываться», -ing – маркер прилагательного или причастия), *house-wife* «домохозяйка» (*house* «дом», *wife* «жена»); 2) вторая часть двухосновного слова указывает на характер деятельности, например: *beekeeper* «пчеловод» (*bee* «пчела», *keeper* «содержатель, предприниматель»), *housekeeper* «домработница» (*house* «дом», *keeper* «держатель, предприниматель»); 3) вторая часть двухосновного слова указывает на предмет в целом, например: *lipstick* «губная помада» (*lip* «губа, губной», *stick* «ветка, палка»); 4) вторая часть сложного слова содержит метонимический перенос, например: *sweet tooth* «сладкоежка» (*sweet* «сладкий», *tooth* «зуб»).

б) Совпадение по второй части сложного слова, включая следующие случаи: 1) первая часть сложного слова содержит метафорическое либо метонимическое сравнение, вторая часть совпадает полностью, например: *silver – tongued* «красноречивый» (*silver* «серебро, серебряный», *tongued* от *tongue* « язык, речь, манера говорить»); 2) наблюдается полное несовпадение семантической составляющей первой части сложного слова, например: *bug-eyed* « пучеглазый» (*bug* «жук, клоп, насекомое», *eyed* от

eye «глаз»); 3) вторая часть сложного слова указывает на предмет в целом, например: *life boat* «спасательная лодка» (*life* «жизнь», *boat* «лодка»), *silver birch* «белая береза» (*silver* «серебро, серебряный», *birch* «береза»); 4) вторая часть сложного слова обладает близким, но не тождественным значением, например: *half-wit* «слабоумный» (half «половина», *wit* «ум, разум»), *cross-eyed* «косоглазый» (*cross* «пересекающийся, пересекать», *eye* «глаз», -ed – маркер прилагательного или причастия).

в) Совпадение одной из частей сложного слова при наличии инверсии, например: *whirlpool* «водоворот» (*whirl* «кручение, «верчение, *pool* – омут, заводь).

3) Немотивированные слова (переносное значение). Полное несовпадение внутренней формы при наличии общего семантического множителя, например: *brainpower* «научные кадры» (*brain* «мозг, рассудок, умственные способности», *power* « сила, мощь»); *freshman* «первокурсник» (*fresh* « свежий, новый», *man* «человек, мужчина»).

4. Полное несовпадение внутренней формы при отсутствии общей семы. Это самая малочисленная группа, например: *funny farm* «психбольница» (*funny* «смешной, забавный», *farm* «ферма, питомник»).

Сва́шка - 1. Подружка невесты: *Во́з'л'ь н'ав'е́сты стаи́т' **сва́шкъ**.* 2. Молодая женщина, которая во время свадьбы находиться возле жениха и невесты: *Н'ив'е́сту в'иду́т' друшко́ и **сва́шкъ**. **Сва́шкъ** б'ир'о́т' пас'т'е́л', в'из'о́т' γ жън'иху́. Каγда́ пр'иво́д'ът' мълады́х, с н'и́м'и друшко́ н'ь с'ид'у́т', с'ид'ит' **сва́шкъ**. На сва́д'б'ь выб'ира́йут' **сва́шку** и друшка́ съ стъраны́ н'ив'е́сты и жън'иха́. О́къ́лъ н'ив'е́сты **сва́шкъ**, п'ър'ив'а́зънъ ша́л'къ́м'и. Друшко́ и **сва́шкъ** атв'ича́йут' зъ мълады́х.* 3. Сваха: *Дружо́к са **сва́шкъй** атв'ил'и́ на́с ф с'в'ит'о́лку.*

Свети́лка – человек, держащий свечу со стороны жениха: ***Св'ит'и́лкъ** у жън'иха́ д'е́ржыт' св'ичу́.*

Сно́шеница и **сноше́ница** – сваха: *С'ича́с ужэ́ так'и́х **сно́шън'иц** н'е́т.*

Помимо специальной лексики используются и выражения, например:

Де́лать догово́рность – договариваться*: Пато́м на тр'е́т'и д'е́н' пр'ийиздж'а́йут' ат'е́ц, ма́т' и жан'и́х, **д'е́лъйут' дъγаво́рнъс'т'**.*

Де́лу конча́ть – окончательно договориться о свадьбе: *Къ́к прасва́тъйут' у на́с, иду́т' к н'ив'е́с'т'ь* ***д'е́лъ канча́йут'****. А ра́н'шъ, да сва́д'бы ид'о́м дъуъвар'и́мс'ь, жън'ихý иш'ш'о́ н'и в'е́р'у, ид'о́м* ***д'е́лу кан'ча́т'****. Сва́т'ик'и иду́д* ***д'е́лу кан'ча́т'****. Сп'арва́* ***д'е́лу кан'ча́йут'****, усва́тъл д'е́фку.*

Кла́дку уклада́ть – осуществить уговор, по которому жених выплачивает родителям невесты определённую сумму денег (ср. *кла́дка* - выкуп за невесту): *Пато́м дъгава́р'ивъйуццъ, как д'е́лъ канча́т' и* ***кла́тку уклада́т'****.*

Иногда девушку насильно отдавали замуж, что нашло свое отражение в таком выражении, как: **дуро́м отдава́ть** – выдать без согласия замуж (ср. *дуро́м* - глупо, необдуманно): *Вът ы с'истр'о́нку майу́* ***дуро́м аддава́л'и****. Йа за́муш пъ л'убв'и́ выхад'и́лъ, а с'истру́* ***дуро́м аддава́л'и****.*

К свадебному обряду относятся также похме́льки и отво́ды:

Похме́льки - второй день свадьбы, который празднуют у жениха: *У жън'иха́, зна́чит',* ***пахм'е́л'к'и****, а пато́м атво́ды у н'ив'е́сты.*

Отво́ды – «гулянье у невесты после свадьбы, когда невесту ведут в дом жениха: *С'иго́дн'ь сва́д'бъ, за́фтръ* ***атво́ды****.* ***Атво́ды*** *прахо́д'ут' в'е́с'ълъ: фс'е́ пайу́т', танцу́йут'. Йийо́ па́пкъ и ма́мкъ* ***атво́ды*** *д'е́лъйут'. По́сл'ь сва́д'бы пахм'е́лы и* ***атво́ды****. Мо́гут'* ***атво́ды*** *з'д'е́лът' чьр'ъз н'ид'е́л'у, а мо́гут' чьр'из го́т. Тр'е́т'ий д'е́н'* ***атво́ды*** *у н'ив'е́сты. А на тр'е́т'ий д'е́н' -* ***атво́ды*** *- гато́в'ът' у н'ив'е́сты».*

Свадебный обряд включает обычай дарить подарки. Так, «подарки, которые жених делает невесте накануне свадьбы называются «свадебной корзинкой»; они состоят из различных принадлежностей туалета, золотых вещей и драгоценных камней и т.д.» [12, 103]. Жених также должен сделать подарок родителям, братьям и сестрам невесты. Они, в свою очередь, тоже делают жениху подарок. В островном говоре этот обычай нашел отражение в следующей лексике:

Брусле́т – браслет: *Йе́й на сва́д'бу* ***брусл'е́т*** *пр'ин'ас'л'и́.*

Кольцо: *Фс'о́ па́р'ьн' до́лжън пъкупа́т', и брусл'е́т, и* ***ко́л'цъ****.*

В исследуемом говоре в качестве обобщения употребляется и заимствованное из азербайджанского языка слово **палта́р** – одежда, бельё, украшения, подаренные женихом невесте: *Сва́д'бу д'е́лъл'и,* ***палта́р*** *йе́й пр'ин'асл'и́.*

В свадебном обряде используются также ритуальные или символические предметы, одежда, украшения. К ним, например, относятся:

Белое платье – свадебное платье: *На н'е́й* ***б'е́лъйь пла́т'ь****, хвата́, нъ рук'е́ брусл'е́ты и ра́зныйь украшэ́н'ийь.*

Плетушо́к – шнурок для косы у замужних женщин: *Жан'и́х* ***пл'ьтушо́к*** *пъдар'и́л.*

Подвене́ц – подвенечное платье: ***Пъдв'ин'е́ц*** *йе́й пр'ин'исл'и́ како́й крас'и́вый. Нъ друγо́й д'е́н' н'асу́т' н'ав'е́с'т'ь* ***пъдв'ан'е́ц****.*

Походна́я скаме́йка – скамейка, которую ставят на свадьбе. ***Пъхадну́йу скам'е́йку****-тъ йа аддала́ сас'е́тк'ь.*

Скрынка – сундук, в котором хранится приданое дочерей.

Уго́льник – вышитое полотенце, вывешенное в углу в день свадьбы: *Када́ за́муж выхо́д'ьт', дайу́т'* ***уγо́л'н'ик'и*** *- два́* ***уγо́л'н'икъ****: в адно́м уγлу́ в'е́шъйут' и в друγо́м уγлу́, крас'и́выйь.*

Уте́рка и **ути́рка** – полотенце, которое невеста приносит в дом будущего мужа: *У на́с ат н'ав'е́сты н'а́су́т'* ***ут'е́рк'и*** *и уγо́л'н'ик'и. Иду́т' к н'ив'е́с'т'ь, пас'т'е́л'и уб'ира́т',* ***ут'е́рк'и*** *в'е́шът'. Пато́м иду́т' за* ***ут'и́ркъй****.*

Файшо́нка и **фальшо́нка** – головной убор невесты: *В друγо́й ко́мнът'ь н'ив'е́с'т'ь* ***файшо́нку*** *зав'а́зывъл'и.*

Фиша́ – украшение: *Нъ н'ив'е́сту* ***ф'иша́*** *ад'ива́иццъ.*

Хвата́ – фата: *Ну, н'ив'е́стъ ад'ива́йьт' б'е́луйу дл'и́ннъйу йу́пку с або́ръчкъй, ко́хту б'е́луйу с або́ръчкым'и, така́йь абнъкав'е́ннъйь* ***хвата́*** *с цв'ито́чкъмы.*

Че́пчик – фата: *Ра́н'шъ н'аве́сты ф ша́л'къх в'ан'ча́л'ис', а нь́нчь фс'о́ ф* ***че́пчикъх****. Жан'и́х пр'ин'о́с мн'е́ крас'и́вый* ***че́пчик****. На сва́д'б'ь н'ив'е́стъ* ***че́пчик*** *ад'ива́йьт'.*

Ша́лечка – головной платок, который вышивается невестой: *Пр'ихо́д'ут' сва́т'ик'и, дъуъвар'и́л'ис' с радным'и. Дайу́т' плато́к,* ***ша́л'ьчку****. Н'ив'е́стъ дайо́т' им пълат'е́нцу, инаудá* ***ша́л'ьчку****.* // экспресс. **шалёнка** и **ша́лька**: *О́къл'ъ н'ив'е́сты сва́шкъ, п'ьр'ив'а́зънъ* ***ша́л'към'и****.*

Таким образом, «обычаи способствуют сохранению преемственности в национальном развитии, приданию культуре, образу жизни национального колорита. Все эти факторы нашли свое отражение в обрядах. Именно обряд позволяет человеку ощутить себя в единстве с семьей, обществом, природой, космосом, мирозданием. Из всех обрядов жизненного цикла такое единение передает свадебный обряд» [8, 112]. Изучение лексики русского островного говора Азербайджана дало возможность получить представление об общей структуре русского свадебного обряда, его частях и последовательности. В ходе проведенного исследования было выявлено **98** лексических форм, относящихся к свадебному обряду. В рамках данной статьи приведено **76** примеров.

Литература

1. Алабугина Ю.В. Толковый словарь русского языка для школьников с приложением. М.: АСТ, 2016, 639 с.
2. Алехина Н.В., Сорокина Е.С. Русский свадебный обряд: история и современность. // Школа университетской науки: парадигма развития. S.l., 2015, № 1 (15), с. 56-60.
3. Беловинский Л.В. Российский историко-бытовой словарь. М., 1999, 528 с.
4. Бикметова Н.В. Семантика свадебного обряда русский поселений побережья реки Самары. // Известия Самарского научного центра Российской академии наук. Том 11, 2009, № 4 (6), с. 1626-1630
5. Буквица. Пособие по древнерусскому языку. М., 2014, 176 с.
6. Гулиева Л.Г., Гейдарова Э.А. Лексикон русского островного говора Азербайджана. Баку: Авропа, 2014, 498 с.
7. Зорин Н.В. Русский свадебный ритуал. М.: Наука, 2004, 248 с.
8. Кузьмина О.В. Социокультурная динамика свадебного обряда в процессе формирования городской субкультуры. // Вестник Кемеровского государственного университета культуры и искусств: журнал теоретических и прикладных исследований. Кемерово, 2007. Вып. 2, с. 112-115.
9. Малая советская энциклопедия. В 10-ти томах. / Главный редактор Н.Л. Мещеряков. М., 1931, том 5, 958 с.
10. Морковкин В.В., Богачёва Г.Ф., Луцкая Н.М. Большой универсальный словарь русского языка. М.: АСТ-ПРЕСС КНИГА, 2016, 1456 с.
11. Петрова А.С. Русская свадьба: вчера и сегодня // Народы Евразии. История, культура и проблемы взаимодействия: материалы II международной научно-практической конференции 5-6 апреля 2012 года. Пенза-Баку-Белосток: Социосфера, 2012, с. 51-62.
12. Русские традиции. Правила хорошего тона. М., 2015, с. 304.
13. Ушаков Д.Н. Большой толковый словарь русского языка. Современная редакция. М.: ООО «Дом Славянской книги», 2011, 960 с.

E.Heydərova

Rus toy mərasimi
(Azərbaycandakı rus şivələrinin materialı əsasında)

Xülasə

Məqalə ömrü ayinlərin birinə, dəqiq desək toy adətlərinə həsr olunub. Hal-hazırda təqvim-mərasim folkloruna maraq artıb. Tədqiqatçıları maraqlandırır ki, ayrı-ayrı ərazilərdə hansı adət-ənənələr olmuşdur. Elmi iş Azərbaycandakı rus şivələrinin materialı əsasında aparılıb. Təhlilə səbəb 2014-cü ildə həsr olmuş «Azərbaycandakı rus şivələrinin leksikonu» adlı lüğəti olmuşdur. Kitab, keçmiş əsrin 50-ci illərindən başlayaraq, rus kəndlərinə aparılan dialektoloji ekspedisiyaların nəticəsində yaranıb. Toy mərasimi ilə bağlı adətlərinə diqqət yetirilir. Ilk dəfədir ki tədqiqat bu çərçivədə aparılır. Təhlil zamanı toy adətlərinə aid 98 leksik forma aşkar olunub. Təqdim olunan məqalədə 76 misal göstərilir.

E.Heydarova

Russian wedding ceremony
(on material of the Russian island dialect of Azerbaijan)

Summary

In article one of ceremonies of life cycle - a wedding ceremony is considered. Today interest in calendar ceremonially folklore has increased. Scientists seek to find out what traditions existed in one or another locality. The Russian island dialect of Azerbaijan has served as material of the real research. The analysis was carried out on the basis of "A lexicon of the Russian island dialect of Azerbaijan" published in 2014. The dictionary is made on materials of the card file including lexicon, collected, since the beginning of the 50th years of the last century during the dialectological expeditions to the Russian villages of Azerbaijan. In work the traditions accompanying a wedding ceremony are considered. In similar aspect the research is conducted for the first time. During the carried-out analysis 98 lexical forms relating to a wedding ceremony have been revealed. Within this article 76 examples are given.

Rəyçi: Lalə Quliyeva
filologiya elmləri doktoru, professor

RAHİMA MAMMADOVA
ASOIU
rus.fat.126@gmail.com

ASSESSMENT TYPES AND TESTS

Açar sözlər: qiymətləndirmək, qiymətləndirmə testi, növlər, sınaq, formal, informal, təhsil alan
Key words: assess, assessment testing, types, test, formal, informal, learner
Ключевые слова: оценивать, тест оценивания, типы, тест, формальный, неформальный, обучающийся

The learners are assessed for different reasons. Mainly we assess learners formally or informally. First of all we must identify what is testing and assessment.

Testing is one way, and one way only, of finding out about the performance or progress of learners. Examples would include giving learners a picture dictation (this gives us information about listening and spelling) giving them to correct the error text (this gives us information about writing, spelling, vocabulary, grammar), or a giving matching exercise (this gives us information about reading, listening comprehension, vocabulary, grammar).

Assessment refers to the different ways we can measure our learners' progress or performance. We can measure progress or performance, for example, by observing learners' work in class, asking them what they find easy or difficult testing them or by looking at their homework. So, after defining testing and assessment let's consider some types of tests.

Achievement test measures what learners have learnt on a language course – usually given at the end of the course. Learners usually receive a score or mark from this kind of testing. Diagnostic test identifies learners' strengths and weaknesses, helps teachers to make decisions on what needs to be taught. This kind of test is given at the beginning of a course.

Objective test scored according to right or wrong answers, non-judgmental on part of examiners. In objective test there is only one right or wrong answer. Multiple-choice, true/false, gap-fills, matching tasks are objective tasks. The advantage of objective tests is that they are quick to mark, because the results are accurate. Subjective test compared to objective tests, the examiner judges learners' answers. Role-plays, essays, interviews, group discussions, compositions are considered to be subjective tasks.

Placement test is used before the beginning of courses to determine learners' language levels and based on this information place them in the

classes most appropriate for them. Oral test commonly measures learners' speaking abilities. Proficiency test measures language ability and based on what is needed for a particular purpose. This kind of tests are not based on a course or syllabus that the learner has followed. The test measures the learner's general skill or ability in the language as a whole (e.g. English for mechanics, English for secretaries).

Progress test measures learners' progress during a language course. This kind of test looks back over a recent block of the syllabus, e.g. a unit from the course book. Summative test is given at the end of a year or course for measuring learners' overall achievement of course objectives. Learners usually receive a score or mark at the end of a term or year. We can conclude that there are different kinds of tests to examine learners' knowledge.

But how are learners' knowledge assessed? In order to clarify this question one should know types of assessments. We can mention that there are different assessments for different testing.

In continuous assessment learners are assessed regularly throughout their course, to provide both teachers and learners information on what they can do and identify any areas of weaknesses.

Formal assessment/evaluation involves the use of tests given to all learners in an institution studying at the same level. Learners receive a grade or score which indicates whether they have passed or failed. Diagnostic, placement, progress, summative, proficiency tests are formal testing assessment. Formative assessment/evaluation is developmental. It provides information about learners' understanding and helps to identify problems and give feedback to learners on what they need to do to improve. It is not graded pass or fail. Informal assessment/evaluation is subjective. It is often carried out during normal lesson activities. Teachers observe learners carrying out tasks and make judgements on how well they are performing. Informal assessment is often used with young learners as they may not respond well to formal assessment. That is why we can see that informal assessment is formative. In peer assessment/evaluation learners provide feedback to their classmates on their work. In self assessment/evaluation learners monitor their own progress, they can assess themselves and decide how well they are doing and which aspects they need to work on. The reason for using both peer and self assessment is to help learners to understand their language use better and so become more autonomous.

Portfolio assessment is learner's work throughout the term. This is a collection of learners' work done during the course, the learner puts them together during or at the end of the course and presents to the teacher.

When a teacher is assessing informally assessment criteria is used to help with the assessment. For example speaking involves the following sub skills of:

- fluency
- using language accurately
- using language appropriately
- interactive strategies
- pronunciation
- vocabulary range
- discourse organization.

Speaking about assessment we must speak about assessment task types.

1. Cloze is comprehension exercise, involving a text with words deleted which learners

replace. You can assess vocabulary, grammar, possibly spelling from this task. Reading or listening clozes are both possible and so possible to some extent to assess reading or listening skills as learners need to be able to understand context in order to do cloze tasks.

2. Matching involves making links between e.g. words and definitions, such as previous activity. You can assess vocabulary, grammar (e.g. questions and answers, half sentences) reading , and possibly listening skills.

3. Open comprehension questions involve answering questions following reading or listening. You can assess listening or reading skills.

4. Multiple choice involves choosing one correct answer from a set of possibilities. Reading and listening skills can be assessed by this type of task.

5. Gap-fill. It is similar to cloze tasks. In cloze words are deleted at regular intervals. In gap-fill the words can be deleted in a more strategic fashion (e.g.verbs, nouns, pronouns etc).

6. An essay. You can assess writing skills, ability to organize and structure ideas, vocabulary, grammar, spelling, handwriting.

7. A role play. Speaking skills, pronunciation, listening, reading, writing and non-linqyistic aspects such as social skills can be assessed by this task.

Here are some task types often used in formal assessment.

Reading: true/false questions, yes/no questions , multiple-choice questions , open comprehension questions, information transfer, e.g. table comprehension, ordering pharagraphs, choosing titles for texts or paragraphs cloze tests. Listening: true/false questions, yes/no questions, multiple-choice questions, open comprehension questions, information transfer, e.g. table comprehension, listen and complete the gaps/sentences, tick the word/sentence you heard, following instructions for mapping a route/drawing a picture, etc., choose the adjective/picture/diagram, which best describes what you heard,

dictation. Grammar: multiple-choice questions , sentence/dialogue completion, transformation exercises, error correction, gap-filling. Writing: copying, jumbled words, labelling, form filling, sentence/dialogue completion, completing the middle/end of a story, story writing, picture/diagram description, writing essays/compositions/emails/letters/postcards/reports. Speaking: repeating words/sentences, responding to prompts/functions, describing pictures/objects/films, giving short presentations, discussions, interviews, role-play, problem-solving in groups. Vocabulary: labelling, categorising, word-building, word maps/mind maps (diagrams showing relationships between words in the same lexical set), matching, odd one out, finding/giving synonyms/antonyms/definitions/lexical sets. Unlike formal assessment, informal assessment does not use assessment tasks and is rarely used to give the learner a grade, as that is not the purpose of informal assessment. Informal assessment is also generally less reliable or accurate than formal one.

Literature

1. Mary Spratt, Alan Pulverness, Melanie Williams.The teachung knowledge test course. Cambridge University Press, 2011, 256 p.
2. Mary Spratt. English for the teacher. Cambridge University Press, 1994.
3. Jim Scrivener. Learning teaching. Macmillan, 2005.
4. Jill and Charles Hadfield. Simple writing activities.Oxford University Press, 2001.
5. Stuart Redman. English Vocabulary in Use. Pre-intermediate and intermediate.Cambridge University Press, 2003.
6. Penny Ut. A Course in language teaching. Cambridge University Press, 1996.

Rəhimə Məmmədova

Qiymətləndirmə növləri və testlər

Xülasə

Təqdim olunmuş məqalədə qiymətləndirmə növləri və testlər araşdırılır. Məqalədə qiymətləndirmə növləri ayrı-ayrılıqda təhlil edilir. Qiymətləndirmənin formal, qeyri-formal, davamlı, qarşılıqlı, öz-özünü qiymətləndirmə və s. növləri vardır. Bunlardan əsasən formal qiymətləndirmədə eyni səviyyədə və eyni ali məktəbdə təhsil alanlara testlər verilərək qiymətləndirilmə aparılır. Bu qiymətləndirmə zamanı təhsil alanlar bal toplayaraq və ya dərəcə alaraq ya imtahandan keçirlər, ya da keçmirlər. Qeyri-formal qiymətləndirmə növündə isə

dərs prosesində müəllim təhsil alanlara verilmiş tapşırıqların necə yerinə yetirilməsini müşahidə edir. Qarşılıqlı qiymətləndirmə (yoxlama) zamanı təhsil alanlar öz yoldaşlarının işlərinə rəy (qiymət) verirlər. Özünü qiymətləndirmə növündə təhsil alanlar dərs prosesində əldə etdikləri nailiyyətləri qiymətləndirir, nəyi öyrənməyə ehtiyac olduğunu özləri üçün müəyyən edirlər. Davamlı (kurs boyu aparılan) yoxlama zamanı təhsil alanlar müntəzəm olaraq bütün kurs boyu qiymətləndirilirlər. Bu yoxlama növündə müəllimin təhsil alanların nədə çətinlik çəkdiyini aşkar etməyə imkanı olur. Qiymətləndirmə növlərinə uyğun olaraq təhsil alanlara müvafiq testlər (yoxlama işləri) verilir.

Рахима Мамедова

Типы оценивания и тесты

Резюме

В статье описываются типы и тесты оценивания. Типы оценивания анализируются по отдельности. Известны следующие типы оценивания: формальное, неформальное, постоянное, взаимное, само-оценивание и др. Формальное оценивание, в основном, проводится для обучающихся имеющих одинаковый уровень знаний, а также обучающихся в том же ВУЗе, с помощью тестов. Во время этого оценивания обучающиеся сдают (или не сдают) экзамен набрав балы или же получив степень.

В неформальном оценивании в процессе обучения преподаватель наблюдает за выполнением заданий данных обучающимся.

В процессе взаимо-оценивания обучающиеся оценивают работы своих однокурсников. Во время само-оценивания обучающиеся оценивают свои достижения и определяют свои потребности приобретении новых знаний и навыков. В течении постоянной проверки обучающиеся регулярно оцениваются. Во время такого оценивания становится возможным определение затруднений обучающегося. Тесты (контрольные работы) выдаются студентам в соответствии с типами оценивания.

Rəyçi: dosent Fəridə Hüseynova

İLAHƏ SEYFULLAYEVA
filologiya elmləri namizədi
Lənkəran Dövlət Universiteti
ilaha@mail.ru

ƏRƏB MƏNŞƏLİ SÖZLƏRİN AZƏRBAYCAN DİLİNDƏ SEMANTİK DƏYİŞİKLİKLƏRİ

Açar sözlər: alınma sözlər, ərəb alınmaları, leksik məna, semantik dəyişiklik
Ключевые слова: заимствованные слова, арабские заимствования, лексическое значение, семантические изменения
Keywords: loanwords, Arabic borrowings, lexical meaning, semantics changes

Müasir Azərbaycan dilinin mənşə etibarı ilə lüğət tərkibinə nəzər saldıqda burada əsil Azərbaycan sözləri ilə yanaşı, dilimizə başqa dillərdən keçmiş sözlərin də mühüm yer tutduğunu müşahidə etmək olur. Dilimizə başqa dillərdən keçən sözlər ərəb sözləri, fars sözləri, rus dili və rus dili vasitəsi ilə başqa dillərdən keçən sözlər qrupları adı altında təsnif edilir. Müasir Azərbaycan dilinin lüğət tərkibində başqa dillərdən alınan sözlər içərisində ərəb alınmaları üstünlük təşkil edir. Ərəb dilindən Azərbaycan dilinə keçən bəzi sözlərin mənimsənilməsi zamanı onlarda bir sıra fonetik, semantik və qrammatik dəyişikliklərin baş verdiyini görmək mümkündür. Ərəb mənşəli sözlərin dilimizdə məruz qaldığı semantik dəyişikliklər sırasında mənanın tamamilə dəyişilməsi, mənanın genişlənməsi və mənanın daralması kimi hallar müşahidə edilir. Qeyd etdiyimiz semantik dəyişikliklərin hər biri Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində ərəb alınmalarının oynadığı rolunun müəyyən edilməsi baxımından aktuallıq kəsb edir.

Müasir Azərbaycan dilində işlədilən ərəb mənşəli sözlərin bir qismi dilimizdə semantik dəyişikliyə məruz qalaraq mənbə dildə ifadə etdiyi mənasını tamamilə dəyişmiş və yeni leksik məna kəsb etmişdir. Həmin sözlərə bir neçə misal göstərək:

Ərəb dilində *"vərəm"* sözü "sismə, şiş (xəstəlik)" mənasını ifadə edir. Müasir Azərbaycan dilində isə bu söz öz mənbə dildəki semantik çalarından tamamilə uzaqlaşaraq tibbi termin kimi "ağ ciyərdə və bəzən bədənin başqa hissələrində Kox mikrobu adlanan xüsusi mikrobun törətdiyi yoluxucu xəstəlik" mənasını ifadə edir, məsələn: "Vərəm mikrobu, sümük vərəmi, ciyər vərəmi" və s. (1; I c. s.363).

"Bələd" sözü ərəb dilində 1)ölkə; 2)vilayət; 3)şəhər" mənalarını ifadə edir. Müasir Azərbaycan dilində isə bu söz "1) bir adam, iş və s. ilə yaxşı tanış

olan; bilən; 2) bələdçi" mənalarını ifadə edir. (1; I c. s. 244). Məsələn: "Amma indi özünüz arvadların xasiyyətlərinə bələdsiniz" (Ə.Haqverdiyev)." Aman lələ, yada düşdü vətənim; Bələd yoxdur göstərəydi yol mənə" (Aşıq Kərəm).

Ərəb dilində *"qəbz"* sözü "1) tutma, ələ alma; 2) əl sıxma; 3) həbs etmə" mənalarında işlədilir. Müasir dilimizdə isə bu söz "pul, qiymətli şey və sairənin alınması, qəbul edilməsi haqqında verilən kağız, sənəd" mənasında işlədilir (1; I c. s.465). Məsələn: "Bostan pulunu mən istəyəndə, mənə qəbz göstərdilər" (N.Vəzirov).

"Zarafat" sözü ərəb dilində "zərafət" şəklində işələnərək "1) hazırcavablıq; 2) gözəllik, qəşənglik, zəriflik, incəlik" mənalarına malikdir (2; s. 623). Bizim dilimizdə isə bu söz " gülmək, əylənmək və dilxoşluq üçün deyilən söz və ya edilən hərəkət; hənək" mənasını ifadə edir (1; IIc; 321). Məsələn: "Bəndalı əvvəllər başa düşmür, Məşədi Hüseynin sözlərini zarafat ya bir xoş söz-söhbət sayırdı" (Mir Cəlal). "Kələntərli həmişə dara düşəndə olduğu kimi, indi də zarafata əl atdı" (İ. Hüseynov).

Ərəb dilində *"ətalət"* sözü "işsizlik" mənasında işlədilir (2; 669). Müasir dilimizdə isə bu söz " hərəkətsizlik, fəaliyyətsizlik, süstlük, boş durma; tənbəllik" mənalarını ifadə edir (1; II c. 298). Məsələn: "Həvəs sövq eylər insanı həyatə; Ətalət cəlb edər şəxsi məmatə" (M.Ə.Sabir). "İsti və bürkü adamlarda tənbəllik, ətalət əmələ gətirmiş və onlar harada isə gizlənmişdilər" (S.Rəhman).

"Avam" sözü ərəb dilində "1) ümumilik, ümümi; 2) kütlə, (sadə) xalq" mənalarını ifadə edən "ammətun" sözünün cəm formasıdır (2; 689). Müasir Azərbaycan dilində isə bu söz " cahil, geridə qalmış, oxumamış, savadsız; sadədil, sadəlövh" mənalarında işlədilir (1; I c; s.29). Məsələn: "Naçanlik Qurbanəli bəyə cavab verdi ki, Kərbəlayı Qasım qanmır, avamdı" (C. Məmmədquluzadə). "Usta, məni o qədər də avam hesab etmə. Mən zəmanəmizin qədrini yaxşı bilirəm" (H. Mehdi).

Ərəb dilində *"iltihab"* sözü "1) alovlanma , artma (duyğu, istək, arzu və s.); 2) alışma, işıldama" mənalarını ifadə edir (2; 126). Müasir dilimizdə isə bu söz tibbi termin kimi işlənərək "bədənin bir yerində qızdırma, şiş, qızartı şəklində təzahür edən xəstəlik prosesi" mənasına malıkdir (1; IIc; s. 392). Məsələn: "Ağ ciyər iltihabı", "iltihab prosesi", "boğazında iltihab var" və s.

Ərəb dilində *"qəltan"* sözü "1) diyirlənən, yuvarlanan; 2) yumru, girdə, dəyirmi; 3) bulanan" mənalarını ifadə edir (2; 729). Azərbaycan dilində isə bu söz adətən "qanına qəltan olmaq (etmək)" yaxud "al qana qəltan etmək" şəklində işlənir və qanına boyanmaq (boyamaq)" mənasını ifadə edir (1, I c., s. 477). Məsələn: "Əgər biriniz yaxın gəlsəniz, al qana qəltan edəcəyəm" (Talıblı).

"Qərib" sözü mənbə dildə "I 1) doğma; 2) qohum; II. yaxın, uzaqda olmayan" mənalarında işlədilir (2,s. 807). Müasir Azərbaycan dilində isə bu söz "1) yad yerdə olan, qürbətdə yaşayan, özgə yerli, gəlmə; 2) yad, özgə, tanış olmayan; 3) qərib adam; 4) kimsəsiz, biçarə, yazıq, zavallı; 5) həzin, hüzn gətirən; 6) qəribə" mənalarını ifadə edir (1, I c., s. 486). Məsələn: "Deyirlər ki, qərib yolçu bu yerlərdən keçəndə; Diksinərmiş yırtıcıdan, vəhşi heyvan səsindən" (R.Rza). "Yox, qardaşım, bizi dartıb qərib vilayətə apardığın yetər, daha bunu vermərəm, - deyə, adam dayımın təklifini rədd etdi" (S.S.Axundov). "Burada gecələrin qərib səsi var; Könlümün incə bir kəmənçəsi var" (S.Vurğun). "Qərib qış axşamları yolları qar basanda; At sürüb bir şenliyə, gecələrdim Muğanda" (Ə.Cəmil).

Ərəb dilində *"qərinə"* sözü bir-birindən fərqli bir neçə leksik mənada işlədilir: "1) həyat yoldaşı, arvad; 2) rəfiqə; 3) hal, keyfiyyət, vəziyyət, şərait; 4) ilk şərt, ilk şərait; 5) dəlil, sübut; 6) kontekst" (2, s. 814). Müasir Azərbaycan dilində isə bu söz "əslində 33 illik bir dövr olub, əsr mənasında işlənir" (1, I c., s. 487). Məsələn: "Qərinələrlə məst olub cəhalətə uyuduq! Nə gördük? Nə qazandıq?" (C.Məmmədquluzadə). "Elə bir cahan ki, onun hər anı; Mənalı görünür bir qərinədən" (S.Vurğun).

Ərəb dilində *"damaq"* sözü "dimaq" formasında işlədilir və "beyin; baş" mənalarını ifadə edir (2, s. 331). Müasir dilimizdə isə bu söz omonim kimi işlənərək müxtəlif semantik çalarlar kəsb edir.: "I. 1) ağız boşluğunun üst tərəfi; 2) ağız; 3) (*bayt.*) at və eşşəkdə damaq şişmə xəstəliyi; kəsmə; II kef, əhval, həvəs" (1, II c., s. 27). Məsələn: "Usta papirosu damağına salıb başladı işini" (C.Məmmədquluzadə). "Tez-tez tövləyə adam buraxma ki, at damaq olar" (Ə.Vəliyev). "Qovurmanın iyi Yəhya Kamalı damaq etmişdi" (Mir Cəlal). Onu da qeyd edək ki, *"damaq"* sözü müasir Azərbaycan dilində mürəkkəb (tərkibi) fellərin əmələ gəlməsində fəal şəkildə iştirak edir: damaq *vermək* - "ləzzət vermək, nəşə vermək, kef vermək, nəşələndirmək"; *damaq qoymaq (etmək)* – "nəşəsini pozmaq, arzusunu ürəyində qoymaq"; *damaq sallamaq* – "bikef olmaq, əhvalı olmamaq, dilxor olmaq; küsmək, incimək"; *damaq üstə (damaqda) olmaq* – "kefdə olmaq, kef çəkmək, xoş güzəran keçirmək"; *damaqdan düşmək* – "ruhdan düşmək, kefi pozulmaq, pərt olmaq"; *damaqdan salmaq* – "pərt etmək, kefini pozmaq, ruhdan salmaq, qanını qaltalamaq"; *damağı qalxmaq* – "kefi kök olmaq, nəşələnmək, sevinmək, həvəsə gəlmək"; *damağı yanmaq* – "arzusuna çatmamaq, məyus olmaq"; *damağı gəlmək* – "həvəsə gəlmək, həvəslənmək"; *damağı pozulmaq* – "kefi xarab olmaq, əhvalı pozulmaq, qanı qaralmaq"; *damağı sazlaşmaq* – "kefi açılmaq, könlü açılmaq"; *damağı çatlamaq* – "nəşəyə gəlmək, ruhlanmaq, ruhu yüksəlmək"; *damağı çəkmək* – "ürəyi istəmək, kefinə gəlmək"; *damağına dəymək* – "toxunmaq, ürəyini sındırmaq, küsdürmək, pərt etmək, incik salmaq"; *damağını sallamaq* – "küsmək, pərt olmaq, narazı

qalmaq" və s. (1, II c., s. 27). Məsələn: "Damağını niyə sallayırsan? Barmağından üzüyünü, başından yaylığını aparmıyıb ki?! (S.Rəhimov). "Həmişə damaqda olasan, ay Züleyxa! (M.İbrahimov). "Siz bunu sanmayın həqiqətdir; Damağım gəldi, bir zarafətdir" (M.Ə.Sabir). Bütün qonaqlar damaqlarını salladılar" (Ə.Vəliyev).

"Eyni" sözü ərəb dilində "eyn" sözündən olub "1) gözə aid, gözə məxsus; 2) əhəmiyyətli, mühüm" mənalarında işlədilir (2, s. 710). Müasir dilimizdə isə bu söz "bir-birinə tamamilə oxşar, bir cür, tam, bənzər; oxşarı, tayı, bənzəri, tamamilə özü; başqası yox, həmin, bəlli şeyin özü" mənalarını ifadə edir (1, II c., s. 193). Məsələn: "Sən varlığın eynisən, buna sözmü var? Ürəyisən, beynisən, buna sözmü var?" (M.Müşfiq). "Şənbə günü nahardan üç saat sonra vəzirlər eyni qəsrdə, eyni qayda ilə mister Haroldu qarşıladılar" (M.İbrahimov).

Ərəb dilində *"eyş"* sözü "1) həyat, yaşayış; 2) çörək, qida, yemək" mənalarına malikdir (2, s. 708). Müasir Azərbaycan dilində isə bu söz daha çox "eyş-işrət" formasında işlənərək "kef, zövq-səfa, ləzzətli həyat" mənasını ifadə edir (1, II c., s. 195). Məsələn: "Yoxsullar boğulurkən; Bu qanlı, yaşlı vayda; Xaqan dalmışdır eyşə; Bağlardakı sarayda" (Ə.Cavad). "Güldü gül, açıldı nərgis, lalə doldu jalədən; Ey, xoş ol kim, eyşü-işrət etməyə əsbabı var" (Füzuli).

Müasir Azərbaycan dilində bir sıra ərəb mənşəli şəxs adı bildirən xüsusi isimlər də işlənir ki, bunlar mənbə dildə ümumi isim kimi işlənərək müxtəlif mənalar ifadə edir, məsələn: *Aidə* - "gəlir, mədaxil", *Ayət* – "ayələr", *Aliyə* - "yüksək, uca", *Bəşir* – "şad xəbər gətirən, muştuluqçu", *Məlik* – "padşah, hökmdar", *Abdullah* –" Allahın bəndəsi", *Əzim* – "1) böyük, ulu; 2) ali, yüksək; 3) əhəmiyyətli, çox mühüm" , *Əvəz* – "bir şeyə qarşı verilən və ya alınan şey, qarşılıq", *Məlahət* – "gözəllik, duzluluq", *Əkbər* - "böyük, ulu", *İqbal* – "1) bəxt, tale; 2) işi yaxı gətirmə; birinə üz çevirib baxma; 4) irəli çıxma; 5) yapışma, yaxınlaşma; 6) qəbul, görüş; 7) bir şeyə maraq, həvəs", *Əkrəm* –"kəramətli, comərd"; *Zakir* – "1) qeyd edən, deyən, xatırladan; 2) zikr edən, təsbih və vird ilə məşgul olan", *Əsmər* – "buğdayı, qarayanız", *Zəhra* – "parlaq, çox işıqlı", *Ziya* – "şıq, aydınlıq, nur", *Kərim* – "1) səxavətli adam, comərd; 2) hörmətli adam, möhtərəm şəxs", *Mədinə* - "şəhər", *Əsəd* – "şir, aslan", *İkram* – "1) hörmət, təzim, əzizləmə; hörmət nişanəsi olaraq bir şey bağışlama", *Mehdi* –"doğru yola gəlmiş" və s.

Beləliklə, göstərdiyimiz nümunələrdən də göründüyü kimi, müasir Azərbaycan dilinin lüğət tərkibinə ərəb dilindən daxil olmuş sözlərin bir qismi dilimizdə semantik dəyişikliyə məruz qalaraq tamamilə yeni leksik mənalar kəsb etmişdir. Haqqında danışılan ərəb mənşəli sözlərin ifadə etdikləri yeni semantik çalarlar müasir dilimizdə fəal şəkildə işlənməkdədir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, Azərb. SSR EA Nəşriyyatı, 4 cilddə; I c. 1966; II c. 1980; III c. 1983; IV c. 1987.
2. Баранов Х.К. Арабско-русский словарь. Москва, Государственное издательство иностранных и национальных словарей, 1962.

Илаха Сейфуллаева

Семантические изменения арабских заимствований в азербайджанском языке

Резюме

В словарном составе азербайджанского языка наряду с исконно азербайджанскими словами значительное место занимает заимствованная лексика. В азербайджанском языке арабские заимствования обладают преимуществом среди других заимствований.

Некоторые арабские слова, перешедшие в азербайджанский язык подверглись фонетическим, семантическим и грамматическим изменениям. Среди семантических изменений арабских слов можно показать такие как расширение, сужение смысла и слова, которые совсем поменяли свои первоначальные лексические значения. Каждые из выше сказанных семантических изменений играют актуальность в определении роли арабских слов в обогащении словарного состава азербайджанского языка.

Некоторые арабские слова,употребляемые в современном азербайджанском языке подвергаясь семантическим изменениям потеряли свои значения которые они имели в языке источнике и приобрели новые семантические оттенки.

Ilaha Seyfullayeva

Semantic changes Arabic borrowings in the Azeri language

Summary

Glancing at vocabulary of the Azerbaijan language from the point of view of the origin of words, see can observe that alongside with pure Azerbaijanian words borrowing words are also of great importance. The words of Arabic origin prevail among the other borrowings in our language. It is possible to observe number of phonetic, semantic and grammatical modifications in the word of Arabic origin in the process of their development. Semantic modifications in these words include complete change of lexical meaning of words, as well as expantion and narrowing of the meaning.

Each of these modifications has an important role in determining the role of Arabic words in enrichment of Azerbaijan vocabulary. Some Arabic words used in modern Azerbaijani, which were exposed to modifications, have completely changed their meaning in the source language and acquired new meaning.

Rəyçi: Sevil Mehdiyeva
professor

GÜLNARƏ AĞAYEVA
ADU
Efendizade.gulnare@mail.ru

İSPAN DİLİNDƏKİ FRAZEOLOJİ VAHİDLƏR VƏ MƏCAZİLİYİN TƏRCÜMƏSİ YOLLARI

Açar sözlər: ispan dili, frazeologiya, fərqlər, azərbaycan dili
Ключевые слова: испанский язык, фразеология, различия, азербайджанский язык
Key words: spanish language, phraseology, differences, azerbaijan language.

Frazeoloji birləşmələrin çoxu felə (göz qoymaq, üz vurmaq), az bir qismi isə başqa nitq hissələrinə ekvivalentdir. İkincilər fel olmayan nitq hissələrinin birləşməsindən düzəlmişdir (ağ gün, ağzı göyçək), az bir qismi də daxilində fel olsa da, qeyri-feli məna daşıyır(suyu süzülə-süzülə). Bu bölgüdə ilk ikisi İspan dilində də eynidir, lakin sonuncusu , yəni qeyri-feli birləşmələr yuxarıda qeyd etdiyimiz kimi X.Kasaresin "bağlama" adlandırdığı sözönülərlə düzələn birləşmələrdir. Bu səbəbdən frazeoloji birləşmələr iki yerə bölünür:

1. Feli frazeoloji birləşmələr. 2. Qeyri- feli frazeoloji birləşmələr

Frazeoloji birləşmələr nitqə ifadəlilik, obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidlərindəndir. Belə birləşmələrə sabit birləşmələr də deyilir. Bir qayda olaraq, frazeoloji birləşmələr məcazi mənalı olur. Məsələn: ürəyi düşmək, qəlbinə toxunmaq, özündən çıxmaq, zəhləsi getmək, burnunu sallamaq və s.

Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır:

1. Frazeoloji birləşmələrin tərkibi dəyişməz olur.
2. Bu ifadələr dildə hazır şəkildə mövcud olur.
3. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və ylnız məcazi mənada işlənir.
4. İki və daha artıq sözdən ibarət olurlar.
5. Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşürlər.
6. Əksəriyyəti bir sözlə ifadə oluna bilirlər.
7. Tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olurlar.

Bu birləşmələr dildə hazır olur və biz frazeologizmin tərcüməsini sözbəsöz edə bilmərik. Bu tərcümə zamanı ya həmin ifadənin tərcümə olunan dilə ekvivalenti , ya da daha bənzər ifadəsi tapılmalıdır. Məsələn, *ponerse rojo* İspan dilindəki ifadə qızarmaq deməkdir. Azərbaycan dilində

də qızarmaq utanmaq mənasını ifadə edir. Deməli, hər iki dildə bu frazeoloji birləşmənin söz tərkibi və ifadə etdiyi məna eynidir. Buna baxmayaraq, bir çox hallarda belə tərcümələr daha çətin olur. *No tener blanca* ağ rənglə düzəlmiş frazeoloji birləşmə pulsuz qalmaq deməkir, lakin biz olduğu kimi tərcümə etsək, *ağa malik olmaq* fikri heç nə ifadə etmir. hər bir mədəniyyəti və tarixi inkişaf yolu fərqli olduğundan bu dilçilikdə də öz əksini tapır. Ona görə də hər bir dildə frazeoloji birləşmələrin söz tərkibi fərqli olur, hətta eyni fikri ifadə etsə belə. Məsələn, biz oxşarlığı *bir almanının iki yarısı* deyiriksə, İspan dilində bu, portağalla ifadə olunur.

Frazeoloji birləşmələrin tərcüməsi əsas məsələlərdən biridir. Rənglə bağlı frazeoloji birləşmələri digər dilə tərcümə etdikdə bir çox hallarla qarşılaşa bilərik. Ola bilsin ki, bəziləri həmin dildə olduğu kimidir, bəziləri isə tamamilə müxtəlif sözlərlə işlədilir. Rənglərlə bağlı frazeoloji vahidlərin tərcüməsində digər vahidlərə nisbətən başqa dilə tərcüməsində eynilik olması ehtimalı çoxdur. Rənglər simvolik məna daşıyır, bir rəng bir çox xalqlarda oxşar simvolik məna daşıya bilər. Məsələn, qorxudan insanın rənginin ağarması, utanc hissindən qızarması və s. hallar buna nümunə ola bilər. Ona görə ki bu əlamətlər dünyadakı hər bir insana aiddir. İspan və Azərbaycan dillərindəki eyni fikri ifadə edən məcazi ifadəyə nəzər salaq. İspan dilində *ponerse blanco como el papel* ifadəsi qorxu və ya təəccüb hissindən sonra rəngin ağarması fikrini çatdırır. Azərbaycan dilində də "qorxudan ağ kağıza dönmək" ifadəsini işlədirik. İspan dilindəki bu birləşmənin Azərbaycan dilindəki ifadənin söz tərkibi eynidir- *kağız kimi ağarmaq.*

Yuxarıda qeyd etmişdik ki, frazeoloji vahidlər xalqın adət və ənənələrinin məhsuludur, bu səbəbdən müxtəliflik təşkil edir. Rənglər isə simvolik mənalar daşıdıqlarına görə, onların olduğu ifadələr dünyanın bir çox dillərində eyni fikri ifadə edə bilir. Digər bir söz birləşməsinə nəzər yetirək. *No distinguir lo blanco de lo negro* ifadəsininin tərcüməsi ağla qaranı ayırd edə bilməmək şəklindədir. Bu tərcüməni sözbəsöz etdik, halbuki frazeoloji vahidlərdə bu yolverilməzdir. Bu cür tərcümə etməmizin və sözlərin eynilik təşkil etməsinin səbəbi rənglərdir. Dünyanın hər bir yerində ağ və qara ziddiyyət təşkil edir, eyni zamanda ifadə etdikləri mənalar da biri digərinə qarşı qoyulur. Qara rəng də ağdan fərqli olaraq, uğursuzluğu ifadə edir və onun olduğu məcazi birləşmələrdə də bu fikir əks oluna bilər. Bir çox xalqlarda qara bədbəxtçilik simvolu olduğundan frazeoloji birləşmələrdə də bu hala rast gələ bilərik. *Tener la negra* frazeoloji vahidini Azərbaycan dilinə tərcümə etmək asandır, çünki hər iki dildə "qara" sözü ilə yaranan məcazi birləşmə qarabəxtli, başqa sözlə desək bəxtiqara olmaq fikrini çatdırır. Rənglərlə bağlı digər frazeoloji birləşmənin nümunəsinə nəzər salaq. Hər bir insan utandıqda və ya həyəcan hissi keçirdikdə rəngi qıza bilir. Bu

səbəbdən "qızarmaq" məcazi məna ifadə edən birləşmələr də bir çox dillərdə mövcuddur. İspan dilində *ponerse rojo como un tomate* ifadəsinin tərcüməsi pomidora dönmək və ya pomidor kimi qıpqırmızı olmaqdır. Bu frazeoloji birləşmənin də hər iki dildə eyni sözlərlə ifadə olunmasının səbəbi yenə də rənglərin simvolik məna daşımasıdır.

Frazeoloji birləşmələr hər bir dildə mövcuddur və bir fikir hər bir dildə müxtəlif sözlərlə ifadə edilir. Bu səbəbdən deyirik ki, frazeoloji vahidlər dildə hazır olur və sözbəsöz tərcüməsi düzgün hesab edilmir. Yuxarıda biz İspan və Azərbaycan dillərdində bəzi frazeoloji vahidlərin oxşar tərcümə və söz tərkibindən danışdıq. Lakin bu nümunələr elə də çox deyil. Sabit söz birləşmələri olduğundan hər hansı bir məna kəsb edən frazeoloji birləşmə başqa dildə müxtəlif sözlərlə yaranır. Rənglərlə işlənən bir neçə məcazi söz birləşmələrinə nəzər salaq və təhlil edək. *Pasar(se) la noche en blanco* frazeoloji birləşməsinin mənası heç yata bilməmək və ya gecə narahat yatmaqdır. Sözbəsöz tərcüməsi isə "gecəni ağ içərisində keçirmək" deməkdir. Gördüyümüz kimi, bir frazeoloji birləşməni başqa dilə tərcümə edərkən nə qədər maneələrlə rastlaşmaq olur. Mətni görmədən bu ifadəni tərcümə etsək fikri tamamilə yalnış çatdıra bilərdik, çünki bu bizə ilk baxışdan adi ardıcıl sözlər kimi görünə bilər. Bu səbəbdən tərcümə etdiyimiz dilin tarixini və mədəniyyətini də bilməliyik, çünki bütün bunlar dildə əks olunur. Nümunədə göstərdiyimiz *pasar(se) la noche en blanco* frazeoloji birləşməsini mənşəyi də İspan tarixi proseslərinin məhsuludur. İspan xalq etimologiyasına görə,silahlı zadəgan adı qazanan gənclərə simvolik olaraq ağ paltar hədiyyə edilirmiş və həmin gecə onlar bu geyimdə yatırdılar. Həmin ağ paltarda yatmaq çox narahat olduğundan demək olar ki, heç gözlərini yuma bilmirdilər. Bu səbəbdən *pasar(se) la noche en blanco* ifadə əmələ gəlib və gecəni narahat keçirmək kimi tərcümə edilir. Azərbaycan dilində isə belə bir ənənə mövcud olmamış, ümumiyyətlə krallıq dövrü keçirməmişdir. Deməli, frazeoloji birləşmələr tarixi təkamülün də nəticəsi hesab olunur. Fikrimizi təsdiq etmək üçün başqa söz birləşməsinə nəzər salaq. Orta əsrlərdə texnologiya və nəqliyyat çox tərəqqi etmədiyindən idxal və ixrac işləri də çətinliklə olurdu. Həmçinin Çin ölkəsi İspaniyanın çox uzaqlığında yerləşir. Çindən çox nadir hallarda Avropa ölkəsinə, eyni zamanda İspaniyaya nəsə gəlib çıxardı. Gəlsə belə böyük bir təəccübə səbəb olardı. Buna görə də *naranjas de Chinas* , yəni Çin portağalı İspan dilində təəccüb bildirən ifadə olmuşdur. Hər hansı hadisə və xəbər təəccüb doğurduqda *naranjas de Chinas* ifadəsi işlədilir. Yəni bu xəbərə inanmaq o vaxtkı dövrdə Çindən portağalın gəlməyinə inanmaq deməkdir. Azərbaycan dilində isə belə bir söz birləşməsi mövcud deyil, bizim üçün heç vaxt portağal və Çinin eyni cümlədə işlənməsi təəccüb ifadə edə bilməz. Biz bu söz birləşməsini görsək, adi II növ təyini söz birləşməsi- Çin portağalı kimi

başa düşə bilərik. Belə bir nəticəyə gələ bilərik ki, frazeoloji vahidlər nəinki xalq dəyərləri və mədəniyyəti, eyni zamanda tarixi proseslərin və coğrafi mövqeləri də əks etdirir.

Frazeoloji vahidlərdə işlədilmiş rənglərin təhlili linqvistikada semantik kodlaşdırma proseslərinə dair tükənməz məlumat mənbəyi ola bilər. Rənglərdən yararlanmış frazeologizmlər də bir çox dilə tərcümədə eyni fikri məhz rənglərlə ifadə edir. Məsələn, ispan dilində mövcud olan bir məsələ təhlil edək:

De noche todos los gatos son pardos.

Gecə vaxtı bütün pişiklər tünddür, yəni qaradır. Biz insanlar işıq olmayan yerdə hər hansı obyeki ayırd etməkdə çətinlik çəkirik və ya heç nə görə bilmirik. Bu fikir yalnız ispan dilində danışan xalqa mənsub deyil, elə bizim ana dilimizdə də belə bir məsəl mövcuddur:

Gecə qara cücə qara.

Hər iki misal eyni fikri bizə çatdırır, yalnız burada subyektlər fərqlidir. Ispanlar pişik (gato) biz isə cücə ilə müqayisə etmişik.

Frazeologiya tərcüməsi yalnız mədəni dəyərləri əsas götürməməli, eyni zamanda bu məcazların cəmiyyətdəki işlənmə yerini və tərzini müəyyən etməlidir. Məcazi ifadələrin tərcüməsində dil və mədəniyyət faktorundan bəhs edərkən, onları bəzən birgə götürür, bəzən də qarşı-qarşıya qoyurlar. Hər bir cəmiyyətdə müxtəlif streotiplər olduğundan, heç vaxt bir mədəniyyət o biri ilə eyni ola bilməz.Bir çox frazeoloji vahidlər tərcümə edilmir, sadəcə "məcaziləşir" ki, fikir anlaşılsın və mətndə özünə yer tuta bilsin. Bəzən sadəcə mədəniyyət faktoru da kifayət etmir, tarix şəraiti də bilmək lazım gəlir. Məsələn, elə frazeoloji vahidlər var ki, *corrida de toro, yəni öküz yarışları ilə* əlaqəlidir. Bu ənənəvi mərasim yalnız İspan xalqına aiddir. " Ver los toros desde la barrera" ifadəsi buna nümunədir. Öküz yarışları ilə əlqədar olan bu ifadə İspan xalqının qədim ənənəsinin tarixi məhsuludur. Hər hansı təhlükəli işdə kənarda dayanmağı üstün tutmaq fikrini çatdıran bu söz birləşməsi, "öküzləri balkondan izləyərəm" kimi hərfi tərcümə etmək olar. İspaniyada öküz yarışlarından xəbəri olmayan tərcüməçi bunu olduğu kimi tərcümə etsə, oxucuya heç nə aydın ola bilməz, hər halda "öküzləri izləmək" fikrinin özü anlaşılmaz olar. "A toro pasado" ismi birləşməsi də öküz yarışı ilə bağlı məcazi ifadədir. Frazeoloji birləşmələrin tərcüməsində bu sadaladıqlarımızdan əlavə, din və onun tarixi də əsas götürülə bilir, çünki din xalq mədəniyyətinin bir hissəsini təşkil edir.

Nyumarkın fikrincə, tərcüməçinin məlumat xarakterli mətnlərdə məcazi mənalı ifadələri ixtisar etmək hüququ var. Nyumark məcazi birləşmələrin tərcümə üsullarını bu şəkildə qeyd edir:

1. Tərcümə olunan dildə həmin obrazı formalaşdırmaq, təsəvvür yaratmaq. Bu metod sadə məcazları, metofolara şamil edilir.

2. Tərcümə edilən dildəki məcazı hədəf dildəki obrazla əvəz etmək. Burada artıq ifadələrin növünü, aktuallığını qoruyub-qorumadığını nəzərə almaq lazımdır.

3. Obrazı saxlamaqla, oxşar metafora yaratmaq. Ən asan çevirmə üsuludur.

4. Məcazı öz mənasına daha oxşar metafora ilə tərcümə etmək. Bu üsul məcazın daha yaxşı işıqlandırılmasını nəzərdə tutur.

5. Mənanın azalması. Mətnin növündən asılı olaraq, metafora tərcümə olunan dilin məcazları ilə əvəz edilir.

6. Sonuncusu, məcazın ləğvi. Məlumat xarakterli mətnlərdə bəzi obrazlı ifadələr çıxarıla bilir.

Frazeologiya öz məna quruluşu ilə də zəngindir. Biz bu quruluşa *frazeoloji variantlar, çoxmənalı frazeoloji vahidlər, frazeoloji omonim,sinonim və antonimləri* aid edə bilərik. Dilimizdəki frazeoloji vahidlərin xeyli hissəsinin leksik tərkibi və komponentləri arasındakı sintaktik əlaqə,əsasən, dəyişməzdir. Buna görə də belə sabit birləşmələr ancaq bir formaya malikdir. Mənaca frazeoloji vahidlərə qarşılıq olan, yəni başqa sözlərin sabit birləşməsindən ibarət olub , bunlardan hər hansının əvəzində işlənən frazeoloji vahid yoxdur. Lakin bəzən bir sıra frazeoloji vahidlərin ifadə etdiyi məna eyniylə qalmaqla, leksik tərkibi, komponentləri arasındakı sintaktik əlaqənin səciyyəsi və bəzi başqa əlamətləri etibarilə bir-birindən fərqlənən iki, üç, hətta daha çox forması mövcuddur. Məsələn, hər hansı bir işin yerinə yetiriləcəyi ilə əlaqədar olaraq təsdiq və ya inkarda işlətdiyimiz *ağlına batmaq* sabit söz birləşməsi ilə yanaşı, eyni mənada *beyninə batmaq* frazeoloji vahidi də vardır. Gördüyümüz kimi, bu söz birləşmələrinin hər ikisində son komponent *batmaq* sözündən ibarətdir. Bu sabit birləşmələr komponentləri arasındakı sintaktik əlaqənin səciyyəsinə görə də eyni qrammatik formaya malikdir. Dildə eyni mənanı ifadə etmək üçün frazeoloji vahidin leksik, leksik-qrammatik , qrammatik cəhətdən dəyişikliyə uğramasına *frazeoloji variasiya,* bunun əsasında yaranan belə sabit birləşmələrə isə *frazeoloji variantlar* deyilir.[1,148]

İspan dili də frazeoloji variasiyalarla çox zəngindir. Bunun səbəbi isə İspan dilinin iri coğrafi miqyası əhatə etməsidir. Azərbaycan dilində də bu hala rast gəlsək də, İspan dilində frazeoloji variasiyalara çox nümunə çəkmək olar. Hətta bu variasiyalara bir neçə qrupa da bölmək olar, çünki İspan dili yalnız İspaniyada deyil, eyni zamanda Cənubi Amerika qitəsi ölkələri, ABŞ-da danışda danışılan dildir. Dilin istifadə imkanı nə qədər çox olarsa, frazeoloji vahidlərin variasiyaları da o qədər geniş yayıla bilər. Məsələn, bu frazeoloji variasiyalar *ümumi* (bütün İspan dilli ölkələrdə), *yerli* (yalnız İspaniya işlənən), *Amerikan* (Amerika qitəsi ölkələri) və *məhdud* (təkcə bir ölkədə olan) qruplarına bölmək olar. Azərbaycan dilində bu cür

variasiya qrupları sadalamamağımızın səbəbi isə bizim dilin İspan dilinə nisbətən daha az işlənmə dairəsi olmasıdır. İlk adını çəkdiyimiz *ümumi frazeoloji variasiyaları* demək olar ki, bütün İspan dilli xalqlar başa düşür və istifadə edir. Məsələn, *caerse de sueño* frazeoloji variasiyasını bütün İspan dilli ölkələrin xalqları başa düşür. "Yuxusu tökülmək" anlamına gəlir və yuxusu gəlmək frazeoloji birləşməsinə variantdır. Maraqlıdır ki, bu nümunəni Azərbaycan dilinə də şamil edə bilərik, çünki "yuxusu gəlmək" sabit söz birləşməsinin frazeoloji variasiyası "yuxusu tökülmək" hesab edilə bilər. İspan dilindəki başqa bir *ümumi frazeoloji variasiyanı* təhlil edək- *poner la mesa*. Bu söz birləşməsi də haqqında bəhs etdiyimiz *caerse de sueño* söz birləşməsi kimi, hər bir İspan dilində danışan şəxsin istifadə etdiyi variasiyadır. Azərbaycan dilində də belə bir ifadə mövcuddur və biz ona "süfrə açmaq" deyirik. Hər iki dildə də bu frazeoloji variasiyada yalnız söhbət süfrədən deyil, eyni zamanda yemək üçün stol hazırlamaq dan gedir. İstər Amerika qitəsindəki İspan dilli ölkələr, istərsə sə İspaniyada *poner la mesa* ümumi variasiyası istifadə edilir. İkinci qrup isə *yerli frazeoloji variasiyalardır.* Adından göründüyü kimi, yalnız İspaniyada, yəni kasteyano dilində istifadə edilən frazeoloji variasiyalardır. Buraya biz *estar sin dinero- pulsuz qalmaq* frazeoloji birləşməsini şamil edə bilərik. Bu frazeoloji vahidin yalnız İspaniyada istifadə edilən *estar sin blanca, quedarse sin blanca* kimi variasiyaları vardır. İstifadə dairəsi yalnız Amerika qitəsi ölkəsi olan frazeologizmlərdir. Bunların bir çoxlarının kasteyanoda oxşarını tapmaq mümkün deyil. *Ser uña y mugre* frazeoloji birləşməsi Meksika, Panama, Venesuela, Çili və Boliviyada istifadə edilir. İspaniyada işlədilən *ser uña y carne* frazeoloji vahidin variasiyasıdır. İspan dilindəki bu frazeoloji vahid bizim dildəki "ətlə dırnaq olmaq" fikrini ifadə edir. Amerikan frazeoloji variasiyasının tərcüməsi "çirklə dırnaq kimi" şəklindədir. Bəzi ifadələr də ümumiyyətlə İspaniyada danışılan İspan dilində mövcud deyil. Məsələn, *hacer una vaca* frazeoloji variasiyası yalnız ABŞ-da başa düşülür və istifadə edilir. Bu məcazi mənalı birləşmənin mənası hər hansı bir əşyanı almaq və nəzərdə tutulan işi icra etmək üçün çoxlu pul yığmaqdır. Nəhayət,bu qrupun sonuncusu *məhdud frazeoloji variasiylardır.* Bu adı çəkilən frazeoloji vahidlərin istifadə dairəsi çox məhduddur. Məsələn, *sacarle la vuelta* ifadəsi yalnız Meksika ölkəsinə aiddir. Bu birləşməni Meksika ərazisində yaşayan şəxs başa düşə bilər. Adı çəkilən frazeoloji variasiya Azərbaycan dilində "kiməsə laqeyd yanaşmaq" və ya "fikir verməmək" şəklindədir. Qeyd edək ki, elə Azərbaycan dilində də həmin ifadə, yəni "fikir verməmək" də frazeoloji birləşmə hesab olunur.

İspan dilində variasiyaların çoxluğundan danışsaq da, Azərbaycan dilinin frazeoloji sistemi də feli frazeoloji variantlarla çox zəngindir. Fərqləndirici əlamətinə görə Azərbaycan dili frazeoloji variantlarını üç qrupa

ayırmaq lazım gəlir: 1. Leksik variantlar. 2. Leksik- qrammatik variantlar. 3. Qrammatik variantlar.

Leksik variantlarda sözlərin biri və ya ikisi fərqli səciyyə daşıyır, qalan komponentlər isə ortaq olur. məsələn, *baş-beynini aparmaq- baş qulağını aparmaq; fikrə dalmaq- xəyala dalmaq; söhbət açmaq- söz açmaq və s.*

İkinci qrup frazeoloji variantlar, leksik-qrammatik variantlarda fel komponenti frazeoloji vahidin isim komponentini ismin iki halında idarı edir. Mənaca eyni olub komponentləri həm leksik, həm də qrammatik cəhətdən fərqlənən belə variantları leksik-qrammatik variantlar adlandırmaq olar. [2,156]. Bu cür variantlara aid nümunələr elə də çox deyil: *abırdan salmaq- abrını ətəyinə bükmək; əli boşa çıxmaq- əli boşda qalmaq və s.*

Ədəbiyyat

1. Azərbaycan dili frazeologiyasının əsasları. H.A.Bayramov. Bakı, Maarif. səh148
2. Azərbaycan dili frazeologiyasının əsasları. H.A.Bayramov., Bakı. Maarif, səh156

Гюльнара Агаева

Фразеология на Испанском языке и методы перевода

Резюме

Фразеология – одно из самых ярких и действенных средств языка. Не случайно ее образно называют жемчужиной речи. Фразеологизмы придают ей образность, выразительность, делают богаче, красивее. Благодаря им, мы можем емко, точно и эмоционально выразить иронию, горечь, любовь, насмешку, свое отношение к происходящему. Эти великолепные устойчивые сочетания характеризуют все стороны жизни человека: отношение к труду (золотые руки), отношение к другим людям (медвежья услуга), личные достоинства и недостатки (водить за нос, не терять головы). Мы часто используем их в повседневной речи, порой даже, не замечая. Испанский язык, как и азербайджанкий, богат фразеологизмами. Испанский и русский языки, в корне разные, казалось, не могут иметь столько общего. Но имеют.

Gulnara Aghaeva

Phraseology in Spanish Language and methods for translation

Summary

Phraseology is one of the most vivid and effective language tools. İt is not by chance that it is figuratively called the pearl of speech. Set phrases give the speech figurativeness, expressiveness, make it richer and more attractive. Due to them, we can concisely, accurately and emotionally express irony, bitter, love, mockery and our attitude to that which is happening. These set phrases characterize all aspects of human life: attitude to labor (skillful fingers), attitude to other people (shoddy work), personal strengths and weaknesses (to lead somebody by the nose, to lose one's head). We often use them in daily speech, sometimes without even noticing. Spanish and Azerbaijani are both rich in phrasal verbs. Spanish and Azerbaijani differ radically and it seems they don't have a lot in common. But they have.

Rəyçi: **Aynur Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru, dosent

MAARİFƏ MANAFOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
manafov49@mail.ru

«TİBBNAMƏ» ORTAÇAĞ ELMİ VƏ NƏSR ÜSLUBUNUN MÜKƏMMƏL NÜMUNƏSİ KİMİ

Açar sözlər: təbabət elmi, «Tibbnamə», dil və üslub, folklor-danışıq üslubi, kitab-klassik üslub.
Ключевые слово: медицинская наука, “Тиббнамэ”, язык и стиль, фольк-
лорный стиль общения, классический книжный стиль.
Keywords: medical science, “ Tibbname”, language and style, folklore style of communication, classical book style.

XVI yüzildə elmə, maarifə, savada yüksək qiymət verilmiş, demək olar ki, elm cəmiyyətə xeyir vermişdir. Müşahidələr göstərir ki, bu dövrdə digər elmlər kimi, tibbi elmlərin də inkişafına xüsusi diqqət yetirilmişdir. Məhəmməd Yusif Şirvani (XVIII əsr) təsdiq edirdi ki, insanların sağlamlığı və uzunömürlüyü onların yaşadıqları evlərin düzgün qurulmasından asılıdır.

Dövrün alimləri, həkimləri müxtəlif müalicə üsullarına həsr edilmiş elmi əsərlər yazırdılar.

Ortaçağ şərq təbabətinin nədən ibarət olduğu, müəllifi hələ də bilinməyən və XVIII yüzildə üzü məşhur həkim-alim Məhəmməd Yusif Şirvani tərəfindən köçürülmüş «Tibbnamə» əsərində öz əksini tapa bilmişdir. Məhəmməd Yusif Şirvani həmin əsərə müqəddimə, şərh və izahatlar da yazmışdır. XVII əsrin sonunda, XVIII əsrin əvvəllərində yaşamış Azərbaycanın məşhur aliminin həmin xidməti sayəsində sözügedən kitab bu günkü günümüzə gəlib çatmışdır. «Tibbnamə» əski türk dilində yaradılmış orta əsr tibb əsərləri arasında çox mühüm yer tutur. Həmin əsərdə o zaman məlum olmuş əksəriyyət xəstəliklərinin müalicəsindən bəhs edilir.

«Tibbnamə»nin mətnləri istər zehni dərketmə, istərsə də bədii-estetik təsir cəhətdən çox qiymətlidir. Tibbin müxtəlif sahələrinə dair mühakimələrdə yayğın və uzunçuluğa yol verilməmişdir. Gərəkli sözlər, terminoloji vahidlər, cümlələr, eləcə də mətnlər dəqiq seçilmişdir. Naməlum müəllif mətləbin düzgün və aydın izahı üçün cümlədəki söz sırasını, əsasən, qrammatik qanunlar və fikrin məntiqi inkişafı əsasında qurmuş, tibbə dair elmi reallıqların sadə anlaşıqlı sözlərlə ifadəsi üçün böyük uğur qazanmışdır.

Leksik-semantik səviyyədə bəzən dil və üslub normalarının pozulduğu hallar az da olsa müşahidə olunur. Güman ki, orijinallıq mətnin köçürülmə prosesində qimən də olsa itmişdir.

O dövrün elmi üslubu haqqında A.Əlizadə yazır: «Elmin ayrıca bir dili yoxdur. Elmi əsərlər də xalqın istifadə etdiyi dildə yazılır. Ancaq elmi əsərləri bədii əsərlərdən fərqləndirən onun leksik tərkibindəki terminlərin çoxluğudur» (1, s.85-86).

Doğrudan da, bu əsər o zaman «xalqın istifadə etdiyi bir dildə yazılmışdır». O dövr türkcənin bir qədər ərəb və fars dillərindən üstünlüyü ilə fərqlənirdi.

Bu sahənin tanınmış tədqiqatçısı Fərid Ələkbərli yazırdı ki, « ...bitki və heyvanların qədim adları müasir adlarla üst-üstə gəlmir və çox vaxt tədqiqatçıya heç nə demir. Digər hallarda isə müxtəlif orta əsr müəllifləri eyni ad altında müxtəlif bitkiləri nəzərdə tuturlar. Onu da bilmək lazımdır ki, müxtəlif dövrlərdə və eləcə də müxtəlif ölkə və əyalətlərdə eyni bitki adları müxtəlif məna daşıyırdı. Ona görə də orta əsr tibb əlyazmalarının tərcüməsi və araşdırılması həddindən artıq ciddi tədqiqat işi tələb edir. Orta əsrlər zamanı Azərbaycanda tibb və əczaçılıq sahəsində kitablar ərəb əlifbası ilə ərəbcə, farsca, Azərbaycan türkcəsində, yaxud osmanlıca yazılırdı. Məsələn, tibb və əczaçılıq üzrə əsgi əlyazmalarda, əsərlərdə 27 dil və dialektdə, həmçinin ərəb, fars, türk, qədim yunan, arami (qədim Suriya), qibti (qədim Misir), bərbər, hind, sanskrit, çin və başqa dillərdə tibbi maddələrin (bitkilərin, heyvanların, mineralların) adlarına rast gəlmək olur» (2, s.5)

«Tibbnamə»nin üslubu həqiqi elmə xas olan bütün xüsusiyyətləri özündə birləşdirir. Bu əsər orta əsrlər zamanı Azərbaycanda tibb, əczaçılıq və magiya (cadugərlik, sehr, ovsunçuluq) alimləri arasında qarşılıqlı əlaqənin əksi kimi də qiymətlidir. «Tibbnamə»nin əlyazmaları, təkcə əczaçılın elmi deyil, hər şeydən öncə, nücum və magiya üzrə traktatlardan-mətnlərdən ibarətdir.

İlk tibbi biliklər, necə deyərlər, Azərbaycanda elmi üslubu formalaş-dırırdı. İlk tibbi biliklərin meydana gəlməsi isə arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur. F.Ələkbərlinin fikrincə, bir neçə min il bundan əvvəl Azərbaycanda yaşayan insanlar artıq tibbi biliklərə malik idilər. Çalağantəpədə aparılmış arxeoloji qazantılar nəticəsində tapılmış insan kəlləsinin arxa tərəfində oval formada bir dəlik aşkar edilmişdir. Mütəxəssislərin fikrincə, bu, eramızdan əvvəl VI-V minilliklərdə aparılmış cərrahiyyə əməliyyatının izləridir...» (2, s.1)

Orta əsrlərdə ədəbi dildə artıq funksional üslublar müəyyənləşir. Əvvəlki yüzillərdə nəzəri cəlb edən tibb elminə dair üslubi rüşeymlər (digər elmi sahələrdə də) artıq sözügedən dövrdə aydın, müəyyən vəzifəli təfərrüatlara çevrilir. Akademik T.Hacıyev məhz bu dövrdə üslubların differensiallaşdığını göstərir. «Bununla da ədəbi dil bütöv əlamətləri ilə fəaliyyətə başlayır. Yəni aydındır ki, ədəbi dil xalq dilindən seçilən leksik, fonetik, qrammatik faktların vahid orfoqrafik və orfoepik tələblər

çərçivəsində təzahürüdür». «Dibaçə»lər elmi üslubun ilk nümunəsi kimi görünür. Elmi məzmunlu əsərlərdə üslub formalaşır. XIII-XVI əsrləri nəzərdə tutan akademik məzmunu nəzərə alınmaqla həmin mərhələdə üç üslub arasında elmi üslubun da təşəkkül tapdığını əsaslandırır. «Elmi üslubu bədii üslubdan fərqləndirən ancaq müəyyən terminoloji vahidlərin iştirakıdır.» (3, s.250)

Həmin dövrdə elm üslub iki cür təzahür edirdi: 1) klassik kitab dili biçimində; 2) folklor-danışıq dili biçimində. Birinci təzahür formasında elmi dil kimi ərəb söz və ifadələrinin çox işləndiyi və elmi terminlərin, bir qayda olaraq, ərəb sözlərindən ibarət olduğu «Tibbnamə»də də həddən artıq genişdir. Bu, həmin dövrü səjiyyələndirirdi.

Elmi üslubun folklor-danışıq dilinin örnəyi olan «Tibbnamə»də tibbin, əczaçılığın müxtəlif sahələri ilə əlaqədar işlənmiş sözlər isə türk mənşəlidir.

Hər iki qəbildən olan terminologiya (XIV əsrin əvvəllərindəki lüğətlər də) elmi üslubun inkişafı üçün dil imkanlarının məhdud olmadığını göstərir.

Hər iki üslubun kəsişdiyi nöqtədə «Tibbnamə»dəki ərəb, fars və başqa alınmaların türk dilində məna uyğunlaşması onların türk leksik -morfoloji göstəriciləri ilə söz yaradıcılığında iştirak etməsində də görünür.

Türk mənşəli müəyyən qism sözlərin müasir dövrdə istifadədən qaldığı üçün onlar arxaizmlər sırasına keçdiyini göstərir.

«Tibbnamə»nin dilində xeyli sayda frazeologizmlər vardır ki, bunların bir çoxu müasir dildəkinin eyni olsa, da, müəyyən qismi tarixiliyi ilə fərqlənir. Məs.: qanı çoşmaq, qanı qaralmaq, şəfa bulmaq, qəlbə fərəh verən, ürəyə qüvvət verən, köksü daralmaq və s.

«Tibbnamə»də tarixi iltisaqilik barədə istənilən qədər faktlar mövcuddur. Bəlli olduğu kimi, tarixən türk dillərində iltisaqilik daha fəal olmuş, orta yüzillərdən analitizm qüvvətlənmişdir. Yəni analitiklik özünü qabarıq şəkildə göstərir. Bunun əksi olan sintetiklik isə tədricən adi söz birləşmələrinin qrammatikləşməsi yolu ilə baş vermişdir.Ona görə də «Tibbnamə»də söz yaradıcılığı prosesi analitizm məzmunludur. Məs.: böyürtikan (böyürtkən), sarımsaq, yanıq, öldürücü və s.

«Tibbnamə»də *bul* köməkçi feili yaranan perifrastik-analitik feillər: xəmir ilə qıllarını bulmaq, şəfa bulmaq,

-maz \-məz +ol: Bu forma bir növ –ır ola formasının antonimi kimi işlənərək, inkarlıq yaratmağa xidmət edir. Məs.: Əgər bunula **getməz olsa,** qıl yerini çuvalduz ilə dağlayalar, xilas olub şəfa burar (44)

Qeyd edək ki, bu formaya digər abidələrdə, o cümlədən klassik Azərbaycan ədəbiyyatında rast gəlirik: Ağlamaqdan iki gözü görməz oldu (Əli); Dedi Sultan ki, bən bilməz olayın («Dastani –Əhməd Hərami»);Nəhayətə irişür lətlərin ilə eşqim// Yüzünü görməz olursam qiyamət oldu bizə (Q.Bürhanəddin) və s.

İsə yarımçıq feili ilə formalaşan analitik feil formaları tarixən oğuz qrupu türk dilləri üçün xarakterikdir. **İsə** yarımçıq feili **(ersər-ersə-irsə-isə)** bir qrup dillərdə geniş istifadə olunmuş, həm adlara və həm də feillərə birləşərək müxtəlif semantik çalarlıqları (xüsusən də şərt anlamı) əmələ gətirmişdir.

-ar+ isə forması: -Əgər baş ağrısı çlindən **yatar isə**, qan çoxluğundandır...(8)

-ar+isə formantlı analitik feillər «Tibbnamə»də olduğu kimi, oğuz-səlcuq abidələrində də çox işlənmişdir. Həmin formant vasitəsilə iş, hal, hərəkətin icrası müəyyən şərtlə bağlı olur.

Feilin qrammatik məna növlərini ifadə edən və feil vasitəsi ilə ad yaradan morfoloji göstəricilər mükəmməl qrammatik səviyyədədir. Məs.: açmaq-açılmaq, keçmək-keçilmək, sürtmək-sürtülmək və s.

İndi olduğu kimi, «Tibbnamə»nin yarandığı mühitdə də bir sıra leksik şəkilçilər eynən öz məhsuldarlığını qoruyub saxlamışdır:

Fars ön şəkilçisi: nahamvar, bihuş, bixoş, naxoş, bivaxt və s.

Milli şəkilçilər: fayda+lı, bax+ıcı, sarı+lıq, fərəh+lik, tüpür+cək, sü+lük, dəmir+çi, süz+ənək və s.

Söz birləşməsi yolu ilə milli söz yaradıcılığı örnəkləri vardır ki, mürəkkəb söz məxrəcinə uyğun gəlir. Məs.: qaraboya, qara çörəkotu, acqarın, əməkköməçi və s.

«Tibbnamə»də tarixi semantika faktı kimi örnəklər maraq doğurur: sayru (xəstə), uçmaq (cənnət), ğəliz, yeylax, yanağ, güz (payız) və s.

Əsərdə tarixi fonetika üçün faktlar olduqca zəngindir: yengi (yeni), dışarı (bayır), kim (ki), çün (çünki) və s.

Atalar sözləri və məsəllərin istifadəsi də danışıq aktını yada salır: əski pambıq bez olmaz.

Milli sözlərin müəyyən qismi XVI əsrin sonuna doğru arxakiləşir: əski (qədim), becid (tez) və s.

«Tibbnamə»də işlənmiş qədim türk sözlərinin bir hissəsi müasir türk dilində qalmaqdadır: kəndi, həp, qanlu, birər, ikişər və s.

«Tibbnamə»də təkrarların çoxluğu orta əsrlər dövründə dilin leksik və qrammatik sabitliyinin mühüm göstəricisi kimi özünü göstərir: qətrə-qətrə, para-para, gəli-gəli və s.

Əsərin dilinə və üslubuna xas olan xarakterik cəhətlərdən biri də xalqın daha asan dərk etdiyi alınma sözlərin yetərincə işlənməsidir: yel (xəstəlik), cəviz (qoz), ayğır (at balası), nəsnə (şey), çiban (xəstəlik) və s.

Ümumiyyətlə, orta əsrlər dövründə ortaya çıxmış əsərlərdə, o cümlədən «Tibbnamə»də «qrammatik semantikalar (kateqoriyalar) nitq aktı kimi, fikir, düşüncə ifadəçisi kimi hazır şəkildə verilir, hallar üzrə dəyişmələr, şəxs və zamanlar üzrə sistemli bütöv təsriflər yox, şəxslənmiş,

zamanlanmış, kəmiyyətlənmiş, morfemləri yerbəyer olunmuş morfologiya sintaksisin içində, mətndə, bilavasitə nitq fəaliyyətində göstərilir. Aydın olur ki, morfemlər bu fonetika və semantikaya yetmək üçün min beş yüz, iki min il inkişaf yolu keçmiş və kamala dolmuşdur» (3, s.309)

Bədii üslubda olduğu kimi, klassik-kitab dili və folklor-danışıq dili ənənələri elmi üslubda da davam etdirilir.

«Tibbnamə» tipli əsərlər vasitəsilə dövr barədə tarixi bilgilər, həmin dövrün dil və üslub normasındakı inkişaf və təkamülünü görürük.

«Tibbnamə»də: 1) elmi üslubun klassik dil ifadəsi; 2) elmi üslubun xəlqi-demokratik nitq ifadəsi: «İsti havalar insanın bənizini saraldır və qüvvətini zəif edir və lakin soyuq havalar dəxi bədəni qüvvətli eyləyir, əgər bu məhəldə qan həddindən çox olur və tərpəşir, qan almaq lazımdır, əgər (xəstəni) qüvvətli eylərsə, qan almaq dəxsi xeyirlidir və qüvvəti qalırsa, soyq şərablardan, məsələn, şərabi-vərditəri və şərabi-həmmas və şərabi-limon və şərabi-hindaba və şərabi-təməri-hindi və şərabi iskəncəbin içirsələr, xeyirdir (4, s.143)

Bu mətnin son cümlələri elmi üslubun klassik dil ifadəsidir. Ona görə ki, klassik dilə məxsus izafətlər burada çoxdur. Mətnin yuxarı hissəsi isə xəlqi nitq nümunəsidir.

«Tibbnamə»nin dili Azərbaycan dilinin (əski) elmi üslubunun o dövrdə necə demokratik və yetkin səviyyədə olduğunu təsdiqləyir.

Elmi nəsrin, hətta xəlqi dil təzahüründə türk mənşəli arxaizmlərə-milliyəqədərki dövrün lüğət nümunələrinə rast gəlmək olur. Bu örnəklərin dili arasındakı fərqlər əsrə görə yox, müəllififlərin fərdi üslubu ilə əlaqədardır.

«Tibbnamə»nin dilində analitizmin qalıqları mövcuddur. Mətnlərdəki mürəkkəb sözlərin yazılışında bu halla qarşılaşmaq olur. Həmin sözlərdə qrammatik məna formalarla yox, əsasən, köməkçi sözlər, sözlərin sırası və s. intonasiya ilə təzahür olunur. «Təşkil edildi», «qəbul olundu» tipli mürəkkəb feillər belə qalıqlardandır.

Məlumdur ki, dilimizin ərəb və fars dilləri ilə uzunmüddətli qarşılıqlı əlaqələri nəticəsində tarixən bir çox həmin dillərə xas sözlərlə bərabər, həmin dillərə məxsus sintaktik vahidlər_ izafət tipli birləşmələr də daxil olmuşdur. Həmin birləşmələrdən «Tibbnamə» əsərində də çox istifadə olunmuşdur. Əlbəttə, bu birləşmələr dilimizin milli təbiətinə yaddır. Bu əsərdəki izafət birləşmələri daha çox yazılı ədəbi dilin normalarını əks etdirir və yazılı nitq faktı kimi nəzəri özünə cəlb edir. Bəzi belə birləşmələrin «Tibbnamə»nin mətnlərində işlədilməsi nitqə yazı ağırlığı gətirir, ifadə tərzini rəsmiləşdirir. Əsərdəki izafət birləşmələrinin bir qismi terminoloji xarakterilidir (məs.: mətbuxi-iftimun, həbbi-lacivərd, həbbi-iftimun və s.)

Bizə elə gəlir ki, belələri sintaktik funksiyasını itirərək leksik tamlıq qazanmışdır.

Hissələrin arasındakı sintaktik əlaqənin itməsi və vahid bir vurğu altında deyilməsi müəyyən durumlarda əsərdəki izafət birləşmələrinin mürəkkəb sözə transformasiyasına imkan yarada bilmişdir. Məs.: təngnəfəs, əhlikef və s.

Ədəbiyyat

1. Əlizadə A.C. Elmi üslubda nitq mədəniyyətinin təzahürləri.- Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı, APİ-nin nəşri, 1988
2.Ələbərli Fərid. Ortaçağ şərq təbabəti. Birinci cild, Bakı, 2013
3.Hacıyev T.İ. Azərbaycan ədəbi dilinin tarixi. I cild, Bakı, «Elm», 2012
4.Məhəmməd Yusif Şivani. Tibbnamə. Bakı, 1990

Марифа Манафова

« Тиббнамэ» как совершенный пример научного стиля и прозы в эпохе средневековья

Резюме

В статье производится анализ языковых и стилистических особенностей «Тиббнамэ» (книга мудрости; народная медицина) неизвестного автора, сохранившегося до наших дней, благодаря копии, сделанной врачом-ученым XVIII века Мухаммедом Юсифом Ширвани. Изучение стилистических признаков данного произведения, выражающих языковое и стилистическое обозрение литературного языка эпохи средневековья, выступает как основной мотив статьи.

В статье отображается, что в это время научный стиль был замечен в двух направлениях:

1) классический книжный стиль ;

2) фольклорно – разговорный стиль .

В первом случае в качестве научного языка более часто употреблялись арабский и персидские языки, в языке «Тиббнамэ» тоже арабские слова слишком широко использованы.

В фольклорно разговорном стиле употребляемые слова связанные в области медицины и фармацевтики турецкого происхождения.

В статье производится анализ языковых и стилистических особенностей «Тиббнамэ» (книга мудрости; народная медицина) неизвестного автора, сохранившегося до наших дней, благодаря копии, сделанной врачом-ученым XVIII века Мухаммедом Юсифом Ширвани. Изучение стилистических признаков данного произведения, выра-

жающих языковое и стилистическое обозрение литературного языка эпохи средневековья, выступает как основной мотив статьи.

Marifa Manafova

«Tibbname» as a sample of medieval science and prose style

Summary

The article analyzes the linguistic and stylistic features of the Tibbnam (wisdom book, folk medicine) of an unknown author, preserved to our days, thanks to a copy made by 18th-century doctor Muhammad Yusif Shirvani. Studying the stylistic features of this work, expressing the linguistic and stylistic review of the literary language of the Middle Ages, acts as the main motive of the article.

It is shown in the article that two types of scientific style was seen in that period:

1) Classical book language
2) Folk and spoken language

In the first case Arabic and Persian words are much more used as a scientific language and Arabic words are widely used in “Tibbname”. In “Tibbname”, in the folk and spoken language, the words used in the various fields related to the medicine, pharmacology are of Turkish origin.

Rəyçi: Namaz Manafov
filologiya üzrə fəlsəfə doktoru, dosent

RANƏ BABAYEVA
ASOIU
babayeva.rena.a@gmail.com

HOW TO MAKE AN EFFECTIVE PRESENTATION

Açar sözləri: inam, təyin etmək, çatdırmaq, təkrarlamaq, həlledici, parlaq, bacariq, sürət, idarə etmək.
Key words: credibility, determine, deliver, rehearse, decisive, vivid, skill, rate, handle.
Ключевые слова: доверие, определять, доставлять, повторять, решительный, яркий, умение, скорость, управлять.

When making a presentation one should take into account the two inviolate laws of speaking – the law of content and the law of character. Plagiarism, stealing and using the ideas of another person as one's own, is the breach of the first law – the law of content. Consider the rule of the walk-away. As you prepare, look over your presentation and ask, "What is the walk-away value of this material?" Another way to think about this is "What will the listeners remember when they get home?"Actions speak louder than words. How we live speaks louder than what we say. You want to trust the person speaking to you, and you want to be trustworthy when presenting. You want to know if the presenter is credible. In case the words of the presenter and his/her actions contradict, the violation of the second law of speaking, the law of character takes place. For example, the top manager is speaking on team work, but everybody knows he runs his company like dictator. Delivering oral presentations is inseparated part of a person's business career.

Preparation of presentations falls into three steps:

1. Planning your presentation.
2. Writing your presentation.
3. Completing your presentation.

In the first step you determine your purpose and investigate your audience.

The second step involves writing of an outline which will help you stay on task.

Completing step consists of two aspects: designing and producing presentation visuals, and rehearsing your presentation.

A variety of skills make a presenter competent. The following skills are decisive to being perceived as competent by your audience:

1. Use language and words that are clear, vivid and appropriate.
2. Change the rate, pitch, and volume of your voice.

3. Make use of correct and appropriate pronunciation, articulation, and grammar.Use some aspects of nonverbal communication in your presentation: appearance, posture, body movements and gestures, facial expression, and eye contact.Referring to these four skills may help you build your credibility. Appropriate language presents information in a way that respect and treats all audience members as equals without using biased language. The use of unbiased language can destroy your credibility (believability). It is possible to replace some words signifying certain jobs, such as saying flight attendant instead of stewardess; firefighter instead of fireman. When you deliver your presentation, try to vary the rate, the pitch and the volume of your voice. Rate is the speed at which a speaker gives a presentation, varying their speed; good speakers sometimes talk fast and sometimes slower. A subject matter which is serious is delivered at a slower rate; less serious subject can deserve a bit faster rate. An inflection in pitch (pitch is the highness or lowness of the voice) express the emotional content of the information.A shortage of confidence in oneself leads to the lack of proper volume (volume is intensity of the voice). Mistakes in pronunciation, articulation, and grammar distract listeners from your information and negatively affect your credibility. If you are not sure in their usage consult dictionary and other references. Let's consider the importance of nonverbal communication in giving presentations. Such aspects of nonverbal communication as appearance, posture and body movement, gestures, facial expressions, eye contact support and enhance the verbal information. Some tips of using nonverbal cues are:

1. Appearance

✓ Modify your appearance to make a good impression (clothing, shoes, jewelry, and hairstyle – all these nonverbal cues from the first impression).

2. Posture and body movement.

✓ Walk confidently.

✓ Relax but maintain an alert body posture.

3. Gestures.

✓ Make use of both hands and gesture naturally.

✓ Don't clasp hands in front or in back.

4. Facial expressions.

✓ Match your facial expressions to what you are saying.

✓ Use your face to communicate how you feel about your speech.

5. Eye contact

✓ Use eye contact to communicate to interest and involvement to the audience (eye contact communicates honesty, openness, and respect for others).

✓ Use eye contact to gauge how the listeners are reacting to your speech.

Two fields should be taken into consideration when completing your oral presentation: furnishing and introducing presentation visual, and rehearsing your speech. Correct language calls for avoiding grammatical areas. If listeners are distracted by a mistake in grammar there attention turns from what you are saying to the mistake itself. If you commit an ear in grammar, it calls into question your authority as a speaker and damages your credibility. The listeners will think that you don't know enough about the topic you speak about. Most people pay close attention to the grammatical structure of sentences when they are writing, but they are less careful about grammar when they deliver a speech. The typical kinds of mistakes most people make are simple ones, for example, "all of them was there" all is a plural noun, so should take the plural form of the verb. "All of them were there" is grammatically correct. Pronounce such as self, me and I are sometimes used incorrectly. Self is a reflecsive pronoun. Used to reflect on a noun or another pronoun to add emphasis. "I myself accept the invitation to speak" is correct. "He and myself accept the invitation" is wrong: it should be he and I accept the invitation. I and me can be the subject or object of the sentence. When used as the subject in a sentence, I is correct; when used as the object in a sentence me is correct. "Thanks for inviting Harry and I" is wrong; "Thanks for inviting Harry and me is correct/There are a lot of means of presenting your speech, such as: handouts, chalkboards and whiteboards, slides, electronic presentations, and others. Handouts work especially well in informal situations where the audience takes an active role, participants make their own notes on the handouts.Chalkboards and whiteboards are used to list points as they are mentioned. Because these visual aids are produced on the spot, the boards provide flexibility. Slides may be text, graphics, or pictures. Remember that you may need someone to operate the projector and that you'll need to coordinate the slides with your speech.Electronic presentations have the advantage of including real-time manipulation of numbers, animation, video clips, and even sound. Using Microsoft Power Point presentation program, you can create an effective electronic presentation – a series of computerized slides. An electronic slide is a single page of information. Simplicity is the key of effectiveness when you design your visual aids. Audience can't read and listen at the same time. The visuals of presentation must be simple enough for listeners to understand within a moment or two. How to master the Art of Delivery. The following delivery methods that are easy to handle are:

1. Memorizing a quotation, an opening paragraph, or a few concluding remarks can increase your credibility and strengthen your delivery.

2. Reading. If you choose to read your speech, practice enough to keep eye contact with your listeners.

3. Speaking from notes. Giving a presentation with the help of notes or visual aids is one of the most effective and easiest ways. If you are nervous use note cards instead of sheets of paper, as nervousness can be noticed in shaking sheets of paper.

4. Impromptu speaking. Don't agree to give impromptu speaking unless you are thoroughly familiar with the topic and have spoken a lot of times on the same topic. It doesn't matter which delivery method you pick up, what really matters is your being knowledgeable in subject you are going to present. Your knowledge of the topic helps you build your credibility. Practicing aloud, overcoming anxiety, presenting visual aids, and handling questions are essential factors in making presentation. The main point of a rehearsal is to memorize you material start practicing by simply reading through your full script. After you have learned the material, begin to practice it in front the mirror. Practice speaking clearly both in normal tones and at volume vary the pace of your speech, and then decide which pace is most effective. Anxiety and nervousness is a normal state, you can learn to cope with them. Be sure of some things, before you begin your presentation:

1. Check the equipment beforehand to make sure that it is in order.
2. In case equipment fails, have a backup plan.
3. Check whether all listeners can see your visual aids.

The question-and-answer period is a valuable of an oral presentation. You have only a brief moment to analyze each question you are asked.

When answering the questions, address answers to the whole audience, not just the questioner.

However if the question is irrelevant, thank the speaker and move on to the next question. What a presenter should be aware of:

1. Answering questions from the audience can increase your believability by demonstrating a wider knowledge of your subject.
2. The audience needs to know whether you are putting forth personal opinions or facts.
3. It is crucial not be involved into dispute with a questioner, regardless of how awkward his or her questions are.
4. All questions should be treated with respect and deference.
5. Some really difficult questions may need to be researched and answered at a later date.

Reference

1. Making Presentation, Tim Hindler. USA;

2. Excellence in Business Communication, 5th edition, John V. Thill and Courtland L. Bovée. USA;
3. Human Communication: Motivation, Knowledge, & Skills, Sherwyn P.Morreale, Brian H.Spitzberg, J.Kevin Barge. USA

R.Babayeva

Səmərəli təqdimatın edilməsi

Xülasə

Bu məqalədə təqdimatın hazırlanması zamanı nəyin və necə əhatə edilməsindən bəhs edilir. Təqdimatı hazırlayan hər bir şəxs bilməlidir ki, onun çıxışı üç hissədən ibarət olmqalıdır:

1. Hazırlıq
2. Yazı
3. Tamamlama.

Hər bir mərhələ ciddi hazırlanmalıdır. Hazırlıq bölümündə təqdımatçı öz çıxışının məqsədini dərk etməlidir. Onun çıxışı 1. məqsədyönlü; 2. auditoriyayönü 3. sadə olmalıdır. Bunu əldə etməkdən ötrü bir sıra qaydaları müəllif öz məqaləsində əks etmişdir. Həmçinin burada təqdimatçının çıxışı zamanı həyəcan və qorxu hissinin öhdəsindən gəlmə üsulları yer almışdır. Təqdimat edən sadalanan xüsusiyyətlərə əsaslanaraq üğürlü çıxışa nail ola bilər.

Р.Ваваева

Как эффективно выступить с презентацией

Резюме

Цель статьи – помочь всем лицам, кто готовится выступить с презентацией перед аудиторией. В данной статье подчеркиваются два правила, которые оратор должен соблюдать при выступлении. В английском языке они указаны как правила о характере выступающего и как правило о содержании материала. Суть правила о характере – построить доверительные отношения с аудиторией, а суть второго правила – не выдавать чужие мысли за свои, то есть не заниматься плагиатом. А также в статье даны способы преодоления волнения при выступлении, использование невербальных асппектов языка для достижения эффективного выступления.

Rəyçi: Fəridə Hüseynova
pedaqoji elmlər namizədi, dosent

NAİLƏ YUSİFOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
nailayusifova@yahoo.com

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ ALINMA SÖZLƏRİN MƏNİMSƏNİLMƏ PRİNSİPLƏRİ

Açar sözlər: Azərbaycan dili, orfoqrafiya, alınma sözlər, mənimsənilmə
Ключевые слова: Азербайджанский язык, орфография, заимствованные слова, освоение
Key words: Azerbaijanilanguage, spelling, borrowedwords, appropriation

Azərbaycan xalqı min illər boyu qonşu xalqlarla və bir sıra digər ölkələrlə həmişə siyasi-iqtisadi və mədəni əlaqədə olmuşdur.Azərbaycan xalqının varlığını yaşadan Azərbaycan dili neçə yüz illərdir ki,onun milli-mənəvi xüsusiyyətini, mövcudluğunu qoruyub saxlayır. Daima inkişafda olan ana dilimizdə xüsusilə onun lüğət tərkibində baş vermiş yeniliklər orfoqrafiya lüğətində öz əksini tapması üçün yeni prinsiplər yaradılır.Lüğət tərkibi inkişaf etmiş dillər digərlərindən daha zəngin və qüdrətli sayılır. Dilin lüğət tərkibini zənginləşdirən mənbələrdən bəhs edərkən, onun daxili imkanlarını və başqa dillərdən keçən sözləri nəzərdən qaçırmaq olmaz. Dilin daxili inkişaf qanunları,xüsusən onun ən çox müstəqillik,sabitlik,xəlqilik tələb edən əsas lüğət fondu və sözdüzəltmə qaydaları da xalqımızın və dilimizin tarixi ilə əlaqədar yaranıb inkişaf etmişdir.Məlum olduğu kimi tarixi inkişaf prosesinin ayrı-ayrı dövrlərində Azərbaycan ədəbi dilinin lüğət tərkibinə müxtəlif xarici dil təsirləri də olmudur. Belə ki,VII əsrdən etibarən ərəb və fars dillərinin təsiri,ədəbi dil kimi yayılması və bu dillərin işlənmə dairəsi,genişliyilə bağlı olaraq Azərbaycan dilinin lüğət tərkibinə külli miqdarda sözlər keçmişdir.Azərbaycan ədəbi dilinin formalaşma və inkişafı prosesində bu dildə yer almış ərəb və fars alınma sözləri uzun zaman dilimizdə işləndiyindən onların əksəriyyəti dilin səs quruluşuna və qrammatik qanunlarına uyğunlaşmışdır. Hətta bir çox ərəb mənşəli sözlər dilimizdə milli şəkilçi qəbul edərək yeni məzmunlu anlayışlar yaratmışdır. Məsələn, kimyaçı, kəşfiyyatşı, islamçılıq, mövhumatçılıq və s. Belə alınma sözlərin bir qismi dildə məhdud dairədə işlənmiş, dilin normalarına cavab vermədiyinə görə tədricən, yenilərilə əvəzlənmişdir (2,s.14-15).Dilin lüğət tərkibində başlıca leksik təbəqə bu və ya digər dlin öz sözləridir. Bu təbəqənin əsas əlamətləri onun uzun əsrlər boyu yaşaması, sabitliyi, xəlqiliyi və lüğət tərkibinin inkişafı üçün baza olmasıdır (1,s.121).Azərbaycan dili dünyanın ən qədim dillərindən biri olub, geniş və zəngin daxili imkanlara malikdir. Buna baxmayaraq, bütün digər dillər kimi, Azərbaycan dili də

təsirlərdən kənarda qalmamış, dünyanın bir sıra yaxın və uzaq dilləri bilavasitə, yaxud dolayı yolla, bu və ya digər dərəcədə Azərbaycan dilinə öz təsirini göstərmişdir. Tədqiqatçıların göstərdiyinə görə, əgər əvvəllər internasional sözlər üçün baza yunan və latın dilləri idisə, indi rus, ingilis, ispan, italyan, alman və fransız dilləri bu sahədə daha aparıcıdır.S.Cəfərov yazır: "Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan, həmin xalqların dillərindən Azərbaycan dilinə minlərcə söz keçmişdir. Bu proses dilin leksikasını zənginləşdirən əsas bir amil olaraq, indinin özündə belə, fəal bir surətdə davam etməkdədir" (3, s. 10).Dilin lüğət tərkibini zənginləşdirən vasitələrdən biri kənar dil elementləridir. Yeri gəlmişkən, demək lazımdır ki, kənar dil elementlərinin təsiri dedikdə, burada, zorakı təsir deyil, dilin öz təbii inkişafı, tələbatı nəticəsində olan təsir başa düşülməlidir. Dildə alınmalar, alınma sözlər mövzusunda çoxlu əsərlər meydana çıxsa da, mövcud prosesin anlaşılmasında, daha doğrusu prosesin terminoloji ifadəsinə münasibətdə müxtəliflik yenə qalmaqdadır. Hər hansı bir dildə kənar dil ünsürlərinə münasibətdə müxtəlif fikirlər daha çox bu dil elementlərinin adlandırılmasında, habelə alınma söz və kalka, alınma söz və internasionalizm məsələlərində özünü göstərir. Qeyd etməliyik ki, müəyyən dərəcədə yaxın məzmunlu olsalar da, həmin terminlər bir – birindən fərqli anlayışları ifadə edirlər. Belə ki, "alınma" termininin özü iki mənadadır. Birinci halda, bu termin, başqa dildən keçib, daxil olduğu dili zənginləşdirən linqvistik vahid mənasını bildirir. Geniş mənada, "alınma" bir dildən başqa dilə sözkeçmə prosesini göstərir. Beləliklə, ikinci mənada bu termin proses, birinci mənada isə bu prosesin nəticəsini bildirir.

Ümumən, orfoqrafiya problemləri yenidən təkmilləşdirilərkən fonetik prinsipin tələblərinə daha geniş yer verilməlidir. Hər bir alınma dil vahidi Azərbaycan dilinin təbiətinə, qayda – qanunlarına uyğun yazılmalıdır. Bunu dilimizin təbiəti tələb edir. XX əsrin əvvəllərindən Avropa mənşəli sözlərin Azərbaycan dilinə güclü axını başlamışdır. Bu prosesdə də Avropa təhsilli, xüsusən də rus dilində təhsil almış ziyalıların bir çoxu alınma sözlərin bu dillərdəki kimi yazılmasına təkid etmişlər. XXI əsrin əvvəlinə kimi davam edən bu proseslər müəyyən mənada, Azərbaycan orfoqrafiyasının ağırlaşmasına səbəb olmuşdur.Məlumdur ki, danışıq dilində, müəyyən üslubi məqsədlərlə bədii əsərlərdə, xüsusilə başqa dilə mənsub müəyyən sözlər işlədilir ki, onların hamısı ədəbi dil normaları üzrə sabitləşmiş olmur. Ikinci tərəfdən isə, ədəbi dilin lüğət tərkibinə daxil olub, sabitləşmiş sözlər də ilkin mərhələdə məhz bədii ədəbiyyatda, yaxud danışıqda işlədilir. Başqa dillərə məxsus bu qəbil sözlər "əcnəbi sözlər"ə daxildir. "Alınma söz" isə dar və konkret anlayış ifadə edir. Belə ki, bu anlayış altında ədəbi dilimizdə normalaşmış və sabitləşmiş, ədəbi dilin lüğət tərkibinə daxil olmuş sözlər başa

düşülür. Bu sözlər artıq, hamı tərəfindən anlaşılıb qəbul edilir, və ümumxalq xarakteri daşıyır. Alınma sözlərin mənimsənilməsində sözü alan dilin spesifikası nəzərə alınmazsa, bu dilin fonetik və qrammatik normaları gözlənilməzsə, alınmış söz vətəndaşlıq hüququ qazana bilməyəcək və gec – tez dildən çıxacaqdır. Bu özü də onu göstərir ki, başqa dildən sözlər müxaniki olaraq alınmır. Digər tərəfdən isə, "...əcnəbi sözlərin alınması prosesi ikitərəfli prosesdir. Bu, ancaq bir dilin hazır elementlərinin sadəcə olaraq başqa bir dilin ixtiyarına verilməsi demək deyildir. Bu, həm də həmin elementlərin üzvü şəkildə, alan sistemi tərəfindən mənimsənilməsi deməkdir, bu elementlərin həmin dilin xüsusi tələblərinə uyğunlaşması, yeni sistem şəraitində formal və semantik baxımdan dəyişməsi deməkdir. Əgər alınma prosesi qeyri – müəyyən əcnəbi sözlər yığımının başqa nitq stixiyasına mexaniki köçürülməsi deyilsə, onda, bu proses haqqında demək olar ki, bu, əsasən, yaradıcı, fəal inkişafın ən yüksək mərhələsidir" (10, s. 45-46).

Azərbaycan dilinin leksik tərkibindəki alınma sözlər işlənmə dairəsinə, məna və mahiyyətinə görə bir – birindən fərqlənir. Bu cəhətdən onlar iki yerə bölünür: **Adi alınma sözlər.** Ancaq keçdiyi və mənsub olduğu dillərdə, bu və ya başqa anlayışı ifadə edən alınma sözlərə **adi alınma sözlər** deyilir. Məsələn: *qanun, əsas, əlamət, zövq, imkan, katib, kafi, səfir, tədris.*

Ərəb dilindən keçmiş bu sözlər bir neçə dildə işlənmiş olsa da, yenə adi söz sayılır. Çünki bunlar beynəlmiləl sözlərin meyarına uyğun gəlmir.

Beynəlmiləl alınma sözlər. Müxtəlif sistemli bir sıra dünya dillərində işlənib, elmə, texnikaya, siyasətə, mədəniyyət və incəsənətə aid anlayışları ifadə edən sözlərə **beynəlmiləl alınma sözlər** deyilir. Məsələn: *spiker, demokrat, roman, opera* və s.Beynəlmiləl sözlərlə qohum dillərdə olan ortaq sözləri bir – biri ilə qarışdırmaq olmaz. Belə ki, bunlar arasında zahirən oxşar olan cəhətlər vardır. Ortaq sözlər də bir neçə dildə işlənir, eyni mənanı bildirir. Lakin bu sözlər ancaq qohum dillərdə istifadə olunur, həm də siyasi, elmi – texniki, mədəni hadisə və anlayışları ifadə etmir. Beynəlmiləl sözlər isə qohum olmayan, azı 4 – 5 dildə işlənir və yuxarıda göstərilən mənaları ifadə edir. Deməli, beynəlmiləl sözləri adi sözlərdən fərqləndirən birinci meyar onun ifadə etdiyi mənadır, ikinci meyar isə qohum olmayan, azı 4 – 5 dildə işlənməsidir. Beynəlmiləl sözlərin ən çoxu yunan və latın sözlərindən, müəyyən qismi isə rus sözlərindən ibarətdir. Azərbaycan dilinə beynəlmiləl sözlərin keçməsinin tarixi əsasən, XIX əsrdən başlayır. Bu dövrdə dilimizdə aşağıdakı sözlər işlənmişdir: *proqress, teatr, ateist, deputat, despot, liberal* və s.Müasir Azərbaycan dilində beynəlmiləl sözlər xüsusi mövqe tutur. Bu qrup sözlər elm, incəsənət, texnika, mədəniyyət və s. sahələrdəki yenilikləri əhatə edir. Məlumdur ki, başqa dildən söz alınması iki yolla həyata keçir: 1) danışıq yolu ilə, daha doğrusu, şifahi ünsiyyətlə; 2) yazıllı ədəbiyyat yolu ilə. Alınma sözlərin mənimsənilməsində bu iki yol bir –

birindən müəyyən dərəcədə fərqlənir. "Əcnəbi sözdə daha köklü dəyişiklik o zaman baş verir ki, bu söz şifahi şəkildə alınsın. Belə halda sözün səs tərkibində ciddi dəyişiklik olur, onun mənası nəzərə çarpacaq dərəcədə dəyişir" (11, s. 97-98). Yazılı dil vasitəsilə alınmalarda isə sözü alan dilin fonetik – qrammatik – orfoqrafik xüsusiyyətləri nəzərə alınsa da, etimon dil xüsusiyyətlərini qorumağa da meyl güclü olur.Dünya dillərindən hər birinin özünəməxsus fonetik sistemi və qrammatik quruluşu vardır. Buna görə də hər bir dil başqasından söz alarkən onu öz fonetik və qrammatik qayda – qanunlarına tabe edir və buna uyğun işlədir. Azərbaycan ədəbi dili də başqa dillərin sözlərini öz normalarına uyğun şəkildə qəbul edir. Sözalma prosesində dilimizin tələblərinə uyğun gələn sözlər alındığı dildə olduğu şəkildə, yəni dəyişdirilmədən, eyni ilə götürülür. Bunun əksinə olaraq, dilimizin qaydalarına uyğun olmayan sözlər isə dəyişdirilir. Bu baxımdan, dilimizdəki alınma sözlər iki qrupa bölünür: dəyişiklik edilmədən mənimsənilən sözlər, dəyişiklik edilərək mənimsənilən sözlər. Alınma söz dilin fonetik sistemi və qrammatik quruluşuna uyğun gəldikdə və bu dilin daxili qaydalarına xələl gətirmədikdə, həmin sözlər heç bir dəyişiklik edilmədən götürülür. Azərbaycan dilində bir sıra sözlər bu şəkildə mənimsənilmiş və hazırda da əslimdə olduğu kimi işlənilir, məsələn: *beton, vaqon, vanna, zavod, vitamin, vulkan, ekran, yumor, kanal, kollektiv, maqnit, marka, monoloq* və s.Bu cür mənimsənilmə ən çox beynəlmiləl sözlərdə özünü göstərir. Həmçinin, ədəbi dilin yazılı növü ilə keçən sözlərin əksəriyyəti də bu şəkildə mənimsənilir.Alınma söz keçdiyi dilin sözlərindənfərqləndikdə həmin dilin fonetika və qrammatikasının müqavimətinə rast gəlir, az və ya çox dərəcədə dəyişikliyə uğrayır. Bundan başqa, müxtəlif səbəblərdən bəzi alınma sözlərin mənasında da dəyişiklik olur. Ümumiyyətlə, dildə alınma sözlərin dəyişiklik edilərək mənimsənilməsi çox mürəkkəb bir prosesdir. Azərbaycan dilinə keçmiş sözlərin başlıca olaraq aşağıdakı formalarda mənimsənildiyini söyləmək olar:Hər bir söz başqa dilə keçərkən o dilin fonetik sisteminə uyğunlaşmalı olur. Belə bir tələb nəticəsində sözdə çox müxtəlif şəkildə dəyişikliklər baş verir.

Alınma sözlərdə saitlərin dəyişilməsi ən çox, ahəng qanunu ilə əlaqədar olur. Məlumdur ki, sözdəki saitlərin həmcinsləşməsi Azərbaycan dili üçün ən xarakterik olan cəhətlərdəndir. Elə buna görə də "...bir sıra alınma sözlər dilimizin təbiətinə uyğunlaşdırılarkən, birinci növbədə bunların ahəng qanununa tabe olması nəzərdə tutulur" (4, s. 104). Dilimizdəki alınma sözlərdən ən çox ərəb və fars sözlərində dəyişiklik müşahidə olunur. Azərbaycan dilinin lüğət tərkibində olan fərqli alınma sözlərin hamısı yuxarıda göstərdiyimiz kimi dəyişikliklərə uğramışdır.Bunlardan başqa, bəzi alınma sözlər mənbə dildə müəyyən əşya anlayışını ifadə etdiyi halda, bizim dilimizə keçdikdən sonra ancaq xüsusi şəxs adını bildirir. Məsələn, *xurşid* sözü farsca *günəş* deməkdir, azərbaycan dilində isə xüsusi qadın adıdır.. Azərbaycan

dilinə fars dilindən keçmiş sözlərin bəzisi bu qaydada mənimsənilmişdir.- Müasir Azərbaycan dilinin lüğət tərkibinə daxil olmuş sözlər dilimizin orijinallığına, müstəqil inkişaf etməsinə mane olmur və ola da bilməz. Əsrlər boyu dilimizə keçmiş yüzlərlə sözlər dilimizə o dərəcədə qaynayıb – qarışıb ki, bunların alınma söz olduğunu, xüsusi təhqiqata əsaslanmadan çoxları təsəvvürünə gətirə bilmir. Məhz buna görə də belə sözləri dildən çıxarmağa ehtiyac yoxdur. Başqa dillərdən söz almaq müasir dillərin zənginləşməsi üçün vacib olan prosesdir. Lakin bu və ya digər anlayışın ifadəsi üçün başqa dildən söz almaq dilin həyatında olduqca məsuliyyətli məsələdir. Buna görə də söz almaq çox böyük həssaslıq və ehtiyatlılıq tələb edir.

Ədəbiyyat:

1. Axundov A. Dilçiliyə giriş. “Maarif” nəşriyyatı, 1980, səh.121
2. Sadıqova S. Orfoqrafiya qatdalarının təkmilləşdirilməsinə ciddi ehtiyac var .525-ci qəzet-2015.-26 iyun.səh.14-15.
3. Ağazadə F. Türkcəni zənginləşdirmək yolları. Maarif işçisi, 1926, № 8-9
4. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, Elm, 1975
5. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı – 1960, səh.10
6. Dəmirçizadə Ə. “Müasir Azərbaycan dilinin fonetikası” APİ-nin nəşri, Bakı, 1960, səh.104
7. Həsənov H.H. Müasir Azərbaycan dilinin leksikası. Bakı – 1978, səh.23
8. Будагов Р.А. Что такое развитие и совершенствование языка. М.,1977, стр.38
9. Шанский Н.М. Лексикология современного русского языка, М., -1972, стр.97

Юсифова Наиля

Принципы освоения заимствованных слов в современном азербайджанском языке:

Резюме

Азербайджанский народ тысячелетиями всегда находился в политическо-экономических и культурных связях с соседними народами и рядом других стран. Азербайджанский язык, увековечивший существование Азербайджанского народа, несколько столетий хранит его национально-духовные особенности, его существование. В статье говорится о создании новых принципов для отображения в орфогра-

фическом словаре новшеств, произошедших в постоянно находящемся в развитии нашем родном языке, особенно в его словарном составе. Языки с развитым словарным составом по сравнению с другими языками, считаются более богатыми и могущественными. Говоря об источниках, обогащающих словарный состава языка, нельзя не отметить его внутренние возможности и слова, перешедшие из других языков-.Законы внутреннего развития языка, особенно его основной словарный фонд, требующий больше всего его независимость, постоянство и народность, и правила словообразования были созданы и развивались с связи с историей нашего народа и нашего языка. Как известно, в разных периодах процесса исторического развития, на словарный состав литературного азербайджанского языка было оказано влияние различных иностранных языков.

Naila Yusifova

The assimilation principles of acquired words in modern Azerbaijani language:

Summary

Azerbaijan nation were always in political-economical and cultural relations with neighboring nations and a number of other countries for a thousand years. Azerbaijani language preserves the existence of the nation of Azerbaijan maintained national and spiritual nature, existence. In this article mentioned about the creation of new principles for reflecting innovations occurred in our native language constantly developing specially in vocabulary composition in spelling dictionary. The languages with advanced vocabulary composition considered the richest and powerful. When we talk about the sources enriching the vocabulary composition, it should not disregard words passed from another languages. The internal development rules of language, particularly dictionary reserve and word-building rules developed in relation with history of our language and nation. As it is known in separate period of historical development procedure was various foreign language affects to composition of vocabulary of Azerbaijan literal language.

Rəyçi: Təranə Xəlilova
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYGÜN MAHMUDOVA
Bakı Slavyan Universiteti, doktorant
E-mail: **aygunmahmudova777@gmail.com**

KOQNİTİV DİLÇİLİYİN ELMİ-NƏZƏRİ ƏSASLARI

Açar sözlər: koqnitiv dilçilik, konsept, mentallıq, milli-mədəni məkan, konseptosfera, kateqorizasiya, mədəniyyət konstanları
Ключевые слова: Когнитивная лингвистика, концепт, национально-культурные пространство, концептосфера, категоризация, константы культуры
Key words: Cognitive linguistics, concept, mentalition, national-cultural space, conseptosferation, categorization, the constants of culture

"Koqnitivizm" – insanın təfəkkürü və onunla əlaqəli olan əqli vəziyyəti və ya prosesləri öyrənən cərəyandır. Bir sözlə, o, insanın fəaliyyəti prosesində dünyanı dərk etmə və ya qavrama haqqında elmdir. Koqnitivizmə görə insan informasiyanın emalı kimi, insanın davranışı isə onun daxili vəziyyətinin terminləri ilə təsvir və izah edilməlidir. Bu məsələnin həlli bilavasitə dildən istifadə etməklə əlaqəli olduğu üçün dil koqnitivistlərin diqqət mərkəzində olmuşdur.

Belə bir sual meydana çıxır? Koqnitivizm dilçiliyə hansı yenilikləri gətirdi? Koqnitivistikada əsas diqqət insan koqnisiyasına istiqamətləndi. Belə ki, yalnız müşahidə edilən hərəkətlər deyil, eyni zamanda onların əqli (mental) təqdimatı, yəni daxili təzahürü modeli, rəmzi (simvolu) və insan strategiyası tədqiq edilir və bütün bunlar biliklər əsasında hərəkət doğurur. Bir sözlə, insanın koqnitiv aləmi onun fəaliyyəti və davranışı əsasında öyrənilir. Bütün bu qeyd etdiklərimiz, öz növbəsində, dilin fəal iştirakı ilə gedir. Koqnitiv elmin özü isə beyindəki əqli (mental) prosesləri idarə edən ümumi prinsiplər haqqında elm kimi nəzərdən keçirilməyə başlanmışdır. Bununla belə, koqnitivizmə bir neçə elm daxildir: koqnitiv psixologiya, fəlsəfə, neyroelm, dilçilik, mədəni antropologiya və s.

Koqnitiv fəaliyyət nəticəsində fərdin dünya haqqında nələr fikirləşdiyinə və nələr bildiyinə aid olan mənalar sistemi yaranır. Beləliklə, insanın dünyanı, həmçinin dünyada özünü dərk edərkən simvollardan necə istifadə etməyi dilçilik elminin insan və cəmiyyəti öyrənən digər elmlərlə birləşdirib koqnitiv dilçiliyi yaratdı. İnsanın idrak fəaliyyəti zamanı əldə etdiyi məzmunlu informasiya emal məhsulu olaraq məhz dil formalarında öz ifadəsini tapır. Koqnitiv proseslər dillə bağlıdır və dillə fəallaşmış proseslər forması qəbul edir (6).

Koqnitiv dilçiliyin əsas anlayışlarından biri də koqnisiyadır və o, təfəkkür və biliyi, eləcə də onların dildəki ifadəsini əhatə edir. Buna görə də koqnitiv dilçiliklə koqnisiya sıx bağlıdır. Çünki dil koqnitivist dilçilərə mədəniyyət və cəmiyyətdən daha artıq insan davranışını dərk etmək üçün açar verir. Koqnitiv dilçilikdə emal etmə cihazı kimi konseptlər, freymlər, qeştaltlar və s. meydana gəlir.

Koqnitiv dilçilik bir neçə mənbənin qarşılıqlı təsiri nəticəsində yaranmışdır. Bu mənbələrə qısaca nəzər salaq:

1) Koqnitiv elmlər, eyni zamanda, koqnitologiya adlanır. Onun öyrənilmə obyekti insan
biliyinin fəaliyyəti və quruluşudur. O, "süni intellekt" adlanan mühəndis fənninin inkişafı nəticəsində meydana çıxmışdır. Belə ki, insanın beyni və kompyuterin oxşarlığı insan və maşının informasiyanı addım-addım üsulu ilə işləməkdə görünür. O, belə bir suala cavab verməyə çalışır: İnsan şüuru prinsip etibarilə necə təşkil olunub?; İnsan dünyanı necə dərk edir və dünya haqqında hansı məlumatı biliyə çevrilir?; Mental və ya əqli məkan necə yaranır?

"Koqnitiv elm" termini 70-ci illərin əvvəllərindən başlayaraq işlədilməyə başladı. Burada məqsəd informasiyanın insan tərəfindən mənimsəmə, toplama və istifadə etmə proseslərinin tədqiq edildiyi sahəni ifadə etmək üçün işlədilməyə başlandı. Bu illərdə, həmçinin belə bir anlayış meydana çıxdı: Süni intellektin məşğul olduğu insanın intellektual prosesi "insan təfəkkürünün universal qanunlarına" çatdırıla bilməz. Belə ki, intellektual məsələlərin əksəriyyəti mövcud biliyə arxalanmaqla həll edilir. Əsasən də obrazları tanımaq və mətni başa düşmək əldə olunan biliyə arxalanmadan heç cür həll oluna bilməz. Beləliklə, koqnitologiya yalnız fənlərarası elm deyil, insan tərəfindən koqnitiv prosesləri öyrənərkən fəlsəfəni, riyaziyyatı, dilçiliyi, psixologiyanı, informasiya nəzəriyyəsini və s. birləşdirən sintetik elmdir.

2) Koqnitiv psixologiya – koqnitiv dilçiliyin mənbələrindən biridir və bu elm
psixolinqvistikanın təcrübəsinə əsaslanırdı. Əsas məsələ o idi ki, dilin fəaliyyəti, həqiqətən, psixoloji mexanizmlərə söykənir. Çünki dil insanın dünya və ya biliklərlə qarşılıqlı əlaqəsindəki kateqoriyalaşmış təcrübənin toplanması, eləcə də saxlanmasında ən vacib şərtdir. Belə ki, hər hansı təcrübənin əsasını yaddaş və qavrayış təşkil etdiyinə görə psixologiya çərçivəsində tədqiq edilən prosesləri nəzərə almadan idrak və dili öyrənmək qeyri-mümkündür. Dilçiliyin psixoloqlarla qarşılıqlı münasibətində əlavə münaqişəyə səbəb belə bir fikir oldu. Bu fikrə əsasən mental kateqoriyaya aid hər bir tədqiqat psixologiyaya aiddir və başqa elmlərlə qarşılıqlı münasibət tələb olunmur .

3) Koqnitiv dilçiliyin daha bir mənbəyi linqvistik semantikadır. Bəzi dilçilər koqnitiv

dilçiliyi "çox dərin semantika" hesab edir və ona semantik ideyaların təbii inkişafı kimi baxırlar. Onlar dil semantikası arxasında daha aydın, ümumi kateqoriyalar görürlər və bunları dünyanın insanın idrakı tərəfindən mənimsənilməsinin nəticəsi kimi təsəvvür etmək olar. Təbii ki, bununla məhdudlaşmaq kifayət olmaz. Belə ki, hər şeydən öncə, koqnitiv dilçilikdə əldə edilmiş bəzi nəticələr təkcə dilin semantikasına tətbiq edilə bilməz. Ona görə ki, koqnitiv dilçilikdə işlənmiş prototip anlayışı, eyni zamanda fonologiyada, morfologiyada, dialektologiyada və s. tətbiq edilə bilər.

Koqnitiv dilçiliyin meydana gəlməsində adları şəkilən üç mənbədən savayı, aşağıdakılar da böyük rol oynadı:

a) Konseptlərin meydana gəlməsi və fəaliyyətində mədəniyyətin rolunu

müəyyənləşdirməyə imkan verən kulturologiya;

b) İnsan beyninin əqli (mental) fəaliyyətində dili bütövlükdə idrakın əsası kimi öyrənən

"neyrolinqvistika";

c) Dili mənimsəmə və ondan istifadə etməklə ümumbəşəri mexanizmlərlə əlaqəli olan

ümumi problemlərlə koqnitiv dilçiliyi birləşdirməyə imkan verən "psixolinqvistika";

d) Dilin strukturunda nəyin universal olduğunu daha yaxşı başa düşməyə imkan verən

"dilçilik tipologiyası".

Dilin başa düşülməsində onun insanla, insanın ağlı ilə, bir sözlə, bütün idrak prosesləri ilə bağlı yeni aspektlər koqnitiv dilçiliklə bağlıdır. Qeyd edək ki, dil vasitəsiləri ilə yaradılan konseptual strukturlar fərdin zəruri təcrübəsindən daha çox onun mümkün təcrübəsinə aiddir. Belə ki, bir konseptual sistemin müxtəlif konseptləri eyni sözlə ifadə edilə bilər, lakin bu da dil ifadələrinin eyni mənalı olmadığını əks etdirir. Məsələn: insan və at qaçır, saat qaçır, fikirlər qaçır, çay qaçır (axır). Lakin dil ifadəsi hər halda məyyən konseptlə əlaqələnir.

İnsanın koqnisiyaya, yəni bütün idrak fəaliyyətinə dünyada inkişaf bacarığını inkişaf etdirmək kimi baxmaq olar. Bu fəaliyyət, öz növbəsində, obyektləri eyniləşdirmək zərurəti ilə bağlıdır. Təbii ki, konseptlər bu cür əməliyyatları təmin etmək üçün meydana çıxır. Konseptlər təsəvvür edilən və müşahidə edilən hadisələr müxtəlifliyini müvafiq bir şeylə əlaqələndirirlər . Onlar dünya haqqında biliyi saxlamağa imkan verirlər və konseptual sistemi tikinti materialı kimi təzahür edirlər. Bununla da məlumatı, yəni

informasiyanı cəmiyyət tərəfindən kateqoriya və ya siniflərə tabe etməklə subyektiv təcrübənin işlənməsinə yardım edirlər (4, s. 94).

Koqnitiv dilçiliyin əsas terminləri bunlardır: konsept, koqnitiv model, dünyanın dil mənzərəsi, konseptual sistem, ağıl, biliklər, milli-mədəni məkan, koqnisiya, koqnitiv baza, konseptosfera və s. Bütün bunlar koqnitiv fəaliyyətlə bağlı olur və insan nəticədə müəyyən biliyə və yaxud qərara gəlir. Koqnitiv fəaliyyət elə prosesdir ki, onlar məlumatın, yəni informasiyanın işlənməsini müşayiət edir, eləcə də təfəkkür və ya şüurun xüsusi strukturlarının yaranmasında iştirak edir. Burdan belə bir nəticəyə çıxmaq olura ki, demək, dil fəaliyyəti koqnitiv fəaliyyətin bir növüdür.

Koqnitiv dilçilik üçün vacib olan bəzi anlayışlara nəzər yetirək:

Ağıl – insanın səbəbiyyatı dərketmə qabiliyyəti, həmçinin əşyalarla hadisələr arasındakı əlaqəni, dəyərləri, bu əlaqələr daxilindəki məqsədə-uyğun fəaliyyəti dərk etəmk qabiliyyətidir. Bir sözlə, ağıl biliklər yaratmaq, eləcə də onların mövcud orqanizmin mühitlə qarşılıqlı əlaqəsini məqsə-dəuyğun şəkildə həyata keçirmək mexanizmidir. Bununla yanaşı, mühit dedikdə orqanizmin həyat fəaliyyəti prosesində qarşılaşdığı sosial, fiziki və mənəvi amillərin məcmusu başa düşülür.

Bilik – həm obyektiv, həm də subyektiv baxımdan düzgün olan və məqsədə uyğun davranış təmin edən nəticələr, eləcə də mühakimə qurmaq mümkün olan anlayış və təcrübəyə malik olmadır. Bir sözlə, bilik - "dünyanın obrazını" formalaşdıran qeyri-verbal və verbal təcrübənin məhsuludur. Petirim Sorokin qeyd edirdi ki, elmi həqiqətin üç növü mövcuddur: 1) elmi-rasional (elmi biliklər); 2) hissi empirik (adi biliklər); 3) intuitiv həqiqət. Bunların hər biri natamam həqiqətdir və tam həqiqət isə onların bir tam şəklində inteqrasiyasında olacaq.

Qeyd edək ki, biliklərin elmi və adi adlandırılması bir neçə parametrə əsaslanır. Filosoflar V.A Ştaff və D.V. Viçev məhz bu məsələ ilə bağlı məqalə yazmış və orada bu problemi belə izah etmişlər: "Adi biliklər elmi biliklərdən subyektiv təbiətinə (geniş xalq kütlələri), əmələ gəlmə mənbə-yinə (həyat təcrübəsi, bilavasitə əmək fəaliyyəti), ümumiləşdirmənin üslubu və xarakterinə, dilə və digər xarakteristikalarına görə fərqlənirlər".

Konseptuallaşma və ya konseptualizasiya – müasir dilçilikdə biliklərin strukturlaşması prosesini dərk etmənin müxtəlif formaları üçün "müəyyən aralıq" və hər hansı minimal konseptual vahidlərdən müxtəlif strukturlu biliklərin meydana gəlməsi üçün şərh edilir (2).

Konseptual sistem dünya haqqında insanın təcrübəsini əks etdirən bilik və rəylər sistemidir.

Mentalllıq – dünyanın xüsusi mənzərəsini düzəltməyi əhatə edən təfəkkür proseslərinin məcmusudur.

Koqnitiv baza – müəyyən dildə danışanların hamısının malik olduğu bu və ya digər linqvokultural, yəni dil mədəniyyəti cəmiyyətinin mütləq biliklərinin müəyyən üsulla quraşdırılmış məcmusudur. Koqnitiv baza koqnitiv strukturlarla düzəlir. Belə ki, koqnitiv struktur şəklində kodlaşdırılan, həmçinin saxlanan informasiyanın tərkibinə təkcə dünya haqqında məlumat deyil, eyni zamanda dili bilmək, dil haqqında bilik daxildir.

Milli-mədəni məkan – insanın mövcud olduğu və fəaliyyət göstərdiyi, digər mədəniyyət hadisələri ilə toqquşduqda dərk edilən informasiya – emosional sahə, virtual və eyni zamanda real məkandır. Bura hər hansı bir mədəni-milli romanın üzvlərinin mədəniyyət fenomenləri haqqında bütün aşkar və potensial (həm ümumuxalq, həm də fərdi – şəxsi) məlumat daxildir.

Mədəniyyət konstantları – bunlar elə konseptlərdir ki, çox qədimdə meydana gəlib, bizim zəmanəyə qədər mütəfəkkirlərin yazıçıların və siravi dilçilərin nəzərlərində izlənilmişdir.

Kateqorizasiya (dərəcələnmə) – dünyanın strukturlaşması, obyektin və ya sözün bu və ya digər qrupa aid edilməsi üsuludur. Kateqoriyalaş-dırmaya bu cür yanaşmanın problematikliyi ondan ibarətdir ki, o, mənanı elə şərh edir ki, sanki o, bizi əhatə edən aləmdə bizdən xaricdə mövcuddur. Ona görə də kateqoriyalaşdırmada nə koqnitiv proseslərin rolu, nə də ki mənanın müəyyənləşdirilməsində mədəni modellərin rolu nəzərə alınmır. Məsələn: “subay” sözü ər-arvadın cinslərinin əksliyini, insanların adətən evləndiyi yaş çərçivəsini və s. nəzərdə tutur. Ancaq dünya daha mürəkkəb quruluşa malikdir və o qədər də aşkar şəkildə kateqoriyalara bölünməyib. Məsələn: elə kişilər var ki, dini səbəblərə görə evlənmirlər (rahiblər və ya katolik ruhaniləri). Modeldə nəzərdə tutulan bəzi kateqoriyaların sərhədləri aydın deyil. Məsələn: insan nə zaman “böyük (yaşlı) “olur? 18, yoxsa 21 yaşına çatanda?

50-ci illərdə Vingenşteyn özünün “Fəlsəfi tədqiqatlarında” qeyd edirdi ki, biz gündəlik həyatda kateqoriyalaşmaya qeyri-klassik yanaşma tətbiq edirik. Lakin onlardakı konseptual kateqoriya və üzvlük vacib, kifayətedici əlamətlərlə deyil, müxtəlif vaciblik dərəcəsinə malik ola bilən bəzi amillərlə təyin edilir. Vingeşteyn özünün “oyun” (alm. “Spiel”) sözünün mənasını necə təyin etməklə bağlı sualı müzakirə edir. Oyunlar müxtəlif olur (Kart, stolüstü, Olimpiya oyunları), ancaq kateqoriyalaşmanın klassik nəzəriyyəsinə onların onları oyun edən ümumi xüsusiyyətlərə malik olmalıdır. Bununla belə, o yazırdı ki, oyunun nə olduğunu təyin edən, eləcə də uyğun gələn əlamətlərin mürəkkəb şəbəsəki mövcuddur. Vingeşteyn kateqoriya üzvləri arasında həm fərqli, həm də oxşarlığı səciyyələndirmək üçün “ailəvi oxşarlıq” termini işlədir. Alim ona görə bu termindən istifadə

edirdi ki, ailə üzvlərinin fiziki əlamətləri qismən uyğun gəlir, ancaq nadir hallarda ailədə, hətta iki nəzərdə tutulan əlamətlərin çoxu mövcud olur.

Labov da ev əşyalarının dil baxımından kateqoriyalaşmasını öyrənərək Vingeşteynlə oxşar nəticəyə gəlir: "mugs" (parçalar), "vases" (güldanlar), "cups" (fincanlar), "bowles" (nimçələr). Klassik nəzəriyyəyə əsaslanan fikirlərin əksinə olaraq "cup" və "bowl" arasında aydın ayrıca xətt yoxdur. Belə ki, əgər şəkildəki əşyanın qulpu yoxdursa, yoxlamalar onu "cup" kateqoriyasına aid edirdi, əgər əşya kifayət qədər enlidirsə, onlar deyirdilər ki, bu "bowl" dur (5).

Roşun da tədqiqatları kateqoriyalaşmaya alternativ yanaşmanı təsdiq edir. O, müxtəlif eksperimental modellərin köməyilə göstərdi ki, kateqoriyada üzvlük dərəcəsi psixoloji cəhətdən əsaslandırılmış anlayışdır. Semantik kateqoriyanın bəzi üzvləri başqalarından daha prototipik olurlar.

Deyilənləri nəzərə aldıqda koqnitiv dilçiliyin əsas problemlərinə aşağıdakıları aid edə bilərik:

a) Dil və təfəkkür arasında əlaqə (dildən istifadə edərək danışanın öz sərəncamında olan söz və qramamtik konstruksiyalar vaistəsilə dünyanın şərhini necə əks etdirir);
b) Təbii dillərdə kateqoriyalaşmanın xassələri (metafora, koqnitiv modellər, həmçinin prototiplik) (4).

Koqnitiv dilçilik baxımından idrak konseptlərin yaranması və transformasiyasıdır. Buna görə də koqnitiv dilçilikdə ən mühüm tədqiqat obyekti konseptdir. Konseptlər bizim dünya haqqındakı şüurumuzun, həmçinin biliklərimizin komponentləri kimi çıxış edir. Konseptin təbiətini təsvir və təyin etmək üçün ən yaxşı vasitə dildir. Bəzi alimlər konseptləri iki yerə bölürlər: 1) Ən sadə konseptlər. Bu konseptlər bir sözlə ifadə olunur; 2) Daha mürəkkəb konseptlər. Bu konseptlər söz birləşmələri və cümlələrlə ifadə olunur. Digər alimlər isə ən sadə konseptləri leksikanın komponent anlayışı zamanı aşkar edilənləri hesab edirlər (3, s. 25-36). Konseptlər dünya haqqında bilikləri saxlamağa imkan verir

Konseptosfera – dil daşıyıcılarının dünyanı dərk etməsini təşkil edən konseptlər məcmusudur. Məsələn: Bəzi alimlərin fikrincə, bizim xalqın mentalitetinə, mənəvi təcrübəsinə, eləcə də şüuruna daxil olmuş genetiv kod Xeyir, Sülh, Fayda, Həqiqət Yaradan kimi konseptlərlə təqdim edilə bilər. Təbii ki, bunların hər birində kimliyimizi müəyyən edən şüurun konseptosferi daxilində dini mahiyyətli mənalar vardır.

Onu da deyək ki, dilin zənginliyi yalnız lüğət tərkibinin zənginliyi və qrammatik imkanlarla deyil, eyni zamanda milli dil şəxsiyyətinin formalaşdığı konseptosferanın və konseptual aləmin zənginliyi ilə təyin edilir.

Koqnitiv elmin ən mühüm obyekti dildir, lakin indi alimlər dilə müxtəlif mövqelərdən yanaşırlar. Onların fikrincə, dilə müraciət etmədən insanın dil informasiyasını qavrama, mənimsəmə və işlənməsi, problemləri həll etmə, mülahizə yürütmə, eləcə də onun bilik əldə etmə, onu təqdim etmə, ondan istifadə etmə kimi koqnitiv qabiliyyəti başa düşmək olmaz. Y.S. Kubryakova qeyd edir ki, koqnitiv dilçilik təkcə dili deyil, həm də koqnisiyanı da (idrak, tanıma, dərk etmə) tədqiq edir (6).

Hələ V. Humboldt hesab edirdi ki, dil insanın varlığı və idrakının bütün sahələrinə daxil olan insan ruhunun ən əsas fəaliyyətidir. Məhz koqnitiv dilçiliklə məşğul olan dilçilərin diqqəti dilin idrakın şərhi, eləcə də alət kimi rolunu aşkara çıxarmağa yönəldi. Çünki hər bir dil dünyada hər hansı bir şeyi qeyd etməklə o dildə danışanlar üçün dünyanın mənzərəsini yaradır.

Təfəkkür məsələlərinin həlli bilavasitə dildən istifadə ilə bağlıdır. O, biliyi, xəbəri və məlumatı təkcə vasitə ilə ifadə edir, eyni zamanda fərdin kənardan aldığı məlumatı emal edir, daha dəqiq desək, spesifik dil freymləri qurur. Bununla da dil bir çox biliklərin yaddaşda hər bir etnomədəni kollektiv üçün dünyanın dil mənzərəsini yaratmağı qaydaya salmaq və sistemləşdirmək üçün imkan yaradır. Amerikalı dilçi U. Çeyf özünün baza, yəni dil modelində dili yalnız son mərhələdə daxil edirdi və qeyd edirdi ki, dilin rolu yalnız artıq hazır konseptləri kodlaşdırmaqdan ibarət idi.

Müasir dövrdə koqnitiv dilçilik qarşısında üç əsas problem qoyulmuşdur: dil biliyinin təbiəti haqqında, onun mənimsənilməsi və istifadə edilməsi haqqında. Buna görə də tədqiqat aşağıdakı istiqamətlərdə aparılır (1, s. 3):

a) Bu işarələrdə qnesologiya – dərk etmə (idrak) nəzəriyyəsi və işarələrdən bilik alma

mexanizmi, yəni şərh qaydası (koqnitiv semantika və praqmatika);

b) İşarələrin meydana gəlməsi və inkişaf etməsi şərtləri və onların işini tənzim edən

qanunlar;

c) Dil işarələri və onlarda əks olunmuş mədəni reallıq.

Koqnitiv dilçilikdə əsas problem kimi koqnitiv zəncirdə "ağıl (şüur)-dil-təqdimat-

konseptuallaşma-kateqoriyalaşma-qavrama" və s. arasındakı asılılıq, eləcə də münasibətin təyin edilməsi ilə bağlı bir sıra məsələlər daha tez-tez meydana çıxır. Beləliklə, dil öyrənməyə bu günkü yanaşma o qədər mürəkkəb və ciddidir ki, filosofların, psixoloqların, neyrofizioloqların, kulturoloqların, həmçinin süni intellekt sahəsində çalışan mütəxəssislərin və s. cəhdini birləşdirmə fənlərarası koqnitiv elm kimi səciyyələndirilə bilər. Belə ki, dilçilik nəzəriyyəsi yalnız dil nədir sualına yox, eyni zamanda insan dil

vasitəsilə nəyə nail olur sualına da cavab verməlidir. Bununla əlaqədar olaraq koqnitiv dilçiliyin məqsədi aşağıdakıları dərk etməkdir:

a) Dünyanı anlamaq, həmçinin dərk etmək prosesində dilin rolu;
b) Biliklərin konseptuallaşdırılması, dərəcələnməsi (kateqoriyalaşması), onları təsvir etməyin vasitə və üsulları;
c) Dünya haqqında informasiyanın alınması, işlənməsi və ötürülməsi prosesində dil

bilikləri;

d) Dünyanın dil mənzərəsi problemləri.

Qeyd edək ki, Y.S. Kubryakova koqnitiv dilçiliyin seçdiyimiz məqsədlərini "dil

vahidlərinin, dil proseslərinin, kateqoriyaların və s. onların təxəyyüllə (təsəvvürlə), qavrayışla, təfəkkürlə əlaqəsini öyrənmək kimi qruplaşdırmışdır" (6, s. 32).

Koqnitiv dilçilik dilin analizini konsept haqqında mülahizə mətnlərində verilmiş müvafiq leksemlərin işləndiyi müxtəlif kontekstlərdəki nitq analizi ilə, onların müxtəlif sorğu və lüğət kitablarındakı təyinatı ilə konseptin olduğu atalar sözləri, zərb-məsəllər, frazeologiya və aforzimlərin analizi ilə tamamlanır.

Ədəbiyyat

1. Bybee J. L., S. Fleischmann (eds). Modality in Grammar and Discourse (Typological Studies in Language, vol 32). Amsterdam, John Benjamins publishing company, 1995, 468 p
2. Lesgold A.M.; Perfetti C.A., Interactive Processes in Reading. USA, 1981, Lawrence Erlbaum Associates. 107-129 p p
3. Kintsch W. The representatiom of meaning in memory. USA, Lawrence Erlbaum Associates ,1974. 153-165 pp
4. Rosch E. Cognitive Representations of Semantic Categories. Journal of Experimental Psychology: General 104, 1975, 192-233 pp
5. Лабов У. Структура денотативных значений, - Новое в зарубежной лингвистике, вып.14. Москва, Прогресс, с. 133-177
6. Кубрякова Е. С. Начальные этапы становления когнитивизма: лингвистика – психология – когнитивная наука // Вопросы языкознания. 1994. № 4. С. 34-47.

А.Махмудова

Научно-теоретические основы когнитивной лингвистики

Резюме

В статье рассматриваются теоретические основы когнитивной лингвистики, новые методы, которые были применены в языкознании благодаря когнитивизму. Кроме того, в статье освещаются основные термины когнитивной лингвистики и важные основные понятия. В когнитивной лингвистике в когнитивной цепи, которая является одной из основных проблем, часто возникает зависимость между «ум (сознание) – язык – презентация – концептуализация – категоричность – восприятие» и т.д., а также ряд вопросов, связанных с назначением отношений. Таким образом, нынешний подход к изучению языка является настолько сложным и серьезным, что попытки философов, психологов, нейрофизиологов, культурологов, а также экспертов и других лиц, работающих в области искусственного интеллекта, могут быть охарактеризованы как наука, объединяющая когнитивизм между предметами. Итак, теория языкознания должна ответить не только на вопрос, что такое язык, но и на вопрос, чего достигает человек.

A. Mahmudova

Scientific-theoretical bases of cognitive linguistics

Summary

Scientific-theoretical bases of cognitive linguistics, the innovations brought by kognitivism to linguistics are noted in the article. In addition are spoken about main terms and important definitions. Dependence among “the mind (consciousness)-language-presentation-conceptualition-categorytion-perception” and others in cognitive chain as main problem of cognitive linguistics, as well as a number of issues related to the appointment of attitudes often emerged. Thus, he current approach to learning language is so complex and serious that can be characterized as interdisciplinary cognitive science combining attempt of philosophers, psychologists, neyrofiziologs, culturologists, as well as experts that working in the field of artificial intelligence. Theory of linguistics must answer not only of the question what is language, but also to the question human is archieved through language to something.

Rəyçi: **Aslan Məmmədli**
filologiya elmlər doktoru, professor

ZİVƏR HÜSEYNLİ BAYLAN
filologiya üzrə fəlsəfə doktoru
Xəzər Universiteti Dillər və mədəniyyətlər kafedrasının dosent əvəzi
zevarus@gmail.com

TÜRKCƏDƏN FARSCAYA KEÇMİŞ ƏŞYA ADLARI (SƏFƏVİLƏR DÖVRÜ)

Key words: Turkish language, Persian laguage, Savafid period, object names
Açar sözlər: Türk dili, fars dili, Səfəvilər dövrü, əşya adları
Ключевые слова: Турецкий язык, персидский язык, период Сефевидов, названия предметов

Giriş

Müasir Türkiyə, Qafqaz, İran, və İraq ərazisində yaşayan türklər fərqli zamanlarda adı keçən bölgələrdə siyasi sahədə fəaliyyət göstərmiş və dövlətlər qurmuşlar. Oğuzlardan gələn bu türklər, Səlçuqlardan sonra Elxanlı, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri adı altında bu bölgədə hakimiyyətlərini davam etdirmişdirlər. Nəhayət 16-ci əsrin başlarında Azərbaycan Səfəvilər dövlətini qurdular və bugünki İran, İraq və Qafqaz daxil olmaqla böyük bir əraziyə hakim oldular. Dövləti 1501-ci ildə tanınmış sufi xanədanının mənsubu olan I Şah İsmayıl, Anadolu türklərinin dəstəyi ilə qurdu və Azərbaycanın böyük şəhəri Təbrizi paytaxt etməklə şahlıq taxtına oturdu.

Tarixdə Şah İsmayılın milli mənsubiyyəti haqqında fərqli fikirlər söylənilsə də əldə olan sübutlar onun türk olduğunu isbat edir (2.s.39-42, 8.s.90 və 9.s. 2734) və qurduğu dövlət də bir türk dövləti kimi qəbul edilir. Əslində onun qurduğu dövlətin sürətli inkişafı və qazandığı nüfuzu, ətraf bölgələrdə yaşayan türklərin varlığından və ən əsası türk tayfalarının dəstəyindən qaynaqlanırdı. Səfəvilər dövləti özündən əvvəl bölgədə qurulmuş dövlətlərin bürokratik tecürbələrindən qismən faydalansa da mədəniyyət və xüsusilə dil baxımından əvvəlki dövlətlərdən fərqlənirdi. Belə ki, dövlətin qurucusu və yüksək mövqeli dövlət adamları türk mədəniyyəti və türk dilinə daha çox üstünlük verirdilər. Bu da adı keçən dövrdə türklərin mədəniyyət və dillərinin daha çox yayılması və inkişafına səbəb olurdu. İranlı yazıçı Zəbihullah Səfanın sözləri ilə desək "onların (türklərin Z.H.B.) zəfəri və hökümdarlıqları nəticəsində türk dili hakimlərin, ordu mənsubları və əsgərlərin dilinə çevrildi və beləcə türk dili və türk mədəniyyətinin İranda yayılmasına uyğun mühit yarandı”.(10. c.4. s.194)

Səfəvi xanədanının ana dili olan türkcə, Oğuz qrupuna aid, bu gün Azərbaycan dili olaraq tanınan türkcədir. Bu dil, o dövr qaynaqlarında əsasən "Qızılbaşi", "Turki" ya da "Torki" olaraq qeyd olunur . XVI-XVII əsrlərdə Osmanlı türkcəsi ilə çox fərqi olmasa da yazı nümunələrinin bugünkü Azərbaycan türkcəsinə uyğun olduğunu görürük. Məqalədə nəzərdə tutulan türkcə də məhz bu gün Azərbaycan dili adlanan türkcədir.

Türk dilinin genişlənməsi əvvəlki türk dövlətlərinin vaxtından başlasa da Səfəvilər dövründə daha çox yayğınlaşmış və rəsmi dil səviyyəsində istifadə edilmişdir. Səfəvi rəsmiləri tərəfindən yazılmış bəzi türkçə rəsmi yazışmalar və sənədlərdən başqa saray və ordu mənsubları bu dildə danışır və hər kəsin bu dili öyrənməsi zəruriyyəti tələb olunurdu. Bu barədə Səfəvi sarayına gəlmiş digər ölkələrin rəsmi nümayəndələri və ya bu torpaqlarda gəzmiş səyyahlar öz qeydlərində əhəmiyyətli məlumatlar vermişdirlər.(6. s.8-13)

Türk dilinin bu şəkildə genişlənməsi, Azərbaycan- türk dili və ədəbiyyatının daha çox inkişafına səbəb oldu və bu dildə əsər yazan şair və yazarların və türkcə yazılmış əsərlərin sayı artmağa başladı.

İslam dünyasınnın əsas dillərindən sayılan türk dili və ədəbiyyatı həm inkişaf etmiş, həm də rəsmi dil olaraq yerli və ətraf xalqların dil və ədəbiyyatını öz təsiri altına almışdır. Qeyd olunan dövrdə türk dilinin daha əvvəlki əsrlərdə bölgədə yayğın olan fars dili üzərində daha çox təsir qoyduğunu görürük. Bildiyimiz kimi, Səfəvilər dövləti daxilində yaşayan xalqlar əsasən türklər və farslar olmuşdur. Bu iki xalqın sıx əlaqəsi əvvəlki əsrlərdən başlamış, Səfəvilər dövründə də davam etmişdir. Həmin əlaqə onların mədəniyyət, din, dil və s. baxımdan yaxınlaşmalarına, hətta bir-birlərinə təsir göstərmələrinə yol açırdı. İslamdan sonra ortaq dini paylaşan bu xalqların bir-birinə dinlə birlikdə mədəni təsirləri var idisə də, dil təsiri sonradan başladı və Səfəvilər dövründə bu təsir daha kəskin şəkil aldı. Beləliklə, çoxlu sayda sözlər farscadan türkcəyə, türkcədən də farcaya keçərək işlənməyə davam etdi.

Türkcədən fars dilinə keçmiş sözlər bölgədəki insanların hərbi, saray, ictimai və digər sahələrdə həyatlarına aid olan sözlərdən ibarətdir. Səfəvi dövründə yazılmış farsdilli qaynaqları araşdırdıqda türk dilində bir çox sözdən başqa, cümlə, şeir hətta rəsmi sənədlərlə də qarşılaşırıq.

Farsdilli tarixi mətnlərdə mövcud olan türkcə sözləri araşdırmaqla yüz səhifə həcmində türkcə sözləri fars dilində qarşılığı ilə birlikdə “Təsiri-zəbani- toki dər farsi dər neveştehayi- tarixiyi- doreyi- Səfəvi”- (Səfəvi dövrü tarixi yazılarda türk dilinin fars dilinə təsiri) adlı fəlsəfə doktorluğu işimdə yazılmışdır. Sözlərin fars dilində mənasından başqa etimologiyası haqqında də məlumat verilmiş, türkcə olduğunu isbat etmək üçün “Divani-lüğəti- türk”, “Sənglax”, “Burhani- qate”, “Sihahul-əcəm” kimi türkcə və

farsca lüğətlərdən və Gerhard Doerferin "Turkische und Mongolise Elemente im Neupersischen" kitablarından sübut gətirilmişdir. Bundan başqa, hər sözün izahından sonra tarixi qaynaqlarda işləndiyi bir neçə cümlə nümunəsi də verlmişdir. Qeyd etməliyəm ki, üzərində araşdırma apardığım tarixi kitablar bir çox elm adamlarına məlum olan məhşur "Aləmarayi-Abbasi", "Xülasətüt-təvarix", "Əhsənüt-təvarix", "Aləmaray-i Şah İsmayıl", "İran dər zamani- Şah Səfi və Şah Abbasi- dovvom" və bir neçə məşhur tarixi əsərdən ibarətdir.

Bu məqalədə yalnız ictimai sahəyə aid olan sözlər arasından insanların o dövr istifadə etdikləri əşya adları üzərində dayanmaqla kifayətləndik. Məqalənin həcmini aşmamaq üçün hər sözdən sonra isanad olaraq fəlsəfə doktorluğu dissertasiyasının səhifələri göstəriləcəkdir. Həmçinin sözlərin müasir Azərbaycan, Türkiyə türkcəsi və fars dilində istifadəsi haqqında məlumat veriləcəkdir.

Fars dilində işlənən türkcə əşya adları

Dilimizdə insan həyatının müxtəlif sahələrinə aid çoxlu sayda sözlər vardır. Bu sözlər əsasən hərbi, siyasi, mədəni və sosial sahəyə aiddir. Sosial sahəyə ad sözlər insanların ictimai həyatına aid hər bir şeyi ifadə edən sözlərdir. Bu sözləri adət- ənənə, insanların həyatı boyunca məişətdə istifadə etdikləri əşyalar, geyim, yedikləri yemək, ailə və digər kateqoriyalara ayırmaq olar. Həmin kateqoriyalar aşağadakılardan ibarətdir:

1- Adət- ənənəyə aid sözlər

2- Ailəyə aid sözlər

3- Məişət həyataına aid və əşya adları bildirən sözlər

- Ev əşyaları adları
- Geyim adları
- Heyavandarlığa aid əşya adları
- Hərbi sahəyə aid silah-sursat adları

Bunlar arasından yalnız üçüncü kateqoriya, məişət həyatına aid, əşya adlarını ifadə edən sözlər haqqında məlumat veriləcəkdir.

Ev əşyaları adları

Əşya adlarını sadalamazdan əvvəl, məişət həyatına aid məkan adını bildirən sözlərdən olan "otaq" və "alacıq" sözləri haqqında da izah verməyi zəruri bildik. Farsdilli mətnlərdə türk dilindən götürülmüş həmin sözlərdən biri köhnə mətnlərdə "اوطاغ, اوتاق, اوتاغ, اتاق ya اوتاق" şəkilində yazılmış "otaq" sözüdür. Səfəvilər dövründə ev, otaq, çadır mənası verən bu söz müasir fars dilində "اتاق- otaq", Azərbaycan türkcəsində "otaq" şəkilində və eyni mənada istifadə edilir.(5. s.99) Hələ Səfəviərdən çox əvvəlki dövrlərdə yazılmış tarixi-Beyhəqi və Siyasətnamə əsərlərində bu söz "vesak- وثاق" olaraq yazılmış və bu sözün Türkcə olduğu barədə açıqlama verilmişdir.(11. s.394-395)

Köçəri tüklərin yaşadığı evi əvəz edən, “çadır” mənası verən digər bir söz “الاچوق, آلاچیق, آلاچیغ, الجوق, آلاجوغ” şəkilində yazılan “alaçıq” sözüdür. Müasir fars dilində “آلاچیق- alaçığ” şəklində yazılan bu söz türk tayfalarının çadırı mənasında hələ də istifadə edilməkdədir.(5. s.97 və 3. s.43)

Qamışdan düzəldilmiş kiçik hasar mənasında olan “چپر - çəpər” sözü fars dilinə keçmiş digər bir türk sözüdür. Səfəvilərdən əvvəlki və sonrakı dövrlərdə istifadə edilən bu söz müasir Azərbaycan və Türkiyə türkcəsi və fars dilində hələ istifadə edilməkdədir.(5. S.136)

Ev əşyası adlarından “قاپی ya قاپو”şəkilində yazılan “qapi” ya “qapu” sözü Azərbaycan türkcəsində “qapı”, müasir fars dilində isə həyət qapısı mənasında istifadə edilməkdədir. Qeyd etməliyəm ki, müasir fars dilində həyətin giriş qapısına “qapu” deyldiyi halda Azərbaycan türkcəsində, fars dilindən götürülmüş “dırvaze” sözündən olan “darvaza” kəlməsi işlənilir.(1 s.782) Səfəvilər dövründə qapı, saray mənasında istifadə edilmişdir, bunun bariz nümunəsi İsfahan şəhərində mövcud olan Səfəvilərə aid möhtəşəm memarlıq əsəri, çoxmərtəbəli “Ala-qapu” sarayıdır. “Divani- lüğəti-türk”də “قپغ -qəpəğ- qapağ” şəkilində, eyni mənada və Sənglax lüğətində saray mənasında yazılmışdır. Sənglax`da bu sözün digər sinonimi “eşik” sözü də verilmişdir.(5. S.158 və 3. s.807)

Evdə istifadə olunan əşya adlarından “یتاق” ya “یرتال” şəkilində yazılan “yataq” və “yərtal” sözləri fars dilində işlənmiş sözlərdəndir. Yataq sözü Səfəvi dövrü mətnlərdində və müasir Azərbaycan türkcəsində yatacaq yer və heyvanların qaldıqları yer mənasında işlənməkdədir.(5. S.182) Müasir farscada isə bu söz qoruma, gözətçilik mənasındadır. (1. s.1184 və 3. s.1081)

Ev içərisində istifadə edilən, türkcə adı olan əşyalardan biri “ارتوك” şəkilində yazılan “örtük” sözüdür. Parça ya keçədən hazırlanan örtük, örtmək felindən gəlmişdir, müasir Azərbaycan türkcəsində “örtük” şəklində işlənməkdədir. Qeyd etməliyəm ki, Səfəvi dövrünə aid yalnız bir mətndə bu kəlmə ilə qarşılaşdıq.(5. S.100)

“قالی ” şəkilində yazılan xalı sözü müasir Azərbaycan türkcəsində “xalı” və fars dilində “قالی- qali” olaraq işlənilir. Bundan başqa bu sözdən alınmış “قالی – qali” və “قالیچه – qaliçe” sözü fars dilində istifadə olunur.(3. s.809) Sihahul-əcəm lüğətində “خالیچه- xalıçe” şəkilində yazılan bu söz müasir Azərbaycan türkcəsində “xalça” olaraq işlənməkdədir. (5. s.160 və 1. s.785)

“توشك” ya “دوشک” şəkilində yazılan “töşək” ya “döşək” sözünün mənası müasir Azərbaycan türkcəsində işlənən “döşək”dir. Divani- lügəti-türkdə “toşək” olaraq işlənən bu söz müasir fars dilində də eyni şəkildə istifadə edilməkdədir. (5. s.144 və 3. s.377) Bu sözdən düzəlmiş “توشکچی - toşekçi”-döşək düzəldən və “توشکخانه – toşəkxane”-döşək düzəldilən yer mənası verən sözləri də vardır. Hər iki söz Səfəvi dövrünə aid sözlərdir.

“بقچه” şəkilində yazılan “boğçe” sözü Səfəvilər dövründən müasir dövrə qədər fars dilində istifadə edilən digər bir türkcə sözdür. Müasir Azərbaycan türkcəsində “boğça” olaraq işlən bu söz, içərisinə əşyaların yığılıb dörd kənarı bağlanan parça mənasındadır.(5 s.144) Müasir fars dilində “بقچا” şəklində işlənən bu söz türk sözü kimi qəbul edilir.(3. s.236 və 1. s.183)

Türk dilindən fars dilinə keçmiş qab-qacaq kimi məişət əşyası adlarını bildirən sözlər də mövcuddur. Bunlardan biri “اياغ” şəkilində yazılan “ayağ” sözüdür. Şərab içilən qədəh mənası verən bu söz Səfəvilər dövründən əvvəl və sonrakı dövrlərdə fars mətnlərində istifadə edilmiş, müasir fars dilində də eyni mənada türk sözü olaraq işlənilməkdədir. (3. s.191) Əslində insan, heyvan və ya her hansı bir əşyanın ayağı mənasını vərən bu söz “Sihahul-əcəm” lüğətində eyni mənada iləndiyi kimi müasir fars dilində də “اياق” şəklində eyni mənada mövcuddur. (5. s.108, 3. s.191)

Qab mənası verən “قاب - qab” sözü müasir Azərbaycan dilində qab, fars dilində fərqli mənalarda işlənir; 3 lüğətində taxtadan düzəldilmiş şəkil ya tablo kənarına vurulan çərçivə (3. s. 807), Dehxuda lüğətində isə yemək qoyulan böyük padnos, mis sini mənasında verilmişdir. Bu söz Səfəvilərdən əvvəlki dövrlərdən fars dilində vardır.(5. S. 158 və 1. s. 781)

Səfəvi dövründən indiyə qədər fars dilində istifadə edilən daha bir sozu “قاشق” şəkilində yazılan “qaşıq” sözüdür. Bu söz Azərbaycan türkcəsində qaşıq, fars dilində də eyni şəkilində, eyni mənada işlənilir.(5. s.160, 1. s. 783 və 3. s.807)

“قازغان ya خزغان gazğan ya xazğan”şəkilində yazılan və “qazan” mənasında işlənən bu söz müasir Azərbaycan dilində qazan, fars dilində isə “قازغان”(3. S.807S) şəkilində və eyni anlmada istifadə edilməkdədir. (5. s. 159 və 1. s. 783) Qeyd etməliyəm ki, hal-hazırda müasir fars dilində eyni mənada işlənən “qabləme –قابلمه” sözü də dilimizdən fars dilinə keçmişdir.(3. S.806)

Digər əşya adlarından “تخماق - toxmaq” şəkilində yazılan və mıx vurmaq və ya daş-kəsək əzəmək üçün istifadə edilən böyük dəmir ya taxta başı olan gürz, çəkic mənasın söz vardır. (5 .s. 120 ve 1. s. 267) Bu söz Səfəvilərdən sonrakı dövrlər və müasir fars dilində eyni mənada işlənilməkdədir.(3. s.331)

“چاتو” şəkilində yazılan “çatu” sözü hörülmuş qalın kəndir mənasındadır və müasir Azərbaycan türkcəsi və farscada eyni mənada istifadə edilməkdədir. (1. s. 351)

Musiqi alətlərindən “برغو” şəkildə yazılan “borğu” sözü döyüşün başlandığı zaman çalınan buynuzabənzər bir musiqi aləti və ya şeypur adıdır. Divani- lügəti- türkdə “burguy- بورقوی” şəkilində yazılan bu söz Sihahul-

əcəm lüğətində də eyni mənada verilmişdir. Bü söz Səfəvilərdən əvvəl və sonrakı dövrlərədək fars dilində istifadə edilmişdir.(5. s. 114 və 1. s.168)

Toydan əvvəl kürəkən tərəfindən gəlinin ailəsinə göndərilən hədiyyə mənası verən "ساجاق ya ساچاق" şəkilində yazılan "saçaq" sözcüyü də farsdilli mətnlərdə yazılmışdır.(5. S.114) Bu sözə yaxın mənada olan "بلیک" şəkilində yazılan "bəlik" sözdü də əvvəlki dövrlərdən Səfəvi dövrünün sonundək istifadə edilmişdir.(5. S. 114)

- Geyim adları

Fars mətnlərində tacın üzərini bəzəmək üçün olan fərqli quşların tükləri və ya daş-qaşlarla bəzədilmiş, bəzək mənası verən "جیغه ya جیقه - çiğe- cıqqa" sözü vardır. Səfəvilər dövründən əvvəl və sonra fars dilində istifadə edilən bu söz müasir Azərbaycan türkcəsində cıqqa olaraq keçir.(5.s132)

"ساروق ya سارق" şəkilində yazılan "saruq" sözü sarımaq felindən gəlmiş, əmmamə, sarıq və börk mənasındadır. Fars dilində "ı" saiti olmadığı üçün "u" və "o" saiti ilə yazılmış bu söz ən çox Səfəvi dövrü mətnlərində istifadə edilmiş, müasir farscada isə "سارغ" şəklində boğça mənasında işlənir. (5. s.147 və 1. s. 559.) Qeyd etməliyəm ki, bu sözdən düzəlmiş, sarıq düzəldən mənasında işlənən "ساروقچی –saruqçi" -sarıqçı və onlara başçılıq edən "ساروقچی باشی- saruqçibaşi" kimi düzəltmə və mürəkkəb sözlər də Səfəvilər dövrü farsdilli mətnlərdə işlənilmişdir.(5. s.145)

"تتق" şəkilində yazılmış "totoq" sözü üst geyimi, çadır mənası verir. Bu söz Divani-lüğəti-türk və Bürhani-qate lüğətlərində və müasir fars dilində də eyni mənadadır.(5. S. 120 və 1. s.260)

Fars mətnlərində ayaqqabı adlarından "چارق, چاروغ چارغ, چاروق -çarıq" və "چکمه -çəkmə" sözləri vardır. Müasir Azərbaycan türkcəsində çarıq olaraq işlənən bu söz fars dilində "ı" saitinin "o" və ya "u" ilə əvəz olunmasından ötəri "çaroq-çaruğ" olaraq yazılır.(5. S. 135, 1. s. 352 və 3. s.420) Divani-lügəti-türkdə çarıq geyinmək mənasında "چارقلنماق" feili də işlənmiştir. (7. c.1. s.211) Çəkmə sözü də müasir Azərbaycan türkcəsi və fars dilində istifadə edilməkdə olan türk sözüdür. (5. s.138, 1. s.364 və 3.s.435)

"کپنک" şəkilində yazılan digər Türkcə söz çobanların çiyninə atdığı yapıncıdır. (5. s.172) Türkiyə türkcəsi və fars dilində istifadə edilən bu sözün Azərbaycancası yapıncı sözü də Səfəvi dövrü mətnlərində "یاپونجی – yapunci" şəkilində istifadə edilmişdir.(5. s.179)

- Heyvandarlığa aid sözlər

Xalqın həyatı boyu ruzisini qazanmaq üçün məşğul olduğu əkinçilik, heyvandarlıq və digər işlər uzun zamanlardan bəri edilən işlərdir. Türklər də qədim zamanlardan bəri heyvandarlıqla məşğul olan xalq olmuşlar və bu işi qərb torpaqlarına gəldikdən sonra da davam etdirmişdirlər. Elə buna görə də heyvandarlığa aid geniş istifadə olunan bir neçə söz türk dilindən fars dilinə keçmişdir.

İsti yay aylarında, çöldə, heyvanlar üçün hazırlanmış kənarları açıq yerə deyilən "ağıl" sözünü buna misal kimi göstərə bilərik. Farsdilli mətnlərində "آغل - آغیل" şəklində yazılan bu söz müasir fars dili lüğətlərində də "آغال-آغل" şəkillərində yazılır. (4. s.18 və 1. s.31) Fərhəngi- farsiyi-Əmid lüğətində isə "ağol" hin mənsında da işlənir.(3. s.36)

"آخر - آخور" şəklində yazılan digər bir söz heyvanların, xüsusilə atların ot yedikləri "axır"dır. Bu söz müasir fars dilində "آخور", Azərbaycan türkcəsində axur olaraq işlənir. Farsdilli mətnlərdə bu sözdən düzələn " آخور باشی-axurbaşı", "میرآخور -miraxur" ve "میر آخورباشی -miraxurbaşı" kimi mürəkkəb sözlər də vardır. (5. s. 95-96).

"چماق"(5. s. 160, 3. S.437) ya "قرقره" şəkilində yazılan "çomaq" və "qərqərə" sözləri çomaq mənasındadır və bu söz Səfəvilər dövründən əvvəlki zamandan müasir dövrə qədər fars dilində işlənilir.(5. s. 138 və 1. s.366) Bu sözlərlə sinonim olan, "دگنك" sözü eyni zamanda Səfəvilər və Qacarlar dövrü dövlət məmurlarının əllərində tutduqları bəzəkli və zərli çomağa da deyilirdi.(3. s.530)

"اوزنگو" şəkilində yazılan, üzəngi (5. s.107) və خورجین şəkilində yazılan və heybə mənası venen "xurcin" sözü (5. s. 142) müasir fars dilində və Azərbaycan türkcəsində eyni şəkildə və mənada hələ də işlənilməkdədir. Atçılığa aid digər bir söz, "قمچی" ya قامچی- qəmçi-qamçı" şəkilində yazılan "qamçı" sözüdür. Bu söz müasir fars dili, Azərbaycan və Türkiyə türkcəsində hələ kullanılmaktatdır. (1. s.800 və 3. s.820)

- Hərbi sahəyə aid silah-sursat adları

Səfəvilər dövrü farsdilli mətnlərdə istifadə edilən silah-sursat adlarının bəzisinin adı Türkcədir. Bu, bölgədə türklərin hərbi gücə sahib olduqlarından və ya həmin silahların türklər tərəfindən ölkəyə gətirldiyi səbəbindən qaynaqlanırdı. Bu gün Azərbaycan türkcəsində, fars dili üzərindən dilimizə keçmiş, ərəbmənşəli "silah" sözü istifadə edildiyi halda Səfəvilər dövrü fars dilində bu sözün yerinə, türkcə "یراق" şəklində yazılan "yaraq",(1. s.1186 və 3. s.1082) "جبا ya جبه"şəklində yazılan "ceba" və ya "قور"(1. s.803 və 3. s. 822) şəklində yazılan "qur" terminlərini işlənirdi. Bu sözlər fars dilindəki "خانه- xana" sözü ilə birləşdirilib silah anbarı mənası verən cəbexane " جبه خانه, جباخانه" (5. s.130, 1. s.327 və 3. S.391) və qurxane "قورخانه" (5. s. 168, 1. s. 803 və 3. s.822) sözlərini meydana gətirmişdir ki, sözün Azərbaycancası "cəbbəxana" və "qurxana" şəklində işlənir. "توپ"-top sözündən düzəlmiş "توپ خانه" şəklində yazılan "topxane"(5. s.126 və 1. s.308) sözü də bu şəkildə meydana gəlmiş və topların saxlanıldığı yer mənasındadır. Bu terminlər Səfəvi dövründən öncə, sonra və müasir dövrdə farsdilli mətnlərdə işlənilir.

Səfəvi ordusu da qonşu ölkələrin ordusu kimi soyuq və odlu silahlara sahib idi. Soyuq silahların bəzisi əvvəlki dövrlərdə olan silahlar olsa da, bəzi odlu silahlar Səfəvilər dövründə ilk dəfə istifadə edilirdi. Bu silahlar

Osmanlılar üzərindən ölkəyə gətirildiyi üçün adları türkcədir və farsdilli mətnlərdə də türkcə işlənmişdir. Cəbbəxana ya qurxanada saxlanılan silahlardan biri, bıçaq mənasında olan "بجك" ya "بچك" şəklində yazılan becək ya beçək sözüdür. Divani- lüğəti- türkdə də bu sözün "bıçaq" mənasında olduğu yazılmışdır.(7. c1. s.322) Bu söz müasir Azərbaycan və Türkiyə türkcəsində istifadə edilməkdədir. Amma Səfəvilər dövründən əvvəl və sonra silah adı olaraq keçir. "Tobuz- توبوز" və ya "toppuz -توپوز" (5. s.126) yuxarı tərəfi yumru top şəklində olan savaşda silah kimi istifadə edilən dəyənəkdir. Bu söz Səfəvi dövründən əvvəl və sonra istifadə edilmiş və müasir Azərbaycan türkcəsində toppuz olaraq keçir.

Odlu silahlardan "تفنگ" şəklində yazılan "tüfəng"(5. s.120) sözü türkcə silah adıdır və fars dilində Səfəvi dövründən etibarən işlənilməkdədir. Tüfəng sözü Divani- lüğəti- türkdə "تفک" (7. c.1. s.325) şəklində, quşları ovlamaq üçün sərv ağacından düzəldilmiş bir silah adı olaraq yazıldığı üçün tüfəng sözünün bu sözdən alındığını və türkcə olduğunu deyə bilərik. Lakin bəzi qaynaqlarda bu sözün farsca olduğu qeyd olunur.

"Top ya tup" sözü də "توب ya توپ" şəklində farsdilli mətnlərində silah adı olaraq işlənir. (3. s.374) Bu silahın bir növü isə "بادلیج" şəklində yazılan (Ərəbcədə badlış (بادلیش) olaraq keçən) "badlic" sözüdür. (5. s.112) Top sözü müasir Azərbaycan türkcəsində top, fars dilində isə "توپ- tup"olaraq istifadə edilməkdədir.

Nəticə

Səfəvilər dövrü Türk dili geniş bir coğrafiyada istifadə olunan dil kimi inkişaf etmiş, öz qızıl dövrünü yaşamışdır. Bu inkişaf nəticəsində qeyd olunan dövrdə türk dilinin fars dilinə təsiri daha da artmış və fars dilinə çox sayda türkcə sözlər keçmişdir.

Bu sözlər saraya, hərbi sahəyə, mədəniyyət və sosiologiyaya aid sözlərdən ibarətdir. Sosial sahəyə aid sözlər məna baxımından adət-ənənə, məişət həyatına aid əşya adları, geyim, yemək adları, hərbi sahəyə aid silah adları və heyvandarlıqda istifadə olunan əşya adlarından ibarətdir. Bu sözlərin bir çoxunun fars dilində qarşılığı olsa da türk dilindən daha çox istifadə edilmişdir. Bu da həmin dövrdə türk dilinin nüfuzu və geniş inkişafının nəticəsi kimi qiymətləndirilir.

Fars dilində işlənən türkcə sözlərin bir qismi Səfəvilər dövründən əvvəl, bir qisimi Səfəvilər dövründə fars dilinə keçmiş və bu dövrün sonunadək istifadə edilmişdir. Bir qisim sözlər isə Səfəvilər dövründən sonra da istifadə edilmiş və müasir fars dilində hələ də istifadə edilməkdədir.

Ədəbiyyat

1. Beheşti M .. 1365 hicri şəmsi Ferheng-i Səba, 6.bsk. Tehran. seba nəşriyyat
2. Əfəndiyev O., Azərbaycan Səfəvilər dövləti. 2007, Şərq-Qərb nəşriyyatı, Bakü, s.39-42 (pdf)
3. Əmid H. 1387 h.ş. Fərhəngi farsi- cibi. Tehran. Rahi-roşd nəşriyyatı. 1088s.
4. Ənvər H .. 1383 hicri şəmsi Ferheng Kuçeke Sohen. Tahar. Sohen nəşriyyat
5. Hüseynova Z .. 2009. Təsirə zəbanə Torki Der Farsi Der Neveştehaye tarixinin Dore Səfəvi. Doktorluq dissertasiyası. Tehran Universiteti
6. Hüseynova Z .. 2010. Səfəvi Dövrü və Türk Dili. Dil və Ədəbiyyat Beynəlxalq Elmi-Nəzəri Jurnal. 4 (75). ISSN 2218-7588. Bakı
7. Kaşkarlı M .. 1374 h. ş., Divan-i Lügat-i Türk. c. 1. Tehran. Ahter nəşriyyat
8. Musalı N., I Şah İsmayılın hakimiyyəti, 2011, Elm və Təhsil nəşriyyatı, Bakı, s.90
9. Nəcəfli, T. Səfəvilərin etnik mənsubiyyəti məsələsi müasir Türkiyə tarixşünaslığında . Geostrategiya. 2014. №2. S. 2734 Məqalə:
10. Səfa Z .. 1379 hicri şəmsi, Tarixi- ədəbiyyat dər İran. C. 4. Tehran. Ferdos nəşriyyatı
11. Zərinəzadə H. 1962. Fars dilində Azərbaycan sözləri. Bakı. Az.SSR EA nəşriyyatı

Z. Huseynli Baylan

The object names passed from Turkish to Persian (Safavid period)

Summary

Safavid period regarded as one of the most important periods in our linguistics. The Turkish language as used the official language has developed in this period as the language of literature. The wide development and use of language pawed the way for the neighboring languages. One of those languages which were the official and literary language of the region for many years is Persian language. The influence of the Turkish language to Persian began from previous centuries and has increased even more in the Safavid period.

There are words passed from Turkish to Persian language which concerning to different spheres, these are social terms, especially the particular words which are concerning to all spheres of human life are in the

majority. From the beginning of that period the vast majority of these words as key words in Persian language and is still being processed.

In the article will be more information to the readers.

З,Гусейнли Вайлан

Названия предметов перешедшие с турецкого языка на персидский язык (период Сефевидов)

Резюме

Период Сефевидов в истории нашего языкознания оценивается как одна из самых основных фаз. Турецкий язык, пользующийся на уровне официального языка, в этот период развивался как и литературный язык. Широкое развитие и использование языка открыл путь взаимного влияния с соседними языками. Один из этих языков персидский язык, на протяжении многих лет используемый в регионе в качестве официального и литературного языка. Несмотря на то, что влияние турецкого языка на персидский язык начинается с предыдущих веков, в период Сефевидов это влияние еще усилилось.

Есть слова, касающиеся различных сфер, перешедшие с турецкого языка на персидский, множество из которых составляют общественные термины, особенно слова, выражающие имена предметов, относящихся ко всем сферам жизни человека. Большинство этих слов, начиная с того же периода употреблялся и до сих пор употребляется на персидском языке в качестве ключевых слов.

В статье читателям будет предоставлена более подробная информация об этом.

Rəyçi: Vusalə Musalı
filologiya üzrə fəlsəfə doktoru, dosent

HƏSƏN ƏLİYEV
politoloq, sosioloq
aliyevhasan@gmail.com

İNSANLARIN TANRI TƏSƏVVÜRLƏRİ

Açar sözlər: Tanrı, tənqri, türgiş, Qor allahı, qıpçaq, Arsak
Ключевые слова: Бог, Тенгри, Тюргиш, бог Гор, кыпчаки, Арсак
Keywords: God, Tengri, Turgis, God of the Horus, Kypchaks, Arsak

Allah tərəfindən insanın yaranışı bir sirr olaraq qalmaqdadır.

Tarixən insanlar həyatda yaşamaq üçün daima mübarizə aparmışlar.Məlumdur ki, insanların həyatda yaşaması üçün birinci şərt onların yemək əldə etmələri idi. Onlar yemək əldə etmək üçün ov edirdilər. Təkbaşına ov etmək çətin olduğundan, insanlar toplu şəklində ova çıxırdılar. Bu ibtidai topluluq getdikcə qohumluq münasibətinə çevrilir və tədricən tayfa, qəbilə şəklini alırdı. Təbii olaraq bu zaman insanlar arasında ünsiyyət də yaranmağa başlayırdı.Ümumiyyətlə insanın yaranışı,ünsiyyəti haqqında təsəvvürlər yalnız dini rəvayətlər əsasında günümüzə gəlib çatmışdır.

Mifik rəvayətə görə Allah ilk insan olaraq Adəmi yaratmışdır. Allah Adəmə bütün heyvanların, quşların, bitkilərin dilini və təbiətdə olan hər bir şeyin adını öyrətmişdir. Bir müddət keçdikdən sonra Adəm Allahın hüzuruna gəlir. İtaət edərək bildirir ki, yaşadığı həyat onu çox darıxdırır. O,Allaha səcdə edərək yalvarır ki,onun özünəbənzər kimi bir vücud yaratsın. Allah Təala bir nəfəs verməklə Həvvanı ona köməkçi yaradır. Bununla da bəşər övladının dünyaya gəlməsi üçün ailə təməlinin əsası qoyulur və insanlar arasında ünsiyyət yaranır. Rəvayətdən göründüyü kimi ünsiyyətin mövcudluğu insanın yaranışı ilə yaşıddır. Qədim zamanlarda insanların söz ehtiyatı o qədər az və bəsit idi ki, onlar bəzən sözdən çox ,səs və mimiki işarətlərlə bir-birlərinə fikirlərini çatdırırdılar.İnsanlarr çox vaxt ov əldə edə bilmədikdə,müəyyən təbii fəlakətlərlə yanğın,sel,zəlzələ,vulkan püskürmələri və s. ilə rastlaşdıqda çarəsiz qalırdılar. Bu zaman onlarda özlərindən güclü bir fövqəlbəşər varlığın olması barədə təsəvvürlər yaranırdı. İnsanlar dərk edirdilər ki,onları və təbiəti idarə edən gözəgörünməz bir qüvvə vardır ki, o da Böyük Tanrıdır.

Bu səbəbdən də insanlar ova çıxmazdan əvvəl,təbii fəlakətlər baş verdikdə Tanrıya yalvarır, dualar edir və müəyyən ayinləri yerinə yetirirdilər.Artıq insanlar üçün 1-ci yerdə olan yemək ehtiyacı öz yerini Tanrıya yalvarışa vermişdir. Tanrının insan tərəfindən dərk edilməsi çox çətin idi. Onları tanrıya yaxınlaşdıran əsas şərt qorxu idi. Onlar qorxudan tanrıya səcdə edərək yalvarışlar edir, qurbanlar verir, ondan mərhəmət diləyirdilər.Sanki burada dialektikanın əksliklərin vəhdəti qanunu baş

verirdi.İnsanlar instinkt olaraq qorxudan uzaqlaşmaq əvəzinə, qorxuya sığınırdılar.İbtidai insanların təfəkkürü "Tanrı"nı özlərinin təbiətdə dərk etdiyi ən böyük qüvvəyə- "qünəş"ə və onun yerdəki təcəssümünü- "od"a bənzədirdilər.İnsanlar gecə və gündüz daima tanrıya sığınırdılar. Onlar düşünürdülər ki, Tanrıdan bir an uzaqda durmaq onlara fəlakətlər gətirə bilər. Tanrının yerdəki təcəssümü olan "od"un sönməməsi üçün gecə və gündüz onu qoruyurdular. Araşdırmalar göstərir ki, bütün dünya xalqlarının Tanrı haqqında təsəvvürləri demək olar ki, eyni paralellikdən keçmişdir. Bütün insanlar tanrını yerdə yox, insandan ucada- göydə olmasını təsəvvür edirdilər. Bu səbəbdən "Göy" də insanlar üçün müqəddəs sayılırdı. Onlar Tanrıya səcdə edərkən, yalvararkən, hər hansı bir dilək diləyərkən, dini ayinləri yerinə yetirərkən üzlərini göyə tuturdular. Hətta "Tanrı" məfhumu "Göy" məfhumu ilə birləşərək yeni "Tənqri" məfhumunu da yaratmışdır. Bu günlərdə hörmətli professor Kamal Abdullanın redaktorluğu ilə "Türkologiya" jurnalının 1-ci sayı işıq üzü görmüşdür.(2) Əslində bu mətbu türkköklü xalqların əcdadlarının ruhuna böyük bir hədiyyədir.Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev cənablarının fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının "Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bölümünün əsas müddəalarından biri olan Azərbaycan dilinin, Azərbaycan mədəniyyəti və tarixinin dünya ölkələrinə tanıdılması məqsədi ilə xüsusi proqram və fəaliyyət planının hazırlanıb,həyata keçirilməsində "Türkologiya" jurnalının böyük əhəmiyyəti vardır.(3)"Türkologiya" jurnalının 1-ci sayında mifologiya mövzusunda Qazaxıstan Respublikasının alimləri Aygül Baytuova və Gülümjan Jilkibay "Orxon-Yenisey və Talas" abidələrinin dilində "İlahi Tanrı ideyası" məqalələrində "Tanrı və Tənqri" sözlərinin əlaqələrini araşdırmışlar.(9.s.47) Alimlər məqalədə "Tənqri" sözünün qazax dilində " hər şeydən uca" , "hər şeyə qadir", "qoruyucu" kimi dini məna daşıdığını göstərirlər. Eyni zamanda "Tenqri" sözünün "Allah" sözü ilə eyni ideyadan doğmasını bildirir və bu məfhumun türkdilli xalqların mifik-dini dünyagörüşlərində, dünyanı başa düşməyin kompleks konsepsiyası kimi onların dillərində möhkəm mövqe tutmasını qeyd edirlər.

Müəlliflər "Tənqri" sözünün "Göy" sözü ilə birgə işlənməsinə dair çox sayda yazılı abidələrdən statlar gətirmişlər.Onlar "Tənqri"nin insanlardan yüksəkdə olması ideyasını ibtidai insan psixologiyasından doğulduğunu qəbul edir və tanrının göylə birgə adının çəkilməsini həmin ideyanın məhsulu hesab edirlər. Türk xalqlarının bu günə qədər dillərində işlənən alqış və qarğışların"Göydəki Tanrı"nın adı ilə bağlı olduğunu frazeoloji deyimlərdə, məsəllərdə göstərirlər. Doğrusu, bütün türköklü xalqlar kimi Azərbaycan xalqının dilində də bunu görmək mümkündür. Məs.: "Allah qəzəbini göydən yerə yendirib", "Göydəki Allah sənə qənim olsun", "Allah göydən hər şeyi görür", "Göydəki Allaha and olsun", "Göydəki Tanrıya şükür et" və

s.Tanrının "hər şeydən uca" tutulması ideyası gətirib ona çıxarmışdır ki, "Göy" məfhumu "Tanrı" kimi bəzi qədim türk tayfalarının inancına çevrilmiş və onlar özlərini (inancın tərifinə əsasən) "Göytürklər" də adlandırmışlar. Müəlliflər haqlı olaraq "Göy"ün tam ayrılıqda "Tanrı" rolunu oynadığını qəbul etmirlər və "Göy" məfhumunu paralel olaraq "Tanrı" (Tənqri) məfhumu ilə bir yerdə işləndiyini sübut edirlər. Həqiqətən də müəlliflər daş abidələrdə ayrılıqda işlənən "Göy" məfhumunun "Hər şeydən uca", "Hər şeyə qadir" kimi məna verməsinə rast gəlinmədiyini qeyd edirlər. Müəlliflər dilçi alim M.K.Eskeyevin "Tenqri" haqqında fikirlərini oxuculara çatdırırlar. M.K.Eskeyev tədqiqatlarında qeyd edir ki, həqiqətdə türklər üçün yalnız "Tenqri" Allahı mövcuddur. "Göy Tanrısı"ndakı "Göy"sözü ancaq Tanrının yerini bildirmişdir. Müəlliflər "Tenqri" termininin etimoloji genezisinin qədim Altaylardan çıxdığını söyləyir, lakin leksemin etimologiyasının tapılmadığını etiraf edirlər. Onlar məqalədə dilçi alim M.Eskeyevin "Tanrı" sözünün alimlər tərəfindən araşdırılmasının məcmusunu oxuculara təqdim etmişlər. "Tənqri" sözünün "Tenqgiz" "dəniz" semantik ailədən yaranmasını, burada r =z türk dilinin qanunlarına uyğunlaşdırır (O.Süleymanov); "ten" sözünü birköklü söz hesab edərək, mənasının "yarı", "bərabər" olduğu bildirilir (B.İ.Tatarinçev); İlk kökü "ta", "tə", "te" modelinin "Göy" mənası yaradan n-r sözdüzəldici elementlərin rolu bildirilir (A.M.Mahmudov); "tan" sözünün "sübh çağı" və "qürub çağı" sözbirləşmələri vasitələrindən yarandığı bildirilir (E.Jubanov, A.İbatov). Müəlliflər israrla bildirirlər ki, çox əsrlik tarixə malik olan "Tənqir" substakının monoslabik əsasının öyrənilməsi çox vacibdir.Alimlər bu məfhumun konkret mənasının tapılmasını arzulayırlar. Həqiqətən də ta qədimdən türkköklü xalqların "Tanrı"ya inamları o qədər güclü formalaşmışdır ki,hətta onların təsəvvürlərində islam dinindən gələn "Allah" məfhumu "Tanrı" məfhumu ilə paralel olaraq tək allahlıq mənasında öz əksini tapmışdır. Türkköklü xalqların dilində "Tanrı" sözü ilə "Allah" sözünün arasında heç bir fərq duyulmur və dildə bir-birini əvəz edərək epitet kimi işlədilir. Haqqında danışılan məqalədən bir daha aydın olur ki, "Tənqri" leksemi monoslabik olduğundan onun etimologiyasının açılması sirr olaraq qalmaqdadır. Bu səbəbdən də "Tənqri" sözünün izahına dair öz araşdırmalarımı təqdim etmək istərdim. Əgər biz qədim dövrlərdə mövcud olmuş çoxallahlıq dövrünü tədqiq etsək, aydın olacaqdır ki,insanların qəbilə,tayfa şəklində yaşadıqları vaxtda hər bir toplunun özünün inancı olmuşdur. Onlar həmin inanca inanmış, özləri də həmin inancla adlandırılmış və inancı özlərinə tanrı seçmişdilər.Tarixən eyni kökə, eyni dilə,eyni inanca mənsub olan qohum qəbilələrin birləşib xalq şəklində formalaşması çox uzun müddət sürmüşdür. Qonşu qəbilələr biri-birindən fərqlənmək üçün müəyyən əlamətlərlə işarələnirdilər.Onlar inanclarının əlamətlərini öz bayraqlarında rəmzləşdirirdilər. Hətta ən yaxın qonşu qəbilələrin də özlərinin inancları

olmuşdur. “Kitabı-Dədə Qorqud”da ilk rastlaşan adamlar biri-birindən “soy kim” deyə xəbər alırdılar.(4) İbtidai icma quruluşu öz yerini quldarlıq quruluşuna verərkən, qəbilələr, tayfalar arasında güclü, gücsüz kimi yeni münasibətlər yaranırdı. Güclü qəbilə və tayfalar ilk vaxtlar qonşuluğunda olan zəiflərin üzərinə yürüşlər edib onları özlərinə tabe etdirir, torpaqlarına, çaylarına, meşələrinə sahib çıxırdılar. Eyni zamanda inanclarını da onlara qəbul etdirib, öz saylarını artırırdılar.Qədimdə sivilizasiyanın gur nöqtəsi olan Misirdə (dünyada ilk meqapolis) bu münasibətlər daha sürətlə inkişaf etmişdir. Nil çayının Misirin ilkin bir dövlət kimi formalaşmasında böyük rolu olmuşdur. Nil çayı iqtisadi məcradan çıxıb, siyasi məcraya şərait yaradırdı. Eramızdan əvvəl 3-cü minillikdə Misirin sürətli inkişafı ona sahib çıxmağa real şərait yaratdı. Məhz Firon sülaləsi Misir taxt-tacına sahib çıxdı.Firon taxta çıxdıqdan sonra baxıb gördü ki, rəiyyət onun hüzurundan çox, inancların hüzurunda baş əyirlər. Hər qəbilə öz inancına sığınıb, gecə-gündüz ona səcdə edirlər. Firon vəziyyəti belə gördükdə siyasət işlədərək Misirdə mövcud olan allahların hamısını bir Allaha -“Qor” allahına tabe etdirdi. “Qor”un Günəş allahı Osiris və İşıdın oğlu olduğunu bildirdi.Firon “Qor”u onun himayəçisi, özünü isə onun yerdəki “köməkçisi” elan etdi. Beləliklə, müxtəlif inanclara ibadət edən misirlilər tək bir “Qor Allahı”na itaət etməyə başladılar və Fironun özünü də yer üzərində “Qor Allahının köməkçisi” kimi qəbul etdilər. Bu günkü əldə olan mifoloji mənbələrdə yalnız Fironun hakimiyyəti,onun dövründə cərəyan edən hadisələr haqqında məlumatlar verilmişdir.Hətta Quranda da onun Musa peyğəmbərlə olan münasibətləri haqqında təsvirlər öz yerini tapmışdır. Bir sıra mifoloji ensiklopedik məlumatlarda “Firon” və ya onun digər deyilişi olan “Firovn” sözünün qədim Misir dilində “böyük ev” mənasını verdiyi bildirilir.(5.IX c.s.570) Əslində “Firon” sözünün praktik etimologiyasını açsaq, yəni onun “Günəşin oğlu Qorun yerdəki köməkçisi” olan titulundan baxsaq “Firon” sözünün 1-ci hecası “fir”- ərəb dilində “fərr”sözü olub “günəşin şəfəqi,nuru”,2-ci hecası “on” və ya “ovn”- ərəb dilində “ovn” sözü olub ,dilimizdə“köməkçi” mənasını verir.“Firon” sözü bütövlükdə “Günəş allahı Qorun yerdəki köməkçisi” yəni Fironun titulunu bildirir.(müəllif) O ki, qaldı Firon sülaləsinin dəfn olunduğu “Piramida” məfhumunun etimologiyasına, o da bu günədək açılmamış qalmışdır.Yalnız onun həndəsi füqur olan “piramidaya” bənzəyişindən adlandırıldığı bildirilir.(5.VIIc.s.534)“Piramida” məfhumunun mifik xarakter daşımasının səbəbi sözün orfoqrafik deformasiyaya uğraması olmuşdur.Həqiqətən də ötən 5 min il ərzində sözün assimliyasiyası labüddür.Əslində “Piramida”sözü latın mənşəlidir.Latın dilində “Pir” məfhumu(əslində “pyr”) “Qor”(od) sözünün mənasını daşıyır.Latın dilində ”Pir”(pyr) “Od”, 2-ci heca “ram” qədim “od allahı”nın “Qor”dan əvvəlki adı və 3-cü heca “ida” isə “idol” szündən olub “təcəssüm” mənasını bildirir.”Piramida” məhhumu bütövlükdə “Od Allahının

təcəssümü” kimi Fironun məbədinin praktik mənasını kəsb edir.”Piramida” sözünün misirlilərin dilində “Ehram” adlanmasını tədqiq etdikdə burada da eyni məna özünü göstərəcəkdir.”Ehram” sözü də “Qor” sözünün ərəb dilində olan “Hor” kimi işlənməsindən və dünyəvi qəbul edilən “Ram”(allah) sözlərindən yaranmış və bütövlükdə“Od Allahı” mənasını bildirir.(müəllif) Rus dilində də bu eynilik “храм” –“məbəd” sözündə özünü göstərir.”Храм” sözündəki ”хр”-“хor”,”рам”-“ram” sözündəndir.Əslində “хor”, “qor” məfhumunun ləhcə variantıdır.Sözün ilkin forması “хоррам” olmuşdur.(müəllif) Gürcüstan və qismən də Azərbaycan ərazisindən axan “Xram” çayını Borçalı mahalının adamları el arasında “Ehram” çayı da adlandırırlar.Buradan məlum olur ki,”Piramida” məfhumu həndəsi füqur olan “piramida”dan yox,”piramida” füqurunun adı həmin abidənin adından götürül müşdür.(müəllif)Əslində qədim Misir dilində “Qor” sözünün kökü “qərn” sözündəndir. “Qərn” sözü azərbaycan dilinə “buynuz” kimi tərcümə olunur(6.s.122)“Qarun” sözü də həmin kökdən olub, “Buynuzu olan” mənasını verir (müəllif). Bəs onda“Buynuz” məfhumunun dində rolu nədən ibarətdir? İbtidai insanlarda “Tanrı” haqqında təsəvvürün yaranmasına səbəb dünyada gözəgörünməz fövqəlbəşər bir varlığın olması, onun bütün varlıqlardan uca və qüdrətli olması idi. Ən əsası isə onun insandan fərqli olaraq buynuzunun olması təsəvvürü olmuşdur.Məhz bu “Tanrı”nı adi insanlardan fərqləndirmiş, insanlar arasında olmayan bir varlıq təsəvvürü yaranmışdır.Əslində dünya xalqlarının qədim dini ənənələrində “Tanrı”nın qoşa buynuz sahibi olması “Qor” allahından çox-çox əvvəllərə gedib çıxır. Demək olar ki, Tanrı haqqında təsəvvürlər bütün dünya xalqlarında paralel şəkildə getmişdir. Latın dilində “Deus” sözü “Allah”deməkdir.”Duo” sözü isə “qoşa”,”cüt” mənasını verir.(7) Burada “deus” sözü ilə “duo” sözü arasında rabitə açıq görsənir.(müəllif) Qədim Oğuzların bəzi tayfalarının dini inancı olan “qoç”(“ram”) məfhumunu da tədqiq etsək burada eyni paralelliyin şahidi olacağıq. “Qoç” sözü Tanrının rəmzi olan buynuzun qoşalığını bildirən qədim türk dilində olan“qoşa” sözündən yaranmışdır.”Qoşa” sözü inancın tərifinə əsasən tanrının yerdəki təcəssümü olan qoşa buynuzlu “qoç” heyvanın adına da verilmişdir.(“qoç”-“qoşa” sözündəndir .) Həqiqətən də “qoç”un Azərbaycanın qəbir üstü abidələrində, xalçalarında, memarlıq ornamentlərində bu günümüzə gəlib çıxması “qoç”un “tanrı” inancından irəli gəlmişdir. Azərbaycanın UNESCO-ya üzv qəbul olunmasının 20 illiyi münasibətilə 18 iyul 2013-cü ildə Fransa dövlətinin mərkəzi Paris şəhərində qurumun baş qərargahında keçirilən görüşdə Azərbaycanın birinci xanımı,UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva çıxış edərək göstərmişdir ki, Azərbaycanda memorial abidələr yaratmaq ənənəsi qədim dövrlərə təsadüf edir və bu abidələrin əksəriyyətinin həm tarixi,həm də bədii dəyəri vardır.Əlbəttə ki,onların hamısı bizim qədim və zəngin irsimizin bir parçasıdır.

Mehriban xanım tədbirdəki çıxışında vurğulamışdır ki,Azərbaycan tərəfindən quruma hədiyyə olunan və tarixi irsimizi əks etdirən abidə heykəllərin: daş qoç və daş at qurumun baş qərargahının həyətində daimi sərgilənməsi qədim tariximizin təbliği baxımından çox əhəmiyyətlidir.(9)Bu heykəllər XII-XIII əsrlərə aiddir və Azərbaycan Respublikasının Tovuz rayonunun Aşağı Ayıblı kəndindən tapılmışdır.Məhz bu tarix səlcuqların Azərbaycana gəlişi tarixi vaxtına düşür.Hörmətli professor Ramiz Əsgərin tərcümə etdiyi Mahmud Kaşğarinin "Divani Lüğat-it-Türk"də işlənən sözlərin hansı tayfalara mənsub olması göstərilirmişdir.(8) Lüğətdə "köçəri" tayfasına aid çox sayda sözlər verilmişdir.(8.1Vc.s.321)Bu gün rus dilində olan «кочевой» sözü azərbaycan dilinə "köçəri" sözü kimi tərcümə olunur.(12,I. c. s.579) "Кочевой" sözünün kökü olan "коч" sözü də qədim türk dilindəki "qoşa","qoç" sözündən alınmış və öz sabitliyini qorumuşdur.Rus dilində "кочегар" sözü də "qoç" məhfumunun "od allahı" inancından yaranmış və dilimizə "ocaqçı" kimi tərcümə olunur (müəllif)(12.I c.s.579)Araşdırmadan məlum olur ki, bu gün dilimizdə işlənən "köçəri" məfhumu heç də "köç", "köçmək","köçəri" sözlərindən deyildir.Bu tanrının rəmzi olan "qoşa buynuz" təsəvvürünün türk dilində bildirən"qoşa","qoç" anlamındandır.Bu gün"köçəri"sözündən dünyada bədxah dairələr istifadə edərək, türksoylu xalqların tarixinə kölgə salmağa çalışır, onların oturaq ərazilərinin olmaması barədə qondarma fikirlər yaratmaq istəyirlər."Qoşa" sözünün "Tanrı"nın "Günəş Allahı" təsəvvürü kimi əks etdirən ifadəsi də bu günümüzə gəlib çatmışdır."Qaş qaralan vaxt" ifadəsini biz bu gün "Günəşin batan vaxtı" kimi başa düşürük.Məqalədə bəhs olunan "tənqri" leksemini tədqiq etsək yenə də həmin paralelliklə rastlaşacağıq. Alimlərin qeyd etdiyi kimi, monoslabik leksemlərin tədqiq edilməsi çox vaxt mümkünsüz sayılır. "Tən" sözü həqiqətən dilimizdə dilçi alim B.İ.Tatarinçevin qeyd etdiyi kimi "bərabər", "yarı" kimi məna verir. Əksər hallarda biz "cüt", "iki" fikrini "tən" sözü ilə də əvəz edirik. Bu gün dilimizdə olan sözlərin sayı on minlərlə ölçülürsə, ibtidai insanların işlətdiyi söz və ifadələrin sayı heç yüzlərlə də olmamışdır. Bunu böyük dilçi-tədqiqatçı alim N.Y.Mar da təsdiq edərək göstərirdi ki, ibtidai insanların işlətdikləri sözlər çox az sayda olaraq monoslabik xarakter daşımış və 2,3,4 səsdən ibarət eyni köklü sözlərdən yaranmışdır. Araşdırmalardan aydın olur ki,"Tanrı" sözünün 1-ci hecası olan "tan" sözü türk dilində "cüt", "qoşa" mənasını bildirən "tən" sözündən yaranmışdır.2-ci heca "rı" isə "Ra"-" Günəş Allahı"nın qədim dünyəvi adındandır. "Ra" allahının "Qor" allahı ilə əvəz olunması səbəbindən "Tənri" sözündəki "ri", "qri" məfhumu ilə əvəzlənərək yeni "Tənqri" məfhumunu yaratmışdır."Tənqri" sözündəki "qri" sözü Firondan gələn "Qor" məfhumunun yerli ləhçədə tələffüz forması olmuşdur. (müəllif) Dilçilik tədqiqatları göstərir ki, yeni yaranan tanrılar tayfaların əvvəlki tanrılarının adları ilə bir yerdə işlənmişdir.Məs: "Amonra", "Tənqri",

və s. Bu gün dilimizdə "tan" sözü "od"la bağlı olaraq "təndir", "tonqal"kimi, günəşlə bağlı olaraq "dan yeri", "dan ulduzu" sözləri kimi işlənilir. Elmin sivilizasiyadan çox sonralar inkişaf etməsi bu günkü sirlər aləmini, yəni mifologiyanı yaratmışdır. Bir çox sözlər dilçilik hadisələri nəticəsində dilimizdən arxaikləşib çıxmış, bəzən də mənası bilinməyən terminlər kimi qalmışdır. Əgər tarix elminin tədqiqatı arxeoloji qazıntılar zamanı əldə edilən materialların əsasında öyrənilirsə, dilçiliyin öyrənilməsi də arxaikləşib sıradan çıxmış və ya bu gün etimologiyası bilinmyən sözlərin tədqiqi əsasında öyrənilir. Əslində inkişaf etmiş dəqiq elmlər bu gün yeniliyi tapmaqla irəliləyirsə, tarix və dilçilik elmi daha qədimi öyrənməklə irəli gedə bilir. Türkköklü xalqların inanc adlarında da mifoloji sirlər çoxdur.Araşdırmalarımdan bir neçəsini təqdim edirəm. "Türk" adına gəlincə, onun etimologiyası bu gün ən aktual bir mövzuya çevrilmişdir.Professor Ramiz Əsgərin tərcümə etdiyi böyük türk alimi Faruq Sümərin "Oğuzlar" (Türkmənlər) əsərində "türk" kəliməsinin yaranma tarixi incələnmiş, bu sözün görünən mənası önə çəkilərək "törük",türük", "yörük" kimi izah edilmişdir.(11.s.15) F.Sümər tarixi araşdırmalarından belə nəticə çıxarmışdır ki, türklər yalnız islamı qəbul etdikdən sonra Yaxın Şərqdəki dindaşlarından türk (tirkış, türgiş, türkeş, tirkeş) kəliməsinin bu geniş mənasını öyrəndilər. Oğuz türklərinə də türk adını verənlər Yaxın Şərq müsəlmanları olmuşlar.XI əsrdə islamı qəbul edən xalqlarla ticarət əlaqələri nəticəsində türklərə "Türkmən" adı verilmişdir ki, bu da təqribən iki əsr sonra hər yerdə "oğuz" sözünün yerini tutmuşdur.-(11.s.16)Müəllifin tarixi məlumatlarında göstərilir ki, 1035-ci ildən 1040-cı ilədək Oğuz Səlcuqlarının apardıqları 5 illik müharibə nəticəsində onlar Qəznəvi imperiyasına aid olan Xorasanı alıb, orada öz dövlətlərini qurublar (1040-cı ildə 16 min altı ilə). Bu müvəffəqiyyətin qazanılmasında Sır-Dərya boyundakı böyük ana oğuz küməsindən bir-birini izləyən dalğalar halındakı bölüklərin İrana gəlməsi çox mühüm bir amil olmuşdur.(11.s.16) İndi gəlin müəllifin oğuzlara "türk" kəliməsinin qonşu müsəlmanlar tərəfindən verilməsi səbəbini araşdıraq. Müəllifin tarixi oçerklərindən məlum olur ki, Səlcuqlar 1040-cı ildə İran əyalətlərini fəth etmişlər.Həmin əyalətlərin əhalisinin fars dilli olması hamıya məlumdur. "Kitabı-Dədə Qorqud"da sərhəddə İran "bazarqan"ları (fars dilində"bazarqan"- bazar, tacir deməkdir.) ilə oğuzların ox-yay ticarətləri haqqında məlumatlar yetərincə vardır.(4) "KDQ"-də onlar sasi dinli, danışıqları oğuzlar tərəfindən başa düşülməyən tayfalar kimi verilmişdir. Burada işlənən "sasi dinli" məfhumu Sasanilər kimi nəzərdə tutulmuşdur (müəllif). Sasani dininin inancı "gaviyan" olmuşdur.Fars dilində mənası "inək" deməkdir.Bu inanc da yuxarıda qeyd olunan kimi tanrının buynuzlu heyvan təsəvvürü əsasında yaranmışdır. Əsərdə həmin tayfalar "gavurlar" (inancın xüsusiyyətinə uyğun olaraq) kimi verilmişdir.(müəllif) Lakin bütün dünya Qorqudşünasları "gavur"məfhumunu "kafir" sözü kimi qəbul

etmişlər.Əslində "kafir" məfhumu islamla yaranmışdır Halbuki alimlər özləri də etiraf edirlər ki, "Kitabi-Dədə Qorqud" dastanı islamdan əvvəlki dövrün məhsuludur.Əgər biz "KDQ" da "gavur" məhfumununu islam dinindən önə çəksək, dastanda işlənən ərəb mənşəli "məlik" məfhumu burada mütləq mübahisə doğuracaqdır.Çünki "məlik","məmlük" sözləri birmənalı olaraq ərəb mənşəli sözlərdir və dilimizdə "sahib","ağa" mənasını verir.Bəs onda ərəb mənşəli "məlik" sözü dastana necə daxil olmuşdur? "Türkologiya" jurnalının 1-ci sayında Türkmənistan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun professoru,akademik Muradgeldi Soyeqov "X111-XV əsrlər Misirin qıpçaq dialektləri ilə müasir türkmən dilinin münasibətləri haqqında" məqaləsində oğuzlarlın misirlilərlə ortaq bir tarixi mədəniyyətə sahib olmaları barədə maraqlı məlumatlar vermişdir.(2.s.32) Müəllif tarixi mənbələrə istinad edərək,1298-ci ilin sənədinə əsasən Oğuzların 24 bəyliyinin(məmlük) Misiri idarə etmələri,onlardan xərac toplamaları barədə məlumatlar verir. Mənbələrdə Oğuz bəyliklərinin Misirdə "məlik","məmlüklər"kimi işlənməsi nəzəri cəlb edir.Ərəb dilində "məlik","məmlük"məfhumu "bəy" məfhumunun epitetidir.Faruq Sümər də "Oğuzlar" əsərində qeyd edir ki,məliklərin hamısı qıpçaq əsilli tayfadandırlar.O. 1169-cu ildə Misirə göndərilən ordu qüvvələrinin tərkibində 6 min türkmənin olduğunu bildirir.(11.s.144) Əgər biz hər iki müəllifin qeydlərini nəzərə alsaq "məlik" məfhumunun Oğuz elinə qıpçaqlar tərəfindən gətirildiyini görərik. M.Soyeqov məqaləsində göstərir ki,bu günkü türkmən xalqının ədəbiyyatında,folklorunda,xalq mahnılarında,məsəllərdə Misirin izi görünməkdədir.Həqiqətən də bu izlə "qıpçaq" sözünün etimologiyasını açmaq mümkündür.(müəllif)Tarixdən məlumdur ki,"qibti"qədim misirlilərə mənsub xalqın və onların dilinin adıdır.(6.s.126) Misirin 2-ci adı avropalılar tərəfindən "Eqipet"(b-p) kimi işlənilir.Məhz "qıpçaq" sözünün 1-ci hecası (qıp,qıb) sözü də "qibti" sözünün kökündən yaranmışdır.(müəllif) Sanki "qibti-misirli" məfhumu bu gün Sovet ordusunun Əfqanıstanda döyüşən əsgərlərini "Əfqanlı" adlandırılmasına bənzəyir.Tarixi şərait zəminində oğuzların Misirdə uzun müddət hakimiyyətdə olmaları,yerli xalqın oğuz bəylərinə öz dillərində "məlik","məmlük" kimi adlandırmaqları səbəbindən ərəb mənşəli "məlik" sözü "Dədə Qorqud Dastanı"nda öz əksini tapmışdır.(müəllif)Məlumdur ki, qıpçaqlar Oğuz tayfaları içərisində xüsusi çəkiyə malik olmuşlar. Şah İsmail Xətainin tapşırığı əsasında "KDQD"-nın yazılı şəklə salınması tarixinə qədər ki dövrdə(300 ilə yaxın) qıpçaqların "məlik" adlandırılmaları artıq dastanın şifahi formasında özünə kök salmışdır.Fikrin davamı olaraq "türk" sözünün ilkin olaraq "türkiş" kimi işlənməsini araşdıraq.(11.s.15) Ta qədimdən bu günə qədər məlumdur ki, "oğuz" sözünün kökü "ox" sözündəndir. Tarixi mənbəyə görə Oğuzlar XI əsrdə İran ərazilərini fəth etmişlər. İranlıların dilli fars dili olduğundan oğuz adını onlar öz dillərində adlandırmışlar. Fars dilində "tir" sözü "ox"; "kiş" sözü isə "məzhəb" kimi tərcümə olunur.(6) Bütövlükdə

“Tirkiş” sözü “ox məzhəbli”- yəni“oğuzlar” mənasını kəsb edir.(müəllif) “Tirkiş” termini oğuzların tarixi haqqında yazılan materiallarda həmişə təhlil edilmişdir. "Türkologiya” jurnalının 1-ci sayında Seyfəddin Altaylının “Kitabi-Dədə Qorqud”dakı at rənglərinin türk dövlət gələnəyi və yönlərlə bağlılığı” məqaləsində də “Türkiş dövləti”, “ sarı türgiş”, “qara türgiş” və s. haqqında maraqlı məlumatlar verilmişdir. (2 s. 88,).Bu gün Azərbaycan Respublikasının ərazisində olan yer adlarında “Tirkiş” məfhumununu görürük.Şahbuz rayonunda “Tirkeş” kəndi,Oğuz rayonunda “Tərkeş” kəndi,Kəlbəcər rayonunda “Tirkəşəvənd” kəndi və s.(5.1X.s.393,)“Tirkiş” sözünü bir çox müəlliflər “tirkeş” kimi işlədərək “sadak” sözü ilə sinonimləşdirmişlər. “Sadak” sözü də fars mənşəli sözdür. “KDQD” də Sarı donlu Selcan xatun arxasınca gələn dəstə ilə döyüş meydanına çıxanda onun ox qabında doxsan oxun qaldığı göstərilir. Buradan aydın olur ki, “Sadak” bəzən “Sadox” və s. kimi işlənən bu söz fars dilində “yüz” sayını bildirən “səd” sözü və “ox” sözünün birləşməsindən əmələ gəlmişdir.(8)(müəllif) “Tirkeş” sözü də “ox” mənasından “sadaq” sözünə sinonim kimi yaramışdır.“Tirkış” sözünün əmələ gəlməsindən hələ 1000 il əvvəl oğuz torpaqları romalılar tərəfindən işğal olunanda “Oğuz” sözü latın dilinin təsiri altına düşmüşdür. Roma coğrafiyaşünası Strabon qədim Azərbaycan ərazisinin xəritəsini latın dilində tərtib etmişdir. Həmin yer adlarının içərisində “Arxsak” termini də qeydə alınmışdır. “Arxsaq” “Arsaq” termini dünya türkoloqları, eləcə də mənfur ermənilər tərəfindən araşdırılmışdır. Türkdilli xalqların alimləri “Arsak” sözünün birinci hecasını qədim türk sözü olan “ər” kimi mənalandırmış, “sak” sözünü isə qədim türk tayfası zənn edərək “igid saklar”, “ər saklar” kimi qeydə almışlar. Erməni tədqiqatçıları isə 1-ci hecanın “ar” sözündən yəni “Armeniya” sözündən yarandığını güman edib, erməni mənşəli söz kimi bundan siyasi motiv kimi istifadə etmişlər. Əslində romalıların dili latın dili olduğundan, bu sözün açılması türk, erməni dillərinin mənşəyi ilə yox, latın mənşəli söz kimi açılmalıdır.Çünki Strabonun tərtib etdyi qədim Azərbaycanın xəritəsində qeyd olunan məntəqə adlarının hamısı latın dilindədir. Latın dilində “archaios”- “qədim”, “Saq” isə latın dilində “sagitta” sözündən olub,mənası “ox” deməkdir.(7) “Arsaq” sözü birmənalı olaraq latın dilində “Qədim Oğuzlar” sözünün tərcüməsidir.(müəllif) “Arsax” sözü nə Azərbaycan,nə də digər türkköklü xalqların klassiklərinin əsərlərində, eposlarının heç birində tayfa, qəbilə və ya yer adı kimi çəkilməmişdir. Dilçiliyin paralel şəkildə öyrənilməsi bu müstəvidə özünü bir daha sübut edir. Doğrudan da, romalıların və sasanilərin Oğuzlara verdiyi adlar yalnız tərcümə mahiyyətini daşımışdır. “Tirkiş” sözü ilə “Arsaq” sözü eyni tarixi paralellikdən keçərək “Oğuzlar” mənasını bildirmişdir.Azərbaycan klassik ədəbiyyatında atəşpərəstlər “azərkiş” kimi adlandırılmışlar.Fars dilində “azər” “od”, “kiş” isə “din”, “məzhəb” deməkdir.(6.s.16) Abşeron rayonunun “Pirəkəşkül” qəsəbəsinin

adının etimologiyası da bu mənşədəndir.”Pir”-“od”,”ocaq”;”kiş” isə “din” mənasını ifadə edərək “Atəşgah” yerini bildirir.(müəllif)Azərbaycanın görkəmli dilçi alimi, professor Qəzənfər Kazımov akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş konfransdakı çıxışında A.Axundovun üslubunu səciyyələndirən əsas cəhətlərdən birinin müqayisəli (qarşılaşdırıcı) dilçiliyin olduğunu qeyd etmişdir. O, akademikin dilçiliyin mühüm xüsusiyytlərindən birinin ana dilini yad bir dil ilə müqayisəli öyrəndikdə ana dilinin görünməyən tərəflərini görməyin mümkün olduğunu göstərmişdir.(14,s.51) Məqalədən bu nəticəyə gəlmək olur ki, dünya xalqları kimi türkköklü xalqların da özlərinə məxsus inancları olmuşdur. Çoxinanclıq əsasında xalqımızda multikulturalizm və tolerantlıq ənənəsi yaranmışdır. Müxtəlif inanclı türkköklü xalqlar birləşərək böyük bir türksoyunu yaratmış, bugünkü müstəqil türkköklü dövlətlər kimi öz varlıqlarını qorumuşlar. Məqalədə onu da qeyd etmək istərdim ki, bu gün Amerika və Avropa alimləri sübut etməyə çalışırlar ki, guya bütün dünya xalqları və onların dilləri eyni bir ağacın meyvələridirlər.Qərb alimləri bu fikri cəmiyyətlə təbiətin bağlılığı əsasında irəli sürmüşlər. Lakin onlar unutmuşlar ki, əgər bütün insanlar və onların dilləri eyni bir ağacın məhsuludursa, nə üçün təbiətdə olan ağaclar və meyvələr hamısı müxtəlifdir?Onların bu fikrə gəlməsinin səbəbi tanrıçılıqla bağlı sözlərin müxtəlif xalqların dillərində eyniyyət kəsb etməsidir. Əslində bu proses dünyaya ağalıq etmiş Fironların,Daraların,Yunanların,Romalıların öz tanrılarını digər xalqlara zorla öz dillərində qəbul etdirmələrindən yaranmışdır.”Qor allahı” məfhumu Misirdən Yaponiyaya qədər məsafə qət edib, “xoor” şəklində yapon dilinə keçmişdir.(Xirosimo şəhəri,Xoryudzi məbədi və s.)İbtidai insanların ictimai-siyasi dünyagörüşləri bu gün müasir cəmiyyət üçün nə qədər primitiv görünsə də,lakin onların tanrıçılıq təsəvvürləri öz dəyərlərini qoruyub saxlamışdır. Məqaləni optimist ruhla bitirmək istərdim. Bakıda "Kitabi -Dədə Qorqud" abidəsinin açılışı mərasimində hörmətli Prezidentimiz cənab İlham Əliyev çıxışında qeyd etmişdir ki, “Bu abidə bütün türk dünyasını birləşdirəcək və XXI əsr türk dünyasının əsri olacaqdır”.(13)

Ədəbiyyat:

1.Мифологический словарь (Гл.ред. Е.М. Мелетинский), Москва «Советская Энциклопедия» 1990)
2.Türkologiya jurnalı N 1, Bakı-2016
3.“Azərbaycan 2020: gələcəyə baxiş” inkişaf konsepsiyasi, (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir)
4.S.Əlizadə(tərtib edən) “Kitabi-Dədə Qorqud” Bakı, 2004.

5.Azərbaycan Sovet Ensiklopediyası (ASE), X cilddə
6.Azərbaycan SSR Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu.Ərəb və Fars sözləri lüğəti .Bakı. Yazıçı 1985
7.«Латинско-Русский словарь»,Дворецкий И.Х. 1976.
8.”Farsca-Azərbaycanca lüğət”,Bakı 2007.
9.Xalq qəzeti, Azər.Tac,20.07.2013
10. Mahmud Kaşğari “Divanü Lüğat-it-Türk”,Bakı-“Ozan”-2006,IV cilddə
11. Faruq Sümər “Oğuzlar (türkmənlər) Bakı-2013
12. “Rusca-Azərbaycanca Lüğət”,Azərbaycan SSR Elmlər Akademiyası,Nəsimi adına Dilçilik İnstitutu, III cilddə “Elm” nəşriyyatı,Bakı-1976
13. Xalq qəzeti,Azər.Tac,14 .12. 2013
14. “Ağamusa Axundov və Azərbaycan Filologiyası” Beynəlxalq elmi konfransın materialları. 24-25 Aprel, Bakı 2017

Гасан Алиев

Божественное видение человека

Резюме

На основании данной статьи можно прийти к выводу о том, что народы с тюркскими корнями, как и народы всего мира, имели свои собственные верования. Была создана традиция мультикультурализма и толерантности на основании мультирелигиозности нашего народа. Многорелигиозные тюркские народы, объединившись, создали великую тюркскую семью и поныне поддерживают ее существование в качестве независимых тюркских государств. В наши дни ученые всего мира (в основном западные) стремятся доказать, что все человечество - плоды одного дерева. Начиная с примитивного общества вплоть до сегодняшнего дня, тип мышления людей очень схожи, ведь соседние народы имеют близкие корни, языки и религии. Но тем не менее, это не может рассматриваться как "плод одного дерева". Если выдвинутая на Западе теория связана с природой, то сказанное им "деревья" как и люди, объединяясь в одну генетическую близость, распадаются в отдельные ветки. Это непреложный закон созидательной силы природы и общества. Этот закон не изменит даже самая передовая наука.Основная причина подобного вывода является идентичность слов, связанных с выражением “божественность” у разных народов. На самом деле, этот процесс произошел в связи с тем, что господствующие "фараоны", "дары" и "римляне" заставляли других народов называть богов на их языке. Понятие «Бог Гор» проделало длинный путь от Египта до Японии, и

дошло до японского языка в виде «хоор». (Город Хиросимо,Храм Хорюдзи и др.)Несмотря на кажущийся примитивизм социально-политических перспектив первобытных людей для современного общества, сохранились ценности божественного видения

Hassan Aliyev

Divine visions of men

Summary

On the basis of this article, it can be concluded that people with Turkic roots, as well as peoples of the whole world, had their own beliefs. A tradition of multiculturalism and tolerance was created on the basis of the multireligious nature of our people. Multireligious Turkic peoples by uniting have created a great Turkic family and still maintaine its existence as independent Turkic states. Today, scientists around the world (mainly, the Western) tend to prove that all of mankind are the fruit of one tree. Since the primitive society to the present day, the way of people's thinking is very similar, because the neighboring nations have similar roots, languages and religions.Nevertheless, it can not be regarded as "the fruit of the same tree." If the theory advanced by the West is associated with nature, as they say, "trees" like people that united in one genetic affinity, split into individual threads.It is an immutable law of the divinepower that created nature and society.The law cannot be changed even by the most advanced science.

The main reason for this conclusion is the identity of words associated with the expression "divinity" among different peoples. In fact, this process occurred due to the fact that the ruling "pharaohs", "gifts" and "Romans" forced other peoples to call the gods in their language. The concept of " God of the Horus " has come a long way from Egypt to Japan, and has reached the Japanese language in the form of "hoor". (City of Hiroshimo,Horyuji Temple etc.)Despite the seeming primitivism of the social and political prospects of primitive people for modern society, the values of the divine vision have been preserved.

Rəyçi: Qəzənfər Kazımov
filologiya elmlər doktoru, professor

SEVDA İMANOVA
ADNSU
Imanova.71@bk.ru

ФРАЗЕОЛОГИЯ

Açarsözlər: iş,dilçilik,zəngin,fəlsəfə,problem,təhsil,tarix,lüğət, fonetika,stilistika.
Key words: work, language, rich, problem, education, history, dictionary, stylistic, philosophy, phonetic
Ключевые слова: работа, языкознание, богатство, философия, проблема, образование, история, словарь, фонетика, стилистика,

Фразеология- это наука о фразеологических единицах (фразеологизмах), т.е. об устойчивых сочетаниях слов с осложненной семантикой, не образующихся по порождающим структурно- семантическим моделям переменных сочетаний.Фразеологизмы – высоко информативные единицы языка; они не могут рассматриваться как «украшения» или «излишества». Подобная трактовка фразеологизмов встречается в некоторых работах и в данное время является устаревшей. Фразеологизмы – одна из языковых универсалий, так как нет языков без фразеологизмов. Английская фразеология очень богата и у нее многовековая история.

Фразеология – чрезвычайно сложное явление, изучение которого требует своего метода исследования, а также использования данных других наук – лексикологии, грамматики, стилистики, фонетики, истории языка, истории, философии, логики и страноведения.

Мнения лингвистов по ряду проблем фразеологии расходятся, и это вполне естественно. Тем не менее важной задачей лингвистов, работающих в области фразеологии, является в интересах как теории фразеологии, так и практики преподавания иностранного языка. Вопросы фразеологии в Англии и США трактуются преимущественно в работах по семантике и грамматике, а также в предисловиях к фразеологическим словарям. Имеется ряд статей, посвященных идиоматичности словосочетаний. Пословицам повезло значительно больше. Пословицы изучаются в многочисленных работах. Издавался специальный журнал «Proverbium» (1965- 1975гг.) издание этого журнала объясняется тем, что паремиология (учение о пословицах) традиционно рассматривается как составная часть фольклористики.В Англии, США и Японии издан ряд английских фразеологических словарей. Фразеология также широко представлена во многих толковых словарях, например, в серии оксфордских словарей, в учебном словаре Хорнби, в американском словаре «The Random House

Dictionary of the English Lahguage» и др.Е.Д. Поливанов считал, что фразеология «займет обособленную и устойчивую позицию (подобно фонетике, морфологии и т.п.) в лингвистической литературе будущего – когда в последовательной постановке разнообразных проблем наша наука лишена, будет случайных пробелов». Предвидение Е.Д. Поливанова осуществляется в наши дни. Вопрос о фразеологии как лингвистической дисциплине ставил и В.В.Виноградов. труды В.В. Виноградова способствовали появлению множества работ по фразеологии разных языков. Такое накопление систематизированных фактов – одна из предпосылок создания фразеологии как лингвистической дисциплины.Во всех отечественных учебниках по лексикологии имеется раздел «Фразеология, идиомы, или устойчивые сочетания слов». Такой раздел включает сейчас в состав лексикологии по традиции. Это объясняется тем, что фразеология официально не оформлена как лингвистическая дисциплина. Кроме того, следует иметь в виду, что фразеология в нашей стране была в течение длительного времени частью учения о слове, и чисто лексикологический подход к фразеологизмам – явление не столь уже редкое. Некоторые исследователи включают ФЕ в словарный состав языка, а фразеологию в состав лексикологии главным образом по той причине, что фразеологизмы рассматриваются как эквиваленты слов, а лексикология – как лингвистическая дисциплина, изучающая словарный состав языка, т.е. слова и их эквиваленты.Подобная точка зрения вызывает возражения. Семантическая целостность фразеологизма не может быть установлена таким путем, так как и переменные сочетания слов могут иметь синонимы – слова, например, look fixedly = to stare; sufferings of mind or body = pain и др. Кроме того , многие ФЕ не имеют слов – идентификаторов, а могут идентифицироваться только с помощью переменных словосочетаний, например, drink like a fish = drink too much; in a small way = on a small scale и др. Следует также иметь в виду, что пословицы и поговорки, т.е. фразеологизмы со структурой предложения, могут идентифицироваться только с помощью предложений, например, birds of feather flock together – people who the same interest, ideas, etc. are attracted to each and stay close together; the blind leading the blind – a situation in which the person who is leading or advising others knows as little as they do (LD).Семантическая целостность ФЕ может быть установлена при сопоставлении ее значения со значением ее компонентов как отдельных слов, а также выявлением особенностей ее употребления в контексте. Термин «эквивалент слова» создал Л.В. Щерба. Он подчеркивал, что такая группа слов обозначает одно понятие и является потенциальным эквивалентом слова. Действительно, тесная группа слов, если она является словосочетанием, может обозначать одно понятие.Отношения

между глагольными ФЕ и их лексическими синонимами – словарными идентификаторами – были темой монографического исследования, в котором выявлены существенные различия между ними. Во всех проанализированных примерах типа draw (или pull) a (или the) long bow – exaggerate, shake a leg –hurry, split hairs – quibble и др. установлено, что ФЕ и их лексические синонимы по –разному выражают одни и те же значения, т.е. имеются два разных вида номинации. Слова употребляются в своих буквальных значениях, что характерно для первичной номинации, а ФЕ являются переосмысленными оборотами, вторичными наименованиями. Это «два принципиально различных способа отображения действительности».Предметом изучения синтаксиса являются переменные, а не устойчивые предложения. Изучение семантических и стилистических особенностей устойчивых предложений – одна из важных задач фразеологии.Критерием номинативности и коммуникативности не следует пользоваться при определении фразеологичности потому, что он приводит к парадоксальному положению. Дело в том, что в современном английском языке имеется значительное число глагольных фразеологизмов, которые мы относим к классу номинативно-коммуникативных образований, являющихся словосочетаниями, т.е. единицами, выполняющими номинативную функцию с глаголами в действительном залоге, и цельнопредикативными предложениями, т.е. единицами, выполняющими коммуникативную функцию, с глаголами в страдательном залоге, например, break the ice (сломать лед) – the ice is broken; cross (или pass) the Rubicon (перейти Рубикон) – the Rubicon is crossed (или passed) и др. Подобные образования не обладают автономностью пословиц, но им свойственно самостоятельное употребление не в меньшей степени, чем поговоркам. Таким образом, если рассматривать номинативность как один из критериев фразеологичности, то подобные обороты с глаголами в действительном являются ФЕ и входят в систему языка, а с глаголами в страдательном залоге – нефразеологическими единицами и не входят в систему языка. Подобный вывод, как совершенно очевидно, является неправомерным.При использовании указанного выше критерия номинации из числа фразеологизмов выпадает также значительное число цельнопредикативных единиц непословичного типа, например, the fat is in the fire – быть беде; that cat won t jump- этот номер не пройдет; what will Mrs. Grundy sau? –что скажут люди? Будучи изъятым из состава фразеологии, подобные обороты, по существу, повисают в воздухе и перестают быть объектом лингвистического исследования, так как не известно, в каком разделе языкознания их следует изучать.Следует отметить, то термины «номинативный» и «коммуникативный» не являются однозначными и

помимо значений, в которых они употребляются выше, у них имеются и другие значения. Так «номинативный» также означает «назывной», и в таком понимании любой фразеологизм является номинативной единицей: «любая языковая единица любого уровня остается номинативной единицей в силу того, что она фиксирует нечто познанное человеком в соответствующем объекте» . термин «коммуникативный» также означает «относящийся к процессу коммуникации». Подобная многозначность терминов является нежелательной, но, к сожалению, она еще существует. Передачу пословиц, являющихся устойчивыми единицами языка со структурой предложений, исключительно в ведение фольклора нельзя считать правильным. Пословицы должны изучаться как в фольклоре, так и во фразеологии, но с различных точек зрения. Во фразеологии они изучаются как единицы фразеологического состава языка, обладающие своеобразными семантическими, стилистическими и структурными особенностями. Большое значение для фразеологии современного английского языка имеет изучение пословиц как источника фразеологической деривации. Фольклор же интересуется пословицами преимущественно как продуктом народного творчества, характеризующими народную мудрость, народные обычаи и т.п.Фразеология состоит из трех разделов**:** идиоматика, идиофразеоматика (semi – idioms) и фразеоматика. Это деление основано на различных типах значения фразеологизмов: от более осложненных до менее осложненных. Эта классификация включает классификацию, предложенную В.В. Виноградовым, и дополняет ее. Необходимость в новой классификации возникла в связи с тем, что английская фразеология не укладывается в три класса, выделенных В.В. Виноградовым. Впервые выделены идиофразеоматика и ряд групп, входящих во фразеоматику, например, фразеоматизмы с прибавочно – уточнительным значением.В раздел фразеоматики входят собственно фразеологические единицы, или идиомы (идиоматизмы), т.е.устойчивые сочетания лексем с полностью или частично переосмысленным значением. Эти ФЕ бывают различных структурных типов и могут быть как мотивированными, так и немотивированными.В раздел идиофразеоматики входят идиофразеоматические единицы, или идиофразеоматизмы, т.е. устойчивые словосочетания, у первых фразеосемантических вариантов (под фразеосемантическим вариантом понимается одно из значений полисемантического фразеологизма. Термин образован по аналогии с предложенным А.И. Смирницким термином «лексико – семантический вариант», т.е. одно из значений полисемантического слова.У вторых идиоматических вариантов – полностью переосмысленные, например, 1) цепная реакция (полностью переосмысленный идиоматический вариант). Второй

вариант – переосмысление первого, являющегося его прототипом. Переосмысление носит метафорический характер.

Литература:

V.V.Vinogradov:" İnvestigation of English phraseology"
И.В. Арнольд: «Лексикология современного английского языка»
Kroeger, Paul(2005). Analyzing Grammar: An introduction. Cambridge: Cambridge University Press.p. 35. 2000.

S.İmanova

Frazeologiya

Xülasə

Bu məqalədə frazeologiyanın frazeoloji vahidlərdən , mürəkkəb semantikalı sabit birləşmələrdən bəhs edən elm olduğundan danışılır.

Onun öyrənilməsi üçün leksilogiya, qrammatika, stilistika, fonetika, dil tarixi, tarix, fəlsəfə, məntiq və ölkəşünaslıq kimi digər elmlərdən istifadə etmək lazımdır.

Belə ifadələr bir tərəfdən törənən dil vahidləri hesab olunur,digər tərəfdən isə dəyişkən sözbirləşmələrinin törəməsi modeli üzrə əmələ gəlirlər, yəni dəyişkən – stabil törəmələr hesab olunur.

S.İmanova

Phraseology

Summary

İn this article phtaseology is spoken about as a science dealing vvith phraseological units, complex semantical constant combinations.

İn order to study it the sciences like lexicology, grammar, stylistics, phonetics, language history, history, phylosophy,logics and country study must be studied.

Such constructions from one hand are considered to be derivatives, from the other hand they are derived according to the model of derivation of the changeable construction, i.e. variable- stable constructions.

Rəyçi: S.Qazıyeva
filologiya elmləri namizədi

FIRANGİZ EYVAZOVA
Azərbaycan dövlət Neft və Sənaye Universiteti
gulya.ayaz10@gmail.com

THEORETICAL FOUNDATIONS OF TEACHING SPEAKING

Açar sözlər: danışıq, dialoq, müzakirə, tərkib, iştirak, məqsəd, tələbə,səslər, inkişaf, şərait
Key words: speech, dialogue, discussion, content, attendance,aim,student, sounds, development, condition
Ключевые слова: игра, исследование, дебаты, роль, упражнение, дискуссия, опрос, участие, сценарий, заранее

Introduction

. . When we speak about teaching a foreign language, we first of all have in mind teaching it as a means of communication.

In teaching speech the teacher has to cope with two tasks. They are: to teach his pupils to understand the foreign language and to teach them to speak the language. So, speech is a bilateral process. It includes hearing, on the one hand, and speaking, on the other. When we say "hearing" we mean auding or listening and comprehension.

Speaking exists in two forms: dialogue and monologue.

The most common difficulties in auding and speaking

When auding a foreign language pupils should be very attentive and think hard. They should strain their memory and will power to keep the sequence of sounds they hear and to decode it. Not all the pupils can cope with the difficulties entailed. The teacher should help them by making this work easier and more interesting. This is possible on condition that he will take into consideration the following three main factors which can ensure success in developing pupils' skills in auding: (1) linguistic material for auding; (2) the content of the material suggested for listening and comprehension; (3) conditions in which the material is presented.

1. Comprehension of the text by the ear can be ensured when the teacher uses the material which has already been assimilated by pupils. However this does not completely eliminate the difficulties in auding. Pupils need practice in listening and comprehension in the target language to be able to overcome three kinds of difficulties: phonetic, lexical, and grammatical.[4]

Конец формы

2. The content of the material also influences comprehension. The following factors should be taken into consideration when selecting the material for auding:

The topic of communication: whether it is within the ability of the pupils to understand, and what difficulties pupils will come across (proper names, geographical names, terminology, etc).

The type of communication: whether it is a description or a narration. Description as a type of communication is less emotional and interesting, that is why it is difficult for the teacher to arouse pupils' interest in auding such a text. Narration is more interesting for auding. Consequently, this type of communication should be used for listening comprehension.

The context and pupils' readiness (intellectual and situational) to understand it. The way the narrative progresses: whether the passage is taken from the beginning of a story, the nucleus of the story, the progress of the action or, finally, the end of the story. The title of the story may be helpful in comprehending the main idea of the text. The simpler the narrative progresses, the better it is for developing pupils' skills in auding.

The form of communication: whether the text is a dialogue or a monologue. Monologic speech is easier for the learners, therefore, it is preferable for developing pupils' ability to aud.

3. Conditions of presenting the material are of great importance for teaching auding, namely:

The speed of the speech the pupil is auding.

The most convincing is the approach suggested by N. V. Elukhina. She believes that in teaching auding the tempo should be slower than the normal speed of authentic speech. However this slowness is not gained at the expense of the time required for producing words (that might result in violating the intonation pattern of an utterance), but of the time required for pauses which are so necessary for a pupil to grasp the information of each portion between the pauses. Gradually the teacher shortens the pauses and the tempo of speech becomes normal or approximately normal, which is about 150 words per minute. According to the investigation carried out by L. Tzesarsky the average speed for teaching auding should be 120 words per minute; the slow speed — 90 words per minute.

The number of times of presenting the material for auding: whether the pupils should listen to the text once, twice, three times or more. Pupils should be taught to listen to the text once and this must become a habit. However they sometimes can grasp only 50% of the information and even less, so a second presentation may be helpful. In case the pupils cannot grasp most of the information, practice proves that manifold repetitions when hearing do not help much. It is necessary to help pupils in comprehension by using a "feed back" established through a dialogue between the teacher and the class which takes as much time as it is required for the repetitive presentation of the material.

Consequently, in teaching listening comprehension the teacher should bear in mind all **the difficulties pupils encounter when auding in a foreign language.**

Speaking a foreign language is the most difficult part in language learning because pupils need ample in speaking to be able to say a few words of their own in connection with a situation. The stimuli the teacher can use are often feeble and artificial. The pupil repeats the sentence he hears, he completes sentences that are in the book, he constructs sentences on the pattern of a given one. These mechanical drill exercises are, of course, necessary, however, there must be occasions when the pupils feel the necessity to inform someone of something, to explain something, and to prove something to someone. This is a psychological factor which must be taken into account when teaching pupils to speak a foreign language.

Another factor of no less importance is a psycho-linguistic one; the pupil needs words, phrases, sentence patterns, and grammatical forms and structures stored up in his memory ready to be used for expressing any thought he wants to. The teacher should lead his pupils to unprepared speaking through prepared speaking.[5]

Psychological characteristics of speech

The development of speaking follows the same pattern both in the mother tongue and in a foreign language from reception to reproduction as psychologists say, and from hearing to speaking if we express it in terms of methodology.

Конец формы

On ne peut pas ne pas mentionner les différentes opinions relative à la conformité d'insérer les significations émotionelles - expressives dans la catégorie de modalité. V.V. Vinogradov avertit qu'il faudrait tracer une frontière principalement exacte et claire entre les différentes formes émotionelles d'expression de la réaction envers la réalité et l'appréciation de l'énoncé. [В кн. В. В. Виноградов. 1975]

Cependant, il convient de noter qu'entre les significations modales et émotionelles - expressives il existe aussi bien une liaison que des traits communs. Avant tout, c'est le moment de subjectivité, propre à toutes les deux. Toutes les deux expriment l'appréciation du sujet parlant envers le fait montré, mais le caractère de l'appréciation donnée par ces categories est différent. Evidemment, il faudrait étudier comme la catégorie indépendante la réaction émotionelle-expressive envers l'énoncé, ce qui permettra de concentrer l'attention sur l'étude des significations spécifiques modales, reflétant l'appréciation rationnelle de l'énoncé.Il est nécessaire de faire attention à l'étude des phrases, qui sont caractérisées en elles-même par des significations modales, en plus, par des significations modales d'un espèce déterminé d'appréciation de l'énoncé.

Les opinions d'appréciation peuvent correspondre avec les significations modales qui unissent les éléments de la structure d'appréciation, et en premier lieu, le sujet d'appréciation avec sa note et son objet [7: 31-40].

Je pense qu'il n'est pas bête

A mon avis, il n'est pas bête

Il passe pour pas une bête

Dans tous les exemples est obligatoire la modalité supplémentaire, introduisant l'appréciation et son sujet, cependant par des moyens différents. Dans le premier cas le sujet de l'appréciation est expliqué explicitement et le prédicat « pense » mettant en liaison le sujet et l'appréciation même de son objet (***il n'est pas bête***). Dans le deuxième exemple le sujet est explicite,

le prédicat de l'opinion est sous-entendu. Dans le troisième exemple est donné le prédicat modal « ***passer pour qn*** », le sujet d'appréciation et l'opinion générale sont sous-entendus à la base du sémantisme du prédicat.

La signification modale, introduisant l'opinion est compliquée ici. « ***Passer pour qn*** » signifie qu'il y a l'appréciation de « l'opinion générale » du côté, mais le sujet parlant n'est pas d'accord avec lui.

Or, l'appréciation est souvent exprimée (***il n'est pas bête***) comme la limitation de telle ou telle modalité. Il ne faut pas oublier que les émotions sont des facteurs importants pour la régulation de la connaissance.

Les émotions influencent sur les processus de perception, et par conséquent, les appréciations conditionnent les moyens de représentation de la modalité.

Donc, nous sommes arrivés à la conclusion que l'une des particularités du français est la présence d'une grande diversité des moyens d'expression des significations modales. Cette étude a montré l'influence des facteurs structurales et sémantiques sur le choix des moyens étudiés, qui ont poursuivi les relations où ces moyens se trouvent entre eux-mêmes.

Bibliographie

1. Ахманова О. И. Словарь лингвистических терминов. М.,1966.
2. Большой энциклопедический словарь. Языкознание. М.,1998.
3. Виноградов В. В. О категории модальности и модальных словах в русском языке. В кн. В. В. Виноградов. Избранные труды. Исследования по русской грамматике. М., 1975.
4. Балли Ш. Общая лингвистика и вопросы французского языка. М., Изд. иностр. литер. 1955.
5. Гак В. Г. Теоретическая грамматика французского языка. Синтаксис. М., «Высшая Школа» 1986.
6. Колшанский Г. В. К вопросу о содержании языковой категории модальности. В сб. Вопросы языкознания. М., 1961. №1.
7. Вольф Е. М. Эксплицитный модус в оценочных структурах. В сб. Лексическая и грамматическая семантика романских языков. Выпуск IV. Калининский Государственный Университет. 1980. стр. 31-40.
8. Bally Ch. Linguistique générale et linguistique française. Ed. Francke, Berne, 1965
9. Benveniste E. Problème de linguistique générale. tom I. P. 1975.
10. Brunot F. La pensée et la langue. P. 1965.

11. Grevisse M., Goosse A. Le Bon Usage. 14-ième éd. Duculot, Bruxelles. 2007.
12. Le Qerler N. Typologie des modalités. Presse Universitaire de Caen. 1996.

Джалилова Тейба

О разновидностях модальных значений во французском языке

Резюме

В этой статье, под названием «О разновидностях модальных значений во французском языке» предлагается следующая классификация модальных значений:

1) объективно-модальные значения;

2) субъективно-модальные значения;

3) эмоционально-экспрессивные значения. А также изучаются некоторые теоретические вопросы относительно модальности и взгляды учёных лингвистов в этой области. Этой статьей мы вовсе не претендуем на полное рассмотрение существующих теоретических мыслей относительно модальности во французском языке.

Teybə Cəlilova

Fransiz dilində modal mənaların müxtəlifliyi barədə

Xülasə

Məqalədə modal mənaların aşağıdakı təsnifatı təklif olunur:

1) obyektiv-modal mənalar;

2) subyektiv-modal mənalar;

3) emosional-ekspressiv mənalar. Həmçinin modallıqla bağlı bəzi nəzəri məsələlər və dilçi alimlərin bu sahəyə aid baxışları ön plana çəkilir.

Bu məqalə ilə biz fransız dilində modallıqla əlaqədar mövcud nəzəri fikirlərin tam öyrənilməsinə iddia etmirik.

Rəyçi: B.İsmayılov
professor

TOFİQ QULİYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
tofiq@mail.ru

MÜASİR İNGİLİS DİLİNİN AFROAMERİKAN VARİANTI VƏ ONUN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: müasir ingilis dili, afroamerikan variantı, linqvistik xüsusiyyətlər.
Ключевые слова: современный английский язык, афроамериканский вариант, лингвистические особенности.
Key words: the modern English language, Afroamerican variant, linguistic peculiarities.

«Qara» və ya «afroamerikan» ingilis dilinin tədqiqinin mövzusu sosiolinqvistika və mədəniyyətlərarası ünsiyyət, irqlər və etnik mədəniyyətlər arasında qarşılıqlı münasibətlərin öyrənilməsi sahəsində kifayət qədər aktualdır. «Qara» ingilis dilinin linqvistik aspektlərini başa düşərək, biz dil inkişafının xüsusiyyətlərini və insanların mədəniyyətinin inkişafını nəzərdən keçirə bilərik. Afroamerikan ingilis dili tarixi inkişaf prosesində dillərin qarşılıqlı təsiri nəticəsində formalaşmış amerikan ingilis dilinin dialektidir. 1960-cı illərdən başlayaraq bütün dünyada «afroamerikan ingilis dili» terminin işlənməsi qəbul olundu, buna görə tədqiqat işində biz bu termini işlədəcəyik. Vilyam Labova görə «afroamerikan ingilis dili afroamerikan irqinin nümayəndələrinin nitq xüsusiyyətlərinin vizit kartı olan amerikan ingilis dilinin variantıdır. Bu dialekt digər qeyri-amerikan millətlərinin nümayəndələrinin kifayət qədər müvəffəqiyyətlə işlətdikləri cənubi amerikan dialekti ilə qohumluq təşkil edir».Afroamerikan ingilis dili mürəkkəb və ziddiyyətlidir. İndiyə kimi bu dialektin ABŞ-da tələffüzün strukturuna nə dərəcədə təsir etdiyi aydın deyil. Vətəndaş müharibəsindən sonra qul alveri institutu ləğv olunanda afroamerikan əhaləsi ölkənin dərinliklərinə və şimalına yayıldı. Bu köçün təsiri indiyə kimi musiqi və rəqs motivlərində hiss olunur. İngilis dilinin afroamerikan variantı ABŞ-da D.Kristal, S.Bau, T.Keybl, Rusiyada R.V.Reznik, T.S.Sokin, A.D.Şveytser, F.S.Dyusbayeva və başqaları tərəfindən öyrənilmişdir. İngilis dilinin afroamerikan variantı nəinki öz dil yarımsisteminə, hətta ümumiyyətlə, ingilis dili sisteminə xas olan səciyyəvi xüsusiyyətlərə malikdir. Qabarıq xüsusiyyətlərdən biri unsiyyətdə qeyri-dəqiqliyin kifayət qədər çox sayda olmasıdır. Demək olar ki, hər bir ifadədə *"may occur", "sometimes", "often"* və ya *"generally"* kimi sözlər ola bilər. Eyni fikri sonluqlar haqqında da demək olar. Bəzən onlar işlənməmədikləri halda, rast gəlir, və yaxud əksinə. Bəzi cümlələrdə keçmiş

zamanın inkarında *ain't* və hətta *didn't* yaxud *ditn't* kimi konstruksiyalar işlənir. İngilis dilinin afroamerikan variantında həmçinin «şirin nitq» üsulu da iştirak edə bilər. Bu o deməkdir ki, müəyyən hallara uyğun olaraq mövcud olmayan qrammatik konsruksiyalar işlənə bilər. Belə konstruksiya standart ingilis dilində əsas dil normalarına riayət olunmaması kimi qiymətləndirilə bilər. İngilis dilinin afroamerikan variantında belə norma adi hal alır. Verbal səviyyədə bu dilə yiyələnən şəxs digərləri ilə ünsiyyətə, eyni zamanda şəxslərarası münasibətlərə nəzarət edə bilir. Bunu qaradərili yeniyetmələrin küçə oyunları zamanı nəinki ABŞ və Böyük Britaniyanın küçələrində, bu irqi qrupun nümayəndələrinin yaşadıqları digər inkişaf etmiş ölkələrdə də asanlıqla izləmək olar. Daha bir üsul «göz dialekti» adlanır. Bu sözlərin yazılışının onların səslənməsini dəyişmədən dəyişilməsidir. Məsələn, *"was" "wuz"* kimi yazıla bilər. Buna baxmayaraq hər iki variant eyni cür tələffüz olunur. Sadəcə olaraq *"wuz"* variantı müəyyən sosial konnotasiyaya malikdir. ABŞ və Karib hövzəsində (geniş yayılan kreol dili) demoqrafik şərtlər kifayət qədər fərqli idi. Ona görə kreol dili artıq ABŞ-ın ərazisində olan linqvistik duruma daha çox təsir etmişdi. Daha sonra Karib hövzəsinin nümayəndələri Böyük Britaniyanın ərazisinə köçəndə ingilis dilinin britan variantı kreol dilinin xarakterik xüsusiyyətlərini assimilyasiyaya uğratdı.Ona görə biz bu gün ingilis dilində ünsiyyət saxlayarkən biixtiyar afrikan mənşəli sözlərdən istifadə edirik: *jubilee, banana, jumbo, gumbo, jazz* və *banjo*. Verilmiş sözlər slenq deyildir.Bizim cəmiyyət nəinki ingilis dilinin standart variantının tədrisində, hətta ingilisdilli ölkələrin ərazilərində işlənən ingilis dilinin mövcud olan bəzi dialektlərinin canlı təqdimatında maraqlı olmalıdır. Yalnız bu halda biz müasir dünyada mədəniyyətlərarası ünsiyyətə nail olmağa ümid edə bilərik.Standart ingilis dilinin və tədqiqata cəlb etdiyimiz afroamerikan dialektinin fonetik strukturu fərqlidir. İnsanlar çox vaxt müxtəlif etnik qrupların nümayəndələrini onlara xas olan tələffüzlə müəyyənləşdirirlər. Ona görə fonologiyanın öyrənilməsi sosiolinqvistikanın çox mühüm bir hıssəsini təşkil edir. Sosiolinqvistlər tərəfindən bu və ya digər səslərin müxtəlif leksik vahidlərdə tələffüz olunub və ya olnmamasını izah edə bilən nəzəriyyə irəli sürülmüşdür. Əgər birləşmədə növbəti söz samitlə başlayırsa, səslərin assimilyasiyaya uğraması ehtimalı daha çox olur, nəinki söz saitlə başlayarsa. Məsələn, *west side - wes side; west end.*Sözün sonunda işlənən *'t'* və ya *'d'* düşür, əlbəttə əgər bu *'ed'* şəkilçisi deyilsə. Məsələn, *John ran fast - John ran fas; John passed the teacher in his car.* Leksik vahidlərin özlərinin strukturunda bu hadisə daha aydın görünür. Məsələn, *author* və ya *either* kimi sözlərdə kar samit çox vaxt *'f'* kimi tələffüz olunur. Ona görə amerikan ingilis dilinin afroamerikan dialektində danışanlar '*nothing'* sözünü *nufn*, *'author'* sözünü *ahfuh*, *'brother'* sözünü *bruvah* tələffüz edirlər. Sözün sonunda *'th'* hərf birləşməsi çox vaxt *'f'* kimi tələffüz olunur. Məsələn, *'Ruth' - Ruf*, *'south' – souf* kimi

tələffüz olunur. Əvvəl gələn səs burun-sonor səsi olan zaman *'th'* hərf birləşməsi çox vaxt *'t'* oxunur. Məsələn, *tent - 'tenth'*, *mont - 'month'*.

Sözlərdə *l* və *r* hərfləri rast gələndə vokalizasiya prosesi yaranır, ona görə onlar *uh* tələffüz olunur. Bu postvokalizasiya vəziyyətində (saitdən sonra) daha aydın görünür. Məsələn, *'steal', 'sister', 'nickel' - steauh, sistuh, nickuh* olur.Bir sadə cümlədə iki inkarın işlənməsi, *has been* birləşməsində ancaq *has*-in olması kimi bəzi xüsusiyyətlər ingilis dilinin amerikan variantının vizit kartıdır.Afroamerikan dialektinin qrammatik xüsusiyyətləri ilk dəfə olaraq 1965-ci ildə dilşünas Vilyam Labov tərəfindən təsvir olunmuşdur.İngilis dilinin tədqiq olunan variantında ivrit, rus, ərəb dillərindəki kimi bağlayıcı fel düşür, işlənmir. Məsələn: *You crazy! ("You're crazy")* yaxud *She my sister ("She's my sister"), Who you? ("Who're you?")* və *Where you at? ("Where are* you (at)?"). Digər tərəfdən, vurğu altında olan leksik vahid düşmür: *She is my sister* [6, 157].Feillər indiki qeyri-müəyyən zamanda üçüncü şəxsin təkində *-s* sonluğu ilə işlənmir. Məsələn, *She write poetry* ("She writes poetry"). İnkar formalar standart ədəbi ingilis dilindən fərqli olaraq düzəlir. Çox vaxt ümumi neqativ indikator kimi *ain't* forması işlənir. Bu forma ədəbi dildə işlənən *am not, isn't, aren't, haven't, hasn't* formaları əvəzinə istifadə oluna bilir. Həmçinin *amn't* forması da işlənir [13, 265]. Afroamerikanların, xüsusilə ədəbi ingilis dili təhsili olmayanların nitqində *"a"* və *"an"* qeyri-müəyyən artiklləri nadir hallarda işlənir.Bu dialektdə semantik inversiya hadisəsi də mövcuddur. Məsələn, ingilis dilinin afroamerikan dialektində *'bad'* (pis) sözü ədəbi ingilis dilində *'good'* (yaxşı) mənasında işlənir.Ingilis dilinin afroamerikan variantında inkarlığı ifadə etmək üçün çoxlu vasitələr vardır. Məsələn, sadə cümlədə feli inkarda ifadə etmək üçün *ain't* işlədilir. İnkarlığın bu forması bədii ingilis dilindəki *'haven't'* ilə oxşardır. Ona görə bədii ingilis dilindəki *'I haven't seen him'* cümləsi ingilis dilinin afroamerikan dialektində *I ain't seen him. I ain't step on no line. I said, "I ain't run the stop sign," and he said, "you ran it!"I ain't believing you that day, man"* kimi ifadə olunur.İngilis dilinin afroamerikan dialektində dilçilərin "inkarlıq inversiyası" adlandırdığı xüsusi inkarlıq konstruksiyası vardır. Məsələn, *Pilate they remembered as a pretty woods-wild girl "that couldn't nobody put shoes on"* [26, 67].Verilmiş misalda, xüsusilə dırnaq içində verilmiş hissədə *couldn't* modal feli *nobody* mübtədasından əvvəl işlənir. Bununla bağlı diğər nümunələr də vermək olar: *Ain't no white cop gonna put his hands on me. Can't nobody beat 'em. Can't nobody say nothin' to dem peoples! Don' nobody say nothing after that. Wasn't nobody in there but me an' him.*Ədəbi ingilis dili üçün mübtəda, tamamlıq və yiyəlik əvəzliklərinin ayrı-ayrı formaları xasdır. İngilis dilinin afroamerikan dialekti üçün isə yuxarıda adı çəkilən nitq hissələrinin bir forması xasdır.

Ədəbi ingilis dilində bütün isimlərin cəm forması vardır. Məsələn, *book - books, woman - women*. İngilis dilinin afroamerikan dialektində, adətən, bu formaları görmək olmur. Ona görə həm tək, həm də cəm formaları eynidir. Məsələn, *t'ree policeman*. Bəzən isimdən sonra gələn *dem* əlavə olunur. Beləki, bu söz cəm halın təyinedicisi kimi işlənir: *di gyal-dem,*

*"the girls".*İngilis dilinin afroamerikan variantında yalnız standart ədəbi dildən deyil, onun digər dialektlərindən yaranan leksik vahidlər də mövcuddur. Məsələn, ingilis dilinin afroamerikan dialektində avropa millətinin nümayəndələrini xarakterizə edən bir neçə söz vardır: "gray dude", "Irish", "Ofay". Lüğətlərdə bu sözlər etimologiyası məlum olmayan leksik vahidlərə aid edilir [9, 85].Ədəbi dildə işlənən sözlər kimi bəzi sözlərdə ingilis dilinin afroamerikan dialektinin və yaxud qərbi afrikan dillərinin mənşəyinə rast gəlirik. Məsələn, *banana (Mandingo); yam (Mandingo); okra (Akan); gumbo (Western Bantu).*İngilis dilinin afroamerikan variantında *d,* sözlərin əvvəlində *th* cingiltili birləşməsinin əvəzinə işlədilir. Məsələn, *the, that, those, there sözlərinin* əvəzinə *duh, dat, dose, dere, dey* işlədilir. Bu dialektdə bəzi sözlərdə *th* əvəzinə *v* da tələffüz oluna bilər. Məsələn, *"other"*sözü *"ovvah"* kimi tələffüz oluna bilər. Leksik dəyişikliyə təsir edən daha bir fonoloji hadisə saitlərdən sonra *r*-nın düşməsidir. Sözlərin sonunda bu belə görünür: *"ever"* əvəzinə *"evvah"*, *"remember"* əvəzinə *"remembah"* [9, 126].Bu dialektdə çox vaxt sözlərin sonunda samit birləşmələri sadələşdirilir, zəiflədilir. Bu tendensiya kifayət qədər güclüdür. Bəzi sözlər sonluqsuz tələffüz olunur, məsələn, *jus* və *roun. Desk "des"* olur, cəmdə isə *"desses" kimi işlənir*; *test* "tes" olur, cəmdə "tesses" formasında işlənir.Fonoloji vahidlərin ən çox nəzərə çarpan xüsusiyyəti "lüğəvi gücün" itməsi ola bilər. Məsələn, *'bout (about), 'gree (agree), low (allow), 'bacco (tobacco), 'cept (accept)* və *'member (remember).*

Ədəbiyyat

1. Швейцер. А.Д. Социальная дифференциация английского языка в США / Швейцер. А.Д.- М.: Наука, 1983,- 157 с.
2. Baugh C. and Cable T. English as a World Language / Baugh C. and Cable T. - N.Y.: Taylor&Francis, 2002. - 159 p.
3. Carroll E.R. Dialects of American English / Carroll E.R. - N.Y.: Penguin Books, 1999. - 155 p.
4. Crystal D. The Cambridge Encyclopedia of Language / Crystal D. - London, 2002. - 589 p.
5. Duisebayeva F.S. Linguistic Aspects of Black English / Duisebayeva F.S. - В сб.: А. 2007. - 89 p.
6. Reznik R.V. A History of the English Language / Reznik R.V. Sookina. T.S. Reznik. T.V. - M., 1984. - 256 p.
7. Robert B.F. The English Language / Robert B.F. - N.Y.: Penguin Books, 1992. - 376 p.
8. William L. W. Principles of Linguistic Change. Volume II / William L. W., Mason T., Leemann A. - N.Y.: Blackwell Publishers, 2006. - 456 p.

Тофиг Гулиев

Афроамериканский вариант современного английского языка и его лингвистические особенности

Резюме

В статье рассматривается афроамериканский вариант современного английского языка и его лингвистические особенности. Афроамериканский английский язык являетсядиалектом американского английского языка, который сформирован в результатеобоюдного влияния языков в процессе их исторического развития. Начиная с 1960-х годовво всем мире принято употребление термина «афроамериканский английский язык»,-поэтому в исследовательской работе используется этот термин. Афроамериканскийанглийский язык сложный и противоречивый. В статье упоминаются имена такихизвестных американских и русских лингвистов, изучающих этот диалект, как Д.Кристал,К.Бау., Т.Кейбал, Р.В.Резник, Т.С.Сокин, А.Д.Швейцер, А.С.Дюсбаева. В статье такжеприводится ряд примеров относительно лингвистических особенностейафроамериканского варианта современного английского языка.

Tofig Guliyev

Afroamerican Variant of the Modern English Language and its Linguistic Peculiarities

Summary

The article deals with matters of the modern Afroamerican variant of the English language and its linguistic peculiarities. Afroamerican English is the dialect of the American English formed as a result of the mutual influence of languages in the process of their historical development. Since 1960 the usage of the term “Afroamerican English” has been accepted throughout the world, that’s why this term is used in the research work. Afroamerican English is complicated and contradictory. The names of such well-known American and Russian linguists studying this dialect, as D.Crystal, C. Baugh, T.Cable, R.V.Reznik, T.S.Sokin, A.D.Shveytser,

and F.S.Duisebayeva have been mentioned in the article. A number of examples concerning linguistic peculiarities of the Afroamerican variant of the modern English language have been given in the article as well.

Rəyçi: Çingiz Qaraşarlı
filologiya üzrə elmlər doktoru, professor

MƏTANƏT İBRAHIMOVA
ADNSU
matanat@mail.ru

İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNİN TƏRCÜMƏ ÜSULLARI

Açar sözlər: frazeologiya, frazeoloji birləşmə, vahid, dil, tərcümə, zənginləşmə, antonim, omonim
Key words: phraseology, phraseological combination, unit, language, translation, enrichment, antonym, homonym
Ключевые слова: фразеология, фразеологическая комбинация, единица, язык, перевод, обогащения, антоним, омоним

İngilis dilində verilmiş frazeologizmin azərbaycan dilində maksimal adekvat tərcüməsini əldə etmək üçün tərcüməçi tərcümənin müxtəlif növlərindən istifadə edir. Bunların sırasına ekvivalent, analoq, təsviri, kalka və ya hərfi, antonim, müştərək, parallel tərcümə növləri daxildir.

Ekvivalent tərcümə – bu tərcümə növü ingilis dilində verilmiş frazeologizmlərin mənasını, bədiilik xüsusiyyətlərini ana dilimizdə tam olaraq əks etdirir. Ekvivalent tərcüməyən aşağıdakıları misal göstərmək olar:

As cold as ice "buz kimi soyuq"; red as blood "qan kimi qırmızı"; black as coal "kömür kimi qara"; to play with fire "odla oynamaq"; the golden age "qızıl əsr"; Platonic love "platonik sevgi"; winged words "qanadlı sözlər"; as cunning as fox "tülkü kimi hiyləgər (bic)"; to take counsel "məsləhət almaq".

Analoq tərcümə – tərcümənin bu növü isə ingilis dilində verilmiş frazeologizmlərin mənasını azərbaycan dilində ifadə edə bilsə də, onların bədiilik xüsusiyyətlərini ya tam, ya da qismən fərqli əks etdirir. Məsələn: It is raining cats and dogs.: Şiravaran yağış yağır; a drop in the bucket "dənizdə bir damla"; to fall upon one "bir kəsin davamçısı olmaq"; have a good time "yaxşı vaxt keçirmək"; that's flat "qısa və konkret"; pop the question "evlənmə təklifi etmək"; the observed of all observers "diqqət mərkəzi".

Təsviri tərcümə – ingilis dilində verilmiş frazeologizmin azərbaycan dilində adekvat və ya analoq tərcüməsi mümkün olmadığı zaman təsviri tərcümə növündən istifadə olunur. Tərcümənin bu növü verilmiş frazeologizmi azərbaycan dilinə sərbəst söz birləşmələri vasitəsilə tərcümə edir. Bu zaman orijinaldakı frazeologizm bədiilik və ifadəlilik xüsusiyyətlərini itirir. Məsələn: to burn the candle on both ends "səhərdən axşama kimi işləmək"; a black eye "gözünün altı göyərmiş"; the dark ages "orta əsrlər"; for a long "havayı", "müftə"; straw in the wind "ümumi fikir";

have a yellow streak "cəsarətsiz adam", "qorxaq"; be in pink "sağlam görünmək", "gümrah olmaq"; in the black "cahcəlallı". (Кунин А.В. Большой англо-русский фразеологический словарь).

Antonim tərcümə – orijinaldakı fikrin adekvat və ya təbii yolla tərcüməsinə deyilir. İngilis dilində verilmiş frazeologizmlərin azərbaycan dilinə antonim tərcüməsində inkar kostruksiyası təsdiqlə əvəz edilir və yaxud da əksinə. Buna aşağıdakı tərcümələri misal göstərmək olar:

Don't count your chickens before they are hatched "cücəni payızda sayarlar"; to keep one's head "başını itirməmək"; to keep one`s head above water "borca girməmək"; to keep one`s pecker up "ruhdan düşməmək"; to keep one`s hair on "əsəbləşməmək".

Kalka və ya hərfi tərcümə – bu tərcümə növü ekvivalentsiz frazeologizmlərin milli-etnik xüsusiyyətlərini saxlayaraq onların maksimal tərcüməsini verir. Frazeologizmlərin bədiiliyini vurğulamaq üçün kalka və ya hərfi tərcümədən istifadə olunur. Tərcümənin bu növünə orijinaldakı frazeologizmin azərbaycan dilinə başqa yolla tərcüməsi mümkün olmadıqda müraciət edilir. Kalka tərcümə növündən əsasən Bibliyadan götürülmüş frazeologizmlərin, antik və mifik dövrün frazeologizmlərinin tərcüməsi zamanı geniş istifadə olunur. Məsələn: Bibliyadan götürülmüş frazeologizmə baxaq: David and Jonathan "Devid və Conatan", "ayrılmaz dostlar" (Кунин А. В. Фразеология современного английского языка).

Bir çox əsərlərdəki frazeologizmlərin böyük bir qismi dilimizə hərfi tərcümə olunur. Hərfi tərcümə bədii dil baxımından səmərəli olmasa da, tərcümə praktikasında geniş yayılıb. Tərcüməçi orijinaldakı frazeoloji birləşmələrin semantik xüsusiyyətlərinə dərindən yiyələnmədikdə, onların mənasını fərqləndirmədikdə sözləri sadəcə olaraq tərcümə elədiyi dilin sisteminə uyğun düzür, nəticədə hərfi tərcümə alınır. Məsələn: to put the cart before the horse atı arabaya qoşmaq (hər şeyi tərsinə etmək).

Tərcüməçi müəyyən ifadələri hərfi tərcümə edərkən ümumxalq ingilis dilində geniş yayılmış frazeoloji birləşmələrin leksik-qrammatik quruluşunu saxlamağa, onların mənasını azərbaycan oxucusuna aydın şəkildə çatdırmağa cəhd göstərir. Tərcüməçi hərfi tərcümədən imtina edərkən də son dərəcə diqqətli olmalıdır. Əks halda bəzən orijinaldakı fikir təhrif olunur. Onlar forma cəhətdən uyğunluq təşkil etsə də, məna təhrifinə gətirib çıxarır.

Müştərək tərcümə – verilmiş frazeologizmin analoq tərcüməsi onun mənasını tam olaraq ifadə etmirsə, o zaman bu frazeologizmin öncə kalka, sonra təsviri tərcüməsi verilir və onun analoq tərcüməsi ilə müqayisə edilir. Məsələn: tocarry coals to Newcastle –Nyukasla kömür daşımaq. Bu frazeologizm "bir şeyin çox olduğu yerə həmin şeydən daşımaq" mənasını verir. Bunu "dənizə su tökmək" kimi tərcümə etmək olar.

Paralell tərcümə – tarixi mətnlərin tərcüməsi zamanı kalka tərcümə növü ilə yanaşı parallel tərcümə növündən də istifadə olunur. Tərcümənin bu növü ingilis dilindəki verilmiş frazeologizmin qısa tarixi şərhini verir. Məsələn: "white elephant"– İngiltərədə insanlar çoxlu xərc tələb edən, lakin heç bir xeyri olmayan əşyaya "white elephant" deyirlər. Bu frazeologizm bir əfsanədən götürülmüşdür. O əfsanəyə görə şahzadə Siama öz düşmənlərini var-yoxdan çıxartmaq üçün onlara fil bağışlayır. Çünki fil Hindistan və Seylonda müqəddəs heyvan sayılır. Onu öz işlərində istifadə etmirlər. Bundan əlavə bu ölkələrdə fillərə qulluq böyük xərc tələb edir. (Кунин А.В. Большой англо-русский фразеологический словарь).

Bəzən frazeologizmlər müəlliflər tərəfindən dəyişdirilir. Bu cür frazeologizmlərin tərcüməsinin effektli alınması üçün tərcüməçi onu əvvəlki vəziyyətinə qaytararaq tərcümə edir. Frazeologizmlər aşağıdakı yollarla dəyişdirilir:

1. Frazeologizmlərə yeni komponentlər daxil etməklə.

Məsələn: let`s not put the cart too far ahead the horse "hər şeyi tərsinə etmək" (atı arabaya qoşmaq -hərfi tərcümə), bu frazeologizmin dəyişikliyə uğramış forması belədir: "to put the cart before the horse".

2. Frazeologizmin komponentlərini başqa sözlərlə əvəz edərək onun leksik və qrammatik tərkibini dəyişmək yolu ilə.

Məsələn: Bibliyadan götürülmüş "to have a millstone about one`s neck" (ürəyində daş gəzdirmək) frazeologizmi, "Qoca dənizçi" (The ancient Marines) poemasında "have an albatros about one`s neck" kimi işlədilmişdir. Bu cür dəyişikliklərə uğramış frazeologizmləri asanlıqla əvvəlki vəziyyətinə qaytarmaq mümkündür.

3. Frazeologizmi hissələrə ayıraraq, onun komponentlərini sərbəst söz birləşmələrinin tərkibində işlətməklə.

Məsələn: to get cold feet "qorxaq" frazeologizmini hissələrə ayıraraq, onun komponentlərini sərbəst söz birləşmələrinin tərkibində işlədilmiş bir misala baxaq:

"I have got a cold."

"It is in your feet."

Bu dialoqda birinci şəxs xəstəliyindən şikayət edir, digəri isə bunun xəstəlik deyil, qorxaqlıq olduğunu söyləyir. Bu cür frazeologizmləri əvvəlki vəziyyətinə qaytarmadan tərcümə etmək qeyri-mümkündür.

4. Frazeologizmin bəzi komponentlərini saxlamaqla

Məsələn: He complained to Fleur that the book dealt with nothing but birds in the bush. (J. Galsworthy). Bu cümlədə "a bird in the hand is worth two in the bush" (soğan olsun, nağd olsun) atalar sözünün bir hissəsi işlədilmişdir. Verilmiş misalda "a bird in the bush" frazeologizmi "boş vədlər" kimi tərcümə olunur.

İngilis dilinin frzeologizmləri azərbaycan dilinə tərcümə edilərkən onların çoxmənalı və omonim olduğunu da nəzərə almaq lazımdır. Verilmiş frazeologizmin mənalarından biri frazeoloji, digəri omonim ola bilər. Bunlara aşağidaki frazeologizmləri misal göstərmək olar:

Don't mention it 1) bu haqda mənə xatırlatmayın, 2) dəyməz (frazeoloji m.).

To be narrow in the shoulders 1) dar çiyinli olmaq, 2) yumor hissi olmayan (frazeoloji m.).

To pin back smb`s ears 1) bir kəsin qulağını çəkmək, 2) bir kəs üzərində qələbə qazanmaq. (frazeoloji m.).

The girl next door 1) qonşu otaqda yaşayan qız, 2) belə qızlar çoxdur (frazeoloji m).

To see eye to eye 1) göz-gözə gəlmək, 2) bir kəslə tam razı olmaq (frazeoloji m.).

To strentch one`s legs 1) ayaqlarını uzatmaq, 2) gəzişmək (frazeoloji m.).

Eyni bir söz birləşməsinin həm sərbəst, həm də sabit olması tərcümə prossesində tərcüməçilər üçün böyük çətinliklər yaradır. Ingilis dilinin frazeologiyasını dərindən bilməyən tərcüməçilər bu cür frazeologizmlərin düzgün tərcüməsini vermək üçün külli miqdarda frazeologizm ehtiyatına malik olmalıdır. O, verilmiş söz birləşməsinin sabit və ya sərbəst olduğunu müəyyən etməyi bacarmalıdır. Tərcüməçi bu cür frazeologizmlərin məhz hansı mənada işləndiyini mətnin tələbləri baxımından da müəyyənləşdirə bilər.

İngilis dilində elə frazeologizmlər də var ki, onlar bir-birindən artikl ilə fərqlənirlər və müxtəlif məna ifadə edirlər. Məsələn: to go to sea "dənizçi"; to go to the sea "dənizə getmək"

Tərcümə prossesinə təsir göstərən əsas səbəblərdən biri də ingilis dilində zahirən oxşar, lakin semantik cəhətdən fərqlənən frazeologizmlərin olmasıdır. İngilis dilini kifayət qədər bilməmək, tərcümə prossesində diqqətsizlik belə frazeologizmlərin birinin digəri ilə qarışdırılmasına gətirib çıxarır. Məsələn: "to make good time" frazeologizmi "to have a good time" frazeologizmi ilə qarışdırılır. Əslində isə bunlar tam fərqli mənalar ifadə edirlər. "To make a good time" frazeologizmi "sürətlə keçib getmək", "tez çatmaq" mənasını, "to have a good time" isə yaxşı vaxt keçirmək mənasını ifadə edir. "To make good time" frazeologizmi işlədilən cümləyə nəzər salaq: We made very good time on our trip to Florida – Biz Floridaya çox tez çatdıq.

"To put one`s nose in" – "peyda olmaq" frazeologizmi isə "to put one`s nose into smb`s affair" – "başqasının işinə burun soxmaq" frazeologizmi ilə qarşılaşdırılır.

"Backward(s) and forward(s)" – "eninə-uzununa", "başdan-başa" frazeologizmi "back and forth" – "irəli geri", "gah o yana, gah bu yana" frazeologizmi ilə qarşılaşdırılır.

İngilis dilindəki frazeologizmlərin bir hissəsi çoxmənalı səciyyə daşıyır. Məsələn: to pass the time of the day 1) söhbət etmək, 2) salamlaşmaq; on the side 1) gizli, 2) qatılmış, qarışdırılmış (su və s. ilə); to let one's hear down 1) ürəyini açmaq, 2) özünü sərbəst aparmaq. (С. П. Романов, А. Л. Коралов. Пособие по переводу с английского на русский)

Jane is very nice girl. I'am sorry I've never seen her let her hair down. – Ceyn çox yaxşı qızdır. Çox təəssüf edirəm ki, o mənimlə həmişə ehtiyatlı danışır.

Belə frazeologizmlərin malik olduqları mənalardan məhz hansını ifadə etdiyini mətinin kontekstindən müəyyən etmək olar. Buna aşağıdakı cümlələri misal göstərə bilərik:

To kill time, my brother and I counted all the red automobils that passed us on the highway. Bu cümlənin tərcüməsi belə olacaq: Vaxtı öldürmək üçün mən və qardaşım şosedən keçən bütün qırmızı maşınları saydıq. Bu cümlədə "to kill time" frazeologizmi "vaxt öldürmək" mənasında işlədilmişdir.

Bir sözlə frazeologizmlər bir dildən başqa bir dilə tərcümə edilərkən həm təmsil elədiyi milli düşüncələrindən, eləcə də bədii əsərin kontekstindən uzaqlaşdırmamalı, həm də tərcümə olunduğu dilin tələblərinə cavab verməli, başqa bir xalqın düşüncəsinə yol tapmalıdır.

Ədəbiyyat

1. Hacıyeva Ə. H., Hacıyeva A. K. İngiliscə-azərbaycanca frazeoloji lüğət Bakı, 2006.
2. Həsənəv H. Azərbaycan dilinin frazeologiyası. Bakı,1979 səh 2-9
3. Hüseyzadə M. Müasir Azərbaycan dili. Bakı, 1954. səh 32-36.
4. Комиссаров В. Н. Теория перевода. М., 1960. səh 69-71.
5. Комиссаров В. Н. Лингвистик перевод. М.,1980 səh 125-141.
6. Кунин А. В. Английская фразеология. М., 1970. səh 7-12; səh 190-206.

M.İbrahimova

Translation methods of English phraseologisms

Sammary

The article deals with translation methods of English phraseologisms. Phraseologisms have a strong national character. Studying phraseologisms of any nation, we can get more information about their culture, history, life and living conditions.

Each language has its own phraseologims. Phraseology of the English language is very large and diverse with its phraseology world. A translator uses various types of the translation to get maximal adequate translation of these phraseologisms into Azerbaijani. Here includes equivalent, analog, descriptive, tracing paper or literal, antonym, teamwork and parallel translations. From this point of view the article can be very useful for those who want to learn translation ways of English phraseologims.

М.Ибрагимова

Методы перевода английских фразеологизмов

Резюме

Статья посвящена методы перевода английских фразеологизмов. Фразеологизмы имеют сильную национальный характер. Изучение фразеологизмов любой нации, мы можем получить более подробную информацию об их культуре, истории, жизни и условий жизни.

Каждый язык имеет свои собственные фразеологизмы. Фразеология английского языка очень велик и разнообразен мир с его фразеологии. Использует различные виды переводчика, чтобы получить перевод этих фразеологизмов максимальная адекватный перевод на азербайджанском языке. Вот включает в себя эквивалент, аналоговый, описательную, кальку или буквальное, антоним, работа в команде и параллельные переводы. С этой точки зрения, статья может быть очень полезным для тех, кто хочет выучить способами перевода английских фразеологизмов.

Rəyçi: Rəhimə Məmmədova
filologiya elmləri namizədi, dosent

ƏDƏBİYYATŞÜNASLIQ

TOFİQ ƏBDÜLHƏSƏNLİ
UNEC
filologiya elmləri doktoru, professor
abdulhasanli55@mail.ru

GÜNEY AZƏRBAYCAN MÖVZUSU MÜASİR POEZİYAMIZDA

Açar sözlər: İstiqlal, mücadilə, vahid, bütövlük, mənəvi, birlik, emosional.
Ключевые слова: национальный, борьба, единый, целостность, моральный, единство, эмоциональный.
Keywords: independence,struggle,unit,integrity,moral,unity,emothinal

Müasir poeziyada diqqəti çəkən mövzulardan biri də Güney Azərbaycan problemi ilə bağlıdır.

Xatırladaq ki, Azərbaycan poeziyasında Güney mövzusunda bədii örnəklər vətənimizin parçalandığı ilk dövrlərdən yaranmağa başlamışdır. Hətta rus sovet müstəmləkəçilik rejiminin ən sərt dönəmlərində belə bu mövzuda əsərlər yaranmışdır. Lakin qeyd olunmalıdır ki, «Azərbaycan sovet poeziyasında, ümumən ədəbiyyatında Cənub mövzusuna ikili münasibət olmuşdur – bir tərəfdən Süleyman Rüstəmin Cənub şeirləri, «İki sahil» kitabı Dövlət mükafatına layiq görülmüş, digər tərəfdən Bəxtiyar Vahabzadənin «Gülüstan» poemasının nəşri qadağan edilmiş, əsər ziyalılar arasında ancaq əlyazması halında yayılmışdır. Bu onu göstərir ki, rəsmi ideeologiya həmin mövzuya ancaq müəyyən miqyasda müdaxilə etməyə icazə verir, tarixi həqiqətə toxunanda dərhal öz kəskin «etiraz»ını bildiridi. Ədəbiyyatdan, yazıçıdan tələb edilirdi ki, Rusiyanın tarixi işğalçılıq siyasəti barədə heç nə deyilməsin, məsələdən yalnız ümumi şəkildə – emosional məzmunda bəhs edilsin». (1, səh.114-115) İstiqlaliyyət dövründə Güney Azərbaycan mövzusu istər ölkəmizin Güneyində, istərsə də Quzeyində yazıb-yaradan şairləri düşündürmüş və məşğul etmişdir. Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Fikrət Sadıq, Məmməd İsmayıl, Balaş Azəroğlu, Hökumə Bülluri, Sabir Rüstəmxanlı, Çingiz Əlioğlu, Nüsrət Kəsəmənli, Həmid Nitqi, Qulamrza Səbri Təbrizi, Yəhya Şeyda, Savalan, Eldar Baxış, Əli Daşqın, Böyük Rəsuloğlu, Rüstəm Behrudi

və başqa şairlərin yaradıcılığında Güney Azərbaycan problemi əsas mövzu obyektlərindən birinə çevrilmişdir. Bəzi tədqiqatçıların fikrincə, Cənub mövzusu «... elə müqəddəsdir ki, ona yalnız zəruri yaradıcılıq məqamlarında qayıtmaq gərəkdir».(2, səh.142)

Xalq şairi Balaş Azəroğlunun şeirlərində Azərbaycanın Güney probleminə xüsusi diqqət yetirilmişdir. Şairin şeirlərinin mühüm bir qismi məhz Vətənimizin Güneyində yaşayan xalqımızın azadlığı məsələsinə həsr olunmuşdur. Bu əsərlərlə yanaşı, Balaş Azəroğlunun digər mövzularda yazmış olduğu şeirlərində də dolayısı ilə Azərbaycanın Güney dərdinə toxunulmuşdur. Filologiya elmləri doktoru, professor Abdulla Abasov «Həyat və bədii həqiqət» adlı məqalələr toplusunda Balaş Azəroğlunun yaradıcılığının bu aspektini səciyyələndirərək yazır: «Hər cürə məqsədli azadlığı həyatın mənası, insanlığın bahar çağı kimi götürsə də şair həmin ideyanı mücərrəd bir istək, yaxud əlçatmaz arzu kimi deyil, real və aydın bir amal, səadət axtarışları yollarının uğurlu nəticəsi kimi təqdim edir. Bu müqəddəs hissə xalqın, Vətənin ruhunu, istəyini qatır. Balaş Azəroğluya görə, bəşər cəmiyyətinin elə bir yeri, guşəsi, elə bir vətəndaşı yoxdur ki, bu və ya digər mənada bu istək uğrunda mübarizə aparmasın».(3, səh.9-10) Xalq şairi Bəxtiyar Vahabzadənin «Azərbaycan» adlı şeirində XIX yüzilin əvvəllərində imperiyaların əlilə ikiyə bölünmüş Azərbaycanın, biri-birindən ayrı salınmış vahid bir xalqın əslində mənəvi bütövlüyünün heç zaman pozulmadığı xatırlanır:

Qardaşlıqdır şüarımız, biz həmişə əltutanıq,
Düşmən bizə əl uzatsa, düşmənliyi unudanıq.
Könlümüzdə bir vahiddir, güneyimiz, quzeyimiz,
Vətən – bizim namusumuz,
biz Vətənik, Vətən də biz.(4, səh.160)

Müəllifin qənaətincə, ikiyə bölünməsinə baxmayaraq Azərbaycan xalqı ruhunda, varlığında hər zaman bütövlük, birlik, vahidlik istəyini yaşatmış, həmişə bu amal uğrunda mübarizə aparmış, bir an belə mübarizədən çəkinməmişdir. Elə buna görə də xalqın milli istəyinin gerçəkləşməsi uğrunda apardığı mübarizələr onun dərd və ağrılarını unudulmağa qoymamış, daim ictimai fikrin diqqət məkrəkəzində saxlamışdır.

Onu da qeyd edək ki, Bəxtiyar Vahabzadə Azərbaycanın Güney dərdinə heç bir zaman biganə qalmamış, hələ sovet siyasi rejiminin ən sərt dönəmlərində belə böyük cəsarətlə bu mövzuda əsərlər yazmışdır. Məlum olduğu kimi, «Sovet-imperiya ideologiyasının üsullarından biri də xalqlara milli tarixlərini unutdurmaq idi və bir

çox hallarda buna nail olurdular. Qədim tariximizi təhrif, yaxın tariximizi isə tam unutmağa sövq edirdilər.

Bəxtiyar hələ 1959-cu ildə yazdığı və 23–26 oktyabr 1960-cı ildə açıq mətbuatda çap etdirdiyi «Gülüstan» poemasında, dövlətimizin azadlıqdan məhrum olunması, xalqımızın parçalanması, tariximizin təhrif edilməsi fikirlərini, müstəqil fikrin «qəbul edilməz» bir dövründə yazdı, sel kimi kükrəyərək xalqın fikrini silkələyəndən iki il sonra hakimiyyətdə olanlar «Gülüstan»ın mahiyyətini anladılar və Bəxtiyara qarşı hücumlara başladılar. Bəxtiyarı sıxışdırdılar, onu təqiblərə məruz qoydular, tələbələrlə ünsiyyətdən uzaqlaşdırdılar: lakin gec idi, həm zaman o zaman deyildi, həm xalq o xalq deyildi.

Bəxtiyarın «Gülüstan» poeması sovet ədəbiyyatındakı «60-cılar» adı ilə tanınan, azad fikirlilik cərəyanının ilk qaranquşlarından olaraq həm şairlik məharəti, həm milli cəsarəti, həm də ictimai fikrə təsiri nöqteyi-nəzərincə Azərbaycanın sovet dövrünün siyasi poeziyasının şah əsəridir».(5, səh.16).Bəxtiyar Vahabzadənin sovet hakimiyyəti illərində yazdığı «Mərziyə» poemasında da Güney Azərbaycan mövzusuna diqqət yetirilmiş, istedadlı şairə Mərziyə Üskuyinin obrazı timsalında Azərbaycanın bölünməsi faktı poetik ifadəsini tapmışdır. Şairin digər əsərlərində də Güneylə bağlı olduqca ciddi məqamlar öz əksini tapmışdır.Bəxtiyar Vahabzadə sovet hakimiyyəti illərində senzuradan yayınmaq məqsədilə bir çox əsərlərinin mövzusunu başqa xalqların həyatından almış, lakin bu tipli əsərlərində bilavasitə Azərbaycanın ikiyə parçalanmasına, müstəmləkə həyatı sürməsinə toxunulmuşdur. Müəllifin yaradıcılığının bu aspektinə diqqət yetirən Türkiyə ədəbiyyatşünası Hüsniyyə Mayadağlının «B.Vahabzadənin əsərlərində sətiraltı ifadələr» adlı dəyərli məqaləsində ədibin hələ sovet siyasi rejiminin ən sərt dövrlərində mövzusunu beynəlxalq həyatdan aldığı bir çox əsərlərdə öz xalqının taleyindən bəhs etdiyi məsələsi qabardılmışdır»(6, səh.26-29)

Bəxtiyar Vahabzadənin yaradıcılığında xüsusi bir mərhələ təşkil edən istiqlaliyyət dövründə şair Güney Azərbaycan mövzusunda bir sıra poetik örnəklər yaratmışdır. Müəllifin bilavasitə Güney Azərbaycan probleminə söykənən əsərlərində deyil, həmçinin digər mövzularda qələmə aldığı şeirlərdə də bəhs olunan problemlə bağlı məqamların bu və ya digər şəkildə özünü göstərməsi maraq doğurmaqdadır. Müəllifin istiqlaliyyət illərində qələmə aldığı «Qürbət-Vətən» adlı şeirdə Azərbaycanın istər coğrafi, istərsə də siyasi baxımdan parçalanmış kimi təqdim olunmasına etiraz bildirilir, onun bütöv şəkildə dərkinin vacibliyinə diqqət yetirilir:

Anamız birdirsə Vətən də birdir,
Nə ana, nə Vətən iki olammaz (7, səh.35).

Bəxtiyar Vahabzadənin böyük satirik Mirzə Ələkbər Sabirə ithafla yazdığı «Fəxriyyə» adlı şeirində yaşadığımız günlərdə Dağlıq Qarabağ ərazisinin düşmən tapdağında qalmasına millətin göstərmiş olduğu dözüm bir zamanlar bütövlükdə ölkənin ikiyə bölünməsinə göstərilən biganəliklə müqayisəyə çəkilir. Şairin fikrincə, tarix boyu torpaq, ərazi itkilərilə barışmaq, bütün bunlara bir növ öyrəncəli, vərdişkar olmaq, məğlubiyyətlər önündə daim səbr, dözüm nümayiş etdirmək nəticə etibarı ilə milli mənliyin və qürurun sınmasına, xalqda özünə, taleyinə qarşı biganəlik duyğusunun formalaşmasına gətirib çıxarır:

Dədə torpağımız miras malı tək,
Özgə qılıncıyla pay-pay bölündü.
Artıq çoxdan bəri torpaq itirmək,
Adətə çevrildi, vərdişə döndü (8, səh.258).

Bəxtiyar Vahabzadənin onu bu gün susmaqda, fəallıq göstərməməkdə günahlandıranlara müraciətlə qələmə aldığı «Danışmaq yasaqkən» adlı şeirində sovet senzurasının ən sərt dönəmlərində Azərbaycanın müstəmləkə taleyi yaşadığını, imperiyalar arasında parçalandığını aşkar şəkildə şeirin mövzu obyektinə çevirdiyindən bəhs olunmaqdadır. Şairin «Yazıq Vətən» adlı şeirində isə yad güclərin əlilə parçalanmış, zəif salınmış Azərbaycanın dərdlərinə, yaralarına, ağrılarına çarə aranılır və bu yaraların sağaldılması üçün hər bir fərdin məsuliyət daşıdığı xatırladılır.«Vətən, torpaq, dil təəssübünün» «yaradıcılığına qırmızı hərflərlə yazılmış» olan Bəxtiyar Vahabzadənin sovet hakimiyyəti illərində yazmış olduğu, ancaq uzun illər senzura yasaqlığından çap etdirmədiyi, yalnız istiqlaliyət illərində üzə çıxara bildiyi «Sandıqdan səslər» silsiləsinə daxil olan «Sahirə cavab», «Azəroğluna», «150 il», «Lal-kar» və s. kimi şeirlərində də Azərbaycanın ikiyə bölünməsi, yaşanılan faciələr mövzu obyektinə çevrilmişdir. İstər forma, istərsə də məzmun baxımından orijinal təsir bağışlayan bu əsərlərdə şair ikiyə parçalanmış bir millətin bütövlük həsrətini poetik sözün imkanları çərçivəsində əks etdirməyə çalışmışdır.

İndi tam əsasla söyləmək olar ki, onun özü belə bir qəmli, kədərli, hər sətri dərd qoxuyan dastana, əfsanəyə çevrilmişdir. Şairin zaman keçdikcə öz əsərlərinə çevrilməsi fikri burada heç də gəlişigözəllik xatirinə söylənməmişdir. Bu fikir müasir şer-bədii mətn nəzəriyyəsində artıq səslənmiş həqiqətlərdəndir» (9, səh.88-89).Cənubi Azərbaycanda doğulub boya-başa çatması Balaş Azəroğlunun yaradıcılıq özünəməxsusluğunu şərtləndirən amillərdən biri kimi çıxış etməkdədir və bu amil nəzərə alınmadan onun poetik fərdiyyyətini bütünlüklə dərk etmək mümkün deyildir. Şairin yaradıcılığın diqqəti çəkən ən mühüm keyfiyyətlərindən biri onun Azərbaycanın Güney

dərdinə son dərəcə həssas münasibəti ilə bağlıdır. Azərbaycanın ikiyə parçalanması, Vətənimizin Güney qismində azadlıq və istiqlaliyyət uğrunda gedən mübarizələr bir şair kimi Balaş Azəroğlunu daim düşündürmüş və bu mövzuda çoxlu sayda poetik örnəklər yaratmağa sövq etmişdir. Şairin yaradıcılığının əvvəlki dövrlərində olduğu kimi istiqlaliyyət illərində də yaratdığı əsərlər bu baxımdan səciyyə-vidir.Balaş Azəroğlunun son dövr yaradıcılığının məhsulu olan «Mənim iki dünyam» kitabının müəllifinə», «Təbriz yuxuma gəlir», «Ana Zəhra üçün», «Həmid Nitqiyə» və digər şeirlərində ikiyə parçalanmış bir millətin arzu, nisgil və idealları poetik ifadəsini tapmışdır. Müəllifin əslən Azərbaycanın Güneyindən olan şair-ədəbiyyatşünas Qulamrza Səbri Təbriziyə ithaf etdiyi «Mənim iki dünyam» kitabının müəllifinə» adlı şeirdə Vətən həsrətinin kədərli tapbosu çəkilmişdir. Burada doğma vətəndən ayrı düşmüş, bütün ömrü boyu qürbətdə yaşamağa məcbur olan iki sənətkarın taleyi fonunda vətənsizlik dərdi orijinal bədii ifadəsini tapmışdır:

Dumanlı İngiltərədə,
Təbrizi düşündün,
Bakını, məni düşündün
Qardaşım Səbri.
İnsan qürbətə düşəndə
Tükənir səbri (10).

Şeirin sonrakı misralarında müəllif vətəndən ayrı keçirdiyi günləri xatırlayır, yaşadığı kədərli anları gözləri önünə gətirərək oxucuda mühacirliyin əzabları haqqında canlı təəssürat yaratmağa çalışır:

Bir məhrəm, bir həmdəm istəyir.
Dumanlar içində
Bir günəşli aləm istəyir
Əridə içinə hopmuş
Hicranın buzunu,
Yenidən tapa özünü,
Qayıda cavanlıq çağına
Təbrizin doğma qucağına (11).

Şair Vətəndən ayrı yaşamağı ömürdən hesab etmir. Onun qənaətincə, doğulduğun yurddan, bağlı olduğun insanlardan kənarda keçən ömür insan taleyinə yazılmamalıdır. Ona görə də şair şərti olaraq yaşadığı ömrü iki qismə ayırır:

Biri Səhəndli, Savalanlı,
Biri ümmanlı dünya.
Hər ikisi,
Həsrətli bir qəlbin naxışıdır.
Qəmli çağlarda
Yazmaq yaxşıdır,
Yaratmaq yaxşıdır (12).

Lakin nə qədər kədər içərisində olsa da, şair ümidini itirməmişdir. O, hələ xoşbəxt günlərin, vüsalın qarşıda olduğu qənaətindədir.Şairin «Təbriz yuxuma gəlir» və digər şeirlərində də eyni həsrət, eyni nisgil yüksək poetik sənətkarlıqla bədii təcəssümünü tapmışdır. Şairin qələmə aldığı şeirlərdə şairin heç zaman səngiməyəcək ağrı, əzab və həsrəti ifadə olunmuşdur.

İstiqlaliyyət illəri poeziyasında vətənpərvərlik, yurdsevərlik hissinin son dərəcə güclü şəkildə verilməsi əksər poeziya nümunələri üsün səciyyəvi olduğundan diqqəti çəkir, maraqla oxunur.

Ədəbiyyat

1. Аббасов Абдулла. Щяйат вя бядии щягигят, Бакы, «Нурлан» няшрийяаты, 2005.səh 114 - 115
2. Алышанлы Ширинди.л. Сюзцн естетик йаддашы, Бакы, «Елм» няшрийяаты, 1994.səh 142
3. Аббасов Абдулла. Щяйат вя бядии щягигят, Бакы, «Нурлан» няшрийяаты, 2005.səh 9 - 10
4. Vahabzadə Bəxtiyar. Истиглал . Bakı, “Gənclik” няшрийяаты 1999, səh. 160
5. Vahabzadə Bəxtiyar. . Истиглал . Bakı, “Gənclik” няшрийяаты 1999, səh. 16
6. Mayadağlı Hüsniyye. B. Vahabzadenin eserlerinde setiraltı ifadeler, “ Türk Edebiyyatı” dergisi, şübat, 1994, səh 26 – 29
7. Ващабзадя Бяхтийар. Аьыл башга, цряк башга, Бакы, «Азярбайжан» няшрийяаты, 2000, сящ. 35
8. Vahabzadə Bəxtiyar. . Истиглал . Bakı, “Gənclik” няшрийяаты 1999, səh. 258
9. Ябдцлщясянли Тофиг. Истиглал ишыьында, Бакы, Ширванняшр, 1998. səh 88 - 89
10. Azəroğlu Balaş “ Mənim iki dünyam” kitabının müəllifinə “Ədəbiyyat” qəzeti 23 yanvar 1998

11. Azəroğlu Balaş “ Mənim iki dünyam” kitabının müəllifinə “Ədəbiyyat” qəzeti 23 yanvar 1998
12. Azəroğlu Balaş “ Mənim iki dünyam” kitabının müəllifinə “Ədəbiyyat” qəzeti 23 yanvar 1998

Т. Абдулгасанлы

Тема Южного Азербайджана в современной поэзии

Резюме

В поэтических произведениях тема Южного Азербайджана является одной из тем привлекающих особого внимания.

Автор отмечает, что в Азербайджанской поэзии по этой теме появилось много художественных произведений. Даже при самых жестких законах советского режима были созданы произведения посвященные этой теме. Надо отметить, что к Азербайджанской поэзии в советское время было двоякое отношение. Раньше эта проблема рассматривалась в общем плане. Тема Южного Азербайджана в нашей стране, в период независимости заинтересовала многих поэтов не только на юге но и на севере. По мнению некоторых исследователей южная тема «столь важна что к ней можно обращаться только в особо - важных творческих моментах»

В стихотворениях Балаша Азероглы было уделено большое внимание южной проблеме Азербайджана. Особо важное место в стихотворениях поэта отводится жителям Южного Азербайджана. По мнению поэта это святое место соединяет дух народа и родины; в человеческом обществе нет ни одного места, ни края, ни гражданина чтоб не боролся бы за эту идею. В стихотворении « Азербайджан» народного поэта Бахтияра Вахабзаде, дается воспоминание о не возможности нарушения Азербайджаном моральной целостности единого народа, при разделении его в начале 19 столетия на две части.

Tofig Abdulhasanli

South Azerbaijan theme in the poetry of independence years

Sammary

The South Azerbaijan theme is one of the theme which is in the focus of attention of poetic samples.The author points out that,the great samples have been created in the theme of South in Azerbaijan poetry.Even in the

Russian Soviet colonial period,such works have been created.It must be pointed out that,there were bilateral relation to the South topic in Azerbaijan Soviet poetry and generally in the literature.In the independence years,the South Azerbaijan topic began to consider the poets living and working in the South and Worth of our uth Azerbaijan topic is very wholy,and it would be visited only in some important creative activity opportunity.

The special attention paid to the South Azerbaijan poetry problem in the poems of national poet of Azerbaijan Balash Azeroghlu.He devoted some main poems to the people who lives in the South of our county.National poet of Azerbijan Bakhtiyar Vahabzade also reminds the whole moral integrity of the same people in his poem "Azerbaijan"

Rəyçi: Marifə Hacıyeva
filologiya üzrə fəlsəfə doktoru, professor

HACI SİRACƏDDİN
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
siraceddin-haci@rambler.ru

NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ İNSANIN DÜŞMƏNİ CƏHALƏTDİR (“SİRLƏR XƏZİNƏSİ” MƏSNƏVİSİNDƏ OLAN “QƏFLƏTİN MƏZƏMMƏTİ HAQQINDA” ADLI MƏQALƏNİN ŞƏRHİ)

Açar sözlər: Nizami, cəhalət, din, insan, dəyər, elm, dünya
Key words: Nizami, obscurantism, religion, man, value, science, world
Ключевые слова: Низами, невежество, религия, человек, ценность, наука, мир

ALTINCI BEYTİN ŞƏRHİ: ACİZLİYİNİ GÖR

Bu qəm şələsinə bax, qabağı gör,
Yaxşı fikirləş və öz acizliyini gör. (1, 149)

Nizaminin qafil insana təsir vasitələrindən biri də örnək göstərməkdir. O, bu örnəyi “xəbərdar adamlar” (“arif olanlar”), “iş bilən adamlar” (“mərifət elminə yiyələnənlər”, “dünyanı tanıyanlar”) deyə tanıdır, qafil insana onlardan danışır, fərqi göstərir, fərq maraq yaradır, ancaq müqayisənin məqsədi aşağılamaq deyil, o kiçiltmir, nifrətlə doldurmur, əksinə, ümid verir, yol göstərir, sən də onların etdiyini edə bilərsən deyir, örnəklə tərbiyə verir, təcrübəni paylaşır. Bir yanda sənə tələ quranlar, o biri yanda mərifət əhli var, indi seçim sənindir, buyur, gedəcəyin yolu seç...

“Bu qəm şələsinə bax”, “şələ” yükü, ağırlığı, çoxluğu ifadə edir, belə şəllənir, insanın belini bükür, yorur, yeriməsinə imkan verir, onun bütün enerjisini udur. Nizami “Bu torpaq mənzillə vidalaşmaq haqqında” adlı on ikinci məqalədə sərvətə də “şələ” deyir: “Qabaqdakı yolda var-yoxun dağılmamış Sən var-yoxunu payla, Öz şələni at, çünki ağır yeriyənsən, yüngül olsan, mənzilə tez çatarsan...” Burada isə “qəm şələsi” cəhalət mənasındadır, qafilin ən önəmli özəlliyi cahil olmasıdır. Cəhalət çox ağır yükdür, insanın özünə zülm etməsidir, həqiqəti unutmasıdır. Şələsi kürəyində yol gedən bir insan düşünün, onun şəlləndiyi yükün nə olduğundan xəbəri yoxdur, düşmənini belində daşıyır, o qədər cahildir ki, düşməninə aşiq olmuşdur. Nizami “şələyə” (cəhalətə) yönəlir, şələni “gözdən salır”, onun nə olduğunu açıqlayır, çünki insan o şələni sərvət, nemət, səadət qaynağı deyə şəllənmişdir. Şair insanın o şələni yerə atmasını istəyir. Bunun üçün öncə qafilin şələ təsəvvürünü dəyişir, “qəm” sözünü seçir, ona “qəm şələsi” deyir, verdiyi mesaj budur: cəhalət insanı xoşbəxt

etməz, ona qəm, kədər, bəla gətirər, insan onu bədbəxt edəcək ağır yükü kürəyində daşıyarmı?

Nizami, ey qafil, "qəm şələsinə bax" deyir, "bax" feilini seçir. "Şələ insanın kürəyinə şəlləndiyindən insan onu görmür, ikincisi, bu şələni kürəyinə o, özü bağlamamışdır, heç içinə də baxmamışdır, onu başqası, düşməni, yəni dünya bağlamışdır, onun içində var-dövlət var deyə insanı inandırmışdır. Dünya düşməndir, insanın cahil olmasını istər, çünki insanı aldatmağın başqa yolu yoxdur. "Qəm şələsinə bax", yəni şələni yerə qoy, aç, içinə bax, yükünün nə olduğunu öyrən. "Qəm şələsinə bax, qabağı (önü) gör", burada "ön" qafil insanın gedəcəyi yola işarə edir, qarşında uzun, incə, çətin bir yol var, kürəyində də ağır qəm şələsi, bu halda, yolu necə gedəcəksən? "Qabağı gör" ("piş bin"), insan kürəyində ağır yük daşıyanda irəlini görə bilmir, enerjisini itirməmək üçün başıaşağı yeriyir, bu, məsələnin gerçək tərəfidir, məcazi anlamda da cəhalət ağır yükdür, o, insanın ağlını, qəlb və vicdanını möhürləyir, gözlərinə pərdə çəkir, onun düşünməsinə, həqiqəti görməsinə imkan vermir. Misradakı "qabağı gör" qəlibini "axirəti gör" ("gör" burada "anla", "düşün" mənalarını daşıyır) kimi də oxumaq olar, bu şələdəki yük hesab günü səni xilas edəcəkmi? Nizami qafili oyatmaq üçün onu düşünməyə çağırır, ağlına işarə edir, "yaxşı (dərin) fikirləş" deyir. Nəyi düşünsün? Bu ağır yüklə uzun və çətin yolu getmək olarmı? "Öz acizliyini gör", "gör" əmri "anla mənasını daşıyır, anla ki, insan aciz varlıqdır, o, ağır cəhalət yükü ilə bu yolu gedə bilməz.Bu yol axirətə gedir, son mənzil, əbədi yurd oradır, bu yol uzundur, çətindir, məşəqqətlərlə doludur, bu yolu ancaq və ancaq elmlə, mərifətlə, imanla getmək olar, bu yolun azuqəsi cəhalət deyil, o "qəm şələsi" səni yolda qoyar, həlak edər, qurda-quşa yem olarsan...Nizami insanı cəhalətin pəncəsindən xilas etməyə çalışır, bilir ki, insan o "qəm şələsi"ni atmasa, həlak olacaq. Ona görə də misradakı bütün bədii vasitələr qafil insanı şələni atmağa inandırmağa yönəlib: "Qəm şələsinə bax", daşıdığın yüklə maraqlan, onu araşdır, dünya o şələnin içinə qoyduqlarını sonda geri alacaq, "mənim" dediyin heç bir şey sənin deyil, sənin olmayan yükü niyə daşıyırsan, bu sözlərin hədəfi birdir: şələni at. "İrəlini gör", gedəcəyin uzun və çətin yolu, axirəti düşün, bu ağır yüklə o yolu gedə, axirəti qazana bilərsənmi? Məntiq eynidir: şələni at. "Yaxşı fikirləş", bu yük yol və axirət azuqəsidirmi, dar gündə səni xilas edərmi? Məntiq yenə eynidir: şələni at. "Acizliyini gör", bu ağır və faydasız yükü daşımağa gücünün catmayacağını anla, yəni şələni at.Beytdə dörd əmr feili var: "bax", "gör", "fikirləş", "gör". Rədif də "gör" ("bin") feilidir. Bu dörd əmr feili eyni mesajı verir: anla. "Qəm şələsinə bax", yükünü anla, "önü gör", yolu və axirəti anla, "yaxşı fikirləş", məna və məqsədini anla, "acizliyini gör", "özünü tanı", gücsüzlüyünü anla. Anlamaq ağılın işidir, deməli, bu dörd əmr feili ağıla işarə edir, "ağıl" sözü ərəbcədir, "ip", "bağ"

deməkdir, əlaqə qurmağa, hadisələri bir-birinə bağlamağa, səbəblə nəticə arasındakı əlaqəni görməyə işarə edir (insan "ağıl ipindən" tutub varlıqların mənalarının içinə düşür, qavrama (dərk etmə) da bağ qurmaqla gerçəkləşir). Nizami niyə insanı ağlını çalışdırmağa, anlamağa yönəldir? Çünki cəhalətin ziddi düşünməkdir (cahil düşünməyən insandır). Hər xəstəlik ziddi ilə sağaldığı kimi, cəhalət də ağılla, ağılın meyvəsi olan elmlə, düşüncə ilə sağalar. O kürəyində "qəm şələsi" olan qafil insan anlasa, şələsini yerə atacaq. Beytin rədifi olan "gör" ("bin") feili o biri əmr feillərini dəstəkləyərək "anla" mənasına köklənmişdir, ağılın yoxmu, niyə şələnə baxmırsan, niyə irəlini görmürsən, niyə düşünmürsən, niyə acizliyini anlamırsan?

YEDDİNCİ BEYTİN ŞƏRHİ: AĞLIN HAFİZƏSİZ QOCADIR

Sənin ağlın hafizəsiz bir qocadır,
O, səni yada salana qədər sən (özün) onun yadına sal. (1, 149)

Uca Allah insanı yaratdı, onu "ən gözəl biçimdə" xəlq etdi, ağıl, iradə və vicdan verərək başqa varlıqlardan seçdi, üstün və şərəfli olduğunu buyurdu, ona məna, məqsəd, hədəf yüklədi, kainatı onun ehtiyaclarına uyğun nizamladı. Uca Allah buyurur ki, insana verilmiş nemətlərin şükrü var, hər nemətin şükrü öz cinsindəndir, ən böyük nemət ağıldır, ağlın şükrü də düşünməkdir. Qurani-Kərim insana düşünməyi əmr edir, bu əmri dəfələrlə təkrarlayır, "ağıl" sözünü heç bir yerdə isim kimi işlətmir, feil olaraq istifadə edir. Qurani-Kərimin ölçüsünə görə, işlədilməyən ağıl ölüdür, ağıl nemətinin vəzifəsini yerinə yetirməsi üçün onun vəhylə mayalanması şərtdir. Qurani-Kərim buyurur ki, ağılı əsla və əsla onun gerçək sahibi olan uca Allahdan ayırmayın. Qurani-Kərim səkkiz yüz əlli yerdə "elm" sözünə yer verir, elm də ağılın meyvəsidir, deməli, bu say çoxluğu həm də ağılın önəminə işarədir.

Uca Allah insandan vəhylə mayalanmış, aktiv ağıl istəyir, ağlına önəm verməyənlərin aqibətini xatırladır: "Allah ağlından istifadə etməyənlərin üzərinə pislik tökər" (2)."Yaxşı bilin ki, Allah yanında canlıların ən şərlisi ağlından istifadə etməyən (gerçək) kar və dilsizlərdir"(3)."Doğrusu, Biz Fironun xalqını ağıllarını başlarına toplasınlar deyə quraqlıq və məhsul qıtlığına məhkum etdik" (4)."Doğrusu, Biz görünən və görünməyən iradəli varlıqlar içindən düşünən (əql edən) qəlbləri olub da anlamayan, gözləri olub da görməyən, qulaqları olub da eşitməyən bir çoxlarını cəhənnəmə atmışıq. Heyvan sürüləri kimidir bunlar, bəlkə, daha da aşağıdırlar! Onlar özləri özlərinə yadlaşmış olan zavallılardır" (5)... "Əlbəttə, bütün bu (ayələr, hadisələr və əşya arasında) bağ qura bilən, ağıla sahib olan bir topluluq üçün bitməz-tükənməz mesajlar vardır" (6).Qurani-Kərim cəhənnəm əhli olan insanların danışığını təqdim edir. Onlar cəhənnəmə düşmələrinin səbəbini bu sözlərlə açıqlayırlar:

"Əgər vəhyi eşitsəydik, ya da düşünsəydik, indi cəhənnəmliklərin arasında olmazdıq" (7).Qurani-Kərim buyurur ki, ağıl sahibləri öyüd alan kimsələrdir:"Sənə mübarək bir Kitab olan bu (Quranı) Biz endirdik ki, hər kəs onun mesajları üzərində dərindən düşünsün, ağıl sahibləri dərs alsın" (8).

Nizami öncə cahil (qafil) insanın ağlının özəlliyini açıqlayır: "Sənin ağlın hafizəsiz bir qocadır", heç bir şeyi xatırlamır, cəhalət onu yeyib bitirmişdir, dünya sevgisi, var-dövlət tutqusu onu öldürmüşdür, ağlın düşünmək gücünü itirmişdir."O, səni yada salana qədər...", onun səni xatırlaması çətindir, uzaq ehtimaldır, özünü (ağıl olduğunu) unudan səni xatırlayarmı? Bəs nə etməli? "Sən özünü onun yadına sal". Qarşınızda bir hafizəsiz qoca var, sizin üzünüzə baxır, ancaq sizi tanımır, bu halda, siz özünüzü onun yadına salmağa məcbursunuz. Bu obrazla Nizami cahillik (qafillik) adlı qorxunc xəstəliyin əlamətlərini saymış olur: o, insanın yaddaşını sıradan çıxarır, insan onu kimin yaratdığını, niyə yaratdığını, bu dünyada niyə var olduğunu, haradan gəldiyini, hara getdiyini, mənasını, məqsədini, yaradılış missiyasını, doğru yolu, ölümü, hesabı və axirəti unudur. Bu, sıradan bir unutqanlıq deyil, insanı insan edən dəyərlərin unudulmasıdır. Qurani-Kərim düşünməyən ağıla "ölü ağıl", onun sahibinə də "ölü" deyir. Ağıl insanı başqa varlıqlardan ayıran, "üstün" və "şərəfli" edən ən önəmli nemətdir. Əgər ağıl ölmüşsə, deməli, insanlıq ölmüşdür, insan insan olmaq özəlliyini itirmişdir, onun yerini "uzunqulaq və öküz" tutmuşdur...Nizami qafil insanı cəhalət xəstəliyindən sağaltmağın yolunu göstərir: öncə nəzərə al ki, o, ağır xəstədir, xəstəliyinin əlamətləri var, çox yeyir, ancaq mədəsi üçün çalışır, təkəbbürlüdür, şöhrət, şəhvət, sərvət düşkünüdür, təkdünyalıdır, ölümü düşünmür, axirət adlı bir dərdi yoxdur, ağlının olduğunu unutmuşdur, düşünmür, kainatdakı ayələri ibrət gözü ilə oxumur, özündən o qədər razıdır ki, qüsuru olmadığını düşünür, deyir ki, heç kimə və heç nəyə ehtiyacım yoxdur, o, dostla düşməni seçmək imkanını itirmişdir...Nizami xəstəliyin təsbitindən sonra müalicə mərhələsinə keçir: ilk işi qafili oyatmaqdır, onu xəstə olduğuna inandırmaqdır: "Niyə yatmısan", "qalx", "bir iş gör", "işlə", "sərxoş, niyə yatırsan", "sənə pusqu qururlar", "qəm şələsinə bax", "irəlini gör", "yaxşı fikirləş", "acizliyini anla" kimi qəliblər oyadıcı vasitələrdir.Müalicənin ikinci mərhələsi xatırlatmaqdır, çünki unutma xəstəliyinin ziddi xatırlamaqdır. Nizami ilk olaraq nəyi yada salır? Ağılı. Cəhalətin ziddi elmdir, elm də ağılla əldə edilir, insan ağıl vasitəsi ilə cəhalət xəstəliyindən qurtula bilər. Şair qafilə (özünü unutmuş insana) bunları söyləmiş olur: Sən insansan, yaddaşın var, ağıl sahibisən, cəhalət xəstəliyi bunları sənə unutdurmuşdur, hərəkət et, ümid var, özünü ağılın yadına sal. Nizami sıradakı beytlərdə müalicənin üçüncü mərhələsinə keçir. Ağılın dəyərini izah edir.

SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: KİMİN ADINI ÇƏKƏRDİN?

Əgər sənin ağlının şərəfi olmasaydı,
Səni tərifləyən kimin adını çəkərdin? (1, 149)

Cahil niyə rahatdır, niyə yatır, acı çəkmir, düşünmür və çalışmır? Çünki itirdiyi nemətin dəyərini bilmir, o, ağıl adlı bir nemətdən məhrum olmuşdur, ancaq bundan xəbəri yoxdur. Ona görə də Nizami ağılın dəyərini anladır. Bu məqsədlə uyğun vasitələr seçir, beytə şərt bağlayıcısı ilə başlayır, şərt və nəticə əlaqəsi qurur, ağlın olmasa idi, dəyərin də olmazdı mesajını verir. Sonra "ağlının şərəfi" deyir, şərəfli olmaq dəyərli olmaqdır, dəyər də ağıla bağlıdır. İnsan ağıllı, iradəli, vicdanlı varlıqdır, onu başqa varlıqlardan seçən, ona fərqli məna, məqsəd, hədəf və məsuliyyət yükləyən də ağıldır, o, uca Allaha ibadət və itaətlə yükümlüdür çünki ağlı var, o, ikidünyalı varlıqdır, axirət adlı əbədi qalacağı aləm var (çünki ağlı var). Nizaminin verdiyi ölçü budur: Ey insan, ağlın ölmüşsə, yəni ondan istifadə etmirsənsə, insanlığın ölmüşdür, dəyər və şərəfin yox olmuşdur. Nizami beytdə ağılın önəmini vurğulamaq üçün bu vasitələrə də yer verir: "ki" ədatını "ad" ("nam") sözü ilə birgə işlədir, "ad ki daşıyırsan", yəni daşıdığın "insan" adı ağıla görə sənə verilmişdir, ağıllı olduğun, ağlından istifadə etdiyin qədər insansan.Şair insanı düşünməyə, ağılın önəmini anlamağa yönəltmək üçün bədii sual seçir: "Ağlının şərəfi olmasaydı, səni tərifləyən kimin adını çəkərdin?" Yəni dəyərini ağlın müəyyən edir.Nizami "səni" ("to ra") əvəzliyini orijinalda rədif kimi işlədir, qafil insana işarə edir, sözüm sənədir deyir, bil ki, dəyərli olmağın sərmayəsi ağıldır, səni sən edən, seçən, üstün və şərəfli qılan odur. "Səni" rədifi həm də xatırladır, ağılı insanın yadına salır, ondan istifadə etməyə çağırır.

DOQQUZUNCU BEYTİN ŞƏRHİ: AĞIR MƏSİHADIR

Ağıl Məsihadır, ondan üz döndərmə,
Uzunqulaq deyilsənsə, uzunqulağı bataqlığa çəkmə (1, 150)

Bu, ağılın önəmini vurğulayan üçüncü beytdir. Şair ağılın dəyərini göstərmək üçün Məsih obrazını seçir. Bilindiyi kimi, "Məsih" ("Məsiha") hz. İsanın (s.a.s) adıdır. "Məsih" sözü "səyahət etmək", "getmək", "silmək", "yağ və su sürtmək", "daramaq", "kəsmək", "yormaq" və "aradan qaldırmaq" (həll etmək) anlamlarını daşıyan "MSH" kökündəndir, "vaftiz edilmiş", "təkgözlü", "üzdən silinən tər", "kisə", "dəsmal" kimi mənaları var. Qurani-Kərimin on bir ayəsində hz. İsaya (s.a.s) "Məsih" deyilir. Uca Allah "İsa (s.a.s) Onun oğludur" deyənlərin sözlərini rədd edir:"Ey kitab əhli, dininizdə həddi aşmayın və Allah haqqında gerçək olmayan şeyləri söyləməyin. Məryəm oğlu İsa Məsih sadəcə Allahın elçisi, Onun Məryəmə atdığı kəlməsi və Ondan bir ruhdur. Allaha və elçilərinə inanın, Allah üçdür deməyin. Öz xeyrinizə olaraq buna son verin. Çünki Allah tək olan ilahdır" (9).

Hz. İsanın (s.a.s) peyğəmbər olaraq bir sıra özəllikləri var: Uca Allah Onu Ruhul qüdslə (təmiz ruh, müqəddəs ruh), yəni Cəbrail adlı mələklə dəstəkləyir, O, uca Allahın izni ilə xəstələri məsh edir (əlini çəkir), onlara şəfa verir, kor gözləri açır, ölüləri dirildir. Hz. İsaya (s.a.s) "Ruhul qüds" də deyirlər. Ümumiyyətlə, "ruh" sözünün "can", "nəfəs", "öz", "cövhər", "canlılıq", "çox önəmli", "duyğu" kimi mənaları var. Uca Allah Qurani-Kərimə də "ruh" deyir:"Biz sənə Öz əmrimizdən olan Ruhu (Qurani-Kərimi) vəhy etdik..." (10). Ruh insanın bədəninə həyat, canlılıq, dirilik, güc verir, ruh bədəni tərk edəndə də insan ölür. İlahi mesaj olan vəhy də (Qurani-Kərim) insana mənəvi dirilik verir.Uca Allah Cəbrail (ə.s) adlı mələyə "Ruhul əmin", ya da "Ruhul qüds" deyir: "De: Müqəddəs Ruh Cəbrail onun sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə, gerçək olaraq nazil etmişdir" (11).Bu bilgilər işığında Nizaminin "ağıl Məsihadır" sözü nə anlam daşıyır? Nizami deyir ki, hz. İsa (s.a.s) uca Allahın vəhyini, "ruh" adı verdiyi o mesajını insanlara daşıyıb onları mənəvi ölülükdən xilas etdiyi, Onun izni ilə xəstələrə şəfa verdiyi, kor gözləri açdığı, ölüləri diriltdiyi kimi, ağıl da insanı dirildir, şəfa verir, onu mənəvi xəstəliklərdən qoruyur. Aktiv ağlın varsa, dirisən, sən ondan üz döndərmə, yoxsa ölərsən, dəyərini itirərsən. "Uzunqulaq deyilsənsə", yenə şərt cümləsi seçilir ("gər nə xəri"), Nizami ağlından istifadə etməməyi qanmazlıq (eşşəklik) kimi qiymətləndirir, deyir ki, ağlın varsa, uzunqulağı bataqlığa çəkmə. O, sənin miniyindir, miniyin ölsə, yükünü necə daşıyacaqsan? Verilən mesaj budur: ağıl insanın miniyidir, ondan doğru istifadə etsən, sənin yükünü daşıyar, mənzilə qovuşdurar. (Uzunqulaq örnəyinin "ağıl Məsihadır" cümləsi ilə bir arada verilməsi də təsadüfi deyil. Belə ki hz. İsa (s.a.s) çox səyahət edər, minik olaraq da eşşəyi seçərmiş. Yəni eşşəyi hz. İsaya (s.a.s) xidmət etdiyi kimi, dəyəri bilinsə, ağıl da insana xidmət edər).Beytdə "çəkmə" ("məkeş") feili rədif kimi işlədilmiş, ağılın önəmini vurğulamış, ağıldan imtinanın acı nəticəsinə işarə etmişdir.

ONUNCU BEYTİN ŞƏRHİ: İŞIQ TAP!

Ya ağlın yolu ilə get və işıq tap,
Ya da onun qapısından ətəyini uzaq tut. (1, 150)

Bu ağılın önəmini vurğulayan dördüncü beytdir. Nizami insanı seçim qarşısında qoyur, iki yoldan biri ilə getmək mümkündür mesajını verir. Bu fikrin ifadəsi üçün öncə "ya, ya da" bağlayıcısını mətnə daxil edir, misraları bağlayıcı ilə başlayır. Hər misrada seçimi və onun nəticəsini verir: "Ya ağılın yolunu seç", hər şeyi düşün, ölç, biç, xeyirini və şərini hesabla, varlığa ağılın gözü ilə bax, kainatı ağılın gücü ilə oxu, yaradılmışlar arasında əlaqə qur, hər varlığın uca Allahla əlaqəsini gör, ilahi nizamı qavra, uca Allahın ilahi sistemdə insana yüklədiyi məna, məqsəd və hədəfi anla, nəticədə, işığı tap,

O, sənə nur bəxş etsin, elm versin, bəsirət sözünü açsın, həqiqəti göstərsin, səni iki dünyanın səadətinə qovuşdursun. "Ya da", ikinci misradakı bağlayıcı mətnin içində bu mənanı yüklənir, "əgər ağılın yolu ilə getməsən", bu halda, "onun (ağılın) qapısından ətəyini uzaq tut", yəni o, həqiqət qapısını sənə açmaz.Bir beytdə üç əmr feili var: "get", "tap", "uzaq dur", "gereftən" feilinin kökü olan "gir" (həm də əmr şəkli) feili həm "tapmaq" ("tap"), həm də "tutmaq" ("tut") mənasında rədif kimi işlədilərək işığı, həqiqəti, səadəti ağılla tapmağın mümkünlüyünü vurğulamışdır.

ON BİRİNCİ BEYTİN ŞƏRHİ: AĞILI MƏST ETMƏ!

Ədəb doğuran ağılı məst etmə,
Şahini sərçə yemi etmə. (1, 150)

Bu, ağılın önəmini vurğulayan beşinci beytdir. Nizami deyir ki, insanın şərəfi ağıla bağlıdır, ağıl Məsihadır, insanı dirildir, ona ruh verir, ağıl insanı işığa qovuşdurur, ağıldan ədəb doğulur. Misradakı "ədəb" sözü sadəcə tərbiyə, əxlaq, gözəl davranış mənasında deyil, "ağıl ədəb doğurur", yəni insanı özünə tanıdır. "Ədəb" özünü tanımaq, həddini bilmək, yaradılış hikmətini, məna, məqsəd, hədəf və dəyərini, ilahi nizamdakı yer və rolunu anlamaqdır, ilahi ölçülərə uyğun hərəkət etməkdir, doğru yoldan çıxmamaqdır. Ağılın ədəb doğurması, insanın şərəf qaynağı olması, onu nura qovuşdurması iki şərtlə mümkündür: ağıl vəhylə mayalanacaq, yəni varlığa uca Allahın gör dediyi yerdən baxacaq, əşyanın yaradılış hikmətini anlayacaq, ondan ilahi təyinatına uyğun istifadə edəcək, ikincisi də, aktiv olacaq, aktiv ağıl düşünən, seçən ağıldır. Sən ədəb doğuran ağılı məst etmə, onu passivləşdirmə, öldürmə. Nemət olan ağıl nə ilə məst olar? Cəhalətlə, öyrənməyən, araşdırmayan, düşünməyən, elmlə qidalanmayan ağıl tənbəlləşər, öz işini yerinə yetirməz. Dünya sevgisi ilə, şöhrət, şəhvət və sərvət tutqusu ilə, bu dörd şey ağılı öldürər. İçki ilə, içki ağılı örtər, onu sıradan çıxarar, təsadüfi deyil ki, dinin beş vəzifəsindən biri də ağılı qorumaqdır, uca Allah bu məqsədlə içkini, qumarı, narkotik maddələri qadağan etmişdir...Sən ağılı məst etsən, nə baş verəcək? Şahini şərçəyə yem edəcəksən, yəni seçmək özəlliyini itirəcəksən, zülmə yol açacaqsan (zülm bir şeyi yerindən etməkdir), şahinin haqqını sərçəyə vermək zülm deyilmi? Yəni ağıl məst olsa, dünyanın nizamı pozulacaq.Misrada ağıl şahindir, onu məst edən şeylər də sərçədir, sən ağılla çox şey qazana bilərsən, ancaq onu məst edən şeylərin heç biri ilə ağıl qazana bilməzsən. Bu halda, şahini sərçəyə yem etmək özünə zülmdən başqa bir şey deyil. Misrada "etmə" ("mə kon") əmr feili iki dəfə təkrar olunur, insanı xeyirsiz alış-verişdən (ağılı verib cəhaləti almaqdan) çəkindirir.

ON İKİNCİ BEYTİN ŞƏRHİ: O, HARAMDIR

Hər məqamda halal gəlmiş meyi,
Sənin ağlının düşmənliyi haram edibdir. (1, 150)

Nizami ağılın önəmini vurğulayır, sonra da ağıla ziyan şeylərin sırasında ilk olaraq şərabın (meyin) adını çəkir. Beytin orijinalında misranı "mey ki" qəlibi ilə başlayır, onun təhlükəsindən xəbər verir, məhz ağılı qorumaq məqsədi ilə yasaqlandığını söyləyir.

Qurani-Kərimdə şəraba "xamr" deyilir. Cahiliyyə dönəmində ərəblər arasında içki geniş yayılmışdı. Uca Allah şərabı yasaqlayarkən mərhələli metod seçmişdir. Belə ki şərab (içki) yasağı ilə bağlı Qurani-Kərimdə dörd ayə var. Sırası ilə bu ayələri oxuyaq:

"Xurma ağaclarının meyvələrindən və üzümlərdən də içki və gözəl ruzi əldə edirsiniz..." (12)"Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar. De: "Onların hər ikisində də insanlar üçün böyük günah var. İnsanlara bəzi faydaları olsa da, günahları faydalarından çoxdur". (13)"Ey inananlar, sərxoş olarkən namaza yaxınlaşmayın". (14)"Ey inananlar, şərab, qumar, dikili daşlar, şans oyunları şeytan işi olan pislikdir (murdar şeylərdir). Bunlardan uzaq durun ki, bəlkə, nicat tapasınız". (15)Qurani-Kərimdə içkiyə "xamr" deyilməsinin özəl bir anlamı var. Belə ki "xamr", "ağılı örtən", "onu bürüyən" deməkdir. Şərabın insan beyninə olan zərəri başqa orqanlara olan zərərindən daha çoxdur, o, ağılı "öldürür". Elə buna görə də Nizami şəraba "o, ağılın düşmənidir" deyir, onun haram edilməsinin səbəbi olaraq ağıla vurduğu zərəri dəlil göstərir: "Hər məqamda halal gəlmiş meyi (burada şair onun bir sıra faydalarına, məsələn, satıb pul qazanırlar, işarə edir) sənin ağlının düşmənçiliyi haram edibdir", yəni mey ağılın düşməni olmasa idi, haram sayılmazdı...

Ədəbiyyat

1.Nizami Gəncəvi, "Sirlər xəzinəsi", Nizami Gəncəvi, "Sirlər xəzinəsi", (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, Elm, 1981.

2.Yunus, 10/100.

3.Ənfal, 8/22.

4.Əraf, 7/130.

5.Əraf, 7/179.

6.Rəd, 13/4.

7.Mülk, 67/10.

8.Sad, 38/29.

9.Nisa, 4/171.

10. Şura, 42/52.

11. Nəhl, 16/102.

12. Nəhl, 16/67.

13. Bəqərə, 2/219.

14. Nisa, 4/43.
15. Maidə, 5/90.
16. Nizami Gəncəvi, "Xosrov və Şirin" (filoloji tərcümə, izahlar və qeydlər filologiya elmləri doktoru, professor Həmid Məmmədzadənindir), "Elm" nəşriyyatı, Bakı, 1981.
17. Nizami Gəncəvi, "İskəndərnamə" (filoloji tərcümə, izahlar və qeydlər filologiya elmləri doktoru, professor Qəzənfər Əliyevindir), "Elm" nəşriyyatı, Bakı, 1983, səh. 45.
18. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", I kitab, "Nafta-Press", Bakı, 2006;
19. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", II kitab, "Nafta-Press", Bakı, 2008;
20. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", III kitab, "Nafta-Press", Bakı, 2009;
21. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", IV kitab, "Nafta-Press", Bakı, 2010;
22. *Hacı S.* "Həzrət Nizami Gəncəviyə görə, insan qəlbinin həqiqətləri", V kitab, "Nafta-Press", Bakı, 2012;
23. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı ilk dörd məqalənin şərhi" VI kitab, "Nafta-Press", Bakı, 2013;
24. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı V-IX məqalələrin şərhi" VII kitab, "Nafta-Press", Bakı, 2014;
25. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanın şərhi (X-XIII məqalələr)" VIII kitab, "Nafta-Press", Bakı, 2015.
26. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" insanlığın ana yasasıdır", "Nurlar", Bakı, 2015.

Haji Sirajeddin

According to nizami ganjavi's opinion the human's enemy is ignorance (the explanation of theartile: "about the reproach of the ignorance" in the epos "the treasure of mysteries"

Summary

In the article is said about the explanation of the fourteenth article "About the reproach of the ignorance" in the epos "The treasure of mysteries" by Nizami Ganjavi. The main theme of this article is to introduce

the obscurantism. Nizami says that the main enemy of the human is his obscurantism. In the article the poets mentions the signs of the obscurantism: not to recognize Allah, to forget the truth, to be in the dream of the ignorance, not to think, to eat much. In the article the poet shows the ways of saving the man from the obscurantism. He says that the medicine of the obscurantism is the science. In the article the poet mentions the importance of the science. In order to show the value of the science Nizami gives examples stimulates to read, he says that the human can gain the value only with the science. Nizami introduces the obscurantism, he says that, the obscurantism is the most terrible enemy of the human. Obscurantism is to forget himself. The poet also shows the medicine of this illness. According to the poet's thinking the medicine of the obscurantism is the science.

Гаджи Сираджеддин

По мнению низами гянджеви невежество враг человека (толкование статьи: «о критике неведения» в месневи «сокровищница тайн»

Реэюме

В статье поясняется четырнадцатая статья из месневи (двустишие) "Сокровищница тайн" Низами Гянджеви. Основная тема этой статьи познание невежества. Низами рассказывает о том, что самый большой враг человека - это невежество. В этой статье он перечисляет причины невежества: не признание Аллаха, забвение действительности, погрузиться в сон невежества, не размышлять, не смыслить, переедание. Поэт в статье показывает пути избавления человека от невежества. Рассказывает о том, что лекарство от невежества - это наука. В этой статье он подчеркивает пользу обучения науки. Низами для того, чтоб показать цену науки дает образцы, пробуждает человека к обучению науки, рассказывает о том, что человек может оценен только наукой. Низами дает сведение о невежестве. Он говорит, что невежество - самый страшный враг человека. Невежество - забвение самого себя. Поэт также показывает лекарство от болезни невежества. По мнению поэта лекарством от невежества является наука.

Rəyçi: Həmidov İmamverdi
filologiya elmləri doktoru, professor

SAKİBƏ ƏLƏSGƏROVA
ADPU, filologiya üzrə fəlsəfə doktoru, dosent
sakiba@mail.ru

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR XƏLQİ ŞAİRDİR

Key words: Shahriyar, homeland, custom and tradition, the national democratic movement, spiritual richness
Açar sözlər: Şəhriyar, vətən, adət-ənənə, milli demokratik hərəkat, mənəvi zənginlik.
Ключевые слова: М. Шахрияр, Родина, традиции, национально-демократическое движение, духовное богатство.

M.Şəhriyar Cənubi Aszərbaycan ədəbiyyatının ən qüdrətli sənət-katrlarındandır. Onun yaradıcılığı dünya səviyyəsində qəbul edilir və oxunur. Ramiz Rizvan Şəhriyarın yaradıcılığını Əfsanəvi Qarun xəzinəsi ilə müqayisə edir. Sonra üstünlüyü Şəhriyar yaradıcılığına ona görə verir ki, bağlı qapı arxasında deyil, bütün insanlığa xidmət edir. Həqiqətən, güclü bədii nümunələr mənəviyyata qiymət verən hər kəsin malı olur. Yalnız zövq sahibi zövq ala bilir və öz mənəvi dünyasını zənginləşdirir. Şəhriyarı başa düşən kəs onun poemasını oxuyarkən təsvir və tərənnümü canlı görə bilir. Tədqiqatçı Esmira Şükürovanın "Şəhriyar poeziyasında xalq həyatı" əsərində (1996) əsər yazıldığı dövrə qədər geniş işlənməmiş bir sahə təhlilə cəlb olunmuşdur. Əsərdə Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin həyatında olan etnoqrafik ünsürlər xırdalıqlarına qədər incələnmiş və Şəhriyar yaradıcılığı ilə bağdaş şəkildə dəyərləndirilmişdir. Xüsusən "Heydərbabaya salam" poemasında təsvir olunan milli adət-ənənəylə bağlı xırdalıqlardan çox diqqətli şəkildə Şəhriyarın milli zəminlə bağlı olan bir şair kimi qiymətləndirilməsi üçün dəstək şəklində istifadə olunmuşdur. "Heydərbabaya salam" həm qüdrətli sənət əsəri, həm də son dərəcə qiymətli və zərif bir incidir. Onu təhlil edərkən yaranan qüsur birbaşa xalqın mənəviyyatına xələl gətirəcəyi üçün tədqiqatçılar bu məsələyə çox diqqət yetirmişlər. E.Şükürova yazır: "Heydərbabaya salam"mənzuməsi tipik Azərbaycan kəndinin və bu kənddə yaşayan Azərbaycan xalqının həyatı, məişəti, gün-güzaranı və qayğılarının, xalq mənəviyyatının ən nəcib və gözəl keyfiyyətlərinin salnaməsi, bədii inikasıdır. 30 il yad dildə yazıb-yaradan şairin bu qədər uzun fasilədən sonra öz dilinə, el-obasına, xalqının daxili aləminə qayıdışı, doğma mənəvi yaddaşa dönümü böyük əks-səda doğurmuşdur" (5,7). Anası Kövkəb xanımın xatirəsində, doğma Tərbrizə, Xoşginab elinə, qohumlara ithaf şəklində ortaya çıxan bu poema real həyatın canlı lövhəsi kimi böyük şöhrətə sahibdir. "Əsərin yazılma səbəbi haqqında

Məmmədəmin Rəsulzadənin 1955-ci ildə Ankarada nəşr olunan "Azərbaycan " dərgisinin 4-5№-də verilən məlumat indi hamı tərəfindən bilinməkdədir. Şəhriyar anasının, qohum-əqrəbasının timsalında bütün Azərbaycana, Şərq dünyasına töhfə etdiyi poemasında xalqın həyatının bütün çalarlarına nüfuz etmiş, yaddaşlardan silinmiş adətləri, bayrama aid istilahları belə geri qaytarmağa nail olmuşdur.Əsər xalqla iç-içədir., oxucu ilə dialoqdadır. Hər misrasında sadə xalq yaşamının əksi görünür. Tarixçi professor Həbibov özünün "Azərbaycan etnoqrafiyası" kitabında xalq məişəti ilə bağlı çox məsələlərə aydınlıq gətirmişdir ki, E.Şükürova da əsərdəki həmin detalların "Heydərbabaya salam" poemasındakı detallarla özləşdiyini müşahidə etmiş, poemadakı bir çox sözlər və adətləri sadə dildə, başa düşülən şəkildə ifadə etməyə çalışmışdır. Əsərdə şair tərəfindən adı çəkilən və milli kulinariyamızın şah yeməkləri sayılan piti, fisincan plov, kabab, bozbaş, təndir aşı kimi təamların çox vaxt imkanlılar tərəfindən yeyilməsi isə bizə həm milli mədəniyyətimizdən, həm də xalqın ağır yaşayış tərzindən xəbər verir. Zəngin Azərbaycan mətbəxinin xalqın məişətinə yansımasını arzu edən böyük şair yazır: "Tapsa millət yavan aş, özləri bozbaşı yesinlər". İctimai-siyasi hadisələr Azərbaycanı 2 yerə parçaladı. O taylı-bu taylı Azərbaycan ifadəsinin işləklik dərəcəsi artdı. Demək istəmədiyimiz, lakin məcburiyyət qarşısında işlətdiyimiz Cənubi və Şimali, Güney və Quzey Azərbaycan istilahlarını nə ürək , nə də beyin qəbul etmir. Bu hadisə çox ocaqları söndürdü. Şəhriyar yaradıcılığından qırmızı xətlə keçən bu məsələ istənilməyən, arzu edilməyən, əlacsızlıqdan qəbul edilən bir mövzudur.

Tədqiqatçı Nazim Rizvan qeyd edirdi ki, Şəhriyar heç nədən çəkinmədən şahı da, onun əlaltılarını da ittiham edirdi. Şəhriyar xalqına, onun mədəniyyətinə, tarixinə, adət-ənənəsinə sadiq bir sənətkardır. İsa Həbibbəyli yazır: "Coğrafi mənada Heydərbaba dağının Cənubi Azərbaycan ərazisində yerləşməsinə və Şəhriyarın məhz Xoşginab kəndi, ətrafındakı Heydərbaba dağına üz tutmasına, müraciət etməsinə baxmayaraq, buradakı Heydərbaba dağı sözün geniş mənasında Vətən anlayışını mənalandırır. Buna görədir ki, əsəri "Heydərbabaya salam" əvəzinə "Azərbaycana salam", yaxud "Vətənə salam" da adlandırmaq oladı. Şair özü də "Heydərbaba, səni vətən bilmişdim, Vətən deyib baş götürüb gəlmişdim"-deməklə Heydərbaba dağının onun üçün müqəddəs ana Vətənin rəmzinə çevrildiyini etiraf etmişdir. Bütövlükdə "Heydərbabya salam" poeması Vətən haqqında yeni və qüvvətli poetik manifestdir" (6,5).

Şəhriyar dünya səviyyəsində qəbul edilən sənətkardır. Hafiz, N.Gəncəvi, S. Şirazi ilə adı yanaşı çəkilən şair İran, Əfqanistan, Tacikstan, Hindistan və b. ölkələrdə sevilərək oxunur. Dünya ədəbiyyatı və mədəniyyəti irsinə öz adını həkk etdirmək, dünya alimlərini yaradıcılığından

yazmaq zərurəti ilə üz-üzə qoymaq Şəhriyar dühasının mənəvi haqqıdır. Bəkir Nəbiyev, Əhməd Atəş, Cavad Heyət, Yavuz Akpinar, Nizaməddin Onk, Yusif Gədikli və bir çox adını saya bilmədiyimiz qələm sahibləri Şəhriyarın şəxsiyyəti və yaradıcılığı haqqında qiymətli fikirlər söyləmişlər.

Onun anadan olması tarixini müxtəlif rəqəmlərlə adlandırmışlar. Ancaq İsa Həbibbəyli şairin "Dər xaneye-təqdir" adlı qəzəlinə əsaslanaraq dəqiq olum tarixinin 1905-ci ilin martın sonu, aprelin əvvəli olduğunu təsbit etmişdir. Qəzəli özünün 40 illiyinə həsr edib. İ.Həbibbəyli də bu faktdan yola çıxaraq dəqiq hesablama aparmışdır. İ.Həbibbəylinin əsərində Şəhriyarın atası hqqında şairin özü tərəfindən yazılan müfəssəl məlumat verilmişdir. Təbriz ədliyyəsinin tanınmış vəkili Hacı Mirağa Xoşginabinin Şəhriyarın dünyagörüşünün formalaşmasında xüsusi rolu olmuşdur. Şəhriyarın uşaqlıq illəri Səttarxanın rəhbərlik etdiyi Milli-Azadlıq Hərəkatı dövrünə, gənclik illəri Xiyabaninin rəhbərlik etdiyi Məşrufə İnqilabi dövrünə təsadüf edir. 1941-1946-cı illərdə fədailərin inqilabi mübarizəyə hazırlığı, qələbəsi, əldə olunan nəticənin ləğvi Şəhriyarın diqqətindən kənarda qalmayıb. "Zaman səsi" şeirində xalqın gərgin vəziyyəti, yaşlı insanların belə qulaqlarında guruldayan "Sərdarımın qəhrəman səsi" poetik şəkildə əks olunmuşdur. Xalqın azadlığı, milli-mənəvi birlik kimi ideyalar onun şeirlərinin çox hissəsində aparıcı mövzudur. Şimali Azərbaycana gələ bilməsə də Quzey ədəbiyyatını, yazarlarını oxuduğunu sübur edən əsərləri var. Rüstəm Əliyevə S.Rüstəmə məktubları, B. Vahabzadə və Nəbi Xəzri ilə telefon danışıqları unudulmazdır. Şəhriyarın telefon danışığı vaxtilə canlı radio ilə Azərbaycancanın hər yerində səsləndirilmişdi.

"Heydərbabya salam" poemasını Türkiyədə yayan da azərbaycanlı olmuş, əsər haqqında ilk elmi fikir söyləyən də azərbaycanlı (M.Ə.Rəsulzadə) olmuşdur. İ. Həbibbəyli "Şəhriyar dünyası" əsərində şair haqqında xeyli maraqlı faktlar, fikirlər söyləmişdir. Görkəmli alim şair Şəhriyarla rəssam Şəhriyarı bərabər qiymətləndirir. Hadisənin, vətənimizin gözəlliklərinin, reallıqların sözlə rəsmini çəkməyi bacaran şairə özünə layiq qiymət verir. Poemada xalqın azadlıq düşüncəsini üstü örtülü şəkildə verən Şəhriyarın Pəhləvi dövrünün çətin tarixi şəraitindən narazı qaldığını göstərir, onun xalqı siyasi oyunları dərk etməyə dəvət etdiyini bildirir. Əsərdən gətirdiyi nümunələrlə fikrini əsaslandırır.

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birində yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

Şəhriyarın sağlığında xalq məhəbbəti qazanması, şeirlərinin el şənliklərini, dövlət tədbirlərini, öz yubileylərini yaraşığa salması çox sayda

əsərlərin səhifələrini bəzəmişdir. Təbriz şəhərində "Şairlər məqbərəsi"nin önündə onun büstünün qoyulması Şəhriyar böyüklüyünün təntənəsidir. XX əsrin 90-cı illərində 4 il İranda Beynəlxalq Şəhriyar günləri keçirilib. 1998-ci ildə Tehranda və Təbrizdə Beynəlxalq Şəhriyar konqresi keçirilib. Poema tamaşaya qoyulub, əsərlərinə musiqilər bəstələnib. Əsərləri dəfələrlə nəşr olunur və s. Azərbaycan, İran və Türkiyə alimləri konqresdə Şəhriyarşünaslığın aktual problemlərini müzakirə edib. (İ.Həbibbəyli. Şəhriyar dünyası)

Şəhriyar yaradıcılığının mövzu dairəsi genişdir: Xalq həyatı ilə bağlı hər şey dini mövzu, məhəbbət mövzusu, təbiətə aid şeirlər, ictimai-siyasi şeirlər, ayrılıq dərdi, Arazla bağlı şeirlər və s. Hansı mövzu ilə bağlı fikrini poetik şəkildə ifadə edirsə etsin, vətənlə bağlayır. Şair bütün mühakimələrini inancla bitirir. Vətənin xoşbəxt gələcəyi ehtimalına daha çox inanır. Xalqın xoşbəxt gələcək uğrunda mübarizə aparmasına dəstək verir. Şairin irsinin öyrənilməsi baxımından yazılan monoqrafiyaların böyük əhəmiyyəti vardır. Ədəbiyyatşünas alim Elman Quliyevin də şəhriyarşünaslığın inkişafında böyük əməyi var. Tədqiqatçı özünün "Seyid Məmmədhüseyn Şəhriyar" , "Şəhriyar poeziyası və milli təkamül", Himalay Ənvəroğlu ilə birlikdə yazdığı "Şəhriyar poetikası" və s. əsərlərində Şəhriyar yaradıcılığını müxtəlif nöqteyi- nəzərdən təhlil etmiş, irs-varislik zəminindən, ədəbi-estetik görüşləri, dil problemi, sənətkarlığının poetik xüsusiyyətləri, şairin vətəndaş mövqeyi, yaradıcılığının mövzu dairəsi və s. baxımından münasibətini bildirmiş, onun Azərbaycan və İran ədəbiyyatı tarixi üçün xidmətlərini yüksək qiymətləndirmişdir. Elman Quliyev yazır: "Ustad sənətkar xalqının mövcud durumunu" bir əl silah, bi əl yalın qeyri-bərabərliyində təsvir etsə də, gələcəyə böyük inamla baxır. XX əsrin ortalarından başlayaraq dünyada gedən demokratik proseslərin güclənməsi, müstəmləkə sisteminin zəifləməsi, xalqların müqəddaratını həll etmək yollarında təşəbbüskarlığı istər-istəməz Şəhriyarın ən çətin vəziyyətdən gələcəyə nikbin baxmasına haqq qazandırırdı (7, 141). E.Quliyev bu fikirlərindən əvvəl Şəhriyar yaradıcılığından aşağıdakı şeir parçasını təqdim etmişdir.

Bir əl silah, bir əl yalın,
Biri tünük, biri qalın.
Deyir ki, haqqızı alın!
Amma hansı kömək ilə?
Yemək olar demək ilə? (7, 141)

Bu obrazlı təsvirin içərisində ictimai etiraz var. Şairin Vətən dərdi ağırdır. Yaradıcılığında tez-tez xalq obrazı ilə qarşı-qarşıya qalırıq.

Xalqın dilindən ("Bizə kömək yoxdur daha, Bizimki qalmış allaha") S.Rüstəmə müraciət edən Şəhriyar İranda xalqın dözülməz həyat tərzi keçirməsindən xəbər verir. İlk gəncliiyindən poeziyaya bağlı olan Şəhriyar təbiət təsvirini, məhəbbət şeirini, can yanğısıyla yazdığı şeirlərini eyni məhəbbətlə qələmə almış, son dərəcə təbii hisslərini oxucusuyla bölüşmüşdür. Onun "Heydərbabaya salam" poeması xəlqi əsərdir. Əsərdə xalq ruhu hakimdir. Gənc nəsil bu əsərdə Azərbaycan xalqının məişətində ta qədimdən bəri hakim olan adət-ənənənin, yaşam tərzinin real təsvirini görür və ibrət alır.

Bu gözəllik, Azərbaycan xalqının özünəməxsus həyat tərzi, sadəlik, səmimilik, mənəviyyat göstəricimizdir. Tədqiqatçı alimlər Əjdər Ağayev və Qolamhüseyn Ədalətinin birlikdə ərsəyə gətirdikləri "Məhəmmədhüseyn Şəhriyar: Pedaqoji görüşləri" əsərində oxuyuruq: "M.Şəhriyarın "Heydərbabaya salam" poemasının xəlqiliyin, xalq ruhunun yayılmasında, böyüyən nəslə aşılanmasında oynadığı rolu Cənubi Azərbaycan ədəbiyyatı və pedaqoji fikrində ikinci bir əsər oynamamışdır. Azərbaycan xalqının həyat və məişətinin güzgüsü olan "Heydərbabaya salam" poemasında zəngin etnoqrafik məlumatlar vardır. Burada təsvir olunan kənd evlərinin qurluşu, bəzəyi, çörək bişirmək üçün təndir və digər etnoqrafik nə varsa, müasir, böyüyən nəsil üçün əsil xalq tərbiyəsi məktəbidir" (8,115). Xəlqiyin içərisində xalqın dili, həyatı və mənəviyyatı ilə bağlı gərəkli rituallar var, bu rituallar xalq ruhunu yaşadır, gələcək nəsillərə ötürür. Şair özünü "əbədiyyət gülü" adlandırır. O, elinin, obasıın ana dilində və farca dərdini söyləyən dildir. Kasıbın bayram axşamı evindəki vəziyyətin təsviri "Fələyin bayramlığı" şeirində Şəhrirar tərəfindən realist sənətkar qələmi ilə həyat həqiqətlərinin güzgüsüdür. O düşünür ki, insan normal həyat tərzi keçirəndə psixoloji vəziyyət normal olur, bu da həyatına "yansıyır". Odur ki, yüksək əhvali-ruhiyyə, həyata "pozitiv" baxış uğrunda ciddi mübarizə aparmaq lazımdır. Yaşadığın cəmiyyətin keçmişini, adət-ənənəsini tanımaq vətəndaşın intellektual, mədəni -mənəvi tərbiyəsi üçün normal bir istiqamətdir. Atalar doğru deyib ki, keçmişini və özünü tanı, gələcəyə doğru yol al. Hökumə Billuri Şəhriyar haqında yazdığı monoqrafiyasında qeyd edirdi ki, şair oxucusuna çatdırmaq istədiyini əvvəlcə özü yaşayır. Deməli, Şəhriyar ən kiçik detalına qədər bu mənəvi təntənənin süzgəcindən kecib. Yuxarıda adını çəkdiyimiz monoqrafiyada oxuyuruq: "M.Şəhriyarın əsərləri məhz xəlqi olduğu üçün Vətən duyğuludur, başdan-başa vətənpərvərlik tərbiyəsi dərsləridir" (8, 126).

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonra qalanlara eşq olsun,
Keçmişlərdən gələnlərə məşq olsun,...

Ümummilli liderimiz Heydər Əliyev Şəhriyaın anadan olmasının 90 illiyinin qeyd edilməsi haqqında verdiyi 29 oktyabr 1997-ci il tarixli fərman Şairin yaradıcılığının hərtərəfli öyrənilməsi, gənc nəsil içərisindən tədqiqatçılarının yaranması üçün imkanlar yartadı

Bütöv Şəhriyar poeziyası, xüsusən xatirələrlə zəngin "Heydərbabaya salam" poeması o taylı bu taylı Azərbaycan xalqının adət-ənənəsi, mentaliteti ilə bağlı ədəbi-bədii abidədir.

Zaman keçir, üfüqlərdə toz qalır,
Karvan kimi uzaqlarda toz salır.
Duman gəlir, ürəkləri çulğayır.
Ürək deyir: Zaman, keçmə, amandır!
Keçənlərdə gözün var, bir dayan, dur!

Ədəbiyyat

1. Q.H. Beqdeli. Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1963
2. Şəhriyar. Divan, II cild. Bakı, 2009
3. M. Şəhriyar. Heydərbabaya salam. Bakı, 2009
4. H.Billuri. Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1984
5. E.Şükürova. Şəhriyar poeziyasında xalq həyatı. Bakı, 1996
6. İsa Həbibbəyli. Şəhriyar dünyası.Tehran,2002
7. Elman Quliyev. Seyid Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1999
8. Ə Ağayev, Q. Ədaləti. Məhəmmədhüseyn Şəhriyar: Pedaqoji görüşləri.Bakı, 2013.

Sakiba Alasgarova

M.Shahriyar is a creation poet

Summary

The article is analysed the poem "Hello to Haydarbaba" written by Azerbaijan's great poet M.Shahriyar. Shahriyar's commitment to his homeland, country, custom and tradition are showed. The researches are given different citations about the poem. Location of the national democratic movement of the poem has showed and conditioned spiritual richness of our people before the eyes. Concluded that the protagonist of the poem is homeland!

M.Shahriyar is a creation poet. Poet's country say is gravious. He beleives the happy future of homeland. The time away from Tabriz he has always created poetry samples speaking about the need, sorrow and grief of people. That is why he is named the outstanding representative of modern poetry in South Azerbaijan.

Сакибе Алескерова

М. Шахрияр. «Народный поэт»

Резюме

В статье анализируется поэма «Приветствие Гейдар бабе» великого азербайджанского поэма М. Шахрияра. Особо отличается любовь и преданность поэта Родине, традициям, а также цитируются статьи различных исследователей посвящённых анализу данной поэмы. Подчёркивается роль поэмы в который выражено духовное величие нашего народа, возрождении национально освободительного движения. В заключении отмечается что главным героем поэмы является Родина.

Шахрияр – созидающий поэт. Тяжела боль за родину для поэта. Он верит в светлое будущее родины. Даже в те времена, когда он был вдали от Тебриза, создавал образцы поэзии о нуждах, страданиях, горестях народа. Именно поэтому М.Шахрияра в Южном Азербайджане называют выдающимся представителем современной поэзии.

Rəyçi: Elman Quliyev
filologiya üzrə elmlər doktoru, professor

SƏBUHİ İBRAHİMOV
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Naxçıvan Bölməsi
Email: s.ibrahimov71@mail.ru

ƏLYAZMA MƏTNLƏRDƏ SEYİD ƏHMƏD HATİF ORDUBADİ YARADICILIĞI

Açar sözlər: Ordubad, Hatif, əlyazma, mətn, yaradıcılıq, tibb, şeir.
Ключевые слова: Ордубад, Хатиф, рукопись, текст, творчество, медицина, стихотворение.
Key words: Ordubad, Hatif, manuscript, text, creativity, medicine, poem.

Naxçıvana dair əlyazma mənbələrə əsasən Seyid Əhməd Hatif Ordubadi XVIII əsrdə yaşamış Hüseyni seyidlərindəndir. "Neqaristani-dara" və "Məhəmməd şahi" təzkirələrində göstərilir ki, "o, Azərbaycanın Ordubad əhlindəndir. Səfəvi padşahları vaxtında o diyardan İsfahana gəlmiş və o şəhərdə yaşamışdır" (266, s. 565-566).

"Hatif Seyid Əhməd – Hüseyni seyidlərindəndir. Onların ulu babası Səfəvilər dövründə Ordubaddan İsfahana getmiş və orada yaşamışdır. Seyid Əhməd fəlsəfə, tibb və riyaziyyat elmlərində öz dövrünün yeganə alimi idi. Onunla Şirazda olan Mirzə Nəsir Təbib arasında bir sıra yazışmalar və müşairələr olmuşdur. Seyid Əhməd hicri qəməri 1198 (1783) - ci ilində Qum şəhərində vəfat etmişdir. Onun iki min beytdən ibarət ərəb və fars dillərində divanı vardır. Bu divandan bir hissəsi bir neçə dəfə çap olunmuşdur" (2, s. 374).

Şairin həyatı barəsində Salman Mümtaz yazır: "Heyf ki, bu böyük şairimizin nə təvəllüdü, nə dünyadan gedən günü məlum deyil. Ancaq Şəmsələddin Saminin yazdığına görə Seyid Əhməd Hatifin vəfatı XII əsr hicrinin əvaxırında ittifad düşübdür. Rəhmətullah əleyh!" (1, s. 10).

Olsun ki, Salman Mümtaz onun barəsində olan materiallara az baxmışdır. Belə ki, şairin ölümü ilə əlaqədar mərsiyə yazan Səbahi şerinin axırında əbcəd hesabi ilə tarixi göstərmişdir və həmin tarix 1783-cü ilə təsadüf edir (bax.19, s. 19).

Salman Mümtaz onu "böyük şairimiz" kimi təqdim etdiyi kimi, həm də İran ədəbiyyatının nümayəndəsi kimi göstərir: "Seyyid Əhməd Hatif XII əsr hicridə dünyaya gələn İran şairlərinin mümtazı və hətta səramədi hesab olunmağa layiq bir şair nezahətpərvərdir" (1, s. 2).

Şairin doğum ili XVIII əsrin əvvəllərinə təsadüf edir. Şübhəsiz, şair İsfahan şəhərində anadan olmuş və ilk təhsilini də burada almışdır. Əsərlərindən məlum olur ki, o, riyaziyyat, hikmət, fəlsəfə, tibb elmini

dərindən bilmişdir. “Mənbələrə görə ona tibb, riyaziyyat elmlərini dövrün böyük alimi Mirzə Məhəmməd Nəsir İsfahani və şer yazmağı isə Müştaq öyrətmişdir” (1, s. 247). Təhsil illərində o, Səbahi, Lütfəli bəy Azər və Səhba adlı dostları olur. Onlar İsfahanda o dövrdə məşhur adamlar olmuşlar. Müəllimləri Mirzə Məhəmməd Nəsirin Şiraz hakimi Kərim xan Zəndlə sıx əlaqələri var idi.

Onların dünyagörüşünün formalaşmasında Müştağ İsfahani də böyük rol oynamışdır. Təsadüfi deyil ki, müəllimi Müştaq öləndən sonra onun xatirəsini əbədiləşdirmək üçün Hatif dostları Azər və Səhba ilə müəllimlərinin divanını toplamışdır.

Gənc yaşlarında Hatif İsfahanda həkimlik edib isfahanlıların böyük hörmətini qazanmışdır. Bu barədə şair şerlərində də danışmışdır:

یکی از دادهای من این است
که سپهرم ز واژگون کاری
داد شعل طبابت و زین شعل
چاکران مراست بیزاری
چیست سودم از این عمل دانی؟
از عزیزان تحمل خواری
در مرض خواجگان ز من خواهند
هم مداوا و هم پرستاری
صد ره از عصه من شوم بیمار
تا یکیشان رهد ز بیماری
چون شفا یافت به که باز او را
چشم پوشی , کرده انگاری.(1, s. 247)

(Mənə verilənlərdən biri də budur: sözlərdən qanadların açılır. Başqa bir sənətim təbabətdir. Xəstələr məni bezdirib. Bu işdən xeyrimin nə olduğunu bilirsənmi? Əzizlərim məni xar edib. Xacələrin xəstəliyini məndən soruşurlar. Həm şəfa verənəm, həm də xəstəyə baxan. Yüz dəfə qüssədən xəstə olmuşam ki, təki birinin xəstəliyini sağaldım. Şəfa tapanları da olub ki, sonra gözün yumub ölüblər).

Şairin “Tibbnamə”si doğma ana yurdu olan Ordubad şəhərində indiyədək saxlanılmışdır. Əlyazmada xəstəliklərə aid məlumat verilir. Müəllif hansısa bədən üzvünün xəstəliyindən bəhs edir. Əlyazmanın əvvəli və sonu olmadığından və bir neçə səhifənin olmamsı onun barəsində dəqiq məlumat verməyə imkan vermir. Sonrakı mərhələdə həmin üzvə aid xəstəliklərin ardıcıl şəkildə adı, təbiəti (quru və rütubət), yaş dövrləri (uşaq, cavan, qoca), ilin fəsilləri (qış və yay), cəhətləri (şimal və cənub), təhlükəlilik (qorxulu, qorxusuz), səbəbi, əlaməti, müalicə üsulu (padşah sayağı), dərvişanə (dərviş sayağı) şərh edilib. Nüsxə fars dilində nəstəliq

xətti ilə yazılmışdır. Əldə olunan nüsxənin həcmi 95 səhifə, ölçüsü 22x17,5sm-dən ibarətdir.

Hatif bir müddət dostları Azər və Səbahi ilə Kaşanda yaşayıb. Hatifin divanındakı maddeyi-tarixdən məlum olur ki, o, ömrünün axır illərini Kaşanda, İsfahanda və Qumda keçirmişdir. Sonra nədənsə İsfahanı tərk etmişdir. Bu barədə özü də şerində deyir:

سخن کوته ز جور آسمان هاتف به ناکامی

زیاران وطن دل کندم و از اصفهان رفتم (3 s.19).

(Sözün kasadlığından, asimanın cövründən, nakamlıqdan: Hatif, ürək dostlarının vətəni olan İsfahandan getdin).

Mənbələrdən məlum olur ki, şair müntəzəm olaraq bu şəhərlərə gedib-gəlmişdir. Belə ki, 1769-cu ildə Qumda olmuş, 1762-ci ildə İsfahanda və 1780 - 1781-ci illərdə Kaşanda olmuşdur. 1780-ci ildə Kaşanda ikən köhnə dostu Azərin vəfatı ilə əlaqədar mərsiyə yazmışdır. O, ömrünün axır ilini Qumda keçirmiş və orada 1783-cü ildə vəfat etmişdir. Qeyd etdiyimiz kimi, şairin ölümündən kədərlənən dostu Süleyman Səbahi mərsiyə yazmışdır. Həmin şerində Səbahi dostu Hatifi "dünyanın şairi (در نظم او آویزه گوش جهان) hesab edir" (1, s.19).

Hatifin oğlu olan Seyid Məhəmməd "Səhab" təxəllüsü ilə şerlər yazmışdır. Mənbələr qeyd edir ki, o da dövrünün məşhur şairlərindən olmuşdur. O, Fətəli şaha şerlər həsr etmişdir. Onun 5000 beytdən ibarət divanı və bir "Rəşhabi- Səhab" adlı təzkirəsi də vardır. O, 1809-cu ildə vəfat etmişdir.

Eləcə də şairin qızı Biqəm də şairə olmuş "Rəşhə" təxəllüsü ilə şerlər yazmışdır. Onun şerləri indiyədək sevilə-sevilə oxunur.

Hatifin divanını ilk dəfə İranda daşbasma üsulu ilə 1899-cu ildə Tehranda çap etdirmişlər. Həmin kitab 121 səhifədən ibarət olmuşdur. İkinci dəfə şairin divanını Şərqşünaslıq kitabxanası 1928-ci ildə çap etdirmişdir. Həmin kitab 88 səhifədən ibarətdir. Birinci çapdan fərqli olaraq bu çapda səhvlər çoxdur. Bu kitaba Ağa Rəşid Yaməmi adlı tədqiqatçı-alim geniş məzmunlu ön söz yazmışdır.
Şairin divanının tənqidi mətninin Vəhid Dəstgerdi hazırlayıb İranda çap etdirmişdir. Həmin tənqidi mətnlər əsasında axırıncı dəfə şairin divanı kanonik mətnlər əsasında 1999-cu ildə Abbas İqbal Aştiyabi tərəfindən çap olunmuşdur. Aştiyabi kitaba müqəddimə və şərhlər yazmışdır.

Şairin bəzi qəzəllərini Fransa şərqşünası Jvanen və bəzilərini isə Defre Meri fransız dilinə tərcümə edib Parisdə çıxan "Asiya əncüməni" jurnalında 1827 və 1856-cı illərdə çap etdirmişlər.

İngiltərə şərqşünaslarından biri də onun qəzəllərindən bəzisini ingilis dilinə tərcümə edib 1851-ci ildə "Fars qəzəlinin bir əsri" kitabına salmışdır.

Şairin tərcibəndlərinin yüksək poetikası Fransanın məşhur şərqşünası Nikla Qonsulun diqqətini cəlb etmişdir. O, 1897-ci ildə çap etdirdiyi "Farsdilli poeziyada içki və yaradan" kitabında Hatifin də tərcibəndlərindən tərcümə edib vermişdir.

Azərbaycanda şairin ədəbi irsi ilə Salman Mümtaz maraqlanmışdır. O, şairin tərcibəndlərini tərcümə edərək 23 səhifədən ibarət kiçik kitabı 1915-ci ildə Tiflisdə çap etdirmişdir. Salman Mümtaz kitabda Hatifin həyatı barədə məlumat verib şerlərinə şərhlər yazmışdır (bax. 1).

Nəticə etbarilə belə qənatə gəlmək olar ki, Seyid Əhməd Hatif Ordubadi yaradıcılığı nə qədər zəngin bir sahəni əhatə edir. Buna baxmayaraq onun şairlik etməklə bərabər, həm də gözəl həkimlik sənəti olmuşdur. Bütün bu nailiyyətlər şairin zəngin məhsuldar əməyinin məhsuludur.

Ədəbiyyat

1. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 3 cilddə, III cild. Bakı: Elm, 1988, 552 s.
2. Tərbiyət Məhəmmədəli. Daneşməndani-Azərbaycan (Azərbaycanın görkəmli elm, sənət adamları). Bakı: Azərnəşr, 1987, 464 s.
3. Məmmədova Ş.F. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991, 120 s.
4. سید احمد هاتف اصفهانی. تهران. 1378. 18 ص.
5. تربیت محمد علی. دانشمندانه آزربایجان. تهران: سازمانه جاب و انتشارات ارشاده اسلامی. 1377. ه.ش., 655. ص.

Сабухи Ибрагимов

Творчество сеида Ахмеда Хатифа Ордубади в рукописных текстах

Резюме

В статье дается информация о ярком творческом и жизненном пути поэта. Отмечено, что Сеид Хатиф Ордубади происходит из сеидов Гусейни. Их великий предок во времена Сефевидов уехал из Ордубада в город Исфахан, и затем они продолжали жить там.

В Азербайджане творчеством Сеида Ахмеда Хатифа Ордубади занимался Салман Мумтаз, он приводит подробные сведения о жизни поэта. Также и сын Хатифа Ордубади писал стихи под псевдонимом «Сахаб».

В источниках отмечается, что он был одним из известных поэтов своего времени и наряду с художественным творчеством занимался медициной.

Sabuhi Ibrahimov

The works of Sayyid Akhmed hatif Ordubadi in manuscript texts

Summary

The paper gives information about the poet's brilliant creative development and course of life. It is noted that Sayyid Hatif Ordubadi comes from the Husseini sayyid. Their great ancestor in Safavid's times left Ordubad for the city of Isfahan, and then they continued to live there.

Salman Mumtaz has been engaged in the works of Sayyid Ahmad Hatif Ordubadi in Azerbaijan, he gives detailed information about the poet's life. Hatif Ordubadi's son under the pseudonym "Sahab" wrote poems too.

It is noted in the sources that he was one of the famous poets of his time and, along with art creativity, he was engaged in medicine.

Rəyçi: Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü

MEHRİBAN MÖVLAMOVA
Azərbaycan Dillər Universiteti, müəllim
m.movlamova@gmail.com

ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA "MƏLƏK" OBRAZININ DİAXRONİK TRANSFORMASİYASI

Açar sözlər: Diaxronik transformasiya, metamarfoza, Mələk, müqayisəli təhlil
Keywords: Diachronical transfarmation, metomorphoze, angel, comparative analysis
Ключевые слова: Диахроническая трансфармация, метоморфоза, ангел, сравнительный анализ

İnsan oğlu yaradılışının lap əvvəlindən daim mistik və sakral varlıqlara doğru can atmışdır. Ədəbiyyatımızda və eləcə də dünya ədəbiyyatında ruh, şeytan, mələk, əcinə kimi arxetipik obrazların yaranma tarixi olduqca qədimdir. Dantenin "İlahi komediya"sından tutmuş bu günkü günümüzə qədər magik obrazlar öz aktuallığını saxlayır.

Quran-i Kərim motivləri hər zaman ədəbiyyatımıza qiymətsiz sujetlər və obrazlar fondu kimi xidmət etmişdir. Onlar müəlliflər tərəfindən mətnə müxtəlif dəyişikliklər olunaraq daxil edilirlər. Obrazlara daha çox yeni cizgilər əlavə olunur "köhnəlmiş" əlamətlər isə yavaş-yavaş unudulur. Bu zaman obrazın yenidənyaranması daha dəqiq desək transformasiyası baş verir.

Bayaq da qeyd etdiyimiz kimi bu qəbil obraz və süjetlərin yaranma tarixi nə qədər uzağa gedib çıxsa da işlənmə baxımından özünün ən yüksək həddinə XXI əsrdə çatmışdır. Bu nə deməkdir? Bu o deməkdir ki, müəliflər günahlar və haqsızlıqlarla dolu dünyanın xilasını yalnız fövqəlbəşər qüvvələrin müdaxiləsi ilə mümkün olduğuna inanırlar. Müasir müəlliflərin əksəriyyəti mələk və insan arasındakı sevgi, mələk və insan arasındakı dostluq motivlərinin əks olunduğu əsərlərə meyl edirlər. Məsələn Ceym Makvayrın "Mələk haqqında əfsanə", Bekki Fitspatrikin "Mələklər nə haqqında susur" və "Krişendo" romanlarında, Azərbaycan ədəbiyatında isə Elxan Qaraqanın "Mələk", Tural Anaroğlunun "Tənha mələk" hekayəsində belə münasibətlər əks olunmuşdur.

Bəs çağdaş dövr ədiblərinin bu tipli əsərlərə belə güclü meyli nədən irəli gəlir? Əgər əsərin əsasında "Qurani Kərim" kimi unikal kitabın süjet və obrazları durursa o zaman həmin əsərlərə oxucu marağının olacağına zəmanət vermək olar. Gəlin razılaşaq ki, "Qoruyucu mələk qoruduğu qıza aşıq olur və qızın köhnə dostu Əli də qızı sevir" süjeti "Əli Gülşəni sevir,

Orxan da Gülşəni sevir" kimi məhəbbət üçbucağını təsvir edən adi süjetdən daha maraqlıdır. Çünki bu zaman artıq konflikt də dərinləşir. Qızın seçimi iki oğlan arasında deyil yerlər və göylər kimi iki əzəli və əbədi məvhum arasında aparılır.

Doğrudur yeni yaranan demonik və mələk obrazları öz keçmiş analoqlarından bir xeyli fərqlənirlər. Əgər söhbət transformasiyadan gedirsə ilk növbədə mövcud obrazın ilikin versiyası ilə maraqlanmalıyıq. Ümumşərq və Azərbaycan ədəbiyyatı üçün mələk obrazının başlıca modeli "Quran-i Kərim" də yaradılmışdır. İlahi kitabımızda mələklər bir çox surədə xatırlanır. Cəbrayıl, İsrafil, Əzrayıl və Mikayıl kimi dünya işlərinin idarəsində Allaha xidmət edən dörd əsas mələklə yanaşı adsız, müəyyən xırda missiyaları olan bir qrup mələklərdən də söhbət açılır. "Quran-i Kərim"in yetmiş doqquzuncu ayəsi olan Ən-Naziat (Can alanlar) surəsində mələklər haqqında ümumi təsəvvür yaradılır: "And olsun [kafirlərin canını]zorla alanlara [əzab mələklərinə]. And olsun sürətlə üzənlərə [göydən sürətlə enərək möminlərin canını asanlıqla alıb gedən, yaxud Allahın vəyhlərini peyğəmbərlərə tez çatdıran, əmrlərini dərhal yerinə yetirən mələklərə]. And olsun işə əncam çəkənlərə [Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə](4, səh.613)" İlkin qaynaqda – Quranda rast gəldiyimiz mələklər yemir, içmir, çox zaman insanlarla danışmadan hisslər səviyyəsində kontakta girirlər. "[Ya Məhəmməd!] İbrahimin möhtərəm qonaqlarının [mələklərin] söhbəti sənə çatıbmı? İbrahim bir bəhanə ilə ailəsinin yanına getdi və kök bir buzov kəsib qızardaraq gətirdi. Onu qonaqların qabağına qoyub "bəlkə yeyəsiniz" – dedi. Qonaqların yeməyə əl uzatmadıqlarını gördükdə onlardan qorxuya düşdü."(4, səh.531)

Ancaq müasir ədiblər üçün belə sərhədlər yoxdur. Onların yaratdıqları Mələklər yeyir, içir və hətta ölürlər. E.Qaraqanın "Mələk" hekayəsində belə bir məqam var. "Daha sonra ona yemək verməyə çalışdım, bu da alınmadı, onda mən fikirləşdim ki, yəqin mələklər yemək yemir. Amma bir neçə saat sonra qarnını tutduğunu və iylə nə isə bir şey axtardığını və mənə yazıq-yazıq baxmasından sonra anladım ki, acdır. İki saatlıq əziyyətimdən və üç dəfə dükana gedəndən sonra anladım ki, mələklər ac olanda yalnız süd içir."(3, səh.14) Maraqlıdır ki, bu hekayədəki Mələk obrazı həm də hekayə boyunca müəyyən trayektoriya üzrə diaxronik formada dəyişilir. Əgər hekayənin əvvəlində "o bəlkə də başa düşmür" kimi duyğu və hissləri olmayan bir varlıq kimi təsvir olunursa artıq əsərin sonlarına doğru öz xilaskarını tanıyan və hətta onu görərkən gözündən sevinc yaşları axan, insana daha yaxın personaja çevrilir. "Mələk də ağlayır və öz gözəl baxışları ilə mənim gözlərimə baxırdı."(3, s.124)

Ümumilikdə Mələklərin kişi və qadın deyə cinsiyyət ayırımı olmadığı Qurandan bizə məlumdur. "Onlar Rəhmanın qulları olan mələkləri

dişi saydılar. Məgər onlar mələklərin yaradılışının şahidimi olmuşdular?”(4, səh.494) Lakin daha çox yaradılan mələk obrazları qadın-qız şəklində meydana çıxırlar. Bəlkə də bu ilahə və mələk məvhumlarının bir-birindən ayrılması gərəkdiyindən lakin çox zaman səhv olaraq eyniləşdirilməsinin nəticəsidir. Lakin heç də bütün müəlliflərdə bu eyniləşmə mütləq mənada təzahür olunmur. Kamal Abdulla bu iki bir- birinə yaxın magik obraz arasındakı incə çizgini çox gözəl çəkir. Belə ki, hansı formaya transformasiya olunmasından asılı olmayaraq hər bir Mələk obrazının bir missiyası var. Bu da onları mental modeldəki Mələk obrazı ilə bağlayan ən möhkəm bağdır. Ancaq ilahələrdə bu belə deyil. Əgər Kamal Abdullanın “Mənə hərdən Mələk deyirlər” pyesində Mələyin missiyası xeyiri qorumaq və bəşəriyyətdə onun qələbəsini izləməkdirsə “Göyəzən dağının ilahəsi” hekayəsində ilahənin heç bir missiyası yoxdur. O sadəcə öz şəxsi arzuları yaxud da “çıxarları” üçün ruhları bədəndən oğurlayır. “Bu adamlar ata-babalarından eşitmişdilər ki, İlahənin gecə vaxtı lüt-üryan kəndi gəzib dolaşmasında bir hikmət var. İlahə, guya öz qurbanını axtarır və onu öz kamına çəkir. Bu qurbanın özü yox, ruhu hava-su kimi İlahəyə lazımmış. Ruha «layla» oxumalıydı, oxumasaydı, saralıb solacaq, gözəlliyini itirəcəkmiş. Kənd adamları belə deyirdi: İlahə özü ki, övlad üzünə həsrət idi, bu səbəbdən guya kənddəki körpəli qadınlara qibtə edirmiş.” (1) Bu hekayədə yeni bir trasformativ məqam da meydana çıxır. İlahə və mələklər qeyri dünyavi sakral göylər aləminin nümayəndələri olduqları üçün zamanın fövqündə duran varlıqlardır. Lakin hissədən də anlaşıldığı kimi öz cavanlığını qorumaq üçün ilahə müəyyən güc sərf edir. Bununla da kifayətlənməyən ədib ilahənin sonsuz olduğunu və buna görə də uşaqlı qadınlara qibtə etdiyini söyləyir. Deməli bu əsərdə ilahə obrazı güclü şəkildə aşınmaya məruz qalmışdır. Doğrudur qədim Yunan miflərində allahlar və ilahələrin izdivacından dünyaya gələn allahlar, ilahə-allahlar və insan izdivacından meydana gələn yarımallahlar mövcuddur. Lakin Azərbaycan ədəbiyyatında ilahələr həmişə bir növ təmizlik və sülh simvolu kimi müsbət bir obraz olaraq yaddaşlara həkk olunmuşlar. Buna görə də ilahə obrazının bu aqressiv və egoist xüsusiyyətləri güclü transformasiya məqamları kimi qiymətləndirilməlidir.

Səmavi kitablarda dar məqamlarda insan oğlunun köməyinə gələn yardımçı mələklərlə yanaşı qara mələklərdən– “ölüm mələyi- Əzrayıl” və “Allaha asi olan mələk- iblis” haqqında da söhbət açılır. Tural Anaroğlu “Tənha mələk” hekayəsində İblis obrazını yeni formatda yaratmışdır. Dünya ədəbiyyatındakı demonik obrazlar Lüssifer, Demon yaxud Hüseyn Cavidin İblisi daha çox “özü”nə sadiq qalan obrazlardır. Ancaq “Tənha Mələk”dəki İblisdə yaxud da onun özünü adlandırdığı kimi “Tənha mələk”də metamarfoz baş vermişdir. “İblis nədir? Cümlə cinayətlərə bais. Ya hər kəsə

xain olan insan nədir? İblis!!!" deyən və bununla qürrələnən Cavid iblisindən fərqli olaraq Tənha mələk insanların düşdüyü vəziyyətə acıyır, haqq və nahaqqı yerinə qoymaq üçün xeyli əziyyət çəkir. Əgər Qaraqanın "Mələk" hekayəsində transformasiya daha çox fiziki səviyyədə gedirsə "Tənha mələk"də bu dəyişiklik psixoloji xarakter daşıyır. Dünya ədəbiyyatında İblis obrazının müsbət şəkildə yaradılması ənənəsi 1667-ci ildə Milton tərəfindən yazılmış "İtirilmiş cənnət" romanındakı İblis obrazı ilə başlanmışdır. "Tənha mələk" hekayəsinin qəhrəmanı da bir növ bu romanın qəhrəmanını xatırladır. Hekayədə onun missiyası tamamilə fərqli– mövcud ədalətsizliyin səbəbini tapmaq və bunu düzəltməkdən ibarətdir. "İblis mütləq ilahi gücün tək, vahid olduğunu bilirdi. Amma bu zavallı qullar bölünüb parçalanmışlardı. Allah onlara peyğəmbərlər göndərmiş, doğruları anlatmağa çalışmışdı. Onlar isə parçalandıqca parçalanmış, bölündükcə bölünmüşdülər. "(5, səh.120)

Mələk obrazının həm müasir Azərbaycan, həm də dünya ədəbiyyatının fantastikasında işlənməsinin iki səbəbi var. Birincisi təbii ki, qeyri-ənənəvi obraz yaradaraq oxucunun diqqətini çəkmək, ikinci əsas isə daha qlobal xarakter daşıyaraq, günümüzün mənəvi,ruhi, sosial problemlərini göstərməyə xidmət edir. Bu halda Mələk obrazı insan xislətini açmaq üçün yazıçı köməkçisinə çevrilir. Qeyd etdiyimiz məsələ E.Qaraqanın "Mələk" hekayəsində qabarıq şəkildə təsvir olunub. "... baş verənlərə inana bilmirdim. Sanki xoş bir yuxudan ayılıb dəhşətli bir qorxu yuxusuna düşmüşdüm. Mənim mələyimi xilas etmək üçün meydana tökülmüş xalqım. Mələyin üstünə cumur, onun əlindən tutur, qanadlarını dartır və qara millət bacardıqca bir-birini yumruqlayıb, itələyib Mələyə toxunmaqa özlərinə yer edirdilər"(2, s.124) Yaxud Ülviyyə Heydərovanın "Mələk" hekayəsində Əzrayılın "Nə yaxşı ki, mən varammış. Yoxsa bu insanlar bir-birinin ətini yeyərlərdilər. Cavan əlilə, şikəstə fikir verən yoxdur. Bunlar 200 yaşlı ulu babalarına necə baxacaqlar?"(6, səh:103) sözləri insan oğlunun düşdüyü ən acınacaqlı vəziyyətin sübutudur.

Çağdaş ədəbiyyatımızda əsərdə müəyyən missiya və rolu olamayan bir növ simvol xarakteri daşıyan mələk obrazları da vardır. Kamran Nəzirlinin "Sarışın mələk" hekayəsi bu qəbildəndir. Təsadüfən yerə enmiş və insanlar tərəfindən görülmüş ona görə də bu sirri əbədiyyətə qovuşdurmaq üçün onu görənləri özü ilə göylərə aparmış dəniz mələyi bu hekayənin mifik baş qəhrəmanıdır. "Onlar hələ heç vaxt belə mələk görməmişdilər. Görünür elə sarışın mələk də ilk dəfəydi ki, yeniyetmə baxışlarının qurbanı olmuşdu."(2, səh.21)

Adları çəkilən əsərlərin müsbət və mənfi cəhətləri üzərində dayanmadan "Mələk ədəbiyyatının" bir sıra əsas tendensiyalarını bu şəkildə ümumiləşdirə bilərik:

1. Janr istiqaməti - əsasən Fantastika ve fentezi janrında yaranırlar. 2. Mələklər ilkin variantlarından fərqli olaraq maddi dünyaya/ölümlü insana daha yaxındırlar. 3. Mələk- insanın dostu olub onu mövcud haqsızlıqlardan qorumaq üçün yerə enir, 4. İblis, əzrayıl daha çox kişi, xırda missiyası olan adsız mələklər isə qadın şəklində təsvir olunur. 5.Bütün qara və ağ mələklər Allahın sevimlisi olan, lakin artıq öz çirkin əməlləri ilə dünyanın ən mənfur yaratığına çevrilmiş insandan daha yüksək səviyyədə dayanırlar.

Müasir ədəbiyyatın səmavi obrazların "yaşaması" üçün nə dərəcədə münbit olub olmadığını zaman göstərəcək. Hələlik isə bu tip əsərləri ən azından ədəbiyyatımızı düşməkdə olan aqoniya halından qoruyan, maraqlı süjet xətti olan və ən əsası oxucunu müəyyən psixoloji duruma salmaq gücünə malik olan əsərlər sırasına daxil etmək olar.

Ədəbiyyat siyahısı:

1. http://kamalabdulla.az/348/goyezen-daginin-ilahesi/
2. K.Nəzirli, Sarışın mələk, "Kaspi" qəzeti, Bakı, 2016, 25-28 iyun, S.21
3. Qaraqan, Mələk, Bakı, Qanun nəşriyyatı, 2015, 132 səh.
4. Qurani Kərim, Bakı, Azərnəşr, 1992, 649 səh.
5. T.Anaroğlu, Tənha mələk, Bakı,Yurd, 2005, 268 səh.
6. Ü. Heydərova, Mələk, "Azərbaycan" jurnalı, Bakı, 2010, № 3, S.100-103

Mehriban Movlanova

Diachronic transformation of "Angel" character in modern Azerbaijani literature

Summary

The diachronic transformation of the image of an angel in the modern Azerbaijani literature investigates i the scientific article. This magical image created in the XXI century, is compared with its original version - a prototype specified in the Qur'an, as well as with the angelic and demonic images existing in the world literature and with peers created in the modern period. The comparative analysis of demonic characters attracts the attention as the main object in this article. Genre direction – especially forms in the genre of Fantasia and fantasy. Unlike primary variants of angels in the article, it is concluded that, they are similar to material world/mortal man. In this kind of works, Angel – is the friend of man and fall down to protect him/her from existing injustice. If we generalize it, we must say that, Devil, angel of death is described mostly as man, but nameless angels having a little mission are described as woman. All black and white angels stand in higher level than persons who is lovable man of the God, but already become to unpleasant man of the world with his/her dirty actions.

Мехрибан Мовланова

Диахроническая трансформация образа «Ангела» в современной Азербайджанской литературе

Резюме

В научной статье исследуется диахроническая трансформация образа ангела в современной азербайджанской литературе. Этот магический образ, созданный в XXI веке, сравнивается как со своим первоначальным вариантом – прообразом указанном в Коране, так и с ангельскими и демоническими образами существующими в мировой литературе, а также с аналогами созданными в современный период.

В статье как основной объект привлекает внимание сравнительный анализ демонических образов. Направление жанра - в основном Фантастика и жанр фентези. В статье было заключено, что ангелы в отличии от их первоначального создания, более приближены к материальному миру/смертному человеку. В такого рода произведениях, Ангел - как друг человека спускается с небес, для того чтобы защитить его от существующих несправедливостей. Для обобщения можно сказать, что дьявол, ангел смерти представляются в мужском облике, а ангелы без имени с незначительными миссиями, в облике женщины. Все белые и черные ангелы стоят намного выше человека, созданного как любимца Бога, но который уже своими грязными делами превратился в самое проклятое создание.

Rəyçi: Alxan Məmmədov
filologiya elmləri, doktoru, professor

ŞƏHRİZAD NUHOVA
Bakı Slavyan Universitetinin doktorantı
sehrizad.nuhzade@mail.ru

S.AZƏRİ VƏ V.BABANLI SƏNƏDLİ-BƏDİİ NƏSRİNDƏ SOVET GERÇƏKLİYİNİN TƏSVİRI PROBLEMLƏRİ

Açar sözlər: S.Azəri, V.Babanlı, nəsr, sənədli, sovet gerçəkliyi, repressiya
Key words: S. Azeri, V.Babanlı, prose, documentary, soviet reality, repression
Ключевые слова: С.Азери. В.Бабанлы, проза, документальный, советская действительность, репрессия.

S.Azəri və V.Babanlı nəsrində sovet gerçəkliklərinin təsviri məsələləri başlıca yer tutur. Hər iki yazıçının sovet gerçəkliyinin təsviri problemlərinə müraciəti, hər şeydən əvvəl, sovet quruluşu zamanında yaradıcı ziyalıların deyə bilmədikləri həqiqətləri yazmaq ehtiyacından yaranmışdı. S.Azəri "Tələbə məhbusun etirafları" V.Babanlı isə "Gizlinlər" romanlarında sovet dövründə düçar olduqarı çətinlikləri və məhrumiyyətləri qələmə almışlar. V.Babanlının romanında eşitdiyi və müşahidə etdiyi hadisələrə də geniş yer verilmişdir. Hər iki romanda hadisələr sovet dövrünün kifayət qədər ziddiyyətli və mürəkkəb dövrünü əhatə etməklə, dövrün, mühitin, quruluşun xarakterini göstərir. Maraqlıdır ki, hər iki əsər sovet quruluşunun süqut etdiyi dövrdən sonra yazılmışdır. Bu, hər iki yazıçıya imkan vermişdir ki, başlarına gələn, yaxud müşahidə etdikləri hadisələri bütün reallığı ilə əks etdirsinlər. S.Azəri "Tələbə məhbusun etirafları" əsərini "sənədli-biblioqrafik", V.Babanlı isə "Gizlinlər"i "gerçək roman" adlandırmışlar. Bütün bunlar hər iki əsər arasındakı mövzu və problematika yaxınlığından xəbər verir. S.Azəri romanı yazmaqda məqsədini belə açıqlayır: "Bəri başdan məqsədimi bildirirəm: bu roman etiraf vasitəsilə həyatımın, taleyimin, ailəmizin, yaşıdlarımın və bütövlükdə müasirlərimin rast gəldiyi, indiyəcən qaranlıq qalan, qaranlıq qaldığına görə də ürəyimizi daha çox sıxan sirləri hamıya açıqlamağı qərara almışam" (1, 5). S.Azəri romanı 1992-2000-ci illərdə yazmışdır. Bu dövrdə sovet hakimiyyəti artıq tarixin arxivinə qovuşmuşdusa, quruluşla bağlı müxtəlif, ziddiyyətli fikirlər dolaşırdı. Bu fikirlərin bir çoxunu həyat özü üzə çıxarmışdısa, böyük əksəriyyəti ayrı-ayrı insanların düşüncəsində, başına gələn hadisələrdə qalmışdır ki, bunları bugünkü və gələcək nəsillərə bədii və sənədli yolla çatdırmaq mümkün olmuşdur. "Gizlinlər" romanının müəllifi V.Babanlı isə əsəri yazmaqda məqsədini sonda açıqlayır. Yazıçı 2001-2004-cü illərdə qələmə aldığı əsərin sonunda yazır: "Gerçəkdən-gerçəkləri istisnasız qələmə almışam. Bədii dilin, obrazlı ifadələrin bacardığım imkanları daxilində canlandırıb, roman

şəklində ictimaiyyətə çatdırmağa çalışmışam. Yeganə məqsədim budur ki, bizdən sonrakı nəsillər ötən əsrdə yaradıcı ziyalıların başına gətirilənləri bilsinlər, vəziyyətdən agah olsunlar" (2, 314-315). S.Azərinin "Tələbə məhbusun etirafları" romanı ötən yüzilliyin ikinci yarısında keçmiş sovetlər İttifaqı və Azərbaycanda baş verən ictimai-siyasi prosesləri əks etdirir. Müəllif azı qırx illik bir dövrün xarakterini, hadisələrini, şəxsiyyətlərini, bütövlükdə ictimai proseslərini əks etdirməyə nail olur. Bununla yazıçı həm çağdaş oxucu qarşısında yeni bir dünya açmış olur, həm də dövrün gerçəkliklərini sənədli-bədii yolla əks etdirir. "Tələbə məhbusun etirafları" romanında yazıçı özünün simasında yaşadığı həyatın gerçəkliklərini təsvir edir. Sovet cəmiyyətində keşməkeşli və əzablı yollar keçən yazıçının qarışıq dövrün xaosundan qurtulması prosesi romanda reallıqla göstərilir. Müəllif nədən bəhs etsə də öz saflığına arxalanaraq və sonunun belə faciəylə bitməsindən qorxmayaraq, hər şeyi dürüst təsvir edir. T.Orucovun yazdığı kimi: "Roman XX əsrin ikinci yarısı, bu dövrün çətinlikləri və ziddiyyətləri barədə bizə çoxlu biliklər verir. Müəllif azı yarım əsrlik dövrü icmal üslubunda təhlil etməyə müvəffəq olur, yaxşı tanıdığımız adamların çoxunu bizə yaxından və retuşa ehtiyac duymadan təqdim edir. Ən başlıcası isə öz həyatını etiraf qaydasında nəql edir" (3, 4).Roman yazıçının həyatının, taleyinin, ailəsi və yaşadıqlarının, indiyə qədər qaranlıq qalan bir çox məqamlarını aşkara çıxardır. Bu roman vasitəsi ilə yazıçının yaşadığı dövrün gerçəklərini, təxəyyülündəki təsvirlər ilə sintezdə görürük. Yazıçının əsərdəki canlı obrazı onu bir xarakter olaraq açmağımızda da, tanımağımızda da vacib amil olur. Məlumdur ki, yazıçının həyatının böyük bir dövrü sovet cəmiyyətində keçmişdir. Romanda məhz yazıçının bu dövrdə başına gələn hadisələr qələmə alınır; sosialist sisteminin müəyyən müsbət cəhətlərilə yanaşı, onun mənfi tərəfləri də göstərilir, tarixdə anormal, qeyri-məntiqi bir hadisə, əslində isə ictimai bir bəla olduğu bədii dillə çatdırılır. Məhz elə romanın əvvəlində başına gələn hadisəylə bu rejimin necə acınacaqlı olduğunu qeyd edir. Tələbə olarkən KQB-DTK əməkdaşları tərəfindən dərsdən aparılaraq sorğu-sual edilməsi, üç aya yaxın həbsxanada qalması və burada müxtəlif xarakteli insanlarla tanış olması romanın süjet xəttini maraqlı edir. SSRİ-də baş verən repressiyaları təkcə Stalinin əməli və günahı olaraq verilmir, həm də ictimai-siyasi-ideoloji bir bəlanın formalaşmasında o dövrün bütün rəhbərlərinin, o cümlədən Nikita Xruşovun, Anastas Mikoyanın da günahını ortaya çıxarır. Məhz onların karikaturasını çəkmək Sabir Azəriyə baha başa gəlir. Tələbə Nikita Xruşovu donuz, Anastas Mikoyanı isə uzunqulaq qiyafəsində çəkmişdi. Romanın süjet xətti bir tələbənin məktubunun izi ilə DTK əməkdaşlarının onu gəlib Universitetdən Vaenkomat adı ilə aparması ilə başlayır. Lakin onu DTK-ya gətirirlər. Heç nə başa düşməyən qəhrəman yazdığı məktubu qarşısına qoyarkən hər şeyi

anlayır. Əməkdaşlar da sevinir ki, nə yaxşı boynuna aldı. Roman qəhrəmanı heç nəyi danmır, yenə də öz fikrində qaldığını izahatında da yazır. Ali məhkəmənin qapalı iclasında da qadının sədrliyi ilə keçən qapalı iclasda da yazdıqlarını təkrar edir. Qəhrəman öz fikirlərini belə əsaslandırır: "...birincisi, xarakterimə, təbiətimə xəyanət edə bilməmişdim, yəni mən ürəyimdə bir cür düşünüb, dilimdə başqa cür danışa bilmirdim. Ürəyim isə deyirdi ki, ikincisi-hələ o zamanlardan belə qənaətdəydim ki, SSRİ-də baş verən repressiyalar təkcə Stalinin əməli və günahı deyildi. Bu ictimai-siyasi-ideoloji bir bəla idi və həmin bəla prinsipin yaranmasında, formalaşmasında, bərkiməsində o dövrün bütün rəhbərləri, o cümlədən mənim öz məktubumda tənqid etdiyim, günahlandırdığım Nikita Xruşov da, Anastas Mikoyan da günahkar idilər. Onların hamsının əli qana batmışdı. Bütün günahları bir nəfərin üstünə atmaqla başqaları özlərini və bütövlükdə ictimai sistemi, onun ideologiyasını təmizə çıxarmağa çalışırdılar..." (1, 13).

"Tələbə məhbusun etirafları" əsərinin baş qəhrəmanı məhbəsdə keçirdiyi aylar ərzində çox düşünür. Ailəsi, ata-anası, anadan olduğu doğma torpağını bir an belə unuda bilmirdi. Kənd həyatına, torpağa bağlılıq həm də həbs olunmanın verdiyi utanc hissi bir an ondan əl çəkmirdi. Atası Kar qaya adlanan meşənin meşəbəyisi idi. Tez-tez yuxusunda atası ilə, doğmaları ilə keçirdiyi günləri "Kar qaya" adlı povestinin necə yaranması və bir neçə əsərlərinin bəhsi burda da öz əksini tapır. Məhbusluq dövrünün necə keçməsi, ona necə bir təcrübə qazandırdığı və s. acılı-şirinli hər anı oxucu ilə paylaşır. Aldığı təəssüratların mənəviyyata dəydiyi zərbələrdən və insanın özünü idarə edə bilməsinən danışır: "İnsan özünü idarə etməyə, ələ almağa qadir olmasa həyatda çox çətin vəziyyətlərə düşər, sına bilər. Ən faciəli anlarda da gərək o faciəni unutmağı, heç olmasa adiləşdirməyi bacarasan. Bu çox böyük müdriklik imiş!" (1, 25). Ona iki il məhbus ömrü kəsirlər, lakin cəmi bir il iki aydan sonra azadlığa çıxır. SSRİ-Ali Soveti böyük amnistiya verir. Yazıçı da amnitsiyaya düşür. Ən yaxşı, sevindirici bir hal onda olur ki, "məhbus" damğası üzərindən götürülür. Bu o demək idi ki, Universitetə tələbə kimi qayıdacaq. Sevincinin həddi-hüdudu olmur, lakin özü də qeyd etdiyi kimi arzuları payıza qalır. Tələbə olaraq bərpa olması bir sonrakı payız sessiyasına keçir. Tələbə məhbus universiteti bir jurnalist olaraq başa vurur. Öz peşəsini çox sevən, öz üzərində çalışan vicdanlı bir qələm sahiblərindən biri kimi tanınır. Bu qələm sahibi hər kəsi öz sənətinin incəlikərindən səylə öyrənib vicdanla işləməyə çağırır. Bu sahədə çalışmaq onun yaradıcılığına müsbət təsir göstərir. Bədii əsərlərini – yazılarını, hekayələrini hər kəslə paylaşmağa geniş imkanlar yaranır. İlk təyinatı və rəsmi iş yeri "Azərbaycan gəncləri" qəzeti olur. Romanda yazıçı həyatının müxtəlif anları "Yenidən üzü ümidə doğru", "Xoş gördük, doğma Universitet", "Köhnə kişilər", "Ulduz"da keçəm ömür", "Azadlıq yanğısı və Meydan hərəkatı" fəsillərində

davam etdirilir. Beləliklə, yazıçı romanda 50-ci illərin sonlarından başlayaraq sovet quruluşunun süqutuna kimi, təxminə qırx illik bir dövrün ictimai-siyasi hadisələrini təsvir edir. Maraqlıdır ki, həyatının qara zolaqları ən çətin vaxtlarda belə ümidsizlik yaratmamış, əksinə gəncliyindən xarakterində formalaşan milli dəyərlərə həmişə sadiq qalmışdır. Məhbus həyatından sonra ictimai həyatımızdakı, ədəbi prosesdəki problemləri qabartmaq, onlara öz vətəndaş münasibətini bildirmək yazıçının roman boyu başlıca amallarından olmuşdur. Sovet cəmiyyətinin ziddiyyətləri kimi, Moskvanın xalqa qarşı psixoloji təzyiqini göstərmək baxımından "Tələbə məhbusun etirafları" əsəri bədii nəsrimizin ən yaxşı nümunələrindəndir.- V.Babanlının "gerçək roman" adlandırdığı "Gizlinlər" əsəri 40-cı illərin ortalarından başlayaraq 70-ci illərə qədərki müşahidə etdiyi, başına gələn hadisələr, əhvalatlar, faktlar əsasında qələmə alınmışdır. maraqlıdır ki, bu əsərlə S.Azərinin əsəri arasında həm dövr, həm də ideya-məzmun yaxınlığı açıq-aşkar hiss olunur. Sovet quruluşu zamanında yaradıcı ziyalıların doğru söz demək, həqiqəti yazmaq uğrunda düçar olduqları çətinliklər, məhrumiyyətlər, quruluşun mürəkkəblikləri, ziddiyyətləri, ədəbi-ictimai mühitin xarakteri və s. bu əsərlərin mahiyyətini təşkil edir. Əsərdə mövcud ədəbi mühitin müxtəlif mərhələləri göz önündə canlandırılmaqla yanaşı, sovet cəmiyyətinin müxtəlif problemləri qabardılır. Çağdaş oxucu bu əsərdə 37-ci il repressiyasına, 40-50-ci illər ədəbi mühitinə münasibəti aydın görür. Bəzən isə oxucunun dərslik kitablarından tanıdığı yazıçı və şairlərin həyatının elə gizlinlərinə, dərin qatlarına enilir ki, dövrün, cəmiyyətin və şəxsiyyətin xarakterini açmaq üçün bu faktlar ən yaxşı vasitə olur. Hər şeyi olduğu kimi təsvir etməyə çalışan yazıçı yazır: "Mən öz ömür kitabımı sizin gözləriniz qarşısında vərəqlədim. Böyük bir zaman kəsiyindəki ağrılı-acılı ovqatları olduğu kimi, bəzək-düzəksiz, mübaliğəsiz diqqətinizə yetirdim. Dövrün məhrumiyyətlərini, yaradıcılıq məhdudiyyətlərini heç nədən çəkinmədən açıqladım. Gizlinlərimi, yaddaş saxlanclarımı sidq ürəklə göz qabağında sərgilədim" (2, 314).V.Babanlının "Gizlinlər" romanı dörd hissədən ibarətdir; birinci hissədə qəhrəmanın gənclik illəri, Tiflisdə təhsilini yarımçıq qoyaraq sənədlərini atasından gizlin Bakı Dövlət Universitetinə verməsi və qəbul olması, ikinci hissədə Bakı və tələbəlik həyatı, ədəbi mühitlə yaxınlığı, üçüncü hissədə Moskvaya getməsi və yaradıcılığının ilk dövrü (burada S.Vurğunla bağlı olduqca maraqlı faktlar yer alır), dördüncü hissədə isə Moskvadan döndükdən sonra yaradıcılıq fəaliyyəti və "Vicdan susanda" romanı ilə bağlı hadisələr yer almışdır. Deməliyik ki, V.Babanlının "Gizlinlər" romanı həm müəllifin yaradıcılıq laboratoriyasını öyrənmək, həm də dövrün ədəbi mühitini, ictimai-siyasi prosesləri təhlil etmək üçün olduqca zəngin material verir. V.Babanlının "Gizlinlər"ində sovet cəmiyyətinin müxtəlif hadisələrinin realist rakursdan yazılması dövrün hadisələrini

qiymətləndirmək baxımından da əhəmiyyətlidir. Belə ki, həmin dövrdə bir çox hadisələr baş vermişdir ki, bu gün həmin hadisələrə müxtəlif baxış bucaqlarından nəzər salınır. Ədəbiyyat və siyasət, ideologiyanın ədəbiyyatı yönləndirməsi, partiyalılıq və xəlqilik məsələsi; bütün bunlar həmin dövrün əsas xüsusiyyətlərindəndir. Romanda isə bu hadisələrə kompleks münasibət bildirildiyindən dövrün ictimai münasibətləri bütün reallığı ilə açılır. Bu məsələlərdən biri də repressiya məsələsidir. Məlumdur ki, 30-ci illərin repressiyası dünyada anoloqu olmayan bir siyasi aksiya kimi yadda qalmışdır. Milyonlarla insanın həyatdan ayrılması, məhv edilməsi, yaxud sürgünə göndərilməsi, həbs edilməsi ədəbi mühitdə də özünü göstərmişdir. Repressiya Azərbaycan yazıçı və şairlərindən də yan keçməmişdir. H.Cavid, Ə.Cavad, Y.V.Çəmənzəminli, M.Müşfiq, S.Mümtaz, B.Çobanzadə, Ə.Nazim, H.Zeynallı, Ə.Abid və b. otuza qədər yaradıcı ziyalının məhv edilməsi, yaxud sürgünə göndərilməsi ədəbi prosesdə yeni bir situasiya yaratmış oldu. Məsələ burasındadır ki, repressiya və onun mahiyyəti illər keçdikcə dəyişmiş, əsil həqiqət üzə çıxmışdır. Bu mənada V.Babanlının "Gizlinlər" romanı olduqca qiymətli bir əsər kimi diqqəti cəlb edir. Romanda yazıçı 50-ci illərdə S.Vurğunun Seyfulla Şamilovla bir görüşünə də yer vermişdir. S.Şamilov 1937-ci ildə Yazıçılar İttifaqının sədri, S.Vurğun isə məsul katibi olmuşdur. Repressiya başladıqda S.Şamilov 17 illik Sibirə sürgün olunmuş, S.Vurğun isə "xalq düşmənləri"ni vaxtında ifşa etmədiyi, qoltuq altında gizlətdiyi üçün katib vəzifəsindən uzaqlşdırılmışdır. S.Şamilovun sürgün həyatından qayıtdıqdan sonra S.Vurğunla görüşməsi bir çox həqiqətlərin üstünü açmışdır. S.Şamilovun dediklərindən belə məlum olur ki, onu tutduqdan sonra S.Vurğunun əleyhinə ciddi-cəhdlə ifadə almağa çalışıblar. O, isə müstəntiqlərə gərəkən ifadəni verməmişdir. V.Babanlı S.Vurğunla S.Şamilovun söhbətindən üç əhvalatı təsvir edir. Bu əhvalatların hər biri dövrün, ictimai-siaysi proseslərin ədəbi mühitə nə dərəcədə geniş təsir göstərdiyini aydınlaşdırmaq üçün ən yaxşı sənədli faktlardır. Bunlardan biri 1948-ci ildə Mir Cəfər Bağırovun S.Vurğunu dolaşdırmaq üçün Yazıçılar İttifaqına komissiya göndərməsi ilə bağlıdır. Vəziyyət son dərəcə gərgin və mürəkkəb olsa da, yayın qızmar istilərinə və mövcud şəraitə dözməyib ailəsini göndərdiyi Yessentukiyə gedir, Osman Sarıvəlliyə isə tapşırır ki, əgər lazım olarsa, ona teleqram vursun. Cəmi iki gün idi ki, getmişdi O.Sarıvəllidən "başını orda islat, birda qırxdır" adlı bir teleqram alır. S.Vurğun dərhal özünü M.Bağrovun sədrliyi ilə keçirilən iclasa çatdırır. M.Bağrov iclasda kəskin surətdə S.Vurğunu tənqid edir. Vəziyyət çox çətin idi. Lakin S.Vurğun çıxışa hazırlaşır və fasilədən sonra odlu-alovlu çıxış edir. Bütün zalın əl çalması M.Bağırovu da öz fikrindən döndərir. Ədəbiyyatşünas B.Əhmədov repressiyanın xarakterini araşdırarkən S.Vurğun məsələsinə də toxunmuş, onun ömrünün sonunadək repressiya

olunmaq təhlükəsi qarşısında qaldığını göstərək yazır: "S.Vurğuna qarşı repressiya sonrakı illərdə də davam edir. Bu dəfə S.Vurğunun "məsələsi" SSRİ Yazıçılar İttifaqının müzakirə (1937, 26 noyabr) obyekti olur. Müzakirə M.C.Bağırovun şəxsi ərizəsinə əsasən aparılır. S.Vurğun yeganə Azərbaycan şairidir ki, onun məsələsi respublikada deyil, SSRİ Yazıçılar İttifaqında müzakirə edilmiş, müşavirə onun İttifaqın üzvlüyündə qalmasında israrlı olmuşdu. İclasda S.Vurğunun keçmişi təftiş olunmasına rəğmən "Rus poeziyası antologiyası"nın tərcüməçilərindən biri olması, Lenin ordeni alması və s. bağlı yazıçıların onu müdafiə etməsi müzakirənin müsbət sonuna gətirib çıxarır. Bununla belə, repressiya olunmaq təhlükəsi S.Vurğunu ömrünün sonlarına qədər tərk etməmişdir" (4). V.Babanlının "Gizlinlər" romanında yalnız repressiya hadisəsi deyil, dövrün, ictimai, ədəbi mühitin bütün reallıqları təsvir edilir. Ona görə də romanda bir yazıçının (və eləcə də ədəbi mühitin!) sıxıntıları, ona olan təzyiqlər, qarşılaşdığı çap problemləri, ideoloji baryerlər və s. açıq şəkildə göstərilir. Prof. Q.Kazımov yazıçının əsərlərini təhlil edərkən belə bir doğru qənaətə gəlir ki: "Vidadi Babanlı və qəhrəmanlarını dövrün mühüm problemləri düşündürür: ekologiya məsələləri, bədnam 37-ci il, elmi-texniki tərəqqinin xeyirli tərəfləri ilə bərabər gətirdiyi bədbəxtliklər, insan mənəviyyatına vurulan zərbələr... Vidadi Babanlının cəmiyyətin qəlbindəki dəhşətli yaralar düşündürür, o, bu yaralara məlhəm axtarır, onları yox etmək, əritmək, kəsib atmaq üçün çarələr araşdırır, təbiətin özündə, onun saflığında, gülündə, çiçəyində arayır. Yazıçı bəzən məcazi yaralarla konkret bəlaları birləşdirir, ictimai bəlaların konkret təzahürlərini cərrah bıçağı ilə yox etmək istəyir" (5).Bu fikirləri eynilə hər iki yazıçının yaradıcılığına aid etmək olar. Maraqlıdır ki, hər iki yazıçı özlərinin sənədli-bədii, avtobiqrafik əsərlərində məhz bədii əsərlərində qoyduqları problemləri təsdiq etmiş olurlar. Yəni hər iki yazıç bədii-sənədli əsərlərində qoyduğu problemlər bədii düşüncədə də əks etdirilir. Bu mənada S.Azərinin "Tələbə məhbusun etirafları" və V.Babanlının "Gizlinlər" romanları həm də avtobiqrafik nəsr əsərlərinin formalaşmasında mühüm rol oynayır. Bu əsərlərdə dövrün bütün ideoloji meyilləri, ictimai-siyasi ziddiyyətləri, ədəbi prosesin mürəkkəblikləri, yazıçının, sənətkarın qarşısına çıxan problemlər bütün reallğı ilə təsvir edilmişdir. Nəzərə alsaq ki, Anarın, Elçinin də bu cür avtobioqrafik səciyyəli əsərlərində də həmin dövr hadisələri bu və ya digər şəkildə təsvir edilmişdir, onda dövrü, mühiti öyrənmək çün bu cür əsərlərin əhəmiyyəti bir daha artmış olur.

Ədəbiyyat

1. Azəri Sabir. Tələbə məhbusun etirafları. Bioqrafik sənədli roman. Bakı, 2007, 250 s.
2. Babanlı Vidadi. Gizlinlər (Gerçək roman). Bakı, 2005, 315 s.

3. T.Orucov. Tufanlardan keçən ömür. Azəri Sabir. Tələbə məhbusun etirafları. Bioqrafik sənədli roman. Bakı:"Çaşıoğlu", 2007, s. 3-4
4.B.Əhmədov. Repressiya və ədəbiyyatı. http://www.avanqard.net/index
5. Q.Kazımov. http://www.qkazimov.gen.az/arxiv/senet.htm

Ш.Нухова

Проблемы изображения советской реальности в документально-художественной прозе С.Азери и В.Бабанлы

Резюме

В статье исследуются проблемы изображения советской реальности в документально-художественной прозе в творчестве С.Азери и В.Бабанлы. Отмечается, что среди писателей прозы шестидесятых С.Азери и В.Бабанлы были писателями, которые подвергались давлению существующего режима. Арест С.Азери во времена студенчества за критику правительства, партийное наказание В.Бабанлы за роман «Когда молчит совесть» показали, в каких условиях продолжалась их литературная деятельность. В романе С.Азери «Признания студента-заключенного», В.Бабанлы «Секреты» анализируются события 30-50-х гг. прошлого века и делаются определенные выводы

Sh.Nukhova

The problems of description of soviet reality in S.Azeri and V. Babanli`s documentary-fiction prose

Summary

The problems of description of Soviet reality in S.Azeri and V. Babanli`s works are investigated in the article. Note that S.Azeri and V. Babanli are writters who exposed to the pressures of the current regime. S.Azeri`s arrested for criticizing the leadership of the country while still a student, V. Babanli`s sentenced to party for his novel “When the conscience keeps silence” are shown the literary process is continued in which period.

The events of 30-50 years of the last century are analyzed in S. Azeri`s “The student prisoner`s confessions”, V. Babanli`s “The secrets” and come to certain conclusions.

Rəyçi: Bədirxan Əhmədov
Filologiya elmləri doktoru, p rofessor

NİGAR ŞAŞQAYEVA
Azərbaycan Dillər Universiteti
sh.nigar@hotmaill.ru

C.M.KUTZEE YARADICILIĞINDA AZAD İNSAN İDEALININ BƏDİİ ƏKSİ

C.M.Kutzeenin "Rüsvayçılıq" romanı əsasında

Açar sözlər: C.M.Kutzee, multikulturalizm , tolerantlıq,Afrika həyatı, ağdərililər, qaradərililər, Devid Luri,Melani,Lüsi.
Key words: J.M.Coetzee,multiculturalism,tolerance,life in Africa, the white-skinned,the black-skinned, David Lurie, Melanie,Lucy
Ключевые слова: Д.М.Кутзее, мультикультурализм,толерантност, жизнь в Африке,белокожие,темнокожие, Девид Лурье, Мелани, Люси.

Müxtəlif mədəniyyətlərin, sivilizasiyaların, dillərin, dinlərin əlaqələrini dərinləşdirən və genişləndirən qloballaşma prosesi həm ölkədaxili, həm də beynəlxalq aləmdə çoxmədəniyyətlilik siyasətinin dəyərini artırır. Eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin malik olduqları dəyərləri, onların haqlarını,hüquqlarını qəbul edən və qoruyan multikulturalizm humanist dünyagörüşə uyğun olaraq aparılan pozitiv bir siyasətdir.Azərbaycan da ali dəyərlərə malik bir ölkə kimi öz dövlət siyasətində bu məsələlərə xüsusi diqqət yetirmişdir. Belə ki, ümumimilli liderimiz, ulu öndərimiz Heydər Əliyev "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirərsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir."**(5)** fikrini öz məqsədyönlü dövlət siyasətində həmişə əsas götürmüşdür.

Bu siyasəti uğurla davam etdirən və " Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir" deyən Respublika prezidenti cənab İlham Əliyev isə 2016-cı il 11 yanvar tarixli sərəncamla 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etdi. Bu sərəncama uyğun olaraq elm, təhsil, mədəniyyət və digər sahələrdə xüsusi tədbirlər planı hazırlandı və həyata keçirildi. Fikrimizcə, ali məktəblərin uyğun fənlərinin istər tədris proqramlarına, istərsə də buraxılış işlərinə daxil edilən multikulturalizmlə bağlı mövzular həmin tədbirlərin uğurlu davamıdır.

Həqiqətən də " Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub,bu gün isə milli kimliyindən,dilindən,dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib".**(1,37).**

Əsərlərində multikultural dəyərləri əks etdirən və Azərbaycan oxucusuna təqdim olunan dəyərli, mükəmməl, azadlıq ruhlu ədiblərdən biri də Cənubi

Afrika yazıçısı Con Maksvel Kutzeedir. Keçən əsrin 80-ci illərində əsərləri ilə nəinki yaşadığı məkanda, hətta beynəlxalq ədəbi aləmdə diqqət çəkən, naşirlərin çap üçün romanlarına müraciət etdiyi, tənqidçilərin daha maraqlı qeyri-adi fikir obyekti tapdığı Kutzee öz daxili "Mən"inin istəyini, göstərişini hər şeydən öndə tutan bir qələm sahibidir. Onun yaratdığı obrazlar əzilən,acıyan, qane olan, yaşananları "taleyin qisməti" adlandıran insanlardır.Bir çox tənqidçilərin fikrincə, Kutzeenin ilk romanı olan "Alatoran torpaqlar"-ın nəşri ilə postmodernizmin sərhədləri Afrikaya qədər genişlənib. **(2)** Onun əsərlərində vətəni Cənubi Afrikadakı aparteid dövrünə münasibət bu və ya başqa formada öz əksini tapır. (Bu söz Afrika dilində "ayrılıq" mənasındadır-N.Ş.).

Cənubi Afrika Respublikasında 1948-1994-cü illərdə hökm sürən irqi ayrıseçkilik belə adlandırılmışdır.Uzun zaman ağların idarə etdiyi bu ölkədə qaralara qarşı göstərilən ayrıseçkilik münasibəti 1948-ci ildə keçirilmiş seçkilərdən sonra daha dözülməz oldu.1958-ci ildən sonra isə qanunlarla möhkəmlənən bu sistemdə qaradərililərin ağlardan fərqli olaraq öz vətəndaşlıq hüquqlarından yetərincə faydalana bilməsinə səbəb oldu.Qaradərililər dövlətin təmin etməli olduğu təhsil,səhiyyə,mədəniyyət və digər sosial xidmətlərdən məhrum olunmuş vəziyyətdə idilər. Bunlar isə bu məhrum insanların üsyana qalxması üçün tutarlı səbəblər idi.Nelson Mandelanın hakimiyyətə gəlməsi ölkəni bu vəziyyətdən xilas etdi. Onu da qeyd edək ki, bu vəziyyətə münasibət yazıçının yaradıcılığının ilk dövrlərində elə də kəskin şəkildə bildirilməsə də, sonralar getdikcə bir qədər fərqlənsə də,heç vaxt açıq-aydın mübarizə şəklini almamışdır.Çünki Kutzee siyasətçi, özünün və vətəninin azadlığı uğrunda mübarizəyə qalxan bir mübariz deyil, yaşadığı zamanı və məkanı dərindən dərk edən insanlara, cərəyan edən hadisələrə bədii dəyər verən yaradıcı insandır.Özünün də dediyi kimi "Bizim dövrümüzdə yazıçı,institutsional imkanlardan asılı olmadan mənəvi dünyamızı hakimiyyəti altına alan kəsdir". **(3)** Ona görə də Kutzeenin qəhrəmanlarının ideal "Mən"i, onların real "Mən"inə qalib gələ bilmir.Onun özünün söylədiyi kimi "Mən cəmiyyətin xəbərçisi deyiləm.Mən (bütün zəncirlənmiş insanlar kimi) azadlığı xatırladır və zəncirlərindən qurtulub, üzlərini günəşə çevirən insanların obrazlarını yaradıram" fikri öz təsdiqini tapır.

1991-ci ildə Nobel mükafatının təsis olunmasının 90 illiyi mərasimindəki çıxışında İ.Brotskinin Kutzee haqqında dəyərli fikirlər söyləməsindən 12 il sonra-2003-cü ildə İsveç akademiyası C.M.Kutzeeni "əsərləri gözəl kompozisiya,dərin təhlil və gərgin dialoqlarla zəngin olduğu üçün" Nobel mükafatına layiq gördü. Bu mərasimdə yazıçı başqalarından fərqli olaraq nə ənənəvi çıxış etdi, nə təşəkkürünü bildirdi, nə də özü haqqında danışaraq gələcək yaradıcılıq planları barədə məlumat verdi.Mərasim

iştirakçılarının dinlədiyi Kutzeenin gələcək romanından bir fəsil oldu ki, burada o, "Robinzon Kruzo"ya üz tutdu.

Kutzeenin 1974-1999-cu illər ərzində oxuculara təqdim etdiyi romanlarda güclü psixologizm özünü göstərir.Onun yaratdığı obrazları birləşdirən əsas cəhət əsasən "qədərinə qane olmaqdısa", fərqlilik bu münasibətlərin rəngarəngliyidir.Belə ki, yazıçı köləliklə könüllü tabeliliyin arasında fərqləri göstərməyə çalışır.Onun fikrincə köləlik insanı alçaldır,könüllü itaət isə insanın öz üzərindəki zəhmətinin nəticəsidir.İnsan nə qədər tarixdən kənarda yaşamağa çalışsa da tarixdə baş verənlər ona bu və ya digər dərəcədə təsir göstərir. Çünki insan yaşadığı tarixin bir parçasıdır.Biz bunu Kutzeenin həm həyatında, həm yaradıcılığında müşahidə edirik.

Müəllifinə ikinci dəfə Buker mükafatı qazandıran (1999-cu il-N.Ş.) "Rüsvayçılıq"romanında Kutzee irqi ayrıseçkilik siyasəti ilə vidalaşan Cənubi Afrikanın müasir həyatının bədii əksini verir. O,bu əsərdə müstəmləkə rejimi yaşanan ölkələrdə,xalqın maarifləndirilməsi, milli-mənəvi dəyərlərin yaşadılması baxımından ziyalı təbəqəsinin-müəllimlərin,elm adamlarının üzərinə düşən vəzifələri açıqlamağa, anlatmağa çalışır.

Romanın baş qəhrəmanı Devid Luri öz qazancının,xasiyyətinin,emosional imkanlarının dar çərçivəsində yaşayan bir şəxsdir.Onun beyni sanki axmaq,möhtac,köhnə fikirlərin toplandığı bir sığınacaqdır.O, hesab edir ki,daha xasiyyətini dəyişə bilməz.Çünki onun artıq 52 yaşı var,həyatın çox üzünü görüb və belə formalaşıb.Onun fikrincə,"insanın bir skeletini,bir də xasiyyətini dəyişmək müşkül məsələdir".**(4,203)**

Lakin nəzərə alsaq ki,insanın yaşı artıqca,müəyyən xəstəliklər keçirdikcə onun başına gələn hadisələr skeletini və xasiyyətini müəyyən qədər dəyişir.Kutzeenin yaratdığı Devid obrazının öz köhnə fikirlərindən ayrıla bilməməsinin bir daha şahidi oluruq.O,tərəddüdlər içərisində yaşayan bir şəxsdir.Həyatında çox qadınlar olub onun.Lakin onlardan hər hansı birinə məhəbbəti və yaxud sadəcə bağlılığı olduğuna belə tərəddüd edir.

Əvvəllər Keyptaun (Capetown) şəhərində müasir dillər üzrə professor olan Luri öz vaxtının daha çox hissəsini "ünsiyyət bacarıqları" və "qeydiyyatdan asılı olmayaraq ildə bir dəfə təşkil edilən xüsusi sahə kursları"nı tədris etməyə ayırır.Luri yorğun vücudunu rahatlaşdırmaq üçün gənc qaradərili teatr tələbəsi Melani ilə əlaqə quraraq tanrı Erosun könlünü almağa çalışır.

Məlumdur ki,kainatda baş verən hər növ fəaliyyətin əsasında Eros və Tanatos adlandırılan bir-birinə zidd olmaqla yanaşı, həm də bir-biri ilə vəhdət təşkil edən iki başlanğıcın mübarizəsi dayanır.Eros yaşam, Tanatos ölüm hissidir və daima bir-biri ilə mübarizədədilər.Erosa öz mövcudluğunu qoruyub saxlamaq tələbatını yəni,fizioloji tələbatları aid etmək olar.Tanatosa

isə aqressivlik, sadizm, mazaxizm,özünəqəsd və s. bu kimi hislər aid edilir.Orqanizmin xaos halı əsəbi,gərgin,qeyri-taraz vəziyyətdir . Xaos halının yaranmasının əsas səbəbi isə Eros hislərinin tam ödənilə bilməməsidir.Bunun başlıca səbəbi isə praktiki olaraq imkansızlıq və cəmiyyətin qoyduğu əxlaqi,mənəvi normalardır ki, buna qarşı çıxmaq ağır nəticələr doğurur.Bu kimi ağır nəticələrin professor Devid Lurinin azadlığa doğru irəlilədiyi yolda şahidi oluruq."Rüsvayçılıq" əsərində biz bəyaz irqçi üstünlüyün hökm sürdüyü Cənubi Afrikanın digər ağdərili insanlarının,eləcə də qəbiləlik tərəfindən dəyişdirilmiş qaydaların şahidi oluruq.Bununla belə romanın narahatlıq doğuran rüsvayçılıq səhnələrinə baxmayaraq, hadisələrin gedişatında rüsvayçılığın bitdiyini görürük.Bununla Kutzee ruhumuzdakı,azadlığımızdakı metafiziki inamları itirmədiyimizi bizə göstərir. Qızı Lusinin günorta çağı 3 oğlan tərəfindən təcavüzə məruz qaldığı vaxt Petrusun gözdən itməsi oxucuların diqqətindən yayınmayan məqamlardan biridir.-Petrusun məzlum Lusini təhrik etməsi,hamiləliyini ona məcburi şəkildə qəbul etdirməsi və yerdə qalan digər torpaqlarına nəzarəti ona təhvil verməsi bir növ əvvəlcədən planlaşdırılmışdı.Bu plan məhz Petrus tərəfindən düşünülmüşdür.Lusi elə bir psixoloji durumda idi ki,3 nəfərin ona etdiklərini nə etiraf , nə də qəbul edə bilirdi.Hadisə zamanı olub-keçəni qızından eşitmək istəyən Luri heçnə əldə edə bilmir, ata və qızın dialoqları heç də uğurla nəticələnmir. Lusinin sakitliyinin başqa bir səbəbi var idi.Ləğv edilmiş bütün iddialar ya onun şəxsiyyəti, ya da torpağı üzərindən doğrulana bilərdi.Məhz bu səbəbdən o, torpağını Petrusa vermək şərti ilə onun himayəsini qəbul edir. Bununla isə biz sadəcə əsərin sonunu deyil, eyni zamanda qəbilə entropiyası tərəfindən aradan qaldırılan irqi bərabərsizliyin insan imkanlarına təsirinin aydın sonunu görürük.

Lurinin dünyası erotik yönümlüdür.O, özünü qadınların vurğunu, qadın sevgisi ilə alovlanan,qadınlar tərəfindən yüksəldilən bir kişi kimi xarakterizə edir. O, şəxsiyyətinin,pulunun,mövqeyinin gücünü istifadə etməyə meyillidir.Luri qadın həyatından xaric olan, öz həmcinsləri ilə bədənini paylaşanların qadınlıqdan uzaq olduğu qənaətində olsa da, zaman-zaman kişilərlə dərin əlaqələrinin olması ilə bağlı təcridlərdən hiddətlənirdi. Onun ilk cəhdi Melaninin atası ilə əlaqəlidir və bu bir kişi ilə dostluq etmək arzusundan daha çox Melaninin gözəlliyinin qaynağı ilə əlaqədar aparılan araşdırmalar ilə bağlıdır.

Atasından fərqli olaraq qızı Lusi isə sadəcə yalnız qalmaq,kişilər tərəfindən tərk edilmək istəyir.Lusi kişiləri cəlb edən cazibədarlığını artıq itirmişdir. O, qaradərili və ağdərililər şəxsində atası və Petrus arasında barış yaratmaq üçün fədakarlıq edir və təcavüz sonrası Petrusun qorumasını,eləcə də formal olaraq üçüncü arvad statusunu qəbul edir. Kişilərin bu qoruma sərbəstliyi şərqi Keypi əhatə edən kişi zorakılığına qarşı özünümüdafiənin

imkansız olduğunu təsdiq edir.Petrusun motivlərinin romanda həqiqətən aydın olmağına baxmayaraq, indiyə qədər romanla bağlı dərc olunmuş çox az sayda kitabda bu hələ də ortaya çıxmamışdır.Çünki tənqidçilər onlarla üzləşməkdən imtina edir. Lurinin dediyi kimi:"Həqiqi inam antropologik bir şeydir".

Petrusun əxlaqsız və uğurla nəticələnən qeyri-əxlaqi davranışları Cənubi Afrikanın nizamsız yaşayış məntəqələrində ağdərililərin istilası və Petrusun istismarı ilə yaradılmış imkanların necə sıradan çıxdığını göstərir.Petrusun xüsusilə öz qohumu (qaynı) ,sadə lakin zoraki xasiyyətli Polluxdan istifadə edərək Lusiyə qarşı şiddət göstərir.

Petrusun Cənubi Afrika kəndlərinin gələcəyini təmsilçisi olduğu halda,Melani şəhərin gələcəyini təmsil edir.Melani romanda, həqiqətən, müəmmalı olan yeganə əsas xarakterdir.Melaninin professoru ilə gördüyü iş onu Keyptaunda özü üçün qurduğu həyatı məhv etməklə təhdid edir , universitet və teatrdan ayrılmağına baxmayaraq, hələ də Luri tərəfindən amansızcasına şiddətə məruz qaldığını görmək onun üçün çox çətin idi.Bu isə Luridən ayrılmaq üçün olduqca inandırıcı səbəb idi.Melaninin hərəkət-lərini başa düşəcək qədər Kutzee informasiya vermir və biz Melaninin yalnız Lurinin prizmasından görürük.Bu prizma Melaninin həyatının mənasını dərk etməkdə yardımçı olan yaş,irq və mədəni vasitələr tərəfindən uzaqlaşdırılıb.Buna baxmayaraq o sağalır,təhsilini bitirir,öz səhnəsi üzrə işini davam etdirir. Son illərdə Petrus və Melani motivləri Cənubi Afrikanın müstəmləkəçi dünyasına bir yeniliyin gələcəyi ümidini verir.

İrqi səbəblərdən Petrus və Melaninin ağdərililərin müsibətinin yenidən canlanmasına gətirib çıxara bilən izləri öz-özlərinə yarada bilməsi mümkün deyildir. Petrusu Afrikanın ağdərili insanlardan ibarət olan qəbilələrindən fərqləndirən əsas cəhət onu irqçilik vasitəsilə məhdudlaşdırma və ya öz dəyərlərinin məhv olması ilə təhdid etmək cəhdinin mümkünsüz olması idi. Ümumiyyətlə,Petrus Cənubi Afrika kənd yerlərinin sərhədlərinin mirasçısıdır.

Universiteti tərk edərək qızının yanına gələn Luri son olaraq əziyyətsiz ölüm rolunu yerinə yetirdiyi üçün Bev Şouya kömək edərək dünya ilə müxtəlif əlaqələr qurur.Lurinin öz ölümünə yaxınlığını qəbul etməsi ona itlərə bir növ emosional qayğı göstərməsinə imkan yaradır.O, Soraya və Melani ilə olan əlaqələrində əldə edə bilmədiklərini itlərə qayğı göstərməklə kompensasiya edir və bununla yaranmış boşluğu doldurmağa çalışır.Lurinin itlərə sevgi adını verməsi də təsadüfi deyildir.Sorayanın məxfiliyi və Melaninin gəncliyi Lurinin digər qadınlarla yaratdığı əlaqənin qarşısını alır. İtlərin qaçılmaz ölümü isə Lurinin gerçək duyğularını üzə çıxarır. Belə ki, itlərə yönləndirilmiş bu sevgi Luriyə roman boyunca yetərli olmayan bağlılıq hissini bərpa etməyə imkan yaradır və bu da öz növbəsində, onların

şəraitlərinin ağırlığını həqiqətən başa düşə biləcək Bev Şou ilə əlaqə qurmasını gerçəkləşdirir.

Kutzee öz romanını Lurinin özü ilə bir bağ qurduğu şikəst bir itin öldürülməsinin qarşısını ala bilməyəcəyi səhnə ilə yekunlaşdırsa da bu səhnə Lurinin cəmiyyət ilə yenidən birləşməsini təsdiq edir.

Ədəbiyyat

1.Kamal Abdullayev. Azərbaycan multikulturalizmi bu gün:Portuqaliyadan İndoneziyayadək... Multikulturalizm jurn.,(ədəbi-bədii,elmi-publisistik jurnal), 2016,№-1.

2.Cavid Zeynallı.Con Maksvel Kutzee mifi. "Ədəbiyyat" qəzeti 2014, 25 aprel.

3."İsveç Akademiyasının qərarını şərh etmək mənə yaraşmaz".İngilis dilindən tərcümə edən:Elcan Salmanzızı. "Ədəbiyyat" qəzeti 2014, 25 aprel.

4. Con Maksvel Kutzee.Seçilmiş əsərləri. Bakı,"Şərq-Qərb",2010.

5..http://www.azerbaijan-news.az/index.php?mod=3&id=45058

Nigar Shashgaeva

Artistic reflection of free human ideal at the works of J.M.Coetzee

Based on "Disgrace" novel by J.M.Coetzee

Summary

In the article multiculturalism is described as a state policy. It is stated to appear as an unchangeable lifestyle in the modern Azerbaijani society. Preservation of multicultural traditions by Azerbaijani people with the leadership of the national leader Heydar Aliyev is discussed. The continuation of this by the current president Ilham Aliyev is reflected by the precious facts. It is mentioned that this attitude has its positive effect in the literature as well as some other fields. From this point of view, the information is given about the artwork of the Southern Africa writer J.M. Kutzee. His Disgrace novel is mainly referenced. In this novel, artistic reflection of attitude against to racism in a society is brought to attention. The main character of the novel Devid Lurie's main traits is introduced to the readers. The characters of Lucy and Melanie also involve interest. Also the behavior of Petrus doesn't remain out of attention. Kutzee creates a clear image of the racial discrimination in this novel.

Нигар Шашгаева

Художественное отражение идеала свободного человека в творчестве Дж.М Кутзее

На основе “Бесчестье” романа Кутзее

Резюме

В статье говориться, что мултикултурализм является государственной политикой. Он проявляется как изменение образа жизни в современном азербайджанском обществе.Говориться о защите мультикультурных традиций азербайджанского народа под руководством общенационального лидера Гейдара Алиева.В настоящее время продолжение и развитие со стороны президента Республики господина Ильхама Алиева отражены на письме с фактами.В то же время говориться о положительном влиянии этой связи на литературу как и многим областям.В связи с этим, даётся информация в творчестве писателя ЮАР Кутзее.За главное берется его роман "Бесчестье". В романе сосредотачивается художественное отражения отношения расизма в обществе.Читателю представляются особенности характера главного героя романа Девида Лури.В романе интересны образы Люси и Мелани.Поведения Петруса не остаются без внимания.Кутзе создает в романе четкое представление о расизме.

Rəyçi: Ülviyyə Əliyeva
filologiya üzrə fəlsəfə doktoru

İRADƏ YUSİFOVA
AMEA-nın Nizami adın Ədəbiyyat İnstitutu
irada.yusifova@list.ru

MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOVUN "İNSANIN TALEYİ" ƏSƏRİ AZƏRBAYCAN DİLİNDƏ

Açar sözlər : Şoloxov, humanizm, tərcüməçi, orijinal, ədəbiyyatda yeni obraz, aktual
Ключевые слова: Шолохов, гуманизм, переводчик, оригинал, новый образ в литературе, актуалный
Keywords: Sholokhov, humanism**,** translator, original, a new character in literature, actual

Çoxmillətli sovet ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Mixayil Aleksandroviç Şoloxovun yaradıcılığı böyük bir sənət məktəbi olmuşdur. O dövrün məhşur yazıçıları bu məktəbdən səmərəli şəkildə faydalanmışdılar. Azərbaycan Sovet ədəbiyyatının püxtələşməsində rus-sovet ədəbiyyatının Maksim Qorki, Vladimir Mayakovski, Aleksandr Fadeyev kimi yazıçıları ilə yanaşı Şoloxovun da müsbət təsiri olmuşdur. M. Şoloxovun yaradıcılığı Azərbaycan yazıçılarına həyatı inqilabi ruhla əks etdirməyi, yeni tipli inqilabi qəhrəmanların və qurucuların canlı surətini yaratmağı, yaradıcılığı xalqın gündəlik mübarizəsi ilə bağlamağı öyrətmişdir.

M.Şoloxovun əsərləri xalq kütlələrinin inqilabi-ictimai şüurunun daha da artıb inkişaf etməsində, onun forma və məzmununun dəyişməsində, bədii-estetik fikrin daha da kamilləşməsində çox mühüm təsir vasitəsi olmuşdur. Onun sənətkarlıq qüdrəti bir də ondadır ki, yazıçının əsərləri müasir oxuculara bədii idrakın mürəkkəb sahələrinin, gerçəkliyin sənətdə obrazlı inikası yolları və formaları ilə yaxından tanış olmaq imkanı vermişdir. Şoloxov yaradıcılığı Azərbaycan Sovet romanının bütün inkişaf mərhələləri üçün səmərəli və faydalı olmuşdur. 30-cu illərdən başlayaraq bir sıra Sovet yazıçılarının əsərlərinin, o cümlədən M. Şoloxovun "Sakit Don" və "Oyanmış torpaq" romanlarının Azərbaycan dilinə tərcümə olunması o zamanki ədəbiyyat tarixi üçün əlamətdar hadisə hesab olunurdu.

Görkəmli ədib M.A.Şoloxov deyirdi: "Yazıçının xalq qarşısında məsuliyyəti olduqca böyükdür, olduqca böyük. Biz hamımız birlikdə və hər birimiz ayrı-ayrılıqda xalqın vicdanı olmalıyıq. Odur ki, cavan dostlar,mənim sizə sözüm belədir: cavan müəllif üçün heç də həmişə asan keçmir, - düzünü dəmək lazımdır, çox vaxt çətin keçir,-ancaq yenə də ətraflı düşün-

mədiyinizi deməyin. Elə bir kitaba həyat sərf etmək lazımdır ki, onun sədası çıxsın və uzun ömürlü olsun.

Yaradıcılıq məsələləri barədə hərarətlə, ehtirasla danışmaq lazımdır. Gərək yaradıcılılığı öz ürəyinə yaxınlaşdırasan və bizim bu çətin peşəmizi hərarətlə sevəsən. Sizə bir daha xatırladıram: İlk vaxtlar nə qədər çətin olsa da, yüngül müvəffəqiyyət arxasınca qaçmayın."(1)

Şoloxov əsərlərinin Azərbaycan oxucularına çatdırılmasında xüsusilə C.Cahanbaxşın, H.Şərifin, B.Musayevin, Ə.Abbasovun xidmətləri xüsusi ilə qeyd olunmalıdır. Öz yazı və məqalələrində Məmməd Arif,Mir Cəlal Şoloxov yaradıcılığına tez-tez müraciət etmişlər.Mir Cəlal "Bədii nəsrimiz yeni mərhələdə" məqaləsində yazırdı ki, "Şoloxovun "İnsanın taleyi" hekayəsinin cazibəsi və üstünlüyü hər şeydən əvvəl, həyat həqiqətinin dürüst, qabarıq əks etməsində deyilmi?"Bu sözlərlə Mir Cəlal oxucunun diqqətini Şoloxovun yüksək sənətkarlığına cəlb etməyə çalışır. "Sovet xalqlarının böyük ədibi" məqaləsində də M.Cəlal, M.Qorki ənənələrinin dəvamçısı kimi Şoloxovun yaradıcılığını yüksək dəyərləndirmişdir.

Şoloxovun yaradıcılığını dərindən öyrənən,bu yaradıcılığa böyük məhəbbət və ehtiram bəsləyən,ondan sözün əsl mənasında qidalanan yazıçılardan biridə Süleyman Rəhimov olmuşdur.

Görkəmli tənqidçimiz Məmməd Arif yazırdı: "Süleyman Rəhimov sovet romanının ən yaxşı nəaliyyətlərindən istifadə etmişdir. Bir sənətkar kimi Şoloxovu yüksək qiymətləndirərək demişdir": Mən yaxşı bilirəm ki, Şoloxov zəmanəmizin ən böyük yazıçısı,sənətkarıdır". (2)

M.Şoloxovun həqiqətpərəstliyi, varlığı bütün tipik ziddiyətləri ilə canlandırmaq hünəri, sərt və heyrətamiz, gərgin şəraitdə yaşayan surətlər, xarakterlər yaratmaq məharəti onun yaradıcılılığını səciyyələndirən xüsusiyyət kimi ədəbiyyatşünaslıqda öz təsdiqini tapmışdır. Şoloxov nəinki başlıca qəhrəmanlarını, bəlkə də bütün xalqı onun həyatının ən kəskin, ən təlatümlü vaxtında, həlledici tarixi keçid mərhələsində, ictimai quruluşun ölüm-dirim məsələsi həll olunan qəti sınaq illərində təsvir edir. Buna görə də onun yaradıcılığında insanın, ailənin taleyi, xalqın taleyi, cəmiyyətin, dövlətin və ictimai quruluşun taleyi başlıca problem kimi diqqət mərkəzində durur.

M.Şoloxovun dünya şöhrəti qazanmış "İnsanın taleyi" əsəri Böyük Vətən müharibəsi illərində sovet adamının əfsanəvi qəhrəmanlığının qələbə naminə məruz qaldığı çətinliklərin və məşəqqətlərin bədii salnaməsidir.

Bir çap yarım vərəqlik "İnsanın taleyi" əsərini dərin lirizmi, incə psxologizmi, sözlərin canlılığı və təravəti ilə mətin, mübariz insanların keşməkeşli talelərindən yoğrulmuş poema da adlandırırlar.

Görkəmli tərcüməçilərimizdən Cahanbaxş Cavadzadə, Əyyub Abbasov, Beydulla Musayev,Hüseyn Şərif , M.Mirkişiyev görkəmli ədibin

əsərlərini Azərbaycan dilinə tərcümə etmişlər.Bu tərcümələr Azərbaycan ədəbi prosesinin inkişafında əhəmiyyətli rol oynamışdır.

Tanınmış tərcüməçilərimizdən biri olan Beydulla Musayev 1959-cu ildə bu hekayəni Azərbaycan dilinə tərcümə etmişdir.

Oxucularımız Beydulla Musayevi L.Tolstoyun, M.F.Dostoyevskinin, H.V.Qoqolun, M.Y.Saltıkov-Şedrinin, V.Hüqonun, R.Taqorun və başqa sənətkarların əsərlərinin tərcüməçisi kimi tanıyırlar. O tərcümə etdiyi mətnin nəinki ideya xəttini, həm də orijinalın bədii xüsusiyyətlərini oxucuya çatdırmaq üçün dilimizdəki adekvat sözlərdən və ifadələrdən səylə, bacarıqla istifadə etmişdir. Onun bu bacarığı M.Şoloxovun "İnsanın taleyi" hekayəsinin Azərbaycan dilinə tərcüməsində də özünü göstərir. Bu tərcümə dilinin canlılığı, təravəti ilə yanaşı, üslub rəngarəngliliyinə və obrazlılığına görə də seçilir. Əsərin baş qəhrəmanı Andrey Sokolovun və digər qəhrəmanların dili azərbaycanca təsirli və dolğun ifadə olunmuşdur.

Bütün bunlar tərcüməçinin orijinala diqqətlə və yüksək məsuliyyətlə yanaşmasının nəticəsidir.

Orijinalın üslubunu qoruyub saxlamaq tərcüməçinin əsas vəzifələrindən biridir. Bildiyimiz kimi üslub əsərin dilində,intonasiyasında,elecə də obrazlılığında və.s. keyfiyyətlərdə özünü göstərir. Bütün bunlar bir-biri ilə sıx əlaqədar olub, əsərin ideya-bədii xüsusiyyətlərinin harmonik vəhdətini yaradır.

Təəssüf ki, hekayənin tərcüməsində orijinalın üslubu baxımından bir sıra təhrifə yol verilmişdir. "İnsanın taleyi" hekayəsi orijinalda canlı danışıq dili ilə seçilir, yeri gəldikcə burada müəyyən vulqarizm, ixtisasla bağlı sözlər və ifadələr də istifadə olunur. Andrey Sokolovun dilində nağılvari şirinlikdən tutmuş, duzlu və sərt ifadələr də müşahidə edilir. Burada hər söz müvafiq üslub düzümünə malikdir.

Beydulla Musayev tərcüməsində müəllifin üslubunu ,əsasən, saxlamışdır.

Təbiidir ki, Beydulla Musayev "İnsanın taleyi" hekayəsinin Azərbaycan dilinə tərcüməsində müəyyən nöqsanlara yol verilmişdir, ancaq bu əsərin tərcüməsinin dəyərini heç də azalmamışdır.

Görkəmli ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Pənah Xəlilov "Xalq taleyi və sənətkar" məqaləsində yazırdı: "Şoloxovda insan taleyi mücərrəd ictimai-fəlsəfi problem deyil, o bütün konkret təzahür formalarına malikdir. Ədib insan taleyini iqtisadi, siyasi və ictimai şəraitdən, xalqın mədəni-mənəvi inkişaf səviyyəsindən, sinifli cəmiyyətdə sinfi ziddiyyətdən, bir dövlətin beynəlxalq aləmlə qarşılıqlı əlaqəsindən kənar təsəvvür etmir". (3)

Sözü gedən əsərdə insanın taleyi dedikdə, M.Şoloxov ilk növbədə rus xalqının, rus zəhmətkeşlərinin taleyini nəzərdə tutur. İnsan və cəmiyyətin faciəsinə səbəb olan müharibə və inqilablar Şoloxov yaradıcılığında tam

reallığıyla öz əksini tapmışdır. Əsərdə insan qanının su kimi axıdıldığı müharibələrdə azadlıq, qələbə eşqiylə yanan rus xalqının qəzəbli səsi, intiqam çağırışı yüksəlir. Onun yaradıcılığında konkret tarixi faciələrə nikbin baxış vardır. Bu inqilablarda, müharibələrdə təbii ki, qurbanların olması zəruri bir haldır.

Müharibədən sonrakı illərdə görkəmli ədibi düşündürən əsas mövzu – müharibə mövzusu olmuşdur.M.Şoloxov "İnsanın taleyi" əsərini bu zəruri tələbatın nəticəsi olaraq yazmışdır.

Öz xalqına, ailəsinə, vətəninə möhkəm mənəvi bağlarla sarılmış Andrey Sokolovu da dəhşətli müharibə hər şeydən məhrum edir, yetim qoyur. Müharibə ona da bəla və müsibət gətirir. Faşist təyyarəsindən atılmış bomba Sokolovun evini xarabalığa çevirir, bütün əzizlərini əlindən alır. Lakin bu əzəmətli rusun dizləri bükülmür. O, silaha sarılır, vuruşur, qisas alır, ölümcül yaralanır. Əsir düşür, təslim olmur, tutulur, dəhşətli işgəncələrə məruz qalır. Onun kimi yetim qalmış, müharibədə əzizlərini itirmiş uşağı oğulluğa götürür. Hər ikisinə sağalmaz yaralar vuran müharibə onların iradəsini qıra bilmir. Andrey Sokolov öz əsgəri, insani borcunu yerinə yetirir və vətəninə olan sədaqətini göstərir.

Görkəmli şərqşünas alim, dilçi, tarixçi Yusif Yusifov "Qüdrətli sənətkar" adlı məqaləsində yazırdı: "Klassik və müasir ədəbi məktəbdən daim öyrənən,original yaradıcılıq üslubuna, dərin müşahidə qabiliyyətinə və möhkəm nəzəri hazırlığa malik olan M.A.Şoloxovun hikmətli, geniş əhatəli sənəti haqlı olaraq dünya şöhrəti qazanmışdır. O, zəmanəmizin görkəmli yazıçı vətəndaşıdır,xalqın etimadını doğruldan,etibarını qazanan sənətkardır,misilsiz texniki inqilablar əsrinin əzəmətli ədibidir".(4)

M.A.Şoloxov bu əsərlə ədəbiyyatda yeni əsir obrazı yaratmışdır. Əsərin baş qəhrəmanı Andrey Sokolovu başqa əsirlər kimi işgəncələrlə, zülmlə sındıra bilmirlər. Faşistlər onun qururunu, ləyaqətini alçaltmağa çalışaraq "Rus İvanı" heyvana döndərə, mənəviyyatını məhv edə bilmirlər. Əvvəllər ədəbiyyatda yaranan əsir obrazları satqın, aciz olmaqla yanaşı, düşmənə sirr vermədikləri, qaçmağa cəhd edərkən məhv edilirdi. "İnsanın taleyi" bələləri üçün mənəvi amnistiya olmaqla bərabər göstərdi ki, vətəninə, xalqına məhəbbət, inam və sədaqət, şəxsi ləyaqət hissini hifz etməyi bacaran adam hər bir şəraitdə və ölüb-öldürmədən də qəhrəman ola bilər" (5) - deyə ədəbiyyatşünas Xeyrulla Əliyev əsər haqqında "İnsan haqqında poema" məqaləsində öz mülahizələrini söyləmişdir.

Doğrudan da, görkəmli ədib bu kiçik əsərdə adi bir insanin faciəsini əsrin faciəsi ilə əlaqəli şəkildə göstərmiş, müharibə dəhşətlərinin insanlara gətirdiyi fəlakətlərin acı gerçəkliklərini bədii təxəyyülün gücüylə dolğun göstərməyə çalışmışdır.

Müharibədən sonra Mixail Şoloxov "Pravda" qəzetində bir sıra publisistik əsərləriylə: "Vətən haqqında nəğmə", "Mübarizə davam edir" (hər ikisi 1948-ci ildə dərc olunmuşdur.), "İşıq və zülmət"(1949), "Cəlladlar xalqın mühakiməsindən qaça bilməyəcəklər!" (1950) və.s. "soyuq müharibə" ideoloqlarına qarşı çıxır, gözəl və qüdrətli ana vətənini bütün sevgisiylə tanıtmağa və tərənnüm etməyə çalışırdı. Şoloxovun fikrincə, ancaq xalqın maraqlarına xidmət edən incəsənət yaşamağı haqq edir. "Mən o yazıçılardanam ki,öz qələmimlə heç nədən çəkinməyərək zəhmətkeş xalqıma xidmət etməyi özümə böyük şərəf hesab edirəm". (6) - deyə məşhur yazıçı bu fikri Nobel mükafatı alarkən öz nitqində səsləndirmişdir.

Öz yaradcılığıyla Şoloxov böyük rus klassikləri L.N.Tolstoyun, N.V.Qoqolun, A.P.Çexovun ədəbi ənənələrini davam və inkişaf etdirmişdir. M.Şoloxov rus ədəbi dilini zənginləşdirmişdir. Şoloxov öz sənəti ilə insan hiss və həyəcanlarının bütün rəngarəngliyi ilə göstərmə, faciənin ümidsizliyindən şən yumora keçmə bacarığı ilə öz möhtəşəmliyini bir daha sübut etmişdir. Şoloxovun dünya mədəniyyətində rolu ondan ibarətdir ki, ilk dəfə onun romanlarında dünya ədəbiyyyatı tarixində zəhmətkeş xalqın bütün nümayəndələrinin xarakterləri, həyatlarının ictimai,mənəvi,emosional tərəflərini bütün əzəməti, möhtəşəmliyi ilə göstərməklə əsərlərini dünya ədəbiyyatının ölməz nümunələri sırasına daxil etmişdir. Həyat haqqında hərtərəfli təəssürat yaradaraq, onu müxtəlif aspektlərdə əks etdirərək, Şoloxov yaradıcılığına xas olan üç amilin vəhdətini-insan-cəmiyyət-təbiəti poetik cizgilərlə göstərmək qabiliyyəti onun yaradıcılığının əsas humanist istiqamətlərindəndir. Sovet ədəbi tənqidində tez-tez "Şoloxov məktəbi" anlayışına rast gəlirik. A.Tvardovski SSRİ yazıçılarının III qurultayında öz çıxışında demişdir: "Şoloxov bizlərə "Sakit Don" və başqa əsərləri ilə yanaşı özündən sonragörkəmli Sovet nasirlərinin böyük birməktəbini yaradıb getmişdir…"(7)"İnsanın taleyi" tale haqqında yox, ilk növbədə insanın özü haqqında əzəmətli bir abidədir. İnsan özünü taleyin axarına təslim etmir. Əksinə,öz taleyini özü həll edir,öz taleyinə özü hakim kəsilir. Beləliklə,əsərdə söhbət təkcə Sokolovdan yox, sokolovların tale gərdişinə qarşı mübarizəsindən gedir. Onları məhv etmək olmaz. Onlar dünyanı dağıtmaq, xarabaya çevirmək üçün yox, dünyanı, sülhü qorumaq üçün doğulmuşdur."İnsanın taleyi" əsəri müharibə və müharibə qızışdırıcılarına qarşı yazılmış ən güclü əsərlərdən biridir.

Ədəbiyyat:

1. "Ədəbiyyat və İncəsənət" qəzeti, 24 may, 1975-ci il, səh.3.
2. Vaqif Arzumanov "Şoloxov və Azərbaycan","Azərbaycan gəncləri" qəzeti, 20 may 1975-ciil,səh.2.

3. Pənah Xəlilov “Xalq taleyi və sənətkar”, “Ədəbiyyat və İncəsənət” qəzeti, 24 may, 1975-ci il, səh 2.
4. Yusif Yusifov “Qüdrətli sənətkar”, “Azərbaycan gəncləri” qəzeti,20 may 1975-ci il,səh.2.
5. Xeyrulla Əliyev “İnsan haqqında poema”,”Ədəbiyyat və incəsənət” qəzeti,24 may 1975-ci il,səh.7.
6. “Pravda” qəzeti 11 dekabr 1965-ci il,səh.4.
7. Третий съезд писателей СССР,Стенографич.отчет,1959,с. 202.

Ирада Юсифова

“Судьба человека” М.А.Шолохова на азербайджанском языке

Резюме

В данной статье освещается творческий путь М.А. Шолохова. Речь идёт о его величайшем творении «Судьба человека” и переводе рассказа на азербайджанский язык. Кроме этого даётся оценка некоторых писателей и критиков на творчество М.А.Шолохова.

Особо отмечается большой вклад переводчика Бейдуллы Мусаева произведений М.А. Шолохова на азербайджанский язык. Всё это свидетельствует о творческом, серьёзном отношении Б.Мусаева к своему делу.В настоящее время перевод Бейдуллы Мусаева считается одним из лучших переводов «Судьбы человека” М.А. Шолохова.

Irada Yusifova

Sholokhov's "human destiny" in the azerbaijan language

Summary

This article highlights the creative path M.A.Sholokhov. It is about his greatest creation "Human Destiny" and translation of the story into the Azerbaijani language.And another assessment of various writers and critics on M.A.Sholokhov's work is given.The great contribution of the translator Beydulla Musayev to the works of M.A.Sholokhov in the Azerbaijani language is noticed. All these testify the creative, serious attitude of B. Musayev to his work. At present, the translation of Beydulla Musayev is considered one of the best translations of "Human Destiny " of M.A. Sholokhov.

Rəyçi: lyudmilla Səmədova
filologiya elmlər doktoru

AFƏT İSRAFİLOVA
ADNSU
afet_israfilova@box.az

NİZAMİ GƏNCƏVİNİN AZƏRBAYCAN ƏDƏBİYYATINDA ROLU

Açar sözlər:i ctimai-fəlsəfi, əxlaqi,sülh, humanizm, azadlıq,fəlsəfi, şərqşünaslıq, mütəfəkkir, dünya ədəbiyyatı, mütərəqqi, carçı.
Keywords:sociophilosophical,moral,peace,humanism,freedom,liberity,philo sophically, genius,
orientalism, thinker, world culture, progressive, town crier.
Ключевые слова: социально-философский, нравственный, мир, гуманизм, свобода, философский, гений, ориентализм, мыслитель, мировая культура, городской крик,
свобода

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Lakin Şərq təzkirəçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şerlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şerlər yazmış, sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şerlərində ifadə etmişdir.

Nizami Gəncəvi lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir.Lakin Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 poemadan ibarət "Xəmsə" ("Beşlik") müəllifi kimi daxil olmuşdur. 1177-ci ildə bitirdiyi "Məxzənül-əsrar" ("Sirlərxəzinəsi") adlı ilk poeması şairə böyük şöhrət qazandırmışdır. Qələmə aldığı "Xosrov və Şirin" poemasını 1180-cı ildə bitirmiş və Məhəmməd Cahan Pəhləvana göndərmişdir. Cahan Pəhləvanın ölümündən sonra taxta çıxan Qızıl Arslan Gəncənin yaxınlığında öz çadırında şairlə görüşmüş və onun nəsihətlərini dinləmiş, şairə Həmdünyan adlı bir kənd bağışlamışdır. 1188-ci ildə Şirvan hökumdarı I Axsitan şairə "Leyli və Məcnun" mövzusunda bir əsər yazmağı sifariş etmişdir. Nizami Gəncəvi bundan boyun qaçırmaq istəsədə oğlunun təkidi ilə təklifi qəbul edib az müddətdə "Leyli və Məcnun" poemasını (Şərqdə ilk dəfə) yaratmışdır. 1196-cı ildə Əlaəddin Körpə Arslanın adına "Yeddi gözəl" əsərini, nəhayət, ömrünün sonlarına yaxın bütün ədəbi-estetik, ictimai-fəlsəfi görüşlərini yekunlaşdırdığı "İsgəndərnamə" poemasını qələmə almışdır.Nizami Gəncəvinin ilkin Şərq Intibahının zirvəsi olan yaradıcılığında dövrünün ən

humanist, ümümbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi ideallları parlaq bədii əksini tapmışdır.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Nizami Gəncəvi həm də vətənpərvər idi. O, təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, vətənin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır. Nizami Gəncəvi yaradıcılığında vətən məhəbbəti doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir.

Nizami əsərlərini fars dilində yazmışdır. O, türk dilində yazmamasını "Leyli və Məcnun" əsərində özünə qüsur tutmuş, sonra "Yeddi gözəl"də bu məsələyə bir daha toxunmuşdur:

Dilçə şerimizdə olsa da kəsir,
Mənaca böyükdür ondakı təsir.

NizamiGəncəviGəncədəanadanolub.NizamiGəncəvininyaradıcılığıhümanizm, yüksəksənətkarlığıiləZaqafqaziya, YaxınŞərqxalqları *(fars, tacik, hind, əfqan, kürd, türkmən, özbək, qazax, qırğızvə s.)* ədəbiyyatlarının inkişafına güclü təsir göstərmiş, dünya mədəniyyəti xəzinəsinə daxil olmuşdur.Nizami Gəncəvinin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur.Əsərlərinin nadir əlyazma nüsxələri bir çox şəhərlərin (Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd,Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və s.) məşhur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılır.Gəncədə dəfn olunduğu yerdə Nizami Gəncəvinin möhtəşəm məqbərəsi ucaldılmışdır.

Nizami Gəncəvinin Azərbaycan ədəbiyyatına təsiri dedikdə Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi Nizami Gəncəvinin - Azərbaycan şair və yazıçılarının yaradıcılıqlarına təsiri nəzərdə tutulur. Nizami Gəncəvi, nəinki Azərbaycan ədəbiyyatı tarixində, hətta bütün Şərqdə belə yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Nizamidən sonra yaşamış görkəmli Şərq şairləri əsrlərcə böyük sənətkarın əsərlərindən ilham almış, ondan sənətkarlıq öyrənmiş, onun irəli sürdüyü mütərəqqi fikirlərini tərənnüm edib, şairi böyük ustad kimi xatırlamışlar.

Nizami Gəncəvi dühası·

Gəncəvidən sonra yazıb-yaradan böyük sənətkarların hamısı Nizamini özlərinə müəllim, ustad kimi qəbul etmiş, onun yaradıcılığından bəhrələnmiş və dərs almışlar. Nizami dövründə yaşayıb-yaratmaq və hətta ondan da

əvvəlki dövrdə yaşayan şairlərdən Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Qivami Gəncəvi və Xaqani Şirvani kimi dövrünün tanınmış və görkəmli sənətkarları nəinki Nizaminin səviyyəsinə çatmamış, bəlkə də Nizami istedadı qarşısında lazımınca yüksələ bilməmişlər.Nizamişünas rus alimi, akademik Bertels - Nizamiyə belə qiymət vermişdir: "Nizami, bəşəriyyətin min illərlə düşünüb arzuladığı azadlıq, bərabərlik, sülh, demokratiya, humanizm, qadın azadlığı, əmək vasitəsiylə yüksəliş, doğru-düzgünlük haqqında hamıdan əvvəl və müfəssəl məlumat vermişdir. Biz daha ondan nə istəyə bilərik?". Avropanın ən nəhəng filosof şairlərindən biri sayılan Hote, Nizamini poeziyanın allahı adlandırmışdır. Nizami yalnız şair deyildi, o, dövrünün bütün elmlərini şeirə gətirmiş, ədalət və bəşəri hissləri tərənnüm etmiş, ən əsası insana hörmət və humanizm ideyalarını öz ölməz "Xəmsə" poemalarında açıb göstərməyə nail olmuşdur. Digər tərəfdən dahi şairin rəvan dili və onun şairlik qabiliyyəti buna rəvac vermişdir. Məhz Nizaminin və onun çapında olan digər sənətkarların yaradıcılığına görə XII-XVI əsrlər Azərbaycan ədəbiyyatının Renessans zirvəsi sayılır. "Sirlər xəzinəsi" yaradan şair, bəşəriyyətin sevgi, eşq, mehr, məhəbbət tələbatın ödəmək üçün "Xosrov və Şirin" dastanı yazmaqla belə bir ülviyyətin gərəkli olduğunu vurğulayır. Şərq qadınının dəyanəti, sevgiyə sadiqliyi, onun bütün mərhumiyyətlərə dözməsi məhz "Leyli və Məcnun" əsərində öz təcəssümünü tapır. Nizami özü demişkən indi o, bir yerdə qala bilməzdi, ona görə də atını dünyanın yeddi məşhur ölkəsinə çaparaq "Yeddi gözəl" yaratdı. İndi söz meydanında toppuzunu möhkəm vuraraq öz fəlsəfi fikirlərini "İsgəndərnamə"də demiş olsun. Nizami Gəncəvinin əsərlərindəki öyüd və nəsihətləri bəşər övladı canlandıqca həmişəyaşıl ağacı kimi əbədi yaşayacaqdır. Nizami təkcə Azərbaycan xalqının deyil, ümumbəşəri şair olaraq bəşəriyyətin qəbul etdiyi bir simadır.

Nizamişünaslığın yaranması və genişlənməsi Azərbaycan Nizamişünaslığı XX əsrin əvvəllərindən inkişaf etməyə başlanmışdı. M.M.Axundzadənin "Şeyx Nizaminin qəbri (Gəncə, 1909), F.B.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixinin materialları" (Bakı,1925) kitablarında Nizami yaradıcılığının böyüklüyü diqqəti çəkir. Zaman keçdikcə Nizami yaradıcılığına maraq artır. Belə ki, M.Rəfilinin "Nizami yaradıcılığı" əsəri bu sahədə Nizamiyə elmi yanaşmanın əsasını qoymuş olur. İlk dəfə Şərqdə Demokratik Cümhuriyyətin banisi M.Ə.Rəsulzadənin yazdığı "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" şairin həyat və yaradıcılığını öyrənmək baxımından çox faydalıdır. Əsası odur ki, M.Ə.Rəsulzadə cənabları Nizamiyə Türklük-Azərbaycançılıq prizmasıyla yanaşmışdır. XX əsrin II yarısından etibarən Nizaminin həyat və yaradıcılığını öyrənmək daha kütləvi şəkil almağa başladı. Bu xüsusda dahi şairimizin 800 və 850 illik yubileylərini əhatə etdiyindən buna dövlət səviyyəsində diqqət daha da artırıldı.

Heydər Əliyev 1979 və 1981-ci illərdə iki böyük fərman imzalamaqla Nizami xəmsəsinin yeni tərcümələri üçün sərəncam vermişdir. Bu illərdə Həmid Araslı, Q.Əliyev, Rüstəm Əliyev, A.Rüstəmova, Vaqif Arzumanlı və başqalarının Nizami haqqında daha ciddi işlərə imza atmaları özünü açıq şəkildə göstərmişdir. Azərbaycan Nizamişünaslığı şərti olaraq üçmərhələyə bölünür:

- XX əsrə qədərki dövr.
- XX əsrin 40-50-ci illərini əhatə edən dövr.
- Son dövr.

Bu illər ərzində Nizami yaradıcılığı ilə məşğul olan şair, yazıçı, tərcüməçi, alim kifayət qədər olmuşdur. Lakin bunların hamısına "Nizamişünas" demək doğru olmazdı. Dünya təcrübəsi onu göstərir ki, yalnız bu işlə şərqşünaslar məşğul olsalar, istənilən nəticəni almaq mümkündür. Hər şeydən əvvəl fars dilini nəinki yaxşı, mükəmməl bilmək gərəkdir. Azərbaycanca tərcümədən oxunan Nizami orjinal deyildir. İndiyə qədər olunan tərcümələrdə nöqsanlar kifayət qədərdir.

Şərq ədəbiyyatında Nizami Gəncəvinin təsiri

Şərq ədəbiyyatına Nizami Gəncəvinin təsir qüvvəsi daha bariz şəkildə özünü göstərir. Yüzdən artıq şair Xəmsə yaratmağa çalışsa da, Nizamiyə çatmamışlar. Bunların içərisində böyük özbək şairi Əlişir Nəvainin türkcə (özbək türkcəsi) yazdığı Xəmsə qənaətbəxşdir. Ə.Nəvai dönə-dönə Nizamini özünə layiqli müəllim hesab edir. Şərqdə böyüklü-kiçikli 400-dən artıq "Leyli və Məcnun" adlı dastan, hekayə və məqalə yazılmışdır. Bu da Nizami təsirini aydın şəkildə göstərir.

İran ədəbiyyatşünaslığında elə bir şair, yazıçı, ədəbiyyat tədbirlərində məruzəçiyə rast gəlinməz ki, Nizamidən söz açmasın. İndiyə qədər 500 nəfərdən çox alim Nizami yaradıcılığına baş vurmuş, onun xəmsəsinin ingilis dilində dünyaya yayılmasına nail olmuşdur. XIII əsrin ikinci yarısında Əsfəraində yazıb-yaratmış İzzəddin Həsənoğlu, XIII əsrin axırı, XIV əsrin əvvəllərində yaşayan Nəcməddin Əbubəkr Zərkub Təbrizi və onun müasiri Hümam Təbrizi, Əvhədin kimi şairlər Nizami romantik şerinin ən yaxşı davamçılarından olmuşlar. XIV əsrdə Nizami ədəbi məktəbinin humanizm, dostluq və məhəbbət ideyalarını yeni şəkildə davam və inkişaf etdirən ən görkəmli şairlərdən biri də Şəmsəddin Məhəmməd Əssar Təbrizi (1325-1390) olmuşdur.

XVI əsr Azərbaycan şairlərinin əksəriyyətinin yaradıcılığında sufi və hürufilik fəlsəfi nəzəriyyələrinin bir çox mütərəqqi cəhətləri və ideyaları öz əksini tapmışdır. Bu dövr ədəbiyyatının ən mühüm xüsusiyyətlərindən və aparıcı istiqamətlərindən biri Nizami məktəbinin qiymətli ənənələrinin - humanizm, insana məhəbbət, cəmiyyətdəki eyiblərin tənqidi və b. motivlərin davam və inkişaf etdirilməsi idi. Lakin şeirdə nəsihətçilik, didaktik-tərbiyəvi

motivlər siyasi-ictimai amillərin təsiri ilə fəlsəfi boyalarla tündləşir, sufi-panteistik formalarda təzahür edirdi. Nizaminin poeziyasının tədqiqatçılarından Həmid Araslı, Ələşrəf Əlizadə, Mikayıl Rəfili, Əkbər Ağayev, Mübariz Əlizadə və başqalarını göstərmək olar.

Hümam Təbrizi yaradıcılığının təsiri.

Hümam Təbrizi (1201-1314) də bu dövrün görkəmli ictimai-siyasi xadimi və istedadlı şairlərindən biri olmuşdur. Hümam Təbrizinin "Dəhnamə" ("On məktub") poeması, fars dilində "Divan"ı məlumdur. O öz yaradıcılığında sələfi Nizami Gəncəvi sənətindən xeyli bəhrələnmiş, onu xoş sözlərlə yad etmişdir.

Nəsimi yaradıcılığının təsiri.

İmadəddin Nəsimi – böyük sələfi Nizami Gəncəvidən sonra ədəbiyyatımızda humanizm, insansevərlik ideyalarının alovlu təbliğatçılarından, carçılarından biri kimi tanınmışdır.Nəsimi Nizami Gəncəvinin yaradıcılığından ruhlanaraq şerlərində məhəbbətin aliliyi, həyatabağlılıq, insan gözəlliyi haqqında şeirlər yazmışdır. Hürufiliyə bağlı olmasına baxmayaraq Nəsiminin əsərlərində Nizami lirikası açıq-aydın özünü büruzə verir.

Füzuli yaradıcılığının təsiri.

Nizaminin «Leyli və Məcnun»u öz bədii rəng və təravəti, məntiqi qüvvəsi ilə oxucunu heyran edən qiymətli bir sənət əsəridir. Nizami yaradıcılığından ruhlanan Füzuli də Nizamidən sonra eyni adlı poema yazmışdır. Nizamidən sonra "Leyli və Məcnun" mövzusuna 40-dan artıq şair müraciət etmişdir. Ancaq Füzulinin «Leyli və Məcnun»u bu mövzuda yazılmış əsərlər içərisində ən görkəmli yerlərdən birini tutur. Qarşılıqlı sevgi, mənəvi azadlıq problemləri ilə sıx surətdə əlaqədar olaraq Füzuli «Leyli və Məcnun»unda orta əsrlərdə qadına münasibət məsələsi əsas yerlərdən birini tutur. Füzulinin «Leyli və Məcnun»unda müəyyən dərəcədə sufizm fəlsəfəsinin elementləri vardır. Lakin bu elementlər cüzidir, əsərin ideyasına xələl gətirmir. Nizami əsərlərindən Fyzulinin «Leyli və Məcnun»unu fərqləndirən əsas cəhət onda lirik haşiyələrin üstünlüyüdür.

Səməd Vurğun yaradıcılığının təsiri.

Səməd Vurğunun"Fərhad və Şirin" əsəri Nizami ənənəsinin ən uğurlu davamı hesab edilir. Lakin Nizaminin poemasında Şirin yalnız Xosrofa sədaqətli idisə, Səməd Vurğunun əsərində Şirin Fırhada qarşı da laqeyid deyil.Əgər Nizaminin əsərində Xosrofun məhəbbəti təmiz və böyük idisə, Səməd Vurğunun əsərində Xosrofun məhəbbəti ehtiraslı və çirkin verilmişdir. Əsərdə Şirin sürəti də şərq qadınına yaraşmayan daha fəal və sərbəst verilmişdir.

Nizaminin iqtisadi fikirləri.

Nizami Gəncəvinin iqtisadi fikrini araşdırmaq və sistemə salmaq üçün onun fikir dünyasını bütövlükdə dərk etmək, yaşadığı ictimai-iqtisadi mühitə

yaxından bələd olmaq tələb olunurdu. Bunun üçün nizamişünaslığa dair əsas mənbələrlə tanış olmadan, fəlsəfi, əxlaqi və bədii görüşlərini öyrənmədən, onun "Xəmsə" boyu sənədləşmiş iqtisadi ideya və fikirlərini araşdırmaq çətin olardı.Artıq XII əsrdə Azərbaycanda iqtisadi fikir və ideyalar özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.28 N.Gəncəvi (1141-1209) əmək və sərvət haqqında mükəmməl təlim yaradır. Bu təlimə görə əmək maddi və mənəvi sərvətləri artıran əsas mənbədir. Əmək fəaliyyətinin səmərəliliyi əməyə stimul doğuran amillərdən asılıdır. Dahi söz ustası böyük mütəfəkkir şairimiz N.Gəncəvi əməyin yüksək nətiçələr verməsi üçün hər şeydən əvvəl onun azad əmək olması ideyasını hər kəsin öz qabiliyyətinə görə işlə təmin olunması fikri, əmək adamının daima öz baçarıq və ustalığını artırması ideyalarını irəli sürmüşdür.Dahi mütəfəkkir alimimiz N.Gəncəvi alqı-satqı prosesində bərabərlik prinsipinin gözlənilməsindən bəhs edir, tələb və təklifin əmtəələrin bazar qiymətlərinə təsirini aydın təsvir edir.XII əsrdə N.Gəncəvi Azərbaycanda pul sistemi haqqında, ümumiyyətlə pulun sosial-iqtisadi təbiəti haqqında mükəmməl elmi fikir və təsəvvürlər yaradır.

N.Gəncəvinin "Xəmsə"sində səpələnən xüsusi forma və üsulunda ifadə edilən iqtisadi fikir və ideyalar müəyyən sistem halına salındıqda, onun cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqındakı təsəvvürləri daha aydın nəzərə çarpır. Bu baxımdan onun irsinin tədqiqi göstərir ki, Nizami Gəncəvi çox zaman humanizm və demokratizmi dahi mütəfəkkirin iqtisadi ideyalarının da əsasını təşkil edir. Nizami Gəncəvi çox hallarda əməyə, sərvətə, mübadiləyə, pula, bölgü və istehlaka öz əxlaq fəlsəfəsi mövqeyindən yanaşmışdır. Əmək və əməkçi surətləri (obrazları) demək olar ki, onun bütün əsərlərinin başlıca qayəsini təşkil edir.

Dahi mütəfəkkir şairimiz N.Gəncəvinin nəzəri-iqtisadi ideyaları onun yaradıcılığında mühüm yerlərdən birini tutur. O, cəmiyyətin ictimaiiqtisadi quruluşu, əmək, əmək bölgüsü, sərvət və onun mənbələri, bölgü, istehlak məsələləri üzrə özünə məxsus bir tərzdə qiymətli fikirlər irəli sürmüşdür. Onun mübadilə, ticarət, qiymət, pul və s. haqqında fikir və ideyaları haqqında baxışları iqtisadi fikir tariximizi zənginləşdirən qiymətli töhfədir.

N.Gəncəvinin yaşadığı cəmiyyətin ictimai ziddiyyətlərini dərindən qavraması, cəmiyyətdəki sosial ədalətsizliyə qarşı mübarizəsi və nəticədə cəmiyyətin yenidən qurulması üçün yollar axtarması, ideal cəmiyyət haqqındakı fikirləri ictimai-iqtisadi fikir tariximizin ən qiymətli inciləridir. N.Gəncəvi bir mütəfəkkir alim kimi elmin qarşısında qoyduğu vəzifəni "Sən çalış yaxşı öyrən dünyanı, bəşəri, bitkini, daşı, heyvanı" fikri ilə şərəflə yerinə yetirmişdir.

N.Gəncəvinin "Xəmsə"sində: "Sirrlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" kimi böyük əsərlərində özünün dünyagörüşünü, təbiət və cəmiyyətin inkişaf

qanunauyğunluqları, onların dərk edilməsinin əhəmiyyəti haqqında nəzəri fikirlərini poetik formada əks etdirmişdir. O yazır: "Yeni tarixlərdən ziyadə Yahudi, Nəsrani (xristian) və Pəhləvi tarixini aradım...., hər dildə olan xəzinələri topladım".Böyük mütəfəkkir şairimizin "Dünyanın ucqarlarına dağılmış kitabları, Ərəb və Dari dilində deyilmiş sözləri, Buxari və Təbərinin əlyazmalarını... müxtəlif evlərin (sarayların) xəzinələrində saxlanılan əsərləri topladım, öyrəndim, "nə qədər gizli və dərin elmlər vardırsa" hamısından xəbərdar oldum və varlıqların sirrini axtarmağa başladım".

N.Gəncəvi öz yüksək bilik səviyyəsi və yiyələndiyi dillərin vasitəsilə Şərqin böyük mütəfəkkirlərinin: Əl Fərabi, İbn Sina, Biruni, Əl Kindi və başqa görkəmli alimlərin əsərləri ilə tanış olmuş, antik, hind və yunan fəlsəfəsini və mədəniyyəti mənimsəmişdir. Buna görə də o dahi şair olmaqla yanaşı öz dövrünə qədər və öz zəmanəsində mövcud olan əsas bilik sahələrinə: tarix, fəlsəfə, məntiq, ilahiyyət, astranomiya, kimya, fizika və s. dərindən bələd olan və bunlardan bəşəriyyətin faydalanması üçünyollar arayan böyük mütəfəkkir alimdir. N.Gəncəvinin əsərlərində insan, onun dünyada yeri və rolu, insanın insana, insanın cəmiyyətə və onu əhatə edən təbii mühitə münasibəti, cəmiyyətin ədalət və təbii qanunlar əsasında qurulması və idarə edilməsi kimi həyati məsələlər əsas yer tutur. Onun nəzəri irsinin və fikir dünyasının hərtərəfli və dərindən öyrənilməsi göstərir ki, o öz dövrünün mühüm ictimai, iqtisadi və siyasi hadisələrinə, bu hadisələrin cərəyan etdiyi mühitə biganə qalmamışdır.

Dahi Nizami özünün dərin müşahidəçilik qabiliyyəti və elmi müşahidələri sayəsində XII əsrdə Azərbaycanda və ona qonşu olan ölkələrdə mövcud olan ictimai-iqtisadi quruluşun xarakterini və ziddiyyətlərini açıb göstərməyə çalışmışdır. Onun "Xəmsə"si əvvəldən axıradək yaşadığı dövrün ictimai, iqtisadi, sosial və mənəvi problemlərinhəllinə, öz xalqının və bütün bəşəriyyətin əzab-əziyyətdən, ictimai bərabərsizlikdən xilas olması məsələlərinə yönəldilmişdir. O. keçmişdən danışarkən öz dövrünün ictimai quruluşuna və üsul-idarəsinə qarşı açıq və kəskin etirazlarını bildirmiş və cəmiyyətin gələcəyinə nikbin nəzərlərlə baxmışdır. Buna görə də N.Gəncəvinin yaradıcılığı öz aktuallığını itirməmiş, bəşər sivilizasiyasına 900 ilə yaxındır ki, xidmət etmiş və indi də etməkdədir.N.Gəncəvinin iqtisadi ideyaları onun Azərbaycan iqtisadi fikrinin inkişafında tutduğu yer xüsusi və geniş tədqiqat obyekti olmamışdır. Lakin bu mövzuda ilk təşəbbüsü unudulmaz görkəmli iqtisadçı alimimiz, respublikada mühasibat və təhlil nəzəriyyəsinin əsasını yaradan mərhum prof. Ə.Q.Fərəcovun 50-ci illərdə yazdığı bir neçə məqalə və 1956-cı ildə nəşr olunmuş «Nizaminin iqtisadi görüşləri haqqında»kı 50 səhifəlik kitabçası vardır. Görkəmli alimimiz Ə.Fərəcovun dahi mütəfəkkir şairimizN.Gəncəvinin iqtisadi görüşləri haqqındakı ilk təşəbbüsü təqdirəlayiqdir və Azərbaycan iqtisadi

fikir tarixinin yazılması və öyrənilməsi üçün də əhəmiyyətlidir. Bunu da qeyd etməliyik ki, Ə.Fərəcovun əsərində N.Gəncəvinin iqtisadi görüşlərinin yalnız bir qismi işıqlandırılmış, onun iqtisadi hadisələr və proseslər haqqındakı elmi ideyaları tam əhatə olunmamışdır. Həmin kitabçada istər-istəməz dahi Nizamiyə və onun iqtisadi ideyalarına yalnız marksizm-leninizm metodologiyası baxımdan yanaşılmışdır. Buna görə də bütövlükdə Nizami irsinə və onun bizim üçün tədqiq olunması ən çox vaçib olan iqtisadi-nəzəri ideyalarına obyektiv və qərəzsiz yanaşılması yenidən müstəqillik qazanmış Azərbaycanımızın bazara keçid dövrünün başlıca tələblərindən biridir.Bunu da qeyd etməliyik ki, N.Gəncəvinin «Xəmsə»sində səpələnən, xüsusi forma və üslubla ifadə edilən iqtisadi fikir və ideyalar müəyyən sistem halına salındıqda, onun cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqındakı təsəvvürləri daha aydın formada nəzərə çarpır. Buna görə də dahi mütəfəkkir şairimizin irsinin tədqiqi göstərir ki, onun humanizm və demokratizmi iqtisadi baxışlarının da əsasını təşkil edir. İqtisadi-nəzəri və tarixi araşdırmalar mövqeyindən yanaşdıqda onun iqtisadi həyat hadisələri və prosesləri haqqında irəli sürdüyü fikir və ideyalar çoğdaş dövrümüzdə də çox mütərəqqi və öz aktuallığını itirməyən bir sistem haqqında ifadə edilmişdir.

N.Gəncəvinin «Xəmsə»sindəki iqtisadi fikir və ideyalar yaşadığı dövrün ictimai-iqtisadi quruluşunun, ən çox feodalizm dövrünün tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. O, ən çox feodal mülkiyyət formaları, ondan doğan ziddiyyətlər, vergi sistemi haqqındakı fikirlər öz əksini tapmışdır. Elə buna görə də şərq dünyasına məxsus xüsusiyyətlərə malik olan feodal mülkiyyət formalarına qısa nəzər salmadan N.Gəncəvinin bu sahədə irəli sürdüyü iqtisadi fikirləri dərk etmək çətindir.Tarixi mənbələrdə və N.Gəncəvinin əsərlərində verilən məlumatlara görə o dövrdə vergilərin çox olduğu aydın olur ki, bu da vergilərin miqdarı, növləri və toplama formaları haqqında müxtəlif fikirlər söyləməyə əsas verir.

Bu da məlumdur ki, Nizaminin yaşadığı dövr (XII əsr) Azərbaycanda və eləcə də Yaxın və Orta Şərq ölkələrində intibah (renessans) dövrü adlandırılmışdır. Bu dövr Şərqdə ondan xeyli əvvəl başlamış və N.Gəncəvinin yaşadığı XII əsrdə özünün ən yuksək inkişaf mərhələsinə çatmışıdır ki, bu dövrdə intibahın ən böyük simalarından biri N.Gəncəvi olmuşdur. İntibah adlandırılan həmin dövr elmin, sənətin və mədəniyyətin geniş vüsət alması və çiçəklənməsi dövrü kimi səciyyələndirilir.

N.Gəncəvi «Xəmsə»də daxili və xarici ticarət mənbələrinə, onların inkişafına və aparılması qayda-qanunlarına dair qiymətli fikirlər söyləmişdir. O, tacirlərə, alqı-satqı ilə məşğul olanlara şərait və ədalət qanunları ilə sövdələşməyi tövsiyə edir. Həm də onların dükanlarını, mallarını oğru-quldurlardan qorumağı da dövlət məmurlarının vəzifəsi hesab edir. Bunu

nəzərdə tutub yazır ki, «Bu çartı-bazarla mən necə dükan qurum ki, oğru-quldurdan amanda qalım. Kimin bu çartı-bazarda dükanıvarsa, onu hər tərəfdən yarıb oğurlayıblar. Əgər oğru aparandan səs-səmir çıxmadısa, demək oğru tutan darğanın əli mala çatıb».35 Bununla da o, xarici ticarətlə məşğul olan tacirlərdən danışarkən yenə də onların hüquqlarının müdafiə olunmasını xatırladan, yollarda qarşılaşdıqları təhlükədən xilas olmaq üçün tədbirlər görülməsini vacib hesab edirdi.

N.Gəncəvi ölkələr və xalqlar arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinin mütərəqqi yolunu düzgün qiymətləndirərək deyir ki, «Dünya al-ver siyasətində çiçəklənməyə başlanmışdır». Dahi mütəfəkkir şairimiz N.Gəncəvinin yaşadığı doğma Gəncə şəhəri o dövrdə Qafqazda deyil, həm də yaxın və Orta Şərqin ən böyük və sənətkarlığın, tiçarətin, mədəniyyətin yüksək inkişaf etdiyi mərkəzlərdən biri idi. 1139-cu ildə baş verən fəlakətli zəlzələdən əvvəl və şəhərin bərpa edilməsindən sonra onu görən və ya tarixi materiallara istinad edərək Gəncəni təsvir edən tarixçilərin və səyyahların əsərlərində orada iqtisadi və mədəni həyatın yüksək inkişafından, gözəl tikililərindən, ətrafında göz oxşayan bağ-bağçalarından, əhalisindən, xoş və mülayim iqlimindən danışılır. O dövrün məşhur Ərəb tarixçisi İbn-əl-Əsir (1160-1234) Gəncəni Arranın anası və mərkəzi adlandırmışdır. O qeyd edirdi ki, 1139-cu ildə (sentyabrın 30-da) Arranın da digər vilayətlərində baş verən dəhşətli zəlzələdən ən çox dağıntıya və insan tələfatına məruz qalan şəhər olmuşdur. Bu zəlzələ nəticəsində təxminən 230 minə qədər insan, o cümlədən, Gəncə hakimi Qara Sunqurun 2 oğlu tələf olmuş və külli miqdarda saraylar, evlər dağılıb batmışdır.Bunlardan Müşdəsəsid Bəhruzə məxsus olan böyük istehkam, zəngin xəzinə və əmlak da dağılmış və xarabalıqlar altında qalmışdır.

Beləliklə, dahi mütəfəkkir N.Gəncəvinin iqtisadi fikir və ideyaları, onun «Xəmsə»sindəki iqtisadi baxışları sistem halında yaşadığı ictimai iqtisadi quruluşun tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır.Onun bu sahədə söylədiyi fikir və ideyaların «Xəmsə» boyu səpələnmiş beyitlərdə, misralarda yaratdığı çox saylı obrazların deyimlərində iqtisadçıların adət etmədiyi bir tərzdə açıqlanır və nəticədə onun baxışları bir sistem halında müəyyənləşir.Buna görədə o dövrdə iqtisad elmi olmadığını, iqtisadi fikrin başqa elm sahələri tərkibində inkişaf etdirilməsini nəzərə alaraq dahi mütəfəkkir şair N.Gəncəviyə haqq qazandırmaq və qiymət vermək olar.

Ədəbiyyat

1.Nizami Gəncəvi.İsgəndərnamə Şərəfnamə Bakı,Lider 2004
2.*Əlibəyzadə E.* Nizami və tariximiz. Bakı: 2004

3.*BabayevaT.* Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı: 2000
4.https://az.wikipedia.org/wiki/Nizami_Gəncəvi

A.Israfilova

The role Nizami Ganjaviof Azerbaijan literature

Summary

Nizami is one of the most brilliant geniuses not only of the Azerbaijani people, but of all mankind. He is the rarest phenomenon in which all the best genetic qualities - talent, intelligence, conscience, honor, vision and clear vision, inherent in our people were concentrated.

Throughout his work Nizami Ganjavi wrote lyrical poems. The poet, who advanced progressive social and philosophical thoughts in his later poems, first expressed them in these poems. The lyrics of Nizami Ganjavi are distinguished by their high craftsmanship, secular attitude towards love, humanistic reflections on human destinies.

Nizami Ganjavi entered the history of world literature, as the author of "Hamsa", consisting of five poems. Creativity Nizami Ganjavi, its humanism, high skill had a strong influence on the development of literature of the peoples of the Middle East and Transcaucasia (Persians, Tajiks, Afghans, Kurds, Turkmens, Uzbeks, Kazakhs, Kirghiz, etc.) and entered the world treasury of culture. Nobody doubts that Nizami Ganjavi is a brilliant Azerbaijani poet. The whole world knows this. But if there was a need to prove it to someone, then we can very easily do this. The memory of Nizami is a road for every Azerbaijanian. Works by Nizami - this, of course, is an integral part of our national consciousness. As for the question that some forces want to attribute these works to themselves or to appropriate them, unfortunately, we repeatedly encounter such phenomena. And the main reason for this is that Azerbaijani literature, Azerbaijani culture and art are so rich that other parties make attempts to appropriate our national heritage.

А.Исрафилова

Роль Низами Гянджави в Азербайджанской литературе

Резюме

Низами – один из самых ярких гениев не только азербайджанского народа, но и всего человечества. Он – редчайший феномен, в котором сосредоточились все лучшие генетические качества – талант, ум, совесть, честь, прозорливость и яснавидение, искони присущие нашему народу.

Протяжении всего творчества Низами Гянджеви писал лирические стихи. Поэт, выдвигавший в своих поздних поэмах прогрессивные общественно-философские мысли, впервые выразил их в данных стихотворениях. Лирика Низами Гянджеви, отличается высоким мастерством, светским отношением к любви, гуманистическими размышлениями о человеческих судьбах.

Низами Гянджеви вошел в историю мировой литературы, как автор «Хамсе», состоящий из пяти поэм. Творчество Низами Гянджави, своим гуманизмом, высоким мастерством оказало сильнейшее влияние на развитие литературы народов Ближнего Востока и Закавказья (персы, таджики, афганцы, курды, туркмены, узбеки, казахи, киргизы и др.) и вошло в мировую сокровищницу культуры. Ни у кого нет сомнений в том, что Низами Гянджеви – это гениальный азербайджанский поэт. Это знает весь мир. Но если возникла необходимость доказать это кому-то, то мы очень легко можем сделать это. Память о Низами дорога для каждого азербайджанца. Произведения Низами - это, конечно же, составная часть нашего национального сознания. Что же касается вопроса о том, что какие-то силы хотят приписать эти произведения себе или же присвоить их, то, к сожалению, мы неоднократно сталкиваемся с такими явлениями. И основная причина этого в том, что азербайджанская литература, азербайджанская культура и искусство настолько богаты, что другие стороны предпринимают попытки присвоить наше национальное достояние.

Rəyçi: Xoşqədəm Əhmədova
pedaqoji elmlər namizədi, dosent

NƏCƏF RÜSTƏMOV
BMU
necefrustemov@gmail.com

TAHSİN NAHİTİN HƏYATI VƏ ƏDƏBİ FƏALİYYƏTİ

Açar sözlər: Türk, ədəbiyyat, Tahsin, Nahit, "Fecr-i ati", cəmiyyəti.
Ключевые слова: Тюрк, литаратура, Тахсин Нахит, Феджр-и ати, общество.
Key words: Turk, literatura, Tahsin Nakhit, Fajr-i ati, society.

XX əsrin əvvəlləri Türkiyə ədəbiyyatı tarixində müəyyən yeri və rolu olan "Fecr-i ati" cəmiyyyətinin üzvlərindən biri olan Tahsin Nahitın həyatı və yaradıcılığı yetrəincə öyrənilməyib. Bu cəmiyyətin fəaliyyətinin bir sıra istiqamətləri, "Servet-i fünun"la əlaqəsi, dövrün digər ədəbi təmayülləri içərisindəki mövqeyini müəyyənləşdirmək baxımından onun üzvlərinin həyat və yaradıcılığının araşdırılması önəmlidir. "Fecr-i ati" cəmiyyətinin aparıcı üzvlərindən biri kimi Tahsin Nahitin yaradıcılığının öyrənilməsi də həm cəmiyyətin yaradcılıq yolunu müəyyənləşdirmək baxımından, həm dövrün ədəbi istiqamətlərini aydınlaşdırmaq üçün, həm də konkret bir yazarın ədəbi irsini araşdırmaq baxımından önəm daşımaqdadır.

Переводческие памятники являются неотъемлимой частью истории литературы. В истории литературы Азербайджана также поддерживались этого обычая и, изучая литературу XV и последующих веков, были даны сведения о некоторых образцах перевода того периода. Один из таких переводов – памятник Азербайджанского перевода «Гюльшани-раз». В проведенных исследованиях, связанных с автором и историей изучения произведения, были анализированы глубина корней переводческой профессии, литературное общество того периода и другие своеподобные характерные особенности.

Fakhraddin Eylazov

About the author of "gulshani-raz", monument of azerbaijan translation literature of xv century and about studying history of this work

Summary

Translation monuments are an integral of history of the literature. In history of the literature of Azerbaijan also adhered to this custom, by studying of the literature of the XV and next centuries information about some patterns of translation of that period have been found. One of such translations – the monument of the Azerbaijan translation literature "Gulshani-raz". During the researches connected with the author and studying history of this work, depth of roots of the translational profession, a literary society of that period and other prominent features are analyzed.

Rəyçi: Akademik Möhsün Nağısoylu

ELMAN NOVRUZOV
AMEA akad. Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
E-mail: shemsi_59@mail.ru

XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİ HAQQINDA

Açar sözlər: Azərbaycan, Xandəmir, "Tarixi-Həbibülseyr", tarix, Xorasan, Herat
Keywords: Azerbaijan, Handemir, "Tarixi-Habibulseyr", history, Horasan, Herat
Ключевые слова: Азербайджан, Хандемир, "Тарихи-Хабибулсейр", история, Хорасан, Герат

Xacə Qiyasəddin ibn Xacə ibn Həmaməddin Məhəmməd ibn Xacə Cəlaləddin ibn Bürhanəddin Məhəmməd Şirazi (Əlhüseyni) Xandəmirin "Tarixi-həbibülseyr" əsəri (3) monqol dövründən bu zamana qədər, Mirxondın "Rövzətüssəfa" əsəri istisna olmaqla, fars dilində yazılmış əntanınmış və dəyərli əsərlərdən biridir. Yəqin, elə buna görədir ki, onun çoxlu sayda əlyazma, xüsusən də daşbasma nüsxələri möcuddur.

Qeyd edək ki, əsərin müəllif tərəfindən qoyulan adı "حبيب السير فى اخبار الافراد البشر" ("Həbibülseyr fi əxbari-əl-əfrad")-dır. Əsəri çapa hazırlamış Cəlaləddin Humayi onu "Tarixi-Həbibülseyr" kimi təqdim etmişdir.

Dilinin qəlizliyinə görə Xandəmirin "Tarixi-həbibülseyr" əsərini Ədib Abdulla Şirazinin"Tarixi-Vəssaf" və Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib fi təyini əl-məratib" (5) əsərləri ilə müqayisə etmək olar. Bizcə, Xandəmirin "Tarixi-həbibülseyr" əsərinin dili fars dilində yazılmış əsərlərlə müqayisədə ən çətin dildir. Çünki "Tarixi-həbibülseyr" əsərinin dili o qədər təmtəraqlı, ibarəli, bəlağətli və təşbehlidir ki, hətta İranda ali məktəb tələbələri belə onu rahat oxumaqda və mükəmməl bir şəkildə anlamaqda çətinlik çəkirlər. 1984-cü ildə "Tarixi-həbibülseyr" əsərini Tehranda 4 cilddə (əlyazmada əsər 3 cilddən ibarətdir) III çapını özünün geniş müqəddiməsi ilə birlikdə gerçəkləşdirmiş Cəlaləddin Humayinin fikrincə, bunun səbəbini müəllifdə deyil, tələbələrimizi aşağı səviyyədə hazırlamağımızda axtarmaq lazımdır. Əlbəttə, bu məsələdə Xandəmirin dərin zəkasına, düşüncə dərinliyinə, fitri istedadına və fars dilinin zənginliklərinə bələd olmasına və ondan necə böyük bacarıqla istifadə qabiliyyətinə də heyran qalmamaq mümkün deyildir.Məlumat üçün qeyd edək ki, əvvəlki çaplar daşbasma üsulu ilə I dəfə 1747-də Bombeydə, II dəfə 1755-ci ildə Tehranda həyata keçirilmişdir. Bu araşdırma III çapın əsasında aparılmışdır.

C.Humayi monqol istilasından Səfəvilərin əvvəllərinə qədər fars dilində yazılmış aşağıdakı məşhur müəlliflərin və onların əsərlərinin, o cümlədən Xandəmirin "Tarixi-Həbibülseyr" əsərinin adını çəkir:
Əlaəddin Ətamülk Cuyni. Tarixi-cəhanqoşa; Xacə Rəşidəddin Fəzlullah Həmədani Vəzir. Camee-əltəvarixi-Rəşidi;Ədib Abdulla Şirazi. Tarixi-Vəssaf;Ədib Fəzlullah. Tarixi-moəccəm;Həmdullah Müstövfi Qəzvini. Tarixi-qozidə və nezhətülqülub;Qazi Bizavi. Nizamültəvarix, Təfsiri-Bizavi; Qazi Əhməd Qəffari. Tarixi-nigarestan və cəhanara;Şərəfəddin Əli Yəzdi. Zəfərnameyi-Teymuri;Kəmaləddin Əbdülrəzaq Səmərqəndi. Mətləəssəidun; Hafiz Əbru (Şəhabəddin Abdulla bin Lütfullah Xafi). Zebdətültəvarix; Müəyyənəddin Məhəmməd/Səfzari. Rövzətülcenat fi tarixi-mədinəti-Herat (Sultan Hüseyn Bayqaraya ithaf olunub); Fəsih Əhməd bin Cəlaləddin Məhəmməd. Kitabi-məcməəlfəsihi; Mirxond Əmir Mahmud Bəlxi. Rövzətüssəfa (7 cilddə). 77 yaşında vəfat edib və Şeyx Bəhaəddinin məqbərəsində basdırılıb. Rzaqulu xan Hidayət, Nəsirəddin şahın zamanında ona 3 cild (Səfəvi, Əfşar, Zənd və Qacarlardan Nəsirəddin şaha qədər) əlavə edib və Rövzətüssəfayi-Nasiri (10 cild) əsərini yazıbdır;
Xandəmir. Tarixi-Həbibülseyr.Əlbəttə, bu siyahıdaMəhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" adlı 3 cildlik fundamental əsərinin adının olmaması təəccüb doğurur. Çünki bu əsər öz mahiyyətinə və məzmununa görə ensiklopedik bir əsərdir və nəinki Azərbaycanın və İranın, bəlkə bütövlükdə Şərqin tarixinin, dövlətçiliyinin, elm, mədəniyyət və ədəbiyyatının öyrənilməsi üçün əvəzsiz bir mənbədir.Təəssüflər olsun ki, bir çox digər mənbələrimiz kimi, "Dəstur əl-katib fi təyin əl-məratib" də bu günə qədər ana dilinə tərcümə olunmamışdır.Xandəmir 1475-ci ildə Şərqin orta əsrlər tarixində xüsusi yeri olmuş Heratda anadan olub. Atası Xacə Həmaməddin Məhəmməd Mavərünnəhrdə Sultan Əbu Səid Gürganın oğlu Mirzə Sultan Mahmudun vəziri olub.Anası "Rövzətülsəfa"nın müəllifi Mirməhəmməd bin Seyid Bürhanəddin Xavənd şah ibn Kəmaləddin Mahmud Bəlxi Mirxondun qızıdır.Xandəmirin təlim və tərbiyəsi ilə babası Mirxond məşğul olmuşdur. Sultan Hüseyn Bayqara və onun vəziri Əmir Əlişir Nəvayi Xandəmiri himayə etmişlər. Zəmanəsinin bütün elmlərini yüksək səviyyədə mənimsəmiş böyük tarixçi alim Xandəmir həm də istedadlı bir şair olmuşdur. Bunu onun digər əsərləri, eləcə də "Tarixi-Həbibülseyr"ə daxil etdiyi çoxsaylı şeir nümunələri də təsdiq edir. Ata-babalarının yüksək dövlət məqamlarında olmasına baxmayaraq, Xandəmir siyasətdən və dövlət işlərindən uzaq olmuş, tarixdə özünün məhsuldar və həm də çox dəyərli yaradıcılığı ilə qalmışdır. Xandəmirin "Tarixi-Həbibülseyr" əsəri həm də farsdilli nəsrin, tarixşünaslığın, ədəbiyyatşünaslığın, elm tarixi və mədəniyyətşünaslığın ən dəyərli mənbələrindən biridir və əhatə elədiyi coğrafi genişliyə görə bütövlükdə özündə vahid Şərq tarixinin, ədəbiyyatının və

mədəniyyətinin maraqlı məqamlarını ehtiva edir. Heç təsadüfi deyildir ki, Xandəmirin əsərləri, xüsusən də "Tarixi-Həbibülseyr" əsəri bütövlükdə Şərq, o cümlədən də Azərbaycan tarixini, coğrafiyasını, ədəbiyyat və mədəniyyətini, xüsusən də fəlsəfəsini öyrənmək baxımından əvəzsiz bir qaynaqdır."Tarixi-Həbibülseyr"in başqa bir özəlliyi və əhəmiyyəti ondan ibarətdir ki, müəllif hər dövrün böyük şəxsiyyətləri-alim, şair, şeyx, tarixçi, filosof, dövlət xadimləri və s. haqqında ayrıca məlumat verir. Bu məlumatlar 1495-1498-ci illərdən sonrakı dövrə aiddir.Bu baxımdan "Tarixi-Həbibülseyr"əsəri həm də təzkirə mahiyyəti daşıyır və qiymətli mənbədir. Xandəmirin bu üslubu özündən sonrakı müəlliflərə nümunə olmuşdur. Məsələn, Səfəvilər dövrünün müəllifləri, xüsusən də "Tarixi-aləmarayi-Abbasi"nin müəllifi İsgəndər bəy Münşi (5) bu ənənəni davam etdirmiş, şahların tarixlərinin sonunda ayrıca olaraq onların müasiri olmuş, alim, fəqih, şair, sənətkar, əmir və dövlət xadimləri haqqında maraqlı məlumatlar vermişdir. Haşiyə çıxaq kim, Xandəmirin "Tarixi-Həbibülseyr" əsərində adlarını çəkdiyi azərbaycanlı şəxsiyyətlərin öyrənilməsi məsələsi ayrıca və geniş bir araşdırmanın mövzusudur.

Xandəmir "Tarixi-Həbibülseyr"i yazarkən Mirxondun "Rouzətüssəfa" əsərindən və çox güman ki, digər çoxsaylı mənbələrdən, xüsusən də Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə"sindən (1) istifadə etmişdir. Xandəmirin Səfəvilərin əsli ilə bağlı istifadə etdiyi mənbələrdən biri də, heç şübhəsiz ki, onun adını çəkdiyi "Səfvətüs-səfa" əsəri olmuşdur. Bu məqam da çox diqqəti cəlb edir ki, o zaman Ərdəbildə qələmə alınmış bu əsər Heratda yaşayan müasiri Xandəmirə çata və ikinci ondan istifadə edə bilirdi. Bu faktın özü onu göstərir ki, orta əsrlərdə müasir anlamda kommunikasiya vasitələrinin məhdudluğuna baxmayaraq, Şərqdə vahid və ortaq bir elmi, ədəbi və mədəni mühit mövcud olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, İbn Bəzzaz Ərdəbilinin yazdığı "Səfvətüs-səfa" əsəri 1543-cü ildə Məhəmməd bin Hüseyn Katib Nişati tərəfindən türkcəyə çevirilərkən adı şərti olaraq "Şeyx Səfi təzkirəsi" adlandırılmışdır. Həmin əsər akademik M.Nağısoylunun rəhbərliyi ilə redaktə olunmuş, geniş və sanballı önsözlə çap edilmişdir (2).

Xandəmir, "Tarixi-Həbibülseyr" əsərində Səfəvi xanədanının tarixinə geniş yer vermişdir. Belə ki, bu əsərdə Sultan Firuz şahdan başlamış Əvəzül-Xəvas, Seyid Məhəmməd Hafiz, Səlahəddin Rəşid, Seyid Qütbəddin,Seyid Saleh, Seyid Əminəddin Cəbrail, Şeyx Səfiəddin İshaq, Şeyx Sədrəddin Musa, Xacə Əli, Şeyx İbrahim, Şeyx Cüneyd, Sultan Şeyx Heydər, Sultan Əlivə Şah İsmayıl barədə ətraflı məlumatlar verilmiş, onlar fövqəladə ifadə və ibarələrlə mədh olunmuşlar. Maraqlı burasıdır ki, bu məlumatların bir hissəsi nəsrlə, bir hissəsi isə nəzmlə qələmə alınmışdır. Mirməhəmməd bin Xavənd şah Mirxondun 7 cilddən ibarət "Rouzətüssəfa" əsəri 1847-ci ildə Bombeydə daşbasma üsulu ilə çap olunmuşdur. Həmin əsərinVI cildi

Teymurilər sülaləsinin banisi fateh Teymura həsr olunubdur və bu cild Teymurun oğlu Sultan Əbu Səidin vəfatı və onun 11 oğlunun adının çəkilməsi ilə 1467-ci ilə qədərki dövrü əhatə edir (3, I c. Müqəddimə, s.32). Onun VII cildində Əbu Səidin oğlanlarının tarixindən, daha sonra isə məmduhlardan, Hüseyn Bayqaranın və Əlişir Nəvainin mürəbbilərindən söhbət açılır. Əməli olaraq bu hissələr Mirxondun deyil, məhz Xandəmirin imzası ilə günümüzə qədər gəlib çatmışdır. Belə bir fərziyyə var ki, Xandəmir ana tərəfdən babası olan Mirxondın topladığı materiallardan istifadə etmişdir. Çünki Mirxond 1498-ci ilin iyul ayında vəfat etsə də, özünün qeyd elədiyi kimi, "Rouzətüssəfa"nın V və VI cildlərini 1494-cü ildə, yəni vəfatına bir neçə il qalmış tamamlamış və sonra ağır xəstə olmuşdur.Xandəmir "Tarixi-həbibülseyr" əsərini 3 cilldə və 4 fəsildə yazıbdır. Hər fəsil də 12 hissədən ibarətdir. Bundan başqa, əsərdə giriş və proloq da mövcuddur."Giriş"də məxluqatdan danışılır. "Proloq"da isə ayrı-ayrı ölkələr və coğrafi adlar haqqında məlumat verilir.

I cildin fəsilləri: 1. Peyğəmbərlər və hakimlər; 2. Qədim ərəb, əcəm və qeysəriyyə dövlətləri; 3. Axırıncı peyğəmbərin zühuru; 4. Rəşidi xəlifələri.II cild: Əməviyyə, Abbasi hökmdarları və onların müasiri olmuş sultanlar: 1. Müqəddəslərin fəzilətləri; 2. Bəni-Əməviyyənin hakimləri; 3. Abbasi xəlifələri; 4. Əməvi və Abbasilərin müasiri olmuş sultanlar. III cild: Abbasi xəlifələrindən sonra və Səfəvilərin əvvəllərinə qədər olmuş monqol, teymuri və s. sülalələr: 1. Çingiz xandan başlamış monqol dövlətləri; 2. Monqolların müasiri olmuş sultanlar (Fars, Lorestan və s. atabəyləri); 3. Teymur və onun övladlarının dövrü və onların müasirləri, Səfəvilər dövlətinin meydana çıxmasına qədər; 4. Səfəvi dövlətinin meydana gəlməsi və 1524-cü ilin əvvəllərinə qədər Şah İsmayılın hakimiyyəti.

"Tarixi-Həbibülseyr"əsərinin 1467-1524-cü illəri (57 il) əhatə edən son hissəsi məhz Xandəmirin öz qələminin məhsuludur. Əslində "Tarixi-Həbibülseyr"in ən dəyərli hissəsi də budur və o, əsərin əlyazmasının III cildin III hissəsinin ortalarından həmin cildin IV hissəsinin sonuna, yəni kitabın axırına kimi davam edir. Çünki müəllif əksər hallarda bu hissədə qələmə aldığı hadisələrin müasiri, bəzi hallarda isə iştirakçısı və müşahidəçisi olmuşdur. O da istisna edilmir ki, Xandəmir barələrində qiymətli məlumatları verdiyi tarixi şəxsiyyətlərin əksəriyyətini şəxsən tanımışdır. Xandəmirin "Tarixi-Həbibülseyr" əsəri həm də islamdan qabaqkı və sonrakı, eləcə də Hüseyn Bayqara dövrü və Səfəvi hakimiyyətinin əvvəllərinə qədərki hekayətləri, əfsanələri və əsatirləri günümüzə daşımış əvəzsiz bir mənbədir. Bununla da müəllif bütövlükdə Şərq, xüsusən də İran (Azərbaycan) ədəbiyyatına, tarixinə və mədəniyyətinə qeyri-adi bir xidmət göstərmişdir. Xandəmir "Tarixi-həbibülseyr" əsərini 1521-ci ilin əvvəllərində qələmə almağa başlamışdır. Əsərin dibaçəsində müəllif özünün yazdığı digər əsərlərin adlarını belə sadalayır:

1. “Dəsturülvüzəra”-Sultan Hüseyn Bayqaraya və onun dövlət xadimlərindən Kəmaləddin Mahmuda təqdim edilib (1501-ci ildə yazılıb, 1508-ci ildə özü tərəfindən yenidən işlənibdir);
2. “Moaserolmoluk”-Əmir Əlişir Nəvaiyə ithaf edilibdir (1501-ci ildə yazılıb);
3. “Xolasətüləxbar”-Əlişir Nəvaiyə ithaf edilən bu əsər (1499-1500) Mirxandın “Rouzətüssəfa”sının icmalıdır;
4. “Əxbarı-əxyar”;
5. “Montəxəbi-tarixi-Vəssaf”;
6. “Məkaremi-əl-əxlaq” və s.

1521-ci ildə Übeydulla xan Özbəyin Xorasana hücum etməsi və Heratı mühasirəyə alması ilə ölkədə yenidən təhlükəsizlik pozulur və Xandəmir “Tarixi-həbibülseyr” əsərini yarımçıq qoyur. Lakin çox keçmir ki, Şah İsmayıl, Özbəyi məğlub edir və Heratda yenidən əmin-amanlıq bərpa olunur. Şah İsmayıl Özbəyi məğlub etdikdən sonra,Əbu Mənsur Durmuş xanı Xorasan, Herat məntəqələrinin muxtar hakimi, Kəriməddin Xacə Həbibulla Savçınıisəvəzir təyin edir.XacəHəbibulla Qumda fəaliyyətə başlayır. Durmuş xan isə Xorasana gedir.Xacə Həbibulla 1521-ci il yanvarın 16-da Herata girir. Yanvarın 17-də şəhərin alim, seyid, əmir və nüfuzlu şəxslərini öz hüzuruna çağırır və Şah İsmayılın Durmuş xanı Xorasana muxtar hakim, özünü isə vəzir təyin etməsi barədə fərmanını oxuyur. Xacə Həbibulla qısa müddətdə Heratda asayişi təmin edir. Bundan sonra müəllif yenidən “Tarixi-həbibülseyr” əsəri üzərində işləməyə başlayır və 1524-cü ilin yanvar ayında onu bitirir. Heç təsadüfi deyil ki, Xandəmirin “Tarixi-Həbibülseyr” əsəri o dövr Azərbaycan tarixinin, xüsusən də Səfəvilər imperiyasının yaranmasını və onun qurucusu olan Şah ismayılın vəfatına qədərki dövrün öyrənilməsi üçün etibarlı və əhəmiyyətli bir mənbədir. Xandəmir “Tarixi-Həbibülseyr” əsərinin dibaçəsində Səfəvi dövlətinin banisi Şah İsmayılı “Nəvvabi-Kamyabi-İlahi”, “nəcibliyin uğuru” adlandırır, Əbu Mənsur Durmuş xanın onun tərəfindən Xorasana hakim, Xacə Həbibullanın isə vəzir təyin olunmasından bəhs edir. Bununla da ölkədə ədalətin bərqərar olması və zülmün və sitəmin ortadan qalxmasını vurğulayır.Tarixçi-şair “Tarixi-həbibülseyr”in dibaçəsində əsərinin necə yazılmasından söhbət açarkən Xacə Həbibulladan bəhs edir, bu böyük dövlət xadiminin elmindən, kamalından və sahib olduğu fəzilətlərdən, eləcə də onun qazandığı ləqəblərdən danışır. Əsərinin məhz Xacə Həbibullanın adı ilə şöhrət tapdığını, ona görə də adının “Həbibülseyr” olduğunu vurğulayan müəllif, onun məzmununa görə 3 hissədən-cilddən ibarət olduğunu qeyd edir. Ümumiyyətlə, tarixçi-şair Xandəmir “Tarixi-həbibülseyr” əsərində dəfələrlə Xacə Həbibullanın adını çəkir, onun ədalətindən, mərhəmətindən, tədbirliliindən və siyasi qabiliyyətindən söz açır. Bu qəbildən olan hissələrin bəzisi nəsrlə, bəzisi isə

nəzmlə verilmişdir. 1524-cü ildə Şah İsmayıl dünyasını dəyişəndən bir neçə il sonra, yəni 1527-ci ildə Xandəmir Hindistana köçmüşdür. Artıq o, kifayət qədər tanınırdı. Məhz buna görə də çox keçmir ki, 1528-ci ildə Aqre şəhərində Babur şahın sarayına yol tapır. Babur şah öləndən sonra onun oğlu Humayunun sarayında yaşamağa davam edən tarixçi alim və şair Xandəmir "Humayunnamə" (yaxud da "Qanuni-Humayun") əsərini (1530) ona ithaf etmişdir. Xandəmir 1536-cı ildə Hindistanda vəfat etmiş və öz vəsiyyətinə əsasən Xacə Nizaməddin Övliya qəbristanlığında Əmir Xosrov Dəhləvinin qəbrinin yanında basdırılmışdır.Müstəqillik şəraitində, Azərbaycanın, xüsusən də onun Səfəvilər imperiyasının tarixinin daha ətraflı və müfəssəl öyrənilməsi çərçivəsində Xandəmirin zəngin yaradıcılığının araşdırılması, ələlxüsus da onun "Tarixi-Həbibülseyr" əsərinin tamamilə Azərbaycan dilinə tərcümə edilməsi və geniş elmi-tədqiqata cəlb olunması şərqşünaslıq elmimiz qarşısında duran təxirəsalınmaz vəzifələrdən biridir.

Qaynaqlar

1. Rzayeva R.N. Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri. Bakı: Papirus NP. 2016, 196 s.
2. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Redaktoru, izahların və lüğətin müəllifi M.Nağısoylu. Bakı: Nurlan, 2006, 932 s.
3. خواند امیر. تاریخ حبیب السیر. در 4 جلد. زیر نظر دکتر محمد دبیر سیاقی. با مقدمه استادجلال الدین همائی. تهران: انتشارات کتابفروشی خیام. 1362 . 2930 ص.
4. محمدابن هندوشاه نخجوانی، دستور الکاتب فی تأیین المراتب. در 3 جلد.متن انتقادی، مقدمه فهرست مطالب و اعلام از آکادمیسین ا.علیزاده است. مسکو، انتشارات علم. 1971-1976،1543 ص.
5. منشی، اسکندر بیگ، تاریخ عالم آرای عباسی، به کوشش ایرج افشار، تهران: امیر کبیر، 1350 ش، 1823 ص.

Эльман Новрузов

О произведение «тарихи-Хабибулсейр» Хандемира

Резюме

Хадже Гиясаддин ибн Хадже ибн Хамамеддин Мухаммед ибн Хадже Джаледдин ибн Бурханеддин Мухаммед Ширази ал-Гусейни-Хандемир внук Мирмухаммеда бин Сейид Бурханеддин Хавенд шах ибн Кямаладдин Махмуд Балхи-Мирхонда. Произведение "Тарихи-Хабибулсейр" Хандемира (1475-1536) одно из ценных произведений. Оно написано на персидском языке в началах 16 вв. "Тарихи-Хабибулсейр" охватывает очень

большую эпоху-с создания жизни на Земле до начала правления империи Сафавидов. В этом произведение имеются богатые и интересные информации о создание мира, порождение человечества, формирование истории и культуры, отдельные государства и империи, особенно в Ближнем и Среднем Востоке, в том числе в Иране и Азербайджане. В статье дается общая информация об этом произведение. Заодно подчеркывается необходимость изучения богатого творчества Хандемира, в рамках более масштабного и полного исследования истории Азербайджана, а также Ближнего и Среднего Востока. Особенно очень важно перевод его произведения “Тарихи-Хабибулсейр” в Азербайджанский язык. Эстественно, после перевода следует привлечь его к широкому научному исследованию в условиях независимости.

Elman Novruzov

About the work of “tarixi-habibulseyr” by Xandemir

Summary

Xaje Qiyasaddin ibn Xaje ibn Hamameddin Muhammad ibn Xaje Celalleddin ibn Burhaneddin Muhammad Shirazi al-Huseyni-Handemir is grandson of Mirmuhammad bin Seyid Burhaneddin Xavand shah ibn Kamaladdin Mahmud Balhi-Mirhond. "Tarixi-Habibulseyr" work by Handemir (1475-1536) is one of the most valuable works. That is written in the Persian language in the beginnings of the 16 century. "Tarixi-Habibulseyr” surrounds many large period-from the beginnings of life on Earth until beginnings of the authority of Safavids Empire. There are very much rich and interesting knowledge about beginnings of life and mankind on Earth, formation of world history and culture, arising of separate states and empires, important natural and historical incidents, especially processes in The Near and Middle East, so in Iran and Azerbaijan in this work. In the article is given general information about this work. At the same time is emphasized the necessity of more comprehensive and detailed searching of the history of Azerbaijan, so The Near and Middle East in the under the rich basic of creation of Handemir. It is especially to translate the work of "Tarixi-Habibulseyr" into Azerbaijani. And it is naturally necessary to drow it into large research work after translation in the frame of sovereignty.

Rəyçi: Şəmsi Əhmədov
filologiya üzrə fəlsəfə doktoru

SƏADƏT BAYRAMOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
saadat.bayramova.ss@mail.ru

ƏZİZƏ CƏFƏRZADƏNİN HEKAYƏLƏRİNDƏ NAĞIL, ƏFSANƏ VƏ RƏVAYƏT MÖVZUSUNA MÜRACİƏTİN FORMA VƏ ÜSULLARI

Açar sözlər: Əzizə Cəfərzadə, nağıl, hekayə, əfsanə, rəvayət, folklor.
ключевые слова: Азиза Джафарзаде, рассказ, история, легенда, слух,фольклор.
key words: Aziza Jafarzadeh, tale, story, legend, rumor, folklore.

Xalq yazıçısı Əzizə Cəfərzadənin əfsanə və rəvayət mövzusunda qələmə aldığı hekayələr folklor qaynaqlarından yaradıcı istifadə tərzi, mətnaltı yazıçı manerası və mətləblərin dolayı şəkildə çatdırılma üsulu ilə seçilən mükəmməl epik örnəklərdir.

Azərbaycan xalqının folklor mədəniyyəti mif, nağıl, əfsanə, rəvayət zənginliyinə görə ən müxtəlif rakuslardan diqqəti öz üzərinə çəkmək imkanına sahibdir. Həmin örnəklərdə işıq və qaranlıq arasında gedən barışmaz qarşıdurma, xeyirin şər üzərində qələbəsi, gözəlliyin insanı valeh edən sehrkarlığı, vətənə məhəbbət hissi, xalqın ədalətli hökmdar yaratmaq arzusu, gənc nəslə təhsil, peşə və sənət öyrətmək kimi tərbiyəvi-didaktik və humanist keyfiyyətlər sənətkarlıqla ümumiləşdirilmişdir. Bu cəhət onların yazılı ədəbiyyat üçün mövzu və ideya qaynağı olmasını da şərtləndirir.

Şifahi xalq yaradıcılığına marağın artması özünü müxtəlif ədəbi-tarixi mərhələlərdə çeşidli şəkillərdə göstərir: folklor təhkiyə tərzi və dilinə müraciət, süjetdən və kompozisiya elementlərindən yazıçının məqsəd və məramına uyğun tərzdə istifadə, mifoloji sistemin və obrazların bədii vasitəyə verilməsi və s.

Xalq yazıçısı Əzizə Cəfərzadənin XX əsrin ayrı-ayrı dönəmlərində "Anamın nağılları" adı altında qələmə aldığı hekayələr silsiləsindən bu sənətkarlıq keyfiyyətini məharətlə gerçəkləşdirə bilmişdir. Bu dərin məzmunlu hekayələr silsiləsini yaradərkən o, özünəməxsus bir yolla gedərək, folklor nümunələrini orijinal yazıçı manerası ilə yazıya gətirib. Onun qələmə aldığı nağıllar folklor qaynağı ilə yazıçı istedadının bənzərsiz bir vəhdəti kimi ortaya çıxmışdır.

Əzizə Cəfərzadənin bu qəbildən olan çoxsaylı hekayələri vardır: "Daş oğlan", "Şam və pərvanə", "Ay doğdu, o da para", "Qızbikə-Qız qalası" və s. "Daş oğlan əfsanəsi" oxucunu Əmir Teymurun Şirvan torpaqlarına

hücumu dövrünə aparır Susuz səhrada düşmənə suyun yerini deməyən çobanın qəzəbdən daşa dönməsi xalqın vətənpərvərlik hissinin bədii təcəssümüdür. Göründüyü kimi, yazıçı folklor örnəyini özünün müəllif qayəsinə uyğun şəkildə mənalandıra bilmişdir.

Bu silsilədə yer alan ən maraqlı hekayələrdən biri də "Qızbikə-Qız qalası"adlanır. Bilindiyi kimi, böyük ədibimiz Cəfər Cabbarlının məşhur "Qız qalası" poemasından başlayaraq bu mövzuda çoxsaylı bədii əsərlər qələmə alınmışdır. Qız qalası haqqında rəvayətlər çoxsaylı və çoxvariantlı olduğu üçün qələmə alınan əsərlərdə də ayrı-ayrı rəvayətlərə istinaddan irəli gələn süjet müxtəlifliyi görünməkdədir (1,177-202) Əzizə Cəfərzadənin hekayələşdirdiyi süjet ənənəvi və daha çox yayılmış "Qız qalası"(atanın qıza aşiq olması, qızın isə buna razı olmayaraq özünü qaladan atması) rəvayətindən köklü şəkildə fərqlidir. Buradakı rəvayətin mərkəzində dayanan Qızbikə öz bahadırlığı, cəngavərlik şücaəti ilə hamını heyrətdə qoyur. O, düşmən ordusunu öz qılıncının gücü ilə pərən - pərən salır.

Qəhrəmanlıq və faciəvi məhəbbət motivinin birgə təcəssüm etdirən bu hekayə-rəvayətdə oxucuya yenilməzlik, igidlik, cəsurluq ruhu aşılanmaqla yanaşı, vətən-torpaq, el-yurd sevgisini fərdi-romantik sevgidən uca tutmaq düşüncəsi də təlqin edilir.

Elin igid qızı Qızbikə vətənin dar günündə polad libas geyinib qılınc götürərək at belinə qalxır və düşmən qoşununa qarşı döyüşün önündə gedir. O, bütün varlığı ilə bağlı olduğu, illər boyu həsrətindən alışıb yandığı sevgilisi Ayazı belə öz vətən məhəbbətinin naminə döyüş meydanında öldürməkdən çəkinmir. Düşmən oğlu Ayazı sevsə də, vətən məhəbbəti onu fərdi-romantik məhəbbətinin fövqündə duran bir qərar çıxarmağa yönəldir: "Qızbikə ölüm saçan qılıncının bircə zərbəsi ilə Ayazı atından yerə saldı: "Bu sənin də sonundur, sevdiyim, mənim də sonumdur! Mən səni sevirdim. Mən sənsiz yaşaya bilməyəcəkdim. Amma vətənimə xəyanət eləyən sən də olsan, qəlbim də olsa onu kəsib atardım, gözlərim olsa, onları oyub-çıxarardım" (1,307). Deməliyik ki, hər iki aspekt folklor mənşəlidir və onların bu cür əlaqəli, qarşılıqlı vəhdətdə təqdimi nağıl-hekayənin romantik-emosional təsirini daha da gücləndirmişdir.

Hekayə faciə ilə tamamlanır. Sevgilisini öldürən Qızbikə özü də yaşamaq istəmir, əhatəsindəki düşmən qoşunu ilə vuruşa-vuruşa qalanın başına qalxır və oradan özünü Xəzər dənizinə atır: "Qızbikənin cəsədini Xəzərin coşqun sularmdan çıxardılar. Elin ağbirçəkləri, qız və gəlinləri gəlib niqabı üzündən açılmış, saçları əfşan-əfşan olmuş odlar qızı Qızbikəyə gəlinlik libası geydirdilər. Dəfn üçün hazırladılar.

Əziziyəm qız qala,
Tikdiribən qız qala.

Namərd oğullar ölə,
Vətən üçün qız qala –

deyib oxşadılar... Qızbikəni tikdirdiyi qalanın həyətində dəfn etdilər. Qalanın adı da "Qız qalası" qoydular (1, 307-308).

Folklor mətnindən yaradıcı şəkildə bəhrələnmə və onu bədii təxəyyül gücünə mənalandırma "Qızbikə-Qız qalası" hekayəsində sözün həqiqi mənasında öz uğurlu həllini tapa bilmişdir. Yazıçı bir tərəfdən Azərbaycan qızının igid, qəhrəman obrazını, vətən, el-yurd qeyrəti yolunda canını fəda etmə örnəyini təqdim etməklə bahadır qadınlarımızın hünər və şücaətini diqqət önünə çəkərək "Qız qalası" mövzusuna yeni bir məzmun çaları qazandırmış, digər tərəfdən isə rəvayətdə yer alan "qızın özünü qaladan atması" motivini uğursuz məhəbbət yolundakı faciəvi addım kimi mənalandırmışdır. (6,131)

Əzizə Cəfərzadənin nağıl-rəvayət mövzusunda qələmə aldığı hekayələr silsiləsində aparıcı leytmotiv vətən, ana, çörək müqəddəsliyinin qorunması, onların ən ali, ən ülvi duyğular kimi yüksək tutulması ilə bağlıdır. "Çörək" hekayəsində çörəyin müqəddəs nemət kimi uca tutulması haqqındakı el rəvayətlərindən biri diqqət önünə çəkilir: alın təri və halallıqla çörək qazanan cütçünün ailəsində bu müqəddəs neməti uşaqdan böyüyə hamı əziz tutur, onun kiçicik zərrəsinin, qırıntısının belə yerə-ayaq altına düşməsinə heç kəs yol vermir. Bu səbəbdən də ulu Tanrı zəhmətkeş cütçünün bərəkətini artıq eləyir, onun zəmisinə bol taxıl verir, çörəyə möhtac olmağa qoymur. Cütçünün ailəsində çörəyə müqəddəs münasibətin ən çətin məqamda qorunub-qorunmayacağını yoxlamaq istəyən padşah məmləkətindəki adamlara təndir çörəyi bişirməyi yasaq edir və və hamının sacda nazik lavaş yuxa bişirməsi göstərişini verir. Yuxa tez quruyan və ovulub tökülən olduğu üçün padşah bilmək istəyir ki, bu vəziyyətdə cütçü onun qırıntılarının qopub yerə-ayaq altına düşməsinin qarşısını necə alacaqdır.

Bir neçə gün sonra cütçünün bu çətin vəziyyətdə belə çıxış yolu tapa bildiyinin və lavaş-yuxanın qırıntılarını yerə düşməkdən qorumağın yolunu tapdığının sorağını eşidir. Padşah və vəzir cütçünün lavaş-yuxanın ovulub yerə tökülməsinin qarşısını almaq üçün qıldığı əncamı görmək üçün onun evinə gedirlər: "Gördülər ki, həyətdə oynaşan uşaqların hər birinin boynunda ağ, təmiz parçadan tikilmiş kiçik bir parça asılıb. Uşaq lavaş yuxa yemək istəyəndə ağzını torbaya tutub yeyir və qırıntılar da oraya tökülür. Bunu görən vəzir dilləndi:

– Gördünmü, hökmdarım! Bu yurddan çörək əskik olmaz. Burada onun qədrini də bilirlər, hörmətini də ayaq altına düşməyə qoymurlar onu" (1, 310).

Xalq mənəviyyatı çörəyin müqəddəs nemət kimi əziz tutulması barədəki öz statik, dəyişməz qənaətini məqsədyönlü şəkildə folklor yaddaşına köçürmüş və nağılvari tərzdə rəvayətləşdirmişdir. Yazıçının çörək haqqında rəvayəti hekayələşdirməsi isə bu mövzunun bütün zamanlar üçün aktual və diqqətçəkici olması ilə bağlıdır. Hekayədə çörəyin müqəddəsliyi, onun hər zərrəsinin qorunması, əziz tutulması zərurəti folklor yaddaşının yüzillər boyundan daşıyıb gətirdiyi rəvayət mətni əsasında bir daha xatırladılır, ona həssas yanaşmağın xalq mənəviyyatının dəyişməz, əbədi bir hökmü olduğu vurğulanır.(3,119)

Müqəddəs dəyərlərin qorunması, onlara sayqı və ehtiram göstərilməsinin zəruriliyi rəvayət əsasında qələmə alınmış "Ceyran" hekayəsində təsvir olunan mənzərədə də öz təsirli əksini tapmışdır. Bu hekayədə ana müqəddəsliyi, anaya hörmət və ehtiram bəslənilməsi ideyası əsas götürülmüşdür.

Görkəmli ictimai xadim və həzin, zərif şeirləri ilə məşhur olan şairə Xurşudbanu Natəvanla əlaqədar xalq arasında çoxsaylı rəvayətlər gəzib-dolaşdığından həmin söyləmələr zaman-zaman bədii ədəbiyyata yol açır və çeşidli təzahür formalarında poeziya, nəsr və dramaturgiyada inikas olunur.

Əzizə Cəfərzadənin qələmə aldığı "Ceyran" hekayəsi ana müqəddəsliyi, ananın toxunulmazlığı ideyasına xidmət edən bir rəvayət üzərində qurulmuşdur.

Hekayədə göstərilir ki, Xan qızı Natəvan öz kiçik yaşlı uşaqları ilə çölə bahar gəzintisinə çıxır. O, balaca Mehdiqulu və Xanbikəyə təbiətin gözəlliyindən, çəmən çiçəklərindən, çöl quşlarından maraqlı söhbətlər etdiyi zaman qarşılarına bir neçə ovçu çıxır. Ovçular çöldə kəmənd atıb tutduqları ceyranı Xan qızının qarşısına qoyub onu balaca Mehdiquluya ərməğan etmək istədiklərini bildirirlər. Uşaqlar bundan çox sevinirlər. Lakin Xan qızı birdən görür ki, ceyranın döşlərindən süd var, demək o bir anadır, haradasa yolunu gözləyən bir balası var. Ananı baladan ayırmağın yolverilməz olduğunu düşünən Xan qızı Natəvan uşaqlarına ibrətamiz bir misal gətirir: uşaqlar öz analarının quldurlar tərəfindən oğurlanıb aparıldığını və bir daha geriyə qayıtmayacağını eşitsələr hansı hala düşərlər? Hər iki balaca bundan çox sarsılacaqlarını söyləyirlər. Xan qızı bu ceyranın da onun kimi bir ana olduğunu və balasından ayrı ananın, anasından da ayrı balanın iztirab çəkdiyini bildirir. Uşaqlar ceyranın balasının yanına getməsini istəyirlər. Xan qızı ceyranı buraxmaq göstərişi verir: "Bağlardan xilas olmuş ceyran atıla-atıla uzaqlaşdı...Ovçular xəcalətli bir sıxıntı içində şairənin üzünə baxa bilmirdilər. Nəhayət, vidalaşdılar və atlanıb uzaqlaşdılar" (2, 69).

Xan qızı Natəvanın ana ceyrana mərhəmətli münasibəti onun həm həssas bir ana, həm də zərif qəlbli, kövrək duyğulu bir şairə olmasından irəli gəlir. Hekayə-rəvayətdə obrazın hər iki səciyyəsi inandırıcı və təsirli

boyalarla canlandırılmışdır. Yazıçının özü də mövzuya bir ana duyumu ilə yanaşmışdır.(4,115)

Əzizə Cəfərzadənin əfsanə və rəvayət mövzusunda qələmə aldığı hekayələr silsiləsi istər dil və üslub keyfiyyətlərində təzahür edən zəngin folkor koloriti, istərsə də folkor mövzusundan məqsədyönlü və məharətli istifadə manerasının bədii uğuru baxımından seçkin örnəklər sayıla bilər.

Ədəbiyyat

1.Cəfərzadə Ə. Eldən-elə. Bakı, Şərq-Qərb, 2006
2.Cəfərzadə Ə. Qızının hekayələri. Bakı, Azərnəşr 1964
3.İsayeva N. XX əsr Azərbaycan hekayəçiliyi və folklor.Bakı, Uğur-2008
4.Qəniyev S. Əzizə Cəfərzadə və şifahi xalq ədəbiyyatı. "Elm və təhsil" nəşriyyatı Bakı, 2015
5.Qəniyev S. Cəfərzadələr ocağı. Bakı, Elm və təhsil, 2016
6.Bəşirli X. XX əsr Azərbaycan ədəbiyyatı və folklor. Elm, Bakı, 1998

С.Байрамова

Способы и формы обращения к теме сказок, легенд и преданий в рассказах Азизы Джафарзаде

Резюме

Художественное творчество народного писателя АзизыДжафар-заде в целом отличается глубокой связью с фольклором, источниками народного творчества. Часть рассказов этого известного писателя были написаны именно на основе фольклорных сюжетов. В том числе, цикл ее рассказов «Сказки моей матери», написанных на основе легенд и преданий, занимают особое место в ее творчестве. Во входящих в этот цикл рассказах «Дагоглан», «Гызбике - Девичья башня», «Свеча и мотылек», «Джейран», «Хлеб» и других, такие общечеловеческие гуманные качества как героизм, отвага, мужество, смелость, честность и патриотизм пропагандируются именно с фольклорно-сказочной позиции, с использованием тематики легенд и преданий.

Писатель, в сочиненных им рассказах, пропускает тему сказок, легенд и преданий через свое художественное воображение и придает им присуще авторскому замыслу смысловое содержание.

S.Bayramova

The methods' forms of apply to the theme of fairy tales, legends and the stories by Aziza Jafarzadeh

Summary

National writer Aziza Jafarzadeh's artistic creativity is especially difference for deep connection with folklore, and sources of national literature. Part of the story of this famous writer were written on the basis of folk stories. In particular, "Tales of my Mother" written on the basis of legends and short stories, occupy a special place in her works.

In the fairy tales such as "Stone boy", "Gyzbike - Maiden Tower", "Candle and butterfly", "Gazelle", "Bread" and in etc. stories, tales, legends haspromoted and inspired universal human qualities as heroism, courage,honesty and patriotism.

The writer in her fairy tales, legends and stories, passed the themes from her artistic imagination and gave them semantic content in accordance to the author's intention.

Rəyçi: Məhərrəm Qasımov
filologiya elmləri doktoru, professor

ÜLVİ MİKAYILOV
BAKI SLAVYAN UNİVERSİTETİ
ulviaydin.m@gmail.com

ƏHMƏD CƏFƏROĞLU VƏ ONUN AZƏRBAYCANŞÜNASLIĞA DAİR TƏDQİQATLARINA BİR NƏZƏR

Açar sözlər: "Əhməd Cəfəroğlu", "Azərbaycanşünaslıq", "Türkoloq alim", "Mühacirət mətbuatı", "Tədqiqat"
Key words: Ahmed Jafaroglu ","Azerbaijan Studies", "Turkologist scientist", "Emigration press", "Research"
Ключевые слова: «Ахмед Джафароглу», «Азербайджанизме», «ученый - тюрколог», «Эмигрантская пресса», «Исследование»

Hər bir dövlətin inkişafı üçün mühüm amillərdən biri dövlətçilik ənənələrinin və milli mənəvi dəyərlərin olmasıdır. Qədim tarixə malik olan Azərbaycanın dövlətçilik ənənələrini və milli mənəvi dəyərlərini qoruyub saxlayan, zaman-zaman inkişaf etdirən, gənc nəsillərə ötürən ziyalılarımız olmuş və bu gündə vardır. Belə ziyalılardan biri də dünya şöhrətli türkoloq alim, ictimai xadim, Azərbaycanşünas, professor Əhməd Cəfəroğlu idi.

Əhməd İsmayıl oğlu Cəfərzadə (Əhməd Cəfəroğlu) 1899-cu il aprel ayının 17-də o zaman ki Yelizavetpol adlanan indiki Gəncə şəhərində dünyaya göz açmışdır. Gənc Əhməd Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə kiçik topçu zabit kimi iştirak etmişdir. Daha sonra Bakı Universitetinin (İndiki Bakı Dövlət Universiteti) Filologiya-tarix fakültəsinin Şərq bölməsinə daxil olmuş, lakin Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra təhsilini yarımçıq qoyaraq İstanbula mühacirət etmək məcburiyyətində qalmışdır. Əhməd Cəfəroğlu mühacir həyatı yaşamasına rəğmən böyük iradə göstərərək təhsilini İstanbul Universitetinin dil və ədəbiyyat fakültəsində davam etdirmiş və 1924-cü ildə Universiteti uğurla bitirmişdir. Əhməd bəy 1929-cu ilin noyabrında Berlin Universitetində professor F.Gizinin rəhbərliyi ilə "Gəncə dialektində 75 Azərbaycan bayatı türküsü. Bir dil araşdırması ilə" mövzusunda dissertasiya işini müdafiə edərək filologiya doktoru adını qazanmışdır. Bütün həyatını elmə, təhsilə xüsusən Azərbaycanşünaslığa dair tədqiqatlara bağlayan Ə.Cəfəroğlu İstanbul Universitetinin Türk dili tarixi kafedrasının dossenti təyin edilmiş, 1938-ci ildən həmin kafedraya professor seçilmişdir. Əhməd bəy 1946-cı ildən ömrünün sonuna qədər Türk dili tarixi kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir. Türkologiyaya aid araşdırmaları Əhməd bəyin beynəlxalq səviyyədə tanınmasına səbəb olmuşdur. O, bir neçə akademiyanın və elmi cəmiyyətin üzvü seçilmiş, Avropa Universitetlərində

mühazirələr oxumuşdur. Ə.Cəfəroğlu 1937-ci ildə Polşa şərqşünaslar cəmiyyətinin həqiqi üzvü, 1938-ci ildə Polşa elmlər akademiyasının müxbir üzvü, 1948-ci ildə Macarıstan elmlər akademiyasının yanında fəaliyyət göstərən Körösi-Skoma cəmiyyətinin müxbir üzvü seçilmişdir. 1949-cu ildən ömrünün sonuna qədər Beynəlxalq Onomastika cəmiyyətində Türkiyənin təmsilçisi olmuşdur.

Əhməd Cəfəroğlu XX əsrin 20-ci illərindən İstanbulda mühacirət həyatı yaşasada daima azərbaycançılıq ideyalarını bütün məsələlərdən üstün tutmuş, Türkologiya ilə məşğul olmaqla yanaşı Azərbaycanşünaslığla bağlı da araşdırmalar apararaq çoxsaylı məqalələr yazmışdır. Ədib Azərbaycan ədəbiyyatşünaslığına, dilçiliyinə, folklorşünaslığına, jurnalistikasına və mədəniyyətşünaslığına böyük töhvələr vermişdir. Əhməd Cəfəroğlunun gərgin iş rejiminin olması belə onun Azərbaycanla bağlı gördüyü işlərə maneçilik törətmirdi. Əhməd bəyin Azərbaycan mühacirət jurnalistikasına ən böyük töhvəsi "Azərbaycan yurd bilgisi" jurnalını təsis etməsi idi. 1932-1934-cü illərdə işıq üzü görən jurnal vasitəsi ilə ədib Azərbaycan həqiqətlərini dünya ictimaiətinə çatdırmağa səy göstərmiş və müəyyən mənada bunu bacarmışdır. Ə.Cəfəroğlu yalnız jurnalı təsis etməklə kifayətlənməmiş jurnalda dərc olunan məqalələrin müəlliflərindən də biri olmuşdur. Jurnalda publisistik yazılarla çıxış edən Cəfəroğlu Azərbaycanın tarixinə, ədəbiyyatına, dilçiliyinə və mədəniyyətinə dair bir sıra yazılar yazmışdır. Bu mühacir mətbu orqanla bir sıra türkiyəli və avropalı alimlər yaxından maraqlanmış jurnala böyük rəğbət bəsləmişdilər. Dünya şöhrətli alimin mühüm xidmətlərindən biri də onda idi ki, "Azərbaycan yurd bilgisi" jurnalının işıq üzü görməsində Türkiyə də təhsil alan azərbaycanlı gənclərin iştirak etməsinə şərait yaradırdı. Bu gənclər sırasında Mir Əziz Seyidli, Sürəyya Talıbxanbəyli, Sadıq Sənan, Fövziyyə Abdulla kimi gənclər vardı. Gənclərin jurnalla əməkdaşlıq etməsi onların Azərbaycanşünaslığa dair biliklərinin artmasına imkan yaradırdı.

Əhməd Cəfəroğlunun Azərbaycan ədəbiyyatşünaslığı qarşısında da mühüm xidmətləri vardır. Müəllifin bu qəbildən olan "Azəri türklərinin ədəbiyyatı", "Qaraxanlılar dövrü türk ədəbiyyatı", "XVII əsr azəri şairi Məlik Avcı", "Modern Azərbaycan ədəbiyyatına toplu bir baxış", "XIX əsr azəri şairi Seraci", "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" və s. məqalələri vardır.

Ə.Cəfəroğlu "Modern Azərbaycan ədəbiyyatına toplu bir baxış" adlı məqaləsində XIX əsr və XX əsrin əvvəllərində yazıb yaratmış Azərbaycanın şair və yazıçıları haqqında məlumat vermişdir. Ədib məqalədə yazırdı ki, Azərbaycan ədəbiyyatında drammatik janr Hüseyn Cavid və Cəfər Cabbarlının qüdrətli istedadları sayəsində özünün ən yüksək inkişaf pilləsinə yüksəlmişdir. Hüseyn Cavidin azəri ədəbiyyatı tarixində ilk mənzum pyes

yazması təmiz və mükəmməl ədəbi üsluba malik olması bədii yaradıcılıq sahəsində həqiqi sənətkar məsuliyyəti ilə çalışması ona milli ədəbiyyat tarixində seçkin mövqe qazandırmışdır. Klassik azəri ədəbiyyatının ənənələri əsasında yetişən Cəfər Cabbarlı da özünə məxsus üslub və sənətkarlıq xüsusiyyətləri ilə milli ədəbiyyata bir silsilə yeni və realist əsərlər bəxş etmişdir. Ədib bununla da göstərirdi ki Hüseyn Cavid və Cəfər Cabbarlı yaradıcılığında Azərbaycan dramaturgiyasının inkişafı açıq hiss olunur və bu inkişaf ədəbiyyatımız üçün son dərəcə mühümdür.

"Azəri ədəbiyyatında istiqlal mücadiləsi izləri" dörd hissəli silsilə məqalələrində Əhməd Cəfəroğlu rus istilasına qarşı azəri xalq ədəbiyyatında qaçaqçılıq hərəkatının dastanlarını qabarıq şəkildə dəyərləndirmişdir. Ədib məqaləsində qeyd edirdi ki "Qaçaq Nəbi" dastanının istər məzmun, istərsə də ideya baxımından ifadə etdiyi başlıca məna onun əsas qəhrəmanının ruslara qarşı istiqlal davasının təmsilçisi olması, xalqının hüquqlarını qorumasıdır. Nəbinin adı ilə millət müstəbidlərə qarşı nifrət və kinini ifadə etmişdir. Bu baxımdan "Qaçaq Nəbi" dastanı bəlkə də azəri türklərinin istiqlal mücadiləsi ədəbiyyatının ən diqqətə layiq nümunələrindən biri sayıla bilər. Türkoloq alim bunu yazmaqla "Qaçaq Nəbi" dastanını yüksək dəyərləndirməklə yanaşı həmdə bu dastanın istiqlal mücadiləsində böyük rol oynadığını vurğulamışdır. Cəfəroğlu yazırdı ki ədəbiyyatın xalqın ruh yüksəkliyinə böyük təsiri vardır. Azəri klassik və xalq ədəbiyyatı rus istilasına qarşı mübarizədə kişilərimizlə yanaşı qadınlarımızında qatılmasını hər vasitə ilə təqdir etmiş və bu mübarizənin daha da genişlənməsinə və ümumxalq hərəkatına çevrilməsinə əlindən gələn yardımı göstərmişdir. Rusların ən qüdrətli və qəddar dövrlərində belə zəifləməyən istiqlal mübarizəsi ədəbiyyatı bu gündə susmamış, ən azı xalq dastanları vasitəsi ilə kütlənin istiqlal arzularının və ümidlərinin ifadəçisinə çevrilmişdir.(1, s. 226) Xalq ədəbiyyatın bəxş etdiyi ruh yüksəkliyini hiss edərək istiqlal mübarizəsini və mücadiləsini davam etdirirdi. Müəllif "Azəri ədəbiyyatında istiqlal mücadiləsi izləri" silsilə məqalələrinin dördüncü hissəsində Həsən bəy Zərdabinin xidmətlərindən bəhs etmiş onun xalqımız üçün gördüyü işləri yüksək dəyərləndirmiş və Zərdabinin maarifçi olaraq Azərbaycançılıq ideyalarını, milli-mənəvi dəyərlərimizi təbliğ etməkdə olan xidmətlərini Azərbaycan xalqı üçün böyük bir töhvə hesab etmişdir. Ədib məqaləsində yazırdı ki ilk milli azəri qəzetinin çap olunduğu günləri bayram kimi qarşılayan insanların günü-gündən artması və bir təbəqəyə çevrilməsini görən rus hökuməti yerli ziyalıların ruslaşdırma siyasətinə qarşı çıxdığını sezmiş və maraqları əleyhinə yönələn bu cərəyana qarşı tədbirlər görməyə başlamışdır(1, s. 233)

XIX əsrin sonlarına yaxın yaranan Azərbaycan mətbuatı milli ədəbiyyatımızın inkişafına təsirsiz ötüşməmişdir. Ədib qeyd edirdi ki

"Həyat" və "Füyuzat" kimi ciddi, yenilikçi ruhlu mətbuat vətənə və millətə xidmət edən ədəbiyyat cığırı açmaqla yeni sözün inkişafına da böyük imkanlar yaratdı. Yeni şeir müəyyən mənada klassik şeirin şəkil və formasını mühafizə etsədə mövzu baxımından dəyişiklik milli cəmiyyətin inkişafını və ehtiyaclarını ifadə etməyə başlamışdır. Vətənpərvər bir mahiyyət olan bu ədəbiyyat özünə məxsus məktəbin formalaşmasına təsir göstərdi. Əhməd Cəfəroğlunun Azərbaycan dilçiliyi ilə də bağlı bir sıra tədqiqatları vardır. Professorun bu mövzuda apardığı araşdırmalar siyahısına "Azəri ləhcəsində bəzi monqol ünsürləri", "Şərqdə və Qərbdə azəri ləhcəsi tədqiqatları" silsilə məqalələr "Öz azəri sözlüyü", "Dil guşəsi" kimi yazılar daxildir. Türkoloq alim "Şərqdə və Qərbdə azəri ləhcəsi tədqiqləri" adlı məqaləsində yazırdı ki, indiyə qədər azəri ləhcəsini ilkin tədqiq edən və bu sahənin ən əski tədqiqatçılarından biri İbn Mühənnadır. İbn Mühənna XIII-XIV əsrlərdə Hülakülər dövlətinin mövcudluğu zamanı yaşamış və azəri ləhcəsini dərindən araşdıraraq tədqiq etmişdir. Azəri ləhcəsinin araşdırılmasına əmək sərf edənlərindən biri də Afanisi Nikitin olmuşdur. Müəyyən vaxtlarda isə azəri ləhcəsinin tədqiqi ilə müəyyən səbəblərdən heç kəs məşğul olmamış, səfəvilərin hakimiyyəti dövründə İtaliyalı səyyah D.F.Mokkonun Qafqaza səyahəti zamanı yerli dillərlə bağlı qələmə aldığı qrammatika kitabında gürcülərlə həmsərhəd olan sakinlərin danışdığı dili araşdırmışdır ki, buda həmin azərilərin türk ləhcəsi olmuşdur. Əhməd Cəfəroğlu məqalədə qeyd edirdi ki, həmin qrammatika kitabı 1643-cü ildə Romada nəşr olunmuşdur.

XIX əsrin əvvəllərində filosof Leybnitsin təşəbbüsü ilə Türk dilləri də araşdırılmağa başlamış, hətta türk dilləri Avropa filologiyasının diqqət mərkəzində saxlanılırdı. Leybnits özünün işləyib hazırladığı yeni müqayisə sisteminin köməyi ilə aralarındakı yaxınlıq dərəcəsinə əsaslanaraq Avropa dillərini təsnif etdiyi kimi macar, türk, fin və monqol dilləri arasındakı əlaqələri də tədqiqatları vasitəsi ilə aşkarlamağa nail olmuşdur(1, s. 274) Dünya şöhrətli alim tədqiqatlarında bu məqamları diqqətdə saxlamaqla göstərirdi ki, azəri türkcəsinin araşdırılması orta əsrlərdən başlamış və daha sonra avropalı alimlərin də diqqətini cəlb etmişdir.

Əhməd Cəfəroğlu Azərbaycan elminə dair araşdırmaları ilə bahəm Azərbaycanşünaslığa töhvə vermiş ziyalılarla da bağlı elmi publisistik məqalələr yazmışdır. Bu məqalələri yazmaqda onun məqsədi görkəmli şəxsiyyətləri gələcək Azərbaycan nəsillərinə tanıtmaq, həmin ziyalıların elmi və bədii irsini araşdırmaq idi. Ədibin bu qəbildən olan məqalələri sırasında böyük "Azərbaycan alimi Mirzə Kazım bəy", "Mirzə Fətəli Axundzadə", adlı tədqiqatları vardı. "İsmayıl bəy Qaspirinski" adlı məqaləsində müəllif yazırdı ki, "Tərcümanın" ilk sayının işıq üzü gördüyü 23 aprel tarixi bütün Türk ellərinin milli bayramıdır. İsmayıl bəyin ilk azəri qəzetçisi məslək və əməl etibarı ilə özünə çox bənzəyən Zərdabi ilə yaxından ülfəti onu azəri

mühitinə daha isti və sıx tellərlə bağlamışdır. Özündən 8 il əvvəl eyni qayə ilə Azərbaycanda fəaliyyətə başlayan Zərdabinin Rusiya türklərinin ilk qəzeti kimi nəşr etdirdiyi "Əkinçi" bir neçə illik fəaliyyətindən sonra qapadıldığı zaman əks sədasını İsmayıl bəyin tərcümanında tapdı.(2, s. 65) Əhməd bəy, İsmayıl bəy Qaspirinskinin fəaliyyətini və tərcümandakı xidmətlərini dəyərləndirərək ümumən türklər üçün mühüm işlər gördüyünü tədqiqatlarında qeyd edirdi. Ə.Cəfəroğlu azərbaycanlı yazıçı, dramaturq Mirzə Fətəli Axundzadə ilə bağlı araşdırmalar apararaq məqalələr yazmışdır. "Mirzə Fətəli Axundzadə" adlanan məqalədə dramaturqun şəxsiyyətini və xidmətlərini xarakterizə edən Əhməd bəy yazırdı ki, Mirzə Fətəli özünün fikir həyatı və elmi fəaliyyəti ilə sadəcə azəri türklərinin ilk dramaturqu olaraq qalmamış, ümumtürk filologiyasını və mədəniyyət tarixini maraqlandıran əsas problem ərəb əlifbasının islahı və müasir latın əlifbasının türk xalqlarının yazısına tətbiqi məsələsi ilə yaxından məşqul olan ilk türk ziyalısı kimi tarixdə layiqli yerini tutmuşdur. Fikirdəndə aydın olur ki, Cəfəroğlu Mirzə Fətəli Axundzadəni yalnız azərbaycançılıq üçün deyil ümumən türk dünyası üçün böyük işlər gördüyünü nəzərə çatdırırdı. Professor daha sonra məqalədə qeyd edirdi ki, Mirzə Fətəlinin həyatını və tərcümeyi halını öyrənmək üçün daha ətraflı tədqiqata ehtiyac vardır. Bu eyni zamanda azəri türklərinin milli hərəkat tarixini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Onun davamçıları olan pyes müəllifləri, himayə etdiyi şairlərin bir qismi sonralar Azərbaycanın ictimai, siyasi mühitində ciddi rol oynamışdırlar. Bu baxımdan Mirzə Fətəli Azərbaycan xalqının həyatında unudulmaz izlər qoyan və xatirəsi şükranla yad olunmağa layiq şəxsiyyətlərdən biridir(1, s. 323) Cəfəroğlunun bu məqaləsi o dönəmdə yetmişməkdə olan nəsillərə Azərbaycan ziyalısının tanıdılması üçün mühüm bir xidmət idi.

Professor Əhməd Cəfəroğlu Azərbaycan folklorşünaslığı ilə bağlı araşdırmalar apararaq bir sıra məqalələr də yazmışdır. "Azəri xalq ədəbiyyatında Aşıq Qərib" dastanı da bu məqalələrdəndir ki, zəngin dastan ədəbiyyatına malik olan Azərbaycanda aşıqların yaratdıqları və yaşatdıqları "Koroğlu" dastanından sonra bu günə qədər ortaya qoyduqları ən mühüm dastanlardan biri də "Aşıq Qərib" dastanı olmuşdur. Cəfəroğlunun qənaətinə görə naqis şəkildə də olsa "Aşıq Qərib" dastanını ilk dəfə Azərbaycan xalq aşıqlarının ifasında dinləyib, yazıya alan Mahmudbəyov soyadlı kənd müəllimi olmuşdur. Mahmudbəyov Bakı quberniyasının Şamaxı nahiyəsindəki Tircan kəndinin sakini aşıq Orucdan eşitdiyi rəvayəti əski Ərəb hərfləri ilə Osmanlı ləhcəsinə meyilli bir ləhcədə yazıya almışdır. Dastanın mətnini ilk dəfə yazıya alan Mahmudbəyovun "Aşıq Qərib" haqqında verdiyi məlumatlar ümumən bunlardan ibarətdir. O şeirlər arasında aşıqla bağlı məlumatlar verməyə çalışmışdır. Lakin mövzuya bələd

olmayanlar Mahmudbəyovun nə demək istədiyini çətin ki analaya bilsinlər(1, s. 77) Məqalədən aydın olur ki, türkoloq alimin "Aşıq Qəribin" yazıya alınmasını naqis hesab etməsinin səbəbi dastanın aydın şəkildə başa düşülməməsi, fikirlərin natamam olması və "Aşıq Qərib" haqqında geniş məlumat verilməməsidir. Ə.Cəfəroğlu yazdığı məqalədə dastandan müəyyən hissələr də göstərmişdir. Bu şeirlərin vasitəsi ilə dastanda yer alan obrazları oxucu ilə tanış etmişdir. Dastanın təsviri qısaca da olsa məqalədə öz əksini tapmış və dastan haqqında oxucuda təəssüratlar yarada bilmişdir. İki hissədən ibarət olan "Azəri ədəbiyyatında Aşıq Qərib dastanı" adlı məqalə XX əsrin 30-cu illərində Azərbaycan dastanlarının tədqiqi baxımından ədəbiyyatşünaslığımız üçün dəyərli və hər zaman gərəkli olan tədqiqat nümunəsidir.

Ə.Cəfəroğlu ədəbiyyatşünaslığa, folkulorşünaslığa, dilçiliyə və Azərbaycan tarixinə dair elmi məqalələr yazmaqla yanaşı siyasi publisistika sahəsində də qələmini sınamışdır. Türkoloq alim, yalnız dilçi, ədəbiyyatşünas kimi deyil, eyni zamanda dəyərli publisist kimi də Azərbaycan tarixində özünə məxsus yer qazanmışdır. Əhməd bəyin Azərbaycanın istilasına, istiqlalına və Türkiyə Cümhuriyyətinin yaranması ilə bağlı bir sıra publisistik yazılar da vardır. Türkiyədə mühacir həyatı yaşayan Cəfəroğlu xüsusən də azərbaycanlıların çəkdiyi ağrı acıları xalqımızın başına gətirilən bəlaları publisistik yazılarında əks etdirir və bununla yanaşı bolşevizm rejiminin azərbaycanlılara qarşı göstərdiyi hiddətləri yazılarında xüsusi qeyd edirdi, ölkəmizdə cərəyan edən hadisələrdən beynəlxalq aləmi xəbərdar etməyə səy göstərirdi. Publisistin "Azərbaycanın milli matəmi 27 nisan 1920" adlı məqaləsi belə başalayır. Hürr yaşadığı iki illik ağ günlər ona çox görüldü. Qurduğu ilk Türk Cümhuriyyəti düşmənin gözünə batdı. 27 nisan 1920-ci ildə bir əsrdə artıq istila və əsarətinə qarşı mübarizə apardığı düşmənin təkrar istilasına uğradı. 1918-ci ilin mayısından 1920-ci ilin nisanına qədər ancaq iki ilə qədər davam edən müstəqil bir həyat sürə bildi. Zavallı Azərbaycan, Çəkmədiyin qalmadı. Uğurlu, şanlı, sevincli günlərin qara günlərə çevrildi. (1, s. 355) Əhməd bəy bu fikirləri yazarkən Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq mövcudluğunu bildirir və daha sonra qeyd edir ki, Azərbaycan xalqının başına gətirilənlər, ağrılı, acılı günlər xalqın 23 ayda yaşadığı xoş günləri əvəz etmiş, xalqımız zülümlərə və işgəncələrə məruz qalmışdır.

"On il 28 mayıs 1928" adlı məqaləsində isə professor Cəfəroğlu yazırdı ki 28 mayıs hər türkü sevindirən ilk türk cümhuriyyətinin yəni Azərbaycanın qurtuluş tarixidir. On il bundan əvvəl mayısın 28-də milli idealın təyin və təsbit edən azəri türklüyü əsarət zəncirindən qurtularaq öz istiqlalı ilə qocaman türk tarixinə qovuşmuşdur. Türk millətinin müstəqillik qazana bilməyən böyük bir qismi Rusiya əsarəti altında qaldığı bir vaxtda

yeni doğulan bu milli Türk Cümhuriyyəti (Yəni Azərbaycan) Şimal-Şərqdəki Türk dünyasının xilası vəzifəsini öz üzərinə götürdü(1, s. 357) Azərbaycanın qələbə qazandığını bildirən ədib həmin hadisədən 10 il keçməsinə baxmayaraq həmin günü unutmur, ruh düşkünlüyünə qapılmadan Azərbaycanın istilaya uğramasına baxmayaraq yenidən qələbə qazanacağına inanır və məqaləsində yazırdı ki, 1918-ci ilin həmin gününü yenidən təkrar yaşayacağıq. Əhməd bəyin bu qədər inandırıcı fikirləri oxucularda da ümidləri artırır, hər kəsdə ruh yüksəkliyi yaradırdı.

Türkiyədə mühacirət həyatı yaşasada türkoloq alimin ürəyi hər zaman Azərbaycan eşqi ilə döyünürdü. Azərbaycanlıları bir olmağa səsləyən türkoloq alim yalnız Azərbaycanın deyil ümumən türk dünyasının uğurlarına sevinir və qələbə qazanacağına inanırdı. Bu onun məqalələrində də öz əksini tapırdı. Müəllifin "Türkiyə Cümhuriyyətinin 10 illiyi" məqaləsi bu fikirlə başlayırdı: Oktyabr ayının 29-da Türkiyə Cümhuriyyətinin elan olunmasının onuncu il dönümü. Sözün həqiqi mənasında bütün Türk dünyasının həyatı əhəmiyyətinə malik bir bayramdır. Hər il Türk Cümhuriyyətinin rifah və inkişaf içərisində daha bir yaşını doldurması istiqlal ümidi ilə yaşayan əsir türk ellərini qəti milli qurtuluş ümidinə daha da yaxınlaşdırır. Türkiyənin istiqlalını, qələbəsi hesab edən Əhməd Cəfəroğlu daha sonra yazır ki, keçirdiyimiz 29 oktyabr bayramları türklük üçün Cümhuriyyət yolunda verilən bir imtahan misalındadır və biz başqa ölkələrdən gəlmiş türklər Türkiyə Cümhuriyyətindən danışarkən istər istəməz gözümüz önündə hələ xilas yolu tapa bilməyən lakin bu yolda əzm və səbatla vuruşan türk ellərinin siyasi mücadilə həyatının hadisələri canlanmaqdadır.(1, s. 363)Əhməd bəy Türkiyə ilə bağlı yazsada bu məqalələrdə də Azərbaycanda baş verən hadisələrdən də bəhs edir və Azərbaycanın istiqlalını arzulayır. Müəllif məqalənin sonunda yazırdı ki, şəhidləri, dilləri, soyları bir olan bu qardaşların hər ikisi istiqlala qovuşmayana qədər Türkün tam zəfərindən danışmaq mümkün deyil. Türkiyə Cümhuriyyətinin şərəfli 10 illik bayramını canımız və qanımızla təbrik edərkən Türkiyənin kiçik qardaşı olan Azərbaycanın da tezliklə istiqlal zəfərinə qovuşmasını uca Tanrıdan diləyir, böyük qardaşımızı bir daha minnətdarlıq və şükranla salamlayırıq.(1, s. 366)Əhməd Cəfəroğlunun ümumən irsinə nəzər saldıqda onun Azərbaycanşünaslığa nə qədər böyük töhvə verdiyinin bir daha şahidi oluruq. İstər Azərbaycan mühacirət mətbutında, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında, dilçiliyində, folklorşünaslığında dünya miqyasında tanınan türkoloq alimin böyük və əhəmiyyətli xidmətləri vardır. Əhməd Cəfəroğlunun elmi irsi yalnız azərbaycanlı tədqiqatçılar tərəfindən deyil, türkiyəli araşdırmaçılar tərəfindən də araşdırılaraq öyrənilməkdədir. Türkoloq alimin Azərbaycanşünaslığa dair apardığı araşdırmalar və yazdığı

tədqiqat əsərləri Azərbaycanşünaslığı tədqiq edən tədqiqatçılar üçün elmi baza rolunu oynamaqdadır.

Ədəbiyyat

1. Cəfəroğlu Əhməd, Seçilmiş əsərləri. Bakı-mütərcim-2008, 407 səh
2. Cəfəroğlu Ə. İsmayıl bəy Qaspirinski-"Azərbaycan yurd bilgisi" jurnal 1933
3. Həsənova Şəlalə "Mühacirət irsimizin yurd bilgisi". Bakı-2014(Təkrar və əlavə olunmuş nəşr)
4. Rüstəmova S. Azərbaycan dövri mətbuatı (1875-1990) Bakı, Azər-nəşr, 1993, 56 səh
5. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998, 157 səh

U. Mikayilov

Ahmed Jafaroghlu and a view on his research of azerbaijan studies

Summary

If we have a brief look to Ahmed Jafaroghlu life, we can see that being born in Azerbaijan on April 27, 1920, A. Jafaroghlu then was forced to emigrate to Turkey. Continuing his education in Turkey he reached the degree of philology doctor. Up to the end of his life we worked in Istanbul university, department of history of Turkish language. The article talk about the history of "Azerbaijan knowledge of the country" magazine and its subjects that is the greatest contribution of A. Jafaroghly to Azerbaijan emigration press. The study of the professor towards literature study is analyzed and the role of literature in the struggle for Azerbaijan independence is clearly indicated. The scientific works of the writer on Azerbaijani linguistics and folklore are kept in the spotlight of the article. The testing of the turkologist scientist pen in political journalism is also reflected in the article. The examples of the Ahmed Jafaroghlu articles of the independence of Azerbaijan and its occupation are analyzed in the article. In general, the article discusses the studies of professor Ahmed Jafaroglu conducted on Azerbaijan.

У,Микаилов

Ахмед Джафароглу и взгляд на его исследования об азербайджанизме

Резюме

Если вкратце рассмотреть жизнь Ахмеда Джафароглу, выяснится, что родившийся в Азербайджане А. Джафароглу вынужден был эмигрировать в Турцию после 27 апреля 1920г. Здесь он продолжает получение образования и получает научную степень доктора филологии. До конца жизни работал на кафедре Истории тюркского языка Стамбульского университета. В статье рассказывается об истории основания журнала «Знания о родном Азербайджане», явившимся самым крупным вкладом Ахмеда Джафароглу для Азербайджанской эмигрантской прессы. Проводится анализ исследований профессора о литературоведении и наглядно указывается роль литературы в борьбе за независимость Азербайджана. Научные труды ученого об азербайджанском языковедении и фольклористике становятся объектом пристального внимания в статье. Также в статье говорится о том, что ученый–тюрколог испытывал себя в политической публицистике. Приводятся примеры из статей, написанных Ахмедом Джафароглу о независимости и оккупации Азербайджана. В целом, в статье рассматривается исследования профессора Ахмеда Джафароглу об азербайджанизме.

Rəyçi **Əliş Ağamirzəyev**
filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏQSANƏ ŞIXCANOVA
Bakı Mühəndislik Universiteti.
r.shixcanova@gmail.com

MƏHƏMMƏD FÜZULİNİN AŞIQ OBRAZINDA ƏNƏNƏ VƏ NOVATORLUQ

Açar sözlər: ənənə, novatorluq, qəzəl, ilahi sevgi, aşiq, eşq, qəm, ney, səbr, ağıl, təsəvvüf.
Ключевые слова : традиция, новаторство, газель, богиня любовъ, влюбленный, любовь, печаль, свирель, терпение, ум, представление.
Key words: love, lover, lyric, sadness, tradition, novelty, reed, patience, wisdom, mysticism, divine love.

Füzuli qələmi qəm təsvirində həqiqətən misilsizdir. Onun qəzəllərindən kədər, qəm ətri duyulur. Füzuli yaradıcılığı başdan-başa qəm yüklüdür. Füzulinin aşiq obrazı klassik şərq ədəbiyyatında olan aşiq obrazlarından fərqli olaraq, qəm yüklü, eşq iztirabının sadiq təmsilçisi kimi anlaşılan bir obrazdır. Onun aşiqi miskin, bikəs, biçarə, avarə, fəqir, dərviş, divanə və sairə adlar şəklində təmsil olunur. Bu adlar aşiqə xas xüsusiyyətləri özündə ehtiva edir. Şairin çox işlətdiyi dərd, qəm, qüssə, kədər, qübar, ah, fəğan, ənduh , azar, nalə, naşad, təşviş, sitəm, aciz, müqəyyəd, əsir, əhzan, bidad, qəmküsar, dərdnak, bimar, zar, məriz, pərişanhal, məlal, fəryad və s. söz və ifadələr də onun şeirinin kədər motivi haqqında az şey demir. Kədər, iztirab motivi şairin lirik "mən"inin psixoloji vəziyyətini şərtləndirən başlıca amil rolunu oynayır."dərddən yapış ki, şeir yarışında söz topunu apara biləsən"-sözlərini Füzuli romantizminin baş leytmotivi ana xətti adlandırmaq olar. [10, s. 62]

Fani dünya nemətlərinə aludə olmaq batini unutmaq dərəcəsinə gətirib çıxardır. Həyatını dünyanı ləzzəti üzərində quranlar dərd-qəmin nə olduğunu anlamaz, təfəkkür və təxəyyülə dala bilməzlər. Zövqü-səfa dərd-qəmin hasarıdır. Əgər dərd şairə dünyanı və insanın daxili aləmini görüb duymaq uçun göz və qəlb verirsə, zövqü-səfa bunları şairin əlindən alır, onun gözünü pərdələyir, qəlbini qatıladır. Füzuliyə görə nəşə və təntənə şeirinin ləzzəti olmur; əsl mənəvi zövq və ləzzət kədər saçan şeirdədir. Ürək dərdi, ciyər dağı olmayanın şeirində dad olmaz; rahatlıq kef çəkmək şeirə dad verməz. [7, s.42] Lakin Füzulidən fərqli olaraq, dahi Nizami şeirdə nəşə və təntənəni üstün tutur. Nizami qəmli dastan yazmağın çətinliyindən nə qədər bəhs etsə də, onun son qənaəti belədir: şeirin predmeti nəşə və kefdir. Füzuli isə şairliyin əsas sərmayəsinin dərd olduğunu vurğulayır. Iki dahinin bir-birinə zidd iki nəzəri vardır: Nizami şeirinin mayası nəşə, Füzuli şeirinin

mayası dərddir. Füzuli bir şeirində özünü bütün bəşəriyyətin " qəm xəzinədarı " hesab edir, zəmanət verir ki; "Qanda bir qəm itsə, məndən istəsinlər" . Çünki dünya-aləmin bütün qəmi, kədəri şairdə toplanmışdır.Füzuli üçün eşq dərdinin dəvası yalnız və yalnız ruhun cismini tərk etməsində görür.

Eşq dərdinin dəvası qabili-dərman deyil
Tərki can derlər bu dərdin mötəbər dərmanına. [2, s. 48]

Füzulinin aşiq obrazına usanmadan ağlamaq, inləmək, zarımaq artıq xarakterik bir hal almışdır. Füzulinin aşiq obrazı deyərkən ağlımıza ilk olaraq, pəjmurdə,tək-tənha halda səhraları dolaşan dərviş timsallı bir obraz gözümüzdə canlanır. Aşiq özünü təvazökar,əzəmətli, gözü-könlü tox, xoş niyyətli bir bəndə sayır. O, təkəbbürdən uzaq, dünyanın bütün təmtəraqlı cazibəsindən uzaq olan saf niyyətli bir dərvişdir. Aşiq üçün gözəldən və onun eşqindən başqa bu dünyada heç bir maddi varlıq yoxdur.

Təsəvvüf ədəbiyyatında ağılla, eşqin qarşı-qarşıya qoyulması tez-tez rast gəlinən məsələlərdən biridir. Ağıl psixoloji fəaliyyətin beyin vasitəsiylə həyata keçirilən, çox inkişaf eləmiş xüsusi bir funksiyasıdır. Ağıl varsa, onun vasitəsi ilə idrak da var, idrak varsa insan da var və yalnız bu halda yaşamağa dəyər. Ağıl vasitəsi ilə məqsədlər müəyyənləşdirilir, onlara çatmaq üçün məntiqi yollar tapılır, situasiyaları düzgün dəyərləndirməkdə çox böyük rol oynayır. Ağıl intellektual bir prosesdir. Şərq dünyasının və eləcə də təsəvvüf ədəbiyyatının görkəmli mütəfəkkiri Mövlanə Cəlaləddin Rumiyə görə ağıl "Ağıl, sonradan ah çəkmək üçün deyil, əvvəlcədən düşünüb tədbir görmək üçündür." Ağıl insan idrakının məhsuludur, insanı bəşəriyyətdə fərqli qılan məhz ağlın özüdür. Ağıl insana rahatlıq, əmin-amanlıq gətirir, eşq isə insanı dərdə, əzaba düçar edir. Lakin ürfani bir prizmadan yanaşsaq, bunu fərqli aspektən dəyərləndirilməsini görə bilərik. Sufilərə görə, həqiqətə qovuşmaq uğrunda çəkilən əzab əziyyətlər salik üçün ən böyük rahatlıqdır. Eşqin fəsadı əqlin salamatlığından üstün tutulur. Həqiqi eşq Haqqa aparan yoldur.

Bu bədii təzad kimi anlaşılan ifadələr Füzuli yaradıcılığında da öz əksini tapmışdır. Füzuli dərdi və kədəri əqlin idrakın göstəricisi kimi qeyd edir. Əql şairin fikrincə, bəşəri sərvətlərin təkcə birincisi və mənbəyi deyil, həm də bəşərin özüdür. Ağıllı olub dərd çəkmək dəli olub səfa sürməkdən ölçüyəgəlməz dərəcədə əfzəldir. Çünki birincilərdən fərqli olaraq ikincilər yalnız bioloji varlıq pilləsindədir. Füzuli əqli yalnız səmərəli işlərə, elm, ürfan, ədəb təhsilinə xərcləməyi məsləhət görür.Füzulinin fikrincə bütün dərdlər əqli səmərəli səmtə yönəldə bilməməkdən başlayır. Füzuli dərdi və kədəri əqlin idrakın nəticəsi və göstəricisi kimi qeyd edir. [7, s. 53]

Əql yar olsaydı, tərki –eşqi-yar etməzmidim?
Ixtiyar olsaydı, rahət ixtiyar etməzmidim? [1, s. 114]

Ancaq Füzuli eşqi qarşısında ağıl belə tab gətirə bilmir, gücsüzləşir, döyüş meydanında acizliyindən kənara çəkilir. Eşq isə aşiqin kamal mərtəbəsi məqamına ucalmasında ən böyük yardımçı rolunu oynayır.

Füzulinin qəzəllərində ah-nalənin ifadə vasitəsinin təsviri neydir. Orta əsrlər şərq ədəbiyyatında "ney" mövzusuna bir çox şairlər müraciət etmişdir. Lakin Mövlanə Cəlaləddin Rumi qədər neyin sızlayışını, neyin həsrətini təfərrüatlı və ürfani şəkildə təsvirini və izahını verən olmamışdır. C. Rumi Məsnəvisində ney mövzusuna geniş yer verir: " Ney deyir ki: "Qamışlıqda kəsildiyim o andan bəri fəryadımdan hissiyatı olan kişi də, qadın da inləyib ağlamaqdadır. Amma mənə qulaq kəsilən hər kəs nələr dediyimi tam anlaya bilməz, gerçək fəryadımı duya bilməz. Məni anlayıb duymaqdan ötrü ayrılıq acısı çəkən, könlü dağlı, yaralı, həssas birisi gərəkdir ki, ona dərdlərimi, acılarımı anladım.

Əslindən-kökündən, vətənindən ayrı düşən, oralardan uzaqlaşan insan doğma yerlərdə keçirdiyi xoş zamanları axtarar, həmin anları təkrar yaşamaq istər, yəni ayrıldığı o sevgiliyə təkrar qovuşmağı arzular. Mən hər məclisdə, hər toplumda ağlayıb-inləyib durdum. Huysuz insanlarla da, yaxşı insanlarla da yoldaşlıq etdim." [4, s. 27] Mövlanəyə görə ney nəfsani hislərdən paklanmış insan ruhunun rəmzidir. Necə ki, ney qamışlıqdan ayrı düşdüyü üçün nalə edir, eləcə də insan öz əzəli və əbədi aləmindən ayrı düşdüyü üçün fəğan etməli, maddi dünyadan mənəvi dünyaya keçidinin həsrətiylə yanmalıdır. O, mütləq bütünlükdən ayrı düşdüyünə görə daim sızlayıb inildəyir. Bu inləyişlər eşqə çevrilər. Eşq mütləq bütünlüyə qovuşmaq üçün əsas yoldur. Neyə nəfəs toxunduğunda eşqini həzin bir musiqi ilə dilə gətirər, öz keçmişini, mütləq bütünlüyü yad edib rahatlıq tapar. Insan da aşiq olduğu vəziyyətdən etibarən daim təfəkkür edərək mütləq bütünlüyü yad etməlidir.

Neyin insan ruhunun simvolu kimi təsvirini biz Füzuli qəzəllərində də görə bilirik. Füzuli aşiqini hər halıyla neyə bənzədir:

Neyi bəzmi qəməm ey ah , nə bulsan yelə ver,
Oda yanmış quru cismimdə həvadan qeyri.

Müasir azərbaycan dilində beytin mənası belədir: Mən qəm məclisinin neyiyəm. Ey ah quru cismimdə havadan başqa nə tapsan yelə ver. Beytdə aşiq ney musiqi alətinə bənzədilir. Neyi hazırlamaq üçün yaş qamışı kəsirlər. Bir müddət qurutduqdan sonra onun içindəki artıq maddələrin yanması üçün onu odda qurudurlar, içi bomboş olur, içində havadan başqa heç nə qalmır. Neydən musiqi səs çıxması üçün onun içindəkilərin yanması və quru olması lazımdı.

Beytin təsəvvüf mənası daha güclüdür. Belə ki, təsəvvüfdə insanın Allaha yaxınlaşmağa qoymayan amil onun daxili mənəvi dünyasıdır. Bizim nəfsimiz, dünyəvi arzularımız bizi Allaha yaxınlaşmağımıza ən böyük əngəl

törədən amillərdir. Sufilər deyir ki, o insan kamil insandır ki, öz içində olan məni yox etsin, onu içində əridə bilsin. Bütün bunlara isə ilahi eşq odunda yansa ona nail ola bilər. İnsan hər dəfə ilahi eşq odunda yandıqca onun nəfsani arzuları əriyərək yox olur və nəticədə insan kamilləşir " fəna-fillah"-a qovuşur. [4, s. 175]

Aşiqin hər dərdə səbri vardır. Ancaq söhbət gözəldən gedərsə, səbrli olmağa qısqanclığı imkan verməz. Sevgilisinin eşqindən onun həsrətinə, hicranına səbri yetməz. Şairin bir digər beytində isə aşiqin səbr əhlindən olmasının, hətta bülbül ilə müqayisədə daha cəsarətli olmasının təsviri verilmişdir.

Əhli –təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun , hər ləhzə min fəryadı var. [1, s. 68]

Beytdə deyilir: Mən səbr əhlindənəm ey gül üzlü yar, məni bülbülə bənzətmə.O mənim dərdimi daşıyacaq iradədə, səbrdə ola bilməz. Çünki o dərdə düşəndə o dəqiqə içindəkiləri hayqırır, dərdini içinə atıb aşiq kimi bağrını qan etmir. Aşiq öz eşqini gül ilə bülbülə deyil, şam ilə pərvanəyə bənzədir. Çünki bülbül gülün eşqindən daima cəh-cəh vurur, sevgisini, dərdini yalnız oxumaqla bəyan edir. Amma aşiq öz eşqində pervanə kimi yox olmağı üstün tutur. Ona görə eşq pervanə kimi odda yanmaqdır. Şam ilə pərvanədə istəklə can vermək əsasdır. Pərvanə can verməyincə rahat olmaz. Yay axşamlarında, yaxud otaqda yanan şamın çevrəsindəki bir pərvanənin işığa qarşı olan şövqünə diqqət edilsə, bu eşqi anlaya bilərik. Pərvanə canını verməklə parıldayar, tam mənasıyla orada yox olub sonsuzluğa qərq olar. [3, s. 129]

Füzuli bəzən özünü eşqindən şama bənzədir. Şamın həyatı atəşdə yanmaqdan ibarət olduğu üçün, atəş onun üçün ayrılmaz bir hissəsidir. Şam yandığı təqdirdə ətrafını nura qərq edər, ancaq şamı qurtarmaq üçün o atəşi söndürsək, şamın da həyatı sönmüş olar. Füzuli də eşq atəşindən şam kimi yanmağı daha üstün saymışdır. Çünki yandıqca şam kimi daha da rahatlaşır və sonda atəşdə yox olur.

Şəmin ki həyatı oldu atəş
Halı onun atəş ilədir xoş
Oddan diləyən onun nicatın
Fani diləmiş ola həyatın. [8, s. 57]

Füzuli səbr edənlərin sonda səbrinin mükafatını alacağına inam bəsləyir. Çünki dərdi verən mütləq ki, onun dərmanını da verəcəkdir. Gözləyib səbr etsə, muradına çatacaqdır.

Ey Füzuli, bizə təqdir qəm etmiş ruzi,
Qılalım səbr, nədir çarə rizadan qeyri? [6, s. 135]

Füzuli qəzəllərində "ah" kəliməsinə də tez-tez yer verilir. Qəzəllərdə ah kəliməsi bir neçə mənada işlədilir. Bir müraciət olunana xitab edərək

istifadə edilir, digər anlamı isə naləni ifadə etmək üçün işlədilmişdir. Ah-eşqin kamal nişanəsidir, dil ilə bunu ifadə etmək çətin və hətta qeyri-mümkündür. Nalə isə ürəyin əsl məqama və həqiqi məqsədə yönələrkən ondan doğan gizli qəlb münacatıdır. Şairin ah ilə dünyaya inqilab verməsi, çərxi-dünyadan intiqam alması, bərqi ah ilə ulduzları yandırması, xurşid xirəmininə od vurması, onun iztirablarının şiddətini göstərir. [5, s. 168]

Ah eylədiyim sərvi-xuramanın üçündür,
Qan ağladığım qönçeyi-xəndanın üçündür.[1, s. 60]

Poetik: Sərv boylu gözəl(sərvə bənzədilən sevgilinin yerişi də sərv ağacının külək olanda dalğalanmasına bənzədilir) aşiqin yanından gülümsəyərək keçir. Bu boy buxunu bu qaməti görən aşiq qəlbindəki atəşin nəticəində dərindən dağları dələn bir ah çəkir. Aşiq məşuqun canlar alan təbəssümündən dolayı onun qönçə dodaqları üçün həsrətdən qanlı göz yaşı tökür. – sərvi-xuraman (qızın boyu) incə və uca olduğu üçün aşiq də ona uyğun hal keçirir: nazik ağacı xatırladan və göyə doğru baş alan ahlar çəkir; qızın qönçeyi-xəndanı (açılmamış gülümsər dodaqları, düymə ağızlı) qıpqırmızı olduğu üçün aşiq də gözündən qıpqırmızı qan tökür.Qızın nərgiz gözləri xumar olduğu üçün aşiqin bədəni də xəstə haldadır; qızın dürr saçan dodaqları ləl kimi olduğu üçün aşiqin ciyəri də qırmızı qanla dolub.

Təsəvvüf : təsəvvüfdə sərv və qönçə vəhdətdir. Aşiq vəhdətə çatmaq üçün ah edir, kəsrət üzündən qanlı göz yaşı tökür. Qan ağlamaq, içində var olan bütün pis maddələrdən təmizləyir və nəticədə də vəhdətə çatmış olursan. Zahirən belə düşünmək olar ki, bu sözləri düzməkdə bir elə çətinlik yoxdur; sərvi-xuraman, qönçey- xəndan , zülfi-pərişan, ləli-dürəfşan və s. lakin şeirə dərindən diqqət etdikdə və Füzuli üsubu ilə azacıq tanış olduqda məlum olur ki, bu ifadələr Füzuli qələmində tamamilə yeni məzmun kəsb edir. Füzuli bu cür sözləri beytlərə həkk edir, qəzəllərinə özünəməxsus koloritli rəng qatır. Bu misralarda fikirlər sözlərə elə qablaşdırılmışdır ki bunları dəyişmək, əvəzləmək qətiyyən mümkün deyil.

Füzuliyə qədərki dövrə nəzər salsaq görərik ki, Füzulidə olan bir çox ədəbi forma və üslublar, keyfiyyət və bədii əlvanlıq onun sələfilərində yoxdur. Elə bu xüsusiyyətlər Füzuli şeirinin novatorluğunu təşkil edir.Şairin söz sənətindən ən böyük tələblərindən biri novatorluq keyfiyyəti idi. Füzuli bunun həm yolunu göstərir,həm faydasını görür, həm də nümunəsini verirdi.” Sələfləri bütünlüklə öyrən ki, yazdığın onlarınkına oxşamasın” göstərişi əslində həm də ən böyük novatorluq tələbi, ifadəsi idi. [7, s. 212] Şair yaradıcılığında öz sələfilərinin bədii irsindən qaynaqlandığı təqdirdə, təkrara yol verməmiş, daima yeni kəşflərlə, öz novator fəaliyyəti ilə istər bədii, istərsə də elmi yaradıcılığını zənginləşdirmişdir. Elə Füzulinin ədəbiyyatımızda beş yüz il hakim mövqedə olmasına səbəb məhz bu amillərdi.

Ədəbiyyat

1. Füzuli. “ Seçilmiş əsərləri”. Bakı, “ Şərq-Qərb”, 1992
2. Gülşən Kəngərli. “ Füzuli poetikası”. Bakı, “Yazıçı”, 2015
3. İskender Pala. “ Perişan gazeller”. İstanbul, “ Kapı yayınları”, 2005
4. Mövlanə Cəlaləddin Rumi. “““ Məsnəvi”-dən seçmələr”. Bakı, “ Yom yayınları”, 2007
5. Nəsib Göyüşov. “ Füzuli; Düşüncə və ruhun poetikası”. Bakı, 2011
6. Ramiz Faseh. “ Füzuli şeirində təsəvvüfü qaynaqlar”. Bakı, “ Elm”, 2000
7. Sabir Əliyev “Füzulinin poetikası”. Bakı, “Yazıçı”, 1985
8. Selaheddin Yaşar. “ Füzuli”. Istanbul, “ Yeni asya yayınları”, 1989
9. Sərxan Xavəri. “ Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu”. Bakı, “ Elm”, 2016
10. Zəkulla Bayramlı. “ Füzuli və çağdaş ədəbi-nəzəri fikir”. Bakı, “ Elm”, 2010

Р.Шыхджанова

Традици и новарство образа влюбленного в творчестве Мухаммеда Физули

Резюме

В стате говорится о жанре газел, являющейс вершиной творчества Физули. Основным атрибутом газели является образ влюбленного. В стате исследованы характерный особенности, присуцие любовным газелям поэта, рассмотрены некоторые нюансы в этих газелях. Образ влюбленного в восточной поэзии и образ влюбленного созданный Физули, в корне отличаются друг от друга. Основная особенностъ отличия образа влюбленного Физули от других оброзов влюбленного в том, что поэт спецефически касается традиционныь образам влюбленного. Рассматривается как в газелях изображается печалъ, крик души влюбленного, приводятся примеры из газелей, в которых объясняется сутъ любви. В статье покозаны способы формирования « лирического я» Физули. Наряду с этим проясняются темы, встречающиеся в любовных газелх Физули. Одна из тем, часто встречающихся в восточной поэзии это тема « свирели». В газелях Физули определены бейти изобрапсающие свирель.

В общели, в статье расказывается о новаторстве поэта, изобрапсенном на фоне газелей, иссмдуется новаторство в творчестве поэта.

R. Shixcanova

The tradition and novelty in Muhammed Fuzuli"s lover character

Summary

There is information in this article about lyric genre which forms the shah peark of Fuzuli"s art and lover character that is one of the most important attribute of its. The features of poets affectionate lyric were searched, some nuances were explained. The lover character in East literature is really different from the character who was created by Fuzuli. In this article the main features were demonstrated which make Fuzuli"s character different from others and the spesific features were touched of poet"s traditional character. The poet"s sadness was searched how it was described in lyrics, the main context was explained by giving examples from lyrics. There are the main features in this article which form Fuzuli"s "Lyric me" by searching. Besides the topics which me meet often in poet"s loving lyrics were explained. Wisdom-love, patience and so on topics were touched. In East literature "reed" is one of the topics which most poets apply for it. There were given exemplary couplets which show how Fuzuli gave the description of reed. Generally, in this article there was mentioned about the novelty that was brought by poet in this lyrics background, poet"s art was explored the point of novelty.

Rəyçi: Sərxan Xavəri
filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜLVİ BABAYEV
Bakı Mühəndislik Universiteti
ubabayev@beu.edu.az

TÜRK VƏ AZƏRBAYCAN POSTMODERNİST NƏSRİNDƏ SOSİAL FUNKSİYA

Açar sözlər: Türk, Azərbaycan, nəsr, postmodernizm, sosial, funksiya
Keywords: Turkish; Azerbaijan; prose; postmodernism; social; function
Ключевые слова: Турок, Азербайджан, проза, постмодернизм, социаль, функция.

Giriş.

XX yüz illiyin ikinci yarısında ikinci bir estetik inqilab baş verdi: Postmodernizm. Bu modernizm sonrası inqilabi dəyişilmə prosesi idi. Ədəbiyyat, incəsənət, iqtisadiyyat, siyasət və digər sahələr postmodern epoxaya daxil oldu. İkinci dünya müharibəsindən sonra formalaşan neosiyasət və texnoloji kəşflər Liotarın deyimi ilə "postmodern vəziyyət"in formalaşmasını sürətləndirdi. [1] Artq informasiya kapitalı ən əsas və zəruri universuma çevrildi. Liotar bu vəziyyəti belə şərh etdi: "İnformasiya "istehsalçıları" istehsal etməyə, istifadəçilər isə öyrənmək və öyrənməyə çalışdıqları qavramları bu dillərə (Elektron hesablama maşınlarının, kompüterlərin dilləri nəzərdə tutulur. Ü. B) çevirə bilmək imkanlarına sahib olmaq məcburiyyətindədilər". [1, səh, 14] Deməli, daha çox məlumat sahibi olan və onu dövrə uyğun tətbiq etməyi bacaran dövlətlər və fərdlər fərqlənəcək, qlobal miqyasda söz sahibi olacaq. Şübhəsiz ki, bu vəziyyət mədəniyyət və incəsənətə də təsir göstərdi. Yeni tipli teatr, kino, memarlıq, dizayn, qrafika, fotoqrafiya nümunələri yarandı. Mədəniyyətdə "postmodern vəziyyət" müşahidə edildi. Ədəbiyyat da informasiya çağının tələblərinə uyğun olaraq formalaşdı. Məlumat və informasiya əsas olduğu üçün ədəbi əsərlər daha çox bu istiqamətdə yayıldı. Bilgi və məlumat vermək hekayə və romanların aparıcı cəhəti oldu. Oxucunu diqqət mərkəzində saxlayan və ağır məişət dərdindən biraz da olsa uzaqlaşdıran əyləncəli və sosial funksiyası geniş ədəbi əsərlər yazıldı. Frederik Ceymison "Postmodernizm: gecikmiş kapitalizmin mədəni məntiqi" və "Şərhsiz qiraət: Postmodernizm və video-mətn" adlı yazıları ilə yeni dövrün sosial-mədəni mənzərəsini təsvir etdi. [3] Bodliyarın yeni iqtisadi mənzərənin mədəni fenomenlə bağlı olduğunu şərh edən "metaforik mübadilə" tendensiyası, Ekonun "açıq mətn"lərlə zəngin qurğu dünyası və Derridanın "texno-fabuala" və dekonstruksiya ilə bağlı fəlsəfi görüşləri postmodernizmin nəzəri əsaslarını daha da gücləndirdi. [2]

Modernist yazıçılardan Marsel Prustun "İtmiş zamanın axtarışında" silsiləsinə daxil olan yeni roman tandemi, Kafkanın "Qəsr", "Məhkəmə" əsərlərinin hadisə və qəhrəman mərkəzli estetikadan ayrılması, Coysun "Uliss" romanındakı çoxqatlı və çoxsəsli şüuraxını postmordern estetika ilə ayaqlaşa bilmədi. Arxitektura, rəssamlıq, memarlıq və musiqi sənətlərində öz əksini tapan postmodern mədəniyyət ədəbiyyata da öz təsirini göstərdi. Liotar, Derrida, Fuko, Bart kimi alimlər postmodern fəlsəfə və ədəbiyyatın nəzəri arxitekturasını praktiki nümunə və analitik fikirlərlə şərh etdilər. İtalo Kalvino, Con Faulz, Umberto Eko və başqa yazıçılar postmodern nəsrin ən yaxşı nümunələrini yazdılar. Xüsusən, Faulz romanları postmodern estetikanı geniş şəkildə mənalandırdı. Bütün köhnə dəyərləri və mətnləri müasir baxışla ifadə edən polifonik romanların başlanğıcı Faulzun "Fransız generalın qadını" romanında təzahür etdi. Faulz tarixi fantastik və postmodern baxışla iifadə etdi. "Fransız generalın qadını"nın tarixi əsər olması ilk baxışda tarixlə əlaqəsi olması ilə bağlı görünsədə elə deyil, axı romanda tarixi sənədlərə istinad və tarixi şəxs və xarakterlərin obrazını yaradılması əks olunmur". [11, səh, 110]

İtalo Kalvino "Bir qış gecəsi ziyarətçisi", Con Faulz "Fransız generalın qadını" romanları ilə postmodernism ən sanballı nümunələri yazırlar. Eyni zamanda bu romanlar yaradıcı oxucunu da formalaşdırır. Postmodrnizmdə mətnin oxucu sayı qədər müəllifi və mənası var. Yaradıcı oxucu postmodern ədəbiyyatda əsas fiqurdur. Ən azı yazıçı və mətn qədər vacibdir. Hətta, roman qəhrəmanları oxucu ilə ünsiyyətə girir. "Çünki artıq mətnə hakim olan oxucu kütləsi müəyyənləşib. Bu, inkişaf edən orta təbəqədir və yazıçıların xitab etdiyi "idela oxucu"lar sinifinin mənsublarıdır". [4, səh, 163] İstehlak cəmiyyəti ədəbi və mədəni sahələrə də təsir göstərir. Liotarın "postmodern vəziyyət" dediyi keyfiyyət soial-mədəni həyatda da yaranır.

1. Türkiyə və Azərbaycanda postmodernizmin təşəkkülü

Postmodernizm türk ədəbiyyatında XX əsrin 70-ci illərində ilkin rüşeym halında təzahür etməyə başladı. Yusif Atılqanın "Avara adam" və "Anayurt hoteli" romanlarında modernist təkamül və bəzi postmodern eksperimentlər türk nəsrində estetik inkişaf və sıçrayışa səbəb oldu. [5, 6] Yusif Atılqan və Oğuz Atayın romanları modernizm mərhələsinə yekun vurur və ilkin postmodernizmi, avanqardizmi başladır. Oğuz Atay "Tutunamayanlar" romanında Servantesdən qalan ənənələri modern və postmodern tərzdə ifadə edir. Jalə Parla bu ədəbi əlaqəni belə ifadə edir: "Ədəbiyyatda iki mövzu bütün yazılmış və yazılacaq mətnlərin qaynağını təşkil edir. Gerçəklik və illüziya ilə ağılı və dəli olmaq cütlüyü. "Don Kixot" bir ayağı bu ikilikdə digər ayağı o biri qoşa anlayışda olan bir roman olduğu üçün

özündən sonra yazılan bütün əsərlərin qaynağı olub. "Tutunamayanlar"da Atay ikinciyə, ağıllılıq və dəlilik qavramnına üstünlıük verir". [7, səh, 222] Jalə Parlanın demək istədiyi odur ki, modern roman sənətinin əsası olan "Don Kixot"dan günümüzəcən hər bir cərəyan və dövrə xas nəsr əsərlərinin sosial funksiyası mövcuddur. Ancaq postmodern nəsrdə daha qabarıqdır.

1980-ci illərdə isə Orxan Pamuk postmodernizmə start verir. Pamukun "Bəyaz qala" romanı dünya ədəbiyyatının bir çox klassik mətninin transformasiyasıdır, türk nəsrində çoxsəsli dekonsrtuksiyadır. [13] Postmodernizmin ən vacib ünsürlərindən olan sosial funksiyanın türk nəsrində təşəkkül tapması, ilk dəfə Türkiyədə postmodernizmin formalaşmasına təsir göstərən başqa ölkə mədəniyyətləri, ədəbiyyatları və yazıçıları və sənaye sonrası dövrün təsir etdiyi ədəbi yeniləşmə vahid elmi-analitik konsepsiyaya çevrildi. Realist, romantik nəsrin tərbiyyələndirmək, təsvir olunan həyatdakı proseslərin səbəb və nəticələrini göstərmək, yaşamağın mənalılığına bədii şərh vermək səyləri yeni, postmodern ədəbiyyatda əyləncəli, sonsuz, ehtimallara açıq formada təqdim olunması dövrün tələbləridir. Yeni dövrdə pul və karyeranın insan təbiətini üstələməsi, texnologiyanın, onlayn həyatın daha cazibədar olması ədəbiyyata da təsir edir. Ədəbiyyatda mətnin bədii dəyərindən çox, oxunmaq, tiraj, satış rəqəmlərinin üstünlük təşkil etməsi sosial funksiyanın mövqeyini və təsir gücünü daha da sürətləndirir.

1991-ci ildə müstəqillik əldə edən Azərbaycanda azad düşüncə sistemi formalaşdı. Artıq yazıçılar istədikləri mövzu və hadisəni öz əsərlərində sərbəst ifadə etmə imkanları əldə etdilər. 1990-cı illərdə sosial-iqtisadi həyatda öz əksini tapan keçid dövrü mərhələsini Azərbaycan ədəbiyyatı da yaşadı. Qarabağ müharibəsi bu vəziyyətə təsir edən amillərdən oldu. 2000-ci illərdə sosial-iqtisadi inkişaf, mədəni əlaqələrin genişlənməsi, internetin kütləviləşməyə başlaması ədəbiyyatda bir çox ekspirmentlərin və postmodernistcə yazılmış mətnlərin yaranmasını sürətləndirdi. Kamal Abdulla "Yarımçıq əlyazma" romanı ilə ədəbiyyatımızda gecikmiş postmodernizmin uğurlu örnəyini qələmə aldı. "Yarımçıq əlyazma" sanballı intertekstual prozanın postmodern estetika çələngi ilə hörülmüş ilk Azərbaycan romanıdır. Daha sonra Həmid Herisçi, Şərif Ağayar, Mirmehdi Ağaoğlu, Qan Turalı, Vüsal Nuru və onlarla gənc nasirlərin əsərlərində də postmodernizm elementləri görünməyə başladı. Dünyada baş verən sosial – iqtisadi, mənəvi-ictimai yeniləşmə prosesinin Azərbaycan postmodernist nəsrinə təsir yönləri konkret nümunələr əsasında özünü göstərir. Azərbaycanda postmodernizmin yayılmasına təsir edən digər ölkə mədəniyyətləri, ədəbiyyatları və qloballaşan istehlak cəmiyyəti elmi-ədəbi ümumiləşmə aspektində şərh edilməlidir. Müstəqillik illərində Azərbaycanın dünyaya inteqrasiyası sürətlənir və yeni ədəbi meyillər də bu dövrdə yaranır. Azərbaycan postmodernist nəsri və sosial funksiya problemi dünya ədəbi

prosesini müstəqil şəkildə təqib edən nasirlərin yaradıcılığında əks olunur. Ancaq Azərbaycan nəsrində postmodernizm əsaslı şəkildə təcrübəyə çevrilmədi. Bütövlükdə modernizm mərhələsinin olmaması da buna təsir etdi. Postmodernizmə keçiddə də müəyyən kəsir və qüsurlar oldu. Salidə Şərifova Azərbaycan postmodernist romanının yaranmasını dəqiq analiz edir. "Azərbaycan postmodern romanı iki əsrin qovşağında ədəbiyyat tarixində paradoksal vəziyyət yaratdı. Postmodernist təfəkkür sistemi yazarlara əsaslandırılmamış, postmodernist təfəkkürün bədii və fəlsəfi quruluşunu təşkil

edən istiqamət və prinsiplərin təkamülünün xronoloji çərçivəsinin olmaması səbəbindən yazarların qələmə aldıqları əsərlər intuitiv halda ənənəvi dəyərləri kompromissiz olaraq dekonstruksiyaya məruz qoydular". [10, səh, 21]

2. Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya zəruri estetik tələbat kimi

("High tech" (yüksək texnologiya" və "İphone" dövrü ədəbiyyatında sosial funksiya)

Sənaye sonrası dövrdə istehlak cəmiyyəti formalaşdı. Fərdi bilgisayarların, internetin kəşfi həyatımızda ciddi dəyişikliklərə səbəb oldu. Ədəbiyyata olan marağın forması dəyişdi. Oxucular yazıçılardan uzaqlaşmağa başladılar. Yazıçılar cəmiyyət tərəfindən xüsusi hörmət bəslənən, daha ağıllı və seçilmiş "insan" mövqelərini itirdilər. Bədii əsərlərin də strukturunda ciddi dəyişikliklər oldu. Klassik romanlarda hadisəyə bağlı olan süjet xətti və hadisənin böyüməsi ilə mətnin səhifələrinin də uzanıb qalın romanlara çevrilməsi, geniş təsvirlərə və qəhrəmanlar arasındakı dramatik qarşıdurmaya istinad edən xüsusiyyətlər köhnəlmiş hesab olunurdu. Klassik ədəbiyyatın oxucunu tərbiyələndirmək cəhəti öz yerini heyrətləndirmək, əyləndirmək estetikasına təhvil verdi. "İphone", "MacBook" dövrünün insanları bədii əsərlərdən daha cazibədar, daha maraqlı təqdimat gözlədilər. "İphone" dövründə yaranan postmodern nəsrdə əyləncəvilik ən vacib estetik dekor və metodlardan biri oldu. İtalo Kalvinonun "roman ölmədi, sadəcə şəkil dəyişdi" fikrinə uyğun olaraq "yüksək texnologiya" dövrünün sosial funksiyası ədəbiyyatıdır.

Postmodern türk nəsrində sosial funksiya rəngarəng estetik qurluşda öz əksini tapdı. 1990-cı illərdə Metin Kaçan "Ağır roman" və "Fındıq səkkiz" romanlarının dilində postmodern oyunlar qurdu. [7] Kaçan romanlarında dilin psixologiyası, çoxsəsliliyi, semantik atmosferi sürüşkən, elastik bir əyləncəvilik xəritəsi rəsm etdi. "Ağır roman"da acı hadisələrin arxa fonunda dərin bir yumor, işləkliyini itirən, ölməyə üz tutan məhəllə şivəsinə xas leksikonun postmodern dəyərləndirilməsi, "Fındıq səkkiz"də isə

çoxmənalı, polifonik dil semantikası və təsəvvüfə, Qurana modern bir baxışla qaynayıb-qarışan təhkiyə dayanır.

"Fındıq səkkiz" romanında dilin sərhədsizliyi və hekayə danışmağın verdiyi əyləncə türk romanında "new age" ədəbiyyat hadisəsi olur. [8] "Ağır roman"ın qəhrəmanı Qıli-Qıli Saleh və "Fındəq səkkizin" Melosu öz dövrlərinin Don Kixotudu. Türkiyəli alim Ulduz Ecevit hər iki roman qəhrəmanının xarakter keyfiyyətini postmodern bir üslubda təhlil edir. "Əsərin mərkəzində yeni bir romantik, yeni bir Don Kixot var. Ancaq "Fındıq Səkkiz romanın qəhrəmanı Meto Qıli-qəli Salehdən fərqli olaraq dəyişmək istəyir". [9, səh, 214]

Muradxan Munganın hekayələrində də polifonik sosial funksiya türk nəsrinin estetik miqyasını genişləndirir. Munganın "Domrul ilə Əzrayil" və "Hamletlə Hitler" hekayələrində dekonstruktiv əyləncəvilik zaman və məkan sərhədlərini aradan götürür. Oxucu özünü Domrulla Əzrayilin arasında keçən hadisəyə fərqli bir baxışın, yeni ədəbi şərhin şahidi olmaqla kifayətlənmir, eyni zamanda həmin mətnin bir komponenti, müəyyən tərkib hissəsi olur. Muratxan Mungan əsəri daha əyləncəli təqdim etmək üçün oxucunu da mətnə daxil etməyi bacarır. "Hamletlə Hitler" hekayəsi tarixə ironik baxışın transformatik əyləncəsidir.

Azərbaycan nəsrində Şərif Ağayarın "Kərpic kəsən kişinin dastanı" hekayəsində sosial funksiya çoxçeşidli estetika mərtəbələrinə malikdir. "Kərpic kəsən kişinin dastanı" hekayəsi yeni mərhələdir, ekspirmental postmodernist nəsr nümunəsidir. Nizamidə kərpic kəsən kişi halal zəhmətlə yaşamağın harmoniyasını ifadə edən xarakterdir. Şərif Ağayarda isə Laşından məcburi köçkün kimi gəlib Ağcabədiyə sığınan bir ailənin, həmin ailənin başçısının kərpic kəsib özünə ev tikmək istəyinin necə maneələrə rast gəlməsi ifadə olunur. Ancaq bu vaxt öz soydaşları tərəfindən təhqir və tənələrə məruz qalır. Şərif Ağayarın hekayəsi xələfi Nizami mərtəbəsinə ucalma səyi və sonsuz, ehtimallara açıq postmodern yozumudur. [12]

Mirmehdi Ağaoğlunun "Küləyi dişləyən" və Səxavət Sahilin "İsanın qadını" romanlarında qədim mətnlərin modern modeli tətbiq olunur. [17] "Küləyi dişləyən" romanında sosial funksiya tətbiq olunan modelin mahiyyətində gizlənib. "Küləyi dişləyən" romanında "Sizif" mifinin müasir həyatımıza transformasiyasında orqanik ironiya və müəllifin miflərdəki həyata (əslində bizim yaşadığımız mifik, xaotik həyat tərzinə) avtoironiyası postmodern gerçəkliklə dərk olunur. Ağaoğlu nəsri ekispermentallığın çağdaş Azərbayacan ədəbiyyatında əyani, praktiki baxımdan uğurlu nümunəsidir. "Küləyi dişləyən" romanında xarakterlərin bir-birinə olan elastik, ikili ünsiyyəti yenidən dəyərləndirilən postmodern dil arxitekturası yaradır. "Küləyi dişləyən"də sosial funksiya problemi daha çox dil hadisəsidir. Türk ədəbiyyatında Metin Kaçanın "Ağır roman" əsəri Azərbaycan postmodern

nəsrində Mirmehdi Ağaoğlunun "Küləyi dişləyən"i "underground language" (yeraltı dil) estetikasının ədəbi imkanlarını sərgiləyirlər. [18]

Səxavət Sahil "İsanın qadını" romanında antik yunan ədəbiyyatı və "İncil" ayətlərindəki hadisələrin grotesk profilini rəsm edir. "İsanın qadını"nda sosial funksiya qədim süjetlər, miflər və hətta ən xırda detalların kafkavarı çevrilməsində təzahür edir. Yazıçı İsa peyğəmbərin xarakterində və həyata baxışında dəyişilmiş, için çölə çevrilmiş atmosferini canlandırır. Müəllif köhnə mətnlər vasitəsi ilə bəşər tarixinə yumşaq yumor hissi ilə yanaşır. Postmodernizmin sosial funksiyası tarixə və insana kəskin yumor, sarkazm "İsanın qadını" romanında xəfif, rəğbətli gülüş kmi formalaşır.Qan Turalının "Fələk qırmancı" isə metatekstual romandır. Tarixə, keçmiş ədəbi mətnlərə pastiş, parodiya və dekonstruksiya ilə şərh verir. [22]

Nəticə.

Azərbaycan və Türkiyə postmodernist nasirlərinin yaradıcılığında sosial funksiyaya aid xüsusiyyətlər mətnlərin təhlilinə yenidən baxışla konkret nəticə əladə etmək mümkündür. Türk ədəbiyyatında ilk dəfə Oğuz Atayın "Tutunamayanlar" və "Tehlikeli oyunlar" romanlarında öz əksini tapan postmodernizm estetikası maraq doğurur. Daha sonra türk ədəbiyyatında postmodernizmi zənginləşdirən Orxan Pamukun romanlarında əyləncəvilik metodları çoxsəslidir. "Yeni həyat" romanında Osmanın yeni həyat axtarışı mətnlərarası əlaqə metodu ilə verilib. Dantenin "Yeni həyat" əsərinə postmodern göndərmə edilir. XX əsrin sonlarının İstanbulu mədəni və social dəyişikliklərə məruz qalır. Pamuk bunu incə detallarla işləyir. Daha sonar orta dövr Osmanlı həyatına işıq salan "Mənim adım qırmızı" əsəri Nizami Gəncəvinin "Xosrov və Şirin", "Yeddi gözəl" əsərlərinin dekonstruksiyasıdır. Ümumilikdə Pamuk romanlarındakı sosial funksiya qavramının digər türk nasirlərin əsərlərinə təsir nöqtələri olduqca qabarıqdır. 1990-cı illərdən postmodern türk romanında sosial funksiyanın yeni və təravətli formatda inikası daha ətraflı elmi izahlar verməyə imkanlar verir. Ancaq nəticə olaraq demək olar ki, Orhan Pamuk postmodern tütk romanının dünyaya çıxarır. Türk romanının "postmodernist Kafkası" sayılan Hasan Ali Toptaşın "Kölgəsizlər" və "Min hüzünlü həzz" əsərlərində dolğun estetika və ədəbi aura ilə aşılanan sosial funksiyanın daha polifonik yönləri şərh edilir. [15] Azərbaycan postmodern nəsrinin görkəmli nümayəndəsi Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox" romanlarının sosial funksiyası ədəbiyyatımızda özül rolunu oynayan əsərlərdəndir. [19, 20, 21] Kamal Abdullanın romanları xalis postmodernizmin başlanğıcı və Azərbaycan ədəbiyyatında sosial funksiyanın lokomotivi sayılır. Eyni zamanda, Həmid Herisçinin "Nekroloq", "Solaxay"

romanları, Şərif Ağayarın "Harami", "Kərpic kəsən kişinin dastanı", Səxavət Sahilin "İsanın qadını", Mirmehdi Ağaoğlunun "Küləyi dişləyən" və.s əsərlər də postmodernizm və əyləncəvilik baxımdan səciyyəvi xüsusiyyətlərə malikdir. "Solaxay" romanı həyata soldan da baxmağın kitabıdır. [16] Təkcə sağla hərəkət etmək insanı yarımçıq vəziyyətə salır. Nəticədə hər iki ölkənin postmodernist nəsrində aktual və eyni zamanda indiyəcən heç bir elmi işin mövzusu olmayan pstmodernizmdə sosial funksiya problemi mətnlərin təhlili əsasında əyani görünmüş oldu.

Ədəbiyyat

1. Lyotard J. Postmodern Durum. Çeviri: İsmet Birkan. BilgeSu Yayıncılık. Ankara. 2013. 127 səh.
2. Eco U. Cambridge University Press; First Edition edition. April 13, 1997. 236 pages.
3. Touraine A. Modernliğin eleştirisi. Çevirmen: Hülya Tufan. Yapı Kredi Yayınları. Istanbul. 2012. 502 sayfa.
4. Jale Parla. "Don Kişotdan bugüne roman". İletişim yayınları. Istanbul. 2013, 389 sayfa.
5. Atılgan Y. Aylak Adam. Yapı Kredi Yayınları. Istanbul. 2013, 164 sayfa.
6. Atılgan Y. Anayurt Oteli. Yapı Kredi Yayınları. Istanbul. 2013, 108 sayfa .
7. Kaçan M. Ağır Roman. Everest Yayınları. Istanbul. 2012. 126 sayfa.
8. Kaçan M. Fındək Sekiz. Everest Yayınları. Istanbul. 2012. 158 sayfa .
9. Yıldız Ecevit. "Türk romanında postmodernist açılımlar". İletişim yayınları. İstanbul. 2014. 240 sayfa .
10. Şərifova S. Çağdaş Azərbaycan postmodern romanı". "Elm və təhsil". Bakı.

2015. 105 səh.

11. Akşaroğlu Vedi. Postmodern Söylem. İhsan Oktay Anar/John Fowles. Ankara 2015.
12. Şərif Ağayar. "Kərpic kəsən kişinin dastanı". "Əli və Nino", Bakı.
13. Orhan Pamuk. "Beyaz kale". Yapı kredi yayınları. İstanbul. 2013
14. Şərif Ağayar. "Harami". "Qanun" nəşriyyatı. Bakı. 2014
15. Hasan Ali Toptaş. "Bin hüzünlü haz". "İletişim yayınları". 7. Baskı. İstanbul. 2014
16. Herisçi Həmid. "Solaxay". "Zero" nəşriyyatı. Bakı. 2014

17 . Səxavət Sahil. "İsanın qadını". "Qanun" nəşriyyatı. Bakı.2014.

18. Ağaoğlu Mirmehdi. "Küləyi dişləyən". "Qanun" nəşriyyatı. Bakı. 2011.

19. Abdulla K. “Yarımçıq əlyazma”. Bakı. “XXI” – YNE, 2004, 288 səh.
20. Abdulla K. “Sehrbazlar dərəsi” (roman). – Bakı: Mütərcim, 2006. 224 səh.
21. Abdulla K. “Unutmağa kimsə yox”. Bakı. Qanun. 2011. 528 səh.
22. Qan Turalı. “Fələk qırmancı”. “Ol” nəşriyyatı. Bakı. 2016.

U.Babayev

Social function in Turkish and Azerbaijan postmodernist prose

Sammary

In this article, social function issue in contemporary Turkish and Azerbaijan postmodernist prose is investigated. Social function as a term and notion is as old as the history of literature. However, it implies a new meaning in contemporary literary criticism. The article also mainly focuses on reflection and quality indicators of postmodernist social function in Turkish and Azerbaijan prose. After development of postmodernism in world prose it is also observed in Turkish and Azerbaijan postmodernist prose. Nevertheless, it appeared wider and comprehensive in Turkish literature. This was due to cultural-geographical position and political situation of Turkey. Development of postmodern situation in Azerbaijan was delayed due to becoming part of Former Soviet Union, later initial years of independence, Karabakh war, transition period, and other reasons. The process which launched in 80-90s in Turkish prose and the end of 90s of XX century in Azerbaijan literature was reflected in novels written by Kamal Abdulla, Hamid Herischi, and others in the beginning of the XXI century. Artistic and aesthetic expression of social function proved itself in creativity of Orkhan Pamuk and tens of prose writers in Turkish literature. From this point of view, social function in Turkish and Azerbaijan prose entered to postmodern epoch which has happened in culture and literature of other nations. Considering abovementioned characteristics, the notion of postmodernism and social function in the literature of both nations is analysed with scientific conclusion and interpretations as the main research subject of this article.

У.Ваваев

Социальная функция в Турецкой и Азербайджанской прозе

Резюме

В этой статье иследуется социальная функция в современенной Азербайджанской и турецкой посмодернисткой прозе. Социалная функция, как термин и понятия такая же древняя как история литературы. Но выражает новый смысл в современной литературе. Основой этой статьи является показатель качество и присущий к постмодернизму социальная функция в азербайджанском и турецком литературном жанре. После образование посмодернизма в мировой литературе, в последовательности отразился и на турецком и Азербайджанском литературном жанре. Только в турецкой литературе показал себя в широком и многостороннем формате. Потому что этому повлияло культурно-географическая позиция и политическа ситуация Турции. Нахождения Азербайджана в составе СССР, первые годы независимости, Карабахская война, переходный период и другие причины тормозили развитие посмодернизма в Азербайджане. Начавщийся процесс в 80, 90-х годах XX века в турецкой литературе, конец 90-х в Азербайджанской литературе уже к началу XXI века отразился в романах Камала Абдуллы, Гамида Герннoисчи и других писателей. В турецкой литературе художественно-эстетическое выражение социальной функции оправдала себя в творчестве Оркана Памука и десятков писателей. В связи с этим, социальная функция в азербайджанской и турецкой литературе вошла в огромную развиваюшую эпоху постмодерна в культуре и литературе других народов. Принимая во внимание вышеупомянутые аспекты, в этой статье анализируются понятия постмодернизма и социальной функции в литературе этих двух народов как предмет иследование и научных мнений.

Rəyçi: **Akif Hüseynli**
Filologiya elmləri doktoru, professor

TÖRƏ MƏMMƏDOVA
SDU, Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrası
e-mail: tora-rast@rambler.ru
UOT 82.09
UOT 82.(091)

MİDDL-ƏDƏBIYYAT VƏ Ə.ƏKBƏRİN "AMNEZİYA" ROMANI

Açar sözlər: Amneziya, middl-ədəbiyyat, postmodernizm, pastiş, Ə.Əkbər, T.Əlişanoğlu, antiutopiya
Ключевые слова: Амнезия, миддл-литература, постмодернизм, пастиш, А.Акбер, Т.Алишаноглы, антиутопия
Key words: "Middle-literary", "Amnezia", A.Akbar, postmodernism, antiutopia, T.Alishanoglu, pastiche

Elitar və kütləvi sənətin kompromisindən yaranan və bu günün tələbinə çevrilən middl-ədəbiyyat nümunələri müasir nəsrin strukturunda artıq özünə çoxdan yer edib. Belə əsərlər bir tərəfdən kütləvi ədəbiyyata xas detektiv, fantastik janrın müəyyən keyfiyyətlərini özündə daşıyır, müəllif "mən"ini parçalayır, digər tərəfdən intellektual mühakimələrə, intertekstuallığa və postmodernist düşüncəyə yer verir. Belə də deyirlər ki, onu (middl ədəbiyyatı) kütlənin maariflənməsində, onun zövqünün formalaşmasında xeyirxah missiyaya malik, kütləvi oxucu üçün nəzərdə tutulmuş elitar ədəbiyyat kimi də qəbul etmək olar. Bununla belə, bu ədəbiyyat çətin oxunmamalı, detektivdən daha maraqlı sujetə malik olmalı, maraqları cəlb etməlidir. "Amneziya", "Aktrisa", "Akvalanq", "Sonuncu", "Qarğa yuvası", "Arxalı canavar", "Metro vadisi", "Zülmət" və s. romanları bu cərgəyə daxil etmək olar.

Belə əsərlərdə dil stixiyasının ədəbi normalardan uzaqlaşması, müəllif oyunları, müəllifin yoxluğunu kompensasiya edən leksik normasızlıq, hadisələrin krizisi, epik başlanğıcdan uzaqlaşmaq, siyasət və fantastikanın möhtəşəm qarışması, parafraza, inversiyaya, kanonik mənbələrin müxtəlif transformasiyalarına, alternativ tarixə müraciət cəhdi önə çıxan əsas keyfiyyətlər kimi diqqəti çəkir. Artıq keşmiş obyektivliyini itirir. Birxətli yazı tərzini labirintlərdə itən mətnlərə dəyişmək, sanki oxucuya "məni oxumaq çətindir" mesajını göndərir.

"Amneziya" (Əli Əkbər) romanı antiutopiyadır. Dünyanın ideal modelini, ideal cəmiyyəti göstərən utopiyadan fərqli olaraq, antiutopiya dünyanı həyəcanları, arzu və ümidləri, danılmaz həqiqətləri ilə təsvir edərək, insanı mənəvi seçim qarşısında qoyur.

Romanın baş qəhrəmanı Murad avtoritar rejimdə yaşayır, özəl klinikaların birində stomotoloq işləyir. İlk 22 səhifə istisna olmaqla əsər Muradın dilindən və gündəlikləri vasitəsilə təsvir olunur.

Murad ideya ruporudur. Yaltaqlıq, hakimiyyət, millətin əzilməsi, din, dil, sədaqət, sadiqlik, dostluq və s. kimi məsələlər Muradın mühakimələrində onun bəzən ədalətli, bəzənsə, ədalətli olduğu qədər də kəskin nihilist münasibətini ortaya qoyur. Bəzən hakimiyyətə qarşı çıxan, idarəçilikdə hər kəsi ifşa edən Muradın hakimiyyət və güc olan təbəqəyə nifrətini hiss etsək də, xalqa sevgisini də görə bilmirik. Belə ki, bir çox məqamlarda özünün zəlil və əzilmiş halı ilə barışan xalqa nifrətini də gizlətmir. Məsələn, "Ona necə deyimki,bu milləti mən də yaxşı tanıyıram.Elə tanıdığım üçün də şüarım "xalq üçün xalqsız"dır... Məni həmişə bu sual düşündürüb-görəsən dünyada Azərbaycan xalqından daha ikiüzlü, riyakar, qorxaq, yaltaq xalq varmı?"

Murad hər şeyi, hakimiyyəti, siyasəti, dini, adət-ənənəni rədd edir, hər şeyi kökündən dəyişib, tam yeni avropasayağı cəmiyyət qurmaq istəyir. Murada görə günahkar – günahsiz, fərqi yoxdu, avtoritar rejimin bütün nümayəndələri ölümə məhkumdur. "Murad Fərəcovu müdafiə edənlərin arqumentləri bir qayda olaraq belədir ki, "Murad və onun kimi demokratiya uğrunda mübarizə aparmış şəxslərin, keçmiş quruluşda, avtoritar rejim nümayəndələrinə qarşı törətdikləri cinayətlər, indiki demokratik rejimə translyasiya edilməməli və bu kimi cinayət işlərinə baxılmamalıdır".

Əsərdə qeyri-müəyyənlik, səhv buraxmaların kultu, fraqmentarlıq və montaj prinsipi, bədii zamanın və məkanın fraqmentarlığı diqqəti cəlb edir.

Bəzən konkret fraqmentlərin xarakteri konkret qəhrəmanla bağlı olur. Əgər Rəna ilə, Sevillə bağlı franqment verilirsə, mətn realist üslubda verilir, əgər təsvirdə öndə Muraddırsa, onda şüur axını, qeyri-müəyyənlik cəlb edir. Əslində Muradın bütün fikirləri bir ideyaya çevrilərək qəhrəmanın yaddaşında da qalır.

Kitabın annotasiyasında əsər «kəskin süjetli siyasi satira» adlandırılır. "Ədəbiyatımızda travmatik amneziya sindromları *(Ə.Əkbərin «Amneziya» romanı haqqında)"* adlı məqaləsində İradə Musayeva əsərin siyasi satira adlanması fikrilə razılaşmır və yazır ki, əsərdə ifşa etmək, hər addımda, bəzən yerli-yersiz ifşa və ittiham, hətta şüar, çağırış kimi səslənən dialoqlar təlqin, aşılama tendensiyalılığını göstərir.

T.Əlişanoğlu əsərlə bağlı fikirlərini belə ümumiləşdirir ki, gündəliklər, müsahibələr və əlavə publisistik material, yaddaş və yaddaşsızlıq, yuxular və gerçəklər, utopiya və antiutopiya süjetləri – bir sözlə, postmodernin açıq mətn prinsipinin yol və rəvac verdiyi hər növ üsullara romanda meydan açılması, zənnimcə, yalnız və yalnız mövzu ətrafında oynamalardır. Hər biri özü özünə bərabər olub, heç də vacibən, bütöv roman məntiqinə, məsələn,

nəşriyyat ön sözündə qabardılan: "kəskin süjetli, siyasi satira"ya aparmır. O, gah psixoloji nəsri imitasiya edir, gah ictimai-aktual motivlərlə baş qatır, daha cəsarətli, kəskin, patriot görünmək istəyir, həm çılpaqlığa enməklə səmimiyyət nümayiş etdirir, gah da sanki çıxış yolu göstərir – utopik, antiutopik variantlar cızır"[1].

Əslində müəlif əsərdə bütün bunlarla "söz oyunu" yaratmağa çalışır ki, bu da müasir əsərlərdə diqqəti çəkən məqamlardandır. Roman informasiya məqsədli kiçik mətnlərlə zəngindir. Hər yerdə sanki təsvirlər axtarılır, milli ideya görünmür. dialogizm zəifdir, monoloqlar isə ideya-bədii sistemdə zəif görünür. Postmodernizm qəhrəmanın özü-özü ilə mübarizəsini təsvir edən dialoq və monoloqlar yaratmağa qadir deyil. Ozünün şüar və çağırışları, yersiz ifşaedici fikirləri ilə oxucuda maraq yaratmağa, digər tərəfdən bədii reallıqla oxucunun içində olduğu reallıq arasında məsafəni aradan qaldırmağa çalışır. "Qətrə-qətrə insanların içindəki qulu, köləni öldürmək lazımdır. Şəxsən mən bütün vətəndaşlarımızın azad ruhlu, azad düşüncəli olmasını istəyirəm və bir nazir kimi, bütün məsuliyyətim və səmimiyyətimlə bəyan edirəm ki, vətəndaş ağadır. Polis isə vətəndaşın nökəridir, qulluq-çusudur, xidmətçisidir".

Romanda təsvir olunan hadisələr müasir insanın həyatının müxtəlif sahələri ilə səsləşir, onun yersiz çağırışları, ifşaedici fikirlərilə informasiya bolluğu yaranır və nəhayət, müəllifin özü də köhnə mətnin üzərində özünün yeni mətnini ortaya qoyur. Bunun özü intertekstuallıqla bağlıdır və bədii mətndə intertekstuallıq müasir ədəbiyyatın əsas xarakteristikalarından biridir, allyuziya, plagiat, kollaj, köçürmə, parodiya intertekstual hadisə kimi baxıla bilər.

İntertekstuallığın funksiyasını təhlil edən E.Brızqalova yazır. "İntertekstuallıq kütləvi ədəbiyyatda hər şeydən öncə kommunikativ məqsədə-oxucu ilə yazıçı arasında dialoji münasibətlərin qurulmasına xidmət edir. Bununla da bədii ədəbiyyatla jurnalistika arasında sərhəd itir" [2.180] .

E.Brızqalova öz fikirlərini əsaslandırmaq üçün Y.M.Lotmanın və R.Bartın təhlillərinə də istinad edir. Barta görə intertekstuallıq bədii (publisistik-müəllif) mətni nəinki sosial kontekstdən ayırmır, hətta özü müəyyən "sosial yükə" malikdir. Bədii əsər film, şou və daha başqa mədəni məhsullara müraciət edərkən kütləvi oxucunun yaşadığı reallığa daha çox yaxınlaşır.

İntertekstual əlaqənin tipləri var. Məsələn, arxitekstuallıq-mətnlərin janr əlaqəsi kimi başa düşülür. Müəllif, sanki özünün xüsusi janrını yaradır. Müxtəlif janr modelinin elementlərini özündə birləşdirir. məs. neomifoloji, nağıl-pritça, sosial-satirik və antiutopik və s. Sözsüz ki, bunlardan biri aparıcı ola bilər. Romanda bunların hər biri var. Müəllifə görə, sosial satirik janr daha üstündür.

Bizə görə, insanın öz təbiətindən uzaqlaşması (qəhrəman Muradın amneziya vəziiyyətində olması da, onun öz təbiətindən uzaqlaşması üçün vasitə ola bilər.), yadlaşma (elə həmin amneziya vəziyyətində də cəmiyyətdən uzaqlaşması, yadlaşması və hətta yaddaşsızlaşması belə - yenə də xəstəlik hesabına olsa belə - çünki bu artıq bir priyomdur), yeni antiutopik cəmiyyətdə gələcəyin qroteskvarı təsviri əsərdə bir ideya ruporudur.

Belə ki, antiutopiyada hadisələr çevriliş, müharibə, inqilab, fəlakətlərdən sonra, hansısa müəyyən, məhdud aləmdə baş verir. Antiutopiyada dünya bir insanın daxili hissləri vasitəsilə təsvir edilir və şəxsiyyətin totalitar dövlətlə konflikti aparıcı rol oynayır. Qəhrəmanın dağıtmaga, üsyana, qanunları pozmaga cəhdi antiutopiya üçün tipikdir.

Əsərdə dil məsələsinə diqqət edək. Bakinski (hətta obrazın adı belə ironik səslənir) adlı azərbaycanlının öz doğma ölkəsində "Ruslan və Lyudmila" adlı kitab mağazası və "Mosart" adlı bir ədəbiyyat kafesi açaraq buraya azərbaycanlıların girişini və hətta Azərbaycan dilində danışmağı belə qadagan etməsi özü bir ironik səciyyə daşıyır. Belə ki, bu kafedə Azərbaycan dilində danışmaq ayıb sayılırdı. 25 yaslı qarson Yelena azərbaycan dilində danışanlara elə sifət göstərir ki, yediyini, icdiyini qaytarıb qaçmaq istəyir insan. Əvvəllər kafenin girişində sağ divarda ag lövhəyə "Ev heyvanlarının və azərbaycandillilərin kafeyə girməsi qadağandır" sözləri yazılmışdı. Gülümsəyən smayliklərlə guya zarafat kimi təqdim olunan bu xəbərdarlıq kafeyə təsadüfən gələn Xızı rayonunun qadın millət vəkili Natəvan Həbibinin diqqətini çəkərək onu qəzəbləndirmiş, Romana ağzindan çıxanı demiş, lövhəni öz əlləri ilə söküb küçəyə atmışdı. O gündən sonra deputat xanım "Mosart" kafesinə ayaq basmasa da kafenin müştəriləri azərbaycandillilərə sataşmağa cəsarət etmirlər.

Müxbir Roman Bakinskiyə belə bir sual verir: "- Bəs Azərbaycan dili necə? Məsələn siz öz doğma dilinizi bilirsiniz?

- Xeyr, bilmirəm. Daha doğrusu məişət səviyyəsində bilirəm. Hesab edirəm ki, bu qədər bilmək kifayətdir. Birləşmiş Millətlərin proqnozuna görə, 2050-ci ilə qədər dünyada 50 funksional dil qalacaq. Onların arasında Azərbaycan dili yoxdur. Odur ki, Azərbaycan dili kimi xırda və əhəmiyyətsiz dilləri yaşatmaq üçün milyon dollarlar xərcləmək yerinə, dünyanın aparıcı 3-5 dilindən birinə ya da bir neçəsinə yiyələnmək daha məqbuldur. Biz tarixən Rus dilinin arealında yaşamışıq. Odur ki, bu dili bu gün də yaşatmaq və inkişaf etdirmək bizim borcumuzdur. Rusiya da bizə bu işdə dəstək olmalıdır.

- Mağazanızda Azərbaycan dilində kitablar satırsınız?

- Xeyr, satmırıq. Bizim müştərilərimiz Azərbaycan dilində olan kitablara maraq göstərmirlər.[3.63]

"Pastiş keçmişin ehtiram üsulu və ya onlar üzərində parodiya ola bilər. Postmodernizmdə «xəstə» cəmiyyətin böhran vəziyyətinə reaksiya kimi ironiya (istehza) və hər şeyə gülmək kimi amillər əsas əhəmiyyət kəsb edir. [4.36] Yuxarıdakı nümunədə də biz məhz bunu görürük. Əslində dil məsələsində Murad həssasdır. Rusdillilər və onların ədası qəhrəmanı narahat edir. Hətta onları Səddamın turşusunda yandırmağı lazım bilir, kölə adlandırır. Hətta düşünür ki,xalqın dərdlərindən, problemlərindən, gözləntilərindən uzaq olan rusdillilər - cəmiyyətdə polifoniyanı, fərqli düşüncəni imitasiya etdikləri; mütaliəyə, intellektə, erudisiyaya iddialı olduqları və rusdilli olmayanları buna inandıraraq, onlarda kompleks yarada bildikləri üçün iyrəncdirlər. Ölkədə tüğyan edən cinayətlərə səssiz-səmirsiz tamaşa etmək yolunu seçdikləri üçün idbardırlar.

Başqa bir nümunə: "Bir bina ilə bütün işlər düzəlsəydi nə varıydı (gülür). Biz, bütün fəaliyyətimizlə xalqın inamını, sevgisini qazanacağıq, bizdən əvvəl formalaşmış stereotipləri sındıracağıq. Polis artıq cibə narkotik maddə atan, işgəncə verən, döyən, oğurluq edən, savadsız, bığlı, yekəqarın, debil görkəmli adam olmayacaq! Biz polisdən əvvəl, insan olacağıq. Hamı maraqlanır, soruşur ki, "Bəs çətin olmayacaq?". Xeyr, olmayacaq. Vətəndaşların hüquq-mühafizə orqanlarına münasibətini dəyişmək elə də çətin məsələ deyil. Bunun üçün, hüquq-mühafizə orqanlarının vətəndaşlara münasibətini dəyişmək kifayətdir".

Burada da pastiş, parodiya özünü göstərir. Ümumiyyətlə, qəhrəmanın Azərbaycan deyilən bir məkanda siyasi, ictimai, ədəbi-mədəni mücadilələri, dini düşüncələri yaxud bir Azərbaycan nifrəti, İslama, əxlaqa, ənənə və millilik adına nifrəti, reallıqda da, yuxularında da, hətta itirdiyi yaddaşının dumanında da "Avropa", "Avropa" — deyib durması antiutopiyaya uyğun hər şeyi dağıtmaq, üsyan etmək cəhdi kimi səslənsə də amneziya vəziyyətindən qayıdıb gördüyü dəyişikliklər özü belə gələcəyin qroteskvari təsvirindən başqa bir şey deyil. Yəni mövcud olduğu cəmiyyət də, qurulan yeni gələcək də onu qane etmir. Başqa sözlə Avropa, Avropa deyib də orada da ümid, təsəlli tapa bilmir. Məsələn, Arif bəylə Ələvsət bəyin televiziyada səslənən dialoqu bu fikri bir daha sübut edir: "- Xahiş edirəm, dəqiqəbaşı Milli rejimi-Milli rejimi deməklə, söhbətin istiqamətini sapdırmayın. Bu gün Milli rejimi yoxdur ki?! Devirmisiniz, əcəb eləmisiniz, amma xahiş edirəm dürüst olun. Sizin dərdiniz Avropa dəyərləri, demokratiya deyil. Siz hamınız, sizin hökumətiniz Avropalı missionerləri bura yığıb xalqımızın əxlaqını pozmaq istəyirsiniz" (2.32)

Muradın sevgi ilə, ailə ilə bağlı düşüncələri də diqqət doğurur. Əsər boyu həyatında olan iki qadını bir-biri ilə müqayisə edən Murad bəzən nə istədiyini belə dərk edə bilmir, "Nədir sevgi? Ləzzətini nədə, necə duymaq olar?" kimi suallara da cavab axtarır.

Murad bütün zəifliyi və hisslərilə sevən, lakin həm də xəyanət edən biri kimi yadda qalır. Hələ tələbəlik illərində sevdiyi Sevil ilə ailə qurmuşdu. Lakin bir Azərbaycan kişisi olaraq xəyanət etmək onun "haqqıdır". Bir tərəfdən siyasi əqidəsi və bu yolda ona yardımçı olan dostları, bir tərəfdən isə başqa qadınlar onu ailəsindən uzaqlaşdırır. Yalnız ailəsini itirdikdən sonra onların qədrini bilir və anlayır ki, həyatının cazibə mərkəzi əslində Sevil və oğlu imiş. Təsdiq edir ki, bəlkə də bütün varlığıyla sevməli, dəyər verməli olduğu Sevilə, "onsuz da mənimdir", onsuz da mənimlədir" düşüncəsiylə hər mənada, hər addımda xəyanət edib.

Murada görə, keçmiş arvadı Sevilin yeri ürəyində başqadı. Sevilə olan sevgisiylə, Rənaya olan bağlılığı heç müqayisəyə gəlməz. Sevil onunçün qat-qat dəyərli, doğma insandı. Sevili həm də oğlunu dünyaya gətirən qadın olduğuna, ona övlad bağışladığına görə sevir. Həmçinin düşünür ki, bircə bu səbəb yetər ki, ürəyinə ondan başqa bir qadın daxil ola, yerini tuta bilməsin. Murad Sevilin ərə getdiyini də uzun müddət həzm edə bilmir, bunu ona bağışlamayacağını da dilə gətirir. Baxmayaraq ki, xəstəxanaya düşəndən sonra Sevil yenidən Muradın yanına dönür. Bu zaman Muradın Sevillə bağlı hisslərinin şahidi olururq. "Mənim üçün harda olmağın bir o qədər fərqi yoxdur – təki Sevil hər zaman yanımda qalsın, mənə dayaq olsun. Sevirəmmi onu? Bu qeyri-adi duyğunun, Sevili hər gördüyümdə, ona hər toxunduğumda sinəmdə hiss etdiyim şirin sancının sevgidən başqa adı varmı? Nəinki onun qədər, hətta ondan əvvəl kimsəni sevdiyimə, bu qədər bağlandığıma, aşiq olduğuma inanmıram, inana bilmirəm. Həyatımda Sevildən başqa bir qadının olması ehtimalı çox gülünc görünür mənə. Ola bilsin yanılıram, həyatımda başqa qadınlar da olub. Lakin indi...indi Sevil mənim hər şeyimdir – sevgilim, anam-atam, dostum, sirdaşım"(2.24).

Başqa bir məqamda isə Murad Sevilə olan sevgi hissinin əbədiliyinə inanacaq qədər sadəlövh olmadığını dilə gətirir. "…sevgi hissinin əbədiyyən davam edə biləcəyinə inanacaq qədər sadəlövh deyiləm. Bilirəm ki, bu hiss də zamanla aşınmaya məruz qalır, vaxt gəlir iki insanın birlikdəliyi aludəçiliyə çevrilir. Nəinki mən, zamanı gəldiyində hər kəs bu acı həqiqətlə üzləşməkdədir. Sevilin yoxluğunun mənə çəkdirdiyi də ola bilsin cavabsız sevgi əzabı yox, məhz vərdişdən doğan kədərdir" (2.42.).

Rəna ilə bağlı fikirlərini onun gündəliyindən anlayırıq. Murad düşünür ki, Rəna onun sevdiyi və sevildiyi qadındı. Onunla özünü çox rahat hiss edir. Rənanın azadfikirli, qorxmaz, iradəli bir qadın olması, onunla eyni siyasi əqidəyə qulluq etməsi, fərqli düşüncələri Muradı cəlb edir. Hətta Murad yenidən sevməkdən qorxduğunu belə dilə gətirir. "Bir-birimizə baxıb gülümsəyirdik. Üzündəki cizgilərə, gülümsəyən gözlərinə baxır, ətirli saçlarını qoxulayırdım. Ürəyim tez-tez döyünür, içim qızırdı. Qəlbimin hərarəti nəfəsimi kəsirdi. Qollarımda bir qadın vardı və mənə başqa heç kim

lazım deyildi. Bu nə idi belə? Məhəbbət? Yenə məhəbbət? Ürəyim qəfildən sancdı. Biruzə vermədim. Bu qorxu əlaməti idi. Məhəbbətin nə olduğunu yaxşı bilirəm mən. Ağrı, ancaq ağrı. Bəlkə də bilməmişəm, dadmamışam mən əsl sevgini? Bəlkə mənimki yalnız ötəri həvəs olub, ya da asılılıq" (2.39). Murad bəzi məqamlarda yalnız Sevili sevdiyini iddia etsə də, onun Rənaya da laqeyd olmadığının şahidi oluruq. Unutmaq olmaz ki, kütləvi ədəbiyyat bir tərəfdən oxucunu əyləndirməyi məsəd seçir, digər tərəfdən həm də auditoriyanı ələ almağa, idarə etməyə cəhd edir. Müəyyən stereotiplər, dünyanın dərki üsullarını diktə edir, həm də kommersiya məqsədini unutmur. Müəllifin müxtəlif məşhur əsərlərdən sitatlar gətirməsi (pastiş) də söz oyunu funksiyasını yerinə yetirir. Məsələn, əsərindən sitat gətirdiyi Corc Oruelin özü də antiutopik janrın nümayəndələrindən hesab olunur. T.Əlişanoğlu, hətta Muradı Corc Oruelin "1984" əsərinin qəhrəmanı ilə də müqayisə etməyə çalışır. Muradın sadə adi insanların içindən cıxıb mücadilə aparmaq cəhdini bəyənmir və hətta Muradın qəhrəman kimi itməsini də sona qədər öz missiyasının öhdəsindən gələ bilməməsini də bununla bağlayır. Amma müasir romanda biz, belə qəhrəmanlarla tez-tez rastlaşırıq. Müasir romanın poetikasında baş verən dəyişikliklərdən biri elə məhz qəhrəmanla bağlıdır. Yeni mövzularla ədəbiyyata daxil olan obrazlar qəhrəmanlıqdan uzaqdırlar, bəzən də tənha və əzabkeş sadə adam rolunda görünürlər. Qəhrəmanların rolu daha çox qəhrəman-xarakter səviyyəsində qalır və özünün müsbət sovet sterootiplərindən fərqlənirlər. yazıçılar daha çox qəhrəmanlarını mənəvi mühakimə etməkdən imtina edirlər. Aslan Quliyevin "Sonuncu", "Yaşıl təpələr üstündə buludlar", M.Çəmənlinin "Ruhların üsyanı", E.Hüseynbəylinin "On üçüncü həvari-141-ci Don Juan", "Yol ayrıcında qaçış", İ.Fəhminin "Akvalanq", "Aktrisa" və s. romanların qəhrəmanları da belədir.

Ədəbiyyat:

1. T.Əlişanoğlu."Əndrəbadi bir kompozision" http://www.azadliq.org/content/article/24206780html
2. Ə.Əkbər,Amneziya, https://drive.google.com/file/d/0B1n5hFtntvnCSno5OG01M1MwNzg/view
3. Брызгалова Е.Н. Процессы игрореализации в современной массовой литературе (на материале романов Антона Чижа)//Научный диалог. Выпуск № 3, 2012, s.180
4. S.Şərifova, Çagdaş Azərbaycan postmodern romanı, Bakı 2015 104 s.

Тора Камал

«Миддл-литература» и роман «Амнезия» А.Акбара

Резюме

В статье анализируются образцы «миддл-литературы» играющие особую роль в структуре современной прозы, которые возникают из компрамисса массового и элитарного искусства. В таких произведениях замечаются элементы детективного и фантастического жанра относящиеся массавой литературе, а также особое место занимают интертекстуальные рассуждения, постмодернические размышления. С этой точки зрения открывается художественная структура романа Али Акбара, "Амнезия", и его герой привлекает внимание своей неопределенностью. Такие вопросы как лесть, власть, любовь, угнетение нации, религия, язык, вера, дружба, вечность и т.д. отражаются в размышлениях Мурада. Здесь мы видем его иногда спроведливое, а иногда даже если спроведливое, но резко нигилистическое отношение. Мурад идет против правительства, разоблачает управление, мы видем ненависть к власти. Но также мы не замечаем его любви к народу.Стилистические манеры писателя тоже составляет основную цель анализа.

Tora Kamal

"Middle-literary" and novel A.Akbar`s "Amnezia"

Summary

Unique role of samples of "Middle-literary" which arise from compromise of mass and elite literature and turns today`s demand are analyzed in the structure of modern prosa in the article. In such works in one point of view certain qualities of detective and fantastic genre which specific to mass literature are attracted attention, in other point intertextual judgments, postmodern thoughts are accepted. A.Akbar`s "Amnesia" writings are analyzed from this point and the character of the work draws attention by its suspense. Adulation, authority, oppression of the people, religious, language, loyalty, devotion, friendship, affection, love and other issues are reflected in Murad`s judgments. Sometimes these judgments shows him as fair person, but sometimes as very nihilistic person. Murad goes against authority, discloses governance, hates government but, we can not see his love to the people.The writer`s style is also main purpose of analysis.

Rəyçi: professor Ə.Xəlilov

GÜLŞƏN AĞABƏY
gulshen_71@mail.ru
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun Quba filialı

DÖVRÜN GERÇƏKLIKLƏRI BABA PÜNHANIN SATIRA GÜZGÜSÜNDƏ

Açar sözlər: Məqalə,Baba Pünhan, şəkil, Azərbaycan satirası
Ключевые слова статье, Баба Пюнхан, критики. Азербайджанской сатирической.
Key words: article, Baba Punhan, Azerbaijan satirical , article, critisism.

Satiranın tarixinə nəzər salarkən qəribə bir trakyektoriyanın şahidi olursan; sanki o qabarma və çəkilmələrlə inkişaf edir. Olsun ki, burada tarixi hadisələrin və başqa obyektiv amillərin də rolu az olmamışdır. Daha satiranın, tənqidin, ifşanın ömrü bitdi dedikdə, onun qarşısına inzibati embarqolar qoyulduqda belə satira, tənqid birdən-birə boy göstərir. Nəinki boy göstərir, hətta bəzən cəmiyyətin və ədəbiyyatın aparıcı istiqamətinə çevrilir. Sovet rejimində satiranın qarşısına çəkilən səddə rəğmən, 30-cu illərdə yenidən ön mövqeyə çıxması, sosrealizm metodunun ifadə imkanlarının sərhədlərini genişləndirməsi ədəbi prosesi də canlandırmışdır. 20-ci illərin sonu 30-cu illərin əvvəllərində Mixail Zoşşenkonun (1895-1958) satirasının yeni bir keyfiyyətdə ortaya çıxması satiranın ifadə imkanlarını zənginləşdirmişdir. Dövrün ədəbi siyasətini yürüdən tənqidçi və ədəbiyyatşünasların satirik tendensiyasına qədər inzibatiliyə, siyasi sistemin düşmənlərinə qarşı yönəltmək istəsələr də, bu cəhdlər belə baş tutmamışdır. Rus ədəbiyyatşünası L.F.Yerşov bunu nəzərdə tutaraq yazırdı: "Bu illərdə sosialist realizmi metodunda tənqidə yalnız ədəbi tənqidi məqalələrdə və çıxışlarda rast gəlmək olurdu. M.Zoşşenko son dərəcə orijinaldır. Onun əsərləri mahiyyətini heç zaman itirmir. Sosialist realizmi formulunda belə yazıçı təsdiq etdi ki, yeni bədii metod yalnız həqiqətin realist təsviri ilə kifayətlənmir, həm də yeni bir ideal ortaya qoyur" (1, 100). M.Zoşşenkonun satirik ifadə vasitələrindəki orijinallığı, ictimai mahiyyəti yeni mərhələdə satiranın inkişafına müəyyən təkan yaratmış oldu. Deməli, cəmiyyətin bütün mərhələlərində satiraya, gülüşə ehtiyac vardır. Belə olmasaydı sosialist cəmiyyəti satiraya olan kəskin ehtiyacı ifadə edən "Bizə Qoqollar və Saltıkov Şedrinlər lazımdır!" şüarına ehtiyac qalmazdı.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında da satira, gülüş yeni bir keyfiyyətdə çıxış etmişdir. Müstəqilliyini yenicə qazanaraq müharibəyə sürüklənən ölkədə satiranın zühur etməsi gözlənilən olmasa da, bu, baş

vermişdir. XX əsrin əvvəlləri ilə sonunda ictimai-siyasi hadisələrin oxşarlığı ədəbi-bədii düşüncənin inkişafında da özünü göstərmişdir. Əgər yüzilliyin əvvəlində M.Ə.Sabir satiranı yeni bir mərhələyə qaldırmışdısa, əsrin sonunda Baba Pünhan (Mədətzadə Atababa Seyidəli oğlu) yaradıcılığında satira özünün yeni mərhələsinə qədəm qoymuşdu. Əslində bu dövrdə satiranın inkişafı üçün elə bir zəmin olmamışdır, bütün dövrlərdə belə olmuşdur; ictimai-siyasi hadisələrin, müharibənin getdiyi zamanlarda satira bir qədər geri çəkilməli olur. Lakin buna baxmayaraq satirik ifadə imkanları ictimai-siyasi prosesləri bədii təsvir obyekti edərək sarkazm, ironiya və gülüşün köməyilə satirik poeziyanı zənginləşdirmişdir. Yaradıcılığının ilk vaxtlarında klassik üslubda qəzəllər, hətta qoşma yazan Baba Pünhan getdikcə təxmis və satiraya meyillənmişdir. Uzun illər boyu metroda çalışan şair "Baba Mədətov" imzası ilə buradakı əməyini bir qəzəlində zarafatyana olsa da ifadə etməyə çalışmışdır:

Dörddə bir əsr metroda qoyub can veteran,
Şəninə qoşmalıyam mən neçə dastan, veteran.

Dövri-İliçdə cibin boş, döşün medallı olub,
İndi də baxmağa yoxdur sənə imkan, veteran.

...Ömrünün yarsını dözdün, nə olar, qəm eləmə,
Bir az döz, gələcək yaxşı güzəran, veteran.

Belə söz var ki, mükafat verilir, yubiley üçün,
Mənə düşmür, sən isə xeyli qabaqsan, veteran.

Yerin üstündəkilər çox belə fəxr eyləməsin,
Yerin altında da var yaxşı qəzəlxan, veteran (3, 12).

Baba Pünhanın ilk şeirlərindən olan bu qəzəldə yumor, istehza ilə janrın ifadə imkanları daha da genişlənmişdir. Burada şairin satiraya, gülüşə meyilliliyinin təzahürlərini aydın görmək mümkündür. Bu qəzəldən sonra şairin yazdığı "Təxmis" onun satiraya gələn yolunu açıq-aydın göstərir. Şair təxmisdə M.Füzulidən gətirdiyi beytlərlə çağdaş hadisələrə lirik-satirik üslubda qiymət verməyə çalışır. Təxmisdə 90-cı illərin əvvəllərində müharibə şəraitində yaşayan insanların psixologiyası, düşüncələri, davranışları sabirsayağı təsvir edilir. Maraqlıdır ki, M.Ə.Sabir də qəzəl ustadı Füzulidən çox təsirlənməklə yanaşı, onun yaradıcılığından bəhrələnərək tamamilə yeni satirik üslubda şeirlər yaratmışdır. Şair təxmisin hər kupletində Füzulinin ayrı-ayrı qəzəllərinə müraciət edərək ona yeni məna verir. Qeyd etmək lazımdır ki, bu üsul M.Ə.Sabirin ən çox istifadə etdiyi bədii priyomlardan biri idi. Baba Pünhan bu qəzəlində müharibə gedən bir

ölkədə insanların "qrad" hay-harayı ilə qrad qorxusundan öz evini-eşiyini tərk edənləri satirik hədəf seçərək yazır:

Rayona düşdü "qrad", göylərə qalxdı şivənim,
Gecə qaçdım Bakıya guya kül olmuş vətənim.
Başıma yaylığı örtdüm dedim, ey xəlq, mənim,
"Pənbeyi-dağı-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim" (3, 13).

Baba Pünhan satirasının ifadə imkanları və komponentləri zəngin və çoxçalarlıdır. İroniya Baba Pünhan satirasının əsas komponentlərindən biridir. Görkəmli estetik Y.Borev ironiyanın ifadə imkanlarının zənginliyinə diqqət çəkərək yazır: "Bu ironiyanın müxtəlif formalarının olmasını sübut edir; satirik və yumoristik ironiya vardır. satirik ironiya xəyali təzahürü təsdiq edir, masqaraya qoyur və onun tərəfləri tənqidə məruz qalır. Lakin yumoristik və satirik ironiya üçün onun spesifikasını və mahiyyətini təşkil edən ümumilik də var" (2, 152-153).

Baba Pünhan mövcud vəziyyəti ironiya vasitəsilə açır; müharibə bölgəsindən qaçıb gələnləri dərin ironiya ilə tənqid edir. Əlbəttə, bu o demək deyil ki, müharibədən hamı qaçıb Bakıya gəlmişdir, şair bunu demək istəmir, dövrün gerçəkliklərini ifşa edir. Çünki müharibədə döyüşənlərlə yanaşı, ermənilərlə, yaxud döyüş bölgələrilə sərhəd olmayan kəndlərdə belə müharibəni bəhanə edib qaçanlar var idi:

Mənə tən eyləməyin ki, bu necə qeyrətdir,
Tüpürüb hər şeyə qaçmaq özü bir cürətdir,
Bakıda yurd-yuva salmaq nə böyük nemətdir,
"Tövqi-zənciri-cünun daireyi dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi tənim".

Bakıya qaçmışam ey dil, sümük üstündə dərim,
İndi maşallahlar olsun belə gəlmir kəmərim,
Bircə Anjela çatışmır ona bu qəlbi verim,
"Eşq sərgəştəsiyəm seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadən doludur pirahənim (3, 13).

Beytdən-beytə şair satirik "mən"ə qarşı hücumlarını daha da artırır, ironiya, istehza və sarkazmın köməyilə satirik hədəfin zəif yerlərindən yapışaraq onu bütün çılpaqlığı ilə cəmiyyətə təqdim edir. Satirik qəhrəmanın rayondan gələrək Bakıda yaşaması, özünə yaşı güzəran qurması və el-obanı tamamilə yaddan çıxarır. Onun indi bircə azarı var; o da Bakıdan ötrü "ölməsi", buranı "bazar" kimi görməsidir. Düşmənin vətən dağlarını almasının əvəzində Bakı bağlarını zəbt etməsi satirik qəhrəmanın ürəyincə olduğu üçün buranı tərk etməyi belə düşünmür:

Nola ki, düşmən alıbdır o vətən dağların,
Mən də zəbt eyləmişəm burda Bakı bağların,
Alışıb kəndim, əzizim, yana narın-narın,
Edəməm tərk, Füzuli Bakının bulvarın,
"Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim" (3, 13-14).

Satirik şair Baba Pünhanın ilk kitabı "Acı həqiqət" adlanır; şair bununla satirik sözün, fikrin acı həqiqət olduğuna işarə edir. Ancaq bu elə bir həqiqətdir ki, onu qəbul etməli, onunla razılaşmalıyıq. Çünki bu həqiqətlərlə hər gün qarşılaşırıq, o, artıq bizim həyat tərzimizə çevrilmişdir, ona görə də M.Ə.Sabir kimi onu qamçılamaq, həqiqəti demək və onun gözünün içinə baxmaq lazımdır. Şairin "Kabab istər könül", "Şor", "Qurban kəsginən", "No..olub ala", "İt günündə", "Kilkə" və s. şeirlərində cəmiyyətin dərinliklərinə enərək ictimai qüsurları qamçılamağa çalışır. Onun tənqid hədəfi etdiyi xüsusiyyətlərin hər birinin ictimai əsasları olan, cəmiyyəti içindən yeyən qüsurlardır. Ədəbiyyatşünas Nazif Qəhrəmanlı şairin yaradıcılığının bu xüsusiyyətini qiymətləndirərək yazırdı: "Acı həqiqət"i oxuduqca həqiqətlər burulğanına düşürsən. Həyatımızın özəlliyin, "Gözəlliyinə", rəmzinə və acı güeçəkliyinə çevrilmiş bu həqiqətləri biz artıq on ildən çoxdur həyat və məişətimizin tərkib hissəsi kimi qavramışıq. Buradakı əksər şeirlərdə biz hər dəyişikliyə diqqət yetirən "yoxsul" qəhrəmanın irad və nifrinini, təəccüb və heyrətini, acı nidasını dinləyirik" (4, 60).

Ədəbiyyatşünasın qeyd etdiyi bu acı nidalar hər bir satirik şeirində yeni bir hədəfə tuşlanır. Lakin bu hədəf ayrı-ayrı şəxslər deyil, cəmiyyəti içindən qurd kimi yeyən ictimai bəlalardır. Şair "Şor" şeirində sözün leksik və ictimai mənalarından məharətlə isifadə edir, onu müxtəlif mənalarda, zaman və məkanda işlədir, şora tərif verir, funksiyalarının ictimai mənasını açır. Şair burada şora möhtac olan insanlardan və şora xor baxan zümrələri qarşılaşdıraraq yeni bir situasiya yaradır:

Tənim başdan-başa şordur, evimdə var olandan şor,
Fələk görmür, daha kordur, şirin rüzgar olandan şor.

Şorun tərkibin-kimyasın soruşma Milli Məclisdən,
Vəkillər şor yemir əsla, vəkilçin ar olandan şor.
...Cəlalım şor, camalım şor, haramım yox, halalım şor,
Yerim də abi-şorandır, axar sular olandan şor.

Bazarda şora baxmaqdan özüm də olmuşam "şorgöz",
Məni qoymur baxım "Türkan Şoray"a yar olandan, şor.

Üzüm ağdır, izim ağdır, gözüm ağdır, sözüm ağdır,

Evim xalis ağappaqdır, bütün divar olandan şor (4, 16).

Baba Pünhanın satirik şeirlərində siyasi məsələlərə də münasibət bildirilir. Əslində satirik poeziya siyasətə çox az-az hallarda qarışır. Ən çox M.Ə.Sabir satirasında dünyada gedən proseslər, ictimai-siyasi hadisələr öz əksini tapmışdır. Bu mənada Baba Pünhan da onun yolunu davam etdirmişdir. Onun satirik şeirlərində son iyirmi ilin ictimai-siyasi hadisələri satirik-poetik şəkildə əks etdirilir. "Qarabağın saatı Moskva vaxtıyla gedir, O Kremlin saatından qala bilməz dala bu",- misralarında böyük bir ictimai-siyasi reallıq və Moskvanın bu işdə əli olmasının poetik anatomiyası durur. "Urus nemesdü qərdeşim!", "İlandan ilana", "Əcdadı bilinmir", "Mamlı-matan göstərərəm", "Hinger Hayıstan güdürük", və s. onlarla satirik şeirlərində ictimai-siyasi hadisələrin satirik mənzərəsini yaratmışdır. "Biz hara, NATO hara?!" şeirində NATO-nun regiona gəlişi məsələlərinə toxunulur. Region üçün son dərəcə böyük siyasi hadisə olan bu məsələyə şairin satirik yanaşmasında ciddi məqamların satirik bədii həlli ifadə olunur. Məşədidən NATO-nun buraya gəlmə xəbərini alan satirik qəhrəman bu gəlişi "...biz hara, NATO hara?!"- deyə istehza ilə qarşılayır. NATO-nun indiyəqədərki siyasi, hərbi hadisələrə müdaxiləsinin poetik-satirik mənzərəsini yaradan şair yazır:

Kişi, vallah, bir aya serbləri xamuş elədi,
Ona bir "quş" elədi.
Bizə bir "quş" növbəsi kaş düşməyə bu cırhacıra,
Biz hara, NATO hara?!

...Ola bilsin dedilər, NATO-ya Vartan da ola,
Yana dartan da ola.
Bunu aşkar eləməkçün çıxıb Orxan da "şara",
Biz hara, NATO hara?! (3, 204-205)

Baba Pünhanın satirik poeziyası iki əsrin qovşağında Sabir ənənəsinin davamı olsa da, son dərəcə orijinal xüsusiyyətlərə malikdir. İstər mövzu və problematika seçimində, istərsə də ona yanaşmasında və yeni satirik-komik ifadə vasitələrindən istfadə edilməsində yenidir. Onun tənqid spektrində həyatımızın bütün sahələri obyektiv şəkildə təsvir edilir; tənqid hədəfləri arasında Sabirdə olduğu kimi cəmiyyətin bütün təbəqələri-müəllimlər, ziyalılar, millət vəkilləri, hətta vətənindən didərgin düşmüş qaçqınlar da vardır. Eyni zamanda, şair bu satirik şeirlərində yalnız ayrı-ayrı zümrələri tənqid etməklə kifayətlənmir, həm də dövrünün yaşam fəlsəfəsini tragikomik şəkildə təsvir etməyə nail olur.

Ədəbiyyat

1. Yerşov L.F. İz istorii sovetskoy satirı. Leninqrad, "Nauka", 1973
2. Borev Y. O komiçeskom. İskusstvo. Moskva, 1970
3. Mən nə dedim ki...Bakı, "Kitab klubu", 2015
4. Qəhrəmanlı N. Ədəbiyyat və əbədiyyət. Bakı, "Nurlan", 2009

G.Aqabay

The realities of the time in Baba Punhan"s satire mirror

Резюме

In the article the prominent representative of Azerbaijan satirical literature of the independent period Baba Punhan's creative work is viewed. It is noted that the period of independence was the time when there was no chance for the creation of satire, humour and Baba Punhan's sudden turn to satire itself was a new event. Baba Punhan passed a long way of creation within a very short period of time, and raised the satirical poetry to a new level. In his satirical poems both the processes going on in the society and socio-political events taking place in the world have become the targets of critisism.

Г.Агабай

Реалности времии в сатирическое зерквле Баба Пунхана

Summary

В статье рассматривается творчество видного представителя Азербайджанской сатирической поэзии Баба Пюнхана в период независимости. Отмечается, что в период независимости, когда не было необходимости образования сатиры, смеха, внезапный переход Баба Пюнхана в сатиру, является одним из новых событий. Баба Пюнхан в очень короткий срок прошёл большой творческий процесс, и довёл сатирическую поэзию до нового уровня. В его сатирических стихах, процессы, происходящие в обществе, а также общественно-политические события в мире становится объектом критики.

Rəyçi: professor Bədirxan Əhmədov

KÜBRA QULİYEVA
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti
qkubra@mail.ru

NİZAMİ GƏNCƏVİNİN "İSKƏNDƏRNAMƏ" ƏSƏRİNDƏ ŞƏRQ-QƏRB PRİZMASINDA İDEAL HAKİM SURƏTİ

Açar sözlər: Nizami Gəncəvi, İsgəndərnamə
Ключевые слова: Низами Гянджеви, произведение «Искендернаме», идеалъный правителъ, связи Восток – Запад, Восточная философия.
Key words: Nizami Ganjavi, "Iskendername", the ideal ruler, East and West relationships, Eastern philosophy.

Dünya mədəniyyət tarixi sonsuz ümmandır. Bu ümman insan zəkasının bəhrəsi olan elm, fəlsəfə və sənət inciləri ilə doludur. İnsanlığın qoruyub saxladığı və yaşatdığı bu mənəvi mədəniyyət xəzinəsinin bir güşəsini də orta əsr Azərbaycan fəlsəfi poeziyasının ən görkəmli nümayəndəsi, əsrlər boyu Şərqi və Qərbi məftun etmiş, XII əsr Azərbaycan – Türk İslam intibahının zirvəsi adlanmağa layiq olan Nizami Gəncəvinin yaradıcılığı tutur. Nizaminin yaradıcılığı XII əsr Azərbaycan, eləcə də Türk dünyası üçün ən mühüm mədəniyyət hadisəsi olmaqla yanaşı, Fars dilində yazmasına baxmayaraq, Türk – Azərbaycan şairi olmaq faktını da dəyişdirmir.

Hər şeydən əvvəl qeyd edək ki, fəlsəfənin müxtəlif müddəalarını ədəbi formalarda ifadə etmək sahəsində Şərq mədəniyyətinin bəşəriyyət tarixində xidməti az deyil. Hələ İbn Sina öz dövründə Aristotelin "Poetika" əsərinə yazdığı şərhdə Şərq və Qərb fəlsəfi poeziyasının mahiyyətini səciyyələndirən bir sıra mühüm amillərdən bəhs etmişdir. (3, s. 6).

Azərbaycan poeziyasının yüksək inkişaf zirvələrinə qalxması Şərq mədəniyyətinin çiçəklənmə, yəni intibah dövrünə təsadüf edir ki, Nizami də daxil olmaqla bu dövrün dahi alim, mütəfəkkir və sənətkarları öz yaradıcılıqlarını yüksək kamala yetmiş, nəcib əxlaqi sifətlər, ağıl və gözəlliyin təmsilçisi olan İnsana həsr etmişlər. Bu mənada Nizami Gəncəvinin "İskəndərnamə" əsərini xüsusi qeyd etmək lazımdır. Çünki bu əsər Azərbaycan poeziyasında intibahın ümumi xarakterini, yəni "müxtəlif mədəniyyətlərin qloballaşma və sinkretikləşmə prosesini səciyyələndirən" (2, s. 51) ilk əsər idi.

Nizami bütün həyatı boyu tarixi hadisələri izlədiyi və hökmdarların ədalətsizliyinin şahidi olduğu üçün yaradıcıllığında başlıca arzusu hökmdarın qılınc işlətmədən, qan tökmədən ağlının gücü ilə dünyaya hakim ola bilməsi, insanların qəlbini fəth etməsi, özünü sevdirə bilməsi və ədalət tərəfdarı olmasıydı. Həyatının 40 ilini sadəcə bu məqsəd uğrunda sərf edən,

öz ideal qəhrəmanını utopik şəkildə də olsa yaratmağı qarşısına məqsəd qoyan şair, onu nəhayət Makedoniyalı İskəndərin simasında tapdı. Nizami "İskərdərnamə" nin yazılmasını belə izah edir:

Yeni nəğmələrlə başlayan kəlam,
Keçmişlər ruhuna göndərim salam.
Bir çıraq yandırım bir pərvanədən,
Bir ağac bəzəyim kiçik danədən.
Bu barlı ağacdan kim meyvə dərsə,
Söyləsin xoşbəxtdir bu bağban kimsə.

Nizami məqsədinin güya həyatda söz mülkünün sultanı olaraq yaşamaq olduğunu yazsa da, əslində İskəndəri seçməsinin arxasında fikrimizcə, bir neçə səbəb dururdu. Belə ki, ilk növbədə, İskəndəri əsərinə baş qəhrəman seçməklə Nizami özünü dövrünün hakim dairələrinin qəzəbindən sığortalamış oldu. İkincisi, o qəhrəmanının dili ilə cəmiyyətin çatışmamazlıqlarını ifadə edərək, onların həllini hökmdarların ixtiyarına buraxır və bütün ədalətsizliklərin yolunun cəhalətdən gəlib keçdiyini ön plana çəkməyə çalışırdı. Üçüncüsü, şair insanın ən ali zirvələrə belə çata biləcəyinin xəyal deyil, fakt olduğunu göstərmək istəyirdi və ən nəhayət onun istəyi Qərbli hakimi Şərq aləminə gətirməklə o dövrdə Qərbdə cəmiyyət qanunlarının Şərqə nisbətən daha adil olduğunu göstərmək və qəhrəmanının vasitəsilə Şərq mədəniyyət və fəlsəfəsini Qərb aləmində yaymaq düşüncəsinə xidmət etmək idi.Nizaminin yaradıcılığında nəzərə çatdırmaq istədiyi başlıca məsələ eyni zamanda həm də Tanrının öz sifətlərindən birini – qurub – yaratmaq xüsusiyyətini bəxş etdiyi insan, cəmiyyəti və həmin cəmiyyəti idarə edə biləcək ədalətli hakim məsələsi idi. Əgər bir qədər dərinə getsək, Nizaminin ən ümdə məqsədinin göylərə xas olan ədalətli qanunların, nizamın yerdə də bərqərar olmasını arzuladığını görmək olar. Nizaminin öz dövrünün hakim sinfindən üstüörtülü, pərdəli şəkildə tələb etdiyi də Allahın dediklərinə, Quranın yazdıqlarına Yerdə olduğu kimi əməl edilməsi idi. Bu nöqteyi – nəzərdən onun məhz İskəndərlə bağlı mövzuya müraciət etməsi və əsərinin baş qəhrəmanı kimi Şərqin deyil, Qərbli hökmdarı seçməsi də təbiidir. Çünki Nizami öz qabaqcıl ideyalarını yalnız onun vasitəsi ilə ifadə edə bilərdi və İskəndər haqqında Şərqdə və Qərbdə yayılmış rəvayətlər, eləcə də reallıqlar buna imkan verirdi. Digər tərəfdən, həmin dövrlərdə Qərbdə Şərqdə olmayan demokratiya – söz azadlığı da mövcuddu. Nizaminin Qərbdə məşhur natiq kimi ad qazanmış Sofoklun, Demosfenin fəaliyyətindən, dünya ədəbiyyatında ilk müsbət və ideal natiq obrazı kimi məlum olan Siseronun (Tutiyanuş) əsərlərindən xəbəri olduğu da "İskəndərnamə" dən məlum olur:

Bir rumlu var idi, olduqca insan,
Natiqdi bir neçə dildə danışan,

... Söhbəti tutini kəməndə salmış,
Özü Tutiyanuş adını almış.
Hələ "Sirlər xəzinəsi" əsərində:
O zamandan ki, qələm yazı yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ilk dəfə sözlə açdı. –

deyən şair sözlə silahlanmış qoşunun sərkərdəsi kimi öz fikir, ideya və məqsədini sətiraltı mənalarla oxucusuna çatdırmağa çalışır və bunu "Sirlər xəzinəsi"ndən başlayaraq "İskəndərnamə"yə qədər keçdiyi uzun yolda hər an hiss etdirir. Bu mənada bəzən hətta Nizaminin özü ilə qəhrəmanını da qarışdırmaq olur.

Sənətşünas F.Rzayev "Nizami Gəncəvi yaradıcılığı İtaliya ədəbi – mədəni həyatında" adlı əsərində yazır: "İskəndərnamə" əsərində İskəndər obrazı ilə Nizami maarifpərvər və ədalətli bir şahın cəmiyyətin rifahı və ahəngdar inkişafı üçün necə böyük imkanlara malik olduğunu göstərmişdir. Bu baxımdan Nizaminin yaratdığı hökmdar obrazlarının əsərdən-əsərə kamilləşdiyini və cəmiyyətin arzu və tələblərinə daha çox cavab verdiyini görürük. Xosrovdan ("Xosrov və Şirin") Bəhram Gura ("Yeddi gözəl") və İskəndərə ("İskəndərnamə") doğru yüksələn xətlə gedən hökmdar obrazları ən nəhayətdə "İqbalnamə" də ("İskəndərnamə" nin ikinci hissəsi) sadəcə bir hökmdar deyil, bir çox xalqları doğru yola yönəldən, təkcə öz ölkəsi Yunanıstanda yox, bütün mədəni dünyada haqqı və ədaləti bərpa edən peyğəmbər səviyyəsinə yüksəlir. (4). Onu da qeyd edək ki, İskəndərin tale ulduzunun parlaq olacağı doğuşundan bəlli idi. Bu haqda əsərdə belə qeyd olunur:

Təqvimdən bəxtini təyin etdilər,
Qoyuldu uşağın adı İskəndər.
Bu yeddi ülkərdən oldu aşikar,
Açarı verəcək ona ruzigar.

Zənnimizcə, bu misralar dünyaya bu qədər şanslı gələn bir şəxsin ömür yolunu işıqlandırmağa kifayət edər. Lakin maraqlı cəhət budur ki, əsərdə İskəndərin doğuşundan ölümünə qədər bütün həyatı təsvir olunduğundan biz onu bir surət, şöhrəti əsrlərin arxasında qalmış bir hökmdar, fateh kimi deyil, gözümüzün önündə böyüyərək haqq etdiyi zirvəyə çatan bir insan kimi qəbul edirik.İskəndərin aldığı elm də hələ kiçik yaşlarından onun dahiliyinə dəlalət edir. Onun Zəngibar şahına ədalətli olması haqqında məktub göndərməsi, daha sonra onu məğlub edərək xalqı əsarətdən xilas etməsi bu gənc hökmdarın dünyanın gözündə qalxmasının ilk pilləsi oldu. Güzgü düzəltməsi onun zehni düşüncəsinin inkişafına, elmə sevgi və bağlılığına işarədir. Hakimiyyət və elm İskəndərdə paralel inkişaf edən xətdir ki, çox vaxt da elmə üstünlüyün daha qabarıq olması diqqəti cəlb edir və hətta əsərin sonunda ölümsüzlüyə qovuşmaq üçün də özü ilə dahi

filosofların göstərişlərini götürməsi səhnəsiylə Nizami "Xosrov və Şirin" əsəsində Şirinin dili ilə Xosrovu elmə dəvət etmə ideyasının hökmdarı hansı zirvələrə qaldıra biləcəyini göstərməklə yanaşı, eyni zamanda dövləti idarə hakimin savadlı olmasının nə dərəcədə rolu olduğunu burada daha açıq şəkildə anlatmağa çalışmışdır.İskəndərin şimal zülmətində dirilik suyunun olması xəbərini eşitməsi və oraya yol tapmaq istəməsini verməklə Nizami insanın saf əməlləri sayəsində hər şeyə nail ola biləcəyini, hətta ən əlçatmaz hesab etdiyi məqamlara belə qalxa biləcəyini sübut etməyə çalışmışdır. Yeri gəlmişkən,əbədi həyat axtarışının ən qədim mədəniyyətlərdə, həmçinin Şumer dastanlarında mövcud olduğunu söyləmək yerinə düşər. Belə ki, Şumer dastanlarında da ölümsüzlük çarəsi Şərqdə, ehtimallara görə Xəzər və ya Urmiya gölündəki adaların birində axtarılır. Zərdüştilik inancına görə isə ölümsüzlüyün dərmanı "Hoym" bitkisidir. (3, s. 6)

Nizaminin bu məsələyə toxunuşu şairin özünün də qədim mədəniyyətlərə dərindən bələd olmasına dəlalət edir.

İskəndərin Şərqə səyahətləri dövründə görüb-öyrəndiyi Şərq mədəniyyətləri, Şərq elmi – fəlsəfi dünyagörüşü nəticəsində əqli təkamülün zirvəsi olan peyğəmbərlik məqamına yüksəlməsini göstərmək baxımından "İskəndərnamə"ni Nizaminin bədii – fəlsəfi yaradıcılığında son kamil intibah əsəri kimi qiymətləndirmək olar. "İskəndərnamə"nin əsas qəhrəmanı hər şeydən əvvəl, qeyd etdiyimiz kimi, Şərq mədəniyyətində "dünyanın əşrəfi" adladırılan İnsan obrazıdır. Bəlkə, məhz buna görə Nizami belə bir qəhrəmanı sərkərdə, hökmdar və elm havadarı kimi şöhrət tapmış Makedoniyalı İskəndərin surətində vermişdir. Umumilikdə, şairin, eləcə də onun simasında İskəndərin əsas məqsədi insanın səadətinə xidmət, bu səadəti təminetmə yollarını arayıb tapmaqdır. Əsərdə birbiri ilə üzvi surətdə bağlı üç istiqamət, üç məqsəd izlənilir: insan ağlının, zəkasının və bununla əlaqədar elmin, fəlsəfənin tərənnümü və təbliği; insanın yüksək əxlaqi keyfiyyətlərinin tərənnümü və təbliği; insan xoşbəxtliyini təmin edən, zülmə və bədxahlığa son qoyan ədalətin, azad, bərabər və dost insanların cəmiyyətinin tərənnümü və təbliği.Nizami "Xəmsə"sinin özəyini təşkil edən bu üç ayrılmaz xətt inkişaf edərək "İskəndərnamə"də özünün ən yüksək fəlsəfi–bədii ifadəsini tapır və poemanın müxtəlif hekayələrinin əsas məzmununu təşkil edir.Böyük mütəfəkkirin dünyagörüşünü heç cür dövrün hakim ortodoksal dini dünyagörüşü çərçivəsilə məhdudlaşdırmaq olmaz. Çünki filosof-şair dinlə əlaqədar məsələləri İslam ruhaniləri mövqeyindən yox, kafir damğası vurulmuş məşhur Şərq filosofları Fərabi, İbn Sina, Bəhmənyar mövqeyindən işıqlandırır. (3, s. 6). Əsərdə Nizami qəhrəmanını tam yetişmiş bir surət kimi qabartmır, ona həyat təcrübəsi qazandıra–qazandıra, pillə-pillə zirvəyə qaldırmaq bəşərə qalxmağın yolunun nələrdən keçdiyini də öyrətmiş olur. İskəndər surətini yaratmaqla dahi şair onu Şərqin hakim dairələrinə qarşı

örnək qoyur, İskəndərin vasitəsilə onlara özünün demək istədiklərini çatdırır. Məlum olur ki, İskəndəri İskəndər edən elm və həyatdan əldə etdiyi, düzgün qiymətləndirə bildiyi nəticələrdir. Bu mənada şair, eyni zamanda yuxarıda qeyd etdiyimiz kimi, hakimin elm sahibi olması məsələsini də ortaya artmış olur. İskəndər ədaləti, elmi, ağlı və sərkərdəlik bacarığı ilə hər bir hakimin örnək ala biləcəyi bədii qəhrəmandır. Nizamiyə görə, İskəndər təkcə tərbiyə almır, eyni zamanda tərbiyələndirir. Dünyada antik dövrün məşhur filosofu kimi tanınan Aristotelə dünya nemətlərindən əl çəkməyin insana zülm və zalımlıq hökm sürən dünyada öz mənliyini, insani ləyaqətini qorumaq üçün lazım olduğunu başa salır. Şair bu əsərində ən xırda nüanslarla belə ədaləti təbliğ etməklə qəhrəmanının diqqət mərkəzindən uzaqlaşmasına imkan vermir. Nizami qəhrəmanlarında tərkidünyalığa meyl də məhz buradan doğur. Onun qəhrəmanları tərkidünyalığa behişt naminə yox, bu dünyada insani ləyaqəti qorumaq, insan qururunu itirməmək naminə meyl edir, aza qane olurlar. Eyni zamanda, hekayədə əxlaqi paklıq, təmizlik, nəcabət ideyaları da Sokratın dili ilə təbliğ və tərənnüm edilir. İskəndərə mənəvi, əxlaqi paklıq öyrədən Sokratın hekayəsindən sonra, Nizami öz qəhrəmanını və onunla bərabər saysız– hesabsız oxucusunu yenə də əqlin qulluğuna dəvət edir. Qədim yunan elminin Ərəstu, Bəlinas, Sokrat, Əflatun, Valis, Fərfuriyus kimi nümayəndələrini bir yerə toplayan böyük mütəfəkkir onların orta əsr fəlsəfə və elminin ən ümdə və mühüm məsələləri haqda fikir söyləmələrinə, qoca kainatın tarixindən danışmalarına imkan yaradır. Bununla da Şərq mədəniyyət və fəlsəfəsi ilə Avropanın da tanış olmasına imkan yaratmaqla həmin mədəniyyət və fəlsəfənin içində yetişmələrinə baxmayaraq, onlardan xəbəri olmayan və öyrənməyə belə həvəs göstərməyən dövrünün hakimlərini tənqid edir. Maraqlı burasıdır ki, Nizami qəhrəmanları – filosofları dilləndirərək onların fikrini çox vaxt olduğu kimi yox, Şərq fəlsəfəsi cərəyanlarına uyğun şəkildə verir. Orta əsr ərəb dilli filosoflar, məlum olduğu kimi, qədim yunan fəlsəfəsinə dair əsərləri tərcümə və təfsir edərək, bu fəlsəfəni qədim və orta əsr Şərq fəlsəfi fikriylə birləşdirib, yeni orijinal keyfiyyətli təlim yaratmışlar. Nizami poemasındakı məclisdə də yunan alim və filosoflarının adından söylənən fikirlər, orta əsr klassik ərəb dilli fəlsəfə süzgəcindən keçirilən və böyük mütəfəkkiri bu və ya digər şəkildə xüsusilə maraqlandıran fikirlərdir. "İskəndərin peyğəmbərliyə yetişməsi" fəsli də söylənilənləri bir daha sübut edir:

İstədi çalışıb sirləri örtən
Yeddi qat sürməni silsin tamamən.

Allah peyğəmbər kimi səfərə çıxan İskəndərdə yenə də dünyəvi biliklərə ehtiyac hissi oyadır. Nizami rasionalizmi və azadfikirliliyi burada da gözə çarpır. Şah yola dini kitabları yox, Ərəstu, Əflatun və Sokratın yazdığı nəsihətnamələri götürür. Nəsihətnamələri oxuduqca onların

arxasında qədim yunan mütəfəkkirlərindən çox Nizami dühasını, Nizami məntiqi və Nizami insansevərliyini görürük.Poemanın belə sahnələri İskəndərin bir şah və sərkərdə kimi müdrikliyini nümayiş etdirir, onun yüksək insani keyfiyyətlərini açır və onu bir nümunə kimi dünya şahlarına və hər şeydən əvvəl, şairlə həmdövr olan şahlara göstərir. İskəndər ədalət səsini aləmə yayaraq zülm, nadanlıq və bədxahlıqla mübarizəyə qalxır. Ölkələr fəth edən, xalqları haqqa və ədalətə tabe edən şah bu üç qüvvədən özünü də, insanları da xilas etməyə çalışır. Onun müharibələri sülhə xidmət edir. Dağıtmaq yox, əmin–amanlığın bərpası İskəndərin əsas qayəsidir.

Nizaminin kamil cəmiyyət nəzəriyyəsi fantastik uzaqgörənliyin məhsulu, şair dühasının qeyri–adi tapıntısı deyildi. Bu nəzəriyyə Şərq və dünya ictimai–fəlsəfi fikir tarixinin ideal cəmiyyət haqqındakı nəzəriyyələr zəncirində bir halqadır. Tarixdən məlumdur ki, kəskin sinfi mübarizə nəticəsində xalq kütlələrinin gücünə əsaslanaraq, Şərqdə ideal dövlətləri bu və ya digər dərəcədə xatırladan demokratik qərmətilər, ismaililər dövlətləri mövcud olmuşdur, bunlar və xüsusən Beyləqanda, XI əsrdə kəskin sinfi mübarizə nəticəsində müvəqqəti də olsa yaranan xalq hakimiyyəti, sözsüz ki, Nizaminin ideal cəmiyyət nəzəriyyəsini qidalandıran real zəmin idi.

Nizaminin başqa əsərlərində öz əksini tapmış sosial–etik görüşləri ilə birlikdə götürülərsə, "İskəndərnamə" dəki kamil cəmiyyət təlimi oxucunu ədalət uğrunda daha fəal mübarizəyə çağırır. Nizami idealının bütün dövrlərin insanlarına yaxınlığı və doğmalığının səbəbi də budur. Şairin öz sözü ilə desək, "İskəndərnamə" dürr yox, dəryadır.

Nizaminin İskəndəri ideal hökmdar səviyəsinə qaldırmasının bir səbəbi də onun elmə olan hüdudsuz sevgisi, elmdən öz istəkləri istiqamətində deyil, bəşəriyyətin inkişafı naminə mübarizə vasitəsi kimi istifadə etməsidir. İskəndəri sevindirən onun

Elm ilə, hünərlə, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz. –

ideyasını özü üçün şüar seçməsidir.

Nizami, demək olar ki, bütün əsərlərindəki, xüsusən də "İskəndərnamə" əsərindəki fəlsəfi–bədii görüşləri ilə bütün dünya mədəniyyətlərinin diqqətini cəlb etmişdir. Onun adı dünya ədəbiyyatının ən görkəmli korifeyləri ilə bir sırada çəkilir. Araşdırmalar göstərir ki, Avropa şərqşünaslarının fikrincə, Bokaççonun "Ameto" povesti, K. Qotsi və F. Şillerin "Turandot şəhzadəsi" əsəri də "Yeddi gözəl" poemasının təsiri ilə yazılmışdır. Alman şərqşünası C. Hammer Purdştal Nizaminin "Xosrov və Şirin" əsərinin təsiri ilə eyni mövzuda əsər yazmış, Y. V. Höte isə "Qərb–Şərq divanı" nda Nizamiyə xüsusi bölmə həsr etmiş (4), Ş. Monteksye, J. J. Russo, K. Helvetsi, T. Komponella, S. Simon, D. Didro, A. N. Radişşev, B. Q. Belinski, A. İ. Gertsen və onlarca

belə maarifçi və filosoflar Nizami Gəncəvinin simasında şərq fəlsəfəsindən qidalanmışlar. (6, s. 12).

1941–ci ildə M. Ə. Rəsulzadə də "Azərbaycan şairi Nizami" adlı əsərində dünyanın görkəmli sənət adamlarının, tədqiqatçı və filosoflarının Nizamidən bəhrələndiyini yazırdı (5, s. 13 – 15).

Nəhayət, "İskəndərnamə" əsərinin bir poema deyil, okean və fikir xəzinəsi olduğunu qeyd etmək, zənnimizcə, doğru olar. Bu əsərində Nizami yalnız hadisə və sujet deyil, bütünlüklə yaşayıb-yaratmağın proqramını vermişdir.Nizami Gəncəvinin bəşəriyyətə bəxş etdiyi sənət inciləri elə bir xəzinədir ki, insanlıq mövcud olduqca, hətta neçə-neçə əsrlər sonra belə, elmi araşdırmalar tələb edəcək. Görkəmli Azərbaycan şairi Xəlil Rza Ulutürk haqlı olaraq qeyd edir: "Xızır Peyğəmbər dirilik suyunu içərək əbədi həyat qazandığı kimi, Nizamiyə də bu əsəri əbədilik və ölməzlik qazandırdı". (X. R. Ulutürk. 1988:28).

Ədəbiyyat

1. Nizami Gəncəvi. Lirika. "Sirlər Xəzinəsi", "Şərəfnamə", Bakı, 1988.
2. Ç. Sasani. Orta əsr Azərbaycan şeirində naturalist ədəbi – fəlsəfi fikir. Bakı, 2007.
3. N. Gəncəvi. "İskəndərnamə" (İqbalnamə), Bakı, 2004.
4. F. Rzayev. İtaliya ədəbi – mədəni həyatında Nizami Gəncəvi yaradıcılığı, 2008.
5. M. Ə. Rəsulzadə. Azərbaycan şairi Nizami. Ankara, 1949.
6. Q. Əliyev. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1982.

K. Quliyeva

The image of the ideal ruler in east-west prism in "Iskendername" by Nizami Ganjavi

Summary

The world cultural history is an infinite ocean full of science, philosophy and art pearls. One of the nooks of this cultural treasure is occupied by the creative work of well–known representative of the middle ages philosophical poetry of Azerbaijan Nizami Ganjavi. The rise of the Azerbaijani poetry coincides with the renaissance period of the Eastern culture, during which, including Nizami, great scientists, thinnkers and artists of devoted their works to the Human being, who succeeded intelligence perfection, a representative of wit and beauty. In this sense, "Iskendername" by Nizami Ganjavi is a perfect example. Because, the work is the first masterpiece

characterizing the general nature of the renaissance of the Azerbaijani poetry, that is the "process of globalization and synchronization of different cultures". As Nizami traced historical events and witnessed unjustness of the rulers all his life long, the main desire of his creative work was the ability of the ruler to judge with the power of mind, and to be a justice supporter. Aiming to create his ideal hero even in utopian way, he finally found it in the personality of Alexander of Macedon.

К,Гулиева

Образ идеального правителя в призме восток-запад в произведение «искендернаме» Низами Гянджави

Резюме

История мировой культуры бесконечное море наполненное жемчужинами науки, философии и искусства. Часть этого культурного клада занимает творчество великого представителя Азербайджанской философской поэзии средних веков Низами Гянджави. Возвыщение Азербайджанской поэзии в свою вершину высокого развития совпадает с эпохой процветания Восточной культуры. Включительно и Низами гениальные ученые, мыслители и поэты Азербайджана этой эпохи посвятили свои творчества высоко зрелому представителю ума и красоты – Человеку. В этом смысле следует особо отметитъ произведение «Искендернаме» Низами Гянджави. Потому что, это произведение было первым произведением, характеризирующим общего черта ренессанса в Азербайджанской поэзии, то естъ «глобализации и синкретизации разных культур». Посколъку Низами за всю свою жизни следил за историческими событиями и был свидетелем несправедливости правителей, в своем творчестве его основной мечтой была торжество справедливости. То естъ он мечтал чтобы, правители правили силой ума; потому что он сам был ярым сторонником справедливости. Целъ болъшого мыслителя была создание идеалъного героя в утопической форме и наконец, он нашел его в образе Александра Македонского.

Rəyçi: Nadir Məmmədli
filologiya üzrə elmlər doktoru, professor

ELFANƏ QASIMOVA
fəlsəfə üzrə fəlsəfə doktoru,dosent
GÜLÇÖHRƏ SALEHZADƏ
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: qasımova _elfana@mail.ru
salehzade.gulya@gmail.com

MƏŞHUR DIZAYNERLƏRIN FOLKLOR ÜSLUBUNA MÜRACIƏTI

Açar sözlər: Folklor üslubu, dəb dünyası, tanınmış dizaynerlər
Ключевые слова: фольклорный стиль, мир моды, знаменитые дизайнеры.
Key words:, folklore genre, fashion world, famous designers.

Xülasə: Folklor üslubu müasir dəbin ən rəngarəng, maraqlı və özünəməxsus üslublardan biridir. Estetik ilham mənbəyinin axtarışı bir çox dizaynerlərin milli adət - ənənələrə, qədim xalqların zəngin bədii irsinə müraciət etmələrinə səbəb oldu. Bu üslub etnik üslub adı altında 200 il bundan əvvəl yaranıb və bizim günümüzə qədər mövcudluğunu davam etdirir. Folklor üslubu məhşur dizaynerlərin yaradıcılığlarında aktual olaraq qalır. O hər zaman təravətli qeydlər və orijinal ideyalar mənbəyidir. Geyimdə folklor üslubu hər zaman müasir modifikasiyalarla həll olunur. XXI əsrdə də folklor üslubu öz mövqelərindən geri qalmaq niyyətində deyil. Folklor üslubunun məşhurluğunun səbəbləri onun təkrarsız müxtəlifliyi, təbiiliyi, azadlığı və rəngarəngliyidir.

Folklor üslubu uzun müddətdir ki, müasir kostyumla milli kostyumu uyğunlaşdırır. O, dünya ölkələrinin milli kostyumundan ilhamlanaraq yeni ideyaların yaranmasına sövq edir (sari, saronqo, ponço və s.). Xüsusi ilə də, yapon dizaynerləri avropa milli kostyumunu cəlbedici hesab edirlər. Geyim dizaynerləri tərəfindən dəbdə işin aktuallığı etnik komponentlərin reallaşdırılmasını işıqlandırmaqla əsaslandırılır. Xarici ölkələrin üslublarının yaradıcılığına milli ənənələrinin təsiri heç də şübhə doğurmur (məs: italiya, fransa, yaponiya). M.N. Mersalova - dəb tarixçisi yazırdı: "Rəssamın bacarığı, tarixi və ya milli kostyumun konkret formasından bədii fikri mücərrədləşdirmək və bu ideyaya yeni həyat bəxş etmək, indiki və keçmiş arasındakı əlaqəni tutmaq və müasir kostyumda tapılmış obraz həllini müasir incəsənət dili ilə təsvir etməkdir - bu nadir bacarıq yalnız əsl istedadla səciyyələnir". (1)

XIX yüzillik ərzində yüksək dəb, müxtəlif ölkələrin folklorundan faydalanmışdır. XX əsrdə folklor üslubu özünün bir neçə dövrünü yaşamışdır. Folklor üslubuna ilkin maraq keçən əsrin 20–ci illərindən başlayıb. A. Vertinskiy o dövrün dəbi haqqında xatirələrində yazırdı: «Paris dizaynerləri Şanel, Lanvin, Moline – Afrikaya, Timbutkuya, Honoluluya, Hindistana səyyahət edərək oradan müxtəlif boyalar və təəssüratlar gətirirdilər. Geyimlər

dizaynerlərin əldə etdikləri təəssüratlardan asılı olaraq parlaq, rəngarəng, yarıçılpaq, cəlbedici və ya əksinə qapalı, mistik, ciddi olurdu». (2)

İkinci dövr XX əsrin 60–cı illərindən başlayıb. Hippilər qədim şərq xalqlarının geyimlərindən nümunə götürərək hərəkətə mane olmayan kostyumlar geyinirdilər. Həyatın əsas dəyəri təbiətlə harmoniya idi və bu hər şeydə olduğu kimi geyimdə də əks olunurdu. Bu geyimlər təbii materiallardan hazırlanmış əl işləri idi. Hippilər şərq xalqları ilə yanaşı amerika, hind, qaraçıların da geyimlərinə müraciət edirdilər. Məhz hippilər hind mokasinlərini (çarıq), meksika pançosunu, mərakeş tunikasını, rəngarəng qaraçı ətəklərini, muncuq aksesuarları və b. yenidən kəşf etdilər və dəbə gətirdilər.

60-cı illərin əsas xüsusiyyəti ondan ibarət idi ki dəb tendensiyaları küçədən dəb səhnələrinə gəlirdi. İlk dəfə bu üsluba İv Sen – Loran (Yves Saint Laurent) müraciət etmişdi. Onun folklor elementləri olan kolleksiyasına yüksək qiymət verilmişdi. Qarışıq naxışları olan küçə hippi üslubu ipəkdən olan romantik geyimlərdən fərqlənirdi.

1968-ci ildə məşhur modelyer İv Sen – Loran savanna rənglərində afrika kolleksiyasını yaratdı. Bu kolleksiya "Saharienne" adı altında indi də məşhur safari üslubunu meydana gətirdi. Safari geyimi Afrikaya safari səyyahətlərinə getmək məqsədilə hazırlanmış geyimdir. Onu şalvarla kombinə edildiyi zaman safari kostyumu alınır. Bundan başqa İv Sen – Loranın yaradıcılığında «Çin», «Peru » və nəhayət 1976 – 1977–ci illərdə hazırladığı «Ruslar» kolleksiyaları da var.

Heç kəs Kenzo Takada kimi hippi üslubuna şən əhval – ruhiyyə əlavə edərək yüksəltməmişdi. Kenzo Takada öz vətənindən sadə və ciddi geyim olan kimononu gətirdi və onu şimali amerika, şərq, skandinaviya elementləri ilə kombinə etdi. Müxtəlif nümunələrin və üslubların qarışdırılması bu dizaynerin xarakterik cizgilərindəndir.

O, dəb auditoriyasını folklor üslubunda geyimlərin qeyri - ənənəviliyi ilə fəth etdi. Kenzonun geyimlərində yapon kimonosunun ciddi biçimi və şən rəngarəngliyi birləşirdi. Bununla yanaşı Kenzo cənubi amerika, şərq və skandinaviya elementlərini də geyimlərdə məharətlə istifadə edirdi. O, bütün dünyanın dəb həvəskarlarına tamamilə yeni rəng və forma həllini təqdim edirdi. Onun kolleksiyalarında şən, çiçəkli parça ilə ciddi, damalı parça, dayaqlı yaxası olan jaket ilə yüngül büzmələr bir arada istifadə olunurdu. Kenzonun yapon kimonosu geyimdə hind motivləri olan "penjama", saçaq, bədəvi əbası, ispan balerosu, rus çəpyaxalı köynəyi və xəz papağı ilə bir arada istifadə olunurdu. Kenzo ciddi klassikanı idman üslubu və folklor motivləri ilə əlaqələndirə bilirdi.

Kristian Lakroiks Fransalı dəb dizayneridir. 1987-ci ildə o hot – kutyur (haute couture) evini açıb. 1988–ci ildə Lakroiks müxtəlif mədəniyyətlərdən ilhamlanaraq paltarlar hazırlamağa başladı. O, tarixi kostyum və geyim fonunda «fantazi» kolleksiyasını yaratmışdı. Onun gül rəsmləri həkk olunmuş qısa ətəyi

" le – puf " (le pouf) da bu kolleksiyaya daxil idi. O müxtəlif üslublardan – dəb tarixindən (korset və krinolin), dünya folklorundan bir çox elementləri götürüb onları başqa üslublarla qarışdıraraq istifadə edirdi. O Aralıq dənizi regionlarından isti rəngləri, müxtəlif ornamentləri və eksperiment üçün parçaları götürmüşdü. Bəzən o yerli sakinlərin əl işlərindən də istifadə edirdi.

1994–cü ildən etibarən Lakroiksin kolleksiyaları köhnə mədəniyyətlər və folklor əsasında formalaşmışdı. 1996–cı ildə o cinslər istehsal etməyə başladı. Lakroiks bütün dünyadan qədim ənənələri cəmləyərək öz kolleksiyalarında folklor motivlərinin elementlərini davam etdirir.

Folklor üslubunun elementlərinə Jan Pol Qotyenin (Jean Paul Gaultier) bütün kolleksiyalarında rast gəlmək olar. Jan Pol Qotye geyimdə folklor üslubunu çox sevirdi. Folklor üslubu Qotyenin 1976-cı ildə ilk kolleksiyasında təqdim olunmuşdu və bu günə qədər dizaynerin yaradıcılığını müşaiyət etməyə davam edir. Qotyenin firma üslubu – tamamilə müxtəlif millətlərin milli kostyumlarının detal və üslublarının qarışığıdır. Bu dizayner onu əhatə edən hər şeydən ilham alır. 90–cı illərin əvvəllərində Qotye Nyu York küçələrində hasid ravvinlərini (yəhudi ruhanilərini) görmüşdü və ondan sonra "Rabbi - şik" kolleksiyasını yaratdı. Bu kolleksiyada uzun, tünd geyimlər, jiletlər, köynəklər, şalvarlar, gödəkçələr və "kipa" papaqları nümayiş olunurdu. Daha sonra cənub – şərqi Asiya və Afrika mədəniyyətindən təsirlənən dizayner "Tatu" kolleksiyasını yaratmışdı. Bu kolleksiyada isə gənc dəbin on ilini müəyyən edən pirsinq, tatuirovka və qraffit daxil oldu. "Böyük səyyahət", "Monqollar", "Afrika dastanı" kimi dizaynerin digər kolleksiyalarında da folklor üslubuna rast gəlmək olar. Jan Pol Qotyenin fikrincə folklor yeni dizayner ideyalarına həyat bəxş edən təravətli qandır.(3)

Con Qalyano (John Galliano) – 2009-2010-cu illərdə öz pret-a-porte payız–qış kolleksiyasında rus – balkan folklor üslubuna müraciət etmişdir. Kolleksiyada ağ, qara, boz, qırmızı və mavi rənglərdən istifadə edilmişdir. Texnoloji cəhətdən kolleksiyada hər şey mükəmməl hazırlanmışdı. Milli geyimin elementləri, kostyumların detallarında vurğulanmışdır. Burada əl işləri olan naxışlar, krinolin donlar, fonar–qolları olan köynəklər, kəndli köynəkləri, korsajlar, baş geyimləri, qaytanlı və qotazlı ayaqqabılar kolleksiyanı təşkil edirdi.

Yapon dizayner Tokuko Maedanın yaz–yay 2012 kolleksiyası da folklor üslubunda çox gözəl hazırlanmışdı. Meksikanın milli folklorundan və parça elementlərindən ilhamlanaraq hazırlanmış paltarlar, meksika geyimlərindən gələn zəngin toxunuş və rəngləri özündə əks etdirirdi. Lakin kolleksiya tipik yapon silueti əsasında qurulmuşdu.

Moşinonun (Moschino) 2014–cü ildə payız–qış hot–kutyur dəb təqdimatında ən çox qara və qırmızı rənglər üstünlük təşkil edirdi. Bu

kolleksiyada damalı şotland milli geyim elementləri, həmçinin amerika hindularının dəridən, saçaqlı geyim motivləri istifadə olunmuşdu.

Rozella Jardininin payız–qış 2013–14 kolleksiyası İngiltərəyə həsr olunmuşdur. Kulisdə dizayner "Mən Britaniyaya aid hər şeyi sevirəm və ilk gündən işlərimdə folklor elementlərindən istifadə edirəm" deyə bildirmişdi. (3) Dizayner ilk işlərində Şotland parçalardan xüsusilə kelt parça elementlərindən istifadə etmişdir. Onun kolleksiyasında qırmızı və yaşıl damalı pencəklər, böyük geniş papaqlar və iri sırğalar çox gözəl uyğunlaşdırılmışdır.

Lena Hoşek ilk dəfə 13 yaşında paltar tikməyə başlamışdı. Onun ilk tikdiyi geniş ətək milli ənənələr əsasında hazırlanmışdı. Lena Hoşekin yeni kolleksiyasında gözəl kətan, ipək və pambıq parçalardan, Avstriyaya məxsus naxış elementlərindən, Cənubi Tirola aid keçədən, əl işləmələrindən, Fransaya aid gözəl, məxmər və dəbdəbəli ipək parçadan istifadə edilmişdir.

Keçmiş heç vaxt ölmür. O, hətta keçmiş də deyil. 2014–cü ildə hot–kutyur kolleksiyası da buna sübut edir. Donatello Versace 50–ci illərə, Raf Simon keçən əsrə və Karl Lagerfeld barokko və brutalizmə müraciət etmişdi. Valentinonun dizaynerləri Mariya Qrazia Şuri və Pyerpaolo Pikiolinin kolleksiyası isə XXI əsrdə XIX əsr roma qadın toqasının təqdimatı keçirilmişdi.

Valentino 2015–ci il hot–kutyur dəb təqdimatında rus və ukrayna elementləri olan milli Belorus motivləri əsasında kostyumlar nümayiş olunmuşdu. Bu kolleksiyada tikmələrlə bəzədilmiş sarafan, qoyun dərisindən gödəkçələr, pambıq paltarlar – donlar və köynəklər nümayiş olunmuşdu.

Mariya Qraziya Şuri (Maria Grasia Chiuru) və Pyerpaolo Pikioli (Pierpaolo Piccioli) Valentinonun son kolleksiyasında Şekspirin sitatlarından ilhamlanmışdılar. Onlar Dante İnfernonun deyimlərindən və Mark Şaqalın romantik rəsmlərindən faydalanmışdılar. Xüsusilə rəssam Şaqalın əsərləri dizaynerləri daha çox təsirləndirmişdir. Pikioli - "O, çox çətin və inanılmaz həyat yaşamışdı. Lakin buna baxmayaraq Şaqal hər zaman həyata nikbin baxırdı" deyə bildirmişdi.(3)

Azərbaycanlı dizaynerlər də folklor üslubunda gözəl geyim nümunələri yaratmışlar. Buna misal olaraq Fəxriyyə Xələfovanın geyim kolleksiyalarını göstərmək olar.

Fəxriyyə Xələfovanın "Xalq motivləri" seriyasından olan kolleksiyası 2012–ci ildə Astanada nümayiş olunmuşdu. Bu kolleksiyada dizayner Azərbaycan milli ornamentlərindən xüsusilə də butadan geniş istifadə etmişdi.

Məşhur dizayner Fəxriyyə Xələfova 2014–cü ildə Parisdə Labo Ethinik Fashion & Lifestyle dəb festivalında öz kolleksiyasını nümayiş etdirmişdi. 2007 – ci ildən bəri təşkil olunan festivalın əsas məqsədi dizaynerlərin folklor üslubunda işlərinin nümayişidir.

Fəxriyyə Xələfova kolleksiya haqqında danışarkən - "Qədim Azərbaycan mənim üçün idealdır. Festivalda ümumi dünya dəb tendensiyaları və

Azərbaycan milli geyimlərinin folklor motivləri nümayiş olunub. Mənim fikrimcə təqdim olunan kolleksiyada qərb və şərq elementləri orijinal formada uyğunlaşdırılıb" – deyə qeyd etmişdi. (4)

Fəxriyyə Xələfova festival üçün etnik Afrika üslubunda da geyimlər hazırlamışdı. "Afrika folklor üslubu festivalın əsas istiqamətidir. Afrika folklor üslubu ən məşhur milli üslublardandır. Parçanın vurğulanmış, parlaq koloriti, zəngin ornament həlli ilə Afrika folklor üslubu izləyənləri heyran edir. Müxtəlif dəb istiqamətlərində işləyən bir çox dizaynerlər bu motivlərdən geniş istifadə edirlər. Afrika motivlərinin ifadəsi çox böyükdür. Bu üslubda basqılar, bizim gözümüzə qeyri – adi görünən qəbilə ornamentləri,təbii materialların parlaq rəngləri – bütün bu Afrika üslubunun xarakterik cizgilərini demək olar ki hər mövsüm dəb səhnələrində görmək olar" – deyə F. Xələfova bildirmişdi. (4)

F. Xələfova öz kolleksiyalarında hər zaman Avropa üslubu ilə milli üslubu sintez şəklində təqdim edir. Bu baxımdan onun hazırladığı geyimlər dəbdəbəli görünür.

Dizaynerlərin sözlərinə görə geyimdə folklor üslubu hər zaman aktual olaraq qalır. O hər zaman təravətli qeydlər və orijinal ideyalar mənbəyidir. Geyimdə folklor üslubu hər zaman müasir materiallar və siluetlərlə həll olunur.

XXI əsrdə folklor üslubu öz mövqelərindən geri qalmaq niyyətində deyil. Folklor üslubunun məşhurluğunun səbəbləri onun təkrarsız müxtəlifliyi, təbiiliyi, azadlığı və rəngarəngliyidir.

Ədəbiyyat

1. Мерцалова М.Н. Костюмы разных времен и народов. В 4 томах. Т. 3-4 – 2001, 576с.
2. Касумова Э.Н. Роль западноевропейских дизайнеров в становлении и развитии моды XX века /2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin büdcə təyinatlı elmi-tətqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın materialları. Bakı: 2003, s. 136-137.
3. Qasımova E.N. Dəb aləmində bərqərar olmuş aparıcı üslubların xüsusiyyətləri. Monoqrafiya, Bakı, “Elm” nəşriyyatı, 2015.
4. http://www.trend.az/life/style/ Фахрия Халафова представила в Париже этнический стиль Азербайджана и Африки

Эльфана Касумова,
Гюльчохра Салехзаде

Обращение знаменитых дизайнеров к фольклорному стилю
Резюме

Фольклорный стиль является одним из самых ярких, интересных и своеобразных стилей современной моды. В поиске источника эстетического вдохновения многие дизайнеры вынуждены были обратиться к национальным традициям, к богатому художественному наследию древних народов. Этот стиль был сформирован 200 лет назад под называнием этнического стиля и продолжает свое существование до настоящих дней. Фольклорный стиль остается актуальным в творчестве знаменитых дизайнеров. Он является источником оригинальных идей. Фольклорный стиль в одежде решается современной модификацией, который не намерен отступать от своих позиций и в XXI веке. Причина популярности фольклорного стиля заключается в его неповторимости, естественности, свободы и красочности.

Elfana Gasimova,
Gulchohra Salekzadeh

Famous designers' address about folklore method
Summary

Folklore genre is one of the most colorful, interesting and peculiar genres in modern spectrum of fashion. It was discovered in an attempt to get an aesthetic inspiration from cultural customs, the rich heritage of the ancient civilizations. Under the context of fashion genres, it was created 200 years ago under the name of ethnic genre and continues to exist to this day. Folklore method is actual in the creation of famous designers. It is always source of freshness notes and original ideas. At the clothes the folklore method is always solves with modern modifications. In XXI century folklore method don't want be behind. The cause of to become famous of folklore method is the differences of its inimitable, simplicity, freedom and multicoloured.

Rəyçi: professor Ə.Xəlilov

AYƏTXAN ZİYAD (İSGƏNDƏROV)
ADPU-nun "Dədə Qorqud" ETL-in elmi işçisi
ayetxanziyad@mail.ru

MİSİR SƏFƏROV: əsərlərində sənətkarlıq xüsusiyyətləri

("Azərbaycan dil məsələləri" kitabına daxil edilən əsərləri əsasında)

"Müəllim – metodist", "Alim – tədqiqatçı", "Alim – jurnalist!" Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Misir Səfərovun oxuculara təqdim etdiyi "Azərbaycan dili məsələləri" monoqrafiyasından bu qənaətdə qaldım

Topluya daxil edilən 27 məqalə və tezis, monoqrafiyalar haqqında yazılmış "resenziyalar" və "Ə.Əbülhəsən nəsrinin dili" monoqrafiyası (əsər ilk dəfə 1992-ci ildə AMEA-nın müxbir üzvü, profüssor Afad Qurbanovun elmi redaktorluğu ilə nəşr edilib) dosent M.Səfərovun 43 illik elmi-pedaqoji qənaətləridir ki, alim və jurnalistlərlə bölüşür, orta məktəb müəllimlərinə metodiki göstərişlərini verir, kitabı əlinə götürən hər kəsi ürək açıqlığı ilə 43 illik pedaqoji və elmi təcrübəsindən bəhrələnməyə dəvət edir.

Toplunun arxa cildində M.Səfərovun kimliyinə açıqlama verilib: nə zaman və harada doğulub. Və təhsil illəri haqqında epizodik anlatma. Vəssalam! Amma "Azərbaycan dili məsələləri"ni oxuyub yaradıcılıq nöqteyi-nəzərindən "özümünküləşdirəndən" sonra M.Səfərovu "müəllim – metodist", "alim – tədqiqatçı" və elmi tədqiqat əsərləri haqqında "SÖZ" demək imkanında olan "alim – jurnalist" qismində gördüm.

Toplu üç bölümdə təqdim olunub: 1 – "Məqalələr" (27 məqalə), 2 – "Resenziyalar" (7 məqalə) və "Ə.Əbülhəsən nəsrinin dili" ümumi başlığı altında dörd məqalə (bu, əslində monoqrafiyadır). Məqalələrdən 7-si sırf metodika, 8-i akademik Afad Qurbanov, onun əsərləri haqqında qələmə alınmış yazılar və Azərbaycan sovet romanının banisi, xalqımızın təqribən yarım əsrlik keşməkeşli həyatını öz bədii yaradıcılığının gücü ilə tariximizdə yaşadan xalq yazıçısı Ə.Əbülhəsən haqqında olan 165 səhifə həcmində "Ə.Əbülhəsən nəsrinin dili" adlı monoqrafiya və daha 17 məqalə.

Məqalələr əsasən qələmə alındıqları tarixlərin ardıcıllığı gözlənilməklə topluya daxil edilib. Amma mövzularına görə qruplaşdırsaq görərik ki...

Müəllimlər üçün bələdçi

"Ədəbiyyat dərslərində vətənpərvərlik tərbiyəsi", "Qrammatik təhlil və yekun təkrar", "Qrammatik tərif və qaydaları şagirdlərə necə mənimsədirəm (pedaqoji mövzuda)", "Bədii əsərlərin leksik təhlili haqqında", "Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsində ədəbi əsərlərin dilinin öyrədilməsinin rolu", "Bədii əsərlərdə metaforalar", "Bədii əsərlərin dil və üslub cəhətdən təhlilinin şagirdlərin nitq inkişafı üçün əhəiyyətinə dair" - 7 məqalə! Adı çəkilən məqalələrin hər biri gənc müəllimlər üçün "qiymətli metodik göstəriş, bələdçidir" desək, yanılmaraq.

Təcrübəli pedaqoq bu yarımsərlövhə altında təqdim etdiyi məqalələrdə illərlə qazandığı pedaqoji təcrübədən – hansı sinifdə hansı mövzunu hansə vasitələrdən istifadə edərək şagirdlərə baəa saldığından bəhs edir.

Hansılardır bu məqalələr? - "Ədəbiyyat dərslərində vətənpərvərlik tərbiyəsi", "Qrammatik təhlil və yekun təkrar", "Qrammatik tərif və qaydaları şagirdlərə necə mənimsədirəm (pedaqoji mövzuda)", "Bədii əsərlərin dil və üslub cəhətdən təhlilinin şagirdlərin nitq inkişafı üçün əhəmiyyətinə dair", "Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsində ədəbi əsərlərin dilinin öyrədilməsinin rolu" və s.

Məqalələri oxuduqca, onların ruhuna nüfuz etdikcə, onları hisslərinə, duyğularına hopdurduqca hiss edirsən ki, bu, Misir müəllimin yetiməkdə olan nəsilə sadəcə dərs oyrətmək istəyi deyil, çağırışdır, haraydır, sabahın vətəndaşlarını təlqin etdiyi mövzu ilə silahlandırmaq, ayağa qaldırmaqdır.

Məsələn, toplu "Ədəbiyyat dərslərində vətənpərvərlik tərbiyəsi" adlı məqalə ilə açılır. Məqalə torpağa, Vətənə, Azərbaycan dövlətinə, Azərbaycan xalqına təmənnasız məhəbbət, hər kəsdə ekstremal vətəndaşlıq duyğuları aşılayır. Oxuyuruq: *"A.Səhhətin "Vətən" adlı şeirini keçərkən vətən sevgisinin nəcib və müqəddəs olduğunu bildirir, bunun xalqlara, azadlığa, sülhə dərin məhəbbət olduğunu şagirdlərə izah edirəm. Şagirdləri başa salıram ki, xalq - Vətən uğrunda fədakarlıq göstərənləri heç vaxt unutmur... Belə girişdən sonra "Vətən" şeirinin ifadəli oxunuşuna başlayıram. Şeirin təhlili zamanı şagirdlərin ifadəli oxunuşuna başlayıram. Şeirin təhlili zamanı şafirdlərin diqqətini aşağıdakı misralara cəlb edirəm:*

"Konlümün sevgili məhbubu mənim,
Vətənimdir, Vətənimdir, Vətənimdir!"

Və sair.

Məqalələrin əksəri XX əsrin 70-ci illərinin sonu – 1980-ci illərdə qələmə alınıb. Oxuyursan. 30-35 il irəliki zaman üçün aktual olan məsələ (burada tədris üsulu, metodik göstəriş) bugün üçün də aktualdır.

Misir Səfərov alim-jurnalist kimi

Dərslik, dərs vəsaitləri, monoqrafiya, yaxud hər hansı elmi-tədqiqat əsəri haqqında yazdığı məqalələrində biz M.Səfərovu səriştəli qələm təcrübəsinə malik alim-jurnalist qismində görürük. Haqqında söhbət

açdığımız monoqrafiyaya müəllifin doqquz – "Resenziyalar" adlandırdığı bölümdə yeddi *("Lüğət tərkibinin tədqiqi", "Qiymətli təqiqat əsəri", "Dilçiliyə dair dərslik", "Dil və üslub", "Azərbaycan onomastikasının fundamental tədqiqi", "Türkoloji dilçiliyə dair biblioqrafiya", "Doktor Çobanzadə: "Türk-tatar lisaniyyatına mədxəl")* və diqqətsizlik üzündən həmin bölümə düşməyən daha iki məqalə *("Müasir Azərbaycan ədəbi dili" və "Azərbaycan onomastikasının sistemli tədqiqi")* yer alıb. Müəllif 1986-2007-ci illər civarında qələmə alınan bu məqalələrin hər birində haqqında bəhs etdiyi kitabın fəsilləri və xüsusi maraq kəsb edən tədqiqat istiqamətləri barəsində ayrıca söz açır, Azərbaycan elmində yerini və dəyərini əsaslandırılmış elmi əsaslar və mülahizələrlə təsdiq edir.

Alim-tədqiqatçı, yaxud Misir Səfərov tədqiqatlarının ana xətti

Bu xətt müəllifin Ə.Əbülhəsən yaradıcılığına bir tədqiqatçı alim olaraq münasibətində aydın görünür. Hər haldan öncə o səbəbdən ki, monoqrafiyaya daxil edilən 38 məqalədən 21-i ya sırf Ə.Əbülhəsən əsərlərinin tədqiqinə həsr olunub, yaxud başqa hər hansı formada isə Ə.Əbülhəsən yaradıcılığı ilə əlaqəlidir,

Əvvəldə dediyimiz kimi, məqalələr illər üzrə deyil, mövzular üzrə qruplaşdırılmış olsaydı, bu bölümü Ə.Əbülhəsənin 80 illik yubileyinə həsr edilmiş "Nəsrimizin ağsaqqalı" yazısı ilə başlamaq olardı. Müəllif bu məqaləsində oxucunu xalq yazıçısı Ə.Əbülhəsən (Ələkbərzadə Əbülhəsən Əlibaba oğlunun) yaradıcılıq yolu ilə tanış edir: yaradıcılığa hansı janrla gəlib, ilk qələm təcrübələrini hansı mətbuat orqanında dərc etdirib və s. Yazıçının hekayə, povest, roman yaradıcılığı, Azərbaycan ədəbiyyatında özünəmxsus "çəkisi" olan "Yoxuşlar" (1930, 1933, 1938 və 1962-ci illərdə nəşr edilib), "Dünya qopur" (1933) və "Dostluq qalası" (4 kitabdır. 1947-1967-ci illər civarında (20 il ərzində) qələmə alınıb) fundamental əsərləri haqqında qısa, lakin dolğun, mükəmməl məlumat verir. Oxucular həmin məqalənin köməyi ilə Ə.Əbülhəsənin əsərlərinin ilk dəfə hansı jurnalın səhifələrində və hansı nəşriyyatlarda kitab halında nəşr edildiyi, yazıçının həmin əsər üzərində neçə dəfə təkrar-təkrar işlədiyi barədə informasiya əldə etmək imkanı qazanır. Nabələd oxucuya bəlli olur ki

- Azərbaycan sovet romanının banisi Ə.Əbülhəsən olub;
- Azərbaycan tarixinin müəyyən dövrlərinin ədəbi-bədii əksi olan "Yoxuşlar" (1930, 1933, 1938 və 1962-ci illərdə nəşr edilib), "Dünya qopur" (1933) və "Dostluq qalası" (4 kitabdır. 1947-1967-ci illərdə qələmə alınıb);
- Yaradıcılığa şeirlə başlayıb;
- İlk şeirlərini Dağıstanda müəllim işlədiyi illərdə Azərbaycanda nəşr edilən "Maarif yolu" jurnalında dərc etdirib;

- İlk hekayələrini Bakıya qayıdandan sonra (1927-ci ildə) "Maarif və mədəniyyət" jurnalında çapa verib);

- 1942-cı illərdə qələmə aldığı "Yaralı", "Rəşid", "Qorxaq", "Görüş", "Oxu, bülbülüm, oxu", "Sahildə" və 1943-cü illərdə yazdığı "Oğullar və atalar", "Baş leytenant Şerban" və s. hekayə və povestləri öz dəyər yükündən əlavə bir də ona görə qiymətlidir ki, ilk variantı "Müharibə" adlanan "Dostluq qalası" kimi möhtəşəm epopeyanın qələmə alınmasına (1947-1967-ci illərdə yazıb) stimul olub. Epopeyanın ilk nəşri ("Müharibə") 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalında işıq üzü görüb.

***

"Nəsrimizin ağsaqqalı" məqaləsini və topluya daxil edilmiş digər 21 məqaləni oxuyub başa çatdırandan sonra bu qənaətdə qalırsan ki, M.Səfərov 65 illik mənalı ömrünün 43 ilini cəmi ikicə "işə" həsr edib: həyatının mənası olan müəllim peşəsinə və Azərbaycan romanının şah sütunlarının yaradıcılarından olan Ə.Əbülhəsən yaradıcılığının öyrənilməsinə və tədqiqinə. Diqqətli oxucu aydın sezir ki, Misir Səfərov Ə.Əbülhəsən yaradıcılığının sadəcə oxucusu olmayıb. O, Ə.Əbülhəsən əsərlərinin jurnal və kitab nəşrlərinin ilk variantından tutmuş sonuncu nəşrinə qədərki bütün nəşrlərindən əlavə, bu böyük yazıçının yaradıcılığı haqqında yazılmış əsərlərdən da məlumatlıdır. Məhz bu zənginlikdə material bolluğuna malikolmanın nəticəsində "Məqalələr" bölümünə daxil edilən 27 məqalədən 11-i *("Bədii əsərlərin təhlili haqqında", "Dostluq qalası" romanında sözün semantik xüsusiyyətləri", "Ə.Əbülhəsənin "Dostluq qalası" romanında terminlər", "Ə.Əbülhəsənin "Dostluq qalası" romanının tərkibi haqqında", "Ktematonimlər haqqında bəzi qeydlər", "Bədii əsər və xalq hikməti", "Bədii dildə hərbi terminlərin işlədilməsinə dair", "Ə.Əbülhəsənin bədii əsərlərinin adları", "Ədəbi dildə sinonimlərin üslubi rolu", "Termin və dil" və "Nəsr dilinin gözəl nümunələri")* Ə.Əbülhəsən yaradıcılığında adıçəkilən mövzuların sırf təhlilinə həsr olunubsa, "Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsində ədəbi əsərlərin dilinin öyrədilməsinin rolu", "Bədii əsərlərdə metaforalar", "Bədii əsərlərin dil və üslub cəhətdən təhlilinin şagirdlərin nitq inkişafı üçün əhəmiyətinə dair", "Bədii əsər adları haqqında" məqalələri isə, baxmayaraq ki, başqa qələm sahiblərinin yaradıcılığına müraciətlər fonunda qələmə qələmə alınıb, ancaq məqamı yetişən anda hökmən Ə.Əbülhəsən yaradıcılığına da müraciət edildiyini görürük.

Adı çəkilən bu əsərlər 1979-1988-ci illər civarında qələmə alınıb. Bütün bunlar hazırlıq idi. M.Səfərovun daha ağır "yükün" altına girə biləcəyinə özündə əminlik tapmaq üçün gedilən M.Səfərovu səfərbərlik yolu idi.

Bu yol isə ilk dəfə 1992-ci ildə akademik Afad Qurbanovun elmi redaktorluğu ilə işıq üzü görmüş "Ə.Əbülhəsən nəsrinin dili" adlı dörd məqalədən ibarət fundamental əsərində qərar tutub. Müəllif O-na

(M.Səfərova) qədər "Ə.Əbülhəsən nəsrinin dili" adlandırdığı I məqalədə XX əsr Azərbaycan ədəbiyyatında, eləcə də Ə.Əbülhəsənin "Dostluq qalası" epopeyasının dil və üslub xüsusiyyətlərinin tədqiqi yönümündə aparılan araşdırmalar haqqında zəngin məlumat verir. Bu məqsəd üçün Azərbaycan və rus dillərində nəşr edilmiş 51 kitab və qəzet məqaləsindən bəhrələnir Və son olaraq bu qənaətdədir ki, Azərbaycan filologiyasında fərdi bədii üslubların öyrənilməsi işinin az, ya çox dərəcədə bütün mərhələləri əhatə etməsinə baxmayaraq, Ə.Əbülhəsənin "Dostluq qalası" romanının dil və üslubu (hələ də - A.Ziyad) ayrıca araşdırma obyekti olmamışdır (səh.: 165). "Dostluq qalası" romanının bədii dil və sənətkarlıq xüsusiyyətlərinin ciddi elmi araşdırmalar üçün olduqca tutarlı bir bədii fikir qaynağı" (səh:165) olduğu, bu mövzunun bir çox müasir dil problemlərinin elmi izahı üçün zəngin material (səh:165) verəcəyi, digər tərəfdən Azərbaycan ədəbi dilinin "inkişaf yolunu öyrənmək baxımından da aktuallıq kəsb etdiyi" (səh:166) qənaətində israrlı olan müəllif, Ö-zünə qədər aparılmış bütün tədqiqat işləri haqqında zəngin məlumat vermiş, son olaraq tədqiqat predmetini *(Ə.Əbülhəsən "Dostluq qalası" romanının dili üzərində necə işləmişdir", "Dostluq qalası" romanının söz-lüğət tərkibi" və "Dostluq qalası" romanında bədii sözün məna incəlikləri" məqalələrini)* qələmə almışdır.

Son olaraq:

Təqdim edilən yazıların qələmə alındıqları tarixi göstəricilərdən də bəllidir ki, məqalələrin müəyyən qismi sovetlər zamanında qələmə alınıb. Bu səbəbdən də bir sıra yazılarda sovet ideoloji "maşınının ab-havası" özünü aşkar göstərməkdədir. Təəssüf ki, bu hal monoqrafiya nəşrə hazırlanan zaman (bəlkə təsadüfdən, bəlkə də məqsədli olaraq) müəllifin də, redaktorun da, rəyçilərin də diqqətindən kənarda qalıb. Belə ki, çox asanlıqla (hiss edilməyəcək dərəcədə cüz`i redaktə ilə) məqalələrin qələmə alındıqları zamanın asılılığından yaxa qurtarmaq mümkün idi.

Ancaq müəllif və redaktorlar tarixiliyi qorumağa üstünlük verdiklərindən məqalələri zamanında olduğu kimi nəşr etmişlər. (Yeganə olaraq bu hal istisna olmaqla) son olaraq əminliklə demək lazımdır ki, monoqrafiya müəllimlər, gənc tədqiqatçılar, hər hansı elmi əsər haqqında "söz demək" qənaətində olan qələm sahibləri üçün qiymətli yaradıcılıq nümunəsidir. Məqalələr yığcamlığı, dilinin lakonikliyi, rəvan, asan dərk edilməsi kimi məqamları ilə də diqqət çəkir. Elə Misir müəllimin özünün danışıq tərzindəki şirinliyi, sadəliyi və asan qəbul edilməsi kimi üstünlükləri ilə.

Rəyçi: Füzuli Əsgərli
filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜNDƏRİCAT

DİLÇİLİK

ÇİNGİZ QARAŞARLI
ERKƏN AVROPA TÜRKLƏRİNİN TARİXİ ƏFSANƏLƏRDƏ 3
GÜLBƏNİZ İSMAYILZADƏ
SİNONİMLİYİN ÜMUMNƏZƏRİ PROBLEMLƏRİ 10
AYTƏN BAYRAMOVA
CİNS KATEQORİYASININ LİNQVOKULTUROLOJİ
XÜSUSİYYƏTLƏRİ 16
AYBƏNİZ HÜSEYNOVA
MƏTNİN KOMPONENTLƏRİ ARASINDA MƏNA
ƏLAQƏLƏRİ VƏ ÜSULLARI 26
TƏRANƏ XƏLİLOVA
КОСМОНИМИКА-ОДИН ИЗ РАЗДЕЛОВ ОНОМАСТИКИ 33
SEVİNC SADIQOVA
HƏSƏN MİRZƏYEV QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN
TƏDQİQATÇISI KİMİ 38
MƏTANƏT ƏMRAHOVA
ABBASQULU AĞA BAKIXANOVUN İRSİNİN TƏDQİQ TARİXİ 46
SƏBİNƏ MURADOVA
XARİCİ DİL MÜƏLLİMİ OLMAĞIN BƏZİ XÜSUSİYYƏTLƏRİ 53
СИМА МАМЕДОВА
СИТУАЦИЯ КАК ПРИЕМ РАЗВИТИЯ
РУССКОЙ РЕЧИ СТУДЕНТОВ-АЗЕРБАЙДЖАНЦЕВ 59
ШАХЛА ВАХИДОВА
К ИЗУЧЕНИЮ ВОПРОСИТЕЛЬНЫХ КОНСТРУКЦИЙ
НА ЗАНЯТИЯХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО 66
NAİLƏ QASIMOVA
CREATIVE AND PERSUASIVE DOCUMENTS 73
NAİLƏ QULİYEVA
İNGİLİS DİLİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN TƏRKİB HİSSƏLƏRİ 78
RƏNA ŞAMİYEVA
SOME WAYS FOR IMPROVING VOCABULARY STOCK 84
SƏBİNƏ ZÜLFÜQAROVA
SPOKEN AND WRITTEN LANGUAGE 89
FƏRİDƏ HÜSEYNOVA
XARİCİ DİL TƏLİMİNİN MƏQSƏDLƏRİ VƏ
ONUN XARAKTERİK CƏHƏTLƏRİ 94
SEVDA ÇƏRKƏZOVA
İNGLİS DİLİNDƏ TƏKMƏNALI VƏ ÇOXMƏNALI PREFİKSLƏRİN
SÖZ YARATMADA ROLU 99

ÜLKƏR MƏHƏRRƏMOVA
XARİCİ DİL DƏRSLƏRİNDƏ PROYEKTLƏRİN
İŞLƏNMƏSİNİN ƏHƏMİYYƏTİ 104
KƏMALƏ MEHDİXANLI
CÜMLƏDƏ SÖZ SIRASININ POZULMASI İNVERSİYA
HADISƏSİNİN ƏSAS AMİLİ KİMİ 110
ŞÖVKƏT TAĞIYEVA
METAFORALARDA, EVFEMİZMLƏRDƏ SİYASİ-İQTİSADİ
DİSKURSUN SƏCİYYƏVI XÜSUSİYYƏTLƏRİ 115
YEGANƏ ABBASOVA
AZƏRBAYCAN DİLİNDƏ "SÖZ SIRASI" VƏ "CÜMLƏ
ÜZVLƏRİNİN SIRASI" TERMİNLƏRİNİN İŞLƏDİLMƏSİNƏ
MÜNASİBƏT 120
AYNUR MƏMMƏDOVA
MÜASİR İNGİLİS DİLİNDƏ HƏMCİNS ZƏRFLİK BUDAQ
CÜMLƏLƏRİ VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ 125
ŞƏHLA İSMAYILOVA
LİNQVSTİK ƏDƏBİYYATDA AD+FEİL TİPLİ BİRLƏŞMƏLƏR 130
AYSEL XANALIYEVA
AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ SINONİMLƏRİN
FRAZEOLOJİ VARİANTLARDAN FƏRQLƏNDİRİLMƏSİ
MEYARLARI 137
AYNUR YUNSUROVA
FRAZEOLOGİZMLƏRİN DİLDƏ ROLU 144
SEVDA ŞIXIYEVA
TƏRCÜMƏDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN
İDENTİFİKASİYASI 149
ФИРУЗА КЕРИМОВА
ТИПЫ СЛОЖНЫХ СЛОВ В СОВРЕМЕННОМ
АНГЛИЙСКОМ ЯЗЫКЕ 154
ГЮЛЬБЕНИЗ ДЖАФАРОВА
СВЯЗЬ ДЕМОТИВАЦИИ И ОПРОЩЕНИЯ В СОВРЕМЕННОМ
РУССКОМ ЯЗЫКЕ 160
СЕВИНДЖ ФАТАЛИЕВА
ТЕОРЕТИЧЕСКИЕ ПРИНЦИПЫ
ЛИНГВО-СОПОСТАВИТЕЛЬНОГО
ИЗУЧЕНИЯ ПАМЯТНИКОВ ЛИТЕРАТУРЫ 165
ЭЛЬВИРА ГЕЙДАРОВА
РУССКИЙ СВАДЕБНЫЙ ОБРЯД
(на материале русского островного говора Азербайджана) 174
RAHİMA MAMMADOVA
ASSESSMENT TYPES AND TESTS 182
İLAHƏ SEYFULLAYEVA
ƏRƏB MƏNŞƏLİ SÖZLƏRİN AZƏRBAYCAN DİLİNDƏ SEMANTİK
DƏYİŞİKLİKLƏRİ..... 187

GÜLNARƏ AĞAYEVA
İSPAN DİLİNDƏKİ FRAZEOLOJİ VAHİDLƏR VƏ MƏCAZİLİYİN TƏRCÜMƏSİ YOLLARI 193
MAARİFƏ MANAFOVA
«TİBBNAMƏ» ORTAÇAĞ ELMİ VƏ NƏSR ÜSLUBUNUN MÜKƏMMƏL NÜMUNƏSİ KİMİ 201
RANƏ BABAYEVA
HOW TO MAKE AN EFFECTIVE PRESENTATION 208
NAİLƏ YUSİFOVA
MÜASİR AZƏRBAYCAN DİLİNDƏ ALINMA SÖZLƏRİN MƏNİMSƏNİLMƏ PRİNSİPLƏRİ 213
AYGÜN MAHMUDOVA
KOQNİTİV DİLÇİLİYİN ELMİ-NƏZƏRİ ƏSASLARI 219
ZİVƏR HÜSEYNLİ BAYLAN
TÜRKCƏDƏN FARSCAYA KEÇMİŞ ƏŞYA ADLARI (SƏFƏVİLƏR DÖVRÜ) 228
HƏSƏN ƏLİYEV
İNSANLARIN TANRI TƏSƏVVÜRLƏRİ 238
SEVDA İMANOVA
ФРАЗЕОЛОГИЯ 250
FIRANGİZ EYVAZOVA
THEORETICAL FOUNDATIONS OF TEACHING SPEAKING 255
FATMA ƏMİROVA
“AUF” VƏ “ÜBER” ÖNLÜKLƏRİNDƏN SONRA TƏSİRLİK HAL TƏLƏB EDƏN FEİLLƏR 261
İLHAM ƏLİYEV
MÜXTƏLIFSISTEMLI DILLƏRDƏ SAY TƏRKIBLI SABIT SÖZ BIRLƏŞMƏLƏRI 266
TEYBE DJALILOVA
SUR LA DIVERSITE DES SIGNIFICATIONS MODALES DANS LE FRANÇAIS 273
TOFİQ QULİYEV
MÜASİR İNGİLİS DİLİNİN AFROAMERİKAN VARİANTI VƏ ONUN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ 281
MƏTANƏT İBRAHIMOVA
İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNİN TƏRCÜMƏ ÜSULLARI 286

ƏDƏBİYYATŞÜNASLIQ

TOFİQ ƏBDÜLHƏSƏNLİ
GÜNEY AZƏRBAYCAN MÖVZUSU MÜASİR POEZİYAMIZDA 292
HACI SİRACƏDDİN
NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ İNSANIN DÜŞMƏNİ CƏHALƏTDİR (“SİRLƏR XƏZİNƏSİ” MƏSNƏVİSİNDƏ OLAN “QƏFLƏTİN MƏZƏMMƏTİ HAQQINDA” ADLI MƏQALƏNİN ŞƏRHİ) 300

SAKİBƏ ƏLƏSGƏROVA
MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR XƏLQİ ŞAİRDİR 310
SƏBUHİ İBRAHİMOV
ƏLYAZMA MƏTNLƏRDƏ SEYİD ƏHMƏD HATİF ORDUBADİ
YARADICILIĞI 317
MEHRİBAN MÖVLAMOVA
ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA "MƏLƏK" OBRAZININ
DİAXRONİK TRANSFORMASİYASI 322
ŞƏHRİZAD NUHOVA
S.AZƏRİ VƏ V.BABANLI SƏNƏDLİ-BƏDİİ NƏSRİNDƏ SOVET
GERÇƏKLİYİNİN TƏSVİRI PROBLEMLƏRİ 328
NİGAR ŞAŞQAYEVA
C.M.KUTZEE YARADICILIĞINDA AZAD İNSAN
İDEALININ BƏDİİ ƏKSİ
C.M.Kutzeenin "Rüsvayçılıq" romanı əsasında *335*
İRADƏ YUSİFOVA
MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOVUN "İNSANIN TALEYİ" ƏSƏRİ
AZƏRBAYCAN DİLİNDƏ..... *342*
AFƏT İSRAFİLOVA
NİZAMİ GƏNCƏVİNİN AZƏRBAYCAN
ƏDƏBİYYATINDA ROLU 348
NƏCƏF RÜSTƏMOV
TAHSİN NAHİTİN HƏYATI VƏ ƏDƏBİ FƏALİYYƏTİ 359
НАРМИН ГАСАНОВА
ОЛИВИЯ ШРЕЙНЕР – ЖЕНЩИНА, ПИСАТЕЛЬ, ГРАЖДАНИН 366
FƏXRƏDDİN EYLAZOV
"GÜLŞƏNİ-RAZ" ƏSƏRİNİN AZƏRBAYCAN TÜRKCƏSİNƏ İLK
TƏRCÜMƏSİ VƏ ONUN MÜTƏRCİMİ HAQQINDA 374
ELMAN NOVRUZOV
XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİ HAQQINDA 381
SƏADƏT BAYRAMOVA
ƏZİZƏ CƏFƏRZADƏNİN HEKAYƏLƏRİNDƏ NAĞIL, ƏFSANƏ VƏ
RƏVAYƏT MÖVZUSUNA MÜRACİƏTİN
FORMA VƏ ÜSULLARI 388
ÜLVİ MİKAYILOV
ƏHMƏD CƏFƏROĞLU VƏ ONUN AZƏRBAYCANŞÜNASLIĞA DAİR
TƏDQİQATLARINA BİR NƏZƏR 394
RƏQSANƏ ŞIXCANOVA
MƏHƏMMƏD FÜZULİNİN AŞIQ OBRAZINDA ƏNƏNƏ
VƏ NOVATORLUQ 403
ÜLVİ BABAYEV
TÜRK VƏ AZƏRBAYCAN POSTMODERNİST
NƏSRİNDƏ SOSİAL FUNKSİYA 410
TÖRƏ MƏMMƏDOVA
MİDDL-ƏDƏBIYYAT VƏ Ə.ƏKBƏRİN "AMNEZİYA" ROMANI 419

GÜLŞƏN AĞABƏY
DÖVRÜN GERÇƏKLIKLƏRI BABA
PÜNHANIN SATIRA GÜZGÜSÜNDƏ 427
KÜBRA QULİYEVA
NİZAMİ GƏNCƏVİNİN "İSKƏNDƏRNAMƏ" ƏSƏRİNDƏ
ŞƏRQ-QƏRB PRİZMASINDA İDEAL HAKİM SURƏTİ 433
ELFANƏ QASIMOVA
GÜLÇÖHRƏ SALEHZADƏ
MƏŞHUR DIZAYNERLƏRIN FOLKLOR ÜSLUBUNA MÜRACIƏTI 441

RƏY

AYƏTXAN ZİYAD (İSGƏNDƏROV)
MİSİR SƏFƏROV: əsərlərində sənətkarlıq xüsusiyyətləri 447

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Bagirova

Çapa imzalanmış **31.05.2017.**
Şərti çap vərəqi **57,** Sifariş **№ 06.**
Kağız formatı **60x84 1/16.** Tiraj **300.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.